# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*onuncu kitab*

*may, 1997 - iyul, 1997*

*çıxışlar • nitqlər*
*bəyanatlar • müsahibələr*
*məktublar • məruzələr*
*müraciətlər • fərmanlar*

**AZƏRNƏŞR**

**BAKI-2002**

**BBK 66.3(5Aze)8**
**Ə – 65**

Buraxılışına məsul
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2002, 472 səh.

Bu cilddə zəmanəmizin görkəmli siyasi xadimi və nüfuzlu liderlərindən biri, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1997-ci il mayın sonundan iyulun sonunadək çıxış, nitq, bəyanat, məktub və müsahibələri nəşr edilir.

Kitabda Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, dövlətçilik ənənələrinin inkişafı, dünya dövlətləri, o cümlədən Rusiya Federasiyası, Türkiyə, Qazaxıstan, Özbəkistanla siyasi-iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, xarici ölkələrdəki Azərbaycan diasporunun mövqelərinin gücləndirilməsi və mütəşəkkilliyinin artırılması, respublikamızda iqtisadi islahatların həyata keçirilməsi və digər sahələrdə Azərbaycan Prezidentinin yorulmaz və məqsədyönlü fəaliyyəti parlaq əks olunur.

**BBK – 66.3(5Aze)8**

Ə **0801000000 / M – 651(07) – 2002**

**© Azərnəşr, 2002**

## KİTABIN İÇİNDƏKİLƏR


**AZƏRBAYCANIN MİLLİ BAYRAMI – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
*27 may 1997-ci il*.................................................................................................... **7**

**RUSİYANIN "NTV" TELEKANALI PROQRAMLARININ AZƏRBAYCANDA YAYIMLANMASININ RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
*29 may 1997-ci il*.................................................................................................... **16**

**XALQ ARTİSTİ SARA XANIM QƏDİMOVAYA**
*31 may 1997-ci il*.................................................................................................... **18**

**UŞAQLARI BEYNƏLXALQ MÜDAFİƏ GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN BAYRAM ŞƏNLİYİNDƏ ÇIXIŞ**
*1 iyun 1997-ci il*.................................................................................................... **19**

**"XƏZƏRNEFTQAZ-97" DÖRDÜNCÜ BEYNƏLXALQ SƏRGİSİNİN VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ GİRİŞ VƏ YEKUN NİTQİ**
*3 iyun 1997-ci il*.................................................................................................... **20**

**GÖRKƏMLİ MÜĞƏNNİ VƏ MUSİQİÇİ İOSİF KOBZONUN BAKIDA "VİDA QASTROLU" ZAMANI ONUNLA SÖHBƏTDƏN**
*5 iyun 1997-ci il*.................................................................................................... **24**

**BÖYÜK AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU SƏMƏD VURĞUNUN "FƏRHAD VƏ ŞİRİN" PYESİNİN YENİ QURULUŞDA TAMAŞASINA BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*7 iyun 1997-ci il*.................................................................................................... **26**

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ YELTSİN CƏNABLARINA**
*8 iyun 1997-ci il*.................................................................................................... **28**

**QAZAXISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*10 iyun 1997-ci il*.................................................................................................... **29**

**ALMATI HAVA LİMANINDA QAZAXISTAN TELEVİZİYASI MÜXBİRLƏRİNİN SUALLARINA CAVAB**
*10 iyun 1997-ci il*.................................................................................................... **30**

**AZƏRBAYCAN–QAZAXISTAN DÖVLƏTLƏRARASI VƏ HÖKUMƏTLƏRARASI SƏNƏDLƏR İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*10 iyun 1997-ci il*.................................................................................................... **31**

**QAZAXISTAN PREZİDENTİNİN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA HEYDƏR ƏLİYEVİN NİTQİ**
*10 iyun 1997-ci il*.................................................................................................... **35**

**QAZAXISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ ZAMANI QAZAXISTAN PARLAMENTİNİN HƏR İKİ PALATASININ – SENATIN VƏ MƏCLİSİN DEPUTATLARI QARŞISINDA ÇIXIŞ**
*11 iyun 1997-ci il*.................................................................................................... **38**

AZƏRBAYCAN PREZİDENTİNƏ ƏL-FƏRABİ ADINA QAZAX MİLLİ DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
*11 iyun 1997-ci il*........................................................................................................ 47

QAZAXISTANDA YAŞAYAN AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*11 iyun 1997-ci il*........................................................................................................ 53

QAZAXISTAN İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*11 iyun 1997-ci il*........................................................................................................ 58

RUSİYA FEDERASİYASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN MİLLİ BAYRAM — RUSİYANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*12 iyun 1997-ci il*........................................................................................................ 61

BAKIDA SƏFƏRDƏ OLAN MOSKVA MERİ YURİ LUJKOVLA TƏKBƏTƏK GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCAN VƏ MOSKVA NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA APARILAN DANIŞIQLARDA ÇIXIŞ
*13 iyun 1997-ci il*........................................................................................................ 64

1992-ci İLİN FEVRAL-MAY HADİSƏLƏRİ İLƏ BAĞLI BİR QRUP QAÇQIN VƏ TELEJURNALİST İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*16 iyun 1997-ci il*........................................................................................................ 65
YEKUN SÖZÜ
*16 iyun 1997-ci il*........................................................................................................ 66

XALQ ARTİSTİ CÖVDƏT HACIYEVƏ
*17 iyun 1997-ci il*........................................................................................................ 69

XALQ ARTİSTİ FİDAN QASIMOVAYA
*17 iyun 1997-ci il*........................................................................................................ 70

ÖZBƏKİSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*18 iyun 1997-ci il*........................................................................................................ 71

AZƏRBAYCAN-ÖZBƏKİSTAN DÖVLƏTLƏRARASI VƏ HÖKUMƏTLƏRARASI SƏNƏDLƏR İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*18 iyun 1997-ci il*........................................................................................................ 73

ÖZBƏKİSTAN PREZİDENTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*18 iyun 1997-ci il*........................................................................................................ 80

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ DAŞKƏND UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
*19 iyun 1997-ci il*........................................................................................................ 84

ÖZBƏKİSTANDA AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*19 iyun 1997-ci il*........................................................................................................ 90

DAŞKƏNDDƏ AZƏRBAYCAN SƏFİRLİYİ BİNASINDA SOYDAŞLARIMIZLA –

ÖZBƏKİSTANDAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*19 iyun 1997-ci il*........................................................................................................ 92

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ MİLLİ BAYRAMI – ÜLYAHƏZRƏT KRALİÇA II YELİZAVETANIN DOĞUM GÜNÜ MÜNASİBƏTİLƏ İNGİLTƏRƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ
*26 iyun 1997-ci il*........................................................................................................ 95

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ TSZYAN TSZEMİN CƏNABLARINA
*30 iyun 1997-ci il*........................................................................................................ 96

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ UİLYAM C. KLİNTON CƏNABLARINA
*1 iyul 1997-ci il*........................................................................................................ 97

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ MƏSUD YILMAZ CƏNABLARINA
*1 iyul 1997-ci il*........................................................................................................ 98

RUSİYA FEDERASİYASININ PREZİDENTİ BORİS YELTSİNİN DƏVƏTİ İLƏ MOSKVAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*2 iyul 1997-ci il*........................................................................................................ 99

RUSİYA VƏ AZƏRBAYCAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ
*3 iyul 1997-ci il*........................................................................................................ 101

RUSİYA-AZƏRBAYCAN İKİTƏRƏFLİ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*3 iyul 1997-ci il*........................................................................................................ 102

RUSİYA FEDERASİYA ŞURASININ SƏDRİ YEQOR STROYEVLƏ GÖRÜŞDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*3 iyul 1997-ci il*........................................................................................................ 104

RUSİYANIN MALİYYƏ VƏ İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*3 iyul 1997-ci il*........................................................................................................ 105

RUSİYA HÖKUMƏTİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ BORİS NEMTSOVLA GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVABLAR
*3 iyul 1997-ci il*........................................................................................................ 107

RUSİYA ELMLƏR AKADEMİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*3 iyul 1997-ci il*........................................................................................................ 109

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ
*3 iyul 1997-ci il*........................................................................................................ 115

RUSİYA FEDERASİYASININ BAŞ PROKURORU YURİ SKURATOV İLƏ GÖRÜŞDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*4 iyul 1997-ci il*........................................................................................................ 117

"EXO MOSKVI" RADİOSTANSİYASINA BİRBAŞA EFİRDƏ MÜSAHİBƏ
*4 iyul 1997-ci il*........................................................................................................ 119

**"RİA-NOVOSTİ" AGENTLİYİNİN TƏŞKİL ETDİYİ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*4 iyul 1997-ci il*............................................................................................................ **125**

**RESPUBLİKANIN MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARI ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNÜN TƏSİS EDİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
*5 iyul 1997-ci il*............................................................................................................ **135**

**NATO-nun ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ MADRİD SAMMİTİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*8 iyul 1997-ci il*............................................................................................................ **148**

**AVROPA-ATLANTİKA ƏMƏKDAŞLIQ ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ İCLASINDA NİTQ**
*9 iyul 1997-ci il*............................................................................................................ **149**

**AZƏRBAYCAN NEFTİNİN BAKI-QROZNI-TİXORETSK-NOVOROSSİYSK KƏMƏRİ İLƏ NƏQL OLUNMASI HAQQINDA AZƏRBAYCAN-RUSİYA-İÇKERİYA ÇEÇEN RESPUBLİKASI ARASINDA SAZİŞ İMZALANDIQDAN SONRA RUSİYA FEDERASİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDƏRKƏN ÇIXIŞ**
*11 iyul 1997-ci il*.......................................................................................................... **150**

**FRANSANIN MİLLİ BAYRAMI – BASTİLİYANIN ALINMASI GÜNÜ MÜNASİBƏTİLƏ FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*14 iyul 1997-ci il*.......................................................................................................... **151**

**AZƏRBAYCANDA 1997-ci İLİN BİRİNCİ YARISINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN YEKUNLARI, AQRAR İSLAHATI VƏ ÖZƏLLƏŞDİRMƏNİN GEDİŞİ, TƏBİİ FƏLAKƏTİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
*19 iyul 1997-ci il*.......................................................................................................... **153**
**YEKUN NİTQİ**
*19 iyul 1997-ci il*.......................................................................................................... **153**

**22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK**
*21 iyul 1997-ci il*.......................................................................................................... **165**

**İSLAM DİNİNİN BANİSİ HƏZRƏTİ MƏHƏMMƏD ƏLEYHİSSƏLAMIN MÜQƏDDƏS MÖVLUD GÜNÜNDƏ BAKININ ŞIX KƏNDİNDƏ BİBİHEYBƏT MƏSCİDİNİN BƏRPASINA BAŞLANMASI MƏRASİMİNDƏ ÇIXIŞ**
*23 iyul 1997-ci il*.......................................................................................................... **166**

**YUNİSEF-in AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİNİN TƏŞƏBBÜSÜ İLƏ BAKIDA YARADILMIŞ "AZƏRBAYCAN BEYNƏLXALQ GƏNCLƏR POÇT XİDMƏTİ" VƏ "UŞAQLARA KÖMƏK XƏTTİ" XİDMƏTLƏRİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
*23 iyul 1997-ci il*.......................................................................................................... **169**

## AZƏRBAYCANIN MİLLİ BAYRAMI – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Respublika sarayı*

*27 may 1997-ci il*

Əziz həmvətənlər, bacılar, qardaşlar! Hörmətli xanımlar və cənablar!

Azərbaycanın müstəqilliyi – Respublika günü münasibətilə sizi, bütün Azərbaycan xalqını, vətəndaşlarını ürəkdən təbrik edirəm! Ölkəmizə sülh, əmin-amanlıq, xoşbəxt həyat arzulayıram!

79 il bundan əvvəl – 1918-ci il mayın 28-də Azərbaycan Respublikasının müstəqilliyi, Azərbaycan Demokratik Respublikasının yaranması elan edilibdir. Sonrakı zaman Azərbaycanda ilk demokratik respublikanın təşkil edilməsi və onun əməli fəaliyyəti dövrü olubdur.

Azərbaycanda ilk demokratik respublikanın yaranması xalqımızın milli azadlığa, müstəqilliyə və demokratiyaya olan istək və arzularının, göstərdiyi cəhdlərin ifadəsi olmuşdur. Bu, xalqımızın tarixində əlamətdar bir hadisədir və tarixi əhəmiyyət kəsb edir.

Azərbaycan Demokratik Respublikasının yarandığı dövr bizim ölkəmiz və o zaman bölgədəki mövcud vəziyyət üçün çox mürəkkəb olmuşdur. 1917-ci ildə Rusiyada Fevral və Oktyabr inqilablarından sonra çar Rusiyası hakimiyyətinin dağılması və [5-6]onun ərazisindəki bölgələrdə gedən vuruşmalar, döyüşlər, cürbəcür proseslər Zaqafqaziya bölgəsi üçün də xarakterik olmuşdur. Həm Azərbaycanda, həm də Zaqafqaziyanın digər hissələrində – Gürcüstanda, Ermənistanda mütərəqqi insanlar müstəqillik, milli azadlıq uğrunda addımlar atmışlar, fəaliyyət göstərmişlər. O zaman hətta Zaqafqaziya ölkələrinin birlikdə dövlət müstəqilliyini elan etmək təşəbbüsləri də mövcud olmuşdur. Bütün bu proseslərin nəticəsində nəhayət, 1918-ci il mayın 28-də xalqımızın qabaqcıl insanları, Azərbaycanın gələcəyi haqqında düşünənlər Azərbaycan Demokratik Respublikasının yaranması haqqında Tbilisidə qərar qəbul etmiş, bunu bəyan etmişlər. Sonra Azərbaycan Demokratik Respublikasının fəaliyyəti Gəncədə olmuşdur. Çünki Bakıda yaranmış çox gərgin vəziyyət, Azərbaycan xalqına zidd olan cürbəcür qüvvələrin buradakı fəaliyyəti hökumətin Bakıda fəaliyyət göstərməsinə imkan verməmişdir. Nəhayət, 1918-ci ilin sentyabrında Azərbaycan Demokratik Respublikasının hökuməti Bakıya gələ bilmiş və burada öz fəaliyyətini davam etdirmişdir.

Bu respublikanın yaranması və az müddətdə də olsa yaşaması Azərbaycan xalqının dövlətçiliyinin bərpasında, Azərbaycanın dövlət müstəqilliyi əldə etmək yolunda, demokratik quruluş yaratmaq istiqamətində tarixi rol oynamışdır. Azərbaycan Demokratik Respublikası bir çox dəyərli işlər görmüş və Azərbaycanı bir müstəqil demokratik respublika kimi yaşatmağa çalışmışdır. Ancaq Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Bir tərəfdən, Rusiyada bolşevik hakimiyyəti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək Azərbaycana yönəlmişdi, respublikamızın daxilində o cəhdləri dəstəkləyən qüvvələr onlarla birləşmişdi. Onlarla yanaşı olaraq, Azərbaycan Demokratik Respublikasının hökumətində və onun yaratdığı par[6-7]lamentdə də daxili ziddiyyətlər, çəkişmələr bu demokratik respublikanın ləğv olmasına gətirib çıxarmışdır.

Azərbaycan Demokratik Respublikası 23 ay yaşamışdır. Bu müddətdə 5 dəfə hökumət qurulmuşdur. Yaranmış hər bir hökumət daxili ziddiyyətlər, çəkişmələr nəticəsində və şübhəsiz ki, xarici qüvvələrin təsiri altında istefa verməyə məcbur olmuş, yenidən yaranan hökumət yenə də istefa vermiş və beləliklə də bu ağır şəraitdə demokratik respublikanın dövlət, hökumət orqanları istənilən fəaliyyəti göstərə bilməmişlər. Ancaq onlar öz üzərlərinə düşən tarixi missiyanı yerinə yetirmişlər və Azərbaycan xalqının tarixinə parlaq bir səhifə yazmışlar.

1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə Azərbaycan Demokratik Respublikasının hökuməti öz səlahiyyətlərini bolşeviklərə təhvil verməli olmuşdur. Beləliklə də, Azərbaycan Demokratik Respublikasının fəaliyyətinə xitam verilmişdir.

Biz ilk Azərbaycan Demokratik Respublikasının yaranması gününü əziz tutaraq onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika günü elan etmişik və bu, bizim milli bayramımızdır. Bu gün – bu bayram günü biz Azərbaycanda ilk demokratik respublikanın qurulmasında, yaranmasında göstərdiyi xidmətlərə görə Məmmədəmin Rəsulzadəyə, Əlimərdan bəy Topçubaşova, Fətəlixan Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır.

Bu günlər – bu bayram günləri Azərbaycanın Türkiyədə, Fransada, Gürcüstanda olan səfirlikləri bizim göstərişimizlə Məmmədəmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəlixan Xoyskinin qəbirlərini ziyarət edirlər və onların xatirəsinə Azərbaycan xalqının, dövlətinin hörmət və ehtiramını ifadə edirlər. [7-8]

1920-ci ildə Azərbaycan Demokratik Respublikası öz fəaliyyətinə xitam verdikdən sonra Azərbaycanda ikinci respublika – Azərbaycan Sovet Sosialist Respublikası yaranmışdır. Bu respublika təxminən iki il fəaliyyət göstərmiş və bu dövrdə çox işlər görmüşdür. Biz bunu da unutmamalıyıq. Bu respublika ilk Azərbaycan Demokratik Respublikasının bir çox ənənələrini, işlərini davam etdirmişdir. O vaxt Azərbaycan Respublikası sosialist bolşevik. ideologiyası altında olaraq, eyni zamanda müstəqil olmuşdur. Onun müstəqil xarici siyasəti olmuşdur və o, Azərbaycanda dövlət quruculuğu sahəsində bir çox işlər görmüşdür. 1921-ci ildə Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmişdir. Onun özünün parlamenti, dövlət orqanları olmuşdur. Ancaq 1922-ci ilin dekabrında Sovet Sosialist Respublikaları ittifaqı yaranarkən Azərbaycan Respublikası bu ittifaqa daxil olmuş və demək olar ki, bu ittifaqın yaranmasında iştirak etmişdir.

Azərbaycan xalqı 70 il sovet sosialist sistemi şəraitində yaşamışdır. Bu, XX əsrdə bizim xalqımızın həyatının böyük bir hissəsidir. Biz o vaxt dövlət müstəqilliyindən məhrum olmuşuq, ancaq respublika kimi bir çox müstəqil işlər görmək imkanına malik olmuşuq. Ona görə də bu dövrü lazımınca qiymətləndirmək zəruridir. Çünki bu dövrdə bizim xalqımız yaşamış, yaratmış, qurmuş və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən dövlət müstəqilliyini elan edərkən Azərbaycan Respublikası artıq böyük bir ölkə idi.

Bu dövrün Azərbaycan xalqı üçün böyük itkiləri də, ziyanları da olmuş, xalqımız əzab-əziyyətlər də çəkmişdir. Ancaq eyni zamanda bu dövrdə xalqımızın böyük nailiyyətləri də olmuşdur. Biz nə onları, nə də o birilərini unutmamalıyıq. 20-30-cu illərdə kommunist, bolşevik hakimiyyətinin qurulması, möhkəmlənməsi ilə əlaqədar yüzlərlə, minlərlə, on minlərlə insan ədalətsiz olaraq repressiyalara uğramış, yerindən-yurdundan uzaq ellərə – Orta Asiyaya, Qazaxıstana sürgün edil[8-9]miş, öz mülklərindən, varlarından məhrum olmuş, çox əzab-əziyyətlərə məruz qalmışlar.

1937-1938-ci illərin repressiyaları Azərbaycan xalqına, onun mədəniyyətinə, mənəviyyatına böyük zərbələr vurmuşdur. Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-1948-ci illərdə Azərbaycan xalqına qarşı sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüflər olsun ki, bizim tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusən dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik.

1947-ci ilin sonunda Moskvada sovet hökuməti azərbaycanlıların əsrlər boyu yaşadığı doğma yerlərindən, o vaxtkı Ermənistan ərazisindən kütləvi surətdə deportasiya edilməsi haqqında qərar qəbul etmişdir. Sonrakı illərdə – 1948, 1949, 1950-ci illərdə bu deportasiya tədbiri həyata keçirilmişdir. Biz, nəinki biz, bütün dünyada sovet hakimiyyətinin tarixi haqqında danışarkən İkinci dünya müharibəsindən sonra Krımdan Krım tatarlarının deportasiyasından, Şimali Qafqazdan çeçenlərin, inquşların, qaraçayların, çərkəzlərin, balkarların, Gürcüstandan Axıska türklərinin deportasiya edilməsindən, bu haqsızlıqlardan geniş bəhs edirik, buna geniş qiymət veririk və bunlar mətbuatda, tarixi sənədlərdə öz əksini tapmışdır. Ancaq biz çeçenlərin, inquşların, qaraçayların deportasiyası barədə qəbul edilmiş qərar kimi qərarla – Sovet İttifaqı hökumətinin qərarı ilə azərbaycanlıların öz yerindən-yurdundan deportasiya olunmasını nədənsə adi bir hadisə kimi qəbul etmişik. Halbuki hamımız yaxşı bilirik ki, o vaxt bizim soydaşlarımız – azərbaycanlılar o yerlərdən, öz doğma vətənlərindən, yurdlarından zorla çıxarılarkən, deportasiya edilərkən nə qədər itkilər verdilər, çətinliklərə məruz qaldılar, nə qədər insanlar tələf oldular.

O vaxt yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistanın çox gözəl iqlimə – [9-10] yəni bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub – malik olan yaşayış yerlərindən insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Nə qədər əzab-əziyyət, çətinliklər çəkdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir.

Sovet hakimiyyəti dövründə, ümumiyyətlə, Sovetlər İttifaqının bütün ərazisində – bir yerdə az, bir yerdə çox – bütün xalqlara qarşı repressiya olmuşdur. Ancaq mən bu gün bunu xüsusi qeyd etmək istəyirəm ki, 1937-1938-ci illərdə Azərbaycan xalqına qarşı edilən repressiya başqa respublikalardakı repressiyalardan daha da ağır, çox itkili olmuşdur. Bu, həqiqətdir.

Amma Azərbaycan xalqı 1948-1949-cu illərdə və sonrakı illərdə yenidən deportasiyaya məruz qalmış, demək, yenidən repressiya altında olmuşdur. Bu, bizim xalqımıza qarşı edilən ədalətsizlikdir.

Bu yaxın günlərdə mən xüsusi sərəncam, yaxud fərman imzalayacağam ki, o dövrlə əlaqədar məsələlər – Azərbaycana, xalqımıza qarşı edilmiş bu ədalətsizliklə əlaqələr məsələlər – araşdırılsın və tariximizdə bu dövr də öz yerini tutsun.

Beləliklə, o vaxt Ermənistandan azərbaycanlıların çıxarılması, etnik təmizləmə baş veribdir. Onları öz yerlərindən, yurdlarından, doğma torpaqlarından o vaxt didərgin salıblar. Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə

Ermənistan Azərbaycana artıq açıq təcavüz edibdir. O dövrdə Er[10-11]mənistan ərazisində qalmış azərbaycanlılar qısa bir müddətdə Ermənistandan zorla çıxarıldılar.

Ermənistan deyəndə, o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyar olubdur. Onları öz dədə-baba yurdlarından tədricən çıxarıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır.

Bəli, həmin bu 70 il müddətində bizim xalqımızın böyük itkiləri olubdur. Biz bunları bilməliyik, gələcək nəsillər də bunları bilməlidirlər. Bilməliyik və gələcək nəsillər də bilməlidirlər ki, Azərbaycana qarşı bir daha belə xəyanətlərin, tədbirlərin, belə təcavüzlərin qarşısı alına bilsin.

Amma bu 70 il müddətində Azərbaycan xalqı bununla yanaşı böyük inkişaf yolu keçibdir. Azərbaycan xalqı maariflənibdir, savadlanıbdır. Bu, böyük bir inqilabdır ki, əsrlər boyu xalqımızın əksəriyyəti savadsız olduğu halda, xalqımız qısa bir müddətdə savadlanıbdır. Geniş məktəblər şəbəkəsi, ali təhsil ocaqları yaranıbdır. Azərbaycanın elmi, mədəniyyəti çox sürətlə inkişaf edibdir. Azərbaycanda bir çox sosial məsələlər yüksək səviyyədə həll olunubdur və xalqımızın inkişafını təmin etməyə yönəldilibdir.

Bu dövrün ən böyük nailiyyətlərindən biri Azərbaycan qanının azad olmasıdır, emansipasiyasıdır. Bunu unutmaq lazım deyildir. Şərq aləmində ilk dəfə 20-ci illərin əvvəllərində Azərbaycan qadınının azad olması və kişilərlə bərabər hüquqlara malik olması elan edilibdir. Azərbaycan qadınının çadradan xilas olması xalqımızın həyatında tarixi bir hadisə olmuşdur. Bunu da unutmaq lazım deyil. Ona görə də Bakının gözəl guşələrindən birində yüksələn, azad Azərbaycan qadınına həsr olunmuş abidə – mərhum heykəltəraş Fuad Əbdürrəhmanovun əsəri bizim üçün bir heykəl kimi yox, tarixi nailiyyətimizi əks etdirən bir amil kimi yaşayır və yaşayacaqdır. [11-12]

Azərbaycanın iqtisadiyyatı inkişaf edib, ölkədə böyük iqtisadi potensial – sənaye, kənd təsərrüfatı, infrastruktur yaranıbdır.

Bütün bunlar nəhayət, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi üçün yaxşı əsas yaradıbdır. Xatırlayın, o vaxtlar – Sovetlər İttifaqında dağılma prosesi gedən zaman alimlər, mütəxəssislər tərəfindən dəfələrlə bəyanatlar verilirdi ki, əgər Sovetlər İttifaqı dağılarsa, 15 respublikadan ikisi – biri Rusiya, ikincisi isə Azərbaycan iqtisadi nöqteyi-nəzərdən müstəqil yaşamağa qadirdir. Bu, məhz ona görə idi ki, o illərdə Azərbaycanda çox güclü iqtisadi potensial yaranmışdı, Azərbaycanın xüsusən sənayesi və neft sənayesi inkişaf etmişdi. 1949-cu ildə Azərbaycanın neftçiləri, alimləri Xəzər dənizində ilk dəfə Neft Daşları kimi böyük bir neft yatağını açaraq dənizin dibindən neft çıxarılmasının əsasını qoymuşlar. Görülən bu işlər, o axtarışlar, kəşflər olmasaydı indi Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarından belə geniş surətdə, dünyanın böyük neft şirkətləri ilə müştərək iş aparmağa da imkanımız olmazdı.

Əgər o illərdə yaranmış maddi-texniki baza olmasaydı, biz indi apardığımız işləri və xüsusən "Əsrin müqaviləsi" ilə əlaqədar aparılan işləri görə bilməzdik. Əgər o illərdə biz dənizin dərinliklərindən neft çıxarmaq üçün böyük platformalar zavodunu yaratmasaydıq, indi onu yaratmaq çox çətin olardı və çox böyük də xərclər tələb edərdi. İndi "Çıraq" neft yatağında üçüncü quyunu qazan və "Dədə Qorqud" adı daşıyan qazma qurğusunu o vaxt əldə etməsəydik və o, bizim mülkiyyətimiz olmasaydı, indi həmin "Dədə Qorqud" qurğusunu yaratmaq üçün ondakından 5-6 dəfə çox xərc lazım idi. Həm də təkcə xərc yox, onu tapmaq, gətirmək də çox böyük çətinliklər yarada bilərdi.

Belə faktları çox gətirmək olar ki, tarixi təhrif etmək istəyənlər anlasınlar ki, tarixi təhrif etmək lazım deyildir. Bizim [12-13] həyatımızda, indi oturduğumuz binanın möhkəm himi var, bu himi yaradanlar olubdur – bizdən öncə yaşayıb-yaratmış, qurmuş insanlar, Azərbaycanın fədakar insanları olubdur. Bu gün bütün o fədakar insanlara, onların xatirəsinə öz hörmət-ehtiramımızı bildirməliyik.

1991-ci ildə Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. 1991-ci il oktyabrın 18-də Konstitusiya aktı ilə, sonra isə dekabrın axırında ümumxalq səsverməsi ilə Azərbaycan öz dövlət müstəqilliyini elan etdi və müstəqil dövlət kimi yaşamağa başladı.

Biz beş ildir ki, müstəqil dövlətik, dövlət müstəqilliyimizin altıncı ilini yaşayırıq. Ancaq bu illərin də özünəməxsus, xarakterik cəhətləri var. Bu illər çox çətin, ağır, müəyyən qədər ziddiyyətli illər olubdur və Azərbaycan Respublikasının dövlət müstəqilliyi, bu gün mövcud olan dövlət müstəqilliyi böyük sınaqlardan keçibdir. İftixar hissi ilə demək olar ki, bu sınaqlardan şərəflə çıxıbdır və indi Azərbaycanın dövlət müstəqilliyi artıq mövcuddur və dönməzdir.

Biz bu gün dövlət müstəqilliyi, Respublika gününü qeyd edərkən bu illəri xüsusən xatırlamalıyıq. Çünki bu illərdə ən böyük nailiyyətimiz ondan ibarət olub ki, biz öz dövlət müstəqilliyimizi elan etmişik, müstəqillik yolu ilə getməyə başlamışıq və əzmlə də gedirik. Ancaq bu illərdə də xalqımızın, millətimizin itkiləri olmuşdur, xalqımıza böyük zərbələr dəymişdir.

Xalqımıza dəyən ən böyük zərbə 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı başlanmış təcavüzdür.

Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması və inkişaf etməsi prosesi belə bir şəraitdə gedib və indi də gedir. Şübhəsiz ki, bu, Azərbaycanda dövlət quruculuğu üçün çox böyük problemlər, çətinliklər yaradıbdır.

Ancaq bununla yanaşı Azərbaycanın dövlət müstəqilliyi elan ediləndən sonra quruculuq prosesi təəssüf ki, ardıcıl getməyib, ayrı-ayrı şəxslərin şəxsi mənafeyi, ayrı-ayrı qrupların qrup mənafeyi, ayrı-ayrı [13-14] siyasi təşkilatların qrup mənafeyi ümummilli, ümumxalq mənafeyindən üstün tutulubdur. Ona görə də biz çox böyük çətinliklərlə, böyük itkilərlə rastlaşmışıq – həm 1992-ci ilin mayında, həm 1993-cü ilin may-iyun aylarında, həm də ondan sonrakı zamanlarda.

1993-cü ilin may-iyun aylarından artıq dörd il keçir. Dörd il bundan öncə Azərbaycanda olan vəziyyət, güman edirəm ki, bu salonda oturan hər kəsin gözünün önündədir. Azərbaycan böyük böhran, dövlət böhranı içərisində idi. Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı. Azərbaycan parçalanırdı və ölkəmizə təcavüz edən erməni təcavüzkarları, Azərbaycanın müstəqilliyini əlindən almaq istəyən başqa xarici qüvvələr ölkənin daxilindəki hakimiyyət davası, fəaliyyətsizlik və Azərbaycanı qəsdən parçalamağa cəhd göstərən ayrı-ayrı qrupların fəaliyyəti ilə birləşərək Azərbaycanı təhlükəli uçurum qarşısına gətirib çıxarmışdılar.

İndi, artıq dörd il keçəndən sonra biz hamımız bir daha, bir daha o illəri, o ayları, o günləri xatırlamalıyıq və Azərbaycanın 1993-cü ilin may-iyun aylarında və sonrakı aylarda nə qədər təhlükəli vəziyyətdə olduğunu dərk etməliyik, ondan sonra görülən işlərə ədalətli, obyektiv qiymət verməliyik.

Bu gün biz xoşbəxtik ki, xalqımızı o xətalardan, bəlalardan, o faciələrdən xilas edə bildik. Ancaq eyni zamanda biz bu gün qeyd etməliyik ki, bizim içərimizdə Azərbaycan xalqına nə qədər xəyanət etmiş və xəyanət etmək istəyən insanlar var idi, həm daxildən, həm də xaricdən Azərbaycanın müstəqilliyini boğmaq istəyən nə qədər qüvvələr var idi. Onların hamısının qarşısını almaq və addım-addım irəliləmək, Azərbaycanın dövlət müstəqilliyini bugünkü səviyyəyə gətirib çıxarmaq üçün bu dörd il zaman nöqteyi-nəzərindən az olsa da, amma əhəmiyyət nöqteyi-nəzərindən çox böyük bir məsafədir.

1993-cü ildə biz Azərbaycanı parçalamaq istəyən qüvvələrin qarşısını ala bildik. Bu, Azərbaycanın müstəqillik yolunda [14-15] ən böyük nailiyyətidir. Ancaq ondan sonra da Azərbaycanın müstəqilliyinə qarşı qəsdlər davam edirdi – xaricdən də, daxildən də. Bu qəsdlərin də qarşısını aldıq. 1994-cü ilin oktyabrında Azərbaycanın dövlətinə qarşı silahlı çevriliş cəhdinin qarşısı alındı. 1995-ci ilin martında yenə də, ikinci bir silahlı veriliş cəhdinin qarşısı alındı. O qüvvələr zərərsizləşdirildi, bir hissəsi xarici ölkələrə qaçıb səpələndi. Ancaq ondan sonrakı dövrdə Azərbaycanın haqq işi qalib gəldi və qalib gəlir. Azərbaycana xəyanət etmiş və ayrı-ayrı ölkələrdə gizlənən adamların əksəriyyəti yaxalandı, gətirildi, ədalət məhkəməsi qarşısında dayandı və bundan sonra da dayanacaqlar. İndiyə qədər gizlənənlər və Azərbaycana qarşı xəyanət edənlər də bilsinlər ki, onların da belə həyatı uzun olmayacaq, onlar da yaxalanacaq, Azərbaycana gətiriləcək və öz xəyanətlərinə, cinayətlərinə görə Azərbaycan xalqı qarşısında cavab verəcəklər.

Bilirsiniz ki, Azərbaycanın çətin daxili vəziyyəti təkcə 1993-cü ilin may-iyun, sonra 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri ilə bitmir. Ayrı-ayrı qruplara, siyasi partiyalara, ayrı-ayrı şəxslərə mənsub olan bir çox silahlı dəstələr Azərbaycanda daxili sabitliyi daim pozur, dövlətçiliyimizə qarşı hərəkətlər edir, öz şəxsi mənafeləri naminə Azərbaycan vətəndaşlarına çox böyük zülmlər edirdilər.

Bunlar hamısı bu yaxın illərdə, gözümüzün qarşısında olan hallardır. Azərbaycanda dövlət quruculuğu prosesi inkişaf etdikcə, dövlət strukturları sağlamlaşdıqca bu cinayətkar qruplar, dəstələr, cinayətkar şəxslər get-gedə ifşa olundular, yaxalandılar və zərərsizləşdirdilər. Hesab edirəm, müstəqillik, Azərbaycanın dövlətçiliyi yolunda əldə etdiyimiz ən böyük nailiyyət ondan ibarətdir ki, indi artıq Azərbaycan ərazisində ictimai-siyasi sabitlik əldə olunub, həmin o cinayətkar dəstələrin, qrupların özbaşınalığına, cəzasız hərəkətlərinə son qoyulubdur. İndi Azərbaycanda əmin-amanlıq, rahatlıq şəraiti yaranıbdır. [15-16]

Belə bir şəraitdə bu illərdə respublikamızda müstəqillik prinsipləri əsasında dövlət quruculuğu prosesi ardıcıl surətdə həyata keçirilir. Bunun ən gözəl nəticəsi 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə Azərbaycanın demokratik Konstitusiyasının qəbul olunmasıdır və demokratik, çoxpartiyalı seçki sistemi əsasında müstəqil Azərbaycanın ilk parlamentinin seçilməsidir. Bunlar bizim tarixi nailiyyətlərimizdir. Azərbaycanda dövlət müstəqilliyini, dövlətçiliyi inkişaf etdirmək sahəsində əldə olunmuş böyük nailiyyətlər, böyük mərhələlərdir.

Hüquqi baxımdan Azərbaycan dövlət müstəqilliyini 1991-ci ilin sonunda elan edibdir. Ancaq dövlət quruculuğu prosesi ağır, çətin bir dövr, zaman, şərait içərisində keçib və nəhayət, 1995-ci ilin noyabrında ilk Konstitusiyanın qəbul olunması ilə tamamlanıbdır. Beləliklə, biz bu illərdə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamışıq, inkişaf etdirmişik. Azərbaycanda dövlət quruculuğu prosesi ardıcıl surətdə həyata keçirilir. Azərbaycan tutduğu yolla inamla irəliləyir. Azərbaycanda demokratik hüquqi dövlət qurulur, bu dövlət artıq mövcuddur və bu dövlət, hökumət, bu dövlət quruluşu Azərbaycanın bütün ərazisinə nəzarət edir və Azərbaycan xalqının verdiyi bütün səlahiyyətləri həyata keçirir.

Azərbaycanda demokratik prinsiplərin hamısı – çoxpartiyalı sistem, mətbuat azadlığı, insan azadlığı, insan haqlarının qorunması, vicdan, söz azadlığı bərqərar olubdur. Hər bir Azərbaycan vətəndaşı bərabər hüquqlara malikdir və öz hüquqlarından istədiyi kimi istifadə etmək imkanına malikdir. Bunlar hamısı bizim tarixi nailiyyətlərimizdir, Azərbaycanda dövlət müstəqilliyinin inamla inkişaf etməsini bütün dünyaya nümayiş etdirir. Bunlar hamısı bir daha, bir daha təsdiq edir ki, Azərbaycan müstəqil dövlət, demokratik, hüquqi, dünyəvi dövlət

kimi yaşayır, Azərbaycanın dövlət müstəqilliyi, Azərbaycanda demokratik prinsiplər dönməzdir, dəyişməzdir və sarsılmazdır. [16-17]

Azərbaycanın dünya miqyasında hüquqlarını və maraqlarını təmin etmək üçün ilk növbədə ölkənin daxilində vəziyyəti sabitləşdirmək və vətəndaşlar üçün normal yaşayış şəraiti yaratmaq lazım idi. Hesab edirəm ki, biz bu vəzifəni ilkin mərhələdə yerinə yetirmişik. Bunu təkcə biz yox, bizimlə əlaqədə olan bütün başqa dövlətlər də görürlər, qeyd edirlər və qiymətləndirirlər. Məhz belə bir dövlət, yəni öz daxili vəziyyətini idarə edən, sabit saxlaya bilən bir dövlət başqa dövlətlərlə qarşılıqlı surətdə faydalı əlaqələr yarada və bundan faydalana bilər.

Bu baxımdan biz bu illərdə – 1993-cü ildən sonra Azərbaycanın dünya miqyasında özünə layiq yer tutması üçün çox dəyərli addımlar atmışıq, əhəmiyyətli fəaliyyət göstərmişik, hesab edirəm ki, yaxşı nəticələr əldə edə bilmişik.

Azərbaycan bütün beynəlxalq təşkilatların üzvüdür və onlarda özünə layiq yer tutubdur. Dünyanın əksər dövlətləri ilə Azərbaycanın diplomatik əlaqələri var. Azərbaycanın bir çox ölkələrdə səfirlikləri var və bir çox ölkələrin də səfirlikləri Azərbaycanda normal şəraitdə fəaliyyət göstərir. Azərbaycanın bir çox ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələri var, dövlətlərarası, hökumətlərarası müqavilələri, sazişləri var. Bunlar hamısı dünya miqyasında Azərbaycanın müstəqil dövlət kimi hörmətini gündən-günə artırır.

Biz sülhsevər ölkəyik, sülhsevər dövlətik. Biz Ermənistanla olan münaqişəyə də sülh yolu ilə son qoymağa çalışırıq və çalışacağıq. Bütün ölkələrlə sülh, əmin-amanlıq şəraitində əlaqə saxlamaq istəyirik. Qonşu ölkələrlə sülh, dostluq əlaqələri yaradırıq və bundan sonra da yaradacağıq. Dünyanın böyük ölkələri, iqtisadi cəhətdən, demokratiya baxımından inkişaf etmiş ölkələrlə, dövlətlərlə Azərbaycanın yaratdığı əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Biz bu əlaqələri çox yüksək qiymətləndirir və tərəfdaş kimi üzərimizə düşən bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyik. [17-18]

Beləliklə, hesab edirəm ki, Azərbaycan öz xarici siyasətində böyük uğurlar əldə edibdir. Dünyanın bir çox ölkələrində, dövlət dairələrində, dünyanın cürbəcür tədqiqat mərkəzlərində, mətbuat mərkəzlərində Azərbaycan haqqında dolğun, düzgün fikir formalaşır və formalaşmaqdadır. Bunlar hamısı Azərbaycanın demokratik, müstəqil dövlət kimi mövcud olması və müstəqillik yolunda demokratik prinsiplər yolunda irəliləməsi ilə əlaqədardır.

İndi artıq təkcə özümüzdə yox, dünyanın bir çox mötəbər siyasi mərkəzlərində, mətbuat mərkəzlərində, ictimai fikri öyrənən mərkəzlərində Azərbaycanın öz dövlət müstəqilliyini nə qədər cəsarətlə qoruması xüsusi qeyd olunur. Mən çox məmnunam ki, bizim gördüyümüz iş və dövlət müstəqilliyimizi qorumaq yolunda cəsarətli siyasətimiz, cəsarətli addımlarımız və müstəqilliyə sadiq olmağımız bir çox başqa ölkələrdə də müşahidə olunur və yüksək qiymətləndirilir. Bunlar hamısı Azərbaycanın indən sonra da məhz bu yolla – dövlət müstəqilliyi yolu ilə əzmlə getməsi üçün çox yaxşı əsasdır.

Xarici siyasət barəsində danışarkən, şübhəsiz ki, Azərbaycanın Ermənistan təcavüzündən xilas edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması problemi, bildiyiniz kimi, bizim diqqət mərkəzimizdə duran əsas problemdir. Bu sahədə görülən işləri də müsbət qiymətləndirmək lazımdır. Birincisi, ən müsbət hal ondan ibarətdir ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişədə artıq üç ildir atəşkəs rejimi mövcuddur. Üç il müddətində atəşkəs rejimini saxlamaq, qorumaq, şübhəsiz, böyük nailiyyətdir. Mən bunu Azərbaycan dövlətinin və onun siyasətinin nailiyyəti kimi qiymətləndirirəm. Eyni zamanda atəşkəsi saxlamaq üçün hər iki tərəfin buna münasibəti lazımdır. Ermənistan dövlətinin də atəşkəs rejiminin saxlanması barəsində gördüyü işlər, şübhəsiz, atəşkəsin qorunub saxlanmasının əsas şərtidir. Bu gün bunu da qeyd etmək lazımdır. [18-19]

Ancaq bu üç il müddətində atəşkəs bizə nə veribdir? Onu veribdir ki, xalqımız üç ildir müharibəsiz yaşayır, qan tökülmür, şəhidlər yoxdur. Onu veribdir ki, bu üç il müddətində daxildə gedən cürbəcür prosesləri nizamlamaq imkanı əldə vermişik. Onu veribdir ki, artıq cürbəcür silahlı dəstələrin müharibə şəraitindən istifadə edərək öz şəxsi məqsədlərinə nail olmasının qarşısı alınıbdır.

Bunun ən əsas əhəmiyyəti isə ondan ibarətdir ki, bu üç il müddətində məsələnin sülh yolu ilə həlli üçün ardıcıl danışıqlar aparılıbdır. Bunu bəlkə də hər kəs layiqincə qiymətləndirə bilməz. Ancaq bilin, bu üç ildə biz hər dəqiqə, hər gün məsələnin sülh yolu ilə həll olunması üçün tədbirlər görmüşük. O gün olmayıb ki, bu işlə məşğul olmayaq. Bunlar da öz nəticəsini verir. Nəticə nədən ibarətdir? Birincisi, 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün əhəmiyyətli bir qərar qəbul olundu. Bu münaqişənin sülh yolu ilə həlli üçün ilk dəfə ATƏT-in sülhü mühafizə qüvvələrinin yaradılması barədə qərar qəbul edildi. ATƏT-in Minsk qrupunun iki həmsədri müəyyən olundu – Rusiya və Finlandiya. Budapeşt zirvə görüşü sülh danışıqlarını irəliyə aparmaq üçün böyük təkan oldu.

Ondan sonra keçən iki il müddətində apardığımız ardıcıl sülhsevər siyasət, intensiv danışıqlar prosesi və bizim cürbəcür təşəbbüslərimiz, təkliflərimiz nəhayət, 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün çox tarixi əhəmiyyəti olan sənədin qəbul edilməsinə gətirib çıxardı. İndi, Lissabon zirvə görüşündən zaman, aylar keçdikcə o zirvə görüşü ərəfəsində görülən işlərin nə qədər böyük əhəmiyyəti olduğunu dərk etmək, xüsusən zirvə görüşündə Azərbaycan nümayəndələrinin gördükləri işin nə qədər qiymətli olduğunu dərk etmək mümkündür. [19-20]

Bəli, Lissabon zirvə görüşündə qəbul olunmuş sənəd Ermənistan-Azərbaycan münaqişəsi tarixində Azərbaycanın hüquqlarını qorumaq üçün olan ilk sənəddir. İlk dəfə olaraq ATƏT-in 54 üzvündən, dövlət başçılarından 53-ü Azərbaycanın ərazi bütövlüyünün tanınmasına, bu məsələnin sülh yolu ilə həllinə səs verdi və problemin sülh yolu ilə həll edilməsinin prinsipləri qəbul olundu. Bu, tarixi hadisədir.

Ondan sonra sülh danışıqlarında Minsk qrupunun yeni mərhələsi başlayıbdır. Bu yeni mərhələnin də xarakterik cəhəti ondan ibarətdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması artıq dünyanın ən böyük dövlətlərinin qayğısına çevrilibdir. İlk dəfə olaraq ATƏT-in Minsk qrupunun üç həmsədri təyin edilibdir: Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Əgər dünyanın üç böyük dövləti Minsk qrupunun həmsədrlik məsuliyyətini öz üzərinə götürübsə, demək, bu, bir tərəfdən, dünya ictimaiyyəti tərəfindən, həmin böyük dövlətlər tərəfindən həmin məsələyə böyük qayğının, diqqətin təzahürüdür və ikinci tərəfdən də bu məsələnin sülh yolu ilə həll edilməsi üçün yaranan yaxşı bir şərtdir. Çünki əgər bu üç böyük dövlət belə bir məsuliyyətli vəzifəni öz üzərinə götürürsə, şübhəsiz, onlar bunu öz üzərinə götürürlər ki, bu məsələni həll etsinlər və beləliklə də, beynəlxalq aləmdə tarixi bir addım atsınlar. Bu, bizim üçün də, həmin məsuliyyəti öz üzərinə götürən ölkələr üçün də çox əhəmiyyətlidir.

Ona görə də mən hesab edirəm ki, bu üç il müddətində, atəşkəs dövründə görülən işlər çox səmərəli olubdur, çox əhəmiyyətli olubdur, çox nəticəli olubdur və indi biz gözləyirik ki, Minsk qrupunun həmsədrləri bu yaxın günlərdə bizim bölgəyə gələcəklər, həm Azərbaycanda, həm də Ermənistanda olacaqlar. Onlar may ayının ortalarında Vaşinqtonda toplaşıb müəyyən sənədlər, təkliflər hazırlayıblar və beləliklə də. bu danışıqlar prosesində yeni bir mərhələ açılır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bir çox dövlət başçılarının, o [20-21] cümlədən Minsk qrupuna həmsədrlik edən dövlətlərin başçılarının verdikləri bəyanat həyata keçiriləcək, – yəni onlar bəyan ediblər ki, 1997-ci ildə bu məsələnin sülh yolu ilə həll olunmasını təmin etmək lazımdır, – bunlar həyata keçiriləcəkdir.

Son günlər bu böyük ölkələrin dövlət başçılarının mənə göndərdikləri məktublarda da və bizim yazışmalarımızda da, telefon əlaqələrimizdə də bu bəyanatlar verilibdir. Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton may ayının 10-da mənə göndərdiyi məktubda bu məsələnin xüsusi əhəmiyyətini qeyd edib və bu məsələyə, yəni Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmasına xüsusi qayğı göstərərək Minsk qrupunun həmsədrliyini Amerika Birləşmiş Ştatlarının öz üzərinə götürməsini bildirib və bəyan edibdir ki, 1997-ci ildə bu sahədə nailiyyət əldə etmək lazımdır.

Rusiya prezidenti cənab Boris Yeltsin atəşkəsin üç ilinin tamam olması ilə əlaqədar mayın 15-də mənə göndərdiyi məktubda da eyni fikirləri ifadə edibdir. Fransa prezidenti cənab Jak Şirakla mənim son görüşüm zamanı – mart ayının sonunda o, qətiyyətlə bildirdi ki, Fransa Minsk qrupunun həmsədri olmağa çox böyük maraq, böyük cəhdlər göstərmiş və bu sahədə öz xidmətlərini məhz 1997-ci ildə göstərməyə çalışacaqdır. Türkiyəyə mənim son səfərim günlərində, Ankarada görüşlər zamanı prezident və hökumət başçıları kəskin və açıq bəyanatlar veriblər ki, Minsk qrupunun həmsədrləri bu məsələnin həll olunmasına çalışmalıdırlar.

Məlumdur ki, Türkiyə prezidenti Süleyman Dəmirəl bu məsələ ilə əlaqədar Amerika, Rusiya və Fransa prezidentlərinə xüsusi məktublar göndəribdir. Mayın 13-də Aşqabadda olarkən İran prezidenti Haşimi Rəfsəncani mənimlə şəxsi danışıqları zamanı, Pakistanın baş naziri Məhəmməd Nəvaz Şərif həm şəxsi görüşdə, həm də EKO dövlətləri başçılarının toplantısındakı çıxışlarında Azərbaycanın ərazi bütövlüyünü müdafiə et[21-22]diklərini bildirmiş və Ermənistanın təcavüzünə son qoyulması haqqında, məsələnin məhz sülh yolu ilə, işğal olunmuş torpaqların azad edilməsi vasitəsilə həll olunması barədə öz fikirlərini söyləmişlər.

Dünyanın başqa ölkələrində də dövlət və hökumət başçıları bu barədə öz mövqelərini, öz münasibətlərini bildirmişlər. Bunların hamısı həm bu üç il müddətində görülən işlərin nəticəsidir, həm də 1997-ci ildə qarşımızda duran vəzifələri göstərir.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, ATƏT-in Minsk qrupunun həmsədrləri verdikləri sözə əməl edəcəklər, çox intensiv danışıqlar aparacaqlar və ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması üçün çox nəticəli addımlar atacaqlar.

Biz bu gün də bəyan edirik ki, məsələnin yalnız sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və bundan sonra da bu yolla gedəcəyik.

Bununla əlaqədar, Azərbaycanın işğal olunmuş torpaqlarından didərgin düşmüş vətəndaşlarımızın vəziyyəti də bizi daim narahat edir. Bir milyondan artıq Azərbaycan vətəndaşı köçkün, qaçqın vəziyyətindədir. Onların bir çoxu artıq neçə ildir ki, çadırlarda yaşayır, çox ağır vəziyyətdə yaşayır. Biz torpaqlarımızın sülh yolu ilə azad edilməsinə çalışarkən şübhəsiz ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyi ön sıraya çəkirik. Amma eyni zamanda, işğal olunmuş torpaqlardan zorla çıxarılmış insanların öz yerlərinə, yurdlarına qayıtması bizim üçün əsas şərtdir. Ona görə də bütün danışıqlarda və nəzərdə tutulmuş sazişlərdə mütləq və mütləq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, eyni zamanda işğal edilmiş torpaqlardan Ermənistan silahlı qüvvələrinin çıxarılması və qaçqın, köçkün düşmüş Azərbaycan vətəndaşlarının öz yerlərinə, yurdlarına qayıtması nəzərdə tutulur. Bu, bizim əsas vəzifəmizdir. Bu, bizim borcumuzdur. Xalqımız, millətimiz də bil[22-23]məlidir, qaçqın, köçkün vəziyyətində, ağır şəraitdə yaşayan soydaşlarımız da, bacı və qardaşlarımız da bilməlidirlər ki, bu vəzifəni biz nəyin bahasına olursa-olsun yerinə yetirəcəyik.

Sülh danışıqları, məsələnin sülh yolu ilə həll olunması siyasətimizin ana xəttidir. Biz üç ildir bu yolla gedirik və bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, bu yol uğurla başa çatacaqdır. Ancaq eyni zamanda mən bu gün onu da bir daha bəyan etmək istəyirəm ki, heç vaxt, heç bir zaman Azərbaycan torpaqlarının bir qarışı belə başqa bir ölkənin əlində ola bilməz. Biz Azərbaycanın beynəlxalq hüquq normaları tərəfindən tanınmış sərhədlərinin bərpa olunmasına çalışırıq və çalışacağıq. Azərbaycanın bütün ərazisinə nəzarət etməyə çalışırıq və çalışacağıq. Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün bütün imkanlardan istifadə edirik, edəcəyik və işğal olunmuş torpaqlar nəyin bahasına olursa-olsun azad ediləcək, qaçqın, köçkün düşmüş soydaşlarımız öz yerinə-yurduna qayıdacaqlar.

Dövlət quruculuğu sahəsində bu illər qarşımızda duran əsas vəzifələrdən biri Azərbaycanın Milli Ordusunun yaradılması və onun lazımi gücə gətirilməsidir. Bilirsiniz ki, Milli Ordunun yaranması da böyük təxribatlarla, böyük bəlalarla rastlaşmışdır. Məhz buna görə də Azərbaycan xalqı bir çox məğlubiyyətlərə uğramış və Azərbaycan torpaqlarının bir qismi işğal olunmuşdur. Çünki vaxtilə Ermənistanda silahlı qüvvələr yaradılarkən Azərbaycan buna laqeyd qalmış və hesab etmişdir ki, Azərbaycana silahlı qüvvələr lazım deyildir. Ermənistanda silahlı qüvvələr mütəşəkkil hərəkət edərkən, Azərbaycanda az da olsa yaranmış silahlı dəstələr, qüvvələr bir-biri ilə münaqişə aparmağa, bir-biri ilə dava etməyə, hakimiyyət davasına qoşulmağa çalışmışdılar. Bu yaxınlarda televiziya vasitəsilə bir çox belə məsələlər aşkar göstərildi və xalqımız da gördü ki, ərazilərimizin Ermənistan tərəfindən işğal olunmasının səbəbi təkcə Ermənistan silahlı qüvvələrinin güclü olması, Azər[23-24]baycanın gücsüz olması deyildir. Yox, Azərbaycanın daxilində gedən bu ictimai-siyasi proseslər, hakimiyyət davası, vəzifə davası, ayrı-ayrı silahlı qüvvələrin bir-biri ilə münaqişəsi və bir-biri ilə ixtilafı Azərbaycan xalqına belə baha başa gəldi və belə itkilərə gətirib çıxardı. Ona görə də indi Azərbaycanda Milli Ordunun qurulması, yaranması, inkişaf etməsi qarşımızda duran əsas vəzifədir.

Bu sahədə bir çox işlər görülüb. Ancaq hələ görüləsi işlər də çoxdur. Azərbaycanın Müdafiə Nazirliyi bu sahədə öz vəzifələrini bilir və lazımi işləri də görür. Amma hesab edirəm ki, görülən işlər yetərli deyildir. Azərbaycanda bir tərəfdən ordumuzun peşəkarlığını artırmaq, ikinci tərəfdən də Azərbaycan gənclərini orduda xidmətə hazırlamaq lazımdır. Azərbaycanda milli vətənpərvərlik təbliğatını genişləndirmək, xalqımızın milli vətənpərvərlik ruhunu qaldırmaq, gənclər arasında milli vətənpərvərlik duyğularını inkişaf etdirmək lazımdır. Hər bir gənc ailəsindən, ata-anasının tutduğu vəzifədən, yaxud da maddi vəziyyətindən asılı olmayaraq Azərbaycan Milli Ordusunda xidmət etməlidir. Milli Ordumuzda xidmət etmək hər bir Azərbaycan vətəndaşının şərəfli borcu olmalıdır.

Ona görə də hesab edirəm ki, ayrı-ayrı adamların orduda xidmət etməməsi üçün onlara güzəştə gedilməsi, onların guya təhsil almaq üçün orduda xidmətdən azad olunması məsələlərinə və başqa bu kimi məsələlərə baxmaq lazımdır. Mən hesab edirəm ki, bunlar bizim Milli Ordunun yaranması və bütün xalqımızın döyüş qabiliyyətinə malik olması tələblərinə uyğun deyildir. Bir daha deyirəm, hər bir gənc, hər bir ata-ana, hər bir valideyn öz oğlunu böyüdərkən ona ən əvvəl nəsihət verməlidir ki, sənin birinci borcun orduda xidmət etməkdir, vətəni müdafiə etməyə hazır olmaqdır, döyüş qabiliyyəti əldə etməkdir və döyüşə hazır olmaqdır.

Azərbaycanda gedən dövlət quruculuğu prosesi eyni zamanda ölkəmizin iqtisadiyyatının düşdüyü vəziyyətdən çıxması [24-25] ilə əlaqədardır. Bilirsiniz ki, son illərdə Azərbaycan ağır iqtisadi böhran keçiribdir və bizim son vaxtlar gördüyümüz tədbirlər ölkəni bu böhrandan tədricən çıxarmaq yoluna yönəlibdir. Bu gün tam qətiyyətlə demək olar ki, 1996-cı il Azərbaycan iqtisadiyyatında artıq müsbət meyllər ili kimi qiymətləndirilməlidir. iqtisadiyyat sahəsində görülən tədbirlər, iqtisadi islahatlar, özəlləşdirmə proqramının, "Torpaq islahatı haqqında" qanunun həyata keçirilməsi, xarici ticarətin liberallaşdırılması, sahibkarlığa geniş yer verilməsi, insanlara sərbəstlik verilməsi – bunların hamısı birlikdə Azərbaycan iqtisadiyyatında müsbət meyllər meydana gətirmişdir. Bu gün böyük məmnuniyyətlə qeyd etmək olar ki, 1996-cı ili başa çatdırarkən Azərbaycanda 1988-89-cu illərdən sonra ilk dəfə daxili milli məhsulun artımı 1,3 faiz olmuşdur. Amma keçən illərdə artım yox, geriləmə olmuşdur. Bu ilin dörd ayında isə daxili milli məhsul 3 faizdən çox artmışdır. Keçən il kənd təsərrüfatı istehsalı ilk dəfə olaraq 3 faiz artmışdır. 1989-cu ildən bəri kənd təsərrüfatı istehsalının aşağı düşməsini dayandırmaq və indi 3 faiz artıma nail olmaq, hesab edirəm ki, diqqətəlayiq nailiyyətdir.

Sənaye istehsalı ilbəil aşağı düşmüşdür. 1996-cı ildə sənaye istehsalının aşağıdüşmə sürəti azaldılmışdır: Əgər bu, 1995-ci ildə 21 faiz olmuşdusa, 1996-cı ildə 6 faiz olmuşdur. Amma bu ilin dörd ayında sənaye istehsalında da 1 faiz artım əldə edilmişdir. Keçən il xarici ticarət 30 faiz artmışdır. Bir çox başqa iqtisadi göstəricilər də gətirmək olar. Hesab edirəm ki, bu rəqəmlər öz-özlüyündə onu göstərir ki, Azərbaycan iqtisadiyyatında müsbət meyllər artıq özünü büruzə verir.

Maliyyə sistemində inflyasiyanın qarşısı alınıbdır. Keçən il inflyasiya çox aşağı səviyyəyə gətirilib çıxarılmışdır və deyilənlərə görə, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı müşahidəçilərinin bizə verdiyi qiymətlərə görə Müstəqil Dövlətlər Birliyinin ölkələri arasında inflyasiyanın ən aşağı sürəti Azərbaycandadır. Bizdə inflyasiya yox dərəcəsindədir. [25-26]

Milli valyutamızın – manatın dəyəri qalxmış, keçən il onun dollara nisbətən məzənnəsi 7 faiz artmışdır. Bunların hamısı həyata keçirdiyimiz iqtisadi islahatların müsbət nəticəsidir. Ancaq bunlar başlanğıcdır.

Bu gün bir daha qeyd etmək lazımdır ki, "Torpaq islahatı haqqında" qəbul etdiyimiz qanun nə qədər cəsarətli qanundursa, o qədər də əhəmiyyətli qanundur. Biz artıq bu qanunun nəticələrini görürük. Siz bilirsiniz ki, aqrar sahədə heyvandarlıq sektoru artıq özəlləşdirilibdir. Bu sektorun özəlləşdirilməsi ərzaq mallarının və xüsusən heyvandarlıq məhsullarının istehsalı sahəsində Azərbaycanda çox böyük müsbət dəyişikliklər meydana çıxarmışdır. Torpağın xüsusi mülkiyyətə verilməsi prosesi başlanıb və bu da artıq öz müsbət nəticələrini verir.

Güman edirəm ki, 1997-ci il iqtisadi islahatların sürətlə həyata keçirilməsi ili olacaqdır. 9 mindən artıq müəssisə özəlləşdirilib. İndi vauçerlərin paylanması sona çatmaqdadır. Əhalinin 70 faizi özəlləşdirmədə iştirak etmək üçün vauçerləri almışdır və yaxın vaxtlarda hamı vauçerlərlə təmin olunacaqdır. Bəli, 1997-ci il Azərbaycanda iqtisadi islahatların sürətlə həyata keçirilməsi, özəlləşdirmə prosesinin sürətlə aparılması ili olacaqdır. Bunların hamısı da xalqın rifahını yaxşılaşdıracaqdır.

Bilirsiniz ki, keçən il də, bu ilin əvvəllərində də əhalinin bir çox təbəqələrinin əmək haqqının artırılması barədə mən fərmanlar vermişəm, qərarlar qəbul etmişəm. Keçən il dövlət büdcəsi yerinə yetirilibdir. Bu ilin dörd ayında da dövlət büdcəsi yerinə yetirilib və əminəm ki, cari ilin birinci yarısının yekunlarına görə biz dövlət büdcəsinin yerinə yetirilməsi ilə əlaqədar müəyyən müsbət nəticələr əldə edəcəyik və bunlar da əhalinin bir qisminin əmək haqqının artırılması və ümumiyyətlə əhalimizin rifahının yaxşılaşması üçün yeni qərarlar qəbul edilməsinə imkan verəcəkdir, şərait yaradacaqdır.

Beləliklə, bizim müstəqillik yolu ilə, bazar iqtisadiyyatı yolu ilə getməyimiz dönməzdir, yəni artıq heç kəsin şübhəsi [26-27] yoxdur ki, biz bu yolla gedirik və bu yolla da gedəcəyik. Ancaq bazar iqtisadiyyatı yolu ilə getmək təkcə respublikamızın daxilində iqtisadi islahatların həyata keçirilməsi ilə bitmir. Bilirsiniz ki, biz Azərbaycana xarici investisiya gətirilməsi sahəsində bir çox işlər görmüşük. İndi Azərbaycanda, Bakıda dünyanın bir çox şirkətlərinin ofisləri açılıbdır, hər gün də açılır. Bir çox şirkətlər artıq burada fəaliyyətdədirlər, bir çox şirkətlər də respublikamızda fəaliyyət göstərmək üçün bizə müraciət edirlər.

Bildiyiniz kimi, Xəzərin Azərbaycan sektorundakı neft-qaz yataqlarının istifadə olunması üçün biz artıq beş müqavilə imzalamışıq. Bu gün mən sizə bildirmək istəyirəm ki, bu müqavilələrin hamısı və nəzərdə tutulmuş proqramlar əməli, ardıcıl surətdə həyata keçirilir. Bizim neft yataqlarımıza maraq gündən-günə artır. Ola bilər, bu yaxın vaxtlarda biz yeni müqavilələrin də şahidi olacağıq.

Bütün bunlarla yanaşı, hesab edirəm ki, dövlət müstəqilliyi yolunda Azərbaycanın əldə etdiyi ən böyük nailiyyət ondan ibarətdir ki, xalqımız indi rahat, sakit, sərbəst yaşayır. Biz cinayətkarlığın demək olar ki, çox hissəsinin qarşısını almışıq. Xarici ölkələrdən respublikamıza ziyarətə gələn, Bakını gəzən adamlar Azərbaycanda olan bu əmin-amanlığa, sakitliyə, rahatlığa çox böyük hüsn-rəğbətlə baxırlar və bəzən də təəccüb edirlər. Şübhəsiz ki, biz bunlarla öyünməməliyik və mən bunları yetərli hesab etmirəm. Bizim qarşımızda hələ çox vəzifələr, işlər vardır. Ancaq əldə olunan bu nailiyyətlər bizim gələcək işlərimizin daha da sürətlə həyata keçirilməsi üçün çox yaxşı əsasdır. Artıq bizim insanlarda inam yaranıbdır. İnam yaranıb ki, Azərbaycan bir müstəqil dövlət kimi yaşayır və yaşaya bilər. İnam yaranıb ki, Azərbaycanda bazar iqtisadiyyatı tətbiq olunub və genişlənəcək, inkişaf edəcəkdir. İnam yaranıb ki, Azərbaycanın iqtisadiyyatı dünya iqtisadiyyatı ilə günü-gündən daha sıx bağlanır. İnam yaranıb ki, Azərbaycan xalqı bundan sonra, gələcəkdə rahat və firavan yaşayacaqdır. [27-28]

Hörmətli dostlar!

Mən bu böyük bayram münasibətilə sizi bir daha təbrik edirəm. Siz də, biz də bu gün bütün bayram təbriklərimizi birinci növbədə, Azərbaycan torpaqlarının müdafiəsi uğrunda şəhid olmuş insanların ailələrinə göndəririk. Bu gün – bu bayram günü mən bir daha bəyan edirəm ki, Vətən, torpaq uğrunda canlarını qurban vermiş, şəhid olmuş insanların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır. Biz bayram edərkən, onların ailələrinin qəmini, kədərini də hiss edirik, bilirik.

Qaçqın vəziyyətində yaşayan soydaşlarımızı xüsusi təbrik edirəm. Mən onlara müraciət edərək, onların dözümlülüyünə. vətənpərvərliyinə, vətəninə, millətinə, ölkəsinə sadiq qaldıqlarına görə onlara təşəkkür edirəm, onları bayram münasibətilə təbrik edirəm.

Azərbaycanın Milli Ordusunda xidmət edən əsgərlərimizi. zabitlərimizi, sərhəddə, cəbhə bölgələrində duran igid Azərbaycan döyüşçülərini ürəkdən təbrik edirəm, onlara cansağlığı və şərəfli işlərində uğurlar arzulayıram.

Ölkəmizdən xaricdə yaşayan bütün azərbaycanlıları bu bayram münasibətilə təbrik edirəm. Onların hamısına cansağlığı, xoşbəxt həyat arzulayıram.

Dünyanın bir çox ölkələri ilə bizim diplomatik əlaqələrimiz və beynəlxalq təşkilatlarla olan əlaqələrimiz Azərbaycanda xarici ölkələrin səfirliklərinin və beynəlxalq təşkilatların nümayəndəliklərinin olmasını təmin edibdir. Biz bundan çox məmnunuq. Bu bayram günü mən xarici ölkələri və beynəlxalq təşkilatları Azərbaycanda təmsil edən bütün səfirliklərə. nümayəndəliklərə, təşkilatlara bizimlə sıx əməkdaşlığa görə təşəkkürümü bildirirəm. Bu bayram günü onlara və onların simasında təmsil etdikləri ölkələrə, xalqlara Azərbaycan xalqının, dövlətimizin hörmət və ehtiramını bildirirəm.

Bu bayram günü hər bir Azərbaycan vətəndaşı bir daha düşünməlidir ki, bizim üçün həyat, yaşayış nə qədər çətin olsa [28-29] da azad, milli azadlıq şəraitində yaşamaq, müstəqil olmaq, müstəqil, azad dövlətdə yaşamaq hər şeydən əzizdir, üstündür. Biz bu müstəqilliyi möhkəmləndirmək və daha da yüksəklərə qaldırmaq, bu milli

azadlığımızı əlimizdə daim saxlamaq naminə hər bir çətinliklərə dözmüşük, bundan sonra da dözəcəyik. Azərbaycan xalqı dözümlü xalqdır. Bu, bizim xalqımızın milli xüsusiyyətidir. Etimad göstərib məni Azərbaycan dövlətinin prezidenti seçmiş Azərbaycanın bütün vətəndaşlarına hörmət və ehtiramımı bildirirəm, dözümlülüyünə görə onlara təşəkkür edirəm və xalqımızı, millətimizi əmin edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi yolu uğurludur, çiçəklidir, gözəldir. Bu gözəl gələcək naminə sizin hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm.

Bayramınız mübarək olsun! [29-30]

## RUSİYANIN "NTV" TELEKANALI PROQRAMLARININ AZƏRBAYCANDA YAYIMLANMASININ RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*"MİR " dövlətlərarası teleradio şirkəti*
*Azərbaycan nümayəndəliyinin binası*

*29 may 1997-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu gün çox böyük əhəmiyyətə malik bir hadisə baş verir – təkcə Rusiyada deyil, onun hüdudlarından kənarda da məşhur olan NTV telekanalının Azərbaycanda translyasiyasına başlanır. Bu hadisə münasibətilə bütün mərasim iştirakçılarını və xüsusən NTV kanalının rəhbərlərini, bütün jurnalistləri, bütün televiziya işçilərini təbrik edir və ümidvaram ki, bu, həmin telekanalın köməyi ilə Azərbaycan vətəndaşlarının mühüm informasiya ilə zənginləşməsi üçün daha böyük imkan açacaqdır.

Qəbul etdiyimiz qərarın və indi baş verən hadisənin, Rusiyanın NTV telekanalının öz verilişlərini Azərbaycanda yayımlamağa başlamasının nəinki bu televiziya şirkətinin və ya hər hansı digər strukturların kommersiya maraqları baxımından, həm də Azərbaycanın maraqları baxımından olduqca böyük əhəmiyyəti var. Bu, Rusiya ilə Azərbaycan arasında münasibətlərin möhkəmlənməsi və inkişaf etməsi nöqteyi-nəzərindən olduqca böyük əhəmiyyətə malikdir. [30-31]

Hər hansı ölkənin və bütün dünyanın müasir ictimai-siyasi həyatında informasiya, xüsusən televiziya informasiyası çox mühüm rol oynayır. İndi televiziya kimi digər elə bir informasiya vasitəsi yoxdur ki, insanlara müəyyən təsir göstərsin. Buna görə də televiziyanın imkanlarından fəal istifadə olunması hər bir dövlət üçün, habelə ölkələr arasında münasibətlərin inkişaf etdirilməsi üçün böyük əhəmiyyətə malikdir.

Biz Rusiya Federasiyası ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələri daha da möhkəmlətmək, inkişaf etdirmək, genişləndirmək zəruriliyi prinsipini əsas tuturuq. Bu baxımdan dövlət xətti ilə, müxtəlif idarələrimizin xətti ilə çox iş görülmüşdür. Bununla yanaşı, biz belə bir fikirdəyik ki, qarşıya qoyduğumuz məqsədə çatmaq üçün hələ çox şey etmək lazımdır. Odur ki, Azərbaycanda Rusiya haqqında və təbii olaraq Rusiyada Azərbaycan haqqında tam, səhih, obyektiv informasiya alınmasının çox böyük əhəmiyyəti var. Biz NTV televiziya kanalının Azərbaycanda translyasiyasına razılıq verərkən hər şeydən əvvəl məhz bunu əsas tutmuşuq. Ümidvaram ki, NTV Azərbaycanda öz translyasiyaları ilə bu məqsədlərin həyata keçirilməsinə yardımçı olacaq, biz isə öz tərəfimizdən hər şeyi edəcəyik ki, NTV ölkəmiz haqqında lazımi informasiyanı ala bilsin və beləliklə də biz Azərbaycan haqqında informasiyanın Rusiyada yayılması üçün NTV-nin imkanlarından istifadə edə bilək.

Doğrudur, indiki halda Azərbaycanda NTV ən çox və əsasən informasiyanı bir istiqamətdə, yəni öz ölkəsində, dünyada, Azərbaycanda gedən proseslər barədə Rusiyanın informasiyasını verəcəkdir. Bizim isə bu kanal vasitəsi ilə Azərbaycandan Rusiyaya o qədər informasiya və ya heç olmasa müəyyən qədər informasiya verməyə eyni dərəcədə imkanımız olmayacaqdır. Buna görə də inanıram ki, NTV buradan informasiya verəcək, eyni zamanda burada yaradılacaq NTV müxbir məntəqəsi fəal əməkdaşlıq edəcəkdir ki, NTV öz imkanları daxi[31-32]lində Azərbaycan haqqında informasiya versin. Hesab edirəm ki, NTV bu imkanları axtarıb tapacaqdır.

Beləliklə, bütün bunlar, bir daha deyirəm, ən əvvəl dövlətlərimizin maraqları ilə bağlı işə, ölkələrimiz, xalqlarımız arasında əlaqələrin möhkəmlənməsi işinə xidmət edəcəkdir. Buna böyük ehtiyac var. Rusiya haqqında səhih, ədalətli informasiyaya ehtiyac duyan adamlar Azərbaycanda çoxdur. ORT və Rusiya televiziyasının kanalları Azərbaycanda heç bir məhdudiyyət olmadan bütün respublikaya yayımlanır. Deməliyəm ki, onların verilişləri ölkəmizdə populyardır və böyük fayda gətirir. Hesab edirəm ki, NTV bu sırada öz layiqli yerini tutacaqdır.

Bununla yanaşı, bugünkü hadisə Azərbaycanda baş verən prosesləri, hadisələri, Azərbaycanın vəziyyətini əks etdirir. Yəni müstəqil, suveren dövlət kimi Azərbaycan informasiya azadlığı, mətbuat azadlığı üçün bütün şəraiti yaradır. Bu sahədə azadlıq elə bir səviyyəyə çatmışdır ki, biz heç kəsdən qətiyyən qorxub-çəkinmədən NTV-nin – müstəqil televiziya kanalının ölkəmizə birbaşa translyasiyasını özümüzə rəva görürük. Bu, məhz onu sübut edir ki, Azərbaycanda demokratiya, azadlıq, söz azadlığı, mətbuat azadlığı, informasiya azadlığı olduqca inkişaf etmişdir. Bu onu göstərir ki, suveren, müstəqil dövlət kimi Azərbaycan öz milli mənafelərini qoruyub saxlamaqla və müdafiə etməklə yanaşı bütün dünya ölkələrinə, o cümlədən və ən əvvəl Rusiya kimi dost ölkəyə öz informasiyalarını ölkəmizdə azad surətdə yaymağa imkan verir.

Vətəndaşlarımız, adamlarımız bəlkə də ona öyrəşmişlər ki, sovet dövründə Moskva televiziyasının verilişləri, habelə o vaxtlarda "Vremya" adlanan proqram translyasiya olunurdu, ona görə də bunu adi bir hal kimi

qəbul edirlər. Yaxud götürək sonralar meydana gələn Rusiya televiziyasının translyasiyasını, onu da adi hal sayırlar. Amma bu, adi hal deyildir. Hər bir ölkənin sərhədlərinin, suverenliyinin, müstəqilliyinin mövcud [32-33] olduğu bir zamanda bir ölkənin televiziya verilişlərini digər ölkənin ərazisinə yayımlamaq imkanı, şübhəsiz, böyük hadisədir. Bir tərəfdən, Rusiya televiziyası verilişlərinin ölkəmizə translyasiyası Rusiya Federasiyasına Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin çox böyük hörmət bəslədiyini göstərir, digər tərəfdən isə, Azərbaycan cəmiyyətinin açıq olduğundan, Azərbaycanda demokratiyanın, azadlığın bütün prinsiplərinin möhkəm bərqərar olduğundan xəbər verir və biz əsla heç nədən narahatlıq keçirməyərək, belə müstəqil televiziya kanalının translyasiyasına da yol veririk. Məlum olduğu kimi, bu kanal hətta Rusiyada bəzilərində mənfi münasibət doğurur, buna baxmayaraq, bəri başdan deməliyəm ki, o, əlbəttə, böyük şöhrətə malikdir.

Ona görə də mən buraya məhz bu mülahizələrlə gələrək, bugünkü hadisəni siyasi nöqteyi-nəzərdən, dövlət nöqteyi-nəzərindən qiymətləndirirəm. İnanmaq istəyirəm ki, qəbul etdiyimiz qərar, birgə atdığımız addım Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və inkişafına xidmət edəcək, Azərbaycanda informasiya xidmətinin gələcək inkişafına təkan verəcək, təcrübə mübadiləsinə, NTV-nin müsbət təcrübəsinin Azərbaycanda bizim televiziya işçiləri və jurnalistləri arasında yayılmasına təkan verəcək, Azərbaycanın hər bir sakininə fayda gətirəcəkdir. Mən buna əminəm.

Sizi bir daha təbrik edirəm, NTV-yə Azərbaycanda və digər ölkələrdə uğurlar arzulayıram. [33-34]

## XALQ ARTİSTİ SARA XANIM QƏDİMOVAYA

Hörmətli Sara xanım!

Sizi – Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri olan müğənnimizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz xalqımızın qəlbində əbədi məskən salmış sənətkar olaraq mahnı və muğamlarımızın mahir ifaçısı kimi milli musiqimizin klassikləri sıralarında yer tutmusunuz. Füsunkar Qarabağ təbiətinin zənginliyi ilə köklənmiş ecazkar səsinizlə yeni həyat verdiyiniz mahnı və muğamlar Azərbaycan musiqi sənətinin qızıl fonduna həmişəlik daxil olmuşdur. Milli opera səhnəsində yaratdığınız unudulmaz obrazlar musiqi mədəniyyəti tariximizdə silinməz izlər qoymuşdur.

Sizin yaradıcılıq yolunuz yeni nəsillər üçün əsl vətənpərvərlik, fədakarlıq və sənətə sədaqət nümunəsi olmuşdur. Vətən və xalq qarşısındakı xidmətləriniz ayrı-ayrı dövrlərdə yüksək dövlət mükafatları ilə qeyd olunmuşdur. Ən böyük mükafatınız isə milyonlara xoş əhval-ruhiyyə bəxş edən sənətinizlə qazandığınız ümumxalq məhəbbətidir.

Yubileyiniz münasibətilə Sizi salamlayır, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, işinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 may 1997-ci il* [34-35]

## UŞAQLARI BEYNƏLXALQ MÜDAFİƏ GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN BAYRAM ŞƏNLİYİNDƏ ÇIXIŞ

*Azərbaycan Dövlət Opera və Balet Teatrı*

*1 iyun 1997-ci il*

Əziz uşaqlar, balalar!

Mən sizi, Azərbaycan uşaqlarının hamısını bu gün, Uşaqları beynəlxalq Müdafiə günü münasibətilə təbrik edirəm. Azərbaycan uşaqlarına, gənclərinə xoşbəxt həyat, səadət və uğurlu gələcək arzulayıram.

Azərbaycanın, Bakının uşaqları bu gün Uşaqları Beynəlxalq Müdafiə günü bayramında öz istedadlarını nümayiş etdirirlər. Onlardan biri də bu gün burada Opera və Balet Teatrının səhnəsində uşaqların, balacaların musiqi, vokal çıxışlarıdır.

Keçirilən müsabiqələr Azərbaycanda uşaqların içərisindən, lap kiçik yaşlıların arasından istedadları seçir, cəmiyyətimizə tanıtdırır və gələcəkdə istedadlarını inkişaf etdirmək üçün onlara şərait yaradır. Ona görə də mən Bakı musiqi məktəblərinin, musiqi ictimaiyyətimizin, Bəstəkarlar İttifaqının və uşaqlara hamilik edən başqa təşkilatların keçirdikləri müsabiqələri, gördükləri işləri, onların təşəbbüslərini bəyənirəm, ürəkdən alqışlayıram. Hesab edirəm ki, bu təşəbbüs Azərbaycanın hər yerinə yayılmalıdır və bundan respublikamızda incəsənət sahəsində gənc istedadları aşkara çıxarıb onların inkişafına kömək etmək üçün istifadə olunmalıdır. [35-36]

Bu gün biz uşaqların – həm musiqi ifa edən, həm də mahnı oxuyan balacaların gözəl çıxışlarını dinlədik. Bunlar bizi sevindirir. Ancaq belələri Azərbaycanda, ölkəmizin hər yerində çoxdur. Bu da bizim xalqımızın, millətimizin, Azərbaycan xalqının nə qədər böyük, gözəl istedada malik olduğunu göstərir.

Məhz belə gənc istedadlardan böyük musiqiçilər, böyük bəstəkarlar, müğənnilər, səhnə ustaları yetişirlər. Biz keçmişimizə nəzər salsaq, görərik ki, xalqımızın tarixi belə gözəl şəxsiyyətlərlə və gözəl incəsənət ustaları, mədəniyyət xadimləri ilə çox zəngindir. Şübhə etmirəm ki, bu gün bu səhnədə öz istedadlarını ilk dəfə göstərən uşaqlardan da çoxlarının parlaq gələcəyi olacaqdır. Onlar gələcəkdə Azərbaycan incəsənətini, mədəniyyətini irəliyə aparanlar olacaqlar.

Bu gün uşaqların Beynəlxalq Müdafiə günüdür. Bu gün bizim üçün çox əziz, mötəbər gündür. Çünki bu gün uşaqların müdafiə olunması və uşaqlara qayğı göstərilməsi bütün dünyada nümayiş etdirilir. Hər bir ölkə, xalq buna münasibətini göstərir. Müstəqil Azərbaycan Respublikasında uşaqlara olan qayğı, diqqət günü-gündən artır və bundan sonra da artacaqdır.

Biz xalqımızın, ölkəmizin həyatında olan bu çətinlikləri aradan qaldıraraq və iqtisadiyyatımızı inkişaf etdirərək, xalqımızın rifah halını yaxşılaşdıraraq, cəmiyyətimizdə insanların rahat yaşaması üçün şərait yaradaraq, ictimai-siyasi sabitlik yaradaraq həm bütün cəmiyyətimiz haqqında düşünürük, fikirləşirik, ona öz qayğımızı göstəririk, həm də birinci növbədə uşaqlar haqqında düşünürük.

Uşaqlar hər bir insana ən böyük xoşbəxtlik gətirir. Hər bir insan istəyir ki, onun uşağı olsun. Hər bir insan uşağını sevir, ona tərbiyə verir, uşağını böyüdür, oxudur, gələcəyə hazırlayır. Belə insanlar, ailələr xoşbəxt insanlardır, ailələrdir.

Azərbaycanda ailələr həmişə çoxuşaqlı olublar, bu bizim xalqımızın milli xüsusiyyətidir. Atalar, analar – valideynlər uşaqlarına həmişə qayğı göstəriblər və bundan sonra da belə olmalıdır. [36-37] Bundan sonra ailələrimiz nəinki çoxuşaqlı olmalıdır, eyni zamanda valideynlər gərək uşaqlarına daha çox qayğı, diqqət göstərsinlər, onların tərbiyəsinə, təhsilinə xüsusi fikir versinlər, bunları özlərinin əsas vəzifəsi hesab etsinlər. Biz isə – hökumət, cəmiyyət, yaşlı nəsil uşaqlara daim qayğı göstəririk və göstərəcəyik. Bu, bizim ən müqəddəs, ən şərəfli vəzifəmizdir.

Uşaqlar, gənclər xalqımızın, müstəqil Azərbaycan Respublikasının parlaq gələcəyidir. indi Azərbaycanda yaşayan uşaqlar ölkəmizi XXI əsrdə irəliyə aparacaqlar, Azərbaycanın müstəqilliyini qoruyacaqlar, inkişaf etdirəcəklər. Bugünkü gənc nəsil bir neçə vaxtdan sonra respublikamızın bir çox sahələrində xalqımızın, ölkəmizin böyük-böyük vəzifələrini öz üzərinə götürəcək və müstəqil respublikamızı, dövlətimizi yaşadacaq, gələcəyə aparacaqdır. Ona görə də uşaqlara qayğı, diqqət hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

Mən bütün Azərbaycan vətəndaşlarını bu müqəddəs borclarını şərəflə yerinə yetirməyə dəvət edirəm. İnsanları bu şərəfli işə dəvət edərək, eyni zamanda bəyan edirəm ki, mənim üçün bir ata kimi, bir baba kimi, – bilirsiniz, mənim nəvələrim var, – uşaqlar çox əzizdir. Mən həyatımın, bu günümün, gələcəyimin də xoşbəxtliyini, səadətini məhz uşaqlara qayğıda, diqqətdə görürəm.

Əziz balalar, övladlar, uşaqlar!

Mən sizin hamınızı sevirəm, hər birinizi bağrıma basıram. Hamınızı öpürəm. Sizə xoşbəxt gələcək arzu edirəm.

Sağ olun. [37-38]

## "XƏZƏRNEFTQAZ-97" DÖRDÜNCÜ BEYNƏLXALQ SƏRGİSİNİN VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ GİRİŞ VƏ YEKUN NİTQ

*Bakı İdman-Konsert Kompleksi*

*3 iyun 1997-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən "Xəzərneftqaz-97" dördüncü beynəlxalq sərgisinin və konfransının açılışı münasibətilə sizi təbrik edirəm. Sərgiyə və konfransa işlərində uğurlar arzulayıram.

"Xəzərneftqaz-97" dördüncü beynəlxalq sərgisinin Azərbaycanda işə başlaması neft və qaz sənayesi sahəsində respublikamızda sərgilər keçirilməsinin ənənəvi xarakter daşıdığını bir daha nümayiş etdirir.

Dördüncü dəfədir ki, biz burada, Azərbaycanın paytaxtı Bakıda "Xəzərneftqaz-97" sərgisinə toplaşmışıq. Bu dəfə keçirilən sərgi ötən illərdə keçirilən sərgilərdən öz miqyasına və iştirakçılarının sayına görə daha da genişdir, əhatəlidir.

1994-cü ilin iyun ayında Azərbaycanda ilk dəfə "Xəzərneftqaz-97" sərgisi keçirilməyə başlayıbdır. Bundan sonra həmin sərgi hər il ilin bu mövsümündə, ayında keçirilir və o, artıq ənənəvi bir xarakter alıbdır. Çox sevindirici haldır ki, bu sərgiyə, toplantıya maraq ilbəil artır. Əgər 1994-cü ildə Bakıda keçirilən ilk "Xəzərneftqaz-97" sərgisində 11 ölkəni təmsil edən [38-39] 117 şirkət iştirak edirdisə, artıq dördüncü beynəlxalq sərgidə 25 ölkəni təmsil edən 250 şirkət iştirak edir.

Şübhəsiz ki, təbiidir ki, "Xəzərneftqaz-97" sərgisi təntənəli bir mərasim deyil. Bu, işgüzar bir tədbirdir, görüşdür. Əgər Azərbaycanın paytaxtı Bakıda keçirilən bu sərgiyə dünya ölkələri və şirkətləri, xüsusən neft və qaz sənayesi ilə məşğul olan şirkətlər tərəfindən maraq bu qısa müddətdə bu qədər sürətlə artıbsa, deməк, bunun çox böyük əhəmiyyəti vardır.

Biz, Azərbaycan hökuməti ev sahibi kimi dördüncü dəfə "Xəzərneftqaz-97" beynəlxalq sərgisinin Azərbaycanda, Bakıda keçirilməsindən çox məmnunuq və bunu ölkəmizin neft-qaz sənayesinə və Azərbaycan neft sənayesinin tarixinə, ənənələrinə göstərilən böyük diqqət və marağın təzahürü hesab edirik. Bu, eyni zamanda onu göstərir ki, qədim neft diyarı kimi Azərbaycanın neft və qaz sənayesi sahəsi bu gün də özünün dünya miqyasındakı böyük rolunu saxlayıbdır və Azərbaycan neft və qaz sənayesinin həm tarixinə, ənənələrinə, həm də bugünkü imkanlarına dünyada böyük maraq vardır.

Məlumdur ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft hasilatı, ilk neft fontanı 1848-ci ildə məhz Bakıda baş vermişdir. Məlumdur ki, suda, dənizdə, dənizin dərinliyindən neft hasilatı da dünyada ilk dəfə 1949-cu ildə Azərbaycanda, Xəzərin Azərbaycan sektorunda baş vermişdir. Bunlar dünyanın neft və qaz sənayesi tarixində çox parlaq səhifələrdir. Biz bunlarla fəxr edirik və eyni zamanda həddindən artıq məmnunuq ki, bizim bu tarixi nailiyyətlərimiz bu gün, XX əsrin sonunda da dünyanın neft-qaz sənayesi sahəsində Azərbaycanı mötəbər mərkəzlərdən biri kimi tanıdıbdır.

Bu təbiidir və biz hesab edirik ki, Azərbaycan neft-qaz sənayesi keçmişdə olduğu kimi, indi də dünyada özünəməxsus yer tutubdur. Son zamanlar dünyada keçirilən beynəlxalq neft-qaz sərgiləri, konfransları içərisində – Hyuston, Abergin, Stavanker şəhərləri ilə bərabər. Artıq dördüncü il[39-40]dir ki, Bakıda. Azərbaycanda beynəlxalq neft-qaz sərgisi və konfransı keçirilir.

"Xəzərneftqaz" sərgisinin Azərbaycanda dördüncü dəfə keçirilməsi bu tədbirin artıq ənənəvi xarakter daşıdığını sübut edir. Mən tam əminəm ki, bu ənənə davam edəcəkdir və gələcək illərdə də bu sərginin, konfransın miqyası genişlənəcəkdir, gələcək sərgilər də dünyada neft-qaz sənayesinin sürətlə inkişaf etməsinə xidmət edəcəkdir.

Hörmətli qonaqlar, sərginin və konfransın iştirakçıları, bu sərgidə iştirakınıza, Azərbaycana gəldiyinizə və burada birgə işə başladığınıza görə mən sizi təbrik edirəm. Mən həm bu sərginin, konfransın keçiriləcəyi günlər zamanı, həm də gələcəkdə sizə öz işlərinizdə böyük uğurlar arzulayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, "Xəzərneftqaz-97" sərgisi dünyada neft və qaz sənayesinin inkişafı üçün yeni yollar açacaqdır, buraya toplaşmış, burada iştirak edən 250 şirkət arasında bu günlər yaxşı işgüzar əlaqələr yaranacaqdır və yeni müqavilələrin, layihələrin əsası qoyulacaqdır. Beləliklə də, şirkətlər, neft və qaz sənayesi ilə məşğul olan ölkələr arasında işgüzar əlaqələr yaranıb inkişaf edəcəkdir.

"Xəzərneftqaz" sərgisi və konfransı Xəzər dənizi hövzəsində olan ölkələrin və burada fəaliyyət göstərən neft və qaz şirkətlərinin işini bir araya gətirmək üçün də çox önəmli bir vasitədir. Xəzər dənizi hövzəsindəki neft-qaz yataqları son illər dünyanın bir çox ölkələri və bir çox neft-qaz şirkətləri tərəfindən böyük maraq hissi doğurur. Bunlar tamamilə əsaslıdır, çünki artıq yaxşı məlumdur ki, Xəzər dənizi hövzəsində zəngin neft-qaz yataqları

vardır və gələcəkdə, xüsusən XXI əsrdə bu yataqlardan istifadə olunması, neftin, qazın hasil edilməsi və dünya cəmiyyətinə təqdim edilməsi əsas vəzifələrdən biridir.

Azərbaycanın, ölkəmizin neftçilərinin, alimlərinin bu sahədə böyük nailiyyətləri, ənənələri vardır. Məlumdur ki, hələ bu [40-41] əsrin 40-50-ci illərindən başlayaraq Azərbaycanın neftçiləri, geoloqları, alimləri Xəzər dənizində neft-qaz yataqlarını kəşf etmək üçün çox işlər görüblər və böyük nailiyyətlər əldə ediblər.

Mən bu gün iftixar hissi ilə demək istəyirəm ki, Xəzər dənizindəki mövcud, indi məlum olan neft-qaz yataqlarının tam əksəriyyəti Azərbaycan neftçiləri, geoloqları, alimləri tərəfindən kəşf olunubdur. Azərbaycan neftçiləri tərəfindən son on illərdə Xəzər dənizində bir çox seysmik, geofiziki və başqa axtarışlar, işlər aparılıbdır. Bunların nəticəsində də artıq Xəzər dənizinin, demək olar ki, bütün sahəsində neft və qaz yataqlarının konturları və bir çoxunun dəqiq yerləri məlum olubdur. Məhz bunların nəticəsində Xəzər dənizinin demək olar ki, çox hissəsində, o cümlədən Azərbaycan sektorunda da, Türkmənistan sektorunda da, Qazaxıstan sektorunda da, Rusiya sektorunda da, İran sektorunda da bir çox perspektivli, çox böyük ehtiyatlara malik olan neft və qaz yataqları, strukturları müəyyən olunubdur, aşkar edilibdir.

Məhz bunlara görə də Xəzər dənizi hövzəsi indi dünyanın zəngin neft və qaz yataqları olan bir bölgə kimi tanınıbdır. Məhz buna görə də Xəzər dənizinə neft və qaz istehsal edən şirkətlərin, ölkələrin marağı artıbdır. Mən bu gün tam qətiyyətlə demək istəyirəm ki, XXI əsrdə Xəzər dənizi neft-qaz sahəsində dünyanın ən zəngin mərkəzlərindən biri olacaqdır.

Biz Azərbaycanda bu neft-qaz yataqlarının bir qismindən keçmişdə istifadə etmişdik, bir çox perspektivli strukturlardan isə istifadə etmək üçün dünyanın böyük neft şirkətləri ilə müştərək işə başlamışıq.

Artıq sizə məlumdur ki, 1994-cü ilin sentyabr ayında Xəzərin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən müştərək istifadə edilməsi və neft hasilatının təmin olunması üçün ilk müqavilə imzalanmışdır. Bu müqavilənin iştirakçıları bey[41-42]nəlxalq konsorsium təşkil etmişlər və həmin konsorsium Azərbaycan Dövlət Neft Şirkəti ilə 30 il müddəti olan bir müqavilə imzalanmışdır. "Əsrin müqaviləsi" adlandırılmış bu müqavilə ilə Xəzər dənizində suyun dərin hissələrində olan neft-qaz yataqlarından əməli surətdə istifadə edilməsi işinə geniş miqyasda başlanmışdır.

Bu müqavilənin imzalanması dünyada böyük maraq doğurmuş, bir çox müsbət və bəzən də qısqanc, yaxud da mənfi əhval-ruhiyyə ilə əlaqədar olan fikirlər meydana çıxarmışdır. Ancaq mən bu gün, bu müqavilənin imzalanmasından artıq iki ildən çox vaxt keçdiyi bir zaman məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, konsorsium əməli surətdə fəaliyyət göstərir, konsorsiumun nəzərdə tutduğu proqram ardıcıl şəkildə həyata keçirilir və bu müqavilənin həqiqətən, nəzəri, layihə nöqteyi-nəzərindən yox, məhz əməli nöqteyi-nəzərdən əhəmiyyətli olduğu artıq heç kəsdə şübhə doğurmur.

Birinci müqavilə imzalanandan sonra Xəzərin Azərbaycan sektorundakı neft-qaz yataqlarına maraq artmış və aparılan işlər nəticəsində ondan sonra bir neçə müqavilə də imzalanmışdır. Bu gün mən sizə bildirmək istəyirəm ki, artıq beynəlxalq konsorsium təşkil edən dünyanın bir çox böyük neft şirkətləri ilə bu ilin yanvar ayında beşinci müqavilə imzalanmışdır və bu müqavilələrin hər birinin özünəməxsus əhəmiyyəti, çəkisi və hər birinin böyük gələcəyi vardır. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dünyanın böyük neft şirkətləri ilə imzaladığı bu müqavilələr 11 ölkəni təmsil edən 16 şirkətlə imzalanıbdır. Beləliklə, bizim əməkdaşlığımızın dairəsi görürsünüz, nə qədər genişlənibdir.

Güman edirəm ki, bu qısa müddətdə, yəni 1994-cü ilin sentyabr ayından indiyə qədər görülən işlər və əldə edilən nailiyyətlər Xəzər dənizində olan neft-qaz yataqlarının işlənməsinin həqiqətən nə qədər əhəmiyyətli olduğunu sübut edir [42-43] və bu işlərin nə qədər böyük gələcəyə malik olduğunu nümayiş etdirir.

Bizim gördüyümüz işlərin təsiri altında və şübhəsiz ki, bu təcrübədən istifadə edərək Xəzər dənizinin digər sektorlarında və Xəzəryanı ölkələrlə dünyanın neft şirkətləri arasında müştərək iş görmək üçün hazırlıq işləri aparılır. Bildiyimizə görə bəzi müqavilələr hazırlanıb, yaxud da imzalanıbdır. Azərbaycan, şəxsən biz bunu çox məmnuniyyətlə qəbul edirik və hesab edirik ki, Xəzəryanı ölkələrin hər biri Xəzərin onlara məxsus olan sektorlarında iş görməyə hüquqludur və bu işləri görməlidir. Əgər onlar bu gün bu işləri hələ sürətlə görmürlərsə, mən tam əminəm ki, gələcək illərdə bu işlərə qoşulacaqlar.

Beləliklə, Xəzər dənizi hövzəsi dünyanın bir çox ölkələrinin və şirkətlərinin əməkdaşlıq etmək meydanına çevrilir. Bu da ümumiyyətlə, dünyada gedən inteqrasiya proseslərinə kömək edir, ölkələrin, xalqların sülh və əmin-amanlıq şəraitində bir-biri ilə əməkdaşlıq etməsi üçün çox gözəl nümunədir.

Xəzər dənizində neft-qaz hasilatı ilə əlaqədar görülən işlərdə şübhəsiz ki, Xəzər dənizinin ekologiyası hər şeydən üstün tutulmalıdır. Xəzər dənizinin təbii sərvətlərinin qorunması, saxlanması, Xəzərin təmizliyinin qorunması və dənizdə olan bioloji ehtiyatların qorunub saxlanması və hətta onların inkişaf etdirilməsi üçün lazımi tədbirlərin görülməsi də Xəzəryanı ölkələrin və bu işə cəlb olunan bütün şirkətlərin ən ümdə borcu, vəzifəsi olmalıdır.

Mən çıxışımın çox hissəsini Xəzər dənizi hövzəsinə həsr edirəm. Ancaq bugünkü "Xəzərneftqaz" sərgisi və burada keçiriləcək konfrans təkcə dənizdə yox, eyni zamanda neft sənayesində olan nailiyyətləri nümayiş etdirmək, üçün yeni əlaqələr yaratmaq məqsədi daşıyır. Azərbaycanın ərazisində, quruda olan neft və qaz yataqlarının da hələ böyük imkanları vardır. Biz bir çox şirkətlərlə bu sahədə əməkdaşlıq edirik və bundan sonra

da əməkdaşlıq edəcəyik. Hesab edirəm ki, bu sahə də bizim [43-44] diqqət mərkəzimizdə olmalıdır. Mən dünyanın neft şirkətlərinin diqqətini Azərbaycanın bu imkanlarına da cəlb etmək istəyirəm.

Şübhə etmirəm ki, bu sərgidə nümayiş etdirilən eksponatlar 250 şirkətin müasir texnologiyaya malik olan nümunələrini sərgi iştirakçılarına göstərəcək, burada çox geniş fikir mübadiləsi aparılacaq, yeni əlaqələr qurulacaqdır. Dördüncü beynəlxalq "Xəzərneftqaz" sərgisi və konfransı neft-qaz sahəsində dünyada gedən proseslərə öz xidmətini göstərəcəkdir.

Sərgini və konfransı böyük həvəslə və maraqla təşkil edən Birləşmiş Krallığın "Spirhed Eksibişna LTD" Şirkətinin və Azərbaycan Ticarət-Sənaye Palatasının xidmətlərini xüsusi qeyd edirəm və onlara bu sahədə gələcək işlərində də uğurlar arzulayıram.

Sərgi iştirakçılarını bir daha salamlayıram. Sərgiyə gəlmiş hökumət nümayəndələrinə xüsusi hörmət və ehtiramımı bildirirəm. Sizin hamınıza sərgi zamanı yeni əlaqələr qurmaq işində uğurlar arzulayıram.

Sərgi iştirakçılarına bütün gələcək işlərində müvəffəqiyyətlər arzulayıram və bu sərgidə iştirak edən şirkətlərin təmsil olunduğu ölkələrin xalqlarına sülh, əmin-amanlıq və səadət arzulayıram.

Bu əlamətdar hadisə münasibətilə sizi bir daha təbrik edirəm və cansağlığı, xoşbəxtlik arzu edirəm.

## YEKUN SÖZÜ

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün dördüncü beynəlxalq "Xəzərneftqaz" sərgisinin və konfransının açılışı çox məzmunlu, əhatəli, yüksək səviyyədə keçdi. Sərginin açılışında bir çox ölkələrin hökumət nümayəndələrinin [44-45] çıxışları və bu çıxışlarda onların irəli sürdükləri fikirlər, təkliflər, eyni zamanda Azərbaycanın paytaxtı Bakıda dördüncü dəfə keçirilən sərgiyə verilən yüksək qiymət bu sərginin həqiqətən beynəlxalq xarakter daşıdığını, bu gün üçün də, gələcək üçün də çox əhəmiyyətli olduğunu əyani sübut edir.

Sərgidə çıxış edən natiqlərin respublikamız, ölkəmiz haqqında və Azərbaycan dövlətinin, hökumətinin neft sənayesinin inkişafında və xüsusən Xəzər dənizi hövzəsində olan neft-qaz yataqlarının müştərək işlənməsi sahəsində gördüyü işlərə verdikləri yüksək qiyməti mən xüsusi qeyd edirəm və buna görə təşəkkürümü bildirirəm.

Bir daha əmin olduğumu bildirmək istəyirəm ki, "Xəzərneftqaz" sərgisi gələn illərdə də davam edəcək, ilbəil yüksəkliklərə qalxacaq və dünya dövlətlərinin, şirkətlərinin neft və qaz sənayesi sahəsindəki əməkdaşlığında özünə layiqli yer tutacaq, öz xidmətlərini göstərəcəkdir.

Amerika Birləşmiş Ştatlarının səfiri cənab Kozlariç Amerika hökuməti adından burada çıxış edərkən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun bu sərginin açılışı münasibətilə mənə göndərdiyi məktubu təqdim etdi. Prezident Bill Klintonun məktubu tək mənim üçün yox, eyni zamanda sərginin bütün iştirakçıları üçün çox böyük əhəmiyyət kəsb etdiyinə görə mən cənab Kozlariçdən rica edirəm ki, prezident Bill Klintonun məktubunu sərginin iştirakçılarına çatdırsın.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ HEYDƏR ƏLİYEV CƏNABLARINA

*Əziz cənab prezident!*

*Bakıda dördüncü beynəlxalq neft və qaz sərgisinin açılışı münasibətilə Sizi təbrik edirəm. Mən Amerika Birləşmiş Ştatları Ticarət Nazirliyinin müşaviri və yeni müstəqillik qazanmış* [45-46] *dövlətlərlə enerji-ticarət sahəsində əməkdaşlığın əlaqələndirilməsi üzrə məsul şəxs – Yan Kalitskidən xahiş etmişəm ki, o, bu mühüm tədbirdə Amerika Birləşmiş Ştatlarını təmsil etsin, mənim ən xoş arzularımı şəxsən Sizə çatdırsın və sərgi iştirakçılarına yeni-yeni uğurlar diləsin.*

*Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında sürətlə genişlənən kommersiya əlaqələri ölkələrimiz arasında inkişaf edən güclü əməkdaşlığın vacib sütunudur. Amerikanın enerji şirkətləri Azərbaycana gələn şirkətlər arasında pionerdirlər və sizin ölkənizin böyük potensialını çox tez aşkar etmişlər. Biz möhkəm və uzunmüddətli tərəfdaşlığın əsasını qoymuşuq. Bu tərəfdaşlıq neft və qaz sənayesinin inkişafına nəzərəçarpacaq töhfələr vermək potensialına malikdir.*

*Bir qədər sonra, bu yay Sizin Vaşinqtona səfəriniz zamanı kommersiya sahəsində əməkdaşlıq imkanlarını müzakirə edəcəyimizə ümid bəsləyirəm.*

*Səmimiyyətlə,*

**Uilyam KLİNTON,**
**Amerika Birləşmiş Ştatlarının prezidenti**

*Ağ ev, Vaşinqton*
*30 may 1997-ci il* [46-47]

## GÖRKƏMLİ MÜĞƏNNİ VƏ MUSİQİÇİ İOSİF KOBZONUN BAKIDA "VİDA QASTROLU" ZAMANI ONUNLA SÖHBƏTDƏN

*Respublika sarayı*

*5 iyun 1997-ci il*

Hörmətli İosif Davıdoviç!

Mən sizi Azərbaycan torpağında, respublikamızın paytaxtı Bakıda, bu möhtəşəm sarayda ürəkdən salamlayır və deyirəm ki, sizin gəlməyinizdən olduqca şadam və dinləyiciləri necə məmnun etdiyinizi özünüz görürsünüz. Bundan əlavə, özünüz şahidsiniz ki, salonda bizim televiziyanın kameraları qoyulmuşdur, bu konserti bütünlüklə lentə çəkirlər və sonra Azərbaycanın bütün sakinlərinə göstərəcəklər. Bu, böyük hadisədir. Salonda bütün yaşlardan olan adamlar var və sizin ifa etdiyiniz mahnıları yaxşı qarşılayırlar.

Məndən soruşdunuz ki, sizin üçün nə oxuyum? Mənim istədiklərimin hamısını oxudunuz. Əlbəttə, o vaxtların, 60-70-ci illərin mahnıları gözəl idi. O illərdə biz cavan idik, lakin bu mahnılar da ölməzdir. Məsələn, "Qara gözlər" mahnısı. Bu mahnı xaricdən gəlib, o vaxt da çox məşhur idi, indi də məşhurdur. O, yaşadı, yaşayır və bundan sonra da yaşayacaqdır. Sizin oxuduğunuz digər mahnılar da beləcə yaşayacaqdır. Məsələn, salondan sizə dedilər ki, "Durnalar" mahnısını oxuyasınız. Nə qədər gözəl mahnıdır! Bu mahnının necə yaranması mənim xatirimdədir. Mərhum Frenkel onu Rəsul Həmzətovun [47-48] sözlərinə bəstələmişdi. Həqiqətən ölməz mahnıdır, 60-cı illərdə "Bizim həyətdə" mahnısı da çox məşhur idi. Mən bu mahnını ilk dəfə Maya Kristalinskayanın ifasında eşitmişəm. Onun bu mahnını necə gözəl oxuması xatirimdə qalıbdır. Sonralar bu mahnını o qədər sevdik ki, evimizdə həyat yoldaşım onu özü çalıb oxuyurdu. Bu mahnı həmişə mənimlə birlikdə olubdur. İndi isə uzun fasilədən sonra mən həmin mahnını yenidən eşitdim. Bilirsiniz, mənə nə qədər böyük təsir bağışladı.

Sizi hamı tanıyır, o cümlədən mən də görkəmli müğənni və musiqiçi kimi, qeyri-adi qabiliyyətə malik insan kimi tanıyıram. Məncə, sizin kimi yorulmaq bilməyən insan, müğənni yoxdur. Bilirsiniz, bir dəfəyə, fasiləsiz olaraq bu qədər çox və çətin mahnıları gözəl səslə və parlaq şəkildə ifa etmək – bu sizə bəxş edilmiş Allah vergisidir. Üstəlik, siz yorulmaq bilmirsiniz. Bəlkə də bunu deməyim o qədər də yerinə düşmür, ancaq mən də son dərəcə böyük həcmdə iş görməli oluram. Çox çıxış etmək, nitqlər söyləmək, xaricdən gələn müxtəlif nümayəndə heyətlərini qəbul edərkən çox danışmaq lazım gəlir. Həm də sadəcə olaraq söhbət etmək deyil, mən məsələləri müzakirə və həll edirəm. Amma bir var ki, işgüzar şəraitdə danışasan, bir də var oxuyasan, axı, hər mahnının öz xüsusiyyəti, öz çalarları var. Mən bunların hamısına fikir verirdim. Axı mahnıların hamısı eyni qəbildən, eyni janrda, xarakterdə deyil, hamısı eyni səslə oxunmur, hər şey dəyişir.

Bu baxımdan siz, şübhəsiz, nadir insan, nadir müğənni, nadir musiqiçisiniz. Mən çox şadam ki, siz buraya gəlmisiniz. Sevdiyiniz bütün şəhərlərə, keçmiş ittifaqın şəhərlərinə belə qastrol səfərinə çıxmağınızın özü də gözəl təşəbbüsdür. Belə hesab edirsiniz ki, "Vida qastroluna" çıxmısınız, amma mənə elə gəlir ki, bu, vida qastrolu deyildir. Bunu gələcək göstərəcək, ola bilsin, bəlkə də məqsədiniz məhz budur, amma daha böyük iş görürsünüz. Siz vaxtilə bir dövlətin tərkibində olan insanları, xalqları, respublikaları əlaqələndirirsiniz. [48-49]

Şübhəsiz, sizin ifa etdiyiniz mahnılar bu və ya başqa dərəcədə bizim respublikamızda yaşayır. Ancaq siz onları adamların yaddaşında təzələyir, canlandırırsınız. Siz onları yada salır və yeni gümrahlıq verirsiniz – bu, böyük işdir. Dediniz ki, Bakı səfərə çıxdığınız on birinci şəhərdir. İndiyədək olduğunuz respublikalara necə fayda verdiyinizi təsəvvür edirəm. Amma mən bunu məhz bizim respublikamız, xalqımız üçün, insanlarımız vətəndaşlarımız üçün böyük faydasının olması baxımından qiymətləndirirəm. Çünki mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir şey, heç bir vasitə oynaya bilməz. Siz bunu çox əla edirsiniz. Sizin bu missiyanız sadəcə olaraq qastrol səfəri, qarşıdakı yubileyinizlə əlaqədar şəhərlərdə olub konsertlər vermək deyildir. Bu, əlaqələrin, dostluğun möhkəmlənməsinə, qiymətli və əziz nə varsa, hamısını möhkəmləndirməyə xidmət edən böyük işdir.

Mən sizə minnətdaram. Bilirdim ki, gələcəksiniz və hətta sizdən məktub da almışdım. Dərhal da sizə cavab verdim ki, bu təklifinizi məmnuniyyətlə qəbul edirəm. Bu gün işlərim çox idi, böyük çətinliklə onları qurtardım və iş otağımdan birbaşa buraya gəldim. Sizinlə görüşməyimdən çox şadam, özü də təkcə ona görə yox ki, əla çıxış edirsiniz, bu cür gözəl formadasınız, həm də ona görə ki, bu salona toplaşmış, sizi belə səmimi və hərarətlə qarşılayan adamlarımıza çox böyük zövq verirsiniz. Sizə təşəkkür edir, sizi təbrik edirəm. O ki qaldı "Vida qastroluna", hesab edirəm ki, bu vida olmayacaqdır. Əlbəttə, sentyabrın 11-də biz sizin 60 illik yubileyinizi keçirəcəyik, amma bundan sonra siz dayana bilməyəcəksiniz. Belə potensialla, belə səslə, bu cür yorulmazlıqla, enerji ilə siz evdə oturub qəzet oxuya bilməzsiniz. Mən bilirəm ki, sizin başqa bir işiniz olmayıb, sizin həyatınız musiqi, mahnıdır. Xatirimdədir, nə vaxtsa tərcümeyi-halınızı danışırdınız ki, uşaq yaşlarından [49-50] fitri istedada malik olmusunuz və o da sizi incəsənətə gətiribdir. Ona görə də siz incəsənətdən kənarda qalmayacaqsınız.

Mən sizə hələ uzun illər səhnə fəaliyyəti arzulayıram. Bunun üçün sizin imkanlarınız da, çox böyük potensialınız da var və bunu heç bir halda söndürmək olmaz. Sizə uğurlar arzulayır, bir daha təşəkkür edirəm. Çox şadam ki, xanımınızla gəlmisiniz.

Mən orkestrin üzvlərinə və onların rəhbəri Nikolay Nekrasova da ən səmimi sözlərimi yetirmək, hörmət və minnətdarlıq hisslərimi bildirmək istəyirəm. Sizin orkestr çox məşhurdur, onu hamı sevir, o cümlədən şəxsən mən də çox sevirəm. Mən sizin orkestri çoxdan tanıyıram, sizin sənətinizin, yaradıcılığınızın pərəstişkarıyam və çox xoşdur ki, yaşadığımız və indi yaşamaqda olduğumuz dövrün bütün çətinliklərinə baxmayaraq, orkestri on il əvvəl Moskvada yaşayarkən gördüyüm kimi yaxşı vəziyyətdə saxlaya bilmisiniz. Ona görə də sizi təbrik edir və buraya gəldiyiniz üçün təşəkkürümü bildirirəm. Sizin yaradıcılıq əməkdaşlığınız mənim xoşuma gəlir, bu, çox gözəldir, ona görə də kollektivinizin bütün üzvlərinə, bütün musiqiçilərə mənim ən xoş arzularımı çatdırın.

Gözəl çıxışınız münasibətilə hamınızı təbrik edirəm. Şübhəsiz, pianoçunu da xüsusi qeyd etmək lazımdır, bu gün o, əla çalırdı. Melodiyanı dərhal duyub ifa edən musiqiçiləri mən çox sevirəm. Mən cavanlığımda musiqiçilərlə dostluq edirdim. Bizim çoxlu yaxşı musiqiçilərimiz vardı. Niyazi, Çingiz Sadıqov, – deyirlər o, artıq buradan gedib, – Tofiq Quliyev. Yenə öz ailəmə qayıdıram. Həyat yoldaşım və onun bacısı gözəl çalırdılar və birinci dəfədən hər şeyi ifa edirdilər. Elə olurdu ki, haradasa görüşürdük və kim isə hansısa mahnını zümzümə edirdi, həyat yoldaşım dərhal royalın arxasına keçir və o saat da çalmağa başlayırdı. Bu, mənim çox xoşuma gəlir. Mən bu gün görürdüm ki, pianoçu sadəcə olaraq çalmır, o, bütün mahnıları bilir. Eyni zamanda o, İosif Davıdoviçin nəyi oxumaq istədiyi[50-51]ni də bilir və hiss edir və dərhal çalırdı. Bax, beləcə əlaqə və qarşılıqlı yaradıcılıq anlaşması və şübhəsiz, gözəl ifaçılıq var. Ona görə sizi də təbrik edirəm. Çox şadam ki, gəlmisiniz. Sizin hamınıza təşəkkürümü bildirirəm. [51-52]

## BÖYÜK AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU SƏMƏD VURĞUNUN "FƏRHAD VƏ ŞİRİN" PYESİNİN YENİ QURULUŞDA TAMAŞASINA BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı*

*7 iyun 1997-ci il*

Mən pyesə böyük məmnunluqla tamaşa etdim, əsərin yeni quruluşunu və tərtibatını, aktyorların sənətkarlığını yüksək qiymətləndirirəm. Mən bu əsərə hələ 40-cı illərdə baxdığımı yaxşı xatırlayıram. Bu gün də tamaşanın yeni quruluşundan sevinc və iftixar hissi duyduğumu bildirirəm.

"Fərhad və Şirin" çox yüksək qiymətə layiq əsərdir və tamaşanın uzunömürlü olması təsadüfi deyil. Bu, böyük şairimiz Səməd Vurğunun xalqımıza, mədəniyyətimizə bəxş etdiyi ən böyük töhfələrdən biridir, onun ən gözəl yadigarıdır. Tamaşa xalq şairinin 90 illik yubileyinə qədər hazırlanmalı idi, lakin bəzi səbəblərə görə bir qədər gecikdi.

Bildirməliyəm ki, hamı kimi mən özüm də tamaşanı çox səbirsizliklə gözləyirdim. Bu gün teatrsevərlərə orijinal quruluşda hazırlanmış tamaşa təqdim etdiyinizə görə yaradıcı kollektivinizə bir daha təşəkkür edirəm.

Səməd Vurğunun dahi şair, dramaturq, yazıçı, filosof, alim olduğunu cəmiyyətimiz bir daha dərk edir. O, həqiqətən çox [52-53] dəyərli irs qoyubdur. Onun adı da, əsərləri, yaradıcılığı da yaşayır. Məhz buna görə də Səməd Vurğunun 90 illik yubileyini biz təntənə ilə, onun adına, yaradıcılığına layiq keçirdik. Siz isə öz vəzifənizi yüksək səviyyədə, Səməd Vurğunun yaradıcılığına layiq şəkildə həyata keçirdiniz. Bu, bizim Azərbaycan teatr sənətinin, Milli Dram Teatrının böyük müvəffəqiyyəti və uğurudur.

Mən milli teatrın kollektivini bu yaradıcılıq müvəffəqiyyəti münasibətilə bir daha ürəkdən təbrik edir və ona gələcəkdə daha böyük uğurlar arzulayıram.

Bildirmək istəyirəm ki, "Fərhad və Şirin" öz məzmunu, mənası, mənəvi dəyərləri ilə həddindən artıq təsiredicidir, ibrətamizdir və bu əsərin məzmunu, mənası, süjeti daim aktualdır. Bu əsər insan münasibətlərində pak, saf sevgi-məhəbbətin nə qədər güclü, nə qədər ülvi olmasını, eyni zamanda xəyanətin, satqınlığın nə qədər nifrət və ikrah hissləri doğurduğunu parlaq surətdə göstərir.

Tamaşaya hissiz-həyəcansız baxmaq mümkün deyil. Səməd Vurğunun bu əsərindəki psixoloji məqamlara, fəlsəfi fikirlərə, onun yüksək şeriyyətinə, ədəbi qiymətinə bir daha qayıdıram. Bütün bu məziyyətlər hədsiz dərəcədə təsiredicidir. Əsəri kitabdan oxuyan hər kəs bu təsirin altında olacaqdır. Amma siz rejissorlar, tərtibatçılar, aktyorlar, tamaşanı hazırlayan bütün kollektiv isə onu dərk etmək üçün, anlamaq üçün, məzmununu, mənasını başa düşmək üçün çox böyük məharət, sənətkarlıq nümunəsi göstərmisiniz. Ona görə də mən və eləcə də salonda əyləşənlərin hamısı bu əsəri başdan-ayağa yaşadıq.

Əsərin süjeti mənə məlumdur. Qeyd etdim ki, tamaşanı ilk dəfə 40-cı illərdə görmüşəm, oxumuşam. Ancaq nə qədər məlum olsa da, tamaşanı əvvəldən axıradək həyəcanla izləyirsən. Siz tamaşanı elə gözəl qurmusunuz ki, salonda oturanlara hər dəqiqə çox böyük estetik, psixoloji və mənəvi təsir edirsiniz. Mən şəxsən belə təsirin altındayam və ona görə də sizin [53-54] yanınıza həyəcanlı gəlmişəm. Bu, sizin yüksək sənətkarlığınızı göstərir. Mən çox sevinirəm ki, milli teatrımız öz ənənələrini itirməyibdir, müasir tələblər səviyyəsindədir, Azərbaycan mədəniyyətinin aparıcı bir hissəsi kimi öz vəzifəsini yerinə yetirir.

Bilirsiniz ki, mən Azərbaycan Milli Teatrını həmişə sevmişəm, onun pərəstişkarı olmuşam və indi də pərəstişkarıyam.

Son dəfə bu salonda gərək ki, 1984-cü ildə olmuşam – onda Moskvada işləyirdim, Bakıya gəlmişdim, o vaxt "İblis" əsərini göstərirdiniz. O vaxtdan 14 ilə qədər bir vaxt keçibdir. Həmin müddətdə mən bu salonda olmamışdım, sizinlə görüşməmişdim. Bakıda işlədiyim və yaşadığım zaman teatr işləmirdi, təmirdəydi. Siz işə başladıqdan sonra isə mənim bir müddət vaxtım olmadı. Çox şadam ki, uzun fasilədən sonra teatrla, sizinlə görüşüm məhz bu əsərlə başladı. Bunun da çox böyük əhəmiyyəti var. Burada Səməd Vurğun yaradıcılığı var, onun ölməz əsəri var və sizin kimi gözəl sənətkarların – artistlərin, rejissorların, hamınızın bir yerdə yaratdığınız gözəl səhnə əsəri var.

Sizin hamınızı təbrik edirəm. Əsərə çox gözəl quruluş verilib. Bilirəm ki, Cənnət xanım tamaşanın quruluşçu rejissorudur. Onu çoxdan yüksək səviyyəli bir quruluşçu rejissor kimi tanıyıram. Onun hazırladığı bir neçə gözəl əsərin keçmişdə də şahidi olmuşam və məmnunam ki, indi Cənnət xanım belə mürəkkəb, çox çətin bir əsərin səhnədə yenidən canlandırılmasının məsuliyyətini öz üzərinə götürübdür və bu işin öhdəsindən layiqincə gəlibdir. Çox sağ olun, təşəkkür edirəm.

Tərtibat da çox gözəldir, qeyri-adidir, çox maraqlıdır, tamaşanın tərtibatı və quruluşu bir-biri ilə ahəngdar vəhdət təşkil edir. Bu da həqiqətən bu əsərin yüksək səviyyədə hazırlandığını göstərir. O ki qaldı ifaçılara, bir çoxunuzu tanıyıram, sizin sənətinizi görmüşəm və sevmişəm. Bəziləriniz də gəncsiniz, sizləri yeni görürəm. Hamınız öz rollarınızı çox gözəl ifa etdiniz. Hamınıza təşəkkür edirəm. Bizim görkəmli aktyo[54-55]rumuz, böyük sənətkar Mikayıl Mirzə baş rolu çox gözəl ifa etdi. Xatirimdə deyil, deyəsən əvvəllər bu rolu Rza Əfqanlı və Ələsgər Ələkbərov oynayırdılar. Onlar həmişə bir-birinin dublyoru olublar. Vaqif rolunda da hər ikisi oynayıb, ikisini də görmüşəm. İndi bu böyük aktyorların, xüsusən Ələsgər Ələkbərovun davamçıları da var, yeni-yeni müasir səhnə ustalarımız var, onların da görkəmlisi Mikayıl Mirzədir. İndiyə qədər olduğu kimi yenə də çox gözəl, fədakarcasına, çox böyük məharətlə, ürəklə bu rolu ifa etdi. Hesab edirəm ki, Mikayıl Mirzənin ifa etdiyi bütün rollarla yanaşı, bu surət onun yaradıcılığında çox görkəmli yer tutur. Əlbəttə, hər bir sənətkar özü müəyyən edir ki, hansı surət onun üçün daha da sevimlidir. Bu obraz həqiqətən çox yüksək mənəviyyatı ilə seçilir. Bu rolu yaratmaq bir o qədər də asan deyil.

Bizim fədakar aktyorumuz Həsən Məmmədov uzun illərdir ki, teatrda, kinoda çox fəal çalışır, kinomuza və səhnəmizə həmişə böyük uğurlar gətiribdir. Çox məmnunam ki, Həsən Məmmədov yenə də səhnədədir, yenə də teatrdadır və Xosrov rolunu da çox məharətlə ifa etdi.

Şirin rolunu ifa edən Məleykə Əsədova gəncdir. Yəqin ki, o vaxtlar teatrda yox idi, təzə gəlibdir. Çox gözəl, təbrik edirəm. Həmişə istəmişəm ki, bütün sahələrdə gənclər olsun. Yaşlılar, təcrübəli adamlar olmalıdır və bizim cəmiyyətimizi irəliyə aparmaq üçün fəaliyyət göstərməlidirlər. Amma gənc nəsil də yetişməlidir. Teatr ona görə yaşayır ki, vaxtilə Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mirzağa Əliyev, Sidqi Ruhulla, Ələsgər Ələkbərov, Adil İsgəndərov, Rza Əfqanlı, Fatma Qədri, Hökümə Qurbanova, onlardan sonra gələnlər var idi. İndi orta nəsil – Mikayıl Mirzə, Həsən Məmmədov və başqalarıdır. Amma gərək bu sıra pozulmasın, fasilə olmasın, birinin dalınca o birisi gəlməlidir. Bu, mütləq lazımdır. Çünki yaşlı nəsil həm gənclərə təcrübə verir, həm də sənətimiz davam edir. [55-56]

Bilirsiniz, mən mədəniyyəti, teatrı çox sevdiyimə görə, uzun illər – on illərlə teatra, sənətə həmişə çox qayğı göstərdiyimə görə istəyirəm ki, mədəniyyətimizin bütün sahələri o cümlədən milli teatrımız yaşasın. Bunun üçün isə gənclər lazımdır. Gənc aktrisa Şirin rolunu çox gözəl ifa etdi. Mən bilirəm, vaxtilə səhnəmizin ulduzları olubdur – Mərziyə Davudova, Fatma Qədri, Hökumə Qurbanova var idi. Şəfiqə Məmmədova da, Amaliya Pənahova da və başqaları da var. İndi isə gənc aktrisa Məleykə Əsədova var. Arzu edirəm ki, belə məleykələr çox olsun, həm özləri məleykə olsunlar, həm də gördükləri işlər.

Mən sizin vaxtınızı almaq istəmirəm. Hərə öz rolunu çox yaxşı oynadı. Mən tamaşaya çox diqqətlə baxırdım və bilirsiniz ki, teatra da az-çox bələdəm. Teatrımızı həmişə böyük iftixar hissi ilə xatırlayıram və tariximiz haqqında danışanda qürur hissi ilə deyirəm ki, 1873-cü ildə Azərbaycan Teatrı yaranıbdır. Bu adi hadisə deyil. Şərq aləmində, müsəlman aləmində 1873-cü ildə teatr yaratmaq millətimizin mədəniyyətimizə nə qədər bağlı olduğunu göstərir. Mirzə Fətəli Axundovun və ondan sonra gələnlərin sayəsində.

Xatirimdədir, 1973-cü ildə bu teatrın 100 illik yubileyini böyük təntənə ilə keçirdik. Xatirinizdədirsə, rəhmətlik Mehdi Məmmədova, İsmayıl Dağıstanlıya, İsmayıl Osmanlıya böyük adlar verildi, nə qədər başqa insanlara böyük mükafatlar verildi. Bunların hamısı xatirimdədir, gözümün qabağındadır. Respublika sarayında yubileyi təntənə ilə keçirdik. Niyə? Çünki bu salon balaca idi, ona görə orada keçirdik. Mən orada teatr haqqında məruzə etdim. Həyatımda çox məruzələr etmişəm, mühazirələr oxumuşam, nitqlər söyləmişəm, amma teatr haqqında etdiyim məruzəni öz həyatımda xüsusi qiymətləndirirəm.

Teatrımızın böyük tarixi, böyük ənənələri gözəl nümunələri var və bu teatr bu gün də, gələcəkdə də yaşamalıdır. sizin [56-57] gedən proseslərə görə son illər teatrın həyatında bir qədər çətinliklər olubsa, bunlar keçib gedəcəkdir. Görürsünüz, teatr artıq yüksək səviyyədədir və yaşayacaqdır. Siz də yaşayacaqsınız və xalqımıza daim mənəvi qida verəcəksiniz, onu sevindirəcəksiniz.

Bu əsər bu gün aktualdır bir də ona görə ki, yenə də deyirəm, həm sevgi, məhəbbət saf və pak olmalıdır, həm də xəyanətə satqınlığa və vəzifəpərəstliyə qarşı mübarizə aparılmalıdır. Əsərdəki Şapur surətini götürün – baş vəzir olmaq üçün xəyanətə əl atır. Bütün bunlar yaşadığımız dövr üçün də aktualdır. Bizim dövrümüzdə nə qədər adamlar vəzifə almaq üçün nə qədər xəyanətlər ediblər. Bizim televiziyamız son vaxtlar həmin xəyanətin nümunələrini göstərir. Xalqa, millətə qarşı nə qədər xəyanətlər ediblər. Əgər Şapur təkcə Fərhada və yaxud Şirinə, elə Xosrovun özünə xəyanət etdisə, amma bu gün xəyanət edənlər bütün millətə xain çıxıblar, ölkəmizə, dövlətimizə, dövlətçiliyimizə xəyanət ediblər. Ona görə də Səməd Vurğunun əsəri bu gün də aktualdır, 10 il də, 50 il də bundan sonra aktual olacaqdır. Nə qədər ki, insan cəmiyyəti yaşayır, insanlar arasında gedən bu proseslər daimidir.

Mən istərdim ki, məhəbbət, sevgi həmişə olsun, xəyanət, satqınlıq heç vaxt olmasın. Siz də bunu istərdiniz. Ancaq bu, nə sizdən, nə də məndən asılı deyildir. Ona görə də bu, çox aktual bir əsərdir və bu əsərin indi səhnəyə gəlməsinin cəmiyyətimiz üçün, müstəqil Azərbaycan dövləti üçün və bizim insanların tərbiyəsi, kamilləşməsi, təkmilləşməsi üçün çox böyük əhəmiyyəti var. Allah Səməd Vurğuna rəhmət eləsin, güman edirəm ki, onun ruhu bu gün şad olur və Allah sizə də uzun ömür versin, teatrınıza yeni-yeni uğurlar nəsib olsun. [57-58]

**RUSİYA FEDERASİYASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**BORİS NİKOLAYEVİÇ YELTSİN**
**CƏNABLARINA**

Möhtərəm Boris Nikolayeviç!

Milli bayram – suverenlik haqqında bəyannamənin qəbul edilməsi günü münasibətilə sizi və Rusiya Federasiyasının dost xalqını ürəkdən təbrik edirəm.

Mən Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasındakı ənənəvi dostluq münasibətlərini və əməkdaşlığı yüksək qiymətləndirirəm və ümidvaram ki, bu əlaqələr xalqlarımızın rifahı, regionda sülh və sabitlik naminə bundan sonra da inkişaf edəcək və dərinləşəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, Rusiya Federasiyasının dost xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 iyun 1997-ci il* [58-59]

## QAZAXISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*10 iyun 1997-ci il*

Bu, Azərbaycan prezidentinin Qazaxıstana ilk rəsmi səfəridir. Bildiyiniz kimi, keçən ilin sentyabrında Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycanda rəsmi səfərdə olmuşdur. Biz dövlətlərarası, hökumətlərarası bir çox müqavilələr, sazişlər imzalamış və çox səmərəli danışıqlar aparmışdıq. Son illər Qazaxıstan ilə Azərbaycan arasında əlaqələr bütün sahələrdə yaxşı inkişaf edir, iqtisadi əlaqələrin inkişafına da çox böyük imkanlar var. Həm bölgədə, həm müstəqil dövlətlər birliyi tərkibində, həm də beynəlxalq təşkilatlarda bir çox məsələlərdə bizim mövqelərimiz bir-birinə yaxındır, yaxud eynidir, üst-üstə düşür. Bunlar hamısı ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etməsini tələb edir. Biz Xəzər dənizi vasitəsilə Qazaxıstanla qonşuyuq. Son illər məhz Azərbaycanın təşəbbüsü nəticəsində Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması sahəsində görülən işlər artıq digər Xəzərətrafı ölkələri də bu işə cəlb edib, Qazaxıstan da bu işlərlə məşğul olur. Transqafqaz nəqliyyat dəhlizi haqqında keçən ilin mayında Sərəxsdə imzaladığımız sazişə Qazaxıstan da qoşulub və bu iş geniş miqyas alır. Bunların hamısı bizim əməkdaşlığımızın bundan sonra daha geniş və uğurlu olmasına əsas verir. Məhz bunlara görə mən Qazaxıstan prezidenti cə[59-60]nab Nursultan Nazarbayevin dəvəti ilə oraya rəsmi səfərə gedirəm. Hesab edirəm ki, bu, həm ikitərəfli əlaqələr üçün, həm də Azərbaycan üçün əhəmiyyətlidir.

**Sual: Bu yaxınlarda ATƏT-in Minsk konfransı və Minsk qrupunun həmsədrləri Bakıda olarkən onların təklif etdikləri variantlar əsasında 1997-ci ildə sülh əldə etməyin mümkünlüyünə əminsinizmi?**

**Cavab:** Bu başqa mövzudur, mən hələ Qazaxıstan haqqında danışıram.

**Sual: Qazaxıstandan Xəzər dənizi vasitəsilə Azərbaycana boru kəmərinin çəkilməsi Bakı-Ceyhan marşrutunun mövcud olacağı imkanını artırırmı?**

**Cavab:** Yəqin ki, biz əvvəlcə Qazaxıstandan Xəzər vasitəsilə Azərbaycana, buradan da Gürcüstana, Qara dəniz sahilinə boru kəmərinin çəkilməsi haqqında sənəd imzalayacağıq. Sonra isə baxarıq. [60-61]

## ALMATI HAVA LİMANINDA QAZAXISTAN TELEVİZİYASI MÜXBİRLƏRİNİN SUALLARINA CAVAB

*10 iyun 1997-ci il*

**Sual: Respublikamıza ilk rəsmi səfərinizdən əsas məqsəd nədir?**

**Cavab:** Siz bilirsiniz ki, son illər Qazaxıstan ilə Azərbaycan arasında yaxşı, xoş münasibətlər və dostluq münasibətləri yaranmışdır. 1996-cı ilin sentyabrında Qazaxıstan Respublikasının prezidenti, dostum Nursultan Nazarbayev mənim dəvətimlə Azərbaycana rəsmi səfərə gəldi. Biz çox səmərəli danışıqlar apardıq, münasibətlərimizin normativ-hüquqi bazasını təşkil edən bir sıra sənədlər imzaladıq. Onda o, məni Qazaxıstana rəsmi səfərə dəvət etdi. Mən onun dəvətini qəbul etdim və öz vədimi yerinə yetirirəm. Təbii ki, bütün bunlar ölkələrimiz arasında, müstəqil dövlətlərimiz – Qazaxıstan ilə Azərbaycan arasında münasibətləri daha da dərinləşdirməklə və genişləndirməklə bağlıdır. Biz Xəzər dənizi vasitəsilə həmsərhədik, keçmişdə əlaqələrimiz çox olub, indi də iqtisadi əlaqələrimiz çoxdur. Keçmişdə mədəniyyət, təhsil, elm sahəsində də əlaqələrimiz çox idi. Əməkdaşlığımızı inkişaf etdirmək və dərinləşdirmək üçün böyük potensial imkanlar var və bu imkanlar həm Qazaxıstana, həm də Azərbaycana böyük fayda gətirəcəkdir. Qazaxıstana səfərimdən məqsəd də məhz bütün bunlardır. [61-62]

**Sual: Xahiş edirəm, deyəsiniz, Siz neft-qaz sahəsində, o cümlədən neftin Azərbaycan vasitəsilə dünya bazarına nəql olunmasında Qazaxıstan və Azərbaycanın qarşılıqlı münasibətlərinin perspektivlərini necə qiymətləndirirsiniz?**

**Cavab:** Mən bunu olduqca ümidverici, çox yaxşı qiymətləndirirəm. Bu baxımdan bizim müəyyən nailiyyətlərimiz, razılığa gəldiyimiz mülahizələrimiz var və burada xüsusi sənəd imzalanacaqdır. Həmin sənəd Xəzər dənizindən keçərək neftin Qazaxıstan-Azərbaycan marşrutu ilə beynəlxalq bazarlara nəqli zamanı neft və qaz sənayesi sahəsində Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlığa dair əməli tədbirləri müəyyənləşdirəcəkdir.

**Sual: "Beynəlxalq bazarlar" dedikdə siz nəyi – Aralıq dənizini nəzərdə tutursunuz?**

**Cavab:** Həm Qara dənizi, həm də, şübhəsiz ki, Aralıq dənizini.

**Sual: Bu, Azərbaycan üçün nə dərəcədə vacibdir?**

**Cavab:** Hesab edirəm ki, bu, Azərbaycan üçün olduğu kimi, Qazaxıstan üçün də vacibdir. Çox sağ olun. [62-63]

## AZƏRBAYCAN–QAZAXISTAN DÖVLƏTLƏRARASI VƏ HÖKUMƏTLƏRARASI SƏNƏDLƏR İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*10 iyun 1997-ci il*

Hörmətli prezident Nursultan Nazarbayev!

Qazaxıstana gəlmək, Qazaxıstan Respublikasına rəsmi səfər etmək dəvətinə görə Sizə təşəkkürümü bildirirəm və bunu Qazaxıstan-Azərbaycan münasibətlərində, Azərbaycanın həyatında mühüm hadisə hesab edirəm. Hörmətli Nursultan Abişoviç, Sizin ötən ilin sentyabrında Azərbaycana rəsmi səfəriniz Qazaxıstan ilə Azərbaycan arasında yeni münasibətlərin həqiqətən bünövrəsini qoydu. Xalqlarımız ümumi tarixi köklərə, zəngin birgə tarixə, zəngin yaxın və oxşar ənənələrə malikdirlər. Bizi keçmişlə birgə tariximizdə olanlar da birləşdirir. Lakin Qazaxıstan və Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ölkələrimizin həyatında və xalqlarımızın həyatında tamamilə yeni mərhələ başlandı. Nursultan Abişoviç, bu yeni mərhələdə Sizin Azərbaycana səfəriniz ölkələrimiz arasında, dövlətlərimiz arasında bütün sahələrdə fəal əməkdaşlığın yeni dövrü oldu.

O vaxtlar Bakıda imzalanmış mühüm sənədlər indi işləyir və əməkdaşlığımıza xidmət edir. Burada, Qazaxıstanda, Alma[63-64]tıda bugünkü görüş də Sizin Azərbaycana səfərinizlə əlaqədar başlanmış işin davamıdır.

Nursultan Abişoviç, mən Sizinlə tamamilə razıyam ki, biz bütün sahələrdə, xüsusən iqtisadi sahədə fəal əməkdaşlıq üçün böyük imkanlara malikik. Xəzər vasitəsilə ümumi sərhədimiz və keçmiş iqtisadi əlaqələrimiz Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi əməkdaşlıq bizə olduqca çox imkanlar verir, bundan ötrü çox yaxşı zəmin yaradır. Elə bu gün imzalanmış sənədlər də məhz bu işə xidmət edir. Mən Qazaxıstan prezidenti və Azərbaycan prezidenti tərəfindən imzalanmış iki sənədə daha böyük əhəmiyyət verirəm. Əlbəttə, digər sənədlərin də çox böyük əhəmiyyəti var və ümumiyyətlə, Sizin əlavəniz nəzərə alınaraq 16 deyil, 17 sənəd imzalandı. Artıq bu, əməkdaşlığımızın müqavilə-hüquqi əsası üçün böyük potensialdır və mən əminəm ki, hər iki tərəf bu imkanlardan əməkdaşlığın inkişafı və dərinləşməsi üçün fəal istifadə edəcəkdir.

Nursultan Abişoviç, mən Sizin fikirlərinizlə tamamilə razıyam ki, bir çox beynəlxalq məsələlərdə, regional məsələlərdə, MDB-də və MDB ətrafında həll edilən problemlərdə Azərbaycanla Qazaxıstan eyni mövqeyə malikdirlər və bu eyni mövqe bizə öz milli məsələlərimizi həqiqətən həll etməyə və eyni zamanda istər Avrasiya regionunda, istərsə də MDB məkanında əməkdaşlığa fəal kömək göstərməyə imkan verir.

Qazaxıstana dəvət olunduğuma görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm və ümidvaram ki, bu gün də, sabah da qarşıdakı saatlar ölkələrimiz üçün, xalqlarımız üçün daha çox yeniliklər və yaxşılıqlar gətirəcəkdir.

**Sual: Cənab Nazarbayev, Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq nə ilə əlaqədardır və yenicə imzaladığınız bəyannamə nə kimi perspektivlər açır? İqtisadi prosesləri ləngidən Qarabağ münaqişəsinin həlli** [64-65] **bütün regionda təhlükəsizliyin və sabitliyin təmin edilməsinə nə kimi töhfə verə bilər?**

**Nursultan Nazarbayev:** Əvvəla, dövlətlər kimi Qazaxıstanla Azərbaycan arasında, xalqlarımız arasında heç bir səbəb yoxdur ki, dostluq etməyək.

Bizim heç bir əsasımız yoxdur ki, nədəsə, haradasa bir-birimizdən narazı olaq. Biz bir-birini tamamlayan iqtisadiyyatına malikik. Tutaq ki, Azərbaycanın neft hasilatı, neft məhsullarının emalı, neft avadanlığı və texnologiyası istehsalı, xüsusən dənizdə neft çıxarılması sahəsində çox böyük təcrübəsi var. Qazaxıstanlılar neftin birgə kəşfiyyatı və emalı zamanı, neft maşınqayırmasında bu çox böyük təcrübədən niyə də istifadə etməsinlər? Biz çoxlu kimya məhsulları alırdıq, bəzi ərzaq malları istehsal edirdik və Azərbaycana daim taxıl, ət məhsulları, əlvan metallar xammalı, ferroərintilər və sair göndərirdik. İndi bu əlaqələr qırılmışdır, ticarətin həcmi cəmi təxminən 40 milyon dollardır. Biz bu həcmi on dəfə, yüz dəfə artırmalıyıq. Bizim buna imkanlarımız var, ən əvvəl neft sahəsində.

Gələn əsrdə, XXI əsrin elə birinci onilliyində Qazaxıstanın dünya bazarına çıxmaq üçün Şimali Qafqaz neft kəmərindən savayı, daha iki-üç neft kəmərinə ehtiyacı olacaqdır. Buna görə də mən Aşqabadda olarkən biz yüklərimizin Qafqaz dəhlizi ilə daşınmasına tamamilə tərəfdar çıxdıq. Öyrəndik ki, indi bu dəhliz ilə təxminən 200 min ton Qazaxıstan nefti nəql edilmişdir. Gələcəkdə biz Bakı vasitəsilə Qara dəniz sahillərinə, Türkiyə yaxınlığına neft nəql etmək istəyirik. Biz Qazaxıstan neftinin bilavasitə öz sərhədimizdən Xəzər dənizinin dibi ilə Bakıyadək və oradan Aralıq dənizinədək nəql olunması məsələlərini nəzərdən keçirməyə və bu sahədə əməkdaşlıq etməyə hazırıq. Yəni, maliyyə məsələsi həll edilərkən bütün bu variantlar hökmən qazaxıstanlıların

iştirakı ilə nəzərdən keçiriləcəkdir, çünki belə layihələr üçün çoxlu neft gərəkdir. Neft [65-66] Azərbaycanda da çoxdur. Lakin sərmayədarlar istismar üçün daha uzunmüddətli imkanlar tələb edəcəklər. Odur ki, bizim olduqca böyük marağımız iqtisadi baxımdan məhz bundan ibarətdir.

Bəs təhlükəsizlik nədir? Təhlükəsizlik o zaman olur ki, dövlətlər öz aralarında, tutaq ki, Azərbaycan Qazaxıstanla və ya Qazaxıstan Özbəkistanla, Qazaxıstan Rusiya ilə, Qazaxıstan Çinlə ticarət edir. Bu dövlətlər arasında yaxşı ticarət olduqda, yaxşı iqtisadi əlaqələr olduqda hər iki dövlət istəyəcəkdir ki, bu əlaqələr və ticarət davam etdirilsin. Deməli, yaxşı ticarət edən dövlətlər qonşu dövlətlərə sabitlik, sülh və əməkdaşlıq arzulayacaqdır. Buna görə də sizin dediklərinizin hamısı danışıqlarımızda var və hamı tərəfindən qarşılıqlı anlaşma, razılıqla qarşılanır.

**Sual: Cənab Nazarbayev, siz MDB-nin axırıncı zirvə toplantısında çox fəal çıxış edərək, MDB ölkələri arasında münasibətlər haqqında fikrinizi kəskin şəkildə söylədiniz. Məlum olduğu kimi, elə həmin toplantıda Rusiya silahlarının Ermənistana təmənnasız göndərilməsi məsələsi də müzakirə edildi. Siz Ermənistan-Azərbaycan münaqişəsini nəzərə almadan, həmin məsələyə necə baxırsınız? Çox sağ olun.**

**Nursultan Nazarbayev:** MDB ölkələrinin kütləvi informasiya vasitələri mənim mövqeyimi yaxşı bilirlər. Əgər siz Qarabağ hadisələrini nəzərdə tutursunuzsa, biz hamımız, MDB üzvləri, həm də ATƏT-in üzvləriyik. ATƏT-in Helsinki aktında və Paris xartiyasında əsas bənd dövlətlərin ərazi bütövlüyündən ibarətdir, onlar separatçılığın əleyhinə çıxırlar. Əgər separatçılıq bütün yer üzündə inkişaf etsəydi, onda elə bir dövlət tapılmazdı ki, o, müharibə alovlarına bürünməmiş olsun. Buna görə də mən separatçılığın hər hansı növlərinin qəti əleyhinəyəm. Bilirəm ki, Rusiya rəhbərliyi də separatçılığın əleyhinə çıxır. Odur ki, bu məsələdə mənim mövqeyim [66-67] sizə məlum idi. Belə hesab edirəm ki, MDB daxilində, – əgər biz dövlətlər birliyiyiksə, – münaqişələr olmamalıdır. Ötən zirvə toplantısında, iclasın qapalı hissəsində mən təklif irəli sürdüm ki, MDB daxilində – MDB dövlətləri arasında və MDB daxilində bütün münaqişələri aradan qaldırmaq üçün dövlət başçıları arasında xüsusi komitə yaradılsın. Mən hesab edirəm ki, belə münaqişələri aradan qaldırmaq üçün potensial var. Biz bunu edə bilsək bu, dövlətlərimizin daha çox yaxınlaşmasına xidmət edər. Üstəlik, birlik dövlətlərindən birinin zərərinə olaraq digərinə ayrılıqda və ya gizlicə, kontrabanda yolu ilə silah verilməsi yaxşı hal deyil, bu heç əndazəyə sığmır. Ümidvaram ki, Rusiya rəhbərliyinin etirafı öz nəticələrini verəcəkdir. Rusiya rəhbərliyi söz vermişdir ki, onlar bu işlə məşğul olacaqlar o prokurorluq məşğul olur. Düşünürəm ki, biz hamımız bu hadisələrin son nəticələrindən nə vaxtsa xəbər tutacağıq.

**Sual: Sual Azərbaycan prezidentinədir. Aydındır ki, bu gün siz neftin nəql olunması məsələlərini həll etdiniz, habelə bir sıra sazişlər imzaladınız. Siz iqtisadiyyatın daha hansı sahələrində öz aranızda əməkdaşlıq edəcəksiniz? Mən Xəzər dənizinin statusu məsələsini də nəzərdə tuturam.**

**Heydər Əliyev:** Bunlar bir-biri ilə bağlıdır. Biz elə Xəzər dənizinin statusu məsələsində əməkdaşlıq edirik və deməliyəm ki, Xəzər dənizi məsələsində Qazaxıstanla Azərbaycanın mövqeləri oxşardır. Son iki ildən artıqdır ki, Xəzər dənizinin statusunu müəyyənləşdirmək üçün müxtəlif məsləhətləşmələr, görüşlər keçirilir, danışıqlar aparılır. Xəzər dənizinin statusunu prinsipcə müəyyən etmək lazımdır, lakin eyni zamanda artıq çox şey müəyyən olunmuşdur. Hələ Sovet İttifaqı dövründə, Xəzər dənizi əslində tamamilə Sovet İttifaqına məxsus olan dövrdə Xəzər dənizinin sektorları müəyyən edilmişdir – bu dəniz Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya, İran sektorlarına bölünmüşdür. Biz belə hesab edirik ki, [67-68] hər bir Xəzəryanı dövlət işi, xüsusən Xəzər dənizinin dibindəki mineral ehtiyatlardan istifadə olunması işini bu sektorlar daxilində aparmalıdır. Təkrar edirəm, şadam ki, bu baxımdan Qazaxıstanla Azərbaycanın mövqeyi uyğun gəlir. Düşünürəm ki, biz bu məsələni gələcəkdə də birgə səylərimizlə həll edə biləcəyik.

O ki qaldı digər sahələrdə əməkdaşlığa, bu gün biz 17 sənəd imzaladıq. Prezident Nazarbayev Bakıda olarkən 12 sənəd imzalamışdıq. Bu sənədlər həm Qazaxıstanın, həm də Azərbaycanın həyatının müxtəlif sahələrinə aiddir və əməkdaşlığı zəruriyyətə çevirir. Odur ki, biz bu əməkdaşlığı həyata keçirəcəyik.

**Sual: Türkdilli xalqların və dövlətlərin birliyi, o cümlədən Dağlıq Qarabağdakı vəziyyət haqqında nə deyə bilərsiniz?**

**Heydər Əliyev:** Şübhəsiz ki, birlik olmalıdır. Siz bunu istəyirsiniz, hə? Hesab edirəm ki, hazırda türkdilli xalqlar tarixi ənənələr, dil birliyi əsasında, bir çox mədəni dəyərlərin, mənəvi dəyərlərin ümumiliyi əsasında əməkdaşlıq etmək üçün böyük imkan əldə ediblər. Bu iş türkdilli dövlətlərin başçılarının görüşləri çərçivəsində görülür və mən buna böyük əhəmiyyət verirəm. Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi böyük tarixi hadisədir və məhz bu, artıq müstəqil, suveren dövlətlər olan türkdilli dövlətlərə öz aralarında bilavasitə münasibətlər yaratmaq, əməkdaşlıq etmək və türkhəmrəyliyinə nail olmaq imkanı verir. Mən bu cür prinsipləri tamamilə dəstəkləyirəm və öz siyasətimdə bundan sonra da bu yolla gedəcəyəm.

**Nursultan Nazarbayev:** Mən demək istərdim ki, biz əvvəl-axır sosialist sindromundan imtina etməliyik. Əgər Minskdə görüşürlərsə, deməli, slavyanlardır. Əgər Almatıda, yaxud Bakıda görüşürlərsə, bundan – Pantürkizm və ya Panislamizim havası gəlir. Bu, büsbütün cəfəngiyatdır. Dövlətlə[68-69]rimizdən heç biri bir imperiyadan çıxdıqdan sonra başqa bir imperiyaya girmək fikrində deyildir. Başqa məsələdir ki, totalitar sistem

bizi ümumi köklərimizdən ayrı salmışdı və sadəcə olaraq bizi məcbur edirdi ki, eyni mənşədən olduğumuzu unudaq. Təbii ki, bu xalqlar bir-birinə meyl edirlər. Gəlin xatırlayaq ki, əl-Fərabidən və ya Füzulidən başlayaraq bütün məşhur şəxsiyyətlər bu xalqların hamısının xadimləridir. Onlar hamıya məxsusdurlar. "Qorqud baba" bütün türk dünyasına məxsusdur. Bax, bu tarixə nəzər salaraq, vahid kök, vahid tarix, vahid mədəniyyət əsasında insanların onların böyük qrupunun yaxınlaşmasına nəyin xidmət etdiyini yada salın. Ona görə də bu cür istənilən birlik ümumən bütün MDB xalqlarının bir-birinə yaxınlaşmasına xidmət etməlidir. Asiya inteqrasiyası, Avropa inteqrasiyası – axı heç kim demir ki, onlar hansısa prinsip üzrə görüşürlər. Ona görə bu cür istənilən görüşlər, istənilən sazişlər, hər hansı ehtiram hissləri, məhrəm hisslər bütünlükdə bəşəriyyətə xidmət edir, mənim fikrimcə, insanların yaxınlaşmasına və hər cür gələcək münaqişələrə qarşı qoruyucu işə xidmət edir.

**Sual: İndi siz neftin nəqli sahəsində əməkdaşlıq haqqında memorandum imzaladınız. Deyə bilməzdinizmi, nefti Azərbaycan ərazisi vasitəsilə necə göndərməyi planlaşdırırsınız? Yeni boru kəməri çəkməyi planlaşdırırsınızmı və Azərbaycan bundan nə kimi mənfəət götürəcəkdir? Siz hər il nə qədər neft göndərməyi nəzərdə tutursunuz?**

**Nursultan Nazarbayev:** Sovet İttifaqı mövcud olanda Qazaxıstan Xəzər dənizi vasitəsilə Bakıya 7 milyon ton neft göndərirdi. İndi heç biriniz bunu bilmirsiniz, unutmusunuz. Hazırda biz Aktau limanını bərpa edirik, bundan ötrü xüsusi vəsait ayrılacaq, burada Bərə nəqliyyatı və iri tankerlər üçün neftdoldurma qurğuları işləyəcəkdir. Biz dənizlə 10 milyon tonadək neft göndərməyi nəzərdə tuturuq. Onu Qafqaz dəhlizi vasitəsilə Qara dəniz sahilinə nəql etmək üçün Bakıya [69-70] göndərmək lazımdır. Bu neftin istehlakçısı kim olacaq – Bolqarıstan, Ukrayna, bəlkə də Türkiyə olacaq, bəlkə də Bosfor vasitəsilə aparılacaq. Zənnimcə, nefti qəbul etmək üçün Supsa limanı da yenidən qurulur, burada böyük terminal tikilir. Bu, bir məsələdir.

Bunun özü də azdır, çünki Qazaxıstan böyük neft hasilatçısı olmaq fikrindədir. Ona görə də nefti əvvəl beləcə, indi dediyimiz kimi göndərməkdən söhbət gedir, sonra isə birbaşa Qazaxıstanın sərhədindən Bakıya tərəf Xəzər dənizinin dibi ilə boru kəməri çəkmək lazımdır. Bütün dünyada belə edilir. Orada Xəzərin dərinliyi 100 metrdir. Heç kimə əsla mane olmur. Yəni birbaşa boru kəməri çəkmək və sonra neftin Türkiyə, Aralıq dənizi vasitəsilə, yaxud yenə də Qara dəniz vasitəsilə nəqli məsələsini həll etmək gərəkdir – bizi istənilən variant qane edir. Biz sənəd imzalamışıq ki, belə variantı dəstəkləyirik, başqa sözlə, dünya sərmayədarlarına işarə edirik ki, belə şey mümkündür və həmin boru kəmərində böyük neft olacaqdır. Bu, hamı üçün faydalı olacaqdır.

Faydaya gəldikdə isə, bu, beynəlxalq aləmdə olduğu kimidir. Kimin ərazisindən nə qədər neft keçir, hər barrel üçün nə qədər ödənilməlidir – bunlar da məlumdur.

**Sual: Haqqında danışdığınız o planlarda Rusiyaya hansı yer verilmişdir?**

**Nursultan Nazarbayev:** Əvvəla, Xəzər dənizinin şelfindən istifadə üçün tenderə bütün dövlətlərlə birlikdə ən əvvəl Rusiya şirkətləri dəvət edilirlər. Onlar bilməlidirlər ki, bu gün Rusiyanın "LUKoyl" şirkəti Tengiz layihəsinin 200 milyon dollara alınmış bir hissəsinə malikdir. İndi "Lukoyl" Şirkətinin Qazaxıstanda təxminən yarım milyard Amerika dolları məbləğində mülkiyyəti var və bu mülkiyyəti o, tenderlərdə udmuşdur. Xəzər boru kəməri konsorsiumunda (XBK) Qazaxıstan, Rusiya, Oman və başqa dövlətlər iştirak edirlər. Məsələn, mən əminəm ki, neft kəmərlərinin məhz bu Cənub [70-71] qollarından da, XBK-dən də Rusiya tamamilə istifadə edə bilər. Qazaxıstan ərazisi ilə çəkilmiş istənilən qaz kəmərlərindən rusiyalılar olduqca böyük fayda ilə tam istifadə edə bilərlər. İndi Sərəxs-İran-İran körfəzi marşrutu ilə keçən dəmir yolundan artıq Rusiya da istifadə edir. Rusiya yükləri "Drujba" stansiyasından keçib gedir. Bir sözlə, biz Azərbaycan və Qazaxıstandan danışırıq, çünki biz buradayıq, əgər hamı burada olsaydı, onda hamının haqqında söhbət açardıq. Burada heç bir təklənmə yoxdur, əksinədir. Siz ki, Qazaxıstanın siyasətini bilirsiniz – qapılarımız hamının üzünə açıqdır.

**Heydər Əliyev:** Mən də hesab edirəm ki, Rusiyaya bütün bu işlərdə və layihələrdə böyük yer verilmişdir. Məsələn, biz 1994-cü ilin sentyabrında xarici şirkətlərlə imzalanmış kontrakt üzrə ilkin neftin ixracı üçün Rusiya ərazisi ilə Novorossiysk limanına xüsusi neft kəməri çəkmişik. Deməliyəm ki, bu neft kəməri Azərbaycan ərazisində artıq bir neçə ay bundan əvvəl hazır olmuşdur, Rusiya ərazisində isə hələlik hazır deyildir, halbuki bizim razılaşmaya görə, biz həmin neft kəməri ilə neftin ixracına artıq başlamalı idik. Biz Rusiya rəhbərliyi ilə bu barədə danışıqlar apardıq. Onlar söz verdilər ki, neft kəməri oktyabr ayınadək hazır olacaqdır. Odur ki, konsorsiumun kontraktı üzrə ilkin neftin ixracı üçün ilk neft kəməri məhz Rusiya ərazisi ilə Qara dəniz sahilindəki Novorossiysk limanına yönəldi. Azərbaycanda neft şirkətlərinin beynəlxalq konsorsiumları ilə beş kontrakt imzalanmışdır. Bu kontraktlarda Rusiyanın iri neft şirkəti olan "LUKoyl" fəal iştirak edir, böyük paya malikdir. Bu yaxınlarda "Rosneft" şirkəti bizə müraciət etmişdir və biz "Rosneft"in və Rusiyanın digər neft şirkətinin bu işlərdə iştirakı haqqında danışıqlar aparırıq. Müxtəsəri, Rusiya tamamilə təmsil olunmuşdur.

**Sual: Siz sənədlərin ümumi paketinə daxil edilmiş əlavədən danışdınız. Söhbət nədən gedirdi?** [71-72]

**Nursultan Nazarbayev:** Neft maşınqayırmasında əməkdaşlıqdan. Məlum olduğu kimi, bütün Sovet İttifaqında ən güclü, ən yaxşı neft maşınqayırma müəssisəsi orada, Bakıda idi. Bu sahəni biz özümüz də inkişaf etdiririk. Amma bir-birinə mütəxəssislər, texnologiya göndərilməsi, lazımi ehtiyat hissələri və neft hasilatı üçün maşınlar alınması çox vacibdir. Mən belə hesab edirəm.

**Sual: Siz "Komsomolskaya pravda"nın müxbiri ilə müsahibənizdə demişdiniz ki, Qazaxıstanda sərmayədarlara son dərəcə əlverişli şərait yaradılıb. Deyə bilərsinizmi, nə kimi şərait yaradılıb?**

**Nursultan Nazarbayev:** Bizimkilərin hamısı bilir, buna görə də vaxtı çox almaq istəməzdim. İqtisadiyyat üzrə köməkçim buradadır. O, xarici sərmayələrə aid qanunlarımızı sizə verər. Bizim üçün üstün olan obyektlərdə işləyəcək xarici sərmayədarlara güzəştlər veririk. Bu, neft və qaza, digər faydalı qazıntılara da aiddir.

**Sual: Xəzərin statusunun müəyyən olunması prosesi getsə də, Qazaxıstan və Azərbaycan Xəzər dənizində özlərinin hesab etdikləri sektorlarda kifayət qədər fəal işləyirlər. Heydər Əliyeviç, xahiş edirəm deyəsiniz, Xəzər dənizinin sektorlarını müəyyənləşdirmək üstündə Türkmənistanla aranızda düşmüş mübahisələr sizə mane olur, ya yox?**

**Heydər Əliyev:** Mübahisələr var, ola da bilər, lakin mübahisələr bizə mane olmur və ola bilməz. Çünki biz öz sektorumuzu tanıyırıq və bilin ki, hələ 40-cı illərdən başlayaraq Xəzər dənizində Azərbaycan neftçiləri, alimləri, geoloqları əsas yataqları kəşf etmiş və Azərbaycanda hansı yatağın harada, hansı sektorda olduğunu dəqiq bilirlər. Buna görə də mübahisələr ola bilər, lakin onlar bizə maneçilik törətmir. [72-73]

**QAZAXISTAN PREZİDENTİNİN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**

*10 iyun 1997-ci il*

Cənab prezident Nursultan Nazarbayev!
Hörmətli dostlar, xanımlar və cənablar!

Bugünkü gün bizim üçün, Azərbaycan nümayəndə heyəti üçün respublikamızın həyatında əlamətdar hadisədir. Azərbaycan prezidentinin, Azərbaycan nümayəndə heyətinin Qazaxıstana birinci rəsmi səfəri başlanmışdır. Mən dəvətə görə və Qazaxıstan torpağına qədəm qoyduğumuz ilk anlardan bizə göstərilən qonaqpərvərliyə görə ilk əvvəl prezident Nursultan Nazarbayevə təşəkkür etmək istəyirəm. Biz artıq bir neçə saatdır ki, birlikdəyik və bu vaxt ərzində birlikdə bir çox məsələləri müzakirə etdik, bir çox məsələlər barədə fikir mübadiləsi apardıq, başlıca yekun isə bundan ibarətdir ki, bir çox mühüm hökumətlərarası, dövlətlərarası sənədlər imzaladıq və bu sənədlər Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlığın və dostluq, qardaşlıq münasibətlərinin daha da inkişaf etməsinə, dərinləşməsinə təkan verəcəkdir.

Biz son dərəcə minnətdarıq və son dərəcə şadıq ki, burada, Qazaxıstanda belə dostluq şəraitindəyik və çox iş görməyə macal tapdıq. Təbii ki, bütün bunların öz zəmini, öz kökləri var. Tarixin çox-çox qədim dövrlərinə gedib çıxan köklərimiz, xalqlarımızın kökləri bizim hamımız üçün olduqca qiymətlidir və əslinə qalsa, bütün tarix ərzində qazax və Azərbaycan [73-74] xalqları arasında mövcud olmuş və mövcud olan qarşılıqlı münasibətlərin başlıca əsasıdır. Tarix qazaxlar üçün də, azərbaycanlılar üçün də keşməkeşli olmuşdur. Lakin nə kimi çətinliklər, nə kimi münasibətlər olsa da, xalqlarımız bir-birini həmişə dəstəkləmiş, bir-birinə həmişə arxa-həyan olmuşlar, xalqlarımız həmişə hiss etmiş və anlamışlar ki, onlar eyni köklərə mənsubdur, böyük əcdadlarımızın varisləridir. Bütün zəngin və qədim ümumi mədəniyyətimiz, bizim qədim Şərq, türk sivilizasiyası elə bir əsasdır ki, qazaxların və azərbaycanlıların bir çox nəsilləri bu əsas üzərində əlaqə saxlamış və indi malik olduğumuz nə varsa, hamısını bu əsas üzərində bizə çatdırmışlar.

Bəli, biz xalqlarımızın görkəmli adamları ilə fəxr edə bilərik, onlar ümumi sərvətimiz, ümumi zənginliyimizdir. Xalqlarımızın görkəmli nümayəndələri ədəbiyyat, incəsənət sahəsində də, elm sahəsində də öz yaradıcılığı və əsərləri ilə dünya sivilizasiyasını və bütün bəşər fəaliyyətini zənginləşdirmişlər. Buna görə də tamamilə qanunauyğun haldır ki, biz bu görkəmli adamları ümumi dəyərlərimiz sayaraq onların yubileylərini birlikdə qeyd edirik. 1995-ci ildə dünya ictimaiyyəti böyük qazax mütəfəkkiri, yazıçısı, şairi, alimi, filosofu Abay Kunanbayevin 150 illiyini qeyd etdi.

Mən prezident Nursultan Nazarbayevin dəvətini aldım və bu tədbirdə müəyyən mədəniyyət, ziyalı nümayəndələri ilə də kifayətlənmək olardı, amma Abay bizim ümumi sərvətimizdir. Buna görə də mən Qazaxıstana, Almatıya böyük məmnunluqla gəldim və şadam ki, bu şənliklərdə iştirak etdim. Mən istər qazax xalqının, istərsə də çoxsaylı qonaqların bu əlamətdar yubileyi necə təntənə ilə keçirdiklərinin şahidi oldum.

Eyni hal ötən il, biz bütün türk xalqlarına məxsus olan Məhəmməd Füzulinin 500 illiyini qeyd edən zaman da oldu. Biz yubileyi Bakıda qeyd etdik, bütün türk xalqlarının nümayəndələri, o cümlədən də Qazaxıstanın böyük bir nümayəndə [74-75] heyəti, çox yüksək hökumət nümayəndə heyəti bizimlə birlikdə idilər, biz bu yubileyi birlikdə qeyd etdik.

Lakin bunlar heç də hər hansı mədəniyyət və ədəbiyyat hadisələrinə həsr olunmuş şənliklər deyildir. Bunlar həm də elə şənliklərdir ki, onlar köklərimizə, ənənələrimizə, ümumi mədəniyyətimizə sədaqət bəslədiyimizə dəlalət edir. Bizi bu da birləşdirir və həmişə yaxınlaşdırır.

Bax, indi bu əsas üzərində tamamilə yeni münasibətlər, Qazaxıstan ilə Azərbaycan arasında, müstəqil dövlətlər arasında keçmişdə nə vardısa, onların hamısından, zənnimcə, keyfiyyətcə fərqlənən münasibətlər qurulur. Qazaxıstan prezidenti Nursultan Nazarbayevin 1996-cı ilin sentyabrında Azərbaycana ilk rəsmi səfəri də həmin mərhələni layiqli işlərlə həqiqətən əlamətdar etmək arzusu kimi həyata keçirildi. O vaxt biz çox iş gördük.

Bu səfər müstəqil dövlətlər olan Qazaxıstan ilə Azərbaycan arasında yeni münasibətlərin bünövrəsini qoydu. İmzalanmış sənədlər öz inkişafını tapdı və bu inkişaf indi bu görüşdə, burada, Almatıda keçirilən görüşdə və birlikdə imzaladığımız sənədlərdə təcəssüm olunmuşdur.

Xalqlarımız bu müstəqilliyə, bu azadlığa, bu suverenliyə çox çətinliklərdən keçərək gəlmişlər. Mən keçmişdəki böyük tarixdən danışmayacağam, lakin bəzi məqamları xatırlayacağam.

1986-cı il, dekabr. Sovet İttifaqı, Kommunist Partiyası mövcuddur. Biz hamımız bu dövlətə, bu partiyaya mənsubuq, sədaqətlə xidmət edirik. Qazaxıstan rəhbərliyini dəyişdirmək vaxtı gəlib çatır və buraya elə bir adamı göndərməyi qərara alırlar ki, o, burada heç vaxt yaşamayıb, işləməyib və bu millətə mənsub deyildir – söhbət Kolbindən gedir. O vaxt mən Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü idim, o hadisələrin, yəni həmin

prosesin iştirakçısı olmuşam. Təəccüb doğururdu ki, nə üçün belə qərar qəbul edilir. Məsələn, şəxsən mən belə [75-76] qərarlara çox həssaslıqla yanaşırdım, çünki hesab edirdim ki, milli mənsubiyyətindən asılı olmayaraq, Sovet İttifaqında biz hamımız bərabərik. Lakin azərbaycanlı olduğumdan, müsəlman mənşəli olduğumdan məhz bu qruplara mənsub xalqlar barəsində nə isə ədalətsiz bir iş görüldükdə, buna xüsusilə həssaslıqla yanaşırdım.

O vaxtlar izah edib dedilər ki, bilirsinizmi, Qazaxıstanda layiqli adam yoxdur və buna görə də oraya Kolbini göndərmək lazımdır. Müzakirə qurtardıqdan sonra bu mövzuda Mixail Qorbacovla söhbətlərim oldu. Mən hətta soruşdum ki, siz nə üçün belə edirsiniz? O dedi: Sən ki eşitdin, biz müzakirə edərkən dedim ki, qazaxların özləri bildirirlər ki, orada layiqli bir adam yoxdur, elə Dinmühəmməd Kunayevin özü də demişdir ki, indiki şəraitdə burada münasib adam yoxdur, oraya, məhz bu işə mərkəzdən rus millətindən olan adam göndərmək lazımdır.

Əlbəttə, bu, doğru deyildir, mən bunu qəbul edə bilməzdim, yəni bununla razı deyildim. Lakin belə də oldu və belə olan halda məni xüsusilə təəccübləndirdi ki, Qorbaçov bunu təkcə mənə demişdi, Siyasi Büronun iclasında bildirmişdi: qazaxların özləri və hətta Dinmühəmməd Kunayev deyir ki, buraya rus göndərmək lazımdır və hətta onun familiyasını da çəkdi, dedi ki, burada Kruçinanı gözləyirlər, o, Selinoqradda işləyirdi.

Lakin vaxt gəlib çatdıqda, bu məsələni yerində həll etmək lazım olduqda gənclər, tələbələr, qazaxlar bunun əleyhinə çıxdılar və düz etdilər.

Bax, onda 1986-cı ilin dekabrında sonralar Alma-Ata hadisələri adlandırılmış hadisələr baş verdi. Buraya komissiya göndərdilər, yadınızdadır, komissiyaya həmçinin bir vaxtlar burada işləmiş və zənnimcə, Qazaxıstanın bir çox nemətlərindən faydalanmış olan bir nəfər başçılıq edirdi. Bu, Solomentsev idi. O, buraya gəldi və yadımdadır qayıdıb məlumat [76-77] verdi ki, "Demə, Qazaxıstanda millətçilik var, deyilməzin bir millətçilik inkişaf etmişdir" və sair və ilaxır.

Mən bu barədə daha ətraflı danışa bilərəm. İndi sadəcə olaraq vaxtınızı almaq istəmirəm. Lakin mən bunu məhz ona görə xatırlayıram ki, o vaxtlar çətin olsa da, qazax xalqı, gənclər öz milli ləyaqətini hər halda göstərdilər. Hərçənd onlar cəzalandırıldı və Qazaxıstanda millətçilik haqqında qərar qəbul edildi və sair. Ancaq bütün bunlar tarixdə qaldı. Başlıcası budur ki, xalq öz milli ləyaqətini, mənliyini göstərdi, bu qərarın əleyhinə çıxdı. Elə sonrakı hadisələr də təsdiqlədi ki, bu qərar nəinki ağılsız, düşünülməmiş bir qərar idi, həm də o vaxtlar əsas tutduğumuz prinsiplərə kökündən zidd idi.

Halbuki o vaxtlar Nursultan Nazarbayev Nazirlər Sovetinin sədri işləyirdi, Qazaxıstanda, yeri gəlmişkən deməliyəm ki, mərkəzdə – Moskvada da bir çox dairələrdə olduqca böyük nüfuza malik idi. Hamı təəccüblənmişdi, soruşurdu ki, nə üçün Nursultan Nazarbayev ola-ola oraya bu respublikaya heç bir dəxli olmayan adam getməlidir?

Mən o vaxtlar cəsurluq, qəhrəmanlıq nümayiş etdirmiş və sovet rəhbərliyinin bu ədalətsiz qərarına qarşı çıxmış və qazax xalqının nəyə qadir olduğunu və imkanlarını göstərmiş o gənclərə böyük hörmət hissi ilə yanaşıram. Təkrar edirəm, hərçənd o vaxtlar bütün bu hadisələr pislənildi, amma sonrakı tarix həmin gün və ya həmin axşam meydana çıxaraq bu ədalətsiz qərara qarşı öz etirazını bildirmiş və Qazaxıstanda layiqli və ləyaqətli adamlar olduğunu və onlardan ən layiqlisinin Nursultan Nazarbayev olduğunu nümayiş etdirmiş şəxslərin hamısına haqq qazandırdı. 1989-cu ildə onlar məcbur olub razılaşdılar ki, Qazaxıstana Nursultan Nazarbayev başçılıq etməlidir.

Mən bunu indi bu ziyafət süfrəsi arxasında məhz ona görə xatırlayıram ki, deyim: xalqlarımız bu müstəqilliyə doğru, bu azadlığa doğru çətin bir yol keçmişlər. İtkilər olub, qurbanlar [77-78] verilib, qan tökülüb, öz mili hisslərini, milli ləyaqətini göstərmiş, öz xalqlarının milli prinsiplərini qorumuş olan adamlara qarşı çox cəza tədbirləri görülmüşdür.

1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. O vaxt camaat toplaşaraq kommunist rejiminin – həm Sovet İttifaqının, həm də Azərbaycanın kommunist rejiminin ədalətsiz qərarlarına qarşı etiraz edirdi. Onlar başqa heç nə istəmirdilər. Bunun cavabında elə həmin rejim, elə həmin rəhbərlik sovet qoşunlarının iri bir kontingentini Bakıya yeridib adamları tankların, zirehli transportyorların altına atıb məhv etmək qərarı çıxardılar və Bakı şəhərinin bütün küçələrində qan töküldü, Bakı şəhərinin mərkəzində Şəhidlər xiyabanı salındı. Bu xiyaban indi bizim üçün də, Azərbaycana gələnlər üçün də müqəddəs bir yerə çevrilmişdir.

Xalqlarımız bütün bu çətinliklərdən, məşəqqətlərdən keçərək müstəqilliyə gəlib çıxdılar. Ona görə də müstəqilliyin əldə olunması həm qazax xalqı üçün, həm də Azərbaycan xalqı üçün ən böyük tarixi sərvətdir, nailiyyətdir. Şəxsən mənə, Qazaxıstanı çoxdan tanıyan adama – mən burada keçmiş vaxtlarda da olmuşam, 70-ci ildə və sonrakı illərdə də olmuşam və Qazaxıstandakı prosesləri çox maraqla izləmişəm.

Qazaxıstandakı müstəqil dövlət olmuşdur və eyni zamanda, Nursultan Nazarbayev kimi belə ləyaqətli rəhbəri, lideri, prezidenti var. Bizim respublikalarımızda, ölkələrimizdə problemlər çoxdur. Ancaq onlar həll edilir. Şəxsən mən əminəm ki, onlar həll ediləcək və xalqlarımız, respublikalarımız indi göstərilən səylərin bəhrəsini görəcək və müstəqil həyatın yaxşı, xoşbəxt yoluna çıxacaqlar.

Azərbaycanın da problemləri çoxdur və onlardan ən başlıcası Ermənistanın təcavüzüdür. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, işğal edilmiş bu rayonlardan qovulmuş bir milyon adam qaçqın vəziyyətindədir. Şübhəsiz ki, qarşıya [78-79] çox ağır problemlər çıxır. Ancaq üç ildir ki, atəş yoxdur. Biz atəşkəsə nail olmuşuq. Ermənistan-Azərbaycan

münaqişəsini, Qarabağ münaqişəsini sülh yolu ilə aradan qaldırmağa çalışırıq və buna nail olacağıq. Biz bu məsələdə də dost qazax xalqının, o cümlədən şəxsən Nursultan Nazarbayevin dəstəyini həmişə hiss etmişik və hiss edirik. Nursultan Nazarbayev hələ 1991-ci ildə bu məsələnin sülh yolu ilə həllinə nail olmaq üçün fəal təşəbbüs göstərmişdir. O, indi də bu məsələnin beynəlxalq təşkilatlarda müzakirə olunduğu bütün hallarda həmişə özünün fəal mövqeyini bildirir, hesab edir ki, MDB məkanında münaqişələr ola bilməz və bu münaqişə sülh yolu ilə həll edilməlidir.

Mən bu fəal, ədalətli mövqeyinə görə, dostluq dəstəyinə görə Qazaxıstan xalqına minnətdaram, Qazaxıstan prezidentinə minnətdaram. Mən inanıram ki, məhz ədalət zəfər çalacaq, biz bu məsələni nizama sala biləcəyik, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Nursultan Abişoviçin burada dediyi kimi, mən də hesab edirəm ki, bütün ölkələr, bütün dövlətlər hər bir dövlətin ərazi bütövlüyünün toxunulmazlığı haqqında, separatizmin dözülməzliyi, təkcə ölkələrin dinc həyatı üçün deyil, həm də bütün dünya birliyi üçün son dərəcə təhlükəli hal kimi separatizmin yolverilməzliyi haqqında Birləşmiş Millətlər Təşkilatının prinsiplərini, Helsinki Aktının prinsiplərini, ATƏT-in prinsiplərini rəhbər tutmalıdırlar. Hesab edirəm ki, bizim bu düzgün, ədalətli mövqelərimiz təkcə bizim iki ölkə üçün, – Qazaxıstan üçün, Azərbaycan üçün, – deyil, həm də bütün dünya üçün, dünyada əmin-amanlıq üçün əhəmiyyətlidir.

Hörmətli dostlar, əziz Nursultan Abişoviç, dəvətinizə, qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkürümü bildirmək və Sizi əmin etmək istəyirəm ki, Azərbaycan imzalanmış sazişlərə, sənədlərə həmişə sadiq qalacaqdır. Azərbaycan Qazaxıstanla dostluğa və əməkdaşlığa həmişə sadiq qalacaq və biz [79-80] ikitərəfli münasibətlər üzrə öhdəliklərimizin tam şəkildə yerinə yetirilməsini təmin etmək üçün hər şeyi edəcəyik.

Qazaxıstanın, müstəqil, suveren Qazaxıstanın, qazax xalqının şərəfinə, Qazaxıstan prezidenti Nursultan Nazarbayevin şərəfinə. Sizin şərəfinizə badə qaldırıram.

Sağ olun. [80-81]

## QAZAXISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ ZAMANI QAZAXISTAN PARLAMENTİNİN HƏR İKİ PALATASININ – SENATIN VƏ MƏCLİSİN DEPUTATLARI QARŞISINDA ÇIXIŞ

*Almatı*

*11 iyun 1997-ci il*

Əziz dostlar!
Hörmətli Qazaxıstan Respublikasının parlamenti!
Hörmətli deputatlar, Senat, Məclis üzvləri!

Mən sizi Azərbaycan xalqı, Azərbaycan Respublikası adından səmimi salamlayıram və sizə ən yaxşı arzularımı yetirir, cansağlığı, xoşbəxtlik, firavanlıq və uğurlar diləyirəm. Sizin qarşınızda, müstəqil Qazaxıstanın bu nüfuzlu parlamenti qarşısında çıxış etmək üçün mənə verilmiş imkana görə sizə təşəkkürümü bildirirəm. Mən bunu Azərbaycan xalqına, Azərbaycan Respublikasına böyük hörmət və dostluq hisslərinin ifadəsi kimi qiymətləndirirəm.

Mən Qazaxıstan Respublikasının prezidenti, hörmətli Nursultan Nazarbayevin Qazaxıstana rəsmi səfər etmək barədə dəvətilə ölkənizə dünən gəldim. Bu, Azərbaycan prezidentinin Qazaxıstana ilk rəsmi səfəridir. Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev ötən il sentyabr ayında Azərbaycanda rəsmi səfərdə oldu. Biz böyük səmərəli iş gördük, danışıqlar apardıq, söhbətlər etdik. Bütün bunlar son dərəcə [81-82] dostluq, qardaşlıq şəraitində oldu və danışıqlarımızın, Qazaxıstan prezidentinin Azərbaycana səfərinin yekunu kimi, bütöv bir sıra mühüm sənədlər imzalandı, həm də müstəqil Qazaxıstan və Azərbaycan respublikaları arasında ilk dəfə olaraq elə sənədlər imzalandı ki, onlar münasibətlərimizin normativ – hüquqi bazasını və təbii olaraq, əməkdaşlığımızı daha da inkişaf etdirmək, ölkələrimiz, dövlətlərimiz və xalqlarımız arasında dostluq münasibətlərini möhkəmlətmək və genişləndirmək proqramını təşkil etdi.

Qazax xalqı ilə Azərbaycan xalqı arasında münasibətlərin dərin, zəngin, qədim tarixi var. Biz eyni kökdənik. Bütün tarix ərzində xalqlarımız həmişə yaxın dostluq münasibətləri saxlamışlar. Ümumi köklərimiz, xalq ənənələrimiz, milli ənənələrimiz, ümumi mədəniyyətimiz, ümumi taleyimiz, ümumi tariximiz bizi həmişə yaxınlaşdırmış, həmişə birləşdirmişdir. Qazaxlarla azərbaycanlılar arasında dostluq münasibətlərindən, qarşılıqlı yardımdan və onların bir-birinə həyalığından bəhs edən parlaq səhifələr tarixdə çoxdur.

İndi Qazaxıstan və Azərbaycan milli azadlıq və dövlət müstəqilliyi əldə etdikləri, müstəqil dövlətlər olduğu bir dövrdə qarşılıqlı münasibətlərimizdə yeni mərhələ, əvvəlki çox böyük, zəngin, maraqlı tarixdə olanlardan tamamilə fərqlənən mərhələ başlanmışdır. Bu, onunla bağlıdır ki, biz indi öz taleyimizin sahibiyik, öz məsələlərimizi, öz problemlərimizi indi biz özümüz həll edirik. Qazaxıstan da, Azərbaycan da dünya birliyinin bərabərhüquqlu üzvləridir, dünya prosesinin iştirakçılarıdır və təbii olaraq, bir-birinə tamamilə yeni mövqedən nəzər salmaq, yeni münasibətlər bəsləmək tələb olunur. Odur ki, Nursultan Nazarbayevin Azərbaycana səfəri belə münasibətlər yaratmaq və onları daha da inkişaf etdirmək üçün məhz bünövrə, təməl olmuşdur. Əlbəttə, münasibətlərimiz zəngin keçmişə əsaslanır. Dilimizin birliyi, mənəvi, əxlaqi, mədəni dəyərlərin birliyi, milli xalq adətlərinin, ənənələrinin ya[82-83]xınlığı, eyniliyi, xalqlarımızın taleyinin oxşarlığı, əslində eyni olması elə bir zəmindir ki, onun əsasında keçmişdə əsrlər boyu xalqlarımız səmimi dostluq münasibətləri saxlamışlar və indi biz Qazaxıstan ilə Azərbaycan arasında münasibətlərin yeni binasını bu zəmin üzərində ucaldırıq.

Qısa müddət ərzində xalqlarımız müstəqillik şəraitində kifayət qədər sanballı yol keçmişdir. Müstəqillik əldə etmək, öz milli dövlətini qurmaq, milli dövlət quruculuğunu həyata keçirmək, ictimai-siyasi, iqtisadi sistemi yenidən qurmaq faktının özü böyük hadisədir, tarixi hadisədir. Müstəqillik əldə olunduqdan sonra ötən bir neçə ildə Qazaxıstanda da, Azərbaycanda da görülmüş işlər ən yüksək qiymətə layiqdir.

Zənnimcə, həm qazax xalqının, həm də Azərbaycan xalqının ən başlıca nailiyyəti budur ki, biz müstəqil dövlətlər olmuşuq və biz öz məsələlərimizi azad, sərbəst həll edirik, öz ehtiyatlarımızın sahibiyik və milli xüsusiyyətlərimizi nəzərə alaraq və dünya sivilizasiyasının, dünya tərəqqisinin müasir tələblərini nəzərə alaraq öz dövlətlərimizi, öz sistemimizi qururuq. Biz son illərdə Qazaxıstanda baş verən bütün hadisələri diqqətlə, maraqla, dostcasına izləyirik və sevinc hissi ilə qeyd edirik ki, Qazaxıstan müstəqillik illərində böyük uğurlar qazanmışdır.

Keçmişdə tərkibində olduğumuz Sovet İttifaqı dağıldıqdan sonra biz hamımız keçid dövrünü, öz milli dövlətimizin qurulması, ictimai-siyasi və iqtisadi sistemin xarakterinin, prinsiplərinin dəyişməsi ilə bağlı keçid dövrünü yaşayırıq. Qazaxıstan və Azərbaycan demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu yolu ilə gedirlər, demokratiya, şəxsiyyət azadlığı, söz azadlığı, siyasi plüralizm prinsipləri bərqərar edilir, iqtisadi,

sosial-siyasi islahatlar aparılır. Qazaxıstan bütün bu istiqamətlərdə böyük uğurlar əldə etmişdir. Keçid dövrünün şəraiti hamımız üçün çətin olmuşdur. İqtisadiyyatda böhran, ictimai-siyasi həyatda, sosial sahədə böyük çətinliklər olması tama[83-84]milə təbii hallardır, çünki biz bir çox onilliklər ərzində bir sosial-iqtisadi, ictimai-siyasi sistemdə olduğumuza görə öz işlərimizi məhz həmin prinsiplərə müvafiq surətdə qururduq.

İndi isə tamamilə yeni iqtisadi sistem, yeni ictimai-siyasi münasibətlər sistemi, yeni milli dövlət quruculuğu sistemi yaradıldığına görə həm vaxt, həm də böyük səylər gərəkdir. Bizim hamımızın – keçmişdə Sovet İttifaqının tərkibinə daxil olmuş respublikaların məruz qaldıqları keçid dövrünün mürəkkəbliyi və çətinliyi də məhz bununla səciyyələnir. Belə çətin şəraitdə, keçid dövrü şəraitində Qazaxıstan böyük uğurlar qazanmışdır.

Prezident Nursultan Nazarbayev Azərbaycanda olan zaman, söhbətlərimiz zamanı, onun Azərbaycan parlamentində çıxışı zamanı, mətbuat konfransı zamanı ictimaiyyətimizə Qazaxıstanda vəziyyət barədə, ölkənizdə baş verən proseslər barədə ətraflı məlumat verdi, nailiyyətlərdən danışdı. Dünən Qazaxıstan və Azərbaycan prezidentlərinin təkbətək söhbəti zamanı, nümayəndə heyətləri arasında söhbətlər və danışıqlar zamanı və sonra biz Qazaxıstanda vəziyyət barədə və Qazaxıstan qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün görülən tədbirlər barədə və əldə edilmiş müvəffəqiyyətlər barədə yenə də müfəssəl məlumat aldıq.

Bunlar bizi sevindirir. Biz buna dostcasına sevinirik və mən fürsətdən istifadə edərək sizi, keçid dövrü şəraitində, milli dövlət quruculuğu şəraitində qazax xalqını, Qazaxıstan Respublikasını nail olduğu uğurlar münasibətilə ürəkdən təbrik edirəm.

Dünən danışıqlarımız və söhbətlərimiz zamanı biz belə rəyə gəldik ki, Qazaxıstan ilə Azərbaycan arasında münasibətlər tərəfdaşlıq xarakteri daşıyır, strateji əhəmiyyətə malikdir. Bu fikirlər ötən ilin sentyabrında Bakıda və dünən Almatıda imzalanmış sənədlərdə də əksini tapmışdır. Bizim, iki prezidentin sentyabrın 16-da Bakıda imzaladığımız ilk sənəd Qazaxıstan [84-85] ilə Azərbaycan arasında münasibətlərin prinsipləri, əsasları haqqındadır. Bu sənəddə münasibətlərimizi sürətlə inkişaf etdirməyin prinsipləri göstərilir. Biz, iki prezident dünən Qazaxıstan ilə Azərbaycan arasında münasibətlərin dərinləşdirilməsi və inkişaf etdirilməsi haqqında sənəd imzaladıq. Həmin sənəd tərəfdaşlığımızın, əməkdaşlığımızın strateji xarakterini müəyyənləşdirir və Qazaxıstan ilə Azərbaycan arasında məhz tam strateji əməkdaşlığa nail olmaq üçün konkret tədbirləri, konkret vəzifələri nəzərdə tutur.

Biz, iki prezident dünən neft və qaz sənayesi sahəsində Qazaxıstanın və Azərbaycanın birgə işləməsi və neftin Qazaxıstan, Azərbaycan ərazisi, Xəzər dənizi vasitəsilə beynəlxalq bazarlara nəqli haqqında memorandum imzaladıq. Bu, bizim başlıca sənədimizdən irəli gələn sənəddir, bununla belə, neft, qaz sənayesi kimi mühüm sahədə, istər Qazaxıstanda, istərsə də Azərbaycanda karbohidrogen xammalının hasilatı, bundan istifadə olunması, ən başlıcası isə bu məhsulun beynəlxalq bazarlara ixracı sahəsində əməkdaşlığımızı konkretləşdirir.

Qazaxıstan və Azərbaycan təbii ehtiyatlarla, xüsusən karbohidrogen xammalı, neft və qaz ehtiyatları ilə zəngindir. Şübhəsiz ki, müstəqillik şəraitində neft və qazı hasil etməklə yanaşı, onları beynəlxalq bazarlara necə çıxarmaq vəzifəsi də qarşıda durur. İndi isə budur, dünən imzaladığımız sənəd bu işin əməli surətdə təşkilinə dair tədbirləri əhatə edir. Burada nefti beynəlxalq bazarlara çıxarmaq üçün Qazaxıstan ərazisindən Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisinə, sonra isə Gürcüstan, Türkiyə ərazisi ilə Aralıq dənizi sahilinə neft kəmərinin çəkilməsi nəzərdə tutulur.

Bu və bir çox başqa şeylər iqtisadiyyat sahəsində Azərbaycan ilə Qazaxıstan arasında uzunmüddətli əməkdaşlığı şərtləndirir ki, bu da, şübhəsiz, ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq üçün, münasibətlərin möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün yaxşı əsas ola bilər. [85-86]

Dünən imzalanmış digər sənədlərin də müstəsna əhəmiyyəti var. Ümumiyyətlə 17 sənəd imzalanmışdır. Keçən il Bakıda və indi burada, Almatıda imzalanmış sənədlər – 30-dək hökumətlərarası, dövlətlərarası sənəd əməkdaşlığı uğurla həyata keçirmək, ölkələrimiz və xalqlarımız arasında münasibətləri, dostluğu inkişaf etdirmək və dərinləşdirmək üçün yaxşı normativ-hüquqi bazadır.

Hörmətli dostlar, sizi əmin etmək istəyirəm ki, Azərbaycan Qazaxıstan ilə əməkdaşlığa üstün əhəmiyyət verir, keçmişdə, xalqlarımızın tarixində nə olmuşsa hamısını qiymətləndirir və onu da qiymətləndirir ki, hazırda Qazaxıstan Respublikası ilə Azərbaycan Respublikası arasında belə dostluq münasibətləri yaranıbdır və artıq bu cür fəal əməkdaşlıq edir. Əmin ola bilərsiniz ki, biz öz öhdəliklərimizə sadiq olacağıq. Biz imzaladığımız prinsiplərə sadiq qalacağıq, qazax xalqı, Qazaxıstan Respublikası ilə dostluq və əməkdaşlığa sadiq qalacağıq.

Mən belə düşünürəm ki, respublikamız haqqında da informasiya sizə maraqlı olar. Hərçənd güman edirəm, siz çox şeyi bilirsiniz, lakin bununla bərabər mənim informasiyam bildiklərinizi tamamlaya bilər və üstəlik, uzaqda o qədər də nəzərə çarpmayan bəzi çalarları sizə çatdırar.

Çox böyük təəssüflər olsun ki, Sovet İttifaqı parçalandıqda, Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdə ölkəmiz çətin vəziyyətə düşdü. Sizə məlumdur ki, hələ 1988-ci ildə, doqquz il bundan öncə Azərbaycana qarşı təcavüz, Azərbaycan ərazisinin bir hissəsini – Dağlıq Qarabağ Vilayətini ilhaq etmək, qoparmaq və Ermənistana birləşdirmək məqsədilə qonşu Ermənistan tərəfindən hərbi təcavüz başlanmışdır. Bu, Sovet İttifaqı hələ mövcud olan dövrdə, Sovet dövləti mövcud olan dövrdə, həm Ermənistan, həm də

Azərbaycan bərabər hüquqlarla Sovet İttifaqının tərkibində olduğu dövrdə baş vermişdir. O vaxtlar Sovet İttifaqının rəhbərliyi bu təcavüzkar əməllərə lazımi əhəmiyyət vermədi. Bu bir yana, belə deməyə əsasım [86-87] var ki, Sovet İttifaqının rəhbərliyi bu niyyətlərə müəyyən dərəcədə imkan yaradırdı. Bundan sonra Dağlıq Qarabağ üstündə Azərbaycanla Ermənistan arasında hərbi savaş başlandı.

Nə qədər ki Sovet İttifaqı mövcud idi, cəhd göstərilirdi, əslinə qalsa, elə təsəvvür yaradılırdı ki, guya Sovet hökuməti, Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyi bu məsələni həll etməyə çalışırlar. Əslində bu məsələ həll edilməmiş qaldı. Hərçənd Ermənistanla Azərbaycan arasında münasibətlər tarixindən və keçmişdə baş vermiş bir çox digər hadisələrdən məlumdur, bir vaxtlar uzun illər ərzində Azərbaycanın rəhbəri və Sovet İttifaqının rəhbərlərindən biri olmuş bir şəxs kimi mənə yaxşı məlumdur ki, o vaxtlar bütün bunların qarşısını lap əvvəldən almaq, Ermənistanla Azərbaycan arasında belə qarşıdurmaya gətirib çıxaran hərbi münaqişənin yaranmasına yol verməmək mümkün idi. Belə edilmədisə, deməli, burda nəsə bir qərəz vardı. Qərəz isə bundan ibarət idi ki, o vaxtlar Sovet İttifaqının bəzi aparıcı rəhbərləri birtərəfli mövqe, şərəfsiz, qeyri-obyektiv mövqe tutmuşdular və güman edirdilər ki, Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana birləşdirmək bəlkə də bu yolla mümkün oldu.

Sovet İttifaqının, Kommunist Partiyasının rəhbərliyi bu dövlətin və partiyanın bütün tarixi boyu çox səhvlər buraxmışdı. Bu, hamıya yaxşı məlumdur. O illərdə, 80-ci illərin məhz ikinci yarısında xüsusilə çox səhvlər buraxılmışdı və yol verilmiş ən kobud səhvlərdən biri bu idi ki, Ermənistanla Azərbaycan arasında münaqişə yaranmasına imkan yaradıldı. Bu münaqişə doqquz ildir davam edir. O, heç kəsə şan-şöhrət gətirməyib və heç kəsi xoşbəxt etməyibdir, lakin bununla bərabər, bu münaqişə digər münaqişələrin yaranması üçün alışdırıcı qığılcıma çevrildi. Əslinə qalsa, Sovet İttifaqının dağılmasının səbəblərindən biri digər bir çox münaqişələrlə yanaşı, məhz həmin münaqişə oldu. Əgər bir dövlət, yəni Sovet İttifaqı özünün daxilində, ittifaqa daxil olan bərabərhüquqlu [87-88] müttəfiq respublikalar arasında bu münaqişəni aradan qaldırmaq iqtidarında deyildisə o, yaşaya bilməzdi. Əgər o, həmin münaqişəni həll etmək iqtidarında olmamışdısa, deməli, bu ittifaq ölümə, süquta məhkum idi. Belə də oldu.

Bu tarixdir. Mən bunu həmin münaqişənin yaranmasının səbəbi barədə həqiqəti sizə bir daha çatdırmaq üçün deyirəm. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu torpaqda əsrlər boyu azərbaycanlılar yaşamışlar. Ermənilər bu diyara təxminən 150 il əvvəl gəlmişlər, onları buraya İrandan köçürmüşlər. Lakin onlar azərbaycanlılarla birlikdə yaşayırdılar, normal yaşayırdılar, hərçənd, vaxtaşırı bəzi çətinliklər olurdu. Amma onları aradan qaldırırdılar və heç vaxt iş belə münaqişəyə gəlib çıxmırdı.

Bax, beləcə 1988-ci ildə hər cür şərait yaradıldı ki, indi bu cür ağır formaya çevrilən həmin hərbi münaqişə başlansın.

Azərbaycan 1991-ci ilin axırlarında, öz dövlət müstəqilliyini elan etdikdə belə ağır vəziyyətdə olmuşdur. O vaxtlar Azərbaycan ərazisinin bir hissəsi, daha doğrusu, Dağlıq Qarabağ Azərbaycan Respublikasının nəzarəti altından çıxmışdı. Azərbaycanla Ermənistan öz aralarında hərbi əməliyyatlar aparırdılar, əslində müharibə gedirdi və təbii olaraq, belə bir şəraitdə müstəqillik əldə edilməsi Azərbaycan üçün bəri başdan çətinliklər yaratmışdı.

Digər tərəfdən, Azərbaycanda bəzi proseslər baş verirdi və bu proseslər də ən əvvəl mərkəzin, o vaxtlar Sovet İttifaqının Azərbaycana ədalətsiz münasibəti ilə bağlı idi və təbii olaraq, Azərbaycan xalqı milli azadlığa, milli dövlət müstəqilliyinə can atırdı. 1990-cı ilin yanvarında, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə Sovet İttifaqı rəhbərliyinin ədalətsiz münasibətindən hiddətlənən Azərbaycan xalqı Sovet hökuməti, Sovet İttifaqı Kommunist Partiyası və eləcə də Azərbaycan rəhbərlərinin ədalətsiz qərarlarına qarşı çıxdıqda bütün bunlar [88-89] xalqın çoxminlik etiraz mitinqlərinə, çıxışlarına səbəb oldu, Azərbaycana qarşı hərbi təcavüz törədildi.

1990-cı il yanvarın 20-də Sovet qoşunlarının iri kontingentləri Bakıya yeridildi və xalq milli hərəkatı yatırıldı, adamları qırıb-çatdılar. Bakı küçələri insanların qanına boyandı. Haqq-ədalət tələb edən və təbii olaraq, milli azadlığa, milli müstəqilliyə can atan Azərbaycan xalqına qarşı bu hərbi təcavüz Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün, əlbəttə, böyük zərbə oldu.

1991-ci ilin axırlarında bax, belə bir şəraitdə Sovet İttifaqının bütün müttəfiq respublikaları kimi, Azərbaycan da öz müstəqilliyini elan etdi. Bu hallar Azərbaycanda daxili siyasi vəziyyəti də mürəkkəbləşdirdi. Həmin vaxtadək Azərbaycanda müxtəlif qruplaşmalar, silahlı dəstələr, müxtəlif siyasi qüvvələr meydana gəlmişdi və onlar hakimiyyət uğrunda mübarizə aparırdılar. Bütövlükdə bütün bunlar Azərbaycanda çox mürəkkəb daxili siyasi vəziyyət yaratmışdı. Azərbaycanda daxili siyasi sabitlik və dövlət rəhbərliyində sabitlik yox idi. erməni silahlı birləşmələri də bundan istifadə edərək nəinki Dağlıq Qarabağın ərazisini, həm də Dağlıq Qarabağa bitişik olan yeddi rayonun ərazisini işğal edə bildilər. Beləliklə, Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələrinin işğalı altına keçdi.

Bir yandan, erməni silahlı birləşmələri tərəfindən hərbi əməliyyatlar və təbii olaraq, Azərbaycan xalqının öz torpağını qorumaq uğrunda mübarizəsi, digər yandan isə daxili siyasi vəziyyətin mürəkkəb olması, müxtəlif qrupların, silahlı dəstələrin hakimiyyət uğrunda mübarizəsi Azərbaycanı ağır vəziyyətə gətirib çıxardı. Təkrar edirəm, məhz bu daxili siyasi sabitsizlik bunun başlıca səbəbi oldu ki, erməni silahlı birləşmələri Azərbaycan

ərazisinin 20 faizini işğal etdi. İşğal olunmuş Azərbaycan torpaqlarından bir milyondan çox sakinimiz qovulub didərgin salındı. Onlar artıq dörd ildən çoxdur, bəzilə[89-90]ri isə beş ildir ki, olduqca ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayırlar.

Münaqişə başlanan vaxtlarda, hələ 1988-ci ildə Azərbaycan millətindən olan bütün şəxslər Ermənistan ərazisindən zor gücünə qovulmuşdular. Artıq bu münaqişənin gedişində isə Dağlıq Qarabağ ərazisindən bütün azərbaycanlılar çıxarıldılar. İşğal edilmiş rayonlardan – Dağlıq Qarabağ ətrafındakı sırf Azərbaycan rayonlarından azərbaycanlılar zor gücünə didərgin salındılar və onlar qaçqınlara çevrildilər. Təsəvvür edirsinizmi, necə bir vəziyyət yaranıb, yeddi milyon əhalinin bir milyonu qaçqın halındadır.

Təbii ki, Azərbaycanda dövlət rəhbərliyi belə vəziyyətdə sabit deyildi. Hakimiyyət dəyişirdi, 1992-ci ildə hakimiyyət dəyişdi. Hakimiyyətə yeni adamlar – Azərbaycan Xalq Cəbhəsindən olanlar gəldilər və onlar da bir ildən sonra hakimiyyəti itirdilər, xalqın etimadını itirdilər. 1993-cü ilin iyununda, düz dörd il bundan əvvəl Azərbaycanda son dərəcə ağır vəziyyət yarandı. Vətəndaş müharibəsi başlandı. Bu vətəndaş müharibəsi Azərbaycanın parçalanmasına, Azərbaycan Respublikasının süqutuna gətirib çıxara bilərdi. Xalqımız bütün bu çətinlikləri, bütün bu mürəkkəb halları gördü.

Belə bir şəraitdə, 1993-cü ilin iyununda, Xalq Cəbhəsi hakimiyyəti respublikaya daha rəhbərlik etmək iqtidarında olmadığı və onlar istefa verdikləri və ya qovulduqları günlərdə Azərbaycan əhalisinin, Azərbaycan xalqının çoxsaylı nümayəndələrinin tələbi ilə mən Bakıya qayıtdım və parlamentin sədri seçildim. O vaxt prezident də öz iş yerindən qaçıb aradan çıxmışdı, baş nazir də, digərləri də istefa vermişdilər. Odur ki, 1993-cü ildə Azərbaycanda vəziyyətin gərginliyini müəyyən dərəcədə zəiflətmək məsələlərini həll etmək lazım gəldi.

Biz vətəndaş müharibəsinin qarşısını almağa və respublikada vəziyyəti tədricən sabitləşdirməyə müvəffəq olduq. Amma [90-91] Ermənistanla müharibə davam edirdi. Bu müharibənin çoxlu qurbanlar gətirdiyini nəzərə alaraq və məsələnin həllinin hərbi yolunun məqbul olmadığını əsas tutaraq 1994-cü ilin mayında biz Ermənistanla atəşkəs haqqında razılığa gəldik və atəşkəs barədə saziş imzaladıq. Artıq üç ildən çoxdur ki, Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatlar yoxdur, müharibə yoxdur, qurbanlar yoxdur, qan tökülmür. Lakin biz tam sülhə də hələlik nail olmamışıq. Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələrinin işğalı altında qalır. Dediyim kimi, qaçqınlar çadırlarda, olduqca ağır şəraitdə yaşayırlar. Bütün bu üç il ərzində biz münaqişənin dincliklə aradan qaldırılmasına nail olmaq üçün danışıqlar aparırıq.

Danışıqlar çətin, ağır getsə də, hər halda, gedir. Ötən müddət ərzində bu məsələ iki dəfə müzakirə olunmuşdur – 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinə dair xüsusi qərar qəbul olundu və 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə, yəni ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Lissabon görüşündə bu münaqişə barədə qərar qəbul edildi. Ermənistan-Azərbaycan münaqişəsini dincliklə aradan qaldırmaq üçün 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun tərkibi ATƏT-in dövlət başçılarının Lissabon görüşündən sonra təzələndi və genişləndirildi. Münaqişəni aradan qaldırmaq üçün 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun həmsədrləri İtaliya, İsveç, Rusiya idi. 1996-cı ilin dekabrında dövlət başçılarının Lissabon görüşündən sonra Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa oldu.

Biz bu məsələdə konstruktiv mövqe tuturuq. Biz məsələnin həqiqətən dincliklə nizama salınmasını istəyirik, amma bir şərtlə ki, Azərbaycanın işğal olunmuş əraziləri tamamilə azad edilsin, qaçqınlar öz yaşayış yerlərinə qayıtsınlar, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun və Dağlıq Qarabağa Azər[91-92]baycan dövlətinin tərkibində yüksək dərəcədə özünüidarə statusu verilsin.

Bu prinsiplər ATƏT-in Lissabon zirvə görüşünün qətnaməsində, bəyanatında öz əksini tapmışdır. Bu üç prinsip Azərbaycanın ərazi bütövlüyünün tanınmasından, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcədə özünüidarə statusu verilməsindən və bütün Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinə təminatdan ibarətdir. Nəzərə çatdıraraq demək istəyirəm ki, hələ Sovet İttifaqı dövründə Dağlıq Qarabağ Azərbaycanın tərkibində olarkən orada münaqişə yox idi. Dağlıq Qarabağ Azərbaycanın tərkibinə indi də daxildir, amma nəzarət altından faktiki olaraq çıxmışdır. Burada 170 min adam yaşayırdı. Onların 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi. Bu münaqişə yarandıqdan sonra, təxminən 1990-1991-ci illərdə azərbaycanlı əhalinin hamısı Dağlıq Qarabağdan qovulub çıxarıldı. Dağlıq Qarabağda elə erməni əhalisi də az qalmışdır. Vəziyyət ağır olduğuna görə erməni əhalisinin bir qismi oradan çıxıb getmişdir. İndi Dağlıq Qarabağda erməni millətindən cəmi 80 min adam yaşayır. Onlar çətin şəraitdə yaşayırlar. Bu region əslində militarist bir regiona çevrilmişdir, silahlarla doldurulmuşdur və bütün sakinlər hərbi qulluqdadırlar. Görünür, onlar da bu cür vəziyyətdə qalmaq istəmirlər. Görünür, onlar bunu anlamalıdırlar.

Buna görə də biz bu məsələni dincliklə həll etmək istəyirik. Buna görə də biz Lissabonda qəbul olunmuş prinsiplərlə razılaşdıq. Məsələ burasındadır ki, Ermənistan hökuməti Azərbaycanın ərazi bütövlüyünü indiyədək tanımır, çünki Azərbaycan ərazisinin bir hissəsinə – Dağlıq Qarabağa göz dikmişdir. Bu isə, bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatının da, ATƏT-in də prinsiplərinə və beynəlxalq hüquq normalarına ziddir.

Ermənistan nəyə nail olmağa can atır? Dağlıq Qarabağın tam müstəqilliyinə. Təbii ki, biz buna yol verə bilmərik. Əv[92-93]vəla, ona görə yol verə bilmərik ki, biz öz torpağımızın bir qarşını da başqalarına verə bilmərik. Lakin eyni zamanda bu, beynəlxalq hüquq normaları baxımından da yolverilməzdir. Separatçılıq

bütün beynəlxalq hüquq normaları ilə, bütün beynəlxalq xartiyalarla – həm Helsinki xartiyası, həm də Paris xartiyası ilə pislənmişdir, pislənir. Belə olan halda ermənilərə necə müstəsna hüquq verə bilərsən ki, onlar Azərbaycan ərazisində ikinci erməni dövləti, müstəqil Dağlıq Qarabağ yaratsınlar?

Əlbəttə, bununla heç cür razılaşmaq olmaz. Amma təəssüf ki, ermənilər, Ermənistan buna hələ də ümid edirlər. Ona görə də məsələnin dincliklə tənzimlənməsinə çətinliklə gedirlər. İndi Minsk qrupunun həmsədrləri öz fəaliyyətinin yeni mərhələsinə başlamışlar. Ümidvarıq ki, bu, öz nəticələrini verəcəkdir. Lakin təəssüf ki, bir vaxtlar Sovet İttifaqının birtərəfli mövqeyi bu cür münaqişəyə gətirib çıxardı, belə mövqe müxtəlif dövlətlərdə, o cümlədən də Rusiya Federasiyasında bəzi adamlarda müəyyən dərəcədə qalmaqdadır.

Rusiya mətbuatından sizə yəqin məlumdur ki, son üç ildə, Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejiminin qüvvədə qaldığı bir dövrdə Rusiya Federasiyasının ayrı-ayrı yüksək vəzifə sahibləri tərəfindən Ermənistana bir milyard Amerika dollarından artıq məbləğdə silahın, döyüş sursatının və ağır silahların qeyri-leqal, qeyri-qanuni olaraq ötürülməsi haqqında bu yaxınlarda, təxminən iki-üç ay bundan əvvəl konkret sənədlər, faktlar aşkara çıxarılmışdır. Təsəvvür edin ki, bu qədər, belə bir dəyərdə silahlar təkcə Azərbaycanı deyil, bəzi digər qonşu dövlətləri də viran qoya bilər. Bu silahlar arasında T-72 markalı müasir tanklar da, müasir zirehli piyada maşınları da, zenit piyada maşınları da, zenit raketləri də, "qrad" qurğuları da, bir çox digər ağır silahlar və döyüş sursatı da var.

Sual doğur: Bu necə olur, bir tərəfdən Rusiya Minsk qrupunun həmsədridir və biz məsələnin sülh yolu ilə həlli üçün [93-94] məhz Rusiyaya ümid edirik, digər tərəfdən isə Rusiyanın ayrı-ayrı yüksək vəzifəli şəxsləri Ermənistana gizli surətdə, qeyri-qanuni olaraq, həm də pulsuz, öz dövlətinə zərər vuraraq bu qədər böyük miqdarda silah verirlər.

Şübhəsiz ki, bütün bunlar regionumuzda vəziyyəti və bu problemin sülh yolu ilə aradan qaldırılması məsələsini mürəkkəbləşdirir. Ancaq buna baxmayaraq, biz zənn edirik ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında göstərilən səylər müsbət nəticələrə gətirib çıxarmalıdır və çıxaracaqdır. Bir çoxları bildirmişlər ki, 1997-ci ildə biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair real praktiki nəticələrə nail ola bilərik.

Biz artıq heç nə istəmirik, Qafqazda, bütün dünyada sülh olmasını istəyirik. Biz Ermənistan ilə Azərbaycan arasında sülh olmasını istəyirik. Biz Ermənistan torpağının hansısa bir hissəsinə iddia etmirik, baxmayaraq ki, orada tarixən azərbaycanlılara məxsus olan torpaqlar çoxdur. Ancaq eyni zamanda hesab edirik ki, Azərbaycanın dövlət müstəqilliyi qazandığı vaxt beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində ərazisi toxunulmaz olmalı və Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilməlidir. Biz güzəştə gedirik. Güzəşt də ondan ibarətdir ki, biz Dağlıq Qarabağa yüksək özünüidarə statusu verməyə razılaşırıq, həm də bu, beynəlxalq praktikada, dünya praktikasında mövcud olan ən yüksək statusdur. Bunun özü bizim tərəfimizdən böyük güzəştdir. Ona görə ermənilər də, onların himayədarları da anlamalıdırlar ki, bu, məhz Azərbaycan tərəfindən atılan xoş məramlı addımdır. Onlar əvvəl-axır özlərinin separatçılıq, ekstremist, təcavüzkar hərəkətlərindən əl çəkməlidirlər.

Separatizm ancaq təkcə Azərbaycan üçün təhlükəli deyildir. İndi bütün Qafqaz separatizmdən əzab çəkir. Bir də təkcə Qafqazmı? Bəs dünyanın digər regionları? Məgər separatizm Qazaxıstan üçün təhlükəli deyilmi? Məgər separatizm Mərkəzi [94-95] Asiya üçün qorxulu deyilmi? Məgər separatizm Avropa üçün təhlükəli deyilmi? Əlbəttə, o, hamı üçün təhlükəlidir. Ona görə də hamı separatizmi nəinki birmənalı şəkildə pisləməli, həm də separatizmə qarşı vahid cəbhədə çıxış etməli, separatizmə yol verməməli və onların əlinə heç bir bəhanə verməməlidir ki, separatizm haradasa müstəsna hüquq alsın, məsələn necə ki, Dağlıq Qarabağda, Azərbaycanın ərazisində belə bir hüquq almaq istəyirlər. Bu, sonrakı dövr üçün çox zərərli nümunə olar və bir çox dövlətlər üçün son dərəcə ağır faciəyə çevrilə bilər.

Mən dərin məmnunluq hissi ilə demək istəyirəm ki, bu baxımdan Qazaxıstan həmişə düzgün və prinsipial mövqe tutmuşdur. Qazaxıstan prezidenti Nursultan Nazarbayev bu münaqişənin lap başlanğıcından düzgün, ədalətli mövqedə dayanmışdır. 1991-ci ildə Nursultan Nazarbayev Rusiya prezidenti Boris Yeltsin ilə birlikdə məsələnin sülh vasitəsilə həllinə nail olmağa cəhd göstərdi. Onlar birlikdə Azərbaycanda, döyüş əməliyyatları zonasında oldular, bəzi təkliflər irəli sürdülər, ancaq o vaxt əks qüvvələr münaqişənin həllinin bu planını reallaşdırmağa imkan vermədilər.

Nursultan Nazarbayev bu gün də bu mövqedədir. O, dünən bəyan etdi ki, Qazaxıstan separatizmi pisləyir və separatizmin hər hansı formasının əleyhinədir. Nursultan Nazarbayev MDB-nin iclaslarında, xüsusən martın 27-də MDB dövlət başçılarının axırıncı iclasında təkcə MDB üçün deyil, ümumən beynəlxalq əhəmiyyət baxımından çox prinsipial, çox mühüm olan çıxış etdi. Həmin çıxışda separatizmə qarşı yönəldilmiş müddəalar, münaqişələrin ləğvinə və bütün münaqişələrin ədalətli həllinə yönəldilmiş müddəalar var idi. Ona görə də Qazaxıstan, prezidenti Nursultan Nazarbayevin özü keçən ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə Azərbaycanın mövqeyini dəstəklədilər. Buna görə də mən yaranmış imkandan istifadə edərək, Qazaxıstan parlamenti qarşısında çıxış [95-96] edərkən təkcə Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə, təkcə Azərbaycana münasibətdə deyil, həm də ümumən beynəlxalq hüquq normaları baxımından ədalətli mövqeyinə

görə Qazaxıstan Respublikasına, onun prezidentinə təşəkkür etmək istəyirəm və ümidvaram ki, Qazaxıstan özünün bu prinsipial, düzgün mövqeyinə həmişə sadiq qalacaqdır.

Əziz dostlar, beləliklə, Azərbaycanın necə mürəkkəb şəraitdə olduğunu və hansı mürəkkəb şəraitdə məsələləri həll etdiyimizi, öz dövlət müstəqilliyimizi möhkəmləndirdiyimizi və inkişaf etdirdiyimizi görürsünüz. Mən onu da əlavə etməliyəm ki, əgər 1993-cü ildə biz vətəndaş müharibəsinin, Azərbaycanın parçalanmasının qarşısını ala və Azərbaycanı böyük faciədən qurtara bildiksə, təəssüf ki, sonrakı dövrdə bu qanunsuz silahlı birləşmələr Azərbaycanda konstitusion hakimiyyəti devirməyə cəhd göstərdilər. Belə cəhdi bir silahlı qrup, böyük silahlı qrup 1994-cü ilin oktyabrında göstərdi. Bəlkə də informasiya orqanlarının xəbərlərindən sizə məlumdur ki, mən televiziya ilə bütün Azərbaycan xalqına müraciət etməli oldum. Çünki bu qanunsuz silahlı dəstələr son dərəcə güclü idilər və məhz xalqın birliyi, həmrəyliyi və Bakıda bir neçə saat ərzində, özü də gecə vaxtı Prezident sarayının ətrafına toplaşması və konstitusion hakimiyyəti müdafiə etməsi sayəsində biz bu hərbi çevrilişin qarşısını ala bildik.

Eyni hadisə 1995-ci ilin martında da baş verdi. Yəqin sizdə də Daxili İşlər Nazirliyi tərkibində xüsusi təyinatlı milis dəstəsi kimi bölmə var. Keçmişdə Sovetlər İttifaqında var idi, indi harada qalıb-qalmamasını bilmirəm. Bizdə XTPD var idi. Bir vaxtlar o, ümumiyyətlə dövlət üçün həqiqətən çox lazımlı vəzifələri yerinə yetirirdi, Azərbaycanda XTPD torpaqlarımızın erməni təcavüzündən qorunması uğrunda əməliyyatlarda iştirak etmişdi. Ancaq sonra Azərbaycanda yaranmış daxili siyasi vəziyyət nəticəsində XTPD cinayətkar qrupa çevrildi. Həmin dəstə dövlətin tabeçiliyindən çıxdı. Böyük miqdarda silaha və müharibədə iştirak edərək çətinliklərdən keçmiş çox döyüşkən insanlara malik olan dəstə 1995-ci ilin martında Azərbaycan prezidentinə qarşı terror yolu ilə dövlət çevrilişi etməyə, hakimiyyəti ələ keçirməyə və sairəyə cəhd göstərdi. Biz bunun da qarşısını ala bildik. Sonralar da terrorçuluq cəhdləri olmuşdur.

Ancaq Allaha şükür ki, sizin respublikanız belə hallardan uzaqdır. Mən sizin respublikanıza görə sevinirəm və qoruyun ki, respublikanızda belə hallar olmasın, qoruyun. Amma biz bütün bunları gördük, nə qədər insan həlak oldu. Bundan nə qədər ailə əzab çəkdi – cinayət yolu tutmuş və cinayətkar əməllər, dövlət çevrilişi cəhdləri və sairə törətməyə başlamış və təcrid olunmuş insanların ailələri əziyyət çəkdilər. Ailələrin günahı yoxdur, ancaq bundan əziyyət çəkirlər. Bir sözlə, biz bunların hamısını görmüşük. Yaxşı ki, sizin respublikanız belə hallarla qarşılaşmayıb və Allah eləsin, heç vaxt qarşılaşmasın. Mən görürəm ki, indi sizdə vəziyyət o qədər yaxşı, o qədər sabitdir ki, belə hallar heç vaxt olmayacaqdır. Ancaq bununla belə, bizim respublikamızın bu acı təcrübəsini bilməlisiniz. Həmişə ayıq olmaq üçün bilməlisiniz.

Biz bütün bunları aradan qaldırmağa müvəffəq olduq və sizə deyə bilərəm ki, indi Azərbaycanda son iki ildə daxili siyasi vəziyyət sabit, normal, sakitdir. Bizdə bir milyon qaçqın var, ərazimizin 20 faizi işğal edilibdir. Amma adamlar bundan razıdırlar ki, qulaqları dinc yaşayırlar, küçələrdə əli avtomatlı, tapançalı adamlar yoxdur, bu quldurlar yoxdur, uşaqları oğurlayan, ayrı-ayrı adamları oğurlayan və əvəzində pul tələb edən bu adamlar yoxdur və sair. Belə şeylər daha yoxdur. Daxili siyasi vəziyyət sabitdir, sakitdir. Bu isə bizə bir sıra siyasi, iqtisadi və ictimai-siyasi islahatlar aparmağa imkan verdi.

1995-ci ilin noyabrında biz ümumxalq referendumu yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etdik. Bizim konstitusiya çox demokratikdir. Konstitusiya[97-98]mızda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurulması nəzərdə tutulur, Azərbaycanın ictimai-siyasi həyatında çoxpartiyalı sistemin olması nəzərdə tutulur. Konstitusiyada şəxsiyyət azadlığına tam təminat verilməsini, şəxsiyyətin hüquqlarının müdafiəsi, dini etiqad azadlığı, milliyyətindən, dini mənsubiyyətindən asılı olmayaraq adamların hüquq bərabərliyi, siyasi plüralizm və digər bütün demokratik hüquqlar nəzərdə tutulur. Konstitusiyada Azərbaycanda bazar iqtisadiyyatının inkişaf etdirilməsi, Azərbaycanın xarici sərmayələrə açıq olması və Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı sistemi ilə sıx inteqrasiyası nəzərdə tutulur.

Biz bu konstitusiya əsasında 1995-ci ilin noyabrında Azərbaycanın ilk parlamentinə seçkilər keçirdik. Bunadək mövcud olmuş parlament 1990-cı ildə, sovet dövründə yaradılmışdı. Təbii ki, o, həmin tələblərə cavab vermirdi. Parlamentə seçkilər çoxpartiyalı əsasda, həm majoritar sistem üzrə, həm də proporsional sistem üzrə keçirildi. Azərbaycanda 30 partiya qeydə alınıb, zənnimcə, qeydiyyatdan keçməyən partiyalar da 20-yə qədər olar. 600-dək qəzet, çoxlu jurnal qeydə alınıbdır. qəzetlərin böyük əksəriyyəti özəl təşkilatlara, partiyalara. qruplara mənsubdur. Respublikamızda cəmi iki qəzet hökumət qəzetidir. Qalan bütün qəzetlər müxtəlif siyasi qruplara, siyasi partiyalara, ictimai təşkilatlara, ayrı-ayrı şəxslərə mənsubdur.

1995-ci ilin bax, bu noyabr hadisəsi müstəqilliyimizin tarixində çox mühüm hadisədir. İslahatlar aparılır. Əlbəttə, sizə məlumat verdiyim həmin hallar üzündən bizdə iqtisadi islahatların və digər islahatların həyata keçirilməsi ləngimişdir. Lakin biz yol verilmiş ləngliyi nəzərə alaraq indi bu işi yüksək sürətlə yerinə yetiririk. Mülkiyyətin özəlləşdirilməsi geniş miqyasda həyata keçirilir. Biz torpaq islahatı haqqında qanun qəbul etmişik. Bu qanunda bütün torpağın xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulur. Yəni kənd təsərrüfatı istehsalı üçün nəzərdə tutulan torpaqlar satılmaq, satın alınmaq, başqasına [98-99] verilmək hüququ ilə xüsusi mülkiyyətə verilə bilər. Aqrar sektorun islahatı haqqında bizdə qəbul olunmuş qanunlarda kolxoz və sovxozların ləğv edilməsi nəzərdə tutulur. Artıq onların çoxu ləğv edilmişdir. Aqrar sektorda heyvandarlıq bölməsi tamamilə özəlləşdirilib. Torpaq xüsusi mülkiyyətə verilir. Deməliyəm ki, torpaq islahatının həyata keçirilməsi hələlik

başlanğıc mərhələdədir, lakin çox geniş dəstəklənir və olduqca bəyənilir və artıq öz konkret əməli nəticələrini verir.

İqtisadiyyat sahəsində həyata keçirilmiş və həyata keçirilən islahatlar artıq öz nəticələrini vermişdir. Sizin də yaşamış olduğunuz və yaşadığınız keçid dövrünün şəraitinə görə və Azərbaycan üçün səciyyəvi olmuş spesifik xüsusiyyətlərə görə bizdə iqtisadiyyat son dərəcə ağır vəziyyətə düşmüşdü. olduqca ağır böhran baş vermişdi. Təxminən 1988-1989-cu illərdən başlayaraq istehsalın həcmi, bütün iqtisadi göstəricilər intensiv surətdə aşağı düşmüşdür. Ötən ildə, 1996-cı ildə biz iqtisadiyyatın artım sürətini ilk dəfə yüksəldə bildik və bir qədər artıma nail olduq. Ötən il daxili ümumi məhsul 1,3 faiz artmışdır. Bu, 1989-cu ildən sonra ilk dəfə olmuşdur. Sənaye istehsalının azalması dayandırılmış və istehsal bu il artmağa başlamış, artım təqribən bir və ya 1,5 faiz olmuşdur. Əgər hər il bizdə sənaye istehsalı 20-25 faiz aşağı düşürdüsə, təsəvvür edin ki, bunu dayandırmaq, üstəlik, az da olsa, artımı təmin etmək mümkün olmuşdur. Əlbəttə, elə bunun özü müsbət meylə dəlalətdir.

Bütün bunlar istehsala öz təsirini göstərir. Cari ilin əvvəlindən bəri bizdə bütün göstəricilər üzrə artım sürəti 1996-cı ildəkinə nisbətən daha yaxşı olmuşdur. Keçən il xarici ticarət əmtəə dövriyyəsi 30 faiz artmışdır. Xarici ticarət prosesini, ümumiyyətlə, xarici iqtisadi fəaliyyəti liberallaşdırmaq üçün kompleks tədbirlər görülmüşdür. İndi bizdə valyuta sistemi normal vəziyyətdədir. Halbuki 1994-cü ildə ölkəmizdə inflyasiya 1700 faiz olmuşdur. Biz inflyasiyanı tədricən azaltmışıq [99-100] və indi bizdə inflyasiya əslində yoxdur. Manatın dollara nisbətdə məzənnəsi təxminən 10 faiz yüksəlmişdir. İki ilə yaxındır ki, manatın dollarla mübadilə məzənnəsi sabit olaraq qalır. Təbii ki, bütün bunlar iqtisadiyyatın gələcək yüksəlişi üçün əlverişli şərait yaradır. Artıq bu ilin əvvəllərindən bizdə, məsələn, əmək haqqının, pensiyaların ödənilməsi ilə bağlı problem yoxdur. Ölkəmizdə bütün kateqoriyalar üzrə vergilərin toplanması təmin olunur və biz hələ ötən il bunu təmin edə bildik. Büdcə əsasən yerinə yetirilmişdir. Cari ilin büdcəsi ötən ilin hələ noyabrında qəbul edilmişdir və bu il artıq ötən aylardan büdcə yerinə yetirilir.

Təbii ki, bütün bunlar fəaliyyətimizdə ilk addımlardır, ilk müsbət mərhələlərdir. Lakin belə hesab edirik ki, indi, respublikada ictimai-siyasi vəziyyəti sabitləşdirə bildikdən sonra biz iqtisadi potensialımızı artırmaq sahəsində yüksək sürətlə irəliləyəcəyik.

Siz bilirsiniz ki, biz xarici sərmayələri Azərbaycan iqtisadiyyatına, ən əvvəl neft və qaz sənayesinə cəlb edirik. 1994-cü ilin sentyabrında biz Xəzər dənizinin Azərbaycan sektorundakı iri neft və qaz yataqlarının 30 il müddətinə işlənməsi haqqında dünyanın 11 ən iri neft şirkəti ilə ilk böyük kontrakt imzalamışıq. Deməliyəm ki, bu kontrakt yerinə yetirilir və artıq cari ildə həmin neft kontraktı üzrə ilk neft hasil ediləcəkdir. Bundan sonra biz beynəlxalq şirkətlərin konsorsiumları ilə daha dörd kontrakt imzalamışıq. Onların əksəriyyəti Qərb şirkətləridir, lakin Rusiyanın "LUKoyl" şirkəti də burada iştirak edir və indi bu kontraktlara "Rosneft" də cəlb olunur. Bu kontraktlara Rusiyanın başqa şirkətləri də maraq göstərirlər. Biz bu məsələ ilə əlaqədar onlarla da danışıqlar aparırıq. Təbii ki, bu kontraktlar Azərbaycana sərmayə gətirilməsini təmin edir və Azərbaycanın, xüsusən də Bakı şəhərinin infrastrukturuna müsbət təsir göstərir. Bu sahədə imkanlar var və biz onları genişləndirəcəyik. [100-101]

Ancaq bizdə iqtisadiyyatın başqa sahələrində də xarici investisiyalar var. Ola bilər, neft və qaz sənayesindəki kimi böyük həcmdə deyildir. Biz Azərbaycanın xarici investisiyalar üçün açıq olması prinsipini əsas tuturuq, bundan ötrü əlverişli güzəştli şərait yaratmışıq və yaradırıq. Bunlar respublikamızdakı vəziyyət, ictimai-siyasi həyatdakı, iqtisadiyyatdakı vəziyyət haqqında sizin üçün bəzi məlumatlardır, mən Azərbaycanın bugünkü vəziyyəti barədə də danışdım.

Demək istəyirəm ki, biz nikbin əhval-ruhiyyədəyik. Hesab edirik ki, Azərbaycanın müstəqilliyi yolu dönməzdir. Biz dövlət müstəqilliyimizi çox əziz tuturuq və öz dövlət müstəqilliyimizi möhkəmləndirmək, inkişaf etdirmək üçün hər şeyi edirik. Ancaq bu müstəqilliyə gedən yol Azərbaycanda da, Qazaxıstanda da asan olmamışdır. Azərbaycanın nə kimi çətinliklərdən keçdiyini sizə danışdım. 1990-cı ilin yanvar faciəsi bizim tariximizdə xüsusilə böyük faciədir. Sovet qoşunlarının böyük kontingentinin Azərbaycana yeridilməsi Azərbaycan xalqının əzilməsi və bunun nəticəsində də böyük qurbanlar verməyimiz barədə dedim.

Ancaq bizə məlumdur və xüsusilə mən yaxşı bilirəm ki, Qazaxıstan da bu çətinlikləri və bu faciələri yaşamışdır. Deməliyəm ki, keçmişdə biz hamımız Sovetlər İttifaqına daxil idik və çoxlarımız bu ittifaqa sədaqətlə, vicdanla xidmət etmişik, – o cümlədən mən də özümü bu qəbildən olan insanlara aid edirəm, Sovetlər İttifaqının mövcud olması, yaşaması üçün çox iş görmüşük. Onu da deməmək olmaz ki, Sovetlər İttifaqının mövcud olduğu dövrdə xalqlarımız, respublikalarımız yüksək səviyyədə inkişaf etmişlər, bu faktdır. Biz bunu heç vaxt inkar etməməli və heç zaman unutmamalıyıq. Amma eyni zamanda nöqsanlar, səhvlər də, faciəli hadisələr də olmuşdur.

Keçmişdə Sovetlər İttifaqının rəhbərliyində kadr siyasətində və milli siyasətdə ciddi səhvlərə, əyintilərə yol verilirdi. Əslində, bunlar sovet rəhbərliyinin fəaliyyətində həmişə ol[101-102]muşdur, amma 80-ci illərdə bu səhvlər daha geniş yayılmış. intişar tapmışdı. Məlumdur ki, bu səhvlərdən, əyintilərdən qazax xalqı da, Qazaxıstan da zərər çəkirdi. Ancaq eyni zamanda 1986-cı ilin dekabrında Almatıda, Qazaxıstanda baş vermiş hadisələr bir tərəfdən o vaxt sovet rəhbərliyinin fəaliyyətindəki həmin səhvləri, əyintiləri, ədalətsizlikləri üzə

çıxardı, digər tərəfdən isə qazax xalqının azadlıqsevər xarakterini, milli ləyaqətini, onun azadlığa, müstəqilliyə can atmasını nümayiş etdirdi.

Həmin hadisələr mənim xatirimdədir. O dövrdə mən Moskvada işləyirdim, Sov. İKP MK Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini idim. Xatirimdədir ki, təxminən 1985-ci ildən etibarən Qazaxıstana, qazax xalqına qarşı hücumlar başlanmışdı. Qazaxıstanda nə varsa hamısını ləkələmək, qazax xalqını gözdən salmaq üçün müxtəlif cəhdlər göstərilirdi, guya burada sui-istifadə halları, korrupsiya yayılmışdır, biabırçılıqdır. İş o yerə gəlib çıxmışdı ki, Almatıda hansısa hamamların tikilməsi SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK Siyasi Bürosunun iclaslarında uzun-uzadı müzakirə mövzusuna çevrilmişdi. Deyirdilər ki, bu hamamları nə üçün tikiblər, niyə bu qədər pul xərcləyiblər. Dünən mən Nursultan Abişoviçdən bu hamamlar barədə soruşdum, öyrəndim ki, onlar indi də var, camaat oraya gedir, istifadə edir, bütün bunlar xalqa qalıbdır.

Siz başa düşürsünüzmü, bu faktlar nə deməkdir. Hansısa faktlar axtarılırdı. Bunlar respublikanı nüfuzdan salmaq, xalqı nüfuzdan salmaq və onun qabaqcıl adamlarını nüfuzdan salmaq üçün Sovet İttifaqı ictimaiyyətinə və dünya ictimaiyyətinə təhrif edilmiş şəkildə təqdim olunurdu.

Bəli, belə olmuşdur, bütün bunlar mənim gözlərim qarşısında baş vermişdir. Deməliyəm ki, mən yeri gəldikcə ürək ağrısı keçirirdim, bunun əleyhinə çıxırdım. Deməliyəm ki, Azərbaycana da bu cür münasibət var idi. Doğrudur, mənim orada, [102-103] Siyasi Büroda olmağım onları müəyyən dərəcədə çəkindirirdi, ancaq mən istefaya getdikdən sonra Azərbaycana, Özbəkistana, digər respublikalara böhtanlar yağdırılmağa başlandı. Məhz bu cür ədalətsizlik bunun səbəblərindən biri oldu ki, adamlar sovet rəhbərliyinə, kommunist partiyasının rəhbərliyinə daha inanmadılar. Elə mən də inanmamağa başladım.

Nəhayət, 1986-cı ilin hadisələri baş verdi. Qazaxıstanda rəhbərlik dəyişdi. O vaxt birinci katib Dinməhəmməd Kunayev artıq yaşa dolmuşdu, istefa verməli idi – bu, təbii haldır. Lakin qarşıya məsələ çıxdı: oraya kimi təyin etməli, kimi seçməli – o vaxtlar belə deyirdilər. Təbii ki, bu adam burada işləmiş adamlar sırasından olmalı idi. Burada da layiqli adamlar var idi. Bu, ən əvvəl, indi Qazaxıstan prezidenti olan Nursultan Nazarbayev idi.

Ancaq bunu sübuta yetirmək üçün hər şey edirdilər ki, guya Qazaxıstanda indi elə bir layiqli adam yoxdur ki, o, Qazaxıstan Respublikasına başçılıq edə bilsin. Bunlar mənim gözlərim qarşısında baş verirdi. İlk dəfə deyildi ki, belə danışırdılar. Yeri gəlmişkən, bu, Qorbaçovun siyasəti idi. Qorbaçov oraya mərkəzin adamını göndərmək istəyirdi. Bu isə milli siyasətdə, kadr siyasətində onun məhz ən kobud səhvlərindən biri idi. Mən bunu ona birlikdə işlədiyimiz vaxtlarda dəfələrlə demişdim. Belə şeylər heç də təkcə Qazaxıstan barəsində deyil, bəzi digər milli respublikalar, milli qurumlar barəsində də edilirdi. Ancaq mən indiki halda konkret olaraq Qazaxıstandan danışıram.

Bütün bunlar təəccüb doğururdu – nə üçün belə olmalıdır, niyə? Budur, bir söhbət gedir, başqa söhbət gedir, sonra da Qorbaçov siyasi büronun iclasında deyir. Bilirsinizmi, axı orada layiqli adam yoxdur. Yeri gəlmişkən, Qazaxıstan nümayəndələrinin özləri də deyirlər ki, bizdə belə adam yoxdur, Moskvadan adam göndərmək lazımdır. O bunu deyən bir neçə adamın familiyasını çəkdi və bir-iki dəfə Dinməhəmməd Ku[103-104]nayevin familiyasını da çəkdi. Yəni ki, gördüyünüz kimi, Dinməhəmməd Əhmədoviç mənimlə telefonla danışıb və deyib ki, bilirsinizmi, burada adam yoxdur, oradan, Moskvadan adam göndərmək lazımdır. Bir vaxtlar Qazaxıstanda işləmiş kimlərinsə adlarını çəkdilər, lakin bunlar qazax millətindən olan adamlar deyildilər. Əlbəttə, bütün bunlar qazax xalqına və Qazaxıstana qarşı ədalətsizlik idi. Lakin buna baxmayaraq, Qorbaçov və onun ətrafındakılar belə qərar qəbul edib Kolbini Qazaxıstan rəhbəri kimi buraya göndərdilər. Odur ki, qazax xalqı, qazax xalqının ən yaxşı nümayəndələri, gənclər öz milli ləyaqətini nümayiş etdirdilər, bu qərarın əleyhinə çıxdılar, bu ədalətsizliyin əleyhinə çıxdılar və göstərdilər ki, bəli, indi qazax xalqı öz milli mənliyini qorumağa qadirdir.

Təəssüflər olsun ki, o vaxtlar bu, neqativ hal kimi qələmə verildi. Qazax millətçiliyi barədə qərar qəbul edildi, buraya komissiya göndərildi. Yəqin ki, o, sizə məlumdur. Onlar buraya gəlib faktlar axtarır, göstərmək istəyirdilər ki, bəli, Qazaxıstanda həqiqətən qazax millətçiliyi var, halbuki, mən bilən, burada belə şeylər yox idi. Qazax xalqının milli ləyaqəti həmişə olmuşdur, olmalıdır da. Amma mən bilən, millətçilik olmayıbdır.

Ancaq onlar qazax millətçiliyi barədə qərar qəbul etdilər və o vaxt bəzi gənclər bizim bu gün olduğumuz meydana çıxaraq qazax xalqının azadlıq, müstəqillik, milli azadlıq əzmi və iradəsini nümayiş etdirdilər. Onlar zillət çəkdilər, çoxları həlak oldu, xəsarət aldı, bəziləri həbs edildi.

Bundan az sonra mən də siyasi büronu və Sovet İttifaqı rəhbərliyini tərk etmək məcburiyyətində qaldım. Mən sonrakı mərhələlərdə olmadım, amma bu fakt məndə dərin hiddət doğurdu. Lakin sonra tarix Qazaxıstan və qazax xalqı barəsində belə əməllər tutan adamları cəzalandırdı və sovet rəhbərliyinin həmin ədalətsiz qərarına qarşı 1986-cı ilin dekabr ax[104-105]şamında öz etirazını bildirən adamlara haqq qazandırdı – bu, artıq faktdır.

Bu gün mən Qazaxıstanın müstəqillik abidəsini böyük ehtiram hissi ilə ziyarət etdim, bu abidənin önünə əklil qoydum və təzim etdim, milli azadlıq, milli müstəqillik eşqi ilə yaşayıb yaratmış, bu müstəqillik uğrunda mübarizə aparmış və buna nail olmuş qazax xalqının bütün layiqli oğulları qarşısında baş əydim.

Həmin qərarın ədalətsizliyi bir də bunda aşkar idi ki, o vaxtlar burada Nursultan Nazarbayev Nazirlər Sovetinin sədri işləyirdi, o, zəngin təcrübəyə malik bir adam idi, respublikaya əslində rəhbərlik edən bir şəxs idi, çünki son illərdə Kunayev qocaldığına və səhhətinə görə lazımınca işləyə bilmirdi. Nazarbayev respublikaya rəhbərlik edirdi, respublikanı idarə edirdi və onun məsələsi ortaya çıxdıqda dedilər ki, bilirsinizmi, o yaramır, o bacara bilməz, bu işə münasib deyildir. Amma tarix isə sübut etdi ki, o vaxtlar Qazaxıstan Respublikasına rəhbərlik etməyə məhz Nursultan Nazarbayev layiq idi. Əgər bu səhv buraxılmasaydı, bəlkə də belə nöqsanlar olmazdı. Amma buna baxmayaraq, hər halda 1989-cu ildə qazax xalqı düzgün qərara gələrək, Nursultan Nazarbayevi öz rəhbəri, sonra da prezidenti seçdi.

Mən Nursultan Nazarbayevi birgə işlədiyimiz uzun illər ərzində tanıyıram – mən Azərbaycanda işlədikdə də, Moskvada işlədikdə də biz tez-tez görüşür, fikir mübadiləsi aparır, bir çox məsələləri müzakirə edirdik. Mən də şadam ki, qazax xalqı belə layiqli rəhbər yetişdirmişdir, qazax xalqı belə layiqli prezidentə malikdir və o, çox işlər görmüşdür. Əminəm ki, o, Qazaxıstanın, qazax xalqının tərəqqisi üçün çox işlər görəcəkdir.

Hörmətli dostlar! Şadam ki, sizin qarşınızda çıxış etmək imkanına malikəm. Mən əvvəllər, keçmiş vaxtlarda Qazaxıstanda olurdum, 1970-ci ildə də, 1980-ci ildə də böyük ictimaiyyət qarşısında çıxış etmişəm, 1995-ci ildə isə mən buraya xüsusi olaraq ona görə gəldim ki, böyük şair, yazıçı, mütəfəkkir Abay [105-106] Kunanbayevin 150 illik yubileyində iştirak edim. Mən onun yubileyinə həsr olunmuş şənliklərdə çıxış etdim. Mən qazax xalqına, Qazaxıstana həmişə çox böyük ehtiram, çox böyük məhəbbət hissləri bəsləmişəm və indi də bəsləyirəm.

Qazaxıstan gözəl respublikadır, geniş imkanlara, zəngin yerüstü, təbii ehtiyatlara və böyük gələcəyə, ən başlıcası isə bacarıqlı adamlara, istedadlı kadrlara malikdir. Mən görürəm ki, indi, Qazaxıstan müstəqilliyə nail olduqdan sonra öz qanadlarını necə geniş açır və bütün bu məsələləri necə həll edir. Buna görə də uğurlarınıza sevinirəm, sizi bütün nailiyyətləriniz münasibətilə təbrik edirəm və sizi bir daha əmin edirəm ki, öz tərəfimizdən biz Qazaxıstan ilə Azərbaycan arasında, qazax xalqı ilə Azərbaycan xalqı arasında dostluğun və əməkdaşlığın inkişafı və möhkəmlənməsi üçün hər şey edəcəyik.

Mən Qazaxıstan parlamentinə böyük hörmətimi ifadə edirəm. Sizin parlamentiniz çox böyük qanunvericilik funksiyalarını yerinə yetirir, qanunvericilik bazası yaradır, qanunvericilik fəaliyyəti göstərir ki, Qazaxıstanda sosial-siyasi, iqtisadi islahatlar həyata keçirilsin. Sizə böyük uğurlar arzulayıram. Diqqətinizə görə bir daha sağ olun. Sizə xoşbəxtlik, firavanlıq arzulayıram. [106-107]

## AZƏRBAYCAN PREZİDENTİNƏ ƏL-FƏRABİ ADINA QAZAX MİLLİ DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*11 iyun 1997-ci il*

Hörmətli prezident Nursultan Abişoviç Nazarbayev!

Qazax Milli Universitetinin hörmətli rektoru, möhtərəm professorlar, müəllimlər, tələbələr!

Mən sizin hamınızı Azərbaycan xalqı adından salamlayır və sizə, sizin simanızda bütün Qazaxıstan ziyalılarına, bütün Qazaxıstan gənclərinə Azərbaycan xalqının ən xoş arzularını yetirirəm.

Mən Qazax Dövlət Universitetinin elmi şurasına mənə göstərilən şərəfə görə, mənə universitetin fəxri professoru adı verilməsinə görə və fəxri professor diplomu təqdim olunması ilə əlaqədar, hörmətli rektor, dediyiniz səmimi sözlərə görə təşəkkür edirəm. Mən bunu Azərbaycan xalqına, Azərbaycan Respublikasına, Azərbaycan ziyalılarına, Azərbaycan gənclərinə dostluq və hörmət hisslərinin ifadəsi kimi qiymətləndirirəm. Əminəm ki, bu fakt qazax və Azərbaycan xalqları arasında, ölkələrimiz, dövlətlərimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənib genişlənməsinə xidmət edəcəkdir.

Bu universitetin professoru olan prezident Nursultan Nazarbayevin burada mənimlə birlikdə olmasına görə və deyəcəklərimi dinləmək, sizinlə görüşmək imkanına görə ona təşəkkürümü bildirirəm. [107-108]

Siz bilirsiniz ki, Qazaxıstan prezidentinin dəvəti ilə mən dünəndən bəri burada, Qazaxıstanda, Almatıda rəsmi səfərdəyəm. Qazaxıstan prezidenti, hörmətli Nursultan Nazarbayev mənim dəvətimlə ötən ilin sentyabrında Azərbaycanda olmuşdur. Xalqlarımız çoxəsrlik dostluq, qarşılıqlı fəaliyyət, əməkdaşlıq tarixinə malikdirlər. Sizin universitet Şərqin böyük mütəfəkkiri əl-Fərabinin adını daşıyır. Əl-Fərabi eyni dərəcədə həm qazax xalqına, həm də Azərbaycan xalqına və bütün türk xalqlarına məxsusdur. Məhz bu ad və bir çox digər adlar tarixən bunun rəmzi olmuşdur ki, biz eyni köklərə mənsubuq, taleyimiz birdir, tariximiz birdir, dilimiz birdir, dinimiz birdir, adət və ənənələrimiz, mənəvi və əxlaqi-etik dəyərlərimiz də birdir, eynidir, oxşardır.

Bütün bunlar elə bir etibarlı əsas, elə bir möhkəm bünövrədir ki, qazax və Azərbaycan xalqları arasında dostluq onların üzərində dayanır. Dahi əcdadlarımız — əl-Fərabi də, Dədə Qorqud da, Alpamış da, Manas da, Nizami, Füzuli, Nəsimi, Koroğlu da bizi həmişə birləşdirmişlər və öz yaradıcılığı, öz hünərləri ilə xalqlarımızı sivilizasiyaya, tərəqqiyə, azadlığa, müstəqilliyə səsləmişlər. Xalqlarımızın fəxr edə biləcəkləri bax bu zəngin keçmişimiz indi yeni mərhələdə əməkdaşlığı-mız üçün zəmindir.

Mən burada, Qazax Dövlət Universitetində olduğum bir vaxtda tarixi keçmişimizə, milli ənənələrimizə, milli adətləri-mizə, əcdadlarımızın yaratdıqları misilsiz və əvəzsiz sərvətlərə dərin ehtiram hissi ifadə etmək istəyirəm. Biz fəxr edə bilərik ki, Şərq, müsəlman sivilizasiyası, türk sivilizasiyası dünya sivilizasiyasını zənginləşdirmişdir. Biz fəxr edə bilərik ki, onların varisləri bu gün də Dünya Birliyində layiqli yer tuturlar. İndi, həyatımızın yeni mərhələsində biz təmaslarımızı və əlaqələrimizi, əməkdaşlığımızı fəallaşdırmaq üçün tədbirlər görürük. Prezident Nursultan Nazarbayevin 1996-cı ilin sentyabrında Azərbaycana səfəri bunun təməlini qoydu. Mə[108-109]nim buraya səfərim birlikdə başladığımız o böyük işin davamıdır.

Mən dünəndən burada olduğuma son dərəcə şadam. Mən əhatə olunduğumuz dostluq, yoldaşlıq, səmimilik şəraitindən on dərəcə məmnunam. Bizə göstərdiyiniz qonaqpərvərliyə görə, dostluq hisslərinə görə mən prezident Nursultan Nazarbayevə və Qazaxıstandakı, Almatıdakı bütün qardaşlarımıza, dostlarımıza minnətdaram. Çox sağ olun.

Sizi əmin edirəm ki, universitetinizin professoru kimi yüksək ada layiq olmaq üçün bütün fəaliyyətimlə və həyatımla çalışacağam. Ancaq eyni zamanda hesab edirəm ki, bu, Qazaxıstan və Azərbaycan universitetləri arasında, 1919-cu ildə yaradılmış Bakı Dövlət Universiteti ilə hazırda olduğum Qazax Milli Universiteti arasında gələcək əməkdaşlığa doğru daha bir addıma çevriləcəkdir.

Bilirsinizmi, bizim nümayəndə heyətinə Bakı Dövlət Universitetinin – Azərbaycanın baş universitetinin rektoru da da-KİIdir və zənnimcə, sizin gələcək əməkdaşlıq və əlaqələri daha da möhkəmlətmək məsələlərini müzakirə etmək imkanınız olacaqdır. Universitetlərimizin yaşaması və gənclərimizin ali təhsil alması üçün, ziyalılarımızın öz yaradıcılıq imkanlarından, elmin, təhsilin, xalqlarımızın mənəvi həyatının daha da inkişaf etməsindən ötrü yaradıcılıq potensialından istifadə edə bilməsi üçün ən başlıcası bizim malik olduğumuz müstəqillikdir – Qazaxıstanın müstəqilliyidir, Azərbaycanın müstəqilliyidir.

Bu günlərdə Qazaxıstanın həyatı ilə və burada, Qazaxıstanda işlərlə yaxından tanış olarkən biz dönə-dönə yəqin edirik ki, qazax xalqı müstəqillik illərində çox böyük yol keçmişdir. Qazaxıstan dünyanın böyük ölkələrindən biridir, Asiyanın ən böyük ölkələrindən biridir, çox geniş məkana, olduqca zəngin yeraltı və yerüstü sərvətlərə, vasitələrə, böyük iqtisadi potensiala, gözəl insanlara, mahir kadrlara malik ölkədir. Dövlət

[109-110] müstəqilliyi şəraitində Qazaxıstanın bütün bu imkanları daha yüksək sürətlə inkişaf etmişdir və Qazaxıstan bu gün də gözəldir və onun gələcəyi də, şübhəsiz, gözəldir.

Dünən imzaladığımız sənədlər və keçən il Bakıda imzalanmış sənədlər ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən də elm sahəsində, təhsil sahəsində, mədəniyyət sahəsində əməkdaşlıq üçün yaxşı zəmin yaratmışdır. Əlbəttə, burada bizim ümumi cəhətlərimiz olduqca çoxdur, oxşar cəhətlərimiz olduqca çoxdur və biz bir-birimizə çox faydalı ola bilərik. İndi biz neft və qaz sənayesi sahəsində geniş, çox səmərəli əməkdaşlıq üçün böyük imkanlara malikik və Xəzər dənizinin sərvətlərindən intensiv istifadə etmək üçün, Qazaxıstan və Azərbaycan nefti və qazının hasilatı üçün, beynəlxalq bazarlara daşınması üçün səylərimizi birləşdiririk. Bunlar mühüm planlardır, mühüm tədbirlərdir. Mən də əminəm ki, onlar həyata keçiriləcəkdir.

Lakin eyni zamanda iqtisadiyyatın və sosial həyatın bütün sahələrində Qazaxıstanın və Azərbaycanın malik olduqları çox böyük sərvətlərdən istifadə etmək üçün alimlərimizin, ali təhsilimizin, gənclərimizin geniş potensialı var. Şübhə yoxdur ki, biz məhz belə böyük xarüqələrin və böyük hadisələrin ərəfəsindəyik.

Bu gün səhər mən Qazaxıstanın müstəqillik abidəsini ziyarət etdim. Mən bu abidəyə olduqca böyük ehtiram hissi ilə təzim etdim və öz xalqının müstəqilliyi, azadlığı, səadəti yolunda əsrlər boyu mübarizə aparmış qazax xalqının bütün görkəmli oğulları qarşısında baş əydim.

Nəhayət, bir çox əsrlərdən sonra Qazaxıstan da, Azərbaycan da bu müstəqilliyi qazandı. Müstəqillikdən əvvəlki son dövr, yəni müstəqilliyə aparan yol da asan yox, çox mürəkkəb və çətin olmuşdur. Bizim respublikalarımız Sovetlər İttifaqının tərkibində idilər. Mən bu gün deməliyəm ki, Sovetlər İttifaqının tərkibində Qazaxıstan və Azərbaycan iqtisadiyyatda da, [110-111] elmdə də, mədəniyyətdə də, təhsildə də böyük inkişaf yolu keçmişlər. Bu illər, onilliklər ərzində biz çox şey əldə etmişik. Ancaq ən başlıcası – azadlığımız, müstəqilliyimiz yox idi. Öz potensialımızı tam şəkildə reallaşdırmaq, hər şey haqqında istədiyinizi açıq demək imkanımız yox idi. İndi bunları aradan qaldırmışıq. Ona görə də keçmişdə nə olmuşdursa, onu lazımınca qiymətləndirmək, eyni zamanda mənfi cəhətləri, bizim üçün məqbul olmayanları da demək lazımdır.

Hörmətli rektor bizim birgə işlədiyimiz illəri, mənim SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sov.İKP MK Siyasi bürosunun üzvü kimi Moskvada çalışdığım illəri xatırladı. Mən həmin vəzifələrdə digər sahələrlə yanaşı, ali və orta təhsilə, bütün təhsil sisteminə də rəhbərlik edirdim. O. düzgün xatırladı, buna görə ona minnətdaram – həqiqətən o zaman orta təhsil sahəsində, ali təhsil sahəsində islahatlar aparmaq, ali təhsilin maddi-texniki bazasını möhkəmləndirmək üçün, gənclərimizin biliklərə yiyələnməsinə tam imkan yaratmaq üçün çox səy göstərilmişdir.

Bəli, çox iş görülmüş, çoxlu qərarlar qəbul olunmuşdu. Ancaq təəssüf ki, bu qərarların heç də hamısı yerinə yetirilmədi. Lakin bunlar keçmişdə olmuşdur. İndi təəssüflənmək, yada salmaq ki, daha Sovetlər İttifaqı yoxdur – bunu heç kəs etməməlidir, gərək deyildir. Biz məmnun qalmalıyıq ki, Sovetlər İttifaqı dağıldı, müstəqillik qazandıq və öz taleyimizin, öz imkanlarımızın sahibi ola bilmişik. Axı təsəvvür edin, siz o vaxt ali təhsil naziri idiniz, amma bir çox məsələləri Moskvanın icazəsi olmadan həll edə bilmirdiniz, düzdürmü? İndi siz sərbəstsiniz, bu məsələləri özünüz həll edirsiniz. Hətta prezident ilə sizə sərbəstlik vermişdir, indicə dediyiniz kimi, təklif etmişdir ki, məsələlərinizi özünüz həll edəsiniz.

Ona görə də nə baş vermişdirsə, bu, tarixi zərurətdir, Sovetlər İttifaqının dağılması labüd idi. Nə yaxşı ki, belə oldu, əks təqdirdə biz bu müstəqilliyi qazana bilməzdik. Biz Azər[111-112]baycanda belə hesab edirik ki, bu müstəqilliyi qorumalı, onun qədrini bilməli, onu möhkəmləndirməli və onun itirilməsinə heç vaxt yol verməməliyik. Bundan sonra biz heç vaxt hansısa bir dövlətin tərkibində ola bilmərik. İndən belə heç vaxt razılaşa bilmərik ki, əvvəlki quruluş, əvvəlki sistem, keçmiş ittifaq hansısa formada bərpa edilsin.

Bəli, bizim əcdadlarımız həqiqətən azadlıq, müstəqillik. ədalət uğrunda mübarizə aparmışlar, bəzən qalib gəlmişlər, əlbəttə, bəzən məğlubiyyətə də uğramışlar, böyük çətinliklərdən keçmişlər. 80-ci illərdə isə Sovetlər İttifaqında mürəkkəb sosial-siyasi proseslər, iqtisadi proseslər gedəndə bir çox respublikalarda, o cümlədən Qazaxıstanda da milli azadlıq və milli müstəqillik haqqında əhval-ruhiyyələr yarandı. Bunu görən, daha çox hiss edən Mərkəz, Sovet hökumətinin, Sovetlər İttifaqının, Kommunist Partiyasının rəhbərliyi buna yol verməmək, boğmaq üçün tədbirlər görürdü. Mən bunların hamısının şahidi olmuşam. Həmin tədbirlər milli siyasətdə çox ciddi səhvlərə, nöqsanlara, təhriflərə, kadr siyasətində səhvlərə, nöqsanlara səbəb oldu.

Biz bunu Azərbaycanın taleyində hiss etmişik. Siz bilirsiniz ki, Azərbaycanın kiçik bir muxtar vilayəti olan Dağlıq Qarabağı qoparıb Ermənistana birləşdirmək məqsədi ilə 1988-ci ildə qonşu Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz başlanmışdır. Bunun nə kimi ağır nəticələrə gətirib çıxardığını indi bütün dünya bilir. Halbuki həm Azərbaycan, həm də Ermənistan vahid Sovet İttifaqının tərkibinə daxil olduqları, bərabərhüquqlu Sovet respublikaları olduqları dövrdə Sovet İttifaqının, Kommunist Partiyasının rəhbərliyi bu münaqişənin daha da genişlənməsinə yol verməmək, onun qarşısını almaq, qardaş qırğını törədilməsinə şərait yaratmamaq üçün tam imkana malik idi. Lakin onlar bunun nəinki qarşısını almadılar, əksinə, buna yol verdilər. Elə Mixail Qorbaçovun özü də buna yol verdi. Bu, faciəyə gətirib çıxardı, ona gətirib çıxardı ki, [112-113] sonralar müxtəlif hallara görə, müxtəlif səbəblərə görə bu təcavüz öz miqyaslarına görə genişləndi. Nəticədə Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olundu. İşğal edilmiş torpaqlardan bir milyon azərbaycanlı sakin öz yaşayış yerlərindən qovulub didərgin salındı, əsrlər boyu yığıb yaratdıqları hər

şeyi itirdi. İşğal olunmuş torpaqlar dağıdılır, yağmalanır, qarət edilir. Bu bir milyon adam çox ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır.

Görün, o dövrün səhvləri, xətalan nəyə gətirib çıxarmışdır. Yaxud götürək Azərbaycanda 1990-cı ilin yanvar hadisələrini. O vaxt Sovet İttifaqı rəhbərliyinin Azərbaycan xalqına qarşı, Azərbaycan Respublikasına qarşı ədalətsizliyi əleyhinə xalqın etirazı Bakı şəhərində Sovet ordusu qoşunlarının iri kontingenti ilə yatırıldı, qan töküldü, çoxlu adam həlak oldu, gənclər, qadınlar, uşaqlar, qocalar Sovet qoşunlarının Azərbaycan xalqına qarşı bu hərbi təcavüzünün qurbanları oldular. Biz bunların hamısını görüb yaşadıq. Bu, Azərbaycan xalqının bədənində, qəlbində sağalmaz aradır və eyni zamanda bizə dərs oldu ki, gərək öz müstəqilliyini əziz tutasan, onun qədir-qiymətini biləsən.

Qazaxıstan da bu cür faktlarla, bu cür hadisələrlə qarşılaşdı. Başabəla yenidənqurmanın başlandığı 1985-86-cı illəri xatırlayıram. Moskvada, müxtəlif ictimai-siyasi dairələrdə Orta Asiyanın milli respublikaları, Qazaxıstan, Azərbaycan barəsində qəsdən neqativ münasibət formalaşdırılırdı. Guya ki, neqativ hesab edilən və durğunluq dövrünün qüsurlarına aid olan nə vardısa, hamısı ancaq bu respublikalarda – Qazaxıstanda, Özbəkistanda, Türkmənistanda, Qırğızıstanda baş vermişdi, yalnız bu respublikalarda olmuşdu, – belə çıxırdı ki, Sovet İttifaqının qalan respublikaları, qalan regionları aydan ari, sudan duru idi. Bu respublikalar, bu xalqlar hədəf altına alınmışdı, atəşə tutulurdu. Azərbaycanı da, Qazaxıstanı da gözdən salmaq, nüfuzları salmaq üçün hər şey edilirdi. Xatirimdədir, nə qədər saxta sənədlər üzə çıxarılıb mərkəzi mətbuatda dərc olunurdu. [113-114] Bütün bunlar ədalətsizlik idi, bütün bunlar yaranmaqda, meydana gəlməkdə, baş qaldırmaqda olan hər şeyi, o cümlədən milli hissləri, milli ləyaqəti, milli mənliyi yatırtmaq, boğmaq istəyinin bariz təzahürü idi.

Odur ki, 1986-cı ildə Qazaxıstan rəhbərliyini dəyişdirmək məsələsi qalxdı. Bu, təbii hal idi. Qazaxıstan rəhbəri Dinmü həmməd Kunayev artıq yaşa dolmuşdu və səhhətinə görə işləri daha təmin edə bilmirdi. Qazaxıstana kim rəhbərlik etməlidir bu məsələnin həlli bir neçə ay çəkdi. Tədricən də belə bir fikiı formalaşdı ki, Qazaxıstanda, zəngin kadr potensialı olan belə böyük bir respublikada Kunayevi əvəz edə biləcək layiqli adam yoxdur. Bu, sadəcə olaraq təəccüblü bir hal idi.

Məni fikir götürdü, düşündüm ki, aman Allah, hətta o illərdə – otuzuncu, qırxıncı illərdə, Böyük Vətən müharibəsi illərində Qazaxıstana rəhbərlik etmək üçün respublikada qazaxlardan adamlar tapılmışdı. Sizin ki yadınızdadır. Belə adamlar müharibədən sonrakı dövrdə də olmuşlar. Doğrudur, qısa bir zaman olmadı, sonra isə 20 ildən artıq bir dövrdə Kunayev Qazaxıstana rəhbərlik etdi. Başqaları da meydana çıxdı. Elə isə nə üçün indi, Qazaxıstanın belə bir yüksək səviyyəyə çatdığı, adamların, kadrların yetişdiyi, gənc kadrların yetişdiyi bir dövrdə deyilirdi: "Milli kadrlar yoxdur, oraya yerli millətdən olmayan adam göndərmək lazımdır". Bu ideya elə hey gəzib dolaşırdı, dillərdən düşmürdü, halbuki Qazaxıstanda layiqli adamlar vardı və layiqli adamlar Qazaxıstan rəhbərliyinin özündə də vardı. Onların ən layiqlilərindən biri Nazirlər Sovetinin sədri vəzifəsində çalışırdı və Qazaxıstan rəhbərliyində əslində ikinci sima idi. O, bütün funksiyaları, özünün bütün bu vəzifələrini uğurla yerinə yetirirdi. Yeri gəlmişkən, onun barəsində nə Qazaxıstanda, nə Moskvada, nə Siyasi Büroda, nə də Nazirlər Sovetində heç bir irad yox idi. Belə bir vəziyyətdə əhval-ruhiyyə yaradırdılar ki, Qazaxıstana rəhbər təyin etməyə guya layiqli adam yoxdur. [114-115]

Bütün bunlar ona gətirib çıxardı ki, Qorbaçov bəzi adamların köməyilə qərar qəbul edib, Kolbini buraya birinci rəhbər göndərdi. O vaxt mən hansısa bir ümumi müzakirədən sonra ona telefonla zəng vurub dedim ki, siz düz iş tutmursunuz. Bu səhvdir, nə üçün belə edirsiniz? Dedi ki, orada elə bir adam yoxdur. Necə yəni elə bir adam yoxdur. Axı orada Nazarbayev var. Əgər o, sizin xoşunuza gəlmirsə, başqa birisi var, üçüncü var. Axı siz nə üçün belə hərəkət edirsiniz? Qorbaçov Siyasi Büronun iclasında bir neçə dəfə bildirmişdi: qazaxların özləri deyirlər ki, indi bizə Moskvadan adam, qazax millətindən olmayan adam göndərmək lazımdır. Çox təəssüflər olsun ki, o, iki dəfə Dinmühəmməd Kunayevin adını çəkdi, guya Kunayevin özü ona zəng vurub deyib ki, mən onsuz da gedirəm, buna görə də siz düşünməlisiniz və buraya qazax millətindən olmayan adam göndərməlisiniz, vəziyyət elədir ki, onun öhdəsindən yerli millətdən olan adam gələ bilməz.

Təəssüf ki, bu hal bizdə, Azərbaycanda da olmuşdu. Mən bunu söyləməklə bəlkə də vaxtınızı alıram. Amma bu, tarixin dərsidir. Bəli, belə hallar bizdə, Azərbaycanda da, Qazaxıstanda da, digər milli respublikalarda da olmuşdur. Biz özümüz bir-birimizi etibardan, nüfuzdan salmağa çalışırdıq. Biz bir-birimizi pisləməyə, ləkələməyə başlamışdıq. Təkcə Kunayev deyil, burada bəzi digər adamlar da Qorbaçovun yanına gedib deyirdilər ki, filankəs pisdir, filankəs də pisdir, mərkəzdən adam göndərin. Bu, nəyə gətirib çıxardı? Ona gətirib çıxardı ki, xalq bu qərarla razılaşmadı. Yadımdadır, o vaxt deyirdilər, Mərkəzi Komitə çıxış etmədi, bu iclas bir növ matəm yığıncağı kimi guya dinməz-söyləməz keçdi. Lakin buna baxmayaraq, həmin adamı təyin etdilər, yaxud seçdilər. Ancaq elə həmin axşam gənclər ayağa qalxaraq öz rəyini bildirdilər.

Bilirsinizmi, o vaxt bu, fövqəladə hadisə idi. Xatirimdədir, ertəsi gün Siyasi Büronun iclasını çağırıb baş vermiş hadisəni müzakirə etməyə başladılar və dedilər ki, bu, necə olmuşdur, [115-116] nə üçün baş vermişdir, niyə Nazarbayev bunun qarşısını almadı, niyə başqası bunun qarşısını almadı, nə üçün Kunayev bunun qarşısını almadı. Artıq bütün bu söhbətlər başdan-ayağa cəfəngiyat idi. Oraya komissiya göndərdilər. Yadımdadır, komissiyaya Solomentsev başçılıq edirdi. Söz düşmüşkən, o da bir vaxtlar burada, sizdə işləyib, təbii ki, qazax

xalqının xeyirxah münasibətini görüb. Burada ona çox böyük hörmət edirdilər. Lakin o, buradan anlaşılmaz, təəccüblü məlumatlarla qayıtdı.

Məsələn, xatirimdədir, o, Siyasi Büroda məlumat verərək dedi: onlar Qazax Universitetində, misal üçün, hüquq fakültəsini tutublar. Sizin yadınızdadır, o vaxt Siz nazir idiniz, – budur, hüquq fakültəsini tutublar, orada isə qazaxlar çoxdur. Halbuki qazaxlar qalanlarından bir qədər çoxdur. Orada hansısa bir fakültəni də – tarix fakültəsini, daha bir fakültəni tutublar. Mən oturub düşünürdüm, aman Allah, gör nələr danışırlar. Soruşdum ki, yoxsa, qazaxlar oxumaq hüququna malik deyillər, bu, qazax universitetidir, yoxsa hansısa başqa bir universitet – ərəb universiteti və ya fransız universitetidir? Qazaxlar oxumalıdırlar. Əlbəttə, başqaları da oxumalıdır. Bunların hamısını elə qələmə verirdilər ki, guya bütün bunlar təşkil edilmişdi, tənzimlənib istiqamətləndirilirdi, guya başqa millətdən olan şəxsləri qəbul etmirdilər, ancaq qazaxları götürürdülər, ona görə də bütün bunlar qazax millətçiliyinə gətirib çıxarmışdır.

Bax, belə cəfəng şeylər danışırdılar, həm də bununla kifayətlənmirdilər. Onun təqdim etdiyi arayış dəhşətli idi. Nursultan Abişoviç sonralar bu arayışla tanış olmuşdu. Həmin arayışdan sonra daha bir böyük komissiya təyin etdilər. Sonra isə yayda həmin məsələ barəsində plenum keçirib qazax millətçiliyi haqqında qərar çıxartdılar. Lakin mən onda xəstələnib xəstəxanaya düşmüşdüm və buna görə də sonra bu prosesdə daha iştirak etmədim və bu plenumda olmadım. Bəli, qazax millətçiliyi haqqında qərar qəbul etdilər. Axı hansı millətçilikdən söhbət gedə bilərdi? Qazaxıstandakı beynəlmiləlçilik [116-117] bütün adamlar, respublikalar üçün nümunə idi – bu faktdır. Qazaxıstan çoxmillətli respublikadır. O vaxtlar Qazaxıstana mən də gəlirdim. Moskvada işləsəm də bilirdim ki, burada, Qazaxıstanda bütün xalqlar birlikdə, mehriban yaşayır və işləyirlər. Bütün xalqların nümayəndələri bütün idarəetmə orqanlarında, hər yerdə, o cümlədən də təhsildə təmsil edilmişlər. Qazax millətçiliyindən dəm vurub bütün qazax xalqına belə qara yaxmaq olardımı?

Onlar bundan əvvəl də qazax xalqını millətçilikdə təqsirləndirməyə cəhd göstərmişdilər. Zənnimcə, 1977-ci, yaxud 1978-ci ildə, – o vaxtlar mən hələ Bakıda, Azərbaycanda işləyirdim, – Oljas Süleymenovun "Aziya" kitabı haqqında xüsusi qərar qəbul etmişdilər. Bu kitabda məgər pis bir şey var idimi? Yeri gəlmişkən, o vaxtlar bu kitab böyük şöhrətə malik idi, eləcə də Moskvada, Rusiyada da böyük şöhrət qazanmışdı. Beləliklə, düşünüb bir şey uydurdular və xüsusi qərar qəbul etdilər və onu da millətçilikdə təqsirləndirdilər.

Bir görün, Azərbaycan xalqı kimi, qazax xalqı da öz azadlığına, öz müstəqilliyinə doğru necə böyük çətinliklərdən keçib gəlmişdir. Lakin tarix onların hamısını mühakimə etdi, tarix 1986-cı ilin dekabrında Sovet rəhbərliyinin ədalətsiz qərarına qarşı ayağa qalxan insanlara haqq qazandırdı. Tarix həqiqəti bərpa etdi və onlar artıq 1989-cu ildə Nursultan Abişoviç Nazarbayevin Qazaxıstan rəhbəri seçilməsinə razılıq verməli oldular. O, belə bir məsuliyyəti öz üzərinə götürməyə artıq çoxdan hazır idi. Budur, o vaxtdan ötən 8-9 ildir ki, Nursultan Abişoviç bu respublikaya başçılıq edir və keçid dövrünün bütün bu çətin mərhələləri – müstəqilliyin əldə edilməsi, müstəqil dövlət yaradılması, islahatlar aparılması onun rəhbərliyi ilə, onun fəal iştirakı ilə, əlbəttə, onun məhz zəngin təcrübəsi, onun bacarığı sayəsində, onun qabiliyyəti sayəsində həyata keçirilir və tamamilə qanunauyğun haldır ki, qazax xalqı ümumxalq səsverməsi yolu ilə Nursultan Nazarbayevi prezi[117-118]dent seçmişdir. O, Qazaxıstanın layiqli prezidentidir və qazax xalqını indi artıq bütün dünyada layiqincə təmsil edir.

Mən Nursultan Abişoviçi lap çoxdan, o hələ Qazaxıstan KP MK-nın sənaye üzrə katibi işlədiyi vaxtlardan tanıyıram. Mən onunla burada da görüşmüşdüm, biz Moskvada da görüşürdük. Sonralar, o artıq Qazaxıstan Nazirlər Sovetinin sədri işləyəndə və mən isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyəndə biz tez-tez görüşür, toplaşırdıq. İndi böyük fərəh hissi ilə deyə bilərəm ki, Nazirlər Soveti sədrinin birinci müavini kimi, mən Qazaxıstan üçün, Qazaxıstan Respublikası üçün öz fəaliyyət dairəmə daxil olan çox məsələləri həll edirdim. Aramızda çox işgüzar, çox mehriban münasibət yaranmışdı və aramızda yaxşı münasibət, dostluq münasibəti vardı. Artıq neçə illərdir ki, mən ona göz qoyuram. O öz istedadını, öz qabiliyyətini gənclik illərindən göstərməyə başlamış və hələ həmin illərdə, MK katibi və Nazirlər Sovetinin sədri işlədiyi illərdə Qazaxıstanın bütün çoxsaylı kadrları arasında seçilirdi.

Onu bu vəzifəyə hadisələrin bütün gedişi, Qazaxıstan tarixinin bütün gedişi, əslinə qalsa, tarixin özü, həyatın özü irəli çəkmişdir. O ki qaldı buna yol verməK istəməyən adamlara, onlar yanılmışlar və mən bilən, sonralar ondan hətta üzr istəmişlər. Mən bu faktlardan ona görə danışıram ki, mən bu faktların şahidiyəm, onları görmüşəm. Mənim bildiklərimi bəlkə də az adam bilir. Buna görə də siz də bilməlisiniz ki, bu, tarixdə qalsın, bilməlisiniz ki, qazax xalqı barəsində və Nursultan Abişoviç barəsində haqsız-ədalətsiz hərəkətlərə yol verilmişdir.

Lakin təkrar edirəm, tarix hər şeyi öz yerinə qoymuşdur. İndi Qazaxıstan azad, müstəqil respublikadır və iqtisadi islahatlar sosial islahatlar, siyasi islahatlar aparır və şübhəsiz ki, parlaq gələcəyə baxır. Qazaxıstan da, qazax xalqı da Nursultan Abişoviç Nazarbayevin şəxsində layiqli liderə, rəhbərə, prezidentə malikdir. Mən buna şadam. Mən sizi bu münasibətlə səmimi qəlbdən təbrik edirəm və sizə, bütün qazax xalqına və [118-119] dostum Nursultan Abişoviçə xoşbəxtlik, firavanlıq və yeni uğurlar arzulayıram.

Respublikamızda şərait sizdə olduğundan daha mürəkkəb, daha çətindir. Dediyim kimi, Azərbaycan xalqına qarşı 1988-ci ildə Ermənistan tərəfindən hərbi təcavüz, 1990-cı ildə isə Sovet qoşunları tərəfindən hərbi təcavüz oldu, Azərbaycanda daxili siyasi mübarizə getdi, müxtəlif silahlı qruplar hakimiyyət uğrunda mübarizə

apardılar, müxtəlif qanunsuz silahlı dəstələr, cinayətkar qruplar meydana çıxdı. Onlar Azərbaycanda daxili siyasi vəziyyəti mürəkkəbləşdirirdilər və əslinə qalsa, məhz bu səbəbdən erməni silahlı birləşmələri Azərbaycan ərazisinin bir hissəsini işğal edə bildilər, çünki ölkənin daxilində sabitlik yox idi, adamlar, müxtəlif qruplar hakimiyyət uğrunda öz aralarında savaşırdılar. Bu da müəyyən dərəcədə kənardan qızışdırılırdı. Lakin bütün bunlar Azərbaycanda daxili həyatımızın reallığı idi. Məhz buna görə də erməni silahlı birləşmələri ərazimizin bir hissəsini işğal edə bildilər. Məhz buna görə də 1992-ci ildə Azərbaycanda hakimiyyət dəyişdi. Bir ildən sonra, 1993-cü ildə hakimiyyət başında olan Xalq Cəbhəsi xalqın etimadını itirdi və silahlı birləşmələr ona qarşı ayağa qalxdıqda hakimiyyətdən getməli oldu. Azərbaycanda vətəndaş müharibəsi başlayırdı. Biz bundan sonra bu çətinlikləri aradan qaldırmağa və vətəndaş müharibəsinin daha da genişlənməsinə yol verməməyə, vəziyyəti tədricən sabitləşdirməyə müvəffəq olduq, hərçənd, bu, asanlıqla başa gəlmədi.

1994-cü ilin oktyabrında dövlət çevrilişi etməyə cəhd göstərildi. Biz məhz xalqın gücü ilə, xalqın köməyi ilə bu cəhdin qarşısını almağa müvəffəq olduq. Mən televiziya ilə xalqa müraciət etdim, xalq bir neçə saatın içərisində Prezident sarayının ətrafına toplaşdı və konstitusiya hakimiyyətini müdafiə etdi. Xüsusi təyinatlı silahlı dəstə – böyük qüvvələri və böyük miqdarda silahı olan xüsusi təyinatlı polis dəstəsi 1995-ci ildə çevriliş etməyə, prezidentə qarşı terror törətməyə cəhd göstər[119-120]di. Biz bunun da qarşısını almağa müvəffəq olduq. Bəzi terror hərəkətlərinin də qarşısını almaq mümkün oldu.

Bütün bunlar respublikamızın inkişafının gedişini ləngitdi. Lakin təxminən 1995-ci ilin axırlarından başlayaraq, 1996-cı ildə biz respublikada vəziyyəti sabitləşdirə bildik. İndi respublikada vəziyyət sabit, normaldır. Bütün bu qanunsuz silahlı dəstələr əsas etibarilə ləğv edilmişdir. Üç il bundan əvvəl biz Ermənistanla atəşkəs haqqında saziş bağladıq, indi hərbi əməliyyatlar yoxdur. Lakin bununla belə, torpaqlarımız işğal altında qalmaqdadır, qaçqın insanlar çadırlarda yaşayırlar. Buna görə də biz bu məsələni dincliklə həll etməyə çalışırıq. ATƏT-in Minsk qrupu bununla məşğul olur. O, tədbirlər görür. 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündən sonra indi ATƏT-in üç həmsədri var — Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Ümidvarıq ki, onlar məsələnin dincliklə tənzimlənməsi üçün daha səmərəli tədbirlər görəcəklər.

Biz sülh istəyirik. Bizim Ermənistana və digər qonşulara qarşı heç bir iddiamız yoxdur, halbuki bundan ötrü əsaslar var. Lakin biz istəyirik ki, ərazimiz azad edilsin. Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olunsun və qaçqınlar öz doğma yerlərinə qayıtsınlar.

Məhz bu şərtlərlə Dağlıq Qarabağ Azərbaycan dövlətinin tərkibində ən yüksək özünüidarə statusu ala bilər. Buna görə də Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması prinsipləri haqqında ATƏT-in Lissabon zirvə görüşünün qərarı məsələnin dincliklə həlli üçün yaxşı əsasdır. Orada üç prinsip ifadə edilmişdir: Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək özünüidarə statusu verilməsi və üçüncüsü – bütün Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinə zəmanətin təmin edilməsi. Biz bu prinsiplərlə razıyıq. ATƏT-in 54 üzvündən 53-ü onları dəstəkləmiş, təkcə Ermənistan razılaşmamışdır. Buna baxmayaraq, bu prinsiplər qəbul olunmuşdur. [120-121]

Mən bu imkandan istifadə edərək, Dağlıq Qarabağ münaqişəsində, Ermənistan-Azərbaycan münaqişəsində daim ədalətli, prinsipial mövqe tutduqlarına görə Nursultan Abişoviçə və Qazaxıstan Respublikasına bir daha təşəkkür etmək istəyirəm. Prezident Nursultan Nazarbayev hələ 1991-ci ildə təşəbbüs göstərmişdir. Rusiya prezidenti Boris Yeltsinlə birlikdə onlar Azərbaycana gələrək, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün səmərəli iş görmüşlər. Təəssüf ki, o vaxtlar vəziyyət, bu münaqişənin aradan qaldırılmasını istəməyən bəzi qüvvələr və digər səbəblər bu təşəbbüsün inkişaf etməsinə imkan vermədilər.

Lissabonda həmin məsələnin müzakirəsi zamanı Qazaxıstan, Nursultan Nazarbayev münaqişəni dincliklə aradan qaldırmaq prinsipləri haqqında Azərbaycanın bu ədalətli mövqeyini büsbütün və tamamilə dəstəklədi. Bu il martın 27-də MDB-nin dövlət başçılarının görüşündə prezident Nursultan Nazarbayev ümumiyyətlə, MDB problemləri barəsində, xüsusən münaqişələr və o cümlədən də Dağlıq Qarabağ münaqişəsi barədə böyük, çox məzmunlu və hətta deyərdim, çox cəsarətli, çox düzgün, ədalətli nitq söylədi. Bütün bunlara görə mən Nursultan Nazarbayevə, Qazaxıstan Respublikasına minnətdaram. Mən minnətdaram ki, dünən, görüşlərimiz zamanı, rəsmi bəyanatlar zamanı da Qazaxıstan prezidenti öz mövqeyinin separatçılığı pisləyən, hər bir dövlətin, hər bir ölkənin ərazi bütövlüyünə hörmət bəsləməyə çağıran mövqeyinin dəyişməz olduğunu bəyan etdi. Bu, beynəlxalq hüquq normasıdır, bu, BMT-nin prinsipləridir, bu, ATƏT-in prinsipləridir. Biz buna görə minnətdarıq.

Amma bununla bərabər, təəssüflər olsun ki, heç də hamı belə hərəkət etmir. Bir neçə ay bundan əvvəl məlum olmuşdur ki, atəşkəsin davam etdiyi bu üç ildə Rusiya Federasiyasının bəzi vəzifəli şəxsləri qeyri-leqal surətdə Ermənistana bir milyard dollardan artıq dəyərdə silah, döyüş sursatı vermişlər. [121-122] Bunlar ağır silahlar, müasir tanklar, müasir zenit raketləri, müasir "Qrad" qurğuları, zirehli piyada maşınları və bir çox başqa vasitələrdir. Əlbəttə, bu, biabırçılıqdır. Biz Rusiya prezidentinə müraciət etdik. Mən Boris Nikolayeviç Yeltsinə şəxsən müraciət etmişəm, məktub göndərmişəm. Onlar etiraf etdilər ki, belə hadisə həqiqətən olmuşdur. O, prokurorluğa bu məsələ ilə məşğul olmağı tapşırıb. Biz cavab gözləyirik, biz nəticəni gözləyirik. Biz bununla razılaşa bilmərik. Bu üç ildə Ermənistana göndərilən o qədər silah təkcə Azərbaycanı deyil, bütün

ətrafdakı ölkələri də dağıda bilər. Məgər buna yol vermək olarmı? Bir tərəfdən, söhbət demokratiyanın inkişafından, suverenliyin inkişafından, ölkələr arasında, o cümlədən MDB-yə daxil olan ölkələr arasında bərabərhüquqlu münasibətlərin inkişafından gedir. Digər tərəfdən isə, Rusiya Federasiyasının ayrı-ayrı strukturları, həmçinin MDB-yə daxil olan Azərbaycanla münaqişədə olan ölkəyə qeyri-leqal, qeyri-qanuni surətdə belə böyük miqdarda silah göndərirlər.

Əlbəttə, bu səhvlər, bu çatışmazlıqlar çox ciddidir. Onlar MDB-də vəziyyəti, regionumuzda vəziyyəti bütövlükdə çətinləşdirir. Lakin bununla bərabər, biz məsələnin dincliklə həll olunması, təmkinlə, ədalətlə araşdırılması, daha başqa münaqişələrə yol verilməməsi, hər hansı yeni təcavüzkar hərəkətlərə yol verilməməsi mövqelərində dayanmışıq.

Respublikamız barədə qısaca olaraq demək istədiyim bunlardır. Bu hadisələrlə əlaqədar respublikamızda iqtisadi islahatların aparılması ləngimişdi. Lakin indi biz islahatları yüksək sürətlə həyata keçiririk. Mülkiyyətin tamamilə özəlləşdirilməsi prosesi gedir. Biz torpaq islahatı haqqında qanun qəbul etmişik. Bu qanunda kənd təsərrüfatı istehsalında olan bütün torpaqların xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulur. Xarici iqtisadi fəaliyyəti liberallaşdırmaq tədbirləri görülür. Bütün bu islahatlar nəticəsində 1996-cı ildə bizdə iqtisadiyyatda durğunluq, istehsalda durğunluq dayandırılmışdır. Keçən ildə də, [122-123] xüsusən cari ilin ötən aylarında az da olsa yüksəliş əmələ gəlmişdir. Ümidvarıq ki, bu meyl davam etdiriləcək və 1997-ci il Azərbaycanda iqtisadi islahatların fəal həyata keçirilməsi ili və təbii olaraq, Azərbaycanda iqtisadiyyatın və adamların rifahının yüksəlişi ili olacaqdır.

Təbii ki, biz Qazaxıstanla bütün bu sahələrdə də əməkdaşlıq edir, Qazaxıstanın təcrübəsindən faydalanırıq. Biz Qazaxıstanda islahatlar aparılması və keçid dövrünün müxtəlif tədbirlərinin həyata keçirilməsi təcrübəsini öyrənmək üçün Qazaxıstana əvvəllər də nümayəndə heyətləri göndərirdik. Elə indi, bu günlərdə burada olarkən biz Qazaxıstanda görülən bütün işlərlə çox fəal maraqlanırıq ki, sizin təcrübənizdən ölkəmizdə imkan daxilində istifadə edək. Bu da dostcasına əməkdaşlığımızın, dostluq münasibətlərimizin bir hissəsidir.

Hörmətli dostlar, qardaşlar, bacılar! Burada, Qazax Universitetində, qazax xalqının Qazaxıstanın elm, təhsil və mədəniyyət mərkəzində olduğuma görə son dərəcə şadam. Mən şadam ki, belə yüksək ada, belə yüksək şərəfə layiq görülmüşəm. Bir daha əmin edirəm ki, sizin yüksək etimadınızı doğrultmağa bütün həyatımla, öz fəaliyyətimlə çalışacağam. Qazax və Azərbaycan xalqlarının qardaş dostluğunu möhkəmlətmək üçün hər şey edəcəyəm. Hər şey edəcəyəm ki, Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlıq gələcəkdə daha uğurla inkişaf etsin. Diqqətinizə görə sağ olun.

Hədiyyənizə – əl-Fərabinin portretinə görə sağ olun. Mən do sizə yadigar olaraq hədiyyə – 500 illiyini ötən il birlikdə qeyd etdiyimiz ulu babamız, böyük Məhəmməd Füzulinin portretini vermək istəyirəm. Xahiş edirəm qəbul edəsiniz. Mən sizə bundan əlavə çoxlu kitab da hədiyyə vermək istəyirəm. [123-124]

## QAZAXISTANDA YAŞAYAN AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*11 iyun 1997-ci il*

Biz dünəndən buradayıq, yəqin ki, məlumatınız var. Biz hər bir ölkəyə gedəndə həmvətənlərimizi, azərbaycanlıları arayırıq. Keçmişdə də aramışıq, amma onda Sovet hökumətində hamı bir olduğuna görə bu məsələlər o qədər asan deyildi. Ancaq indi müstəqil dövlətik, ona görə də hər yerdə, hər ölkədə, burada, Qazaxıstanda da öz həmvətənlərimizi arayırıq. Bizdə məlumatlar var ki, burada nə qədər azərbaycanlı yaşayır, amma yəqin siz daha çox bilirsiniz ki, burada azərbaycanlılar necə yaşayırlar, nə iş görürlər. Azərbaycanla nə qədər əlaqələri var. Bunları yəqin ki, siz mənə deyə bilərsiniz, elədirmi?

**Hüseyn Novruzov (Qazaxıstandakı "Turan" Azərbaycan Mədəniyyəti Cəmiyyətinin sədri):**

Möhtərəm prezidentimiz, Azərbaycan xalqının əvəzolunmaz, müdrik siyasətçisi, ağsaqqalımız!

İcazə verin, "Turan" Azərbaycan Mədəniyyəti Cəmiyyətinin idarə heyəti və ümumiyyətlə. Qazaxıstandakı bütün soydaşlarımız adından Sizi bu unudulmaz görüş münasibətilə səmimi qəlbdən təbrik edim. Xoş gəlmisiniz, həmişə Siz gələsiniz!

İcazənizlə, Qazaxıstandakı soydaşlarımızın mədəni həyatı, təhsili və başqa məsələlər üzrə bir neçə məlumatı diqqətinizə çatdırım. "Turan" Azərbaycan Mədəniyyəti Cəmiyyəti 1993-[124-125]cü ilin mayında Qazaxıstan Ədliyyə Nazirliyində rəsmi qeydiyyatdan keçmişdir. 1996-cı ilin mə"lumatına görə, hazırda Qazaxıstanda rəsmən yaşayan azəri türklərinin sayı 106 minə çatır. Soydaşlarımız ən çox Cambul, Çimkənd, Almatı, Taldı-Kurqan vilayətlərində yaşayırlar. Cəmiyyətimiz yarandığı gündən müntəzəm olaraq Qazaxıstanın ictimai-siyasi həyatında fəal iştirak edir. Dövlət bayramlarını, xalqımızın milli bayramlarını – Novruz bayrammı, 28 May respublika gününü hər il təntənəli surətdə qeyd edirik. Qazaxıstan xalqının mədəniyyət, incəsənət festivallarında, həmçinin türk xalqlarının festivallarında (1993, 1994, 1996-cı illər) fəal iştirak edirik. Bizim təşəbbüsümüzlə Almatıda "Ozan" şəhər Mədəniyyət Cəmiyyəti təşkil olunmuş, 10-dək vilayətdə (Kustanay, Cambul, Taldı-Kurqan Petropavlovsk və s.) də Azərbaycan cəmiyyətləri yaradılmışdır. Bunların, ümumiyyətlə, "Turan" cəmiyyətinin ali məqsədi türk xalqlarının birliyini, doğma Azərbaycanımızla Qazaxıstan arasında mədəni əlaqələri möhkəmləndirməkdən ibarətdir.

Azərbaycan Mədəniyyət Nazirliyi bizə musiqi alətləri – tar, kamança, nağara göndərmişdir. Qazaxıstan hökuməti, Qazaxıstan xalqlarına yardım fondu bizə maddi kömək göstərmişdir. Qazax və ruslardan başqa, azlıq təşkil edən millətlərin nümayəndələrinə ali məktəblərdə 10 faiz güzəştli yer verilir. Bundan əlavə, Xoca Əhməd Yəsəvi adına Türküstan Universitetinin hüquq, turizm, iqtisadiyyat və s. fakültələrində bizə 10 yer verilmişdir.

**Heydər Əliyev:** Orada hansı dildə dərs keçirlər?

**Hüseyn Novruzov:** Rus və qazax dillərində. Eyni zamanda, ingilis və türk dillərini öyrədirlər. Orada oxuyanlara yataqxanada yer, ayda 100 dollara yaxın təqaüd verirlər ki, valideynlərinin köməyinə ehtiyacları olmasın. Hansı ailədən, kimin orada oxumasını biz özümüz həll edirik.

Qazaxıstanda müxtəlif ixtisaslar üzrə kadrlar, ziyalılarımız var, Azərbaycanın çiçəklənməsi, inkişafı üçün onların gü[125-126]cündən istifadə etmək olar. Biz buna hazırıq, bizim köməyimizə inamınız ola bilər.

Əgər burada bizim nümayəndəliyimiz olsaydı, daha yaxşı olardı. Bəzi xırda məsələlər var ki, bundan ötrü Sizi narahat etmək istəmirik. Məsələn, uzun müddət təyyarə olmur.

**Heydər Əliyev:** Bakı-Almatı təyyarəsi yoxdur?

**Hüseyn Novruzov:** İndi var, amma biletin qiyməti çox bahadır, camaat şikayət edir. Bir başa getmək üçün 170-180 dollardır.

**Heydər Əliyev:** Kimindir, "Azərbaycan hava yolları"nın, yoxsa?...

**Hüseyn Novruzov:** Yox, özəl şirkətdir.

Sizinlə bugünkü unudulmaz görüşümüzdən yadigar olaraq həmyerlimiz, Qazaxıstanın əməkdar incəsənət xadimi, heykəltəraş, sevimli rəssamımız Maral xanım Rəhmanzadənin kiçik qardaşı Vaqif bəyin bir sənət əsərini Sizə təqdim etmək istərdik.

**Heydər Əliyev:** Sağ olun.

**Hüseyn Novruzov:** Yeri gəlmişkən deyim ki, Vaqif bəyin Azərbaycan mövzusunda əsərləri var. Əgər Azərbaycan Dövlət Muzeyinin imkanı varsa, bu əsərləri ala bilərsə, yəqin ki, Vaqifin də sənətini davam etdirmək üçün bir az imkanı ola bilər.

Hörmətli prezidentimiz, xalqımızın bu çətin vəziyyətində Sizə böyük enerji, müdrikliyinizə arxalanaraq daha böyük nailiyyətlər arzulayırıq.

Əminik ki, Sizin müdrik siyasətiniz nəticəsində o taylı-bu taylı Azərbaycanımız çiçəklənəcəkdir. Azərbaycanı Sizə, Sizi Allaha tapşırırıq. Çox sağ olun.

**Heydər Əliyev:** Siz bu cəmiyyətin – "Turan" cəmiyyətinin sədrisiniz? Bütün Qazaxıstanı əhatə edir, bütün vilayətlərlə əlaqəniz var? Mərkəzi təşkilat kimi, bütün vilayət cəmiyyətləri tərəfindən tanınır? Sizi seçiblər, yoxsa təyin ediblər? [126-127]

**Hüseyn Novruzov:** Bəli, bütün Qazaxıstanı əhatə edir və vilayətlərlə də əlaqəmiz var. Mən də seçki yolu ilə seçilmişəm. Əvvəllər Naxçıvan teatrında işləmişəm.

**Heydər Əliyev:** Bəs buraya necə gəlib çıxmısan?

**Hüseyn Novruzov:** Burada qohumların yaşayır. 1986-cı ildən burada yaşayıram. Azərbaycan dilində radio verilişləri hazırlayıram. Cümə axşamı günləri saat 8.30-da Qazaxıstan radiosunun birinci proqramı ilə Azərbaycan dilində müntəzəm olaraq ictimai-siyasi, tarixi mövzulara həsr edilmiş veriliş səslənir. Bundan əlavə, televiziyada "Biz qazaxıstanlılarıq" adlı proqram var, həmin proqramda Qazaxıstanda yaşayan xalqların adət-ənənələri haqqında verilişlər gedir. Biz bu proqramda da iştirak edirik. Füzulinin 500 illiyi ilə əlaqədar böyük ədəbiyyəm gecə keçirmişik. 1992-ci ildə Hüseyn Cavidin yubileyi münasibətilə tədbir keçirmişdik. Bir sözlə, imkan daxilində çalışırıq ki, burada yaşayan soydaşlarımız mədəniyyətimiz, tariximiz barədə müəyyən biliklərə malik olsunlar.

**Heydər Əliyev:** Burada çoxdan yaşayanlar, 30-cu illərdə gələnlər kimdir?

**Soydaşlarımızdan biri:**

– Mən əslən Zəngilan rayonundanam. O vaxt, 1937-ci ildə gələn azərbaycanlılar Cambul vilayətinə yığışmışdı, biz üçüncü nəsilik. İndi yaşadığımız kənd bizə Vətən kimidir. Məktəbimizin direktoru azərbaycanlıdır. Azərbaycan dili dərsi də keçilir.

**Heydər Əliyev:** Rus məktəbidir? Hamı rus dilində təhsil alır?

**Soydaşımız:** Bəli, rus dilində. 1956-cı ilə qədər biz komendantlıq şəraitində yaşayırdıq. Sürgün olunmuş adamlar kimi bizim cavanları əsgər də aparmırdılar. Kənara gedib ali məktəblərdə təhsil ala bilmirdik. Amma azərbaycanlılar özlərini göstərdilər. Təkcə 1948-ci ildə azərbaycanlılardan 7 nəfər Sosialist Əməyi Qəhrəmanı adı almışdı. 1956-cı ildə bizi azad etdilər. [127-128]

**Heydər Əliyev:** Nədən azad etdilər? Sürgün olunanlar kimi 1956-cı ilə qədər hər ay komendantlıqda qeydiyyatdan keçirdiniz?

**Soydaşımız:** 1956-cı ildən sonra Almatıya və başqa şəhərlərə gedib oxumaq imkanımız oldu. Mən özüm də Qazaxıstan Universitetinin iqtisad fakültəsini bitirmişəm, Almatıda yaşayıram.

*(Görüşdə iştirak edən başqa bir soydaşımız özündən əvvəl çıxış edənlə bir kənddən olduğunu söylədi və Qazaxıstan Kənd Təsərrüfatı İnstitutunu bitirdiyini bildirdi).*

**Heydər Əliyev:** Dili unutmamısınız, ana dilinizdə danışırsınız?

**Soydaşımız:** Ana dilində danışırıq, ata-baba adətlərimizi qoruyub saxlayırıq, Novruz bayramını da, məhərrəmliyi də keçiririk. Oruc da tuturuq.

**Heydər Əliyev:** Azərbaycanla əlaqəniz var?

**Soydaşımız:** Var, buradan Azərbaycana qayıdanlarla əlaqə saxlayırıq. Çoxları Bakıdadır. Orada qohumlarımız, tanışlarımız da çoxdur. Mən pensiyadayam, imkan olanda Azərbaycana gedirəm, qohumlarımla görüşürəm. Oradan da buraya gəlirlər, görüşürük, əlaqələrimizi davam etdiririk.

**Heydər Əliyev:** Siz deyirsiniz ki, pensiyaya çıxımısınız. Bəs azərbaycanlı gənclər, sizdən sonra gələn nəsil nə edir?

**Soydaşımız:** Oxuyanı da, işləyəni də çoxdur. Bütün sahələrdə işləyənlər var.

**Heydər Əliyev:** Onlardan prokurorluqda, polisdə işləyənlər var?

**Soydaşımız:** Bəli, var. Məsələn, Bəşir Əliyev Qazaxıstanın Respublika Prokurorluğunda idarə rəisinin müavini işləyir. Milisdə işləyən də var. Digər sahələrdə də işləyən çoxdur.

**Heydər Əliyev:** Burada azərbaycanlıların rəhbər vəzifələrdə işləməyinə maneçilik edən yoxdur ki? [128-129]

**Soydaşımız:** Xeyr, yoxdur. Çünki biz ana dilimizlə yanaşı, qazax və rus dillərini də yaxşı bilirik.

**Görüş iştirakçısı:** Cənab prezident, mən Gürcüstandan gəlmişəm, Axıska türklərindənəm. Mən qazax dilini yaxşı bilirəm. Burada müəllimə işləyirəm. Əvvəllər Qazaxıstan Elmlər Akademiyasında işləmişəm, elmlər namizədiyəm. Azərbaycan alimləri ilə yaxşı əlaqələrim var. Biz Axıska türkləri Azərbaycanı da, azərbaycanlıları da çox sevirik. Biz Sizi öz prezidentimiz hesab edirik. Siz Azərbaycan xalqının fəxrisiniz, müstəqil Azərbaycan dövlətinin bütün dünyada tanınması üçün çox iş görürsünüz. Çox sağ olun ki, gəlib burada bizimlə görüşdünüz. Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirəm. Burada qazaxların da Sizə çox hörməti vardır. Biz Sizin Qazaxıstan Parlamentindəki çıxışınızı böyük diqqətlə dinlədik. Sizin çıxışınız dəfələrlə sürəkli alqışlarla qarşılandı. Mənə elə gəlir ki, hələ indiyədək orada heç kimi bu qədər böyük rəğbətlə alqışlamamışdılar.

Cənab prezident, Qazaxıstanda Azərbaycanı da, prezident Heydər Əliyevi də çox sevirlər. Allah Sizə yar olsun. Sizin buraya səfəriniz, bizimlə görüşünüz Qazaxıstanda yaşayan 106 min azərbaycanlı, bütövlükdə 17 milyon qazaxıstanlı üçün böyük şərəfdir.

**Soydaşımız:** Mən əslən Güney Azərbaycandanam. Vaxtilə Tbilisidə yaşamışıq, sonra bizi oradan Qazaxıstana sürgün ediblər. Dörd qardaş, üç bacıyıq. Xahiş edirəm, icazə verəsiniz Sizinlə şəkil çəkdirim. Bu, mənim çoxdankı arzumdur.

**Heydər Əliyev:** Buyurun.

Mən hiss edirəm ki, burada yaşayan azərbaycanlıların bir-biri ilə əlaqəsi yaxşıdır. Yəni bir-birinizlə sıx əlaqə saxlayırsınız, görüşürsünüz. Lazım olanda bir-birinizə kömək edirsiniz, bir-birinizin dərdinə qalırsınız, şənliyində iştirak edirsiniz. Yəni burada Azərbaycan diasporu dağınıq deyil. Sizin birlikdə olmağınız çox vacibdir. [129-130]

Bilirsiniz, Azərbaycan müstəqil dövlət olandan sonra biz dünyada olan bütün azərbaycanlıların qayğısını çəkirik. Ona görə də biz 31 dekabrı dünya azərbaycanlılarının həmrəylik günü elan etmişik. Keçmişdə belə olub ki, azərbaycanlılar dünyanın çox ölkələrinə səpələniblər. Təbii olaraq bəziləri özləri gediblər, bir çoxlarını həyat məcbur edib, bəzilərini isə sovet hakimiyyəti dövründə sürgün ediblər. İndi hərə bir yerdə özünə məskən tapıb, yaşayır. Çoxları özünə yaxşı həyat qurub. təhsil alıb, ailə qurublar. Bu, bizi çox sevindirir. Azərbaycanın prezidenti kimi, mən dünyanın hər bir yerində yaşayan azərbaycanlıları soydaşlarım və onlara görə özümü məsul, cavabdeh hesab edirəm. Doğrudur, mən bütün azərbaycanlıların hamısını əhatə edə bilmərəm. Amma azərbaycanlıların bir müstəqil ölkəsi, dövləti var, o da Azərbaycan Respublikasıdır.

Azərbaycanlılar Qazaxıstanda da, Özbəkistanda da, Amerikada da, İngiltərədə də yaşasınlar. Harada kimin üçün xoşdursa, orada özünə yer tapıbsa, yaşasın. Ancaq azərbaycanlılığını, dilini, dinini, adət-ənənələrini, öz əcdadlarını, ulu babalarını, köklərini unutmasın. Bizim Azərbaycan millətinin bir balaca zəifliyi vardır. Bu zəiflik də odur ki, assimilyasiyaya tez düşür. Bizim millət assimilyasiyaya, necə deyərlər, yatımlı bir millətdir. Bunu deməyə mənim əsasım vardır. Çox sağ olun ki, siz belə deyilsiniz, amma belələri var. Bu məni narahat edir.

Hər bir yerdə yaşayan soydaşımız gərək bilsin, – yaşadığı yer şübhəsiz ki, onun vətənidir, amma ulu Vətəni, kökü, ata-babasının Vətəni Azərbaycandır. Ona görə də gərək o, Vətəni heç vaxt unutmasın və onunla yaşasın, Vətəninin həyatı ilə maraqlansın, onun qayğısına qalsın. Ölkəmiz, dövlətimiz möhkəmləndikcə, gücləndikcə, inkişaf etdikcə, imkanlarımız artdıqca biz Azərbaycandan kənarda yaşayan soydaşlarımızla əlaqələri daha da genişləndirəcəyik və bu qayğını da, yardımı da artıracağıq. Ancaq respublikamızda yaşayan azərbaycanlıların vəziyyəti indi hələ ki, çox ağırdır. [130-131]

Bilirsiniz ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın bir hissəsi, 20 faizi işğal olunub. Deyirsiniz ki, burada vaxtilə Zəngilandan köçmüş adamlar var. Təəssüf ki, Zəngilan indi işğal altındadır. Vaxtilə Zəngilanda yaşayanların əksəriyyəti indi orda-burda, bir qismi isə çadırlarda yaşayır. Eləcə də Ağdam, Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Füzuli belədir. Füzuli rayonu ərazisinin bir hissəsi öz nəzarətimizdədir, bir hissəsi işğal altındadır. 1988-ci ildə Ermənistandan 300 minə qədər azərbaycanlını öz yurdundan zorla çıxarıblar. Onlar indi Azərbaycanda ağır vəziyyətdə yaşayırlar. Ümumiyyətlə, 1 milyondan çox azərbaycanlı qaçqın, köçkün vəziyyətindədir.

Bilirsiniz ki, müharibə Azərbaycana çox böyük zərbələr vurubdur. Torpağımızın 20 faizi işğal altındadırsa, elə bunun özü böyük zərbədir. Qaçqınların əksəriyyəti işsizdir. Yerindən-yurdundan zorla qovulmuş adam başqa yerdə necə iş tapa bilər? Hazırkı keçid dövründə Qazaxıstanda da belədir fabriklər, zavodlar, müəssisələr keçmişdəki kimi daimi işləmir. Onların bir çoxu dayanıb. Ona görə də işsizlər var. Bunlar hamısı Azərbaycandakı maddi, iqtisadi vəziyyəti gərginləşdirib.

Siz eşidirsiniz, oxuyursunuz ki, Azərbaycan Respublikasının daxilində də sabitlik olmayıb. Mən parlamentdə çıxışımda da bunları dedim. Əgər Qazaxıstan televiziyası həmin çıxışı versə, yəqin baxacaqsınız. Mən universitetdəki çıxışımda da bunlar haqqında danışdım. İndi şükürlər olsun ki, Azərbaycanda vəziyyət sabitdir.

Sevinirəm ki, Qazaxıstan bizə dost, qardaş ölkədir. Qazax xalqı ilə Azərbaycan xalqı bir kökə mənsubdur. Biz bir kökdən olan millətlərik, babamız da birdir. Mən əl-Fərabi adına Universitetdə oldum. Əl-Fərabi həm azərbaycanlılara, həm qazaxlara, həm də özbəklərə məxsusdur. Dədə Qorqud da, Vaqif də, Füzuli də hamımıza məxsusdur. [131-132]

Mən Qazaxıstanın həyatındakı müsbət dəyişikliklərə çox sevinirəm. Dünən də, bu gün də bunlar barədə danışmışam. Ancaq Qazaxıstanda nə müharibə, nə dövlət çevrilişinə cəhd olubdur. Çox şükürlər ki, Qazaxıstanın rəhbərliyi son illər sabit olubdur. Mənim dostum Nursultan Nazarbayev 1989-cu ildən Qazaxıstana rəhbər, prezident seçilibdir. Ölkədə vəziyyət sabitdir.

Bilirsiniz ki, mən 1982-ci ilin sonunda Azərbaycandan Moskvaya işə getdim, məni oraya dəvət etdilər. Bakıya 1993-cü ildə qayıtdım. Mən on il Bakıda olmadım. Amma on il müddətində Azərbaycanda rəhbərlik dəfələrlə – birincisi, ikincisi, üçüncüsü, dördüncüsü, beşincisi – dəyişildi. Nəhayət, 1993-cü ildə xalq məni dəvət etdi.

Siz bilirsiniz ki, Moskvada olduğum son üç ildə məni çox təqib edirdilər, mənim əleyhimə çox işlər aparırdılar. Mən gedib Naxçıvanda yaşadım. Naxçıvan blokada şəraitində olan bir yer idi. Moskvadan, Kremldən gedib orada çox ağır bir şəraitdə yaşayırdım.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi baş verdi. iqtidarda olan Xalq Cəbhəsi hakimiyyəti saxlaya bilmədi. Azərbaycan o vaxt dağılırdı, parçalanırdı, qan tökülürdü. Xalq dəvət etdi, mən də gəldim. Mənim yenidən Bakıya qayıtmağımın indi dörd ili tamam olur. Biz bu dörd ildə Azərbaycanda sabitlik yarada bilmişik. Düzdür, bu, asan olmayıb. Bilirsiniz ki, 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında da dövlət çevrilişi etmək istədilər. Biz bunların qarşısını aldıq. İndi vəziyyət sabitdir.

Ancaq eyni zamanda, respublikamız müstəqillik əldə edəndən sonra bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü, torpaqlarımızın bir qisminin işğal olunması, bir milyondan çox vətəndaşımızın qaçqın düşməsi, ikinci tərəfdən isə ölkənin daxilindəki çəkişmələr, vuruşmalar, hakimiyyət davası, qeyri-qanuni silahlı dəstələr Azərbaycanda vəziyyəti [132-133] çox gərginləşdirmişdi. Bunlar hamısı ölkənin iqtisadiyyatında vəziyyəti ağırlaşdırmışdı. Amma 1996-1997-ci illərdə işlər yaxşılaşıb, respublikada ictimai-siyasi vəziyyət sabitdir.

Biz dünyanın bütün ölkələri ilə get-gedə sıx əlaqələr qururuq. Dünyanın bir çox ölkələrinə mənim səfərlərim olubdur. İndi də buraya gəlmişəm. Bir həftədən sonra mənim Özbəkistana, iyulun axırında Amerikaya rəsmi səfərlərim olacaqdır. Sonra Polşaya səfərə gedəcəyəm. Bizim ölkəmizə də gəlirlər, ziyarət edirlər. Məsələn, Nursultan Nazarbayev keçən ilin sentyabrında Azərbaycana gəlmişdi.

Beləliklə, Azərbaycanın vəziyyəti ilbəil yaxşılaşacaq və ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızla əlaqə də, onlara qayğı göstərmək imkanları da artacaqdır. Biz bunları edəcəyik.

Siz çətinliklərə dözmüsünüz – sürgün olunmusunuz, komendaturanın nəzarəti altında ağır şəraitdə yaşamısınız, bunların hamısından çıxmısınız, təhsil almısınız, gözəl həyat qurmusunuz, cəmiyyətdə yer tutmusunuz, vəzifə almısınız, yaşayışınız var. Bu, böyük xoşbəxtlikdir. Bu, insanın dözümlülüyünün, daxili potensialının nə qədər böyük olduğunu göstərir. Məsələn, hələ 1930, 1937, 1938-ci illərdə sizin ailələrinizi sürgün edəndə onların başına nə iş gətirdilər! Doğrudur, çox itkilər oldu, çoxları tələf oldu, öldü. Bilirəm, sizin də qohum-əqrəbanızdan ölənlər-itənlər olubdur, itkiləriniz çoxdur. Millətimiz çox itkilər veribdir, amma xalq yaşayıb və yaşayacaqdır.

İndi Qazaxıstanda 100 mindən artıq azərbaycanlı yaşayır. Bilirəm ki, bizim azərbaycanlılarda başqa şeylərdə çatışmazlıq olsa da, nəsil artırmaqda çatışmazlıq yoxdur, – maşallah, milləti artırmaqda yaxşıdırlar. Yəqin, bir iki ildən sonra mən buraya yenidən gələndə deyəcəksiniz ki, artıq biz burada 200 min nəfərik. Ancaq mənim arzum odur ki, bir-birinizlə əlaqəniz olsun, bir-birinizə dayaq olasınız, kömək edəsiniz və Azərbaycanın qayğılan ilə yaşayasınız. [133-134]

Bizimlə qonşu olan və bizə düşmənçilik edən ermənilər bir-biri ilə çox sıx əlaqədədirlər. Harada erməni varsa, bir-birini müdafiə edir. Ermənilər hər yerdə yaşadıqları ölkənin işlərinə təsir edirlər. Fransada 400 min erməni var. Ölkənin əhalisi 65 milyondur. Təsəvvür edin, oradakı 400 min erməni Fransanın siyasətinə təsir edir. Onların Amerikada da, Moskvanın özündə də çox böyük təsirləri vardır. Mən hesab etmirəm ki, biz hansı millətləsə bu məsələdə yanşa girməliyik, yox. Sadəcə, millətimizin, Azərbaycan xalqının özünəməxsus xüsusiyyətlərini, keyfiyyətlərini inkişaf etdirməliyik, yaşatmalıyıq və bir-birimizə hayan, dayaq olmalıyıq, kömək etməliyik. Siz Azərbaycanla sıx əlaqə saxlayın.

Biz Ermənistan silahlı qüvvələrinin təcavüzü ilə əlaqədar məsələni həll etməyə çalışırıq. Atəşi üç ildir ki, dondurmuşuq. Atəş yoxdur, ancaq torpaqlarımız azad olmayıb. Biz müharibənin bir daha başlanmasını istəmirik. Müharibə çox itkilər, dağıntılar verdi. Biz bu münaqişəni sülh yolu ilə həll edəcəyik. Torpaqlarımızın bir metrini də başqa ölkəyə verə bilmərik. Azərbaycanın bütün torpaqları azad olacaqdır, ölkəmizin ərazi bütövlüyü təmin ediləcəkdir. Azərbaycanın müstəqilliyi daimi olacaqdır, qorunacaqdır, saxlanılacaqdır.

Burada bizə çox böyük hörmət, ehtiram göstəriblər. Qazaxıstanla Azərbaycan arasında bir çox sənədlər imzalanıbdır. Biz dünən 17 müqavilə imzalamışıq. Əlaqələrimiz daha da inkişaf edəcəkdir.

Azərbaycana gəlin, ölkəmizlə əlaqəni unutmayın. Biz də çalışacağıq ki, sizinlə, cəmiyyətinizlə əlaqələri daha da inkişaf etdirək. Yaxın zamanlarda burada Azərbaycanın səfirliyi açılacaqdır. Mən bu səfirliyin açılması haqqında qərar vermişəm, ancaq gərək səfir təyin edək. Yəqin bu günlərdə səfiri müəyyən edib təyin edəcəyəm. Ondan sonra səfir burada işləyəcək, siz də onun başına yığışarsınız, kömək edərsiniz. Sizin mədəniyyət mərkəzinizdən başqa, burada dövlətimizi təm[134-135]sil edən bir səfirlik olacaqdır, onun ətrafına toplaşarsınız, işləyərsiniz. Mənə başqa sözünüz var? Sağ olun.

* * *

**Görüşün sonunda qazax jurnalistinin sualına cavab:**

Mən burada azərbaycanlılara göstərilən münasibətdən razıyam. Onların əksəriyyəti qazax dilini yaxşı bilir. Bu onu göstərir ki, onlar yerli sakinlərlə qaynayıb-qarışmışlar, bu cəmiyyətin tamhüquqlu üzvləri, Qazaxıstan vətəndaşlarıdır. Bu, çox xoşdur, mən çox məmnunam. Hesab edirəm ki, onlar Qazaxıstandakı Azərbaycan diasporuna, Qazaxıstan dövlətçiliyinə, Qazaxıstan cəmiyyətinə həmişə dayaq olacaqlar, onlar Qazaxıstan Respublikasının şərəfli vətəndaşları olacaqlar.

* * *

**Qazaxıstan Mərkəzi Tarix Muzeyinin eksponatları ilə tanış olduqdan sonra fəxri qonaqlar kitabına ürək sözləri:**

"Mən Qazaxıstan Mərkəzi Tarix Muzeyinin eksponatları ilə dərin hörmət hissi ilə tanış oldum. Onlar qazax xalqının zəngin özünəxas mədəniyyətini, xalq ənənələrini, adət[135-136]lərini inandırıcı surətdə nümayiş etdirir, qazax xalqının çoxəsrlik tarixi haqqında geniş təsəvvür yaradır. Qazax xalqının zəngin keçmişi, lakin daha gözəl gələcəyi var. Muzeyin işçilərinə onların elmi tədqiqat işində uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti".**

*11 iyun 1997-ci il*[136-137]

## QAZAXISTAN İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*11 iyun 1997-ci il*

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar!

Mənim Qazaxıstana rəsmi səfərim sona çatır və bu, yekun görüşümdür.

Dünən və bu gün biz Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsi, xalqlarımız və ölkələrimiz arasında dostluğun möhkəmlənməsi ilə bağlı səmərəli iş apardıq.

Mən Qazaxıstanı tezliklə tərk edəcəyəm və buna görə də fürsətdən istifadə edərək yenə də demək istəyirəm ki, səfərdən, onun məzmunundan, yekunlarından və imzalanmış sənədlərdən son dərəcə razıyam. Hesab edirəm ki, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin ötən il sentyabrın 16-17-də Azərbaycana ilk rəsmi dövlət səfəri kimi, bu səfər də Qazaxıstan ilə Azərbaycan arasında münasibətlərdə yeni səhifə, yeni mərhələ açır.

Ötən ilin sentyabrında Bakıda və dünən burada, Almatıda üst-üstə 30-dək hökumətlərarası, dövlətlərarası sənəd imzalanmışdır. Bunlar son dərəcə böyük əhəmiyyətə malikdir. Bu sənəd iki müstəqil dövlətin – Qazaxıstanın və Azərbaycanın intensiv əməkdaşlığının bünövrəsini qoymuş, əməkdaşlığımız üçün yaxşı normativ-hüquqi bazadır, onun geniş bir proqramıdır. Belə hesab edirəm ki, sazişlərdə, sənədlərdə, memorandumlarda təsbit olunmuş nə varsa, hamısını həyata keçirmək [137-138] üçün bu sənədlər əsasında həm Qazaxıstanda, həm də Azərbaycanda müvafiq əməli tədbirlər görüləcəkdir.

Dünən biz Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşdirilməsi və inkişaf etdirilməsi haqqında çox mühüm sənəd imzaladıq. Bu sənəd dərin mənaya, dərin məzmuna malikdir, münasibətlərimizin tərəfdaşlıq xarakterini, Qazaxıstanın və Azərbaycanın strateji tərəfdaşlığının xarakterini müəyyənləşdirir.

Biz Qazaxıstanda və Azərbaycanda neftin hasilatı və Xəzər dənizindən istifadə edərək neft və qazın beynəlxalq bazarlara nəql olunması haqqında memorandum imzaladıq. Bu sənəd istər Xəzər dənizi hövzəsində, istərsə də bütövlükdə neft və qaz sənayesi sahəsində Qazaxıstanla Azərbaycan arasında gələcək əməkdaşlıq üçün çox yaxşı bünövrə qoyur.

Məlumdur ki, Qazaxıstanda mineral maddələrin böyük ehtiyatları, o cümlədən neft və qazın olduqca böyük ehtiyatları var. Xəzər dənizi hövzəsində karbohidrogen xammalının ehtiyatları olduqca böyükdür. Azərbaycanda, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda böyük neft və qaz ehtiyatları var.

Sizə məlumdur ki, Xəzər dənizinin Azərbaycan sektorundakı üç yatağın – "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərin hissəsinin birgə işlənməsi haqqında 1994-cü ilin sentyabrında Azərbaycan dünyanın on bir transmilli neft şirkəti ilə ilk iri kontrakt imzalamışdır. Deyə bilərəm ki, bu kontrakt əməli surətdə həyata keçirilir. Cari ilin payızında biz ilk istismar quyusundan neft çıxarılacağını gözləyirik və beləliklə, kontraktın əməli surətdə həyata keçirilməsi mərhələsindəyik. Qazma işləri göstərir ki, bu yataqlarda neft ehtiyatları güman edildiyindən xeyli çoxdur.

Bundan sonra transmilli neft şirkətləri ilə daha dörd kontrakt imzalanmışdır və onlar da əməli surətdə həyata keçirilmək mərhələsindədir. [138-139]

Planlarımızda daha bir neçə kontrakt var. Dediyim kimi, Amerikanın "Şevron" şirkətinin nümayəndələri buradadırlar. Hesab edirəm ki, bu şirkət Xəzər dənizi vasitəsilə Qazaxıstanla Azərbaycan arasında birləşdirici pillə kimi indi çox mühüm rol oynayır. Bu və digər şirkətlər neft kontraktlarına dair təkliflərlə müraciət etmişlər.

Birinci kontrakta uyğun olaraq biz neftin Rusiya ərazisi ilə Qara dəniz sahilindəki Novorossiysk limanına nəql edilməsi üçün artıq öz ərazimizdə neft kəməri çəkmişik. Proqrama görə, ilkin neftin ixracı üçün ikinci neft kəməri çəkmək nəzərdə tutulur. Bu boru kəməri Gürcüstan ərazisindən keçib Qara dənizin Supsa limanına gedəcəkdir. Dediyim kimi, bizim ərazimizdə ilk neft kəməri çəkilmişdir. Rusiya ərazisində də belə kəmər var. Lakin onun müəyyən dərəcədə yenidən qurulması və təzələnməsi tələb edilirdi. Onlar bu işlə məşğul oldular. Ancaq Rusiya Azərbaycandan nefti, bizə söz verdikləri kimi ilin ortalarında qəbul etməyə hələlik hazır deyildir. Biz bir neçə ay bundan əvvəl "Transneft"lə və Rusiya hökuməti ilə danışıqlar apardıq. Onlar nefti həmin boru kəməri ilə Qara dənizə ixrac etmək üçün oktyabrda hazır olacaqlarına söz verdilər.

Lakin böyük boru kəməri çəkmək də nəzərdə tutulur. Bu, 1994-cü ilin sentyabrında ilk kontrakt imzalamış olan konsorsiumun planlarına və proqramına daxildir. Azərbaycan neft şirkəti və konsorsiuma daxil olan şirkətlər tərəfindən çıxarılacaq neft beynəlxalq bazarlara, planlarımıza görə, Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanına həmin boru kəməri ilə daşınacaqdır. Hazırda "Şevron-Tengiz" şirkəti Azərbaycan Neft şirkəti ilə əməkdaşlıq edir. Onlar neftin Xəzər dənizi, Azərbaycan vasitəsilə Qara dəniz limanına nəql olunmasına kömək göstərmək xahişi ilə müraciət etmişlər və biz razılıq vermişik. Dünən burada bildirildi ki, biz Tengizdən 200 min ton nefti öz terminalımızda qəbul edib Gürcüstan ərazisi ilə Qara dəniz limanına göndərmişik. Beləliklə, Qazaxıstan neftinin Xəzər də[139-140]nizi vasitəsilə, Azərbaycan, Gürcüstan ərazisi ilə

Qara dənizə nəql edilməsi üçün ilk kanal yaradılmışdır.

Dünən biz, Qazaxıstan və Azərbaycan prezidentləri Qazaxıstan neftinin Xəzər dənizinədək, Azərbaycan və Gürcüstan ərazisi ilə Türkiyəyədək, – Aralıq dənizi limanı nəzərdə tutulur, – dünya bazarlarına nəql olunması üçün xüsusi neft kəməri çəkmək haqqında memorandum imzaladıq. Bunu çox mühüm addım bilirəm və bu sənədin həyata keçirilməsinə bacardıqca tez bir zamanda başlamaq lazımdır. Belə ki, dünən Tengizdə neft hasilatının perspektivləri barədə məlumat aldım və öyrəndim ki, burada neft 2005-ci ilədək, bəlkə də bundan tez çıxarılmağa başlanacaqdır. Odur ki, neftin beynəlxalq bazarlara daşınması ilə əlaqədar çox mürəkkəb vəziyyət yarana bilər. İstifadə etdiyiniz neft kəməri, – gərək ki, siz onu Şimali Qafqaz kəməri adlandırırsınız, – sizə, əlbəttə, bundan sonra da xidmət edəcəkdir. Lakin Qazaxıstan neft sənayesi nümayəndələrinin məlumatından mənə aydın oldu ki, bu boru kəməri gözlənilən neftin hamısını nəql etmək iqtidarında deyildir. Buna görə də yeni neft kəmərinin çəkilməsi, zənnimcə, birinci dərəcəli əhəmiyyətə malik vəzifəyə çevrilir. Biz öz tərəfimizdən öz imkanlarımızla, terminallarımızla, nəqliyyat vasitələrimizlə bu işə hazırıq, kömək və əməkdaşlıq edirik, bundan sonra da əməkdaşlıq edəcəyik.

Belə düşünürəm ki, Xəzər hövzəsində və onun ətrafında Qazaxıstanla Azərbaycan arasında əməkdaşlığın, ümumiyyətlə, böyük perspektivi var və elə biz prezident Nursultan Nazrbayevlə yekdil fikirdəyik ki, biz bu perspektiv üzərində yaxşıca işləməliyik.

Bizdə quruda böyük ehtiyatları, böyük perspektivi olan çoxlu yataq var. Bəzi şirkətlər qurudakı köhnə yataqlarda artıq işləyirlər, bəziləri bizə bu məsələ ilə əlaqədar müraciət edirlər. Biz bu işi aparırıq və aparacağıq. Məncə, bu sahənin də böyük perspektivi var. [140-141]

O ki qaldı iqtisadiyyatın digər sahələrinə, bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı çoxtərəfli, çoxsahəlidir. İndi biz özəlləşdirmə mərhələsindəyik. Ötən illərdə respublikamızın daxilində bəzi hallarla, habelə, bildiyiniz kimi, 1988-ci ildən başlayaraq Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması və 1994-cü ilədək hərbi əməliyyatların getməsi, Azərbaycan ərazisinin 20 faizini erməni silahlı birləşmələrinin işğal etməsi, bu işğal olunmuş torpaqlardan bir milyondan çox vətəndaşımızın qovulub didərgin salınması, onların Azərbaycanda müxtəlif bölgələrdə ağır şəraitdə, əksəriyyətinin isə çadırlarda yaşaması ilə əlaqədar əvvəlki illərdə bizdə islahatların aparılması prosesi bir qədər ləngimişdir. Ancaq indi bu islahatlar fəal həyata keçirilir və deməliyəm ki, öz faydasını verir. Məsələn, 1989-cu ildən başlayaraq, Azərbaycanda istehsalın səviyyəsi aşağı düşmüş, iqtisadiyyatda tənəzzül yaranmışdır. 1996-cı ildə biz istehsalın azalmasının qarşısını almağa və müsbət dəyişikliklər, müəyyən dərəcədə artım əldə edilməsinə nail olmuşuq. Keçən il bizdə daxili ümumi məhsul bir qədər artmışdır. Biz sənaye məhsulu istehsalının azalmasına yol verməməyə müvəffəq olmuşuq, kənd təsərrüfatında istehsalın səviyyəsinin aşağı düşməsinin qarşısını alaraq 3 faiz artım əldə olunmasını təmin etmişik.

Cari ilin ötən aylarında bu göstəricilər daha yüksək olmuşdur, yəni biz daxili ümumi məhsulu, sənaye və kənd təsərrüfatı istehsalını xeyli artırmışıq. Keçən il xarici ticarət dövriyyəsinin həcmi 30 faiz artmışdır. Xarici iqtisadi fəaliyyəti liberallaşdırmaq üçün çoxlu tədbir görülmüş, islahatlar aparılmışdır. Biz respublikanın maliyyə məsələləri ilə fəal məşğul oluruq, məsələn, 1994-cü ildə inflyasiyanın səviyyəsi il ərzində 1700 faizə çatmışdı. Biz onu aşağı salıb ötən il minimum səviyyəyə endirməyə müvəffəq olduq. Bu ilin ötən aylarında bizdə inflyasiya əslində yox dərəcəsində idi. Milli valyutamızın – manatın mübadilə məzənnəsi sabitdir. Bu sabitlik son iki ildə [141-142] qalmaqdadır. Son bir ildə manatın dəyəri dollara nisbətdə təxminən 10 faiz qalxmışdır. Bizdə maliyyə, bank fəaliyyəti, valyuta mübadiləsi sahəsində sərbəstlik, sahibkarlıq sahəsində sərbəstlik , xarici sərmayələr üçün sərbəstlik var.

Əlbəttə, respublikamızın miqyası Qazaxıstanın miqyası kimi geniş deyil və sizin ölkənizdəki qədər ehtiyatlarımız yoxdur. Buna baxmayaraq, məsələn, Qərbin ABŞ, Böyük Britaniya, Norveç, Fransa, Almaniya kimi aparıcı ölkələrinin hər biri Azərbaycanda 50-70 ofisə malikdir. Bizdə neft və qaz hasilatına dair kontraktın həyata keçirilməsi prosesinə nəinki neft sənayesi ilə bilavasitə məşğul olan şirkətlər, həm də bir çox digərləri cəlb edilmişlər. Onlar neft kəmərlərinin inşasına, başqa sahələrə cəlb olunmuşlar. Ona görə də xarici sərmayələr Azərbaycana yönəldilir, amma bu, bəlkə də bizim istədiyimiz qədər deyildir. Respublikamızda özəlləşdirmə gedir. Lakin əlbəttə, Qazaxıstandakı kimi mərhələdə deyildir. Buna baxmayaraq, özəlləşdirmə uğurla həyata keçirilir.

Biz kənd təsərrüfatı sahəsində əsaslı tədbirlər görürük, torpaq islahatı haqqında qanun qəbul etmişik. Bu qanunda kənd təsərrüfatı əkinləri üçün ayrılmış bütün torpaqların xüsusi mülkiyyətə verilməsi, özü də torpağı satmaq, vermək və satın almaq hüququ ilə verilməsi nəzərdə tutulur. İndi həmin qanun fəal həyata keçirilir və deməliyəm ki, kəndlilər bu qanunu və onun əməli surətdə yerinə yetirilməsini böyük ruh yüksəkliyi ilə, razılıqla qarşılayırlar. Zənnimcə, bizdə özəlləşdirmə 1999-cu ildə sona çatdırılacaqdır, lakin bu prosesdə başlıca iş, görünür, 1997-ci və 1998-ci illərdə olacaqdır.

Biz əcnəbi sərmayədarlara həmçinin təklif edirik ki, müəssisələrimizi öz idarələri altına götürsünlər. Bu baxımdan Qazaxıstan çox irəli getmişdir və prezident Nursultan Nazarbayevlə söhbətimizdən öyrəndiyimə görə, böyük nəticələr qazanmışdır. Bizdə də belə misallar var, doğrudur, onlar Qazaxıstanda olduğu kimi bu cür böyük miqyasda deyildir. [142-143]

Respublikamız xarici sərmayələr üçün, bütövlükdə sahibkarlıq üçün, o cümlədən əcnəbi sahibkarların fəaliyyəti üçün açıqdır. Biz tam bazar iqtisadiyyatı proqramını bütün bazar qanunlarına müvafiq surətdə həyata keçiririk. Bizim qanunlar bazar islahatlarını həyata keçirməyə, xarici sərmayələri cəlb etməyə imkan verir. Olmayan qanunlar isə cari il ərzində qəbul ediləcəkdir. İndi ölkəmizdə qanunyaradıcılıq fəaliyyəti genişlənmişdir.

Biz pensiya işində, sosial sahədə də islahatlar aparırıq. Məsələn, bütün güzəştləri ləğv etmişik, hərçənd burada bizim üçün çətinliklər var, çünki sakinlərimizin bir milyonundan çoxu qaçqındır və onlar yaşayış sahəsinə malik deyildir, çadırlarda yaşayır və əksəriyyəti də işsizdir. Buna baxmayaraq, biz bu tədbirlərə razılıq vermişik və onları həyata keçiririk ki, ölkəmizdə mikroiqtisadi proseslər tamamilə həyata keçirilsin, islahatlar büsbütün inkişafını tapsın.

Ümumiyyətlə, demək istədiyim bunlardan ibarətdir. Əlbəttə, sizin verəcəyiniz informasiyaya daha çox ümid bəsləyirəm, axı sizin təcrübəniz Azərbaycanda toplanmış təcrübədən daha çoxdur. Siz artıq çox işlər görmüşsünüz, zənnimcə, yaxşı nəticələrə maliksiniz. Əlbəttə, siz səhvlərdən, qüsurlardan da, – əgər bunlar varsa, – söhbət aça bilərsiniz ki, biz onlara yol verməyək. Sözün qısası, mən bu görüşdən daha çox məlumat, sizdən təkliflər, bizim üçün, Azərbaycan üçün dəyərli tövsiyələr, başlıcası isə Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinə və genişləndirilməsinə yönəldilmiş təkliflər gözləyirəm. Onu nəzərdə tuturam ki, söhbət əsasən və başlıca olaraq özəl sektordan gedir.

Diqqətinizə görə sağ olun. [143-144]

## RUSİYA FEDERASİYASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN MİLLİ BAYRAM – RUSİYANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Gülüstan " sarayı*

*12 iyun 1997-ci il*

Hörmətli səfir, hörmətli xanımlar və cənablar, dostlar!

Rusiyanın Milli bayramı – Müstəqillik günü münasibətilə sizi ürəkdən təbrik edirəm.

Başa düşmək xoşdur ki, yeniləşmiş Rusiya yeddi ildir təzə qaydada yaşayır, bütün sahələrdə demokratik islahatlar keçirir, öz vətəndaşları üçün yaxşı həyat qurmağa çalışır.

Rusiya dünyanın ən böyük ölkələrindən biridir, çoxəsrlik, zəngin tarixi var. Rusiya, rus xalqı özünün ən yaxşı nümayəndələrinin yaratdıqları əxlaqi, mənəvi, mədəni dəyərlərlə dünya sivilizasiyasına böyük töhfə vermişdir. Bugünkü Rusiya özünün əvvəlki bütün çoxəsrlik tarixindən fərqli olaraq, tamamilə yeni ölkədir. Cəsarətlə demək olar ki, Rusiya torpağında ilk dəfədir demokratik, hüquqi dövlət qurulur, demokratiyanın, şəxsiyyət azadlığının, söz, mətbuat, vicdan azadlığının bütün prinsipləri bərqərar olur. Rusiyanın həm gələcək və şübhəsiz, həm də bugünkü nəsli üçün çox iş görülür. [144-145]

Rusiya Federasiyasının həyatında baş verən müsbət demokratik dəyişiklikləri biz Azərbaycanda yüksək qiymətləndiririk o onunla sıx münasibətlər saxlayaraq, ölkələrimiz arasında əməkdaşlığı həyata keçirərək Rusiyada geniş yayılmış və bərqərar olmuş demokratik dəyişikliklər təcrübəsindən istifadə etməyə çalışırıq.

Azərbaycan son iki əsr ərzində Rusiya ilə sıx bağlı olubdur. Azərbaycan keçmişdə çar Rusiyasının tərkibində idi. Sovetlər İttifaqının tərkibində olarkən şübhəsiz, Azərbaycanın Rusiya ilə sıx münasibətləri var idi, çünki Rusiya SSRİ-də həmişə üstün mövqe tutmuşdur. Bu illər ərzində xalqlarımız arasında sıx dostluq münasibətləri yaranmışdır. Bizdən əvvəlki nəsillərin bir çox onilliklər ərzində Rusiya-Azərbaycan münasibətlərində, rus və Azərbaycan xalqları arasında əlaqələrdə yaratdıqları nə varsa hamısını qiymətləndiririk. Hesab edirik ki, bu münasibətlərdə həm Rusiya, rus xalqı üçün, həm də Azərbaycan, Azərbaycan xalqı üçün xeyirxah, faydalı, qiymətli çox şey olmuşdur.

İndi bizim münasibətlərimiz istər Rusiya, istərsə də Azərbaycan üçün prinsip etibarilə yeni xarakter daşıyır. Biz bugünkü günə – Rusiyanın müstəqillik gününə böyük ehtiram hissi ilə yanaşırıq, çünki həmin gün təkcə Rusiya üçün müstəqillik günü olmamışdır. O, keçmişdə Sovetlər İttifaqına daxil olan bir çox başqa ölkələrdən, o cümlədən də Azərbaycandan ötrü dövlət müstəqilliyi üçün əsas olmuşdur. Ona görə də Sovetlər İttifaqının dağılması ilə öz dövlət müstəqilliyini əldə etmiş ölkələr, o cümlədən Azərbaycan üçün Rusiyanın müstəqillik gününün xüsusi əhəmiyyəti var.

Eyni zamanda həmin gün göstərir ki, Rusiya tamamilə yeni yolla – demokratikləşdirmə, azadlıq, bütün ölkələrlə, o cümlədən də keçmiş zamanlarda Rusiyanın, Sovetlər İttifaqının tərkibinə daxil olan ölkələrlə bərabər hüquqlu münasibətlər yaratmaq yolu ilə gedir. Ona görə də Rusiyanın müstəqillik günü [145-146] rusiyalılar, Rusiya Federasiyasının bütün xalqları üçün milli bayramdır. Ancaq eyni zamanda bu gün Rusiyanın dostları kimi bizim üçün həm də ona görə çox əziz və qiymətlidir ki, digər ölkələrin, həmçinin Azərbaycanın dövlət müstəqilliyi qazanması prosesində mühüm rol oynamışdır.

İndi ölkələrimiz arasında yaxşı münasibətlər, dostluq münasibətləri mövcuddur. Şübhəsiz ki, bunlar birdən-birə yaranmayıbdır. 1990-cı ilin yanvar faciəsinin, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı bəzi amillərin bu münasibətlərə böyük mənfi təsiri olmuşdu. Lakin hər şey aradan qaldırıldı, bütün bunlar arxada qaldı, baxmayaraq ki, tarix tarixliyində qalır, ondan heç nəyi silmək olmaz. Bir də deyirəm, indi Rusiya ilə Azərbaycan arasında sıx dostluq münasibətləri var və biz Azərbaycanda istəyirik ki, bu münasibətlər daha yaxın və daha sıx olsun. İqtisadi, sosial, mədəni sahələrdə əməkdaşlığımızın səviyyəsi kifayət qədərdir. Şübhəsiz ki, bu, bizim ümumi sərvətimizdir, ümumi müsbət cəhətimizdir. Ancaq eyni zamanda ilk növbədə iqtisadiyyat sahəsində əməkdaşlığımızı genişləndirmək, dərinləşdirmək üçün hələ böyük imkanlar var.

Azərbaycanın iqtisadiyyatı keçmişdə bir çox onilliklər ərzində Rusiyanın iqtisadiyyatı ilə sıx bağlı olmuşdur. Bizim çoxlu inteqrasiya əlaqələrimiz var idi, bunların qalması Rusiya üçün də, Azərbaycan üçün də son dərəcə ağır oldu. Biz bu əlaqələri tamamilə yeni iqtisadi prinsiplər əsasında bərpa etmək yolu ilə gedirik. Bu proses gedir, ancaq o, Azərbaycan iqtisadiyyatının potensial imkanlarına, əməkdaşlığımızın potensial imkanlarına cavab verəcək miqyasa, səviyyəyə çatmayıbdır. Amma biz bu yolla getmək əzmindəyik və gedəcəyik.

Sevindirici hal odur ki, son vaxtlar elm, təhsil, xüsusən mədəniyyət sahəsində əlaqələrimiz xeyli genişlənmiş, canlanmışdır. Heç kim üçün sirr deyil ki, Rusiyanın mədəniyyət, incəsənət, ədəbiyyat, elm xadimləri ilə çoxillik əməkdaşlıq nəticəsində mədəni həyatımızda əldə etdiyimiz hər şeyi Azərbaycanda [146-147] sevir və yüksək qiymətləndirirlər. Xalqımız bunu bilir, xatırlayır, qiymətləndirir. Ona görə də mədəni, elmi əlaqələrimizin nümayiş etdirilməsi ilə bağlı hər bir hadisə Azərbaycan ictimaiyyətinin böyük diqqətinə səbəb olur, onun tərəfindən son dərəcə ehtiram və rəğbət hissi ilə qarşılanır. Təsadüfi deyil ki, Azərbaycanda Rusiyanın mədəniyyət günləri, Moskvada Azərbaycanın mədəniyyət günləri uğurla keçmişdir. Zəmanəmizin görkəmli musiqiçisi, həm Rusiyaya, həm də bütün bəşəriyyətə məxsus olan Mstislav Rostropoviçin 70 illiyinin bayram edilməsi mədəni, ictimai-siyasi həyatda böyük hadisəyə çevrildi. Rusiyanın ayrı-ayrı incəsənət ustalarının Azərbaycana qastrol səfərləri həmişə böyük maraqla, ruh yüksəkliyi ilə qarşılanır.

Azərbaycanda rus mədəniyyətinə, elminə, Rusiyanın, rus xalqının bütün mənəvi dəyərlərinə maraq, meyl qalmaqdadır və heç zaman itməyəcəkdir. Buna görə də, bir də deyirəm, bütün sahələrdə Rusiya-Azərbaycan münasibətləri ilə bağlı olan hər şey böyük maraq və böyük dəstək doğurur.

Mən dövlətlərarası münasibətlərimizdən məmnunam. Rusiya prezidenti hörmətli Boris Nikolayeviç Yeltsin, baş nazir Viktor Stepanoviç Çernomırdin ilə, Rusiyanın digər dövlət xadimləri ilə görüşlər, danışıqlar və söhbətlər zamanı iqtisadi əməkdaşlığımızın, bütün başqa sahələrdə əməkdaşlığımızın məsələlərini vaxtaşırı müzakirə edirik. Şübhəsiz ki, biz siyasi əməkdaşlığımızın məsələlərini də müzakirə və həll edirik. Bu əməkdaşlıq Rusiyanın çox mühüm yer tutduğu Müstəqil Dövlətlər Birliyi çərçivəsində də həyata keçirilir. Təsadüfi deyil ki, biz birlik ölkələrinin dövlət başçıları bir neçə ildir dalbadal Rusiya prezidenti Boris Yeltsini MDB Dövlət Başçıları Şurasının sədri seçirik.

Rusiya ilə münasibətlərimizin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün də əhəmiyyəti son dərəcə böyükdür. Bu münaqişənin başladığı vaxtdan bəri bütün [147-148] illərdə Rusiya onun həlli məsələsində iştirak edir. Doğrudur, onun bu iştirakı heç də həmişə səmərəli olmayıb, bəzən isə narazılıq da doğurmuşdur. Bununla belə, 1994-cü ilin dekabrından etibarən Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏT-in xüsusi olaraq yaratdığı Minsk konfransının həmsədridir. Məmnuniyyətlə deyə bilərəm ki, Rusiya nümayəndə heyəti, Rusiya Federasiyası tərəfdən bu məsələ ilə məşğul olan müvafiq şəxslər Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün fəal səy göstərirlər.

Bu gün onu da qeyd etmək istəyirəm ki, 1996-cı ilin dekabrında, ATƏT-in üzvü olan dövlət başçılarının Lissabonda görüşü zamanı Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli prinsiplərinin qəbul edilməsində Azərbaycanın ədalətli mövqeyini fəal surətdə dəstəkləmişdir. Bilirsiniz ki, 54 ölkədən yalnız bircə Ermənistan bunun əleyhinə çıxdı. ATƏT-in bütün qalan üzvləri Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinin prinsipləri haqqında bəyanata səs verdilər. Ancaq Rusiyanın rolu təkcə bundan ibarət deyildi, həm də onda idi ki, zirvə toplantısı zamanı biz Rusiya Federasiyasının rəhbərləri və nümayəndə heyətinin üzvləri ilə fəal əlaqə saxlayırdıq. Boris Nikolayeviç Yeltsin də məsələdən xəbərdar idi, mən bu barədə baş nazir Viktor Stepanoviç Çernomırdin, xarici işlər naziri Yevgeni Maksimoviç Primakov ilə fəal ünsiyyətdə idim. Bir çox başqa ölkələrin – Amerika Birləşmiş Ştatlarının, Fransanın, Almaniyanın səyləri ilə yanaşı, onların da səyi sayəsində münaqişənin bütün tarixi ərzində ilk dəfə olaraq Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinə, Dağlıq Qarabağ münaqişəsinə dair xüsusi sənəd qəbul edildi.

Hazırda üç həmsədrdən – Rusiya, ABŞ və Fransa – ibarət tərkibdə Minsk qrupu bu prinsipləri reallaşdırmaq üçün səy göstərir. Bizim ilk görüşümüz olubdur, məsələni sülh yolu ilə [148-149] həll etmək üçün Minsk qrupunun həmsədrləri, o cümlədən Rusiya Federasiyası ilə əməkdaşlıq edirik. Təkcə bizim tərəfimizdən deyil, həm də dünyanın bir çox böyük ölkələrinin paytaxtlarında deyildiyi kimi, ümidvarıq ki, 1997-ci il Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında müsbət nəticələr ili olmalıdır. Bu işdə Minsk qrupunun həmsədrlərinə, o cümlədən Rusiya Federasiyasına böyük ümidlər bəsləyirik.

Bütün bunlar məmnunluq hissi doğurur. Lakin kədər hissi doğuran şeylər də var. Bunlar Rusiyanın ayrı-ayrı vəzifəli şəxslərinin Ermənistana qanunsuz olaraq, gizli surətdə 1 milyard dollarlıq ağır silahlar, döyüş sursatı verməsi haqqında bu ilin əvvəlində Moskvada elan edilmiş faktlardır. Özü də elə bir vaxtda ki, son üç ildə Azərbaycan və Ermənistan barışıq vəziyyətindədirlər. Silah göndərilməsi ilə əlaqədar mən Rusiya prezidenti Boris Yeltsinə müraciət etmişəm və mənə məlumdur ki, o çox sərt göstərişlər veribdir. Rusiya baş prokurorluğu tərəfindən təhqiqat aparılır, digər tədbirlər görülür, araşdırmalar aparılır. İnanıram ki, bu araşdırmalar ədalətli olacaq, günahkar şəxslər cəzalandırılacaq, Rusiyadan Ermənistana qanunsuz olaraq verilmiş silahlar geri qaytarılacaqdır.

Bizim həyatımız mürəkkəbdir, onda müsbət işlər çoxdur, lakin elə faktlar da olur ki, bunlar təəssüf doğurur. Ancaq bu, bizim ümumi məqsədlərimizə və ümumi prinsiplərimizə – Rusiya ilə Azərbaycan arasında həmişə mehriban, dostcasına münasibətlərin olmasına heç cür və heç vaxt mane ola bilməz. Bu münasibətlər həm də birlikdə yaşadığımız tarixlə. coğrafi vəziyyətimizlə, – biz qonşuyuq, – və həm Rusiya üçün, həm də Azərbaycan üçün həyati tələbatla şərtlənmişdir.

Rusiya Federasiyası, rus xalqı ilə, Rusiyanın bütün xalqları ilə əməkdaşlığı genişləndirmək, dostluq münasibətlərini möhkəmləndirmək üçün biz öz tərəfimizdən hər şeyi edirik və edəcəyik. Bundan ötrü böyük

imkanlar və kifayət qədər zəmin [149-150] var. Bu gün biz hamımız bu bayrama rus xalqının, Rusiyanın tarixinə, xüsusən Rusiya Federasiyasının həyatında baş vermiş və verməkdə olan nəhəng müsbət dəyişikliklərə məhz böyük hörmət hissi ilə gəlmişik. Biz bu dəyişiklikləri dəstəkləyirik, Rusiyanı demokratik, azad görmək istəyirik. Biz hər hansı imperiya hikkələrindən azad olan Rusiya, bütün ölkələrlə, o cümlədən Azərbaycanla bərabərhüquqlu münasibətlər saxlayan Rusiya görmək istəyirik. Biz indən belə də Rusiya ilə həmin prinsiplər əsasında dostluq münasibətlərimizi və mehriban əməkdaşlığımızı quracağıq.

Buraya toplaşanların hamısını bu bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Bütün rusiyalılara, Rusiya Federasiyasının bütün xalqlarına səadət, xoş həyat və sülh arzulayıram. Bayramınız mübarək, hörmətli dostlar! [150-151]

## BAKIDA SƏFƏRDƏ OLAN MOSKVA MERİ YURİ LUJKOVLA TƏKBƏTƏK GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCAN VƏ MOSKVA NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA APARILAN DANIŞIQLARDA ÇIXIŞI

*Prezident sarayı*

*13 iyun 1997-ci il*

Hörmətli Yuri Mixayloviç!
Moskva hökuməti nümayəndə heyətinin hörmətli üzvləri!

Mən sizi Azərbaycan torpağında, qədim və gözəl paytaxtımız Bakıda səmimi salamlayır, sizin Azərbaycana səfərinizdən, habelə Moskvanın 850 illiyinə həsr edilmiş mədəniyyət günlərinin başlanmasından məmnun qaldığımı bildirirəm.

Qeyd etmək istəyirəm ki, Moskvanın yubileyi təkcə Rusiya paytaxtı üçün böyük hadisə deyildir, bu yubileyin bir çox başqa ölkələrə, o cümlədən Azərbaycana da aidiyyəti var, çünki Azərbaycan xalqının həyatı uzun onilliklər ərzində Moskva ilə bağlı olubdur, bir çoxları orada təhsil almış, elm və mədəniyyətdə, bir çox başqa sahələrdə yüksək peşəkarlıq vərdişləri qazanmışlar.

Belə bir cəhəti də xüsusilə vurğulayıram ki, Yuri Lujkovun və Moskvanın hökumət nümayəndə heyətinin səfəri həm də Azərbaycan ilə Rusiya Federasiyasının subyekti, bütün sahələrdə çox böyük imkanlara malik olan Moskva arasında birbaşa [151-152] iqtisadi əlaqələri genişləndirmək və dərinləşdirmək zərurəti ilə bağlıdır. Ona görə də Azərbaycan Moskva ilə əməkdaşlığı ölkəmizin Rusiya ilə əməkdaşlığı üçün mühüm şərt sayır. Belə əməkdaşlıq, onu genişləndirmək və dərinləşdirmək üçün böyük imkanlar var və imzalanması nəzərdə tutulan sənədlər buna kömək edəcəkdir.

Məmnuniyyətlə bildirirəm ki, Moskvanın yubileyinə həsr olunmuş mədəniyyət günlərinin açılışını Azərbaycan ictimaiyyəti böyük maraqla gözləyir və işinin çoxluğuna baxmayaraq nəzərdə tutulan təntənələrdə iştirak etmək, Bakı sakinləri ilə görüşmək üçün vaxt tapıb ölkəmizə gəldiyinə görə şəxsən Moskva meri Yuri Mixayloviç Lujkova təşəkkür edirəm. Biz bunu yüksək qiymətləndiririk, ona görə ki, Rusiyada olduğu kimi, Azərbaycanda da sizi Moskvanın inkişafı üçün çox iş görmüş və görən adam kimi yaxşı tanıyırlar. İqtisadi və sosial islahatların həyata keçirilməsinə, demokratik dəyişikliklərə görə Moskva bütün Rusiya üçün, habelə keçmiş Sovetlər İttifaqının digər regionları üçün nümunədir. Biz də Moskvanın təcrübəsindən və bütün yaxşı təşəbbüslərindən istifadə etməyə çalışırıq. Fürsətdən istifadə edərək Rusiya paytaxtının hörmətli meri Yuri Mixayloviç Lujkova, Moskvanın hökumət nümayəndə heyətinin bütün üzvlərinə və bütün moskvalılara cansağlığı, xoş həyat və işlərində yeni uğurlar arzulayıram.

... Mən ölkəmiz haqqında deyilən xoş sözlərə görə, habelə qarşılıqlı əməkdaşlığı daha da möhkəmləndirməyin və genişləndirməyin zəruriliyi ilə bağlı irəli sürdüyü maraqlı və mühüm təkliflərə görə Yuri Mixayloviç Lujkova təşəkkürümü bildirirəm. Qeyd etməyi vacib bilirəm ki, Moskva kimi Azərbaycan da Rusiya paytaxtı ilə, habelə bütün Rusiya ilə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək istəyir, bundan ötrü böyük imkanlar var, bunlardan istifadə etmək lazımdır.

Mən imzalanmaq üçün hazırlanmış sazişlərin reallaşdırılmasına nəzarət üçün ikitərəfli komissiya yaratmaq barədə Mosk[152-153]va meri Yuri Mixayloviç Lujkovun təklifi ilə razılaşaraq və həmin komissiyada Moskva tərəfini təmsil etmək üçün Moskva hökuməti başçısının müavini Ernest Bakirovun namizədliyini bəyənərək bildirirəm ki, Azərbaycan tərəfini bu komissiyada Azərbaycanın baş nazirinin birinci müavini Abbas Abbasov təmsil edəcəkdir. Əminəm ki, imzalanacaq sənədlər, habelə görüləcək işlər əməkdaşlığın daha da inkişafını, iqtisadi sahədə və başqa sahələrdə Azərbaycanın və Moskvanın özlərinin böyük imkanlarından qarşılıqlı surətdə istifadə etmələrini təmin edəcəkdir.

Bütün bu məsələlərdə mədəni əlaqələrin mühüm rolunu xatırlatmaq istərdim. Azərbaycanın mədəniyyət xadimləri Rusiya, Moskva ilə həmişə bağlı olublar, onlar da öz növbəsində Azərbaycana böyük maraq göstəriblər. Rusiya, Moskva və Azərbaycanın ən böyük ədəbiyyat, incəsənət xadimləri arasında uzunmüddətli sıx dostluğa dair çoxlu faktlar var. Xoşbəxtlikdən, bütün bunlar qalmaqdadır və çox böyük rol oynayır, ona görə də ümumiyyətlə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək, xüsusən Rusiya ilə Azərbaycan, Moskva ilə ölkəmiz arasında dostluq və qarşılıqlı əlaqəni möhkəmləndirmək üçün mədəni əlaqələrin imkanlarından istifadə etmək lazımdır. Qətiyyətlə bildirirəm ki, Azərbaycan bundan ötrü hər şeyi edəcəkdir, o, bunu istəyir.

Sözümü bitirərək hörmətli qonaqlarımıza bir daha cansağlığı, xoş həyat arzulayıram. [153-154]

## 1992-ci İLİN FEVRAL-MAY HADİSƏLƏRİ İLƏ BAĞLI BİR QRUP QAÇQIN VƏ TELEJURNALİST İLƏ GÖRÜŞDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident sarayı*

*16 iyun 1997-ci il*

Mən sizi son vaxtlar televiziyada göstərilən arxiv lentlərində görmüşəm. Ona görə də çox maraqlandım ki, sizinlə görüşüb tanış olum və Nizami Xudiyevdən xahiş etdim ki, əgər bizim bu vətəndaşlarımızın, insanların imkanı olsaydı, görüşmək istərdim.

O arxiv lentləri, televiziya videolentləri Azərbaycanın faciəli hadisələri ilə əlaqədardır – Xocalı soyqırımı, Laçın, Şuşa rayonlarında gərgin vəziyyət yaranan dövrlə bağlıdır. Bunlar hamısı 1992-ci ilə aiddir. Özü də 1992-ci ilin əvvəlləri, may ayıdır, – mən belə gördüm. İndi 1997-ci ildir, üstündən beş il keçibdir. Sizin o vaxtkı həyəcanınız – doğma torpaqlarınız, doğma vətəniniz ilə əlaqədar həyəcanınız, vətənpərvərliyiniz və xalqı, milləti, öz torpağınızı qorumaq üçün etdiyiniz çağırışlar o vaxt da çox qiymətli olub, indi də çox təsiredici səslənir.

Eyni zamanda o vaxt siz hadisələrin içində olarkən, o ağır şəraitdə olarkən Azərbaycanın nə üçün belə vəziyyətə düşməsini bəlkə də başqalarından çox, siz orada hiss edirdiniz, dərk edirdiniz. Şübhəsiz ki, siz o vaxtlar həm torpağı qorumaq, xalqı [154-155] xilas etmək üçün çox işlər görmüsünüz, çalışmısınız, çarpışmısınız, vuruşmusunuz və güman edirəm ki, həm də bu məsələlərlə əlaqədar fikirlər söyləmiş, sözlər də demisiniz. Ancaq bizə gəlib çatan – mənim televiziya vasitəsilə gördüyüm o kadrlardır. O kiçik kadrlar özü də o zaman, 1992-ci ildə Azərbaycanın əziz bir bölgəsi olan Qarabağda vəziyyətin nə qədər gərgin olduğunu göstərir. Ermənistan silahlı qüvvələrinin Azərbaycana etdiyi təcavüzün nə qədər qəddar, vəhşi hərəkət olduğunu göstərir. Eyni zamanda, təəssüflər olsun ki, respublikamızı, xalqımızı, torpağımızı, ölkəmizi qorumaq üçün məsul olan şəxslərin fəaliyyətsizliyini, — indi artıq ona xəyanət deyirik, – xəyanətini, satqınlığını göstərir.

Bir də deyirəm, şübhəsiz ki, siz o dövrü, illəri, ayları yaşamış adamlarsınız, bu barədə çox bilirsiniz. Amma qiymətli cəhət ondan ibarətdir ki, televiziya işçiləri o vaxt kadrları qoruyub saxlaya biliblər. Düzdür, o vaxt o kadrları göstərməyə imkan verilməyib, ancaq həqiqəti həmişə göstərmək lazımdır. Ona görə yox ki, mənfi və ya müsbət nöqteyi-nəzərdən kiməsə aiddir, ona görə ki, həqiqətdir. Aşkar olanda hər bir məsələyə çarə tapmaq asan olur. O vaxt bəlkə də bizim məğlubiyyətimizin, xalqımızın başına gələn bu faciələrin əsas səbəblərindən biri o olub ki, həqiqət gizlədilib, xalqa , ictimaiyyətə, millətə çatdırılmayıbdır. Bu baxımdan bizim televiziya işçilərinin fədakarlığı nəticəsində bu kadrların qorunub saxlanması, tarixi indiki və gələcək insanlara müəyyən qədər düzgün çatdırmaq üçün çox əhəmiyyətlidir. Hər halda mənim üçün o kadrlar çox maraqlı idi.

Birincisi, bunlar o günlərdə Şuşada, Laçında, Xocalıda, Ağdamda baş vermiş hadisələri çox əyani surətdə əks etdirir. O vaxtlar mən Naxçıvanda yaşayırdım, televiziyaya müəyyən vaxt baxmaq mümkün idi, sonralar elektrik olmadığına görə televiziya verilişləri kəsilmişdi. Ancaq o kadrları, yaxud da onlara bənzər kadrları həmin dövrdə Azərbaycan televiziyası [155-156] göstərmirdi. Ona görə də bu baxımdan onları görmək çox maraqlı, əhəmiyyətli, vacibdir. Bir də ki, bir tərəfdən bütün sahələrdə ədalətsizlik olduğu halda, digər tərəfdən sizin kimi sadə adamların cəsarətlə ədalətli söz deməsi çox əhəmiyyətli, çox maraqlıdır.

Ona görə də mən o televiziya kadrlarına çox böyük maraqla baxmışam. Sonra, şübhəsiz ki, televiziyada gördüyüm adamları, söz demiş adamları görmək, onlarla tanış olmaq istədim və Nizami Xudiyevdən xahiş etdim ki, əgər mümkün olsa, görüş təşkil etsin. Bu gün belə bir görüş var. Düzdür, bəzilərinız o vaxta nisbətən dəyişilmisiniz, yəni o vaxt faciəli vəziyyətdə idiniz, amma indi sakit vəziyyətdəsiniz. Mən çox məmnunam ki, bu gün sizinlə görüşürəm. Çünki o faciəli, ağır şəraitdə sizin cəsarətli, ədalətli sözləriniz vətənə, xalqa, millətimizə nə qədər böyük qayğı göstərdiyinizi sübut edir. Ona görə də mən çox məmnunam.

O vaxtlar məni də yada salmısınız. Doğrudur, o vaxtlar məni yada salanlar çox idi, amma o döyüş zamanı, faciəli, ağır bir şəraitdə məni yada salmağınız mənim üçün xüsusilə qiymətlidir. Çünki o vaxt mən sizdən uzaq idim, Naxçıvanda yaşayırdım. Mən təsəvvür etmirdim ki, siz bilirsiniz mən Naxçıvandayam, necə yaşayıram. Çünki mən bilirəm ki, onda Qarabağda vəziyyət çox ağır idi, hərə öz aqibəti ilə məşğul olurdu. Düşünmək ki, Heydər Əliyev haradadır, onu dəvət etmək, yaxud ona müraciət etmək lazımdır – mən bunu təsəvvür etmirdim. Amma ki, çox yerdən, döyüş bölgələrindən xəbər gəlib çatırdı, bəzən məktublar da gəlirdi. Bilirdim ki, bəziləri məktub göndərirlər, ancaq məktubları buraxmırdılar. Necə ki, o vaxtlar televiziya kadrlarını göstərmirdilər, eləcə də Naxçıvana, mənə gələn məktubları buraxmırdılar. Hətta xarici ölkələrin nümayəndələri çətinliklərin öhdəsindən gəlib Naxçıvanda mənimlə görüşərkən deyirdilər ki, neçə dəfə zəng etmişik – [156-157] verməyiblər, məktub göndərmişik, – buraxmayıblar. Belə hallar çox olubdur.

Ancaq eyni zamanda, görürsünüz, bütün bu çətinliklərə baxmayaraq, beş il keçsə də, o televiziya kadrlan yaşayıb, indi çox şeylərə aydınlıq gətirir. Sizin vətənpərvərliyinizə, cəsarətinizə görə təşəkkür edirəm. Beş il öncə siz ağır vəziyyətdə idiniz, indi də hamımız o illərin ağrısını çəkirik, çünki işğal edilmiş torpaqlar azad olunmayıbdır. Ancaq insanlar sakit yaşayırlar. Beş ildən sonra sizinlə görüşürük, mən çox şadam.

## YEKUN SÖZÜ

Mən bir daha bildirmək istəyirəm, – çox məmnunam ki, sizinlə bu görüş mənə nəsib olubdur. Mənim həyatım sizin hamınızın gözü qabağındadır. Məni sevindirən odur ki, görürəm, həyatımı daim izləmisiniz. Xüsusən o illərdə – mənə qarşı ədalətsiz tədbirlər görülən zamanda, mənə qarşı təzyiq və təqiblər olan zaman da sizin qəlbiniz, bu gün belə hiss etdim ki, mənimlə olubdur, məni unutmamısınız.

Ona görə də yaxşı bilirsiniz ki, mən bütün həyatım boyu xalqa, öz millətimə, Azərbaycan xalqına, öz torpağıma xidmət etmişəm və bu gün də bu xidməti edirəm. Ola bilər ki, kimin vətənə, torpağa, xalqına nə qədər borcu olması nöqteyi-nəzərindən yanaşsaq, mən öz borcumu çoxdan vermişəm. Həm gördüyüm işlərə, həm də bu işlərin müddətinə, vaxtına görə, neçə illərdir mən işləyirəm, – öz borcumu çoxdan vermişəm.

Ancaq bir halda ki, xalq, millət, ölkəmiz ağır vəziyyətdə idi, məni 1993-cü ildə yenidən buraya – Bakıya dəvət etdilər, mən bu dəvəti qəbul etdim, gəldim. Dünən axşam mən televizora baxırdım, Ali Sovetin, Milli Məclisin o vaxtkı – 15 iyun sessiyasını göstərirdilər. O hadisələr mənim xatirimdədir, amma insanın nə qədər xatirində olsa da, yenidən görəndə detalları [157-158] ilə yada salır. Dünən o kadrlan gördüm, – məsələn, mən buraya gəldim, məclisdə mənimlə danışıq apardılar, sonra Gəncəyə getdim. Milli Məclisin iki dəfə iclası oldu. Birincisində mən gəldim, təklif etdilər ki, məni seçmək istəyirlər. Dedim ki, yox, razılıq verə bilmərəm, gərək gedib Gəncədə vəziyyəti öyrənim, görüm nə etmək olar, ondan sonra bu barədə fikirləşərəm. Getdim, gəldim. Siz dünən gördünüz, xatirimə düşür, bəzi adamlar sual verdilər ki, mən nə edəcəyəm? Dörd il bundan qabaq iyunun 15-də dediyim sözlərdir, – dedim ki, mən buraya özüm gəlməmişəm, məni dəvət ediblər, çağırıblar, dəfələrlə çağırıblar və mən gəlmişəm. Əgər istəyirsinizsə, buradan çıxıb gedə, bu gün qayıda bilərəm.

Son illərdə bəziləri Azərbaycanda vəzifə, hakimiyyət mübarizəsi edərək xalqımızı bədbəxt ediblər. Mənim həyatım belə olub ki, heç vaxt vəzifə uğrunda nə çalışmışam, nə də cəhd göstərmişəm. Həyat belə gətirib, məni işimə görə qiymətləndiriblər və vaxtaşırı irəli çəkiblər. Hər dəfə də mənə göstərilən etimadı doğrultmuşam.

Dörd il bundan öncə bu böyük yükü öz üzərimə götürdüm. Dörd ildir, amma bu, nə qədər çətinliklərdir, – siz bunu bilirsiniz, gözünüzün qabağındadır. 1993-cü ilin 15 iyun günü, — dünən televizora baxanda bir daha xatırlayırdım, – nə qədər ağır bir gün idi, nə qədər böyük məsuliyyət idi. Mən o vaxt Naxçıvanda yaşayanda Azərbaycanın başqa yerlərində, xüsusən Bakıda olan vəziyyəti olduğu kimi bilmirdim. Çünki ora Azərbaycandan ayrı düşmüşdü, blokada şəraitində idi, həm də televiziya çox vaxt işləmirdi, qəzet az gəlirdi. Bir də ki, Naxçıvanın öz dərdləri var idi, mən bunlarla məşğul olurdum.

Amma buraya gəlib gördüm ki, nə qədər dəhşətli bir vəziyyət idi. Belə bir dəhşətli vəziyyətdə o məsuliyyəti, vəzifəni öz üzərimə götürmək mənim üçün asan deyildi. Çox ölçüb-biçdim, çox fikirləşdim. Mən buraya iyunun 9-da gəldim, ayın 15-də bu məsuliyyəti öz üzərimə götürməyə razılıq verdim. [158-159] Nəyə görə bunu etdim? Yalnız və yalnız ona görə ki, gördüm, həqiqətən Azərbaycan dağılır və bu dağıntının qarşısını almaq lazımdır.

Allaha şükür olsun ki, bunun qarşısını ala bildik. İndi vəziyyət tamamilə bambaşqadır. Əmin ola bilərsiniz ki, bundan sonra da nə mümkündür edəcəyəm. Mümkün olmayan şeyi də edirəm, onu bilin. O şeyi ki, bəlkə çox adam hesab edir ki, mümkün deyil, mən onu edə bilirəm, onu da edirəm. Mən inanıram ki, biz bütün bu çətinliklərdən çıxacağıq. İnanıram ki, işğal edilmiş torpaqlarımız sülh yolu ilə azad olunacaqdır. Bu inamla da gecə-gündüz çalışıram. Mən inanıram ki, siz hamınız öz yerinizə-yurdunuza qayıdacaqsınız və az bir müddətdə həyatınız bərpa olunacaqdır.

Bilirsiniz, Füzuli rayonunun işğal edilmiş ərazisinin bir qismini 1994-cü ildə döyüşlə, vuruşla azad etdik. Orada bütün evlər, kəndlər – hamısı dağılmışdı. İndi biz Dünya Bankından buraya böyük imkanlar cəlb etmişik. Tikinti aparır, bərpa edirik, su çəkdiririk, insanların yaşayışını yaxşılaşdırırıq. Bu imkanlar var. Torpaqlar azad olunan kimi, – bilirəm, orada hər şey dağıdılıbdır, – bərpa işləri çox sürətlə gedəcəkdir. Birincisi, buna çox vəsait ayrılacaqdır. İkincisi də, mən bilirəm, sizin hər biriniz torpağınızı, evinizi o qədər sevirsiniz ki, necə deyərlər, torpağı dırnağınızla qazıb yaşayışınızı bərpa edəcəksiniz. Mən buna inanıram. Sizli – bizli, hamımız birlikdə bunu edəcəyik və bu günü də görəcəyik – siz də görəcəksiniz, mən də görəcəyəm.

Ancaq mən bir də 1992-ci ilin o faciəli günlərini, sizin həyatınızı xatırlayıram. O kadrlara baxdıqca mən görürəm və dərk edirəm ki, siz nə qədər böyük faciələrdən keçmisiniz, nə qədər əziyyətlər çəkmisiniz. Kim idi, deyəsən sən idin, çıxış edirdin, deyirdin nə qədər adamını, qohumunu itirmisən. Göz yaşı ilə danışırdın. O kadrlara həyəcansız baxmaq mümkün deyil! Həqiqətən, xalqımız üçün dəhşətli vəziyyət idi. Siz o [159-160] dəhşətli günləri yaşamısınız və o dəhşətli günlərdə də öz iradənizi, cürətinizi, cəsarətinizi itirməmisiniz. Ağlınız yerində olubdur ki, o dəhşətli günlərdə eyni zamanda o qədər cəsarətli sözlər də demisiniz, xalqı o vəziyyətdən

çıxarmaq yollarını görmüsünüz və heç kəsdən qorxmadan, çəkinmədən bunu da açıq-aydın demisiniz. Bu cəsarətinizə, iradənizə, dəyanətinizə görə mən sizə təşəkkür edirəm. Ona görə yox ki, siz orada Heydər Əliyevin adını çəkmisiniz, ona görə ki, o ağır vəziyyətdə çıxış yollarını görmüsünüz. Bir tərəfdən ədalətsizliyi, faciəni görmüsünüz, bir tərəfdən də ümid yolunu görmüsünüz. Bunlar hamısı çox qiymətlidir. Şücaətinizə, ədalətinizə, qəhrəmanlığınıza görə sizi bir daha təbrik edirəm, sizə təşəkkür edirəm.

Əmin olun və sizinlə bir yerdə yaşayanlara, sizin rayonların, kəndlərin sakinlərinə çatdırın ki, mənim işimdə hər gün vaxtın əksəriyyəti bu məsələyə həsr olunur. Bunun az bir hissəsini televiziya ilə görürsünüz, amma çox hissəsini görmürsünüz. Gecəm də budur, gündüzüm də. İndi mənim bir məqsədim var, bir vədim var: Azərbaycanı bu bəladan qurtarmaq, işğal olunmuş torpaqları azad etmək və sizləri öz yerlərinizə-yurdlarınıza qaytarmaq. Bu, mənim ali vəzifəmdir, ali məqsədimdir. Bunu bəlkə Azərbaycanda mənim qədər heç kəs istəmir. Sizin hər biriniz öz torpağınızı sevirsiniz, öz torpağınıza qayıtmaq istəyirsiniz, – bu, təbiidir. Amma mən isə bütün Azərbaycan xalqının məsuliyyətini öz üzərimə götürmüşəm. Bu, mənim daxili mənəviyyatımdır, həyatımdır. Mən həyatımın məqsədini bunda görürəm, başqa heç bir şeydə yox. Məni indi həyatda başqa heç bir şey maraqlandırmır: yaşayışım yaxşıdır-pisdir, işim çoxdur, yoruluram ya yorulmuram, əziyyət çəkirəm-çəkmirəm. Əziyyət çəkməliyəm. Mən bu əziyyəti çəkmək üçün doğulmuşam. Hər adamın bir taleyi var, bu da mənim taleyimdir. Mən də taleyimdən razıyam, baxmayaraq ki, sizin kimi mən də, – həqiqətən, burada doğru söz dediniz, – [160-161] bəli, mən də köçkün olmuşam, qaçqın vəziyyətində yaşamışam, sürgün olunmuşam.

Bilirsiniz, vaxtilə getdim Moskvaya, orada işlədim. Böyük hadisə idi ki, Azərbaycan xalqının çoxəsrlik tarixində Azərbaycan xalqının nümayəndəsi, azərbaycanlı gedib Sovetlər İttifaqı kimi, Rusiya kimi böyük bir dünya dövlətinin ən yüksək zirvəsində oturdu. Bu, Azərbaycan xalqı üçün, hamı üçün böyük bir tarixi hadisə idi. Bütün dünya müsəlmanları, bütün dünya türkləri üçün də böyük hadisə idi ki, Rusiya kimi, Sovetlər İttifaqı kimi böyük bir dövlətin ən yüksək nöqtəsində müsəlman, türk oturmuşdu. Bu, tarixdə heç vaxt olmamışdı.

Amma Rusiya dövlətinin də çoxəsrlik tarixi var və Sovetlər İttifaqı kimi böyük bir dövlət də yaranmışdı, dağıldı. Bu da tarixi hadisədir. Bəşər tarixində bu dövlətin də özünəməxsus yeri var. Bu, superdövlət idi, necə deyərlər, dünyaya hökm oxuyan dövlət idi. Bu dövlətin başında azərbaycanlının, müsəlmanın, türkün olması sadə məsələ deyildi. Bu, mənim üçün yox, xalqımız, millətimiz üçün-böyük bir hadisə idi.

Mən bunu da şərəflə yerinə yetirdim. O vəzifədən ayrılmağımdan on il keçibdir. Bu yaxınlarda Moskvanın böyük bir nümayəndə heyəti gəlmişdi, burada böyük tədbir – Moskva günləri keçirdik. Mən yüksək vəzifədə işləyəndə Yuri Lujkov Moskvada aqrosənayenin sədri idi. Xatırlayırdıq, – bir yerdə nə qədər işləmişik, kim hansı mərtəbədə olmuşdur. Onlar da hamısı mənim orada – Moskvada, bütün Sovetlər İttifaqında gördüyüm işləri çox yüksək qiymətləndirirlər.

Ancaq buna baxmayaraq, mənim başıma nə bəlalar gətirdilər, gördünüz. Ola bilər, siz onların hələ yüzdə birini bilirsiniz. Deyirsiniz ki, gəldiniz, dediniz ki, bizi Heydər Əliyev ilə görüşdürün. Təkcə siz deyildiniz, kim gəlirdi ki, Moskvada Heydər Əliyevi necə görmək olar, – hamı üçün bağlı, qapalı idi. Heydər Əliyevin nə ünvanını, nə telefonunu verirdilər. Məni o qədər mühasirəyə almışdılar ki, demək olar, həbsxana[161-162]da yaşayan bir adam idim. Azərbaycana gəlmək istəyirdim, buraxmırdılar, qoymurdular. Oradan da, buradan da buraxmırdılar. Ay qardaş, bu mənim vətənimdir, torpağımdır. Gedirəm, bəlkə istəyirəm gedəm orada öləm, Vətənimdə öləm. Qoymurdular!

Buraya gəldim, burada yaşamağa qoymadılar. Getdim Naxçıvana. Naxçıvandan buraya gəlmək istəyirdim, – həmin o siz dediyiniz sessiyaya gəlməyə qoymurdular. Mən bunların hamısını gördüm, çəkdim. Yəni demək istəyirəm ki, sizin bir cür əziyyətiniz var idi, mənim də həyatımda çox əziyyətli günlərim, illərim olubdur. Çox faciəli illərim olubdur. Ancaq yenə də taleyimdən çox razıyam. Bu, mənim taleyimdir – onun çox parlaq cəhəti də, faciəvi cəhəti də mənim taleyimdir. Bugünkü də mənim taleyimdir. Amma bu gün zəhmətdən, əziyyətdən savayı heç bir şey yoxdur. Mən bunu da özümə böyük xoşbəxtlik hesab edirəm ki, xalqıma belə böyük miqyasda, çərçivədə xidmət etmək imkanı əldə etmişəm. Bu xidməti də edirəm, bundan sonra da edəcəyəm.

Sizi bir daha əmin edirəm ki, torpaqların azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpası, Azərbaycanın suverenliyinin, müstəqilliyinin qorunması, Azərbaycanın bir müstəqil dövlət kimi yaşaması mənim məqsədimdir. Mən buna nail olmaq istəyirəm və gələcək nəsillərə də çox qüdrətli, güclü, inkişaf etmiş Azərbaycan qoyub getmək istəyirəm. Mənim məqsədim bundan ibarətdir.

Sağ olun ki, Azərbaycanda sizin kimi insanlar var. Mənim bu fəaliyyətimi də həyata keçirmək sizin kimi insanların varlığı ilə mümkündür. Əgər sizin kimi insanlar olmasaydı, mən 1993-cü ildə vətəndaş müharibəsinin qarşısını ala bilməzdim. Əgər sizin kimi insanlar olmasaydı, ondan sonrakı dövrdə bir neçə dəfə dövlət çevrilişi cəhdlərinin qarşısını ala bilməzdim. 1994-cü ilin oktyabrında dövlət çevrilişi cəhdinə ki başladılar, onların əlində böyük silahlar, silahlı dəstələr vardı, mənim [162-163] əlimdə isə heç bir şey yox idi. Amma mənim arxamda xalq, millət var idi. Xalqa bir müraciətimlə o çevriliş cəhdinin qarşısını aldım. Ondan sonrakı zamanlarda da onların qarşısını aldım. Buna görə yaxşı ki, siz varsınız. Xalqımızın içində nadürüstlər, xainlər, satqınlar da, mənəviyyatca pozğunlar da var, amma onlar azlıq təşkil edirlər. Təəssüf ki, bəzən onların çoxu gəlib yüksək vəzifələr tuturlar, ona görə də xalqımıza, millətimizə çox zərər verirlər.

Amma xalqımızın əksəriyyəti sizin kimi sağlam düşüncəli, saf mənəviyyatlı, yüksək amallarla yaşayan insanlardır. Məni həmişə sevindirən budur. O illərdə də Azərbaycanda işləyəndə gördüyüm işləri ona görə edə bildim ki, xalq o vaxt da məni çox dəstəkləyirdi, mənə arxa idi, mənimlə həmrəy idi. Ona görə də mən cəsarətlə çox işlər görürdüm, o cümlədən Dağlıq Qarabağda. İndi sizin xatırladığınız o işləri mən çox cəsarətlə görürdüm. Ona görə ki, xalqa arxalanırdım, xalq mənə inanırdı, mən də xalqa inanırdım. İndi də mənim ən böyük qüvvəm, gücüm, ən böyük silahım xalqın mənə göstərdiyi etimaddır, etibardır və xalqın dayağıdır, sizin kimi insanların dayağıdır. Sağ olun ki, Azərbaycanda sizin kimi insanlar var. Təşəkkür edirəm sizə, çox sağ olun. [163-164]

## XALQ ARTİSTİ CÖVDƏT HACIYEVƏ

Hörmətli Cövdət Hacıyev!

Sizi – Azərbaycan musiqi sənətinin inkişafında xüsusi xidmətləri olan görkəmli bəstəkarı anadan olmağınızın 80 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Siz ölkəmizdə milli simfonizmin yaradıcılarından biri kimi tanınırsınız. Musiqiniz vətəndaşlıq ruhu, dərin məzmunu və yüksək bədiiliyi ilə fərqlənir. Siz öz əsərlərinizdə dünya klassik musiqi ənənələri ilə yanaşı, Azərbaycan xalq musiqisinin müxtəlif janrlarının, eləcə də muğam sənətinin bədii ifadə vasitələrindən bacarıqla istifadə edirsiniz. Sənətsevərlərin böyük rəğbətini qazanmış bir sıra əsərləriniz Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur.

60 illik səmərəli fəaliyyətiniz xalq və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ən yüksək mükafatınız isə ölkəmizin musiqi mədəniyyətinin inkişafına xidmət edən yetişdirmələrinizin nailiyyətlərindən duyduğunuz iftixar və sevinc hissidir.

Görkəmli bəstəkar, novator pedaqoq və tanınmış ictimai xadim kimi Sizin çoxşaxəli fəaliyyətiniz yeni musiqiçilər nəsli üçün əsl örnəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və işinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 iyun 1997-ci il* [164-165]

## XALQ ARTİSTİ FİDAN QASIMOVAYA

Hörmətli Fidan xanım!

Sizi – Azərbaycan incəsənətinin görkəmli nümayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Nadir istedada malik olan sənətkar kimi siz xalqımızın musiqi mədəniyyəti tarixinə əbədi daxil olmusunuz. Ölkəmizdə vokal sənətinin inkişafındakı xidmətləriniz təqdirəlayiqdir. Azərbaycan, Avropa və rus bəstəkarlarının kamera-vokal əsərləri, opera partiyaları sizin ifanızda özünəməxsus lirizmi, təravəti və rəngarəngliyi ilə seçilir. Siz pedaqoji fəaliyyətinizlə də bu sahənin daha da inkişaf etməsinə öz töhfənizi vermisiniz.

Milli musiqimizin ənənələrini davam etdirməklə siz Azərbaycan vokal sənəti üçün yeni üfüqlər açmış, onu keyfiyyətcə yeni bir mərhələyə qaldırmısınız. Azərbaycan və dünya mədəniyyətinin zəngin qaynaqlarından bəhrələnmiş ifaçılıq sənətiniz sayəsində milli musiqi incilərimizin bir çoxu dünyada geniş şöhrət tapmışdır.

Əminəm ki, bundan sonra da siz incəsənət pərəstişkarlarına yeni-yeni sevinclər bəxş edəcəksiniz. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və daha böyük sənət uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 iyun 1997-ci il* [165-166]

## ÖZBƏKİSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*18 iyun 1997-ci il*

**Sual: Cənab prezident, məlumdur ki, Azərbaycanda AXC hakimiyyəti dövründə respublikamızla Özbəkistan arasında əlaqələr tamamilə kəsilmişdi. Yalnız siz hakimiyyətə qayıdandan sonra bu əlaqələr bərpa olunubdur. Özbəkistana səfərinizdən nə gözləyirsiniz?**

**Cavab:** Həqiqətən belə olubdur. Azərbaycan və Özbəkistan dövlət müstəqilliklərini əldə edən anlardan təəssüf ki, respublikamızda Özbəkistana qarşı qeyri-sağlam münasibət olmuşdur. Ona görə də Özbəkistanın başçıları buna öz müvafiq münasibətlərini bildirmişdilər. Bizim ölkələrimizin uzun illər çox yaxın əlaqələri olmasına baxmayaraq, hər iki respublika müstəqillik qazandığı ilk illərdə heç bir əlaqə saxlamamışdır. 1991-1992-ci illərdə respublikamızın dünyanın bir çox ölkələri ilə diplomatik əlaqələr qurmasına baxmayaraq, Özbəkistanla Azərbaycan arasında diplomatik əlaqələr yox idi. Şübhəsiz ki, mən bunu həm Azərbaycan, həm də Özbəkistan üçün çox zərərli bir hal hesab etdiyimə görə 1993-cü ilin sonlarından, 1994-cü ilin əvvəllərindən Özbəkistanla əlaqələri bərpa etməyə çalışdım.

Özbəkistana qarşı ədalətsiz hərəkətlərə görə bu ölkədə Azərbaycana böyük inamsızlıq yaranmışdı. Mən Özbəkistanın [166-167] rəhbərləri ilə keçmiş zamanlardan tanış olmuşdum, bir yerdə işləmişdik, əlaqələrimiz var idi. Ancaq onlarda Azərbaycana qarşı o qədər inamsızlıq əmələ gəlmişdi ki, bizim ölkələrimizin hətta diplomatik əlaqələri də yox idi. Biz diplomatik əlaqələrimizi yalnız 1995-ci ilin sonunda yarada bildik. Nəhayət, 1996-cı ilin əvvəllərində Azərbaycanın Özbəkistanda səfirliyini yaratdıq və o, indi öz fəaliyyətini uğurla davam etdirir.

MDB-nin üzvü olan ölkələrin, türkdilli dövlətlərin başçılarının toplantılarında Özbəkistanın prezidenti ilə mən görüşlər keçirirdim və bu əlaqələrin bərpa edilməsinə cəhdlər göstərirdim. Bilirsiniz ki, bu əlaqələr quruldu. 1996-cı ilin mayında Özbəkistan prezidenti İslam Kərimov Azərbaycana rəsmi səfərə gəldi. Bu səfər çox uğurlu oldu. Biz 19 sənəd imzaladıq. 1996-cı ilin oktyabrında Əmir Teymurun yubileyi münasibətlə mən Daşkənddə oldum. Bu, çox yaxşı səfər oldu.

Mən çox məmnunam ki, Özbəkistan kimi böyük ölkə və o cümlədən, əsrlər boyu tarixi əlaqələri olmuş bir xalq ilə bu gün bizim dövlətlərarası əlaqələrimiz bərpa olubdur. Bunların da nəticəsi olaraq Özbəkistan prezidentinin dəvəti ilə indi mən Daşkəndə rəsmi səfərə gedirəm.

Bu səfərdən nə gözləyirəm? Gözləyirəm ki, biz ölkələrimizin əlaqələrinin mövcud vəziyyətini və perspektivlərini birlikdə müzakirə edəcəyik, nəzərdə tutulduğu kimi, bir çox müqavilələr imzalayacağıq.

Görülən bütün bu tədbirlər nəticəsində biz həm Mərkəzi Asiya, həm də Qafqaz ölkələri üçün çox əhəmiyyətli olan böyük nailiyyətlər əldə etdik. Bilirsiniz ki, Transqafqaz magistralı, dəhlizi yaradılması barədə biz keçən ilin mayında saziş imzaladıq. Bu magistral, dəhliz artıq fəaliyyətdədir. Hesab edirəm ki, onun çox böyük gələcəyi vardır. Başqa sahələrdə də əlaqələrimiz yaxşı inkişaf edir. Ona görə də bu səfərimin də uğurlu olacağına ümid bəsləyirəm. [167-168]

**Sual: Azərbaycanın ilkin neftinin ixrac kəməri marşrutlarına Özbəkistanın münasibəti barədə nə deyə bilərsiniz?**

**Cavab:** Özbəkistan bu məsələdə çox maraqlıdır və bizim bu sahədəki işlərimizi dəstəkləyir. Doğrudur, Özbəkistan Xəzəryanı ölkə deyildir. Amma imkanlardan istifadə etməyə çalışır və bu sahədə onun özünəməxsus planları vardır.

**Sual: İlkin neftin nəqli barədə Azərbaycan, Rusiya və Çeçenistan arasında guya saziş imzalanacağı haqqında Rusiya mətbuatının xəbərlərinə münasibətiniz necədir?**

**Cavab:** Bizim saziş imzalamağa ehtiyacımız yoxdur. Biz 1996-cı ilin yanvarında Moskvada saziş imzalamışıq. İmzaladığımız bu sazişi Rusiya yerinə yetirə bilmir. Mən elan etmişəm ki, biz Şimal istiqamətində neft kəməri yaratdıq, ancaq indi nefti ixrac edə bilmirik. Bu, Rusiya ilə Çeçenistanın münasibətlərindəki çətinliklərdən irəli gəlir. Onlar son vaxtlar danışıqlar aparıblar, razılığa gəliblər.

Bilirsiniz ki, Rusiyanın prezidenti cənab Boris Yeltsinin dəvəti ilə iyulun 3-də mənim Moskvaya ilk rəsmi səfərim olacaqdır. Güman edirəm ki, o vaxta qədər bu məsələlər tamamilə həll ediləcək və biz bu işə əməli surətdə başlayacağıq.

**Sual: ABƏŞ-in rəhbər komitəsinin son iclasının nəticələrini necə qiymətləndirirsiniz?**

**Cavab:** Mən bu nəticələri yaxşı qiymətləndirirəm. Onların işində bəzi geriliklər olmuşdur. Rəhbər komitədə bu barədə müzakirələr aparılmışdır. Hesab edirəm ki, ümumi işimiz, xüsusən Azərbaycanın gələcəkdə bu sahədə nailiyyətlər qazanması üçün yaxşı qərarlar qəbul olunubdur.

**Sual: Minsk qrupu həmsədrlərinin bölgəyə səfərinin nəticələri barədə Ermənistan mətbuatında dərc edilən yazılarla əlaqədar Sizin fikriniz necədir?**

**Cavab:** Biz bu məsələləri qapalı aparırıq. Bu, nə qədər qapalı olsa, o qədər də nailiyyət əldə edilə bilər. Ermənistan [168-169] öz işinə, biz də öz işimizə cavabdehik. Biz verdiyimiz sözə sadiqik. Əgər onlar verdikləri sözü pozurlarsa, özləri cavabdehdirlər.

**Sual: Azərbaycan haqqında "ANS" televiziyası xəbərlərinin dünyaya yayılması sahəsində çox iş görülür. Bunu necə qiymətləndirirsiniz?**

**Cavab:** "ANS" tam sərbəst fəaliyyətdədir. Əgər siz bu sahədə daha da çox iş görürsünüzsə, çox sağ olun. Ölkəmizin dünya miqyasında hörmətini qaldırmağa hamı çalışmalıdır. "ANS" sərbəst televiziya şirkətidir, imkanları var. Çalışın, bu sahədə nə bacarırsınız edin. [169-170]

## AZƏRBAYCAN-ÖZBƏKİSTAN DÖVLƏTLƏRARASI VƏ HÖKUMƏTLƏRARASI SƏNƏDLƏR İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*18 iyun 1997-ci il*

Hörmətli prezident İslam Kərimov!
Hörmətli dostlar, xanımlar və cənablar!

İlk öncə Özbəkistana rəsmi səfər etmək üçün dəvət etdiyinə görə prezident İslam Kərimova təşəkkürümü bildirmək istəyirəm və şadam ki, bu səfər başlanmışdır və biz bu gün səhərdən xeyli iş görmüşük. Bu səfər prezident İslam Kərimovun keçən ilin mayında Azərbaycana rəsmi səfərinin davamıdır. Bu gün biz nə etmişiksə, bunların hamısı Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığı təmin etmək üçün birlikdə qoyduğumuz əsasın məntiqi davamı, inkişaf etdirilməsidir. Nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə, səmimi qəbula görə hamıya təşəkkür edir və demək istəyirəm ki, biz özümüzü burada evimizdəki kimi hiss edirik, çünki belə diqqət və dostluq mühiti ilə əhatə olunmuşuq.

Prezident İslam Kərimov bizim söhbətlərimiz, danışıqlarımız və imzalanmış sənədlər haqqında ətraflı danışdı. Hesab edirəm ki, bunları təkrar edib vaxtınızı almağa ehtiyac yoxdur. Mən onun dediklərinin hamısı ilə tam razıyam. Ən başlıcası budur ki, Özbəkistanla Azərbaycan sadiq, etibarlı tərəfdaşlar kimi çıxış edirlər və tərəfdaşlıq münasibətlərimizi, əməkdaşlığımızı, dostluğumuzu daha da inkişaf etdirməyin və möh[170-171]kəmləndirməyin konkret yollarını imzalanmış sənədlərdə müəyyənləşdirmişlər.

Qısa bir müddət, – mən Özbəkistanın və Azərbaycanın müstəqillik əldə etmələrindən sonrakı dövrü nəzərdə tuturam, – ölkələrimiz arasında yaranmış münasibətlər bizim istədiyimiz münasibətlər deyildir. Bu, Azərbaycan tərəfinin təqsiri üzündən, Azərbaycanın o dövrdəki bəzi rəhbərlərinin günahı üzündən baş vermişdi, mən bundan təəssüflənirəm. Mən dəfələrlə demişəm ki, o zaman Azərbaycanda həqiqətən təsadüfi olaraq hakimiyyət başına gəlmiş bəzi insanların tutduqları mövqeyini nə Azərbaycan xalqı, nə də Azərbaycan cəmiyyəti dəstəkləməmişdir. Onlar bütünlükdə Azərbaycan Respublikasına böyük zərər vurmuş, o cümlədən Özbəkistan ilə Azərbaycan arasında münasibətləri mürəkkəbləşdirmişdilər.

Dediklərimlə əlaqədar bir çox illər itirdiyimizi nəzərə alsaq, az müddət ərzində münasibətlərimizin və əməkdaşlığımızın intensiv inkişafını təmin edə bilmişik. Keçən ilin mayında Bakıda 19 sənəd imzalanmışdır və birinci sənəd Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilədir. Bu gün 19 sənəd imzalanıbdır, bunların arasında İslam Abduqəniyeviçin və mənim imzaladığımız sənədin – Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında sənədin çox böyük əhəmiyyəti var. Bütün başqa sənədlərin də müstəsna əhəmiyyəti var və onların hamısı birlikdə Özbəkistan ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq üçün güclü, mən deyərdim ki, fundamental müqavilə-hüquqi əsas yaradır. Bizim heç bir şübhəmiz yoxdur ki, bu sazişlərin hamısı reallaşdırılacaq və yaxın illərdə əməkdaşlığımızın coşqun inkişafının şahidi olacağıq, bu isə həm Azərbaycana, həm də Özbəkistana eyni dərəcədə böyük fayda verəcəkdir.

Mən xüsusi vurğulamaq istəyirəm ki, – bu barədə İslam Abduqəniyeviç də dedi, – müzakirə olunan bütün məsələlər, o [171-172] cümlədən son dərəcə mühüm siyasi əhəmiyyəti olan məsələlər barəsində baxışlarımızın tam birliyinin, mövqelərimizin eyniliyinin, oxşarlığının şahidi olduq. Etibarlı tərəfdaşlığı təmin etmək üçün bu, son dərəcə çox mühümdür. Həm regional xarakter daşıyan, həm də beynəlxalq həyatda ümumi mövqelərimizlə bağlı bir çox ümumi mənafelərimiz nəzərə alınmaqla bu etibarlı tərəfdaşlıq Özbəkistan üçün də, Azərbaycan üçün də çox gərəklidir.

Mən hər bir dövlətin ərazi bütövlüyünün qorunması və təmin edilməsinin zəruriliyi barədə prezident İslam Kərimovun bildirdiyi və bu gün də təkrar etdiyi mövqeyi, separatizmə, terrorizmə, fundamentalizmə qarşı yönəldilmiş mövqeyi, daxili işlərə qarışmamaq mövqeyini, hər hansı ölkənin suverenliyinə və müstəqilliyinə qəsd etmək cəhdlərinə qarşı yönəldilmiş mövqeyi yüksək qiymətləndirirəm. Biz də belə mövqelərdə möhkəm dururuq və bu baxımdan mövqelərimizin, – mən Özbəkistanı və Azərbaycanı nəzərdə tuturam, – üst-üstə düşməsinin bizim tərəfdaşlıq münasibətlərimizin gələcək inkişafı üçün də fundamental əhəmiyyəti var.

Bizim Azərbaycanda əldə etdiyimiz müstəqillik bir çox çətinliklərdən və sınaqlardan keçmişdir: Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazisinin 20 faizini işğal edərək ölkəmizin ərazi bütövlüyünü pozması, işğal edilmiş torpaqlardan Azərbaycanın bir milyondan çox sakininin zorla qovulub çıxarılması, – indi onlar müxtəlif bölgələrdə, əksəriyyəti çadırlarda, son dərəcə ağır şəraitdə, qaçqın vəziyyətində yaşayırlar, – Azərbaycanın özündə, daxildə bir çox illər vəziyyətin qeyri-sabit olması, müxtəlif silahlı dəstələr, qruplar, siyasi partiyalar arasında hakimiyyət uğrunda mübarizə getməsi.

Bütün bunların fonunda biz dövlət müstəqilliyimizi və milli azadlığımızı çox yüksək qiymətləndirir və əziz tuturuq. Bu, bizə çox baha, torpaqlarımızı erməni işğalçılarından müdafiə [172-173] edərkən verdiyimiz çoxlu qurbanlar hesabına, 1990-cı ilin yanvarında sovet qoşunları tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz törədilən zaman verdiyimiz çoxlu qurbanlar hesabına və Azərbaycanda daxili siyasi mübarizə prosesində verdiyimiz çoxlu qurbanlar bahasına başa gəlmişdir. Biz bu çətinliklərdən, bu qurbanlardan keçərək indi malik olduğumuz sabit vəziyyətə, müstəqilliyə, suverenliyə gəlib çıxmışıq. Biz bunu çox qiymətləndirir və əziz tuturuq, öz müstəqilliyimizi bundan sonra da möhkəmləndirəcək və inkişaf etdirəcəyik.

Bu cəhətdən baxışlarımızın, mövqelərimizin, – mən Özbəkistan prezidenti ilə Azərbaycan prezidentinin baxış və mövqelərini nəzərdə tuturam, – uyğun gəlməsi müstəsna əhəmiyyətə malikdir, həqiqətən etibarlı tərəfdaş olmağımız bunun üçün yaxşı zəmindir. Biz Azərbaycanda Özbəkistanla etibarlı tərəfdaşlıq münasibətlərinə malik olmaq istəyirik və hər şey edəcəyik ki, bu münasibətlər olsun, onlar inkişaf edib möhkəmlənsin.

Diqqətinizə görə sağ olun.

**Sual: Sual Özbəkistan prezidenti Kərimov cənablarınadır. Özbəkistan neftinin Azərbaycan ərazisi ilə Avropaya nəql olunması məsələsi müzakirə edildimi? Özbəkistan EKO-nun axırıncı zirvə toplantısında dəstəklənmiş Transxəzər qaz kəməri layihəsində iştirak etmək niyyətindədirmi?**

**İslam Kərimov:** Zənnimcə, ötən il Transqafqaz dəhlizi haqqında sənəd, dörd dövlət – Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında müqavilə nəzərdə tutulur. Bu dəhlizlə Mərkəzi Asiya ərazisindən Qara dənizə və oradan da Avropaya və dünyanın digər regionlarına və geriyə daşımaların təmin olunması haqqında sənədi imzalamaqla biz aydın və açıq şəkildə anlatdıq ki, biz bu istiqamətə, bu istiqamətdə kommunikasiyaların inkişaf etməsinə və güclənməsinə tərəfdarıq. Bu gün Heydər Əliyeviç çox maraqlı, hətta deyərdim, çox mühüm rəqəmlər gətirdi, onlar adamı düşünüb[173-174]-daşınmağa vadar edir. Bu dəhlizdən uzun müddət istifadə olunmayıbdır, halbuki ona heç də sənədi imzalamış dövlətlər deyil, başqa ölkələr də maraq göstərirlər. Qazaxıstan da, Qırğızıstan da, Ukrayna da, Bolqarıstan da, Rumıniya və bir çox digər dövlətlər də ona qoşulmuşlar. Buna görə də siz ancaq qaz kəməri və ya neft kəməri barədə soruşduqda deməliyəm ki, biz bu məsələyə daha geniş mövqedən yanaşırıq. Biz bütövlükdə kommunikasiyaları, o cümlədən xam neftin nəqlini təmin edən kommunikasiyaları nəzərdə tuturuq.

**Sual: Dağlıq Qarabağ münaqişəsinin həlli barədə Lissabon prinsiplərinin həyata keçirilməsi haqqında Özbəkistanın hər hansı təşəbbüsləri və ya niyyətləri varmı? Bu baxımdan Mərkəzi Asiya batalyonu Dağlıq Qarabağda sülhün qorunması üzrə ATƏT-in sülhyaratma qüvvələri tərkibində iştirak edə bilərmi?**

**İslam Kərimov:** Mən Heydər Əliyeviçlə danışıqlarda və şəxsi söhbətdə Qarabağ faciəsinin aradan qaldırılması, Qarabağ probleminin həlli barədə bizim dəqiq, aydın və qəti mövqeyimizi bildirdim. Mövqeyimiz aşağıdakılardan ibarətdir və yeri gəlmişkən, mən bunu ilk dəfə olaraq demirəm, mən bunu əvvəllər müxtəlif beynəlxalq məclislərdə də demişəm: biz əminik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqınların qayıtması və Azərbaycanın ərazi bütövlüyünə təminat verilməsi məsələlərində Azərbaycanın mövqeyi dəqiq, ədalətli və hətta deyərdim, düzgün mövqedir, bu gün bütün Dünya Birliyində getdikcə daha çox tərəfdaşlar tapır. Buna görə də biz şadıq ki, indi Azərbaycanın mövqeyi tanınır və bu məsələdə Azərbaycanın getdikcə güclənən nüfuzu və etibarı, zənnimcə. qanunauyğun prosesdir.

Buna görə də biz belə hesab edirik ki, Qafqazda iki erməni dövləti ola bilməz və bir vaxtlar Azərbaycan tərəfindən söylənmiş bu fikri ağıllı və məntiqi fikir sayırıq. Bu baxımdan biz [174-175] Qarabağ probleminin siyasi yolla, dincliklə həllinə tərəfdarıq. Bu problemin siyasi həllinin alternativi yoxdur. Ona görə də inanırıq ki, Qarabağ probleminin həlli üzrə bu gün Minsk qrupunun gücləndirilməsi, ona Fransa və Rusiya ilə yanaşı, Amerika Birləşmiş Ştatlarının üçüncü həmsədr təyin olunması Qarabağ probleminin məhz sülh yolu ilə həlli üçün yaxşı əlamət, yaxşı təkandır. Qonşuları seçmirlər – ermənilər də qonşuları seçmir, azərbaycanlılar da qonşuları seçmirlər, bu, tarixi məntiqdir. Odur ki, bu problemin dincliklə həllinin alternativi yoxdur.

Nəhayət, mən əminəm ki, 1989-cu ildə yaranmış Qarabağ problemi kənardan gətirilmişdir. Bu problem Azərbaycana da lazım deyildir, Ermənistana da. Öz strateji maraqlarını əsas tutan kimlərəsə, necə deyərlər, bu közərən gərginlik ocağının, süst gedən prosesin qalması çox vacibdir; elə proses ki, onun köməyi ilə öz strateji niyyətlərini həyata keçirirlər.

Mərkəzi Asiya batalyonuna gəldikdə isə, bizdə belə bir qərar qəbul edilmişdir ki, bu batalyon Birləşmiş Millətlər Təşkilatının bir növ ehtiyat qüvvəsidir və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qərarı ilə fəaliyyət göstərə bilər. Ondan harada istifadə olunacağını müəyyənləşdirmək bizim işimiz deyildir. Ondan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qərarı haranı lazım bilsə, orada da istifadə ediləcəkdir.

**Sual: Sual Kərimov cənablarınadır. Yadınızdadır, EKO-nun Aşqabatda keçirilmiş axırıncı zirvə toplantısında siz öz çıxışınızda aydınca bildirdiniz ki, əgər "əziz qardaşlar" və ya "qardaş" müraciəti real məzmuna uyğun deyildirsə, bir-birinə bu sözlərlə müraciət etməyə dəyməz. Bu gün bir növ əks proses gedir. Prezidentlər bəyannamə imzaladılar. Biz strateji tərəfdaşlığı bəyan etməsək də, imzalanmış bəyannamə həmin prinsipləri əslində təsdiqləyir. Odur ki, sizin fikrinizi bilmək istərdik: Siz Özbəkistan**

**ilə Azərbaycan arasında [175-176] münasibətləri necə səciyyələndirirsiniz? İkinci sual – Rusiya tərəfindən Ermənistana qanunsuz və təmənnasız silah göndərilməsi faktı barədə sizin rəyiniz? Çox sağ olun.**

**İslam Kərimov:** Siz çox maraqlı sual verdiniz və mən Aşqabatda dediklərimə bir daha qayıtmaq istərdim. EKO elə bir təşkilatdır ki, burada çoxlu miqdarda dövlət – tamamilə müxtəlif siyasi quruluşlara malik, nəinki siyasi quruluşlarının, həm də bütün dövlətçiliyinin, ümumiyyətlə, ictimai-siyasi quruluşlarının istiqaməti müxtəlif olan 10 dövlət birləşmişdir. Buna görə də təbiidir ki, istər daxili, istər xarici siyasət, istərsə də siyasi ideologiya ilə bağlı nə varsa hamısı hətta bəzi mövqelərdən müqayisə belə edilə bilməz. Lakin bununla yanaşı, məncə, EKO ən əvvəl ona görə işləyir ki, EKO çərçivəsində razılaşmalar xətti ilə açılan kommunikasiyalarda marağımız var. Əlbəttə, humanitar təmayüllü məsələlər də böyük əhəmiyyətə malikdir.

Buna görə də "qardaş" ifadəsindən sui-istifadə edib, bir-birinə ancaq bu şəkildə müraciət etdikdə qabaqcadan bilirsən ki, bu qardaşlıq münasibətlərindən heç əsər-əlamət yoxdur, ola da bilməz, çünki bunlar tamamilə müxtəlif cəmiyyətlərdir, müxtəlif adamlardır və müxtəlif məsləklərin nümayəndələridir, təkrar edirəm, siyasi, ideoloji baxımdan və hər hansı digər baxımdan. Odur ki, belə ifadə qardaşlıq münasibətləri anlayışmı qədir-qiymətdən salır. Buna görə də dedim ki, rəhbərlər, liderlər bir-birinə müraciət zamanı bu ifadəni işlətdikdə onun qədir-qiymətini bilməlidirlər.

O ki qaldı bizim münasibətlərimizə, "qardaş", "qardaşlıq" kəlmələrini ucuzlaşdırmamaq üçün bunu təntənəli surətdə bəyan etmirik. Ancaq mən qəlbimin dərinliyində qəti əminəm ki, Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq münasibətləri ola bilər. Bunun izahı çox sadədir. Bu – tarixi ümumilik, dilimizin, mədəniyyətimizin yaxınlığı, hətta yaxınlığı yox, bir çox mənada mədəni köklərimizin ümumiliyidir, biz danışarkən [176-177] bir-birimizi çox, bəlkə də 70 faiz başa düşürük. Ən başlıcası isə, bizim xalqlarımız yüzilliklər, ola bilsin, minilliklər ərzində birlikdə yaşamışlar. Bu ümumilik belə deməyə əsas verir ki, xalqlarımız arasında həqiqətən qardaşlıq münasibətləri yaratmaq üçün lazımi zəmin var. Özü də bu münasibətləri yaratmaq Heydər Əliyevin iradəsi, mənim iradəm deyildir, – baxmayaraq ki, iradədən, şübhəsiz, çox şey asılıdır, – bu, xalqlarımızın arzusudur. Ona görə də biz yalnız insanlarımızın, xalqlarımızın iradəsinin tələb etdiklərini reallaşdırırıq.

Yeri gəlmişkən, imzaladığımız sənəd barədə. Orada strateji əməkdaşlıq haqqında anlayış, tezis var. Sizə məlumat vermək istəyirəm ki, biz əməkdaşlığımızın dərinləşdirilməsi haqqında bəyannaməni imzalayarkən bildirmişik ki, dövlətlərimiz arasında məhz strateji əməkdaşlıq olacaqdır.

İkinci suala gəldikdə isə, buna bizim münasibətimiz, bilmək istəyirsinizsə, mənim münasibətim, şübhəsiz ki, mənfidir. Mən artıq qeyd etdim və bu iki anlayışı uzlaşdırmaq istəyirəm, Qarabağ problemi haqqında danışarkən mən dedim ki, bu problem, Qarabağ faciəsi məhz kənardan törədilmişdir. Bu qədər böyük miqdarda silah göndərilməsini, özü də buna hansısa qanuni don geyindirə biləcək heç bir dövlətlərarası müqavilələrlə, hansısa sənədlərlə qanuniləşdirilmədən, əksinə, əsla anlaşılmayan şəkildə silah göndərilməsinin arxasında kimlərin dayandığını indiyədək heç kəs bilmir. Onu da deyim ki, Rusiya mətbuatı daha bu barədə yazmır. Lazım gələndə Rusiya mətbuatı çox dərinə gedir, bəzən elə uydurmalar yaradır ki, bunlar ümumiyyətlə ağıla batmır. Amma bu məsələdə birdən-birə yazmağı, danışmağı dayandırdılar və ümumiyyətlə bu, heç kimi narahat etmir. Bəs bu, demokratik dövlət olan Rusiyanı nə üçün narahat etmir. Onu da deyim ki, demokratik dəyişikliklər məsələlərində Rusiya keçmiş sovet məkanındakı dövlətlərin çoxundan irəli getmişdir və biz onun demokratik ənənələrinə hörmətlə yanaşırıq. Ancaq başa düşmək olmur ki, demokratik [177-178] dövlətdə belə miqyasda və bu qədər sayda silah göndərilməsi necə təmin edilə bilib və demokratik dövlətin rəhbərliyi bundan xəbər tutmayıbdır. Başqa demokratik ölkə üçün bu, qalmaqallı hadisədir, onunla prokurorluq da, ictimaiyyət də məşğul olur. Şübhəsiz, bu məsələni nəhayət, axıra çatdırmaq lazımdır və biz bilməliyik ki, bunun arxasında kim durur və əslində bu nəyin naminə edilmişdir.

**Sual: İslam Abduqəniyeviç, mən sizə "Populyar" jurnalını təqdim etmək istəyirəm. Bu, Azərbaycanda üç dildə nəşr olunan beynəlxalq jurnaldır. Həmin nömrə bizim prezidentin axırıncı rəsmi səfərinə həsr olunub, bundan əlavə, materialların xeyli hissəsi prezidentimizin doğulduğu qədim Naxçıvan torpağından, Naxçıvan Muxtar Respublikasından bəhs edir.**

**Bundan əlavə, mənim iki sualım var. Siz dediniz ki, danışıqlar zamanı baza sahələri üzrə konkret birgə layihələr müzakirə edilmişdir. Əgər mümkündürsə, ən maraqlı** və **imzalanmaq və ya reallaşdırılmaq üçün daha çox hazır olan layihələri sadalayın. Bu, birinci sualımdır. İkinci sualım isə hər iki prezidentədir. Bu yaxınlarda MDB ərazisində yaradılmış ittifaqa – Rusiya və Belarusun ittifaqına münasibətiniz necədir və həmin ittifaqda bu və ya başqa dərəcədə iştirak etmək, yaxud bəlkə də, ona daxil olmaq barədə birliyin liderlərindən, o cümlədən Rusiya rəhbərliyindən sizə hansısa təkliflər edilibmi? Sağ olun.**

**İslam Kərimov:** Jurnala görə sağ olun. Baza sahələrinə dair birgə layihələr haqqında. Biz neft-qaz avadanlığının inkişafı və təmin edilməsi, qaz, neft sənayesinin mədən avadanlıqları ilə, bizim üçün baza sayılan qaz sahəsinin inkişafını təmin edən avadanlıqla – təchiz olunması məsələlərində Azərbaycanın potensialına bələdik və bu potensiala böyük hörmətlə yanaşırıq. Buna görə də bu fikirdəyəm ki, özümüzü qaz və neftlə təmin

etmək üçün böyük perspektivlərimi var. Yeri gəlmişkən deyim ki, biz artıq özümüzü neft və qazla tə[178-179]min edirik. Xarici sərmayələrin yerləşdirilməsinə dair böyük layihələrimiz var. Azərbaycanda olduğu kimi, biz də xarici sərmayələri bu sahələrin inkişafına cəlb etmək üçün son dərəcə əlverişli şərait yaratmışıq. İndi biz karbohidrogen xam-malı ilə nəinki özümüzü təmin edirik, onu hətta ixrac edirik.

Buna görə də mən bunu həmin sahələrin inkişafında, müştərək müəssisələr yaradılmasında və hətta deyərdim, bizim mədən və emal sahələri üçün neft-qaz avadanlığı buraxan Azərbaycan müəssisələri ilə əməkdaşlıqda son dərəcə perspektivli istiqamət sayıram. Bir daha deyirəm: çünki Azərbaycan bu istiqamətdə hələ XX əsrdən əvvəl işləməyə başlamış olan ölkə kimi bütün dünyada böyük nüfuza malikdir.

İkinci sahə isə kimya sahəsidir. Kimya sizdə inkişaf edib, bizdə də az inkişaf etməyib. Kimya hər şeydən əvvəl gübrə deməkdir. Biz fosfor və azot gübrələri buraxılması sahəsində işləyirik, kalium gübrəsi də istehsal etməyə başlamışıq. Bu sahələr Azərbaycanda da güclü inkişaf edib. Buna görə də şəraitin özü bizdən tələb edir ki, bu sahələrdə müştərək müəssisələr yaradaq.

Sonrakı sahə telekommunikasiyalarla bağlı məsələlərdir. Telekommunikasiyalar elə sahədir ki, onsuz tərəqqi etmək qeyri-mümkündür. Odur ki, istəsək də, istəməsək də, Transqafqaz dəhlizindən danışdıqda, bütövlükdə kommunikasiyalardan danışdıqda bilməliyik: telekommunikasiyalar olmadan biz bir-birimizlə ünsiyyəti, kommunikasiyalara aidiyyəti olan bütün digər sahələrin inkişafını, ümumiyyətlə, təmin edə bilmərik, telekommunikasiyalar bu sahədə birgə layihələrsiz təmin edilə bilməz.

Dördüncü sahə metallurgiya ilə bağlı məsələlərdir və Azərbaycan burada da yaxşı mövqelərə malikdir.

Sonra gəlir kənd təsərrüfatı. Bu il biz geniş miqyasda plyonka altında pambıq əkib-becərməyi sınaqdan çıxarmağa başlamışıq. Bunun nəticələri olduqca heyrətamizdir. Hər hek[179-180]tardan təxminən 10-15 sentner artıq pambıq götürmək olur, pambıq bitkisinin yetişməsi, vegetasiyası prosesi bir ay sürətlənir, maya dəyəri aşağı düşür, bir çox ağır əməliyyatlar azalır. Pambıq əkib-becərənlər bunun necə bir bitki olduğunu və onun üzərində nə qədər çalışmaq lazım gəldiyini yaxşı bilirlər. Biz bu sahədə də Azərbaycanla işləyə, sizdən plyonka ala bilərik – sizdə bu sahə inkişaf etmişdir. İndi biz də ölkəmizdə plyonka buraxmaq üçün kimya sahəsini inkişaf etdirməyə çalışırıq. Lakin sizdən plyonka almağı və plyonka altında pambıq əkib-becərməkdə sizinlə birlikdə işləməyi perspektivli sayırıq.

Mən bu mövzunu davam etdirə də bilərəm. Məsələn, götürək şərabçılığı. Azərbaycan şərabı, əlbəttə, yaxşı şərabdır, amma özbək şərabı da pis deyildir. Azərbaycan konyakı yaxşı konyakdır, amma özbək konyakı da pis deyildir. Buna görə də bu baxımdan biz şərablarımızın keyfiyyətini daha da yaxşılaşdırmaq və onların dünya bazarına çıxarılmasını təmin etmək üzərində əlbir işləməliyik. Digər sahələri də sadalamaq olar. Lakin başqaları da sual verərək istədiyi üçün mən bununla kifayətlənirəm.

O ki qaldı ikinci sualınıza, mən bəri başdan çalışacağam Rusiya ilə Belarus arasında yaranmış müqavilə və ya ittifaq haqqında suala cavab verim. Əvvəla, əvvəlcədən bəyan etmək istərdim ki, bu, Rusiyanın və Belarusun daxili işidir. Yəni, onlar ittifaq yaratmaq istəyirlərsə, xeyirli olsun, qoy ittifaq yaratsınlar. Yeri gəlmişkən, Belarus və Rusiya ittifaqının sonuncu parlament iclası – Rusiya Dövlət Duması rəhbərinin və Belarus parlamentinin özünün rəhbərlərinin və cənab Lukaşenkonun iştirakı ilə keçirilmiş iclası, onun oradakı alovlu nitqi və Sovet İttifaqının himnini yenidən qaytanb Belarus və Rusiya İttifaqının himni etmək barədə qəbul edilən hər şey göstərir ki, bu ittifaqın yönümü barədə şərhə ehtiyac yoxdur. Mənim də şərh etməyimə ehtiyac yoxdur ki, bu ittifaq nə üçün və [180-181] nəyin naminə yaradılır. İttifaq guya Belarus və Rusiya üçün yaradılır, əslində isə MDB-nin qalan üzvlərinin hamısını sabah zorla oraya sürükləyəcəklər. Belarusun, Lukaşenkonun maraqlı olduğu bu ittifaq ondan ötrüdür ki, Soçidə dərhal etdiyi kimi, kreditlər istəsin, Rusiya rəhbərliyindən daha nə isə istəsin, – bu bir daha onu göstərir ki, həmin ittifaq nəyin naminədir, o, Belarusa nədən ötrü lazımdır və Rusiyaya nədən ötrü lazımdır. Rusiyaya ondan ötrü lazımdır ki, MDB-nin qalan bütün dövlətlərini, yumşaq desək, sonradan bu ittifaqa cəlb etsin, bununla nümunə yaratsın. Onun bazasında da Dövlət Duması rəhbərlərinin çoxunun xiffətini çəkdikləri SSRİ-yə bənzər qurum yenidən yaradılacaqdır.

Onu da deyim ki, bu ittifaqı belə ürəkdən dəstəkləyən bəzi rəhbərlərin bəyanatlarını ümumiyyətlə başa düşmürəm. Cənab Lukaşenko açıq bildirmişdir ki, – mən onun dediklərini televiziyada dəfələrlə eşitmişəm, – o, həmin ittifaqı, böyük SSRİ dövlətini itirməkdən son dərəcə təəssüflənir. Təkrar edirəm, o, bu ittifaqı bərpa etməyi və yol verilmiş, o cümlədən də Belarusun ali rəhbərlərinin yol verdikləri həmin səhvi düzəltməyi həyatının məqsədi kimi qarşısına qoyur. Ona görə bunun da şərhə ehtiyacı yoxdur. Biz bu ittifaqa getməyəcəyik, çünki keçmiş SSRİ barəsində heç bir xiffət çəkmirik. Biz hesab edirik ki, SSRİ özünün yalnız imperiya vəzifələrinin həlli ilə məşğul olan imperiya idi. Özbəkistan həmin bu imperiyaya qayıtmağın heç cür həsrətində deyil. Ona görə də bizim rəyimiz birmənalıdır – bu, Rusiyanın və Belarusun daxili işidir. Əgər bu ittifaq onların xoşuna gəlirsə, qoy onlar bunu inkişaf etdirsinlər və möhkəmləndirsinlər.

Ancaq məni bir şey narahat edir, hər dəfə deyirlər ki, bu ittifaqın qapıları açıqdır. Üstəlik, dünən televizorda eşitdim, Heydər Əliyeviç, deyirlər ki, mətni hazırlayanda, – keçmiş Sovet İttifaqı himninin mətni üçün müsabiqə elan olunub, – keçmiş SSRİ-nin himninin mətninə nəbadə Belarus və Rusiya [181-182] sözləri daxil edilsin. Nə üçün? Ona görə ki, əgər daha kim isə daxil olacaqsa, o, özünü narahat hiss etməsin. Başqa sözlə, gələcək ittifaqın himnini yaradarkən onlar indidən bilirlər və ya düşünürlər, ümid edirlər, inanırlar ki, ona

daha kimsə, bir neçə dövlət daxil olacaq və əgər həmin himnin sözlərində yalnız iki dövlətin – Belarus və Rusiyanın adları çəkilsə, digərləri özlərini pis hiss edəcəklər. Mən hesab edirəm ki, Özbəkistan heç vaxt bu ittifaqda olmayacaq, buna qəti əminəm. Azərbaycanı isə bilmirəm, zənnimcə, bu barədə Heydər Əliyev özü deyəcəkdir.

**Heydər Əliyev:** Mən demək istəyirəm ki, – bu gün biz, İslam Abduqəniyeviç də, mən də bildirdik ki, biz bütün məsələlərdə baxışların, mövqelərin uyğun olduğunu müəyyən etdik. Buna görə də demək istəyirəm ki, bu məsələdə də mövqelərimiz, baxışlarımız – mən Özbəkistan prezidentini və Azərbaycan prezidentini nəzərdə tuturam, – tamamilə uyğun gəldi. Odur ki, vaxtınızı almaq istəmirəm, onu demək istəyirəm: mən İslam Abduqəniyeviçin dediklərinin hamısı ilə razıyam. Lakin əlavə edim ki, əlbəttə, ittifaq bağlamaq məsələsi Rusiya ilə Belarusun öz işidir. Azad, suveren olan hər respublika, hər bir dövlət istənilən dövlət ilə ittifaq bağlaya bilər. Bu gün biz də tərəfdaşlıq haqqında, tərəfdaşlıq əməkdaşlığı haqqında bəyannamə imzaladıq. Bu, bizim öz işimizdir. O da onların öz işi. Bir sözlə, biz bildirdik ki, başqa dövlətlərin işlərinə qarışmırıq. Mən də belə hesab edirəm ki, bu işə qarışmaq lazım deyildir.

Bununla belə, demək istəyirəm ki, onlar tamamilə perspektivsiz, faydasız bir işlə məşğul olur, vaxtı hədər yerə itirirlər. İnanmıram ki, kimsə bu ittifaqa qoşulsun. Mən onların yaratmağa can atdıqları ittifaqı nəzərdə tuturam – onların Belarusda ruh yüksəkliyi ilə oxuduqları Sovet İttifaqı, yoxsa himndə oxunduğu kimi, dövlətlərin sarsılmaz ittifaqı. İslam Abduqəniyeviç dedi ki, bu cür ittifaqa Özbəkistan heç vaxt daxil ol[182-183]mayacaq, mən də sizə açıq şəkildə bəyan edirəm ki, Azərbaycan da daxil olmayacaqdır. Azərbaycan öz suverenliyini çox əziz tutur, hər hansı bu cür ittifaqın bağlanması və ya onların qapılarını açıq qoyduqları elə ittifaqa daxil olması Azərbaycanın suverenliyinə və dövlət müstəqilliyinə ziyan vurmaq deməkdir. Biz heç vaxt bununla razılaşmayacaq və buna getməyəcəyik.

Bilirsinizmi, özünü ciddi şəxs bilənlər ümumiyyətlə ciddi məsələlər barəsində düşünüb daşınmalıdırlar. Bu isə əsla ciddi bir məsələ deyildir. 70 ildən artıq bir dövrdə mövcud olmuş Sovetlər Birliyi öz-özünə dağılıb yoxa çıxdı. Dünyada bütün imperiyalar müharibələr nəticəsində süquta uğramışdır. Sovetlər Birliyi isə yeganə imperiya idi ki, öz-özünə dağılıb getmişdir. Əgər Sovetlər Birliyi öz-özünə dağılmışdırsa, onu indi necə bərpa etmək olar, üstəlik, Sovetlər Birliyinin süqutundan sonra ağlasığmaz dərəcədə çoxlu səhvlər, xətalar, cinayətlər aşkara çıxarılmışdır ki, onların da hamısı bu ittifaq daxilində törədilmişdir. Biz Azərbaycanda xalqımıza qarşı törədilmiş olan cinayətlərə məruz qaldıq. Elə götürün 1990-cı ilin Yanvar faciəsini. O vaxt Bakıya sovet qoşunlarının iri kontingenti yeridildi, xalqı tırtıllar altında əzdilər, Azərbaycan paytaxtı qana bulandı, Azərbaycan xalqının milli mənliyini tapdalamağa can atdılar – bütün bunlar cinayət idi. Odur ki, bu ittifaqı bərpa etmək istəyənlər qoy əvvəlcə bu cinayətlərə görə cavab versin, günahlarmı yusunlar, ondan sonra danışığa başlasınlar.

Müxtəsəri, mən bunu perspektivsiz, gələcəyi olmayan bir iş sanıram və bu, zənnimcə, Belarus və Rusiyadan savayı başqa heç kimə heç bir fayda verməz. Qapılar açıq olaraq qalacaqdır, bu qapılardan keçənlər isə az olacaqdır.

**Sual: Mənim sualım hər iki prezidentədir: Siz təkbətək görüş zamanı Əfqanıstan problemini müzakirə etdinizmi? İslam Abduqəniyeviç, xahiş edirəm, Əfqanıstanla sərhədi qorumaq məqsədi ilə Rusiya sərhəd qoşunlarını [183-184] buraya yeritməyi nəzərdə tutan Özbəkistan-Rusiya sazişini şərh edəsiniz.**

**İslam Kərimov:** Yaxşı ki, siz bu sualı verdiniz. Heydər Əliyeviç ilə biz ümumən ərazilərimizin sərhədlərinin sabitliyi və təhlükəsizliyinin təmin olunması məsələlərini. o cümlədən, əlbəttə ki, Əfqanıstanda hərbi, silahlı qarşıdurma hadisələrinin uzanması məsələsini, – bu, bütünlükdə dövlətlərimizin, yəni Əfqanıstanla sərhəddə yerləşən dövlətlərin ərazi bütövlüyü və təhlükəsizliyi üçün birbaşa təhlükədir, – müzakirə etmişik.

O ki qaldı sizin dediyiniz sazişə, heç bir belə saziş yoxdur. Yeri gəlmişkən, dünən, ya da srağagün Rusiya televiziyası ilə kimsə bəyanat verdi ki, guya Rusiya ilə Özbəkistanın sərhəd qoşunları, sərhəd qüvvələri arasında saziş var. Bəli, belə saziş var, ilk növbədə Əfqanıstanla sərhəddə lazımi əlaqələr yaratmaq baxımından Rusiya və Özbəkistanın sərhəd qüvvələri arasında qarşılıqlı əlaqə haqqında saziş var. Tacikistanda Rusiyanın sərhəd qoşunları, Türkmənistanda Rusiyanın sərhədçiləri var, siz bunu yaxşı bilirsiniz. Ancaq Özbəkistanda Rusiyanın sərhəd qoşunları yoxdur və olmayacaqdır. Ona görə də mən istərdim ki, Rusiyanın burada iştirak edən bütün informasiya mərkəzləri və ya müxbirləri bunu hökmən haradasa yazsınlar və süni şəkildə həmin məsələni yaradanların nəzərinə çatdırsınlar. Bəlkə də bu, şayiə üçün lazımdır, bu yalan informasiyanı kiməsə çatdırmaq lazımdır, lakin zənnimcə, yaxşı ki, siz bu sualı verdiniz və mən ilk mənbə kimi ona cavab verirəm: qoşunlar olmayıb və olmayacaqdır. Amma Özbəkistanın sərhəd qoşunları ilə Rusiyanın sərhəd qoşunları arasında qarşılıqlı əlaqə olacaqdır.

Ona görə də Rusiya sərhəd qoşunlarının komandanı Nikolayev ilə bizim sərhəd qoşunlarının komandanı arasında qarşılıqlı əlaqə haqqında belə müqavilə imzalanmışdır. Lakin sərhəddə Rusiya qoşunları olmayacaqdır. Biz sərhədimizin Əfqa[184-185]nıstanla olan hissəsini özümüz qorumağa qadirik və qoruyuruq. Ancaq suverenlik haqqında danışsaq, – hər bir dövlət öz suverenliyi haqqında pafosla danışır, – mənim inamım belədir: əgər sən öz sərhədlərini qoruya bilmirsənsə, onda hansı suverenlikdən söhbət gedə bilər? Əgər biz müstəqil,

suveren dövlətiksə, sərhədlərimizi özümüz qorumalıyıq. Yenə təkrar edirəm, bu, suverenliyin və özünü suveren sayan hər bir dövlətin yeritdiyi müstəqil siyasətin şərtlərindən biridir.

**Heydər Əliyev:** Görünür, mənim cavab verməyim üçün bir şey qalmadı. Mən İslam Abduqəniyeviçin dediklərinin hamısı ilə razıyam.

**Sual: Müzakirə üçün hazırlanmış sənədlər arasında 1992-1994-cü illər üçün borcların və tələblərin tənzimlənməsi haqqında hökumətlərarası və banklararası saziş var idi. Onun taleyi necədir və kim kimə borcludur? İcazənizlə cənab Əliyevə sualım var: neftin Rusiya ərazisi vasitəsilə nəqli haqqında müqavilə barədə fikriniz necədir? Çeçenistan bu müqavilədə onu imzalayan tərəflərdən biri kimi iştirak etməlidirmi? Sağ olun.**

**İslam Kərimov:** 1992-ci ildən 1993-cü ilədək olan borclar üzrə banklar arasındakı münasibətlərimizə və banklararası hesablamalara gəldikdə, indicə mənə məlumat verdilər ki, bu məsələlər əməli səviyyədə nəzərdən keçirilmişdir. Ümumi razılaşma var, yəni, bütün rəqəmlər ixrac səviyyəsində, müvafiq banklar səviyyəsində razılaşdırılmışdır və heç bir fikir ayrılığı yoxdur. İndi biz bu məsələni Heydər Əliyeviç ilə danışacaq və onun iradəsi, siyasi iradəsi həmin müqavilənin imzalanması üçün siqnal, yaxud təkan verəcəkdir.

**Heydər Əliyev:** O ki qaldı mənə verilmiş suala, bilirsinizmi, biz Azərbaycandan, Xəzər dənizindən Qara dənizin Novorossiysk limanına neft vurulması və neft kəməri çəkilməsi haqqında Rusiya ilə Azərbaycan arasında 1996-cı ilin yanvarında Moskvada saziş imzaladıq. Bu neft kəməri bizim əra[185-186]zimizdə, – mən Azərbaycan ərazisini nəzərdə tuturam, — inşa edilmişdir, Rusiya ərazisində isə var idi, orada onun bərpası işlərini görmək lazım idi. Çeçenistan hadisələri ilə əlaqədar bütün bu işlər yubadıldı. Bu yaxınlarda Rusiya ilə Çeçenistan arasında danışıqlar aparıldı, Məshədovun da, Rusiya nümayəndələrinin də görüşləri oldu, məncə, baş nazir Çernomırdin və Çeçenistan öz aralarında müəyyən sənədlər imzalamışlar. Bunlar onların öz işləridir. Biz isə Rusiya ilə Azərbaycanın imzaladıqları sənəd əsasında iş görəcəyik.

**Sual: Mənim sualım Kərimov cənablarınadır. Beş il bundan əvvəl siz azadlıq və demokratiya istəyən xalqa, məncə, bəyan etmişdiniz ki, beş ildən sonra mən sizə demokratiya verəcəyəm. Sizin bu gün burada dedikləriniz bunu təsdiqləyir. Siz buna necə nail oldunuz?**

**İslam Kərimov:** Bilirsinizmi, mən başa düşürəm, jurnalistlər bəzi ifadələri öz bildikləri kimi yozurlar, buna görə də siz deyəndə ki, beş il bundan əvvəl mən azadlıq, daha bilmirəm nə verməyi vəd etmişdim, sizi başa düşməyə hazıram. Mən heç vaxt heç kimin əl-qolunu bağlamamışam, buna görə də bu məsələ islahatların – hər bir ölkənin özünün seçdiyi siyasi, demokratik, iqtisadi islahatların modelinin seçilməsi ilə bağlıdır. Biz öz cəmiyyətimizi yenidən qurmaq üçün əzəl başdan öz modelimizi, demokratik islahatlar və bazar islahatları modelini seçdik və bizim bu modelimizin mahiyyəti onları mərhələ-mərhələ həyata keçirməkdən ibarətdir. Bizim beş prinsipimiz var və islahatlarımızın əsasını təşkil edən bu beş prinsip arasında başlıcası islahatları mərhələ-mərhələ aparmaqla bağlıdır. İslahatlar mərhələ-mərhələ həyata keçirilməlidir. Onu nəzərdə tuturam ki, biz iqtisadiyyatda şok terapiyasının əleyhinəyik, dəyişikliklərin qarmaqarışıq xarakter almasının qəti əleyhinəyik. Biz dövlətimizin ardıcıllıqla, mərhələ-mərhələ, o cümlədən də siyasi cəhətdən yenidən qurulmasının tərəfdarıyıq. [186-187]

Nə vaxtsa, 1990-92-ci illərdə hamı ağız-ağıza verib Özbəkistanı tənqid edirdi, onu da, məni də postkommunist nomenklaturası rolunda qələmə verirdi. Buna görə də mən bütün kütləvi informasiya vasitələrində, xüsusən Rusiya mətbuatında və başqa mətbuatda avtoritar rəhbər təsiri bağışlayırdım. Amma həyatın özünün indi, 1997-ci ildə göstərdiyi kimi, cəmiyyətin mərhələ-mərhələ yenidən qurulması, o cümlədən də demokratiya, siyasət sahəsində islahatlar Özbəkistan şəraitində əsaslandırılmışdır. Mən bilmirəm, başqa ölkələrdə necədir. Amma ümid edirəm ki, başqa ölkələrdə də vəziyyət elə bu cürdür. Bu, yol özü-özünü doğrultmuşdur. Yəni burada sizin soruşduğunuz heç bir sirr yoxdur. Yeganə sirr ondadır ki, biz özümüzü demokrat elan etməklə heç də demokrat olmuruq. Demokratiya hər şeydən əvvəl bundan ibarətdir ki, demokratiyaya hər bir insanın və hər bir cəmiyyətin şüurunda əzab-əziyyətlər hesabına gəlib çıxırlar. Başqa sözlə desək, elə-belə, elan etməklə demokrat olmurlar.

Ona görə də biz normal qanunvericilik şəraiti, bazası yaratmışıq, necə deyərlər, institusional dəyişikliklər yaratmışıq və bu zaman özümüzdən heç nə kəşf etməmişik. Biz bu dəyişikliklərin çətin yolunu keçmiş başqa dövlətlərin, ilk növbədə Avropa dövlətlərinin təcrübəsini götürmüşük, ancaq Yaponiya modeli, Koreya modeli, hazırda beynəlxalq aləmdə yaxşı tanınan digər Asiya dövlətlərinin modelləri də istisna olunmur. Ən başlıcası isə, biz xalqımızın ənənələrini, təcrübəsini, mentalitetini nəzərə almışıq. Bu baxımdan hazırda bizim çalışdığımız və bir çox hallarda nail olduğumuz məhz iki tərkib hissənin sintezi – həmin yolu keçmiş dövlətlərin təcrübəsi və biganə qalmağa ixtiyarımız olmayan ənənələrimiz, mentalitetimizdir. Ulu əcdadlarımızdan qalmış minillik mədəniyyətə, böyük ənənələrə biganə qalmağa bizim ixtiyarımız yoxdur və nəzərə almalıyıq ki, hər bir dövlət, Heydər Əliyeviçin bu gün dediyi [187-188] kimi, öz gələcəyini öz əli ilə və ilk növbədə öz xalqının mənafeyini və xüsusiyyətlərini nəzərə almaqla qurur.

Sizin başa düşməyə çalışdığınız həmin sirr məhz bundan ibarətdir. Bəli, indi bizdə lazım olan bütün qanunvericilik əsasları, bazası, bünövrəsi yaradılmışdır. Bəli, bizdə institusional dəyişikliklər işə düşmüşdür, biz bir çox demokratik təsisatlar, o cümlədən insan hüquqları üzrə milli dövlət institutu kimi təsisat da yaratmışıq.

Bizdə bir neçə başqa qeyri-dövlət, qeyri-hökumət orqanları da var, bunlarda hüquq müdafiə strukturları, bu işlə məşğul olan adamlar işləyirlər. Monitorinq institutu yaradılmışdır, hazırda ictimai rəyi öyrənən institut, mətbuat, nəşriyyat sahəsində qeyri-hökumət strukturları yaradılır. Mətbuatımızın həqiqətən demokratik mətbuat olması üçün çox iş görülmüşdür. Lakin qarşıya qoyduğumuz ideala çatmaq üçün, görünür, bu, hələ azdır. Demokratiya üçün tamamilə zəruri şərt, ümumi şərt olan nə varsa, hamısı reallaşdırılır.

Amma bir daha bildirmək istəyirəm, kim deyirsə ki, totalitar sistemdən, ideologiyalaşdırılmış sistemdən sonra dərhal bir-iki il ərzində demokratik cəmiyyət yaratmışlar, zənnimcə, bu, bəyanatdan başqa bir şey deyildir. Təkrar edirəm, demokratik cəmiyyəti insanlar özləri, həm də yuxarıdan deyil, aşağıdan yaradırlar. Prezidentin imzaladığı hər hansı qanun və ya sənəd vasitəsilə demokratik prinsipləri reallaşdırmaq mümkün olsaydı, əmin olun ki, indi bütün dövlətlərdə çoxdan demokratik quruluşlar yaradılardı. Təəssüf ki, bu proses çox əzablıdır və o, aşağıdan gedir. Biz fəxr edirik ki, cəmiyyətimiz, insanlarımız Özbəkistanda baş verən dəyişiklikləri dəstəkləyirlər.

Əgər məndən xəbər alsaydılar ki, bu altı il ərzində, – tezliklə müstəqilliyimizin altı ili tamam olacaq, – nəyə nail olmusunuz, belə cavab verərdim: ən böyük qazancımız odur ki, insanların mentaliteti, təfəkkürü dəyişir, insanlarımızın şüurunda demokratik dəyərlər getdikcə daha çox həkk olunur. [188-189] Əgər məndən soruşsalar ki, indi ən çox nəyi qiymətləndirirəm. Özbəkistanda nəyə nail olunmuşdur, belə cavab verərdim: sülh və sabitlik, cəmiyyətimizdəki vətəndaş həmrəyliyi və millətlərarası həmrəylik. Bir də ən başlıcası odur ki, bazar islahatları sahəsində həyata keçirdiyimiz tədbirlər cəmiyyətin qütbləşməsinə, cəmiyyətin qarşıdurmasına gətirib çıxarmasın.

İndi xalqımızın mütləq əksəriyyəti keçirdiyimiz islahatları dəstəkləyir. Bu, bazar islahatlarının reallaşdırılması sahəsindəki ən böyük uğurlarımızdan biridir. Mən bu gün Heydər Əliyeviçin verdiyi belə bir məlumatı böyük məmnunluqla dinlədim ki, sizdə əmək haqqı vaxtında ödənilir, əhalinin sosial müdafiəsi ilə bağlı bütün məsələlər yerinə yetirilir. Mənim fikrimcə, keçmiş sovet məkanında gördüyümüz hər şey, bəzi dövlətlərdə aparılan islahatlar gözdən düşmüşdür, cəmiyyətin qütbləşməsinə, qarşıdurmasına səbəb olub və hələ məlum deyil ki, bu dəyişikliklərin məqsədi olan sabitlik nə vaxt yaranacaqdır.

Mən əminəm ki, biz düzgün yoldayıq. Təkcə mən yox, indi Dünya Birliyi də etiraf edir ki, Özbəkistan düzgün yolla gedir. Ölkəmizdə həyata keçirilən demokratik dəyişikliklər, bazar islahatları indi beynəlxalq miqyasda da qəbul edilir. Sağ olun. [189-190]

## ÖZBƏKİSTAN PREZİDENTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*18 iyun 1997-ci il*

Çox hörmətli Özbəkistan prezidenti İslam Kərimov!

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən sizə və sizin simanızda qardaş özbək xalqına Azərbaycan xalqının, Azərbaycan Respublikasının bütün vətəndaşlarının səmimi salamını və ən xoş arzularını çatdırıram. Mən bu gün burada, Özbəkistanda rəsmi səfərdə olmağımdan, səmimilik, dostluq, qonaqpərvərlik və böyük ehtiram şəraitində olmağımdan məmnunam. İslam Abduqəniyeviç, Özbəkistana rəsmi səfərə gəlməyə dəvət etdiyiniz üçün sizə ürəkdən təşəkkür edirəm və ümidvaram ki, bizim birgə işimiz və imzaladığımız sənədlər əməkdaşlığımızı genişləndirəcək, xalqlarımız, ölkələrimiz və dövlətlərimiz arasında dostluğu möhkəmləndirəcəkdir.

Keçən ilin mayında Özbəkistan prezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfəri olmuşdur. Bu, Özbəkistan və Azərbaycan müstəqillik əldə etdikdən sonra Özbəkistan prezidentinin Azərbaycana ilk səfəri idi və Azərbaycanın həyatında, Özbəkistan-Azərbaycan münasibətlərində böyük hadisəyə çevrildi. Bu səfərin əhəmiyyəti onda idi ki, əvvəlki illərdə Azərbaycanın ayrı-ayrı rəhbərlərinin təqsiri üzündən Özbəkistan ilə Azərbaycan arasında yaradılmış mürəkkəblikləri və çətinlikləri aradan qaldırdıq, müstəqil dövlətlərimiz arasında [190-191] diplomatik əlaqələr qurduq və İslam Abduqəniyeviçin səfəri zamanı ikitərəfli münasibətlərimizə dair bir çox məsələləri müzakirə etdik, çox mühüm sənədlər imzaladıq.

Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında martın 27-də Azərbaycanda, Bakıda Özbəkistan prezidenti və Azərbaycan prezidenti tərəfindən imzalanmış birinci sənəd – əsas sənəd münasibətlərimizin artıq yeni, tamamilə digər şəraitdə başlanğıc nöqtəsi oldu.

Həmin vaxtdan etibarən ölkələrimiz arasında intensiv əlaqələr yaranmağa başlamışdır. Bu gün deyə bilərik ki, müəyyən uğurlar əldə edilib və ən mühümü odur ki, biz birlikdə Transqafqaz dəhlizi yaratmışıq. O, Mərkəzi Asiyanı, Qafqazı və Avropanı çox etibarlı magistralla birləşdirir, artıq indi iqtisadi münasibətlərimizdə mühüm rol oynayır və şübhəsiz ki, kommunikasiyaları necə yaratmağın və onlardan nə cür səmərəli istifadə etməyin mümkün olmasına nümunədir.

Söhbətlərimizin və danışıqlarımızın nəticəsində bu gün biz vacib sənədlər imzaladıq. Onlardan ən mühümü prezidentlər tərəfindən imzalanmış sənəd – Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək haqqında bəyannamədir. Bu əməkdaşlıq strateji əhəmiyyəti olan münasibətlərimizin tərəfdaşlıq xarakterini müəyyənləşdirir. Burada və Bakıda, Azərbaycanda indi hökumətlərarası, dövlətlərarası üst-üstə qırxadək mühüm sənəd imzalanmışdır, bunlar gələcək işimiz üçün yaxşı normativ-hüquqi bazadır və təbii ki, əməkdaşlığımızı daha uğurla inkişaf etdirmək üçün yaxşı əsasdır.

Sizi əmin etmək istəyirəm ki, razılığa gəldiyimiz nə varsa, onların hamısının və imzaladığımız sənədlərin vaxtında həyata keçirilməsi üçün biz öz tərəfimizdən hər şeyi edəcəyik.

Biz Özbəkistanla Azərbaycanın münasibətlərini Azərbaycan üçün çox vacib amil kimi qiymətləndiririk. Xalqlarımız zəngin və qədim tarixə malikdirlər. Bəşər tarixinin əsrləri ərzində öz[191-192]bək və Azərbaycan xalqları dünya sivilizasiyasına, Şərq sivilizasiyasına nəhəng töhfələr vermişlər. Orta əsrlərdə və daha əvvəllər Şərqdə insan zəkası ilə elmdə yaradılanların hamısı bütün planetdə bəşər fikrinin inkişafında olduqca böyük rol oynamışdır. Özbəkistan və Azərbaycan, özbək və Azərbaycan xalqları bəşəriyyətə çox böyük töhfə vermişlər.

Biz xalqlarımıza mənsub olan və bizim üçün eyni dərəcədə qiymətli və əziz olan Şərqin görkəmli mütəfəkkirləri ilə fəxr edə bilərik. Bu sübut edir ki, biz ümumi köklərə bağlıyıq, eyni tarixi köklərə mənsubuq və xalqlarımızın din birliyi, mənəvi, əxlaqi, mədəni dəyərlərinin birliyi xalqlarımızı həmişə birləşdirmiş və dostluq şəraiti, qarşılıqlı yardım şəraiti yaratmışdır. Biz "Dədə Qorqud", "Alpamış", "Koroğlu" dastanlarından iftixar hissi ilə danışırıq. Onlar həm özbək xalqı üçün, həm də Azərbaycan xalqı üçün eyni dərəcədə dəyərlidir. Nizami Gəncəvi də, Əlişir Nəvai də bizim üçün doğmadır və bizdə həmişə olduqca böyük iftixar hissi doğurur, böyük əcdadlarımız o uzaq zamanlarda elə misilsiz əsərlər yaratmışlar ki, bu əsərlər dünya mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdirmişdir.

Bəli, İslam Abduqəniyeviç belə deməkdə həqiqətən haqlıdır ki, Füzuli bizim ümumi dəyərimiz, ümumi sərvətimizdir. Buna görə də təsadüfi deyil ki, ötən il Məhəmməd Füzulinin 500 illiyi Özbəkistanda da, Azərbaycanda da, digər türkdilli ölkələrdə də təntənə ilə qeyd edildi. Bu yubiley YUNESKO çərçivəsində beynəlxalq miqyasda qeyd olundu. Biz olduqca şad idik ki, Bakıda yubiley şənliklərində Özbəkistan parlamentinin sədri Xəlilov cənabları başda olmaqla Özbəkistanın mötəbər nümayəndə heyəti də iştirak etdi.

Biz keçən ilin oktyabrında görkəmli dövlət xadimi, özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyinə həsr olunmuş yubiley şənliklərinə əcdadlarımıza, qaynaqlarımıza, köklərimizə məhz belə dərin hörmət-izzət hissi ilə gəlmişdik. Xatirim[192-193]dədir, biz Səmərqəndə getdik, möhtəşəm memarlıq abidələri ilə, dünya

şöhrətli Registan, Əmiri Gur və özbək xalqının dühaları tərəfindən, onların əlləri ilə yaradılmış və indiki nəslə və gələcək nəsillərə yadigar saxlamış bütün kompleksla tanış olduq.

Yadımdadır, tələbəlik illərində biz qədim memarlıq tarixini öyrənirdik və bu dərslikdə Özbəkistanın, Səmərqəndin memarlıq abidələri kompleksinə, o cümlədən Registan və Əmiri Gur komplekslərinə çox mühüm yer verilirdi. Tariximizdə xalqlarımızın dühası ilə çox belə görkəmli əsərlər yaradılmışdır. Bu da Özbəkistanın və Azərbaycanın dövlət müstəqilliyi şəraitində yeni münasibətlərimizin əsasıdır. Biz keçmişdə olanların, yaradılanların hamısını yüksək qiymətləndiririk, bunlar sərvətimizdir, olduqca böyük nailiyyətimizdir. Lakin özbək xalqının və Azərbaycan xalqının bu illərdə, XX əsrin axırlarında əldə etdiklərinin – dövlət müstəqilliyinin, milli azadlığın çox böyük əhəmiyyəti var. Onlar bu müstəqilliyi, bu azadlığı biz azad olmadığımız, öz dövlətimizə malik olmadığımız, müxtəlif imperiyaların, müxtəlif ittifaqların tərkibinə daxil olduğumuz çox-çox illərdən, onilliklərdən və yüzilliklərdən sonra əldə etmişlər. İstər Özbəkistanda, istərsə də Azərbaycanda dövlət müstəqilliyi əldə edilməsi prosesi çətin, keşməkeşli şəraitdə gedirdi. Lakin biz onların hamısını dəf etdik. Biz artıq müstəqil həyat yoluna, müstəqillik yoluna çıxmışıq.

İndi məhz bunu xatırlamağa lüzum var ki, o illərdə, Sovet İttifaqının tərkibinə daxil olmuş xalqların, o cümlədən Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtlarda son dərəcə çox əngəllər törədilirdi. 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması da nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazisini ələ keçirməyə can atan şəxslərin əməlləri idi, həm də böyük bir siyasətin – artıq baş vermiş müsbət proseslərə maneçilik törət[193-194]məyə yönəldilmiş siyasətin bir hissəsi idi. Özbəkistana qarşı da belə hallar olmuşdur.

Bu gün İslam Abduqaniyeviç Fərqanə hadisələrini, Oş hadisələrini, Uzen hadisələrini xatırladı. Bunlar faciəli hadisələr idi. Allaha şükür ki, siz onların qarşısını ala bildiniz. Həmin hadisələr də başlanmış prosesi yubatmaq məqsədilə törədilmişdi. Mən bundan əvvəlki illəri, Sovet İttifaqının tərkibində olduğumuz illəri də xatırlayıram. O illərdə – 80-ci illərin ortalarında biz ayrı-seçkiliyə məruz qalırdıq. Mən həm Azərbaycanı, həm Özbəkistanı, həm də Orta və Mərkəzi Asiyanın bəzi digər respublikalarını nəzərdə tuturam. Təxminən 1983-1984-cü illərdən özbək xalqına qarşı ədalətsiz, vicdansız, əslində psixoloji, ideoloji təcavüzə başlanması da mənim dediklərimə sübutdur.

O vaxtlar biz Özbəkistana görə, bu gözəl respublikaya, bu gözəl və əməksevər xalqa görə təşviş keçirirdik. Belə ki, burada olan hər yaxşı şeyi gözdən, nüfuzdan salmağa çalışırdılar, elə bir rəy yaratmağa çalışırdılar ki, guya Özbəkistanda qanunsuzluq, korrupsiya, ən neqativ hallar hökm sürür, guya Sovet İttifaqının bütün qüsurları və eybəcərlikləri burada, Özbəkistanda cəmləşmişdir.

Bu cür cəhd Azərbaycan barəsində də olmuşdur. Belə tədbirlər görülürdü. Bəlkə də onlar bu cür vüsət, bu cür miqyas almamışdı, amma olmuşdu. Məhz bütün bunlar tarixin kədərli dərslərinə və bir də buna dəlalət edir ki, o illərdə biz öz müstəqilliyimizə doğru, öz azadlığımıza doğru necə bir şəraitdə gedirdik. Allaha şükür ki, bütün bunlar ötüb keçmişdir. Allaha şükür ki, Özbəkistan və Azərbaycan müstəqil dövlətlər olmuşlar və Allaha şükür ki, indi biz bərabərhüquqlu əsasda görüşə bilirik, özümüz öz taleyimizin sahibiyik, öz məsələlərimizi özümüz həll edirik, bütün dövlətlərlə öz münasibətlərimizi özümüz qururuq.

Buna görə də keçmişlərdə xalqlarımız arasında mövcud olmuş bütün gözəl hallardan fərqli olaraq, Özbəkistan ilə Azər[194-195]baycan arasında indiki münasibətlər məhz onunla köklü surətdə seçilir ki, indi biz azad xalqlarıq, indi biz müstəqil dövlətlərik, öz taleyimizin sahibi biz özümüzük. Bu illər ərzində Özbəkistan öz inkişafında böyük yol keçmişdir. İslam Abduqəniyeviç dəyişikliklərin, iqtisadiyyatda dəyişikliklərin Özbəkistana xas yolundan danışdı. Bu gün mən müstəqillik illərində Özbəkistanda görülmüş bütün işlərə öz dərin hörmətimi ifadə etmək istəyirəm. Biz bunu bilirik, biz bunu görürük, biz bunu hiss edirik. Ötən dəfə – oktyabrda buraya gələndə də, indi də, bu gün də çox şey gördüm, çox məlumat aldım. Lakin iş təkcə bununla bitmədi. Axı biz hamımız bir-birimiz haqqında məlumata – statistika məlumatına və hər cür informasiyaya malikik. Əlbəttə, bəzən müxtəlif informasiya vasitələrində respublikalarımız – həm Özbəkistan, həm də Azərbaycan barəsində yalan məlumatlar da olur. Lakin bunlar həyata keçirilmiş və həyata keçirilən bütün işləri, o cümlədən də Özbəkistanda görülmüş və görülən tədbirləri onsuz da inkar edə bilməz.

Bu illər ərzində Özbəkistan öz müstəqilliyini möhkəmlətmişdir. Özbəkistanda böyük sosial-iqtisadi dəyişikliklər baş vermişdir və baş verir, iqtisadiyyatda, sosial sahədə müsbət nəticələr əldə edilmişdir. Asiyanın iri dövlətlərindən biri olan Özbəkistan Dünya Birliyində öz layiqli yerini tutmuşdur. İndi Özbəkistan bir çox ölkələrin, bir çox sərmayədarların diqqətini cəlb edir. Özbəkistanın çox zəngin sərvətləri, təbii sərvətləri, olduqca böyük iqtisadi potensialı, olduqca böyük əmək ehtiyatları bir çox iri sərmayədarların diqqətini təbii olaraq cəlb edir. Bütün bunlar da, Özbəkistanın özünün imkanları ilə edilənlər də bugünkü müvəffəqiyyəti təmin edir, üstəlik, gələcək uğurlara şərait yaradır. Biz qardaşcasına sevinirik, açığını deyim, fəxr edirik. Gizlətmirəm, mən Özbəkistanı çox sevirəm. Mən Özbəkistanla çoxdan bağlıyam – həm birgə işimlə əlaqədar, həm də həyatımın gənclik illəriylə. [195-196] Buna görə də Özbəkistanda olan yaxşı, müsbət hər şey məni sevindirir və hörmət hissi doğurur. Bütün bunlarda Özbəkistan prezidenti İslam Kərimovun olduqca böyük xidməti var.

Çətinliklər Özbəkistanda da olmuşdur. Azərbaycanda da. Lakin Özbəkistandan fərqli olaraq, nə gizlədim, Azərbaycan bu illərdə daha çətinliklərlə qarşılaşdı. Bir tərəfdən, Ermənistan hərbi təcavüz etmiş və bunun

nəticəsində ərazimizin 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. İşğal olunmuş torpaqlardan bir milyon sakin didərgin salınmış və onlar qaçqın kimi ağır şəraitdə, çadırlarda yaşayırlar. Respublikamıza olduqca böyük maddi və mənəvi ziyan vurulmuşdur. Çox adam həlak olmuşdur, çox itkimiz var.

Digər tərəfdən, həmin illərdə Azərbaycanda daxili siyasi vəziyyət, təəssüflər olsun, qeyri-sabitliklə, ayrı-ayrı siyasi qruplara, siyasi qüvvələrə, partiyalara mənsub müxtəlif silahlı bandaların, silahlı dəstələrin olması ilə səciyyələnmiş, hakimiyyət uğrunda mübarizə getmişdir. Bütün bunlar ona gətirib çıxarmışdı ki, həmin dövrdə hakimiyyət üç dəfə dəyişmişdi – 1992-ci ildə, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı. Azərbaycan fəlakət həddinə gəlib çıxmışdı. Ancaq biz bütün bunların qarşısını aldıq. İndi Azərbaycanda sakit, normal ictimai-siyasi vəziyyət yaranmışdır. Biz bütün bu çətinlikləri dəf edə bildik.

Demək istəyirəm ki, biz Azərbaycanda bu yolu çox çətin və ağır keçmişik. Özbəkistanın da öz çətinlikləri olmuşdur. Zənnimcə, özbək xalqının xoşbəxtliyi bundadır ki, məhz həmin dövrdə, Özbəkistanın dövlət müstəqilliyi aktından əvvəlki dövrdə də, Özbəkistan öz dövlət müstəqilliyini elan edən dövrdə də Özbəkistana İslam Abduqəniyeviç – böyük siyasi təcrübəyə, zəngin biliyə, başlıcası isə yenilməz iradəyə və möhkəm xarakterə malik bir adam başçılıq edirdi. O, Özbəkistanda qətiyyətsizliyə, tərəddüdlərə, daxili siyasi həyatın inkişafının normal məcrasından hər hansı şəkildə yayınmağa yol [196-197] vermədi. Bu, çox vacibdir. Siz bunu qiymətləndirməlisiniz. Ona görə ki, bütün bu vaxt ərzində, Özbəkistan öz müstəqilliyini elan etdiyi vaxtdan bəri Özbəkistanda vəziyyət sabitdir, daxili siyasi və ictimai-siyasi vəziyyət sabitdir və vəziyyət Özbəkistan Sovet İttifaqının tərkibində olduğu dövrlərdəkindən qat-qat yaxşıdır – o illəri biz yaxşı xatırlayırıq. Sizin xoşbəxtliyiniz məhz bundadır, sizin üstünlüyünüz məhz bundadır. Burada İslam Abduqəniyeviç Kərimovun olduqca böyük xidməti var. O, özünün ən əvvəl öz xalqına sədaqəti ilə, özünün diqqətəlayiq bacarığı ilə, öz qabiliyyəti ilə bu çətin keçid dövründə özbək xalqını sıx birləşdirə bildi, Özbəkistanı bu gün bütün dünyanın gördüyü kimi etmək üçün lazımi islahatları, lazımi tədbirləri çox ağıllı, mərhələ-mərhələ həyata keçirə bildi.

Mən buna sevinirəm. Mən İslam Abduqəniyeviçi çoxdan tanıyıram. O, Özbəkistana rəhbərlik etməyə başladığı vaxtlardan onun fəaliyyətini müşahidə edirdim. Mən onun cəsarətini bu səpgidə ayrıca qeyd etmək istəyirəm ki, ondan əvvəl son illərdə respublikaya başçılıq etmiş adamların hamısından fərqli olaraq, o, öz xalqının şərəf və ləyaqətini qoruya bildi. Sovet İttifaqı rəhbərliyinin Özbəkistanı, özbək xalqını nüfuzdan salmaq üçün gördüyü tədbirlərə də, burada guya işləmək üçün emissarlar göndərilməsinə də – elə təsəvvür yaradılırdı ki, guya Özbəkistanda böyük iş aparmağa qadir kadrlar yoxdur, – o, son qoydu, bütün bunları məhz öz cəsur xarakteri ilə, öz dəyanəti və öz müdrikliyi ilə dəf etdi. Bu, çox qiymətlidir. Ona görə ki, həmin illərdə Özbəkistana qarşı nə kimi fitnə-fəsad düzəldildiyini, özbək xalqına qarşı, Özbəkistana qarşı nə kimi ədalətsiz addımlar atıldığını 1983-cü ilin əvvəllərindən Moskvada işlədiyimə görə başqalarından bəlkə daha yaxşı bilirəm. Bütün bunlara məhz İslam Abduqəniyeviç Kərimov son qoydu. Mən bunu onun özbək xalqı qarşısında tarixi xidməti hesab edirəm. [197-198]

İndi münasibətlərimizdə səmimi hörmət, qardaşlıq hissləri var. Bu gün biz bunların hamısını duyduq. Onu da duyduq ki, Özbəkistan, Özbəkistan prezidenti beynəlxalq hüquq normaları mövqelərində möhkəm dayanmışlar, o mənada ki, dövlətlər bir-birinin daxili işlərinə qarışmamalıdırlar, heç nəyi zor gücünə həll etmək olmaz, hər bir ölkənin dövlət ərazi bütövlüyü qorunmalı və təmin edilməlidir, separatçılığa, təməlçiliyə, terrorçuluğa yol verilməməlidir. Biz bütün bunlarda yekdilik, həmrəyik.

Hərbi təcavüzə məruz qaldığımız, ərazi bütövlüyü pozulmuş ölkə olduğumuzu, haqqımızda dünya miqyasında ədalətsiz ictimai rəy yaradılmış ölkə olduğumuzu nəzərə alsaq, bu bəyanatlar bizdən ötrü çox dəyərli və çox mühümdür. Əminik ki, Ermənistanla əldə etdiyimiz və üçüncü ildir davam edən atəşkəs bizi sülhə gətirib çıxaracaqdır. Biz hərbi əməliyyatların yenidən başlanmasını istəmirik, bütün dünyada, regionumuzda sülh olmasını, Ermənistan ilə Azərbaycan arasında sülh olmasını istəyirik. Ancaq eyni zamanda biz torpağımızın bir metrini də kiməsə güzəştə gedə bilmərik. Biz Qafqazda, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verə bilmərik.

Mən şadam ki, beynəlxalq təşkilatlar, dünyanın bir çox ölkələri bizim bu ədalətli mövqeyimizi getdikcə daha çox dəstəkləyirlər, məmnunam ki, bu, Özbəkistanda, Özbəkistan prezidenti İslam Kərimovun mövqeyində də dəstəklənir. Hesab edirəm ki, bizim bugünkü görüşümüz, söhbətlərimiz, danışıqlarımız münasibətlərimizin gələcək inkişafı üçün daha əlverişli şərait yaradacaqdır. Bir də deyirəm, bütün sahələrdə – iqtisadiyyatda da, elmdə, mədəniyyətdə, insani münasibətlərdə də əməkdaşlığımızın inkişaf etməsi və möhkəmlənməsi üçün biz əlimizdən gələni əsirgəməyəcəyik. Biz bunu istəyirik, buna maraq göstəririk, bunu həyata keçirmək üçün öz tərəfimizdən hər şeyi edəcəyik. [198-199]

Mən sizin ölkənizə, xalqınıza bir daha ən dərin ehtiramımı bildirmək istəyirəm. Biz bu gün Əlişir Nəvai adına Opera və Balet Teatrında olduq. Görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun musiqisi üzrə Özbəkistan Opera və Balet teatrının kollektivi tərəfindən tamaşaya qoyulmuş baletə baxdıq. İslam Abduqəniyeviç Maqsud Şeyxzadəni xatırladı. O, həqiqətən görkəmli insan, Özbəkistanda özünə vətən tapmış və özündən sonra çox böyük irs qoyub getmiş azərbaycanlıdır. Bizim mədəniyyət, elm xadimlərimizin, müasir tariximizin xadimlərinin dostluğuna dair başqa faktlar da çoxdur və bu gün tamaşa etdiyimiz balet də bunu bir

daha təsdiq edir.

Bütün bunlar onu göstərir ki, bizim əlaqələrimiz yaşayır, davam edir və yaşayacaqdır. Mən bu qədim torpağa, özbək xalqına, hörmətli dostlar, sizin hamınıza bir daha dərin ehtiramımı bildirirəm.

Mən sözümü görkəmli Azərbaycan şairi Süleyman Rüstəmin özbək qardaşına həsr etdiyi şerindən bir parça ilə tamamlamaq istəyirəm:

Candan əziz torpağını, daşını
Anam kimi, balam kimi sevirəm
Düşmənlərin qarşısında əyilməyən başımı,
Qardaş kimi qarşınızda əyirəm.

Bu sətirlər Azərbaycan xalqının özbək xalqına bəslədiyi və hər birimizin qəlbində yaşayan məhz həmin dərin hissləri ifadə edir.

Mən Özbəkistanın şərəfinə, özbək xalqının şərəfinə, Özbəkistanın daha da tərəqqi etməsi şərəfinə badə qaldırmağı təklif edirəm! Özbək xalqının görkəmli oğlu, Özbəkistanın prezidenti İslam Abduqəniyeviç Kərimovun şərəfinə! Əziz dostlar, sizin sağlığınıza! Sağ olun. [199-200]

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ DAŞKƏND UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*19 iyun 1997-ci il*

Çox hörmətli prezident İslam Kərimov!
Hörmətli rektor!
Hörmətli qardaşlar, bacılar, dostlar!

Mən sizə Azərbaycan xalqının, Azərbaycan ziyalılarının, Azərbaycan gənclərinin hərarətli salamını və ən xoş arzularını yetirir və özümün ən səmimi dostluq, məhəbbət və hörmət hisslərimi ifadə edirəm.

Şərqdə, Asiyada elmin və ali təhsilin ən böyük mərkəzlərindən biri olan, zəngin tarixə və ənənələrə malik Daşkənd Universitetinin Fəxri Doktoru adı verməklə mənə göstərilən yüksək şərəfə görə Mirzə Uluqbəy adına Daşkənd Dövlət Universitetinin elmi şurasına minnətdaram. Daşkənd və Bakı universitetləri həmyaşıddırlar. 1921-ci ildə yaradılmış Daşkənd Universiteti də, 1919-cu ildə təşkil olunmuş Bakı Universiteti də xalqlarımızın mənəvi mədəniyyətinin, maarifinin, ali təhsilinin, elminin inkişafında böyük rol oynamışlar. Ona görə də burada – bu gözəl elm və təhsil mərkəzində – Daşkənd Universitetində olmaq məndən ötrü son dərəcə xoş və sevindiricidir. Daşkənd Universitetinin Fəxri Doktoru adına layiq görülməyim isə xüsusilə daha xoş və daha sevindiricidir. [200-201]

Mənə göstərdiyiniz bu diqqətə görə sizə təşəkkür edirəm. Mən bunu Azərbaycan xalqına, Azərbaycan Respublikasına, Azərbaycan ziyalılarına olan böyük hörmət və ehtiramın ifadəsi kimi qiymətləndirir, sizi əmin edirəm ki, bu yüksək adı şərəflə və ləyaqətlə daşıyacaq, özbək və Azərbaycan xalqları arasında dostluq və qardaşlığı bundan sonra da möhkəmlənmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Özbək xalqının böyük tarixi, zəngin, dəyərli qədim mədəniyyəti var. Özbək xalqı özünün elmi, görkəmli mədəniyyət, incəsənət, memarlıq əsərləri ilə bəşər sivilizasiyasına layiqli töhfələr verməsi ilə haqlı olaraq fəxr edir. Özbək xalqı haqlı olaraq fəxr edir ki, görkəmli alimlər, mütəfəkkirlər, şairlər, filosoflar, dövlət xadimləri yetirmişdir və onlar öz kəşfləri, əsərləri, elmi nailiyyətləri ilə təkcə Şərqdə deyil, həm də bütün dünyada tərəqqiyə xidmət göstərmişlər.

Burada, bütün tarix ərzində özbək torpağında mövcud olmuş görkəmli elmi məktəblərin haqlı olaraq hüquqi varisi sayılan Daşkənd Universitetində olarkən Özbəkistanın görkəmli övladlarının dühaları qarşısında, onların yaratdıqları və özbək xalqının, bütün başqa xalqların müasir nəsillərinə irs qoyduqları əsərlər qarşısında böyük hörmət hissi ilə baş əyirəm.

Bizim xalqlarımızı ümumi köklər, ümumi tale, çoxəsrlik tarixi dostluq, əməkdaşlıq birləşdirir. Dilimizin, xalqımızın mənəvi dəyərlərinin ümumiliyi, eyni dinə mənsub olmağımız – bunların hamısı xalqlarımızın və onların ən yaxşı nümayəndələrinin yaxın, birgə fəaliyyətini şərtləndirmişdir. Bəli, biz görkəmli alim Mirzə Uluqbəyi çox böyük ehtiram hissi ilə xatırlayırıq. Azərbaycanın görkəmli alimi Nəsirəddin Tusini də eynilə çox böyük ehtiram hissi ilə xatırlayırıq. Mirzə Uluqbəyin dühası ilə yaradılmış Səmərqənd rəsədxanasını və Nəsirəddin Tusinin dühası ilə yaradılmış Marağa rəsədxanasını yada salın. Bunlar o çox uzaq keçmişdə, Avropada hələ elmi tərəqqi üçün [201-202] əsas ola biləcək kəşflərin olmadığı bir vaxtda böyük əsərlər, elmi fikrin, elmi sözün ən yüksək nümunələrini yaratmışlar və biz bunlarla fəxr edirik.

Biz fəxr edirik ki, xalqlarımız dünyaya Nizami Gəncəvi və Əlişir Nəvai kimi dühalar verib. Onlar öz əsərləri ilə bütün dünyada məşhurdurlar. Bununla bərabər, bu gün biz iftixar hissi ilə deyirik ki, onlar bir-birinə çox yaxın, bir-irilə sıx bağlı olmuşlar, hərçənd müxtəlif dövrlərdə yaşamışlar – Nizami XII əsrdə, Əlişir Nəvai XV əsrdə. Əlişir Nəvai Nizaminin yaradıcılığına çox böyük diqqət yetirirdi. Bu da bizim üçün son dərəcə dəyərli ümumi bir sərvətdir ki, tarix Nizaminin dahi "Xəmsə" əsərini və Əlişir Nəvainin dahi "Xəmsə" əsərini hifz edib saxlayır. Bir diqqət yetirin, onların arasında necə də yaxın əlaqə var. Bu əlaqə təsadüfi deyil. Bu, rəmzi məna daşıyan bir əlaqədir. Bu əlaqə qanunauyğundur. Ona görə ki, xalqlarımızın məhz qohumluğunu, qəlblərimizin məhz yaxınlığını, mənəvi dəyərlərimizin oxşarlığını əks etdirir. Nizaminin yaradıcılığı Əlişir Nəvainin yaradıcılığına nə dərəcədə təsir göstərmişdirsə, Əlişir Nəvainin yaradıcılığı da Məhəmməd Füzulinin yaradıcılığına bir o dərəcədə böyük təsir göstərmişdir. Bir fikir verin, zəngin keçmişimizin tarixi, mənəvi, mədəni əlaqələrinin necə gözəl, qarşılıqlı bağlılığı olmuşdur.

Belə zəngin keçmişi olan özbək xalqı da, Azərbaycan xalqı da öz tarixi ilə fəxr etmək haqqına malikdir. Özbək xalqının da, Azərbaycan xalqının da müasir mədəniyyəti, müasir elmi məhz bu tarixi keçmiş əsasında, bu elmi, mənəvi baza əsasında meydana gəlmişdir. Bizim belə deməyə tam haqqımız var. Özbək xalqı da, Azərbaycan xalqı da tarixən qohum olmaqla, tarixən yaxın olmaqla bərabər, zəngin tarixi keçmişə malikdir. Bu

da bizə əsas verir deyək ki, indi də, yeni şəraitdə, dövlət müstəqilliyi şəraitində biz öz həyatımızı istədiyimiz kimi, milli ənənələrimiz, mənəvi dəyərlərimiz əsasında, görkəmli əcdadlarımızdan qalmış böyük elmi, mənəvi irs əsasında qura [202-203] bilərik. Odur ki, tərəqqipərvər xalqlar, mütərəqqi ölkələr ilə birlikdə, çiyin-çiyinə irəliləyə bilərik.

Keçmişdə nə olmuşdursa, şübhəsiz, dəyərlidir. Məsələn, mən belə hesab edirəm ki, bizlərdən hər biri öz tarixinə, öz keçmişinə, öz köklərinə böyük ehtiramla yanaşmalıdır, çünki, təkrar edirəm, bu, yüzdən artıq yaşı olan nəhəng bir palıd, Özbəkistanda, Daşkənddə olan nəhəng palıdlar kimidir. Söz düşmüşkən, dünəndən bəri yaşadığım yerdə mən bu palıd ağaclarını görmüşəm – qədim və qəvi ağaclardır. Budur bizim tariximiz, Özbəkistanın və Azərbaycanın tarixi. Budur bizim zəngin keçmişimiz – həmin palıd ağacı özbək və Azərbaycan xalqlarının səadəti və firavanlığı naminə qol-budaq atmış və bundan sonra da atacaqdır.

XX əsrdə özbək xalqı və Azərbaycan xalqı da tarixin çox keşməkeşli bir yolunu keçmişlər. Xalqlarımız Şərqdə qədim dövlətçiliyə malik olmuşlar. Özbək torpağındakı qüdrətli dövlətlər dərin iz buraxmışlar. Azərbaycan torpağında da belə olmuşdur. Lakin sonralar biz onların hamısını müxtəlif imperiyaların tərkibində olduğumuza görə itirdik. Bununla əlaqədar XX əsr – sona yetməkdə olan yüzillik xalqlarımız üçün xüsusilə ağır və çətin olmuşdur. Bu illər, onilliklər ərzində başımıza çox işlər, çox müsibətlər gəldi. Amma bununla yanaşı, çox nailiyyətlər də əldə etdik.

Biz uzaq keçmişi də, yaxın keçmişi də həmişə obyektiv qiymətləndirməliyik. Biz keçmişdə dəyərli, yaxşı nə olmuşdursa, hamısını qiymətləndirməliyik. Yaxın keçmişimizdə yaxşı şeylər çox olmuşdur. Xalqlarımız çağdaş dünya sivilizasiyasına, təhsilinə, elminə qovuşmuşdur. Sözlərimə misal olaraq 1921-ci ildə burada, Daşkənddə yaradılan belə bir universiteti göstərə bilərəm. Əlbəttə, o, istər Mirzə Uluqbəyin, istər İbn Sinanın, istər Fərabinin, istərsə də Şərqin digər adamlarının yaratdıqlarının irsidir. Lakin 1921-ci ildə, böyük tarixi fasilədən sonra universitet yaradıldı və o, ötən bu illər ərzində [203-204] böyük inkişaf tapdı. Bu gün bu universitet şəhərciyini gördükdə sevindik.

Lakin məsələ heç də bu gözəl kompleksdə, bu gözəl binada deyil, ondadır ki, bu universitet bu illər ərzində nə qədər görkəmli şəxsiyyətlər yetirmişdir; elə şəxsiyyətlər ki, özbək xalqının rifahı naminə, Özbəkistan elminin, mədəniyyət və təhsilinin inkişafı naminə xidmət etmiş və edirlər. Bu sözləri Azərbaycan Universiteti haqqında, digər ali məktəblər haqqında, Özbəkistan Elmlər Akademiyası və Azərbaycan Elmlər Akademiyası haqqında da demək olar. Bunlar əldə etdiyimiz ürəkaçan, gözəl nailiyyətlərdir. Biz məhsuldar qüvvələrin inkişafı baxımından, şəhər və kəndlərimizin abadlaşdırılması baxımından çox nailiyyətlərə malikik. Azərbaycan və özbək torpağında müasir, mütərəqqi nə varsa, hamısı məhz o illərdə yaradılıb.

Bununla belə, çox itkilərimiz də olub, çox qurbanlar da vermişik. Malik olmadığımız başlıca şey isə bu idi ki, milli azadlığımız yox idi, müstəqilliyə malik deyildik. Bizim öz müstəqil dövlətçiliyimiz yox idi. Bu, tarixi bir hadisədir ki, XX əsrin axırlarında özbək xalqı da, Azərbaycan xalqı da dövlət müstəqilliyi, milli azadlıq əldə etdilər, öz talelərinin sahibi oldular. Bugünkü Özbəkistan da, dövlət müstəqilliyi qazanıldıqdan sonra bu qısa zaman kəsiyində özbək xalqının keçdiyi yolda müstəqillik əldə etməyin necə böyük bir tarixi hadisə, bizim üçün necə bir xoşbəxtlik olduğunu, bunun xalqlarımızın gələcəyi üçün necə böyük əhəmiyyəti olduğunu inandırıcı surətdə göstərir.

Buna görə də, fürsətdən istifadə edərək, sizi və bütün Özbəkistan vətəndaşlarını müstəqillik illərində qazandığınız çox böyük mənəvi, əxlaqi, maddi, intellektual nailiyyətlər münasibətilə təbrik etmək, sizə cansağlığı, firavanlıq və milli azadlıq, dövlət I müstəqilliyi yolunda yeni-yeni uğurlar arzulamaq istəyirəm.

Xalqlarımız bir-birilə bağlıdırlar. Mən Azərbaycan və özbək xalqlarını nəzərdə tuturam. Son illərdə, onilliklərdə də bütün [204-205] sahələrdə çox yaxın ünsiyyət və təmaslarımız olub, bir-birimizə gedib-gəlirdik. Keçmiş vaxtlarda burada, Özbəkistanda, Daşkənddə mən də olurdum. Düzünü və açığını deyəcəyəm: indi, Daşkəndə bu səfərim zamanı keçirdiyim böyük məmnunluq hissləri məndə əvvəllər heç vaxt olmayıbdır. Hərçənd məni burada o vaxtlar da çox səmimi, qardaşcasına, qonaqpərvərliklə, mehriban qarşılayırdılar, çünki bunların hamısı xalqlarımıza xas keyfiyyətlərdir. Lakin bu gün müstəqil Özbəkistan dövlətində olmaq, azad Özbəkistanda olmaq mənə çox böyük sevinc gətirir.

Bu, bir də ona görə qiymətlidir ki, yaxın keçmişdə, xalqlarımızın malik olduqları xoş və gözəl cəhətlərlə yanaşı, onlar özlərinə qarşı bir çox ədalətsiz münasibət faktları ilə, bir çox ayrı-seçkilik faktları ilə, xalqlarımızın milli ləyaqətini alçaltmaq cəhdləri ilə də qarşılaşırdılar. Bu təhqirlər, bəzən ağır təqiblər həddini aşır və mənəvi, əxlaqi genosid halını alırdı. Biz bunlara da məruz qaldıq. Bunlar da keçmişimizin mərhələləridir. Buraya 20-ci və 30-cu illərdə xalqlarımızın məruz qaldıqları repressiyalar – siyasi repressiyalar və sonrakı illərdə xalqlarımızın məruz qaldıqları digər məhrumiyyətlər də daxildir. Bədnam yenidənqurma illəri, 80-ci illər həm özbək xalqı üçün, həm də Azərbaycan xalqı üçün xüsusilə ağır dövr olmuşdur.

Sovetlər İttifaqının o zamankı rəhbərliyi, Sovetlər İttifaqının rəhbərliyindəki ayrı-ayrı şəxslər tərəfindən edilən bu cür ədalətsizlik, bu cür hörmətsiz münasibət, mən deyərdim, o vaxtadək heç zaman görünməmişdi. Bununla əlaqədar, mən şahidi olduğum bəzi şeylər barədə danışmaq istərdim. Bilirsiniz ki, mən 1982-ci ilin sonunda Azərbaycanın rəhbəri vəzifəsindən Moskvaya dəvət olundum və beş ildən artıq bir müddətdə Sov. İKP MK Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışdım. Həmin illərdə

mən o quruluşun, o dövlət quruluşunun, o ideologiyanın, xüsusən də o [205-206] illərdə ölkəyə, Sovetlər ittifaqına rəhbərlik edən adamların ciddi qüsurları sayıla biləcək çox şeylər görmüşəm.

Bədnam yenidənqurma başlandı. Keçmişdə nə olmuşdusa, durğunluq dövrü adlandıraraq pisləməyə başladılar. Təəssüf ki, belə kampaniyalar Sovetlər İttifaqının tarixində əvvəllər də olmuşdur. Rəhbərlik dəyişən kimi, keçmişdə olan hər şeyi pisləməyə, təqiblərə, repressiyalara başlayırdılar. İndi də növbəti belə mərhələ başlamışdı. Onu da deyim ki, bu, həmin quruluşun, ideologiyanın, cəmiyyətin xarakterik cəhəti idi və bu quruluşun hansı qüsurlardan əziyyət çəkdiyini çox aydın göstərirdi.

Məlumdur ki, tənqid həmişə işə kömək etmişdir. Sağlam, ədalətli tənqid həmişə lazımdır və bu gün də gərəkdir, ondan heç kəs və heç vaxt imtina edə bilməz. Əksinə, öz nailiyyətlərimizi də və gələcəkdə aradan qaldırmaq, yol verməmək üçün səhvlərimizi, nöqsanlarımızı da görməliyik, burada elə bir xüsusi şey yoxdur. Ancaq bütün bunlar hansısa adamları, siyasi xadimləri, xüsusən də bütöv xalqları, respublikaları gözdən salmaq vasitəsinə çevriləndə dəhşətli olur.

Həmin bu dəhşət də bizim xalqlarımız – özbək xalqı və Azərbaycan xalqı barəsində baş verdi. Böyük təbii ehtiyatları, əmək ehtiyatlan, çox ağıllı adamları olan Özbəkistan həmin illərdə hamımızın daxil olduğumuz Sovetlər İttifaqının iqtisadiyyatına böyük töhfə verirdi, çoxlu nailiyyətləri, uğurları var idi. Bunu heç kəs inkar edə bilməz. Biz bu gün buraya gələrkən İslam Abduqəniyeviç ilə söhbət edir və o dövrdə Özbəkistanın nə qədər pambıq istehsal etdiyini xatırlayırdıq. Sovetlər İttifaqında pambığın əsas hissəsi – 80 faizi Özbəkistanda istehsal olunurdu.

Pambıq isə o zaman ağ qızıl adlandırılırdı və Sovetlər İttifaqının başlıca ixrac məhsullarından biri idi, yəni Sovet dövlətinin xəzinəsinə böyük məbləğdə valyuta gətirən məhsul idi. Bunun hamısı da burada, Özbəkistanda, özbək xalqının əməyi, [206-207] bacarığı sayəsində istehsal olunurdu. Sovetlər İttifaqının toxuculuq sənayesi neçə-neçə illər Özbəkistan pambığı ilə işləmişdir. Sovetlər İttifaqının isə çox böyük toxuculuq sənayesi var idi. Yeri gəlmişkən deyim ki, indi Rusiyada bu müəssisələrin çoxu dayanmışdır, çünki pambıq yoxdur, əlbəttə, başqa səbəblər də var. Ancaq Özbəkistanda təkcə pambıq deyil, bir çox başqa kənd təsərrüfatı məhsulları, çoxlu sənaye malı da istehsal edilirdi. Özbəkistanın mineral ehtiyatlarının bir çoxu tamamilə bütün Sovetlər İttifaqı üçün istifadə olunurdu.

Burada çıxarılan, istehsal olunan hər şeydən özbək xalqının özünə çox az pay çatırdı. Özbəkistan xalqı Özbəkistan Sovetlər İttifaqının ümumi iqtisadiyyatına bax, belə töhfə verirdi. Bütün bunları qiymətləndirmək, layiqincə dəyərləndirmək lazım idi. Bir vaxt var idi ki, həqiqətən qiymətləndirilirdi, Özbəkistanda çox adamlar mükafatlandırılır, onların bir çoxunun böyük hörməti var idi. Amma birdən-birə hər şeyi tamamilə başqa tərəfə döndərmək nəyə lazım idi, bütün bunları pisləmək, gözdən salmaq nəyə lazım idi? Bunun vasitəsilə də bütün özbək xalqına qarşı əslində ideoloji, mənəvi soyqırımı törətmək nəyə lazım idi?

Mən sizə açığını deyəcəyəm, o illərdə Moskvada işləyərkən bütün bu ədalətsizlikləri, haqsızlıqları, vicdansızlıqları gördükdə çox əzab çəkirdim. Belə zəngin tarixi, belə zəngin müasir imkanları olan bütöv bir xalqın taleyi yaramaz bir adamın – Qdlyanın və onun kimilərin ixtiyarına verilmişdi, onlar da hər cür yolverilməz üsullara, saxtakarlıqlara, digər fitnə-fəsadlara əl ataraq «Özbəkistanda pambıq işi» deyilən iş uydurmuşdular, kütləvi həbslər keçirir və Sovet İttifaqının rəhbərliyinə, Qorbaçova uydurma məlumatlar göndərirdilər. Bu məlumatlar əsasında isə bütöv bir xalq haqqında qərar çıxarılırdı.

Heç cür sakit xatırlaya bilmirəm. Bir dəfə MK-nın baş katibi Qorbaçov Qdlyanı şəxsən qəbul etdi və onun məlumatı Siyasi [207-208] Büroda müxtəlif məsələlərin müzakirəsi və bütöv bir xalq, belə gözəl bir respublika barəsində qərarlar qəbul edilməsi üçün əsas oldu. Görün, necə ədalətsizlik idi, burada nə qədər adam qanunsuz həbs olundu, təqiblərə, təhqirlərə məruz qaldı. Bütün Sovet İttifaqına, nəinki Sovet İttifaqına, hətta bütün dünyaya car çəkirdilər ki, guya Sovet İttifaqında bütün korrupsiya ancaq Özbəkistanda cəmləşmişdir. Sonralar bu üsulu Azərbaycanda, bəzi Orta Asiya respublikalarında tətbiq etməyə çalışdılar.

Qəribədir, olmaya korrupsiya nəsə yeni bir təzahür idi? Halbuki bəşər cəmiyyəti nə qədər mövcuddursa, korrupsiya da bir o qədər mövcuddur. Korrupsiya həmişə olmuşdur, Sovet hakimiyyəti dövründə də, Sovet İttifaqının bütün regionlarında da mövcud olmuşdur. Amma bu işi həddindən ziyadə şişirdilmiş bir şəkildə qələmə vermək, yəni bunların hamısının guya yalnız Özbəkistanda kök atdığını, ittifaqın qalan bütün regionlarında hər şeyin öz qaydasında olduğunu iddia etmək o demək idi ki, Sovet İttifaqının bütün müsibətlərinə, bəlalarına sanki Özbəkistan, özbək xalqı günahkar idi. Mən sizə açığını deyəcəyəm, o dövr ədalətsizlik, vicdansızlıq və hətta alçaqlıq, əclaflıq dövrü idi.

Özbək xalqı bu faciəni yaşadı. Bununla yanaşı, bu da faciəli idi ki, hər həftə Rusiyanın müxtəlif regionlarından adamların – sıravi işdə, partiya, təsərrüfat işlərində çalışanların siyahısını tutub onları Özbəkistana göndərirdilər. Bunu Sov. İKP MK-da edirdilər. Mən bir neçə dəfə soruşdum: siz niyə belə edirsiniz? Cavab verirdilər ki, guya, Özbəkistanda iş aparmağı bacaran adamlar yoxdur, onlara daha etibar etmək olmaz. Özü də elə bir ölkədə ki, o, dünyaya hələ uzaq dövrlərdə, orta əsrlərdə görkəmli alimlər, mütəfəkkirlər vermişdir; elə bir ölkədə ki, XX əsrdə gözəl alimlər, qabiliyyətli dövlət xadimləri yetirmişdir. İndi isə birdən məlum olur ki, orada iş aparmağa qadir adamlar yoxdur. Odur ki, Ryazan və ya Tambov vilayətindən

[208-209] rayon partiya komitəsinin hansısa bir təlimatçısı, yaxud şöbə müdiri buraya rəhbər partiya işinə göndərilirdi. Bu, bütöv bir kampaniya idi.

Təkrar edirəm, o dövr Özbəkistanın həyatında ağır bir dövr idi. Özbək xalqı buna sinə gərdi, dözdü. O vaxtlar sizdə itkilər oldu. Lakin bununla bərabər, bu, o vaxtlar Sovet İttifaqının rəhbərliyində olmuş rəhbərlərin və rəhbər özəyin iç üzünü, xislətini çox əyani şəkildə nümayiş etdirir. Bunlar heç də xırda məsələlər deyildir. Mən hesab edirəm ki, ümumiyyətlə, bu, milli respublikalar – həm Orta Asiya respublikaları, həm də Azərbaycan barəsində bir xətt idi.

Xüsusilə 1987-ci ilin axırında mən bütün yüksək vəzifələrdən istefa verdikdən sonra ikinci bir "Özbəkistan işi"ni Azərbaycanda törətməyə cəhd göstərmişdilər. Mən bilirdim ki, buraya müxtəlif hüquq – mühafizə orqanlarından – prokurorluqdan, DİN-dən, DTK-dan və s. bir neçə yüz nəfər işçi göndərilmişdi və onlar yalnız bir şeyə, bütün vilayətlərdə, bütün sahələrdə müxtəlif saxta cinayət işləri qurmağa çalışırdılar. Təxminən 1988-1989-cu illərdən etibarən Azərbaycan barəsində də eyni işlər başlandı. Azərbaycan Respublikasına, Azərbaycan xalqına da böyük zərər vuruldu. Bir çox adamlar nahaqdan repressiyaya məruz qaldılar. Ola bilsin, bu, Özbəkistandakı qədər geniş miqyas almadı, o dərəcəyə çatmadı. Ola bilsin, buna vaxt çatmadı, yaxud sonrakı hadisələr buna imkan vermədi. Ancaq bütün bunlar Azərbaycanda da oldu.

Bu dərəcədə olmasa da, belə münasibət Qazaxıstana və qonşu respublikalara – Türkmənistana, Qırğızıstana qarşı da özünü göstərdi. Bunların hamısı məndən ötrü, uzun illər, on illər ərzində kommunist partiyasının ideallarına vicdanla və sədaqətlə xidmət etmiş, Sovetlər İttifaqına xidmət göstərmiş bir adamdan ötrü faciə idi. Bu, məndən ötrü dəhşətli hadisə idi.

Ancaq eyni zamanda bunların hamısı bizim xalqlarımıza qarşı yekəxana, bəzi hallarda isə şovinist münasibətin, – ayrı [209-210] cür qiymətləndirə bilmirəm, – təzahürü idi. Eyni zamanda həm də ona görə baş verirdi ki, xalqlarımızın özünün daxilində natəmiz, vicdansız, şəxsi rifahı naminə xalqının, öz dövlətinin milli mənafelərini satmağa hazır olan, şəxsi mənafeləri naminə ayrı-ayrı rəhbərlər qarşısında qulluq göstərməyə çalışan, milli mənafeləri, xalqının, torpağının mənafelərini qurban verən adamlar var idi. Belələri Özbəkistanda da, Azərbaycanda da, bəzi başqa qonşu respublikalarda da var idi.

Qəribədir, Qafqazda üç respublika var – Azərbaycan, Gürcüstan və Ermənistan. Özbəkistana yönəldilən bütün bu zərbələrin hamısı Zaqafqaziyada yalnız Azərbaycana tuşlanırdı, elə bil, bizimlə qonşu olanlar başqa cür idilər. Bunu necə ədalətli saymaq olar? Heç cür. Ona görə də bir də deyirəm, keçmişdən nəticələr çıxararkən ətrafımızdakılar barədə, xalqımızın içərisində yaşamış, çalışmış insanlar haqqında da ciddi düşünməliyik.

Xatirimdədir, mən 1983-cü ildə Sovetlər İttifaqının böyük bir partiya-hökumət nümayəndə heyətinin başçısı kimi Vyetnama getmişdim. 1983-cü il sentyabrın axın idi, biz Daşkənddə dayandıq. O zaman mən Özbəkistanın rəhbəri olan Şərəf Rəşidov ilə bir neçə saat söhbət etdim. Onun çox ağır əhval-ruhiyyəsini başa düşdüm, o zaman təqiblər, cürbəcür ədalətsiz yoxlamalar və sairə başlanmışdı. Mən ona dedim ki, Moskvaya qayıdan kimi Siyasi Büroda bu barədə danışacağam, – onda baş katib Andropov idi, – ona danışacağam və Özbəkistana olan bu ədalətsiz meyllərin qarşısını almaq üçün öz tərəfimdən tədbirlər görməyə çalışacağam. Ancaq biz Vyetnamda olanda xəbər gəldi ki, Şərəf Rəşidov vəfat etmişdir.

Moskvaya qayıdarkən yolüstü yenə burada, Daşkənddə dayandım. Artıq respublikanın rəhbərləri Usmanxocayev və Xudayberdiyev idi. Mən hava limanında onlarla söhbət etdim. Mən indi bunu açıq deyirəm, çünki bu, tarixdir, onu çoxları bilməlidir. Mən onlara dedim ki, Vyetnama gedərkən burada [210-211] məlumat aldım və hiss edirəm ki, xalqınıza qarşı, respublikanıza qarşı ədalətsiz niyyətlər, meyllər var. Mən Moskvada öz tərəfimdən lazımi tədbirlər görəcəyəm, amma siz də ləyaqətli olun. İndi siz respublikaya başçılıq edirsiniz, bu işə layiq olun, öz xalqınızı öz respublikanızı müdafiə edin. Çünki mən artıq yaranmış olan vəziyyəti başa düşürdüm.

Çox təəssüf ki, onlar layiqli olmadılar. Qınamağa haqqım da yoxdur, onlar sizin adamlardır, siz də qiymət verməlisiniz. Mən sadəcə olaraq öz təəssüratımdan və sonralar burada, Özbəkistanda nələr olduğundan və Moskvada nə kimi qərarlar çıxarıldığından danışıram. Sonralar onların hər ikisi öz vəzifələrini itirdi, onlar da repressiyalara məruz qaldı, gözümçıxdıya salındılar və sair. Bunlar məlumdur. Əgər onlar öz xalqının milli mənafelərini müdafiə etmək üçün prinsipial mövqe tutsaydılar, şübhəsiz, onda belə hadisələr baş verməzdi.

Belə hallar sonra da oldu. Siz məni bağışlayın, bəlkə kiməsə elə görünə bilər ki, mən familiyalarını çəkməklə düz iş görmürəm. Sonra sizdə bir rəhbər peyda oldu – Nişanovu deyirəm.

Axı nə qədər hallandırmaq olardı, o, elə hey, oturub-durub "rəşidovçuluq", "kunayevçilik" deyirdi, mən istefa verdikdən sonra isə hətta bir neçə dəfə "əliyevçilik" demişdi. Bəs niyə başqa "çilik" yox idi, elə təkcə "rəşidovçuluqmu", "kunayevçilikmi", "əliyevçilikmi" vardı? Yoxsa, bütün Sovet İttifaqı yalnız bu şəxslərin üzərində qərar tutmuşdu? 1990-cı ilin yanvarında – Azərbaycana iri qoşun kontingenti yeridib, Sovet İttifaqının, Moskvanın da, Azərbaycanın da kommunist rəhbərliyinin ədalətsizliyinə, ədalətsiz qərarlarına qarşı ayağa qalxan xalqı qan içində boğduqları və bir gecədə nə qədər adamı məhv etdikləri günün ertəsi mən Moskvada mitinqdə çıxış edərək həmin hərbi əməliyyata qarşı öz etirazımı bildirəndən təxminən 10 gün sonra "Pravda" qəzetində "Əliyevçilik" adlı böyük bir məqalə dərc edildi.

Başa düşürsünüzmü nə olmuşdu? "Pravda"nın bu hərəkəti, Moskvada oturan ayrı-ayrı şərəfsiz xadimlərin dilindən çıxan [211-212] belə sözlər adama ağır gəlirdi. Ancaq bunu hələ birtəhər başa düşmək olardı, çünki onlar bunu bir məqsədlə edirdilər. Amma bu sözləri öz xalqlarımızın nümayəndələri dilinə gətirdikdə, buna, açığını deyim, dözmək mümkün deyildi.

Budur, Özbəkistan bu cür vəziyyətə düşmüşdü. İndi mən Özbəkistanın bu ağır vəziyyətdən çıxmasına sevinirəm, ona görə ki, Özbəkistan məhz bu ağır vəziyyətdən çıxmışdır. Burada adamlar, nəhayət, başa düşmüşlər ki, öz şərəfini, öz milli ləyaqətini və öz milli mənafelərini qorumaq lazımdır. Həm də bütün bunlara Özbəkistanın indiki prezidenti İslam Abduqəniyeviç Kərimov başçılıq etmişdir.

Açığını deyəcəyəm, mən İslam Abduqəniyeviçi əvvəllər, Moskvada işlədiyim vaxtlardan tanıyıram. O, Özbəkistanda rəhbər vəzifələrdə işləyirdi. Amma Özbəkistana rəhbərlik etməyə başladıqdan sonra öz xalqının, öz respublikasının milli mənafelərinin müdafiəsində mərdliklə və cəsarətlə durduqda, uzun illər ərzində mərkəzdə, Moskvada Sovet İttifaqının rəhbərliyi tərəfindən Özbəkistana qarşı törədilmiş ədalətsizliyin əleyhinə mərdliklə və cəsarətlə çıxış etdikdə İslam Kərimov mənim nəzərimdə daha da ucaldı. Mənə elə gəlir ki, bununla da o, dərhal öz xalqının, öz respublikasının adamlarının nüfuz və hörmətini qazandı. Məhz onun ədalətli, vicdanlı, düz adam olması, cəsarəti, qəhrəmanlığı o ağır illərdə Özbəkistanın sağlam qüvvələrini sıx birləşdirdi və Özbəkistana qarşı, Özbəkistan ətrafında və Özbəkistanın özündə törədilmiş bütün bu rüsvayçılıqlara, eybəcərliklərə son qoydu.

Mən bunu onun özbək xalqı qarşısında tarixi xidməti hesab edirəm. Zənnimcə, bunun heç də təkcə Özbəkistan üçün deyil, başqa məmləkətlər üçün də çox böyük əhəmiyyəti var. Bu onu göstərir ki, rəhbər işçi necə olmalıdır. Rəhbər işçi öz xalqının mənafelərini qorumağı bacarmalı, ədalətli olmalı, öz xalqının mənafelərini müdafiə etmək naminə heç nədən qorxub çəkinməməlidir. İslam Abduqəniyeviç məhz belə rəhbər işçi oldu. [212-213]

Buna görə də, tamamilə qanunauyğundur ki, həmin vaxtdan bəri o, Özbəkistana dəyişmədən rəhbərlik edir. Məncə, sizin xalqınız üçün böyük xoşbəxtlikdir ki, həmin ağır dövrdə – keçid dövründə, Sovet İttifaqının dağılmağa başladığı, Özbəkistan öz dövlət müstəqilliyinə nail olduğu dövrdə Özbəkistana, özbək xalqına belə müdrik, təcrübəli dövlət xadimi rəhbərlik etmişdir; elə xadim ki, o keşməkeşli dövrdə öz xalqını bu çətinliklərdən heç bir itki, tələfat vermədən, nöqsansız, qüsursuz keçirə bilmişdir.

Dövlət müstəqilliyinin təşəkkül tapması mürəkkəb prosesdir, heç də sadə proses deyildir. Sizə deyim ki, dövlət müstəqilliyi əldə edilməsi ölkələrimiz üçün ilahi vergisi, bir nemət idi, çünki Sovet İttifaqı parçalanıb yox oldu. Amma bununla bərabər, milli dövlət quruculuğunun təşəkkülü, müstəqilliyin təşəkkülü mürəkkəb bir proses idi. Bu proses, məsələn, Azərbaycanda çox ağır getmişdir. 1988-ci ildə Azərbaycana qarşı erməni təcavüzü başlandı və bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olundu, bir milyondan çox Azərbaycan sakini öz yurd-yuvasından – işğal edilmiş rayonlardan didərgin salındı və onlar qaçqın vəziyyətində ağır şəraitdə, çadırlarda yaşayırlar. 1990-cı il 20 Yanvar faciəsi barədə danışdım. O vaxt xalq Azərbaycan barəsində ədalətsizliklərə qarşı çıxaraq kütləvi mitinqlər, yığıncaqlar keçirirdi, Sovet qoşunlarının iri kontingentini Azərbaycana yeridib çoxlu adamı məhv etdilər. Bu da əslində xalqa qarşı soyqırımı idi.

Bundan əlavə, Azərbaycanın özündə daxili vəziyyət sabit deyildi. Müxtəlif siyasi qruplaşmalar, qanunsuz silahlı dəstələr peyda olmuşdu və hakimiyyət uğrunda mübarizə başlanmışdı. Nəticədə həmin dövrdə hakimiyyət üç dəfə dəyişdi. Hakimiyyət dəyişikliyi 1992-ci ildə baş verdi. Xalq Cəbhəsi hakimiyyətə gəldi və bir il ərzində nüfuzunu itirdi. 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlandı. Azər[213-214]baycanda müxtəlif silahlı dəstələr arasında hakimiyyət uğrunda mübarizə və eyni zamanda təcavüz davam edir, Azərbaycan öz ərazisinin müdafiəsi uğrunda vuruşurdu.

Lakin 1993-cü ildən sonra biz vəziyyəti tədricən sabitləşdirməyə, – siz bunu bilirsiniz, – vətəndaş müharibəsini dayandırmağa müvəffəq olduq, hərçənd 1994-cü və 1995-ci illərdə Azərbaycanda konstitusiyalı hakimiyyəti silahlı yolla devirməyə yenidən cəhd göstərildi. Biz bunun da qarşısını aldıq. Son iki ildə Azərbaycanda daxili siyasi, ictimai vəziyyət sabitləşibdir. Camaat sabit və dinc yaşayır. Üç il bundan əvvəl biz Ermənistanla atəşkəs haqqında saziş bağladıq. İndi müharibə getmir, qan tökülmür, tələfat yoxdur. Biz Ermənistan-Azərbaycan münaqişəsini dincliklə aradan qaldırmağa çalışır, danışıqlar aparırıq. 1988-ci ildən 1993-cü ilədək Azərbaycanda vəziyyət barədə qısa məlumat proseslərin Azərbaycanda və Özbəkistanda necə getdiyi haqqında sizdə təsəvvür yaradır.

Şübhəsiz ki, Azərbaycanda özünəməxsus şərait var idi – erməni təcavüzü daxildə çox şeyi dəyişmişdi. Ancaq bununla belə, Azərbaycanda layiqli lider olmadı ki, xalqı birləşdirə bilsin, hətta xarici hərbi təcavüzü də nəzərə alaraq Azərbaycan Respublikasına, Azərbaycan xalqına çox böyük zərər vuran daxili qarşıdurmaya, daxili mübarizəyə yol verməsin.

Özbəkistanda siz öz dövlət müstəqilliyinizi əldə etdikdən sonra respublikanızda keçdiyiniz yolu məhz bu baxımdan təhlil edib qiymətləndirməlisiniz. Sizin də problemləriniz, çətinlikləriniz var. Bu, təbiidir. Keçid dövrü heç kim üçün, heç bir ölkə üçün asan olmamışdır. Ancaq siz bu çətinlikləri uğurla aradan qaldırır, bütün bu mərhələlərdən müvəffəqiyyətlə keçir, iqtisadi islahatları həyata keçirirsiniz. Demokratikləşdirmə prosesi

gedir, Özbəkistanın özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla bütün sahələrdə demokratiya prinsipləri bərqərar olur. Bir də deyirəm, bunların hamısı məhz ona görə mümkün olmuşdur ki, həmin tarixi məqamda sizin respublikanızın başında [214-215] İslam Kərimov durmuşdur. O, öz üzərinə çox böyük məsuliyyət və bütün bu prosesin böyük ağırlığını götürmüşdür və müstəqillik şəraitində Özbəkistanı bacarıqla, uğurla irəliyə doğru aparır.

Liderin, şəxsiyyətin rolunun nə demək olduğunu konkret olaraq bu misal və bir çox digər misallar inandırıcı şəkildə göstərir. Özbəkistanda tarixin yaxşı bildiyim son dövründə belə lider, belə şəxsiyyət, məhz görkəmli şəxsiyyət İslam Abduqəniyeviçdir. Dünən və bu gün biz bir çox məsələlər barəsində ətraflı fikir mübadiləsi etmişik. Bütün məsələlərdə mövqelərimiz eyni, baxışlarımız oxşardır. Hər ikimizin qəti mövqeyi belədir ki, ölkələrimiz üçün dövlət müstəqilliyi dönməz hadisədir, bizim gələcəyimizdir. Ən başlıcası isə odur ki, Özbəkistan üçün, Azərbaycan üçün dövlət müstəqilliyi əbədidir. Dünən və bu gün İslam Abduqəniyeviç ilə keçirdiyimiz bütün görüşlərdən çıxardığım ən böyük nəticə budur.

Mən şadam ki, bütün tarix boyu dostluq etmiş, bir-birini dəstəkləmiş, sıx bağlı olmuş xalqlarımız indi, tarixin bu çox mühüm kəsiyində, XX əsrin başa çatdığı, XXI əsrə daxil olduğumuz bir vaxtda milli dövlət quruculuğumuzun, müstəqil dövlətimizin təşəkkülü və formalaşması prosesinin getdiyi bir dövrdə biz yenə də bir-birimizlə sıx bağlıyıq. Biz bir sıra sənədlər, o cümlədən də dostluq və əməkdaşlıq haqqında sənəd, tərəfdaşlıq haqqında sənəd, əməkdaşlığımızın daha da genişləndirilməsi haqqında sənəd imzalamışıq. Bu sənədlərin hamısı yaxşı hüquqi bazadır. Ancaq ən başlıcası odur ki, bizim düşüncələrimiz, arzularımız, respublikalarımızı, xalqlarımızı haqqında dünən və bu gün İslam Abduqəniyeviçlə razılığa gəldiyimiz prinsiplər əsasında daha sıx birləşdirir.

Mən şadam ki, hazırda Özbəkistan yüksəlişdədir. Özbəkistanda bu cür müsbət proseslər gedir. Mən şadam ki, Özbəkistan Dünya Birliyində layiqli yerini tutubdur. Bu illər ərzində Özbəkistanın nüfuzu xeyli yüksəlibdir. Mən yenə müqayisə [215-216] etmək istəyirəm. Özbəkistan həmişə diqqəti cəlb edən ölkə olubdur. Ancaq nə vaxtsa onun bugünkü kimi belə beynəlxalq nüfuzu olubmu? Müstəqillik – Özbəkistan Respublikasının apardığı, Özbəkistan prezidenti İslam Kərimovun apardığı ağıllı, düzgün xarici siyasət deməkdir.

Bütün bunlar Özbəkistanın parlaq gələcəyin astanasında olmasından xəbər verir. Əziz dostlar, mən sizə və sizin şəxsinizdə bütün özbək xalqına səmimi qəlbdən səadət və xoş həyat arzulayıram. Əminəm ki, müstəqillik yolunda sizin hamınızı gözəl gələcək gözləyir və biz həmişə sizin uğurlarınıza sevinəcəyik. Şübhəsiz ki, bizim sıx əlaqələrimiz, əməkdaşlığımız bu işə xidmət edəcək, Özbəkistanda da, Azərbaycanda da sosial-siyasi sahədə, iqtisadi həyatda bütün dəyişikliklərin daha uğurla keçirilməsinə, bir də deyirəm, daha yüksək sürətlə irəliləməyimizə imkan yaradacaqdır.

Mən başa düşürəm ki, bütün bu işlərdə alimlərin, professorların, elmin, ali təhsilin, universitetin rolu çox böyükdür. Mən şübhə etmirəm ki, Özbəkistanın elmi mərkəzi olan, yüksək ixtisaslı kadrlar hazırlanmasında mühüm rol oynayan Daşkənd Dövlət Universiteti bu gözəl prosesin fəal iştirakçısı olacaq, Daşkənd Universiteti ilə Bakı Universiteti, Özbəkistanın və Azərbaycanın alimləri, elm və mədəniyyət xadimləri arasında əlaqələr özbək və Azərbaycan xalqlarının dostluq və qardaşlığını bundan sonra da möhkəmləndirməkdə bizə kömək edəcəkdir.

Mənə burada göstərdiyiniz yüksək şərəfə görə bir daha təşəkkürümü bildirmək, universitetin professor-müəllim heyətinə, tələbələrinə, Özbəkistanın bütün gənclərinə səadət və xoş həyat arzulamaq istəyirəm. Prezident İslam Kərimov başda olmaqla özbək xalqına gələcək uğurlar, gələcək tərəqqi diləmək istəyirəm. Sağ olun.

Sizə Özbəkistanda da, Azərbaycanda da eyni dərəcədə əziz tutulan böyük Məhəmməd Füzulinin portretini hədiyyə etmək [216-217] istəyirəm. Bu, bizim qohumluğumuzu, zəngin keçmişimizi bir daha və bir daha xatırladacaq və gözəl gələcəyimizə xidmət edəcəkdir.

Sizin kitabxananız üçün Azərbaycan haqqında kitablar, Azərbaycanın müxtəlif müəlliflərinin kitablarını bağışlamaq istəyirəm. Hesab edirəm ki, bunlar da sizin kitabxananızı zənginləşdirəcəkdir. [217-218]

## ÖZBƏKİSTANDA AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*19 iyun 1997-ci il*

Çox hörmətli İslam Abduqəniyeviç!

Möhtərəm qonaqlar, dostlar, xanımlar və cənablar!

Bu gün həqiqətən çox böyük tarixi əhəmiyyəti olan hadisə baş verir. Biz dünən və bu gün çox sözlər dedik və çox nitqlər söylədik ki, Özbəkistan və Azərbaycan xalqları ümumi qədim tarixə, çoxəsrlik əməkdaşlıq, dostluq və qardaşlıq ənənələrinə malikdirlər. Ötən ilin mayında Özbəkistan prezidenti İslam Kərimovun Azərbaycana ilk səfəri oldu və bu səfər Özbəkistan ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə yeni dövr, yeni mərhələ açdı.

Azərbaycan prezidentinin Özbəkistana rəsmi səfəri iki gündür ki, davam edir. Bu səfər ötən ilin mayında bizim birlikdə başladığımız böyük işin davamıdır. Artıq qırxadək təməl sənədi imzalanmışdır. Onlar əməkdaşlığımızın müqavilə-hüquqi əsasını müəyyənləşdirir və zənnimcə, əməkdaşlığımızı daha da genişləndirmək və dərinləşdirmək üçün yaxşı bazadır, yaxşı proqramdır. Təkrar edirəm, özbək xalqı ilə Azərbaycan xalqı arasında çoxəsrlik dostluq və əməkdaşlıq tarixində yeni mərhələ, yeni dövr belə başlanmışdır.

Bununla əlaqədar bu hadisə çox böyük əhəmiyyətə malikdir – müstəqil Azərbaycan dövlətinin Mərkəzi Asiyada ilk səfirliyi açılır. İlk səfirliyi! Bilirsinizmi, indi biz bu hadisələrə bəlkə [218-219] də öyrəşmişik, insan yeni şəraitə asanlıqla öyrəşir, keçmişdə olanları çox asanlıqla unudur. Bir görün, münasibətlərimiz neçə illər, neçə qərinələr, neçə əsrlər boyu mövcud olmuşdur. Lakin bu münasibətlər heç vaxt indiki kimi belə səviyyədə olmayıb. Özbəkistan ilə Azərbaycan arasında diplomatik əlaqələr yaradıldıqdan, Özbəkistan prezidentinin Azərbaycana ilk rəsmi səfərindən sonra yüksələn səviyyədə olmayıb. Bəli, bizim münasibətlərimiz, dostluğumuz olmuşdur, amma Azərbaycanı Özbəkistanda təmsil edən rəsmi nümayəndəliyi kimi səfirliyimiz olmamışdı. İndi isə var. Ona görə də bu, çox böyük əhəmiyyətə malik hadisədir, tarixi əhəmiyyətli hadisədir.

Azərbaycanın Mərkəzi Asiyada özünün ilk səfirliyini məhz Özbəkistanda açması da təsadüfi deyildir. Biz buna çalışırdıq. Çalışırdıq ki, müstəqillik əldə etdikdən sonra Özbəkistanla Azərbaycan arasında diplomatik münasibətlər, dövlətlərarası sıx münasibətlər yaradaq. Biz Azərbaycan tərəfinin təqsiri üzündən, Azərbaycanın bəzi rəhbərlərinin təqsiri üzündən bir neçə il itirdik. Bu rəhbərlər Azərbaycanın müstəqilliyi elan olunduqdan sonra öz xalqı – Azərbaycan xalqı barəsində qeyri-düzgün, xalqa zidd, millətə zidd mövqe tutaraq, Özbəkistanla Azərbaycan arasında münasibətləri qəlizləşdirmişdilər, halbuki xalqlarımız arasında münasibətlərin böyük fayda, böyük səmərə gətirməsi, Özbəkistanı da, Azərbaycanı da sevindirməsi üçün onları inkişaf etdirmək lazım idi. Təkrar edirəm, biz öz günahımız üzündən vaxtı itirdik. Bax, buna görə də çalışırdıq ki, Mərkəzi Asiya dövlətlərində Azərbaycanın səfirliyinin açılmasında ilk addımı məhz burada, Özbəkistanda ataq. Ancaq ona görə yox ki, biz vaxtı itirmişdik, həm də ona görə ki, Özbəkistan burada, bu bölgədə çox mühüm yer tutur.

Özbəkistanla əlaqələrimiz çox sıxdır. Ötən ilin mayında Bakıda və indi, dünən və bu gün apardığımız danışıqlar, imzaladığımız sənədlər əsasında indi əsl tərəfdaşlıq münasibətləri [219-220] yaranmışdır. Biz bir çox, əslində bütün beynəlxalq məsələlərdə, regional məsələlərdə, Asiya bölgəsində, Avropada, bütün dünyada, Qafqazda təhlükəsizlik məsələlərində mövqelərin eyniliyini, oxşarlığını, uyğunluğunu qeyd etdik. Bu da xüsusilə vacibdir ki, biz – Özbəkistan prezidenti və Azərbaycan prezidenti yekdilliklə bəyan etdik ki, ölkələrimizin dövlət müstəqilliyi dönməzdir, bu, əbədi haldır və biz dövlət müstəqilliyimizə xələl gətirilməsinə heç vaxt yol verməyəcəyik, heç vaxt yol verməyəcəyik ki, bizi hansısa bir ittifaqa cəlb etsinlər. Biz əldə etdiyimiz hətta kiçicik nailiyyətlərimizi belə qismən də olsa itirməyə heç vaxt yol verməyəcəyik. Bu, çox vacibdir ki, məhz bu mühüm məsələdə Özbəkistanın və Azərbaycanın mövqeləri, Özbəkistan prezidentinin və Azərbaycan prezidentinin mövqeləri tamamilə uyğun gəlir.

Bütün bunlar Azərbaycanın Özbəkistandakı səfirliyinin fəaliyyəti üçün də yaxşı zəmindir. Şadam ki, Azərbaycanın Özbəkistandakı səfirliyi artıq fəaliyyət göstərir. Şadam ki, səfirliyimizə Daşkəndin belə gözəl bir guşəsində yaxşı bina, yaxşı bağ verilmişdir. Bu, Özbəkistan hökuməti və Özbəkistan prezidenti, şəxsən islam Abduqəniyeviç tərəfindən Azərbaycana, Özbəkistan-Azərbaycan münasibətlərinə göstərilən diqqətin təzahürüdür.

İslam Abduqəniyeviç, bu diqqətə görə, dostluq hisslərinə görə, Özbəkistanda Azərbaycan səfirliyinin yaradılması problemlərinə göstərdiyiniz xoş münasibətə görə sizə təşəkkür edirəm.

Göstərdiyiniz səylərə görə sizə təşəkkür edirəm. Bu səylər artıq ona gətirib çıxartmışdır ki, biz bu gün Azərbaycanın Özbəkistandakı səfirliyinin ərazisindəyik. Ümidvaram bu səfirlik həm Azərbaycanın səfirliyi, həm də Özbəkistanın səfirliyi olacaq, münasibətlərimizi daha da möhkəmlətmək və inkişaf etdirmək funksiyalarını eyni dərəcədə yerinə yetirəcəkdir. [220-221] Ümidvaram ki, biz Özbəkistanın Azərbaycanda səfirliyinin açılışını da alqışlamaq imkanına malik olacağıq.

Mən sizin hamınızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Mən Azərbaycanı buradakı, Özbəkistandakı səfirliyinin işçilərini təbrik edirəm. Mən Özbəkistanda yaşayan azərbaycanlıları təbrik edirəm. İndi onlar üçün daha elə bir yer var ki, onlar öz səylərini onun ətrafında birləşdirə biləcəklər. Hərçənd bizə məlumdur ki, Özbəkistanda azərbaycanlılar yaxşı yaşayırlar, Azərbaycan vətəndaşlarımın bütün hüquqlarına malikdirlər, Özbəkistan vətəndaşları ilə tamamilə bərabər hüquqludurlar. Özbəkistanın ictimai-siyasi, dövlət həyatında iştirak edirlər. Təkrar edirəm: Özbəkistan Respublikasının bütün sərvətlərindən faydalanırlar. İslam Abduqəniyeviç, mən sizə buna görə də minnətdaram. 40 mindən artıq azərbaycanlı burada özlərinə vətən tapmışdır. Onların çoxu burada doğulmuş, burada böyüyüb başa çatmışdır, onlar üçün özbək torpağı doğma torpaqdır. Şadam ki, Özbəkistanı və Azərbaycanı, xalqlarımızı bir-birinə sıx bağlayan insanlar vardır.

Mən sizin hamınızı bu hadisə münasibətilə bir daha təbrik edirəm və Azərbaycanın Özbəkistandakı səfirliyinə öz vəzifəsini – Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığı, dostluğu genişləndirib möhkəmlətmək vəzifəsini həyata keçirməkdə uğurlar arzulayıram.

**Özbəkistanda Azərbaycan Respublikası**
**səfirliyinin fəxri qonaqlar kitabına**
**ürək sözləri:**

*"Azərbaycan Respublikasının Özbəkistanda səfirliyinin fəaliyyətə başlaması və səfirliyin binasının açılması Özbəkistan-Azərbaycan əlaqələrində əlamətdar hadisədir. İnanıram ki,* [221-222] *səfirlik ölkələrimizin, dövlətlərimizin arasında yaranmış mövcud əlaqələrin inkişaf etdirilməsində xidmətlərini göstərəcəkdir, müstəqil Azərbaycanın milli mənafelərini sədaqətlə təmsil edəcəkdir. Səfirliyə uğurlar arzulayıram.*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti"**
[222-223]

## DAŞKƏNDDƏ
## AZƏRBAYCAN SƏFİRLİYİ BİNASINDA
## SOYDAŞLARIMIZLA – ÖZBƏKİSTANDAKI
## AZƏRBAYCAN DİASPORUNUN
## NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*19 iyun 1997-ci il*

Bu gün mən səfirliyin binasının açılışı zamanı bir neçə fikirlərimi bildirdim. İndi buraya Özbəkistanda yaşayan azərbaycanlıların az bir qrup nümayəndəsi yığışıbdır. Sizə də demək istəyirəm ki, biz indi müstəqil dövlət olan Azərbaycanda dünyanın hər yerində yaşayan azərbaycanlıları özümüzə doğma hesab edirik və onlara diqqət, qayğı göstərməyi özümüzə borc sayırıq.

İndi Azərbaycanın müstəqil dövlət olmasının əsas müsbət nəticələrindən biri də odur ki, biz bütün azərbaycanlılara bilavasitə, birbaşa öz münasibətimizi göstərə bilirik və onları soydaşlarımız kimi hər yerdə həm qiymətləndirə, həm də onlarla əlaqə yarada bilirik.

Mən Daşkəndə keçmiş zamanlarda da gəlmişəm. Siz, atalarınız, babalarınız burada çoxdan yaşayırsınız. Ancaq o vaxtlar mən Daşkəndə gələndə desəydim ki, azərbaycanlıları yığın, onlarla danışmaq istəyirəm – bu o qədər də yaxşı qəbul olunmazdı, demək olar, mümkün də deyildi. Təkcə Özbəkistanda yox, o vaxtkı başqa müttəfiq respublikalarda da olanda ayrı-ayrı azərbaycanlılar öz təşəbbüsləri ilə görüşürdülər. Amma mən deyə bilmirdim ki, biz müstəqil dövlətik, bunlar da [223-224] bizim xalqımızın bir parçasıdır. Onda hamımız vahid Sovet İttifaqının, Sovet dövlətinin vətəndaşları idik. Ona görə də harada – Özbəkistanda, Gürcüstanda, Azərbaycanda yaşayırsan, azərbaycanlısan, özbəksən, russan – fərqi yoxdur, hamısı bir idi.

Bu baxımdan müstəqilliyimiz bizə çox şey veribdir. Amma müstəqilliyimizin bizə verdiyi ən böyük nemətlərdən, ən böyük müsbət nəticələrdən aydın olur ki, indi dünyanın hər yerində yaşayan azərbaycanlılara soydaşlarımız kimi həm qayğı göstərmək, həm onlarla əlaqə yaratmaq, həm də onların hüquqlarının qorunması haqqında düşünmək və onlarla tez-tez görüşmək imkanlarımız var. Bunlar tamamilə aydın məsələdir. İndi görürsünüz, burada Azərbaycanın səfirliyi açılıbdır, bu gün onun binasının açılışını qeyd etdik. Özbəkistanın Prezidenti də, başqa yüksək vəzifəli şəxslər də buraya gəliblər. Bu, Azərbaycanın kiçik bir hissəsidir, burada azərbaycanlılarla, sizinlə görüşürlər.

Bu, çox böyük nailiyyətdir. Amma, güman edirəm, nailiyyətlərimizin hələ ilk bəhrələridir. Bundan səmərəli istifadə etməliyik və get-gedə dünya azərbaycanlılarının həmrəyliyini, birliyini təmin etməliyik.

Dünyada azərbaycanlı çoxdur. Elə keçmiş Sovetlər İttifaqının ərazisində çoxlu azərbaycanlı yaşayır. Məsələn, bir həftə bundan öncə mən Qazaxıstanda idim. Mənə dedilər ki, orada 110 min azərbaycanlı yaşayır. Burada dedilər 44 min azərbaycanlı yaşayır. Qırğızıstana getmişdim, dəqiq yadımda deyil, 40 minə qədər azərbaycanlı yaşayır. Rusiyada, Ukraynada çox azərbaycanlı yaşayır, Baltikyanı ölkələrdə də azərbaycanlılar yaşayırlar. Mən keçmiş Sovetlər İttifaqı məkanını deyirəm. Amma məlumdur ki, Avropada, Amerikada da çoxlu azərbaycanlı yaşayır. Bunların bir qismi İrandan köçmüş azərbaycanlılardır. Amma İranın özündə də indi deyirlər ki, 30 milyona qədər azərbaycanlı yaşayır. Doğrudur, onlar İranın vətəndaşlarıdır, necə ki, siz də Özbəkistanın və[224-225]təndaşlarısınız, bu tamam təbii bir şeydir və təəccüblü də olsa heç nə yoxdur. İranda yaşayan azərbaycanlılar İranın vətəndaşlarıdır, amma onlar azərbaycanlıdır. Azərbaycan millətinə mənsubdurlar. Onlarda azərbaycanlı qanı, Azərbaycan ənənəsi, ruhu var.

Bunların hamısını bir yerə toplayanda, dünyada azərbaycanlıların sayı çoxdur və mən məmnunam ki, çoxdur. Bizim millətimiz tarixi keçmişində də çoxsaylı olubdur. İndi də bizim azərbaycanlıların bir çox dünya ölkələrinə səpələnməsi mənfi hal deyildir. Mən hesab edirəm ki, millətin hamısı yığışıb bir ölkədə, bir məkanda yaşamamalıdır. Şübhəsiz, hər millətin bir vətəni olur. Mən hesab edirəm ki, bütün azərbaycanlıların Vətəni Azərbaycandır. Xoşbəxtlikdən bizim millətimizin adı da azərbaycanlı, ölkəmizin adı da Azərbaycandır. Ancaq Özbəkistanda yaşayan azərbaycanlı Özbəkistanın, Qazaxıstanda yaşayan – Qazaxıstanın vətəndaşıdır və Qazaxıstanın vətəndaşı vəzifəsini həyata keçirərkən, eyni zamanda azərbaycanlılığı da daim onda yaşadır. Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələri heç vaxt unudulmur. Bunlar unudulmaz.

Bilirsiniz, 70 illik Sovet hakimiyyəti vaxtında xalqları çox böyük sınaqlardan, imtahanlardan keçirdilər. Məsələn, indi səfir də dedi ki, sizin bir çoxunuz, ailələriniz Azərbaycandan buraya sürgün olunubdur. Sürgünlük zamanı bu ailələrin başına nə bəlalar gəldiyini siz bizdən yaxşı bilirsiniz, amma biz də bilirik, şəxsən mən də bilirəm nə qədər insanlar tələf olub, nə qədər itkilər verilib, nə qədər qurbanlar gedibdir. Məsələn, mən Qazaxıstanda maraqlanırdım, – gedib orada hansısa vilayətdə, hansısa kənddə yerləşiblər. Bu, Azərbaycandan çox uzaqdır, Qazaxıstanın mərkəz şəhərlərindən də uzaqdır. Amma bir kənddə toplaşıblar və bütün adət-ənənələrini, milli, mədəni, dini ənənələrini, mənəvi dəyərlərini qoruyub saxlayıblar. Baxmayaraq ki, çoxunun Azərbaycanla uzun illər əlaqəsi olmayıbdır. Yəni təbii olaraq hər bir insanın daxilində, [225-226] vücudunda cəmlənən, həm də ailədə aldığı tərbiyə nəticəsində cəmlənən mənəvi dəyərlər, potensial var ki, onu heç vaxt

öldürmək mümkün deyildir. O yaşayır, bütün çətinliklərdə də yaşayacaq. Bəlkə də dözməyə, onların üstündən məharətlə keçməyə kömək edən amillərdən biri odur ki, insanlar milli dəyərlərindən ayrılmırlar.

Buna görə də mən çox əminəm ki, siz burada uzun illər, on illərlə yaşayaraq həm bu cəmiyyətə qatışmısınız, həm bu ölkənin həyatında fəal iştirak edirsiniz, özünüz üçün həyat qurmusunuz, yaşayırsınız, təhsil alırsınız, uşaqlarınızı böyüdür, onlara təhsil verirsiniz, həm də ki, azərbaycanlılığınızı, milliliyinizi və Azərbaycanla əlaqələrinizi qoruyub saxlamısınız. Bu çox təqdirəlayiqdir. Mən məmnunam ki, bu belədir.

Azərbaycanın dövlət başçısı, Prezident kimi mən dünyanın hər yerində yaşayan azərbaycanlını özümə doğma adam, doğma insan hesab edirəm. Hesab edirəm ki, dünyanın hər yerində yaşayan azərbaycanlıya imkan dairəsində qayğı, diqqət göstərməliyəm, kömək etməliyəm. Eyni zamanda azərbaycanlılar da harada yaşasalar da öz ana Vətəninə, doğma Vətəninə qayğı göstərməlidirlər, imkanları dairəsində kömək etməlidirlər, onu unutmamalıdırlar, öz ana Vətəninin, doğma Vətəninin qayğıları ilə yaşamalıdırlar.

Bu baxımdan bir çox ölkələrdə olan Azərbaycan diasporu başqa ölkələrin diasporları ilə müqayisədə o qədər də fəal görünmür. Bilirsiniz ki, son illər, 1988-ci ildən bəri Azərbaycanın ən böyük problemi Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın başına gələn faciələr, bəlalardır, baş vermiş itkilərdir. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib, bu yerlər viran olunubdur. Nə qədər insanlar şəhid olublar. Torpaqlarımızın bir hissəsinin işğalı bizim ərazi bütövlüyümüzün pozulmasına gətirib çıxarıbdır. [226-227]

Son illər biz Azərbaycanın başına gəlmiş bu bəlanı bütün dünyaya olduğu kimi tanıtmaq istəyirik. Biz Ermənistana hücum etməmişik, Ermənistan Azərbaycana hücum edib, biz gedib Ermənistanın ərazisini işğal etməmişik, Ermənistan gəlib Azərbaycanın ərazisini işğal edib. Belə olan halda ermənilərin təbliğatı və ayrı-ayrı ölkələrdəki erməni diasporunun o balaca erməni dövləti, Yerevan dövləti ilə bağlılığı o qədər güclü olubdur ki, onların qarşılıqlı fəaliyyəti nəticəsində ölkələrin əksəriyyətində Qərb ölkələrində, Amerikada, Rusiyada belə ümumi fikir yaranıb ki, ermənilərin belə bir günahı yoxdur, guya günah azərbaycanlılardadır. Başa düşürsünüzmü! Necə deyərlər, döyülən də biz, söyülən də biz. Təcavüzə məruz qalan da biz, torpaqları işğal olunan da biz, amma ad çıxıbdır ki, guya günahkar azərbaycanlılardır, ermənilər deyillər.

1992-ci ildə Amerika Konqresi qərar çıxarıb ki, Azərbaycana Amerika tərəfdən hər cür yardım göstərilməsi qadağandır, embarqo qoyulub. Guya ona görə ki, Azərbaycan Ermənistanı blokadaya alıbdır. Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal edib, Azərbaycanın özü, demək olar, blokadaya alınıb, Azərbaycanın bir hissəsi olan Naxçıvan tamamilə blokadada yaşayır, ancaq beş il bundan qabaq Amerika Konqresi belə bir qərar çıxarıbdır. Təsəvvür edin, baxmayaraq ki, Amerikada da Azərbaycan haqqında fikri tamamilə dəyişdirə bilməmişik, amma üç ildir ki, Konqresin qərarını ləğv edə bilmirik. Tək o deyil ki, bu, kağız üzərində olan bir qərardır. Amerika keçmiş Sovetlər İttifaqına daxil olmuş dövlətlərin hamısına maddi və maliyyə yardımı edir. Amma Azərbaycana heç bir yardım göstərilmir. Biz bu yardımdan məhrumuq. İndi görün, iş nə yerdədir. Təcavüzə məruz qalan da, günahlandırılan da bizik.

Bunların da səbəblərindən biri, əsası bir tərəfdən Azərbaycan dövlətinin özünün bütün ölkələrdə Azərbaycan həqiqətini, reallığını yaymaq üçün fəaliyyətinin zəif olması, ikinci [227-228] tərəfdən də Ermənistana nisbətən başqa ölkələrdə – Avropa, Qərb ölkələrində, Amerika Birləşmiş Ştatlarında diasporunun zəif olması, olan diasporu da çox zəif fəaliyyət göstərməsi və bunun müqabilində Ermənistanın diasporunun geniş, çoxsaylı olması və sayından da asılı olmayaraq, fəaliyyətinin çox güclü olmasıdır. Amerikada bir milyon erməni yaşayır. 250 milyon əhali ilə müqayisədə bir milyon o qədər də böyük faiz təşkil etmir. Amma o ermənilər tutduqları cürbəcür vəzifələrə, işlərə görə Amerikanın siyasətinə təsir edirlər. Amerikada cürbəcür təşkilatlar yaradıblar və Ermənistanın mənafeyini müdafiə etməyə çalışırlar.

Bu baxımdan mən istəyirəm ki, Azərbaycanda gedən o böyük proseslər, – bilirsiniz ki, Azərbaycanda çox böyük dəyişikliklər baş veribdir. Gərək müxtəlif ölkələrdə olan soydaşlarımız Azərbaycanla əlaqəsini gücləndirsin, daha da çox qayğı göstərsinlər. Ən böyük qayğı da ondan ibarət ola bilər ki, Azərbaycanın vəziyyəti haqqında, Ermənistan-Azərbaycan münaqişəsi haqqında, Ermənistanın respublikamıza qarşı etdiyi cinayətlər, təcavüz haqqında hər yerdə düzgün təsəvvür yarada bilsin.

Mən dünən də, bu gün də harada ki, danışmağa, çıxış etməyə imkanım olub, bunları demişəm. Ancaq şübhəsiz ki, mən hər bir auditoriyanı əhatə edə bilmərəm. Güman edirəm ki, burada bizim səfirliyimiz yaranandan sonra səfirlik də və siz də onun ətrafında birləşib birinci növbədə bu məsələlərlə məşğul olacaqsınız. Məsələn, hesab edirəm ki, Özbəkistanda ermənilər azərbaycanlılardan sayca azdır. Amma mən görürəm ki, burada ermənilər azərbaycanlılardan güclüdürlər. Elə bu gün Prezident İslam Kərimov ilə də yada salırdıq. Mən keçmiş zamanlarda buraya gəlmişəm, burada Baş nazir vardı – Qabrielyan, bütün işləri o aparırdı, hər şey onun əlində idi. Amma təkcə Qabrielyan deyildi, yüksək vəzifələrdə o qədər erməni vardı. İndi var-yox, onu bilmirəm, [228-229] amma o vaxt mən bunu gözümlə görmüşəm. Onlar həm Ermənistanı təbliğ ediblər, həm də erməni siyasətini aparıblar. Ermənilərin, təəssüflər olsun ki, ən birinci düşmənçilik etdiyi, – biz onlara düşmənçilik etmədik, onlar bizimlə düşmənçilik etdilər, – millət türklərdir. Yəni Türkiyədir, Azərbaycandır və ümumiyyətlə türklərdir.

Güman edirəm ki, təbliğat sahəsində işi əsas bu istiqamətdə aparmaq lazımdır. Qalan məsələlər –

Azərbaycanın həqiqətlərini, başqa həqiqətləri də yaymaq. Özbəkistan cəmiyyətinə çatdırmaq, bildirmək də, hesab edirəm ki, azərbaycanlı kimi sizin borcunuz, vəzifəniz olmalıdır. Biz isə çalışırıq ki, əlaqələri daha da artıraq. Mən bu gün dedim, Mərkəzi Asiya ölkələrində birinci səfirlikdir ki, Özbəkistanda açmışıq. Bu ona görədir ki, biz bu ölkəyə çox böyük fikir veririk və onunla əlaqələrimizə çox böyük əhəmiyyət veririk. Hesab edirəm ki, siz bizim bu siyasətimizə uyğun olaraq, burada Azərbaycanın mənafeyi üçün öz işlərinizi görməlisiniz.

Çox şey demək olar, amma mən hesab edirəm ki, əsas fikirləri söylədim. Sizin hamınıza cansağlığı, səadət arzu edirəm. Azərbaycanla əlaqələrinizi daha da genişləndirməyə çalışın, biz də çalışacağıq ki, sizinlə əlaqələri genişləndirək.

Sağ olun. [229-230]

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ MİLLİ BAYRAMI – ÜLYAHƏZRƏT KRALİÇA II YELİZAVETANIN DOĞUM GÜNÜ MÜNASİBƏTİLƏ İNGİLTƏRƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*"Hyatt-Recensi-Naxçıvan" mehmanxanası*

*26 iyun 1997-ci il*

Hörmətli cənab səfir, hörmətli xanımlar və cənablar! Sizin hamınızı Böyük Britaniyanın milli bayramı – ülyahəzrət kraliçanın doğum günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə, Böyük Britaniya xalqına sülh, əmin-amanlıq, səadət arzulayıram.

Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında son illər yaranmış və sürətlə inkişaf edən əlaqələr və xüsusən iqtisadi əlaqələr bizi məmnun edir. İndiyədək ölkələrimiz arasında yaranmış əlaqələri və əldə olunan nailiyyətləri yüksək qiymətləndiririk. Bunlar Böyük Britaniyanın Azərbaycan Respublikasına, onun dövlətinə, iqtisadiyyatına göstərdiyi marağın və diqqətin nəticəsidir. İkinci tərəfdən, Azərbaycan Respublikasının bütün dünya üçün və bütün ölkələr üçün açıq olmasının, açıq əməkdaşlıq etmək prinsiplərini əsas tutmasının, Azərbaycana investisiya qoyulması sahəsində çox əlverişli şərtlərin olmasının nəticəsidir. Məhz bunların əsasında son illər Böyük [230-231] Britaniyanın şirkətləri və xüsusən böyük şirkətləri, ələlxüsus "Britiş petroleum" Azərbaycanla artıq yaxşı iqtisadi əlaqələr yaradıblar, səmərəli iş görürlər və hesab edirəm ki, bu işlərin bu gün yaxşı nəticələri var və gələcəyi daha da ümidvericidir. Bu əlaqələrin yaranmasında Britaniya hökumətinin də çox böyük rolu olmuşdur. Çünki Böyük Britaniya və Azərbaycan arasında hökumətlərarası müqavilələr imzalanıb və görülən işlərin çoxu o müqavilələrin əsasında yerinə yetirilibdir.

Biz Böyük Britaniyanın keçmiş hökuməti ilə də sıx, çox səmərəli əməkdaşlıq etmişik və Böyük Britaniya vətəndaşlarının seçkilər zamanı etimad göstərdiyi yeni hökumət ilə də sıx əməkdaşlıq etmək əzmindəyik. Hesab edirəm ki. xalq tərəfindən etimad alıb seçilmiş və kraliça tərəfindən təyin olunmuş Toni Bleyr hökuməti Britaniya xalqı üçün lazım olan tədbirləri görəcək və qarşıda duran problemlər həll olunacaqdır.

Britaniya dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkəsi kimi, demokratiya prinsiplərini, insan hüquqlarını əsas tutan bir ölkə kimi Dünya Birliyində bundan sonra da özünə layiq yeri tutacaqdır.

Böyük Britaniyanın dövlət və hökumət başçıları ilə həm Londonda. həm də beynəlxalq təşkilatlarda görüşlərim, danışıqlarım ölkələrimiz arasında olan əlaqələrin inkişaf etməsinə xidmət edibdir. Ümidvaram ki, bundan sonra da bu əlaqələr indiyə qədər olduğu kimi davam edəcəkdir və biz bu əlaqələrdən səmərəli istifadə etməyə çalışacağıq.

Bu bayram günü mən bir daha bəyan edirəm ki, Böyük Britaniya ilə Azərbaycan arasında yaranmış əməkdaşlıq və dostluq əlaqələrini qiymətləndiririk, bu əlaqələri bundan sonra da inkişaf etdirməyə çalışacağıq.

Böyük Britaniya xalqına, vətəndaşlarına bir daha sülh, əmin-amanlıq və bütün sahələrdə uğurlar arzulayıram. Bayramınız mübarək olsun! [231-232]

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
TSZYAN TSZEMİN CƏNABLARINA**

Zati-aliləri!

Çin Xalq Respublikasının Syanqan üzərində hakimiyyətinin bərpa edilməsi münasibətilə Sizi və bütün dost Çin xalqını bu əlamətdar tarixi hadisə ilə əlaqədar səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, dövlətlərimiz və xalqlarımız arasında mövcud olan dostluq münasibətləri bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyun 1997-ci il* [232-233]

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ UİLYAM C. KLİNTON CƏNABLARINA**

Hörmətli cənab prezident!

Sizi və bütün dost Amerika xalqını milli bayramınız – Amerika Birləşmiş Ştatlarının İstiqlaliyyət gününün iki yüz iyirmi birinci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm, Sizə və xalqınıza sülh, səadət və çiçəklənmə arzulayıram.

Fürsətdən istifadə edərək, Azərbaycanda gedən demokratik islahatlara verdiyiniz dəstəyə və Ermənistan-Azərbaycan münaqişəsinin ədalətlə, sülh yolu ilə aradan qaldırılmasına yönəldilmiş səylərinizə yüksək qiymət verirəm və Sizə ürəkdən təşəkkür edirəm.

Əminəm ki, ikitərəfli Amerika-Azərbaycan əlaqələri bu illərdə bizim birgə yaratdığımız möhkəm dostluq və əməkdaşlıq təməlinə söykənərək daim uğurlu olacaq, xalqlarımızın mənafelərinə xidmət edəcək və Qafqaz regionunda sülhün, azadlığın və demokratiyanın bərqərar olmasına gözəl imkanlar yaradacaqdır.

Vaşinqtonda görüşənədək.

Səmimiyyətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 iyul 1997-ci il* [233-234]

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ MƏSUD YILMAZ
CƏNABLARINA**

Zati-aliləri!

Sizi Türkiyə Respublikasının baş naziri seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dərin tarixi, milli, dini kökləri olan dostluq və qardaşlıq münasibətləri hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edir. Ümidvaram ki, həyatın bütün sahələrini əhatə edən əlaqələrimiz və qarşılıqlı surətdə faydalı əməkdaşlığımız bundan sonra daha da genişlənəcək və xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə bir daha öz dərin hörmət və ehtiramımı bildirirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 iyul 1997-ci il* [234-235]

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ BORİS YELTSİNİN DƏVƏTİ İLƏ MOSKVAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*2 iyul 1997-ci il*

**Sual: Cənab prezident, siz Azərbaycanda hakimiyyətə qayıdışınızdan sonrakı dörd il ərzində Rusiyaya bir neçə dəfə səfər etmisiniz. Lakin bu dəfəki səfəriniz Rusiyanın prezidenti Boris Yeltsinin rəsmi dəvəti ilə həyata keçirilir. Rusiyaya – Moskvaya əvvəlki səfərlərinizdən bu dəfəki səfər hansı xarakterik cəhətləri ilə fərqlənir?**

**Cavab:** Şübhəsiz, çox fərqlənir. Çünki Moskvaya əvvəlki səfərlərim işgüzar xarakter daşıyırdı və bunların əksəriyyəti Müstəqil Dövlətlər Birliyinin toplantıları, dövlət başçılarının görüşləri ilə əlaqədar idi. Bəzən başqa tədbirlər də olurdu. Məsələn, Moskvada Füzulinin yubileyi keçirilirdi, mən gedib orada iştirak etdim. Yaxud, İkinci dünya müharibəsində qələbənin yubileyi ilə əlaqədar olaraq mən Moskvada keçirilən mərasimlərdə iştirak etdim. Cürbəcür belə hallar olubdur.

Ancaq bu, Azərbaycanın prezidenti kimi mənim Rusiyaya ilk rəsmi səfərimdir. Səfər Rusiya prezidenti cənab Boris Yeltsinin dəvəti ilə həyata keçirilir. Bu səfər zamanı biz Rusiya-Azərbaycan əlaqələrinin bu günü və gələcəyi haqqında çox ətraflı danışıqlar aparacağıq. Rusiya ilə Azərbaycan arasında [235-236] dostluq və əməkdaşlıq haqqında böyük müqavilə imzalanması nəzərdə tutulubdur. İqtisadi sahədə bir çox sənədlər də imzalanacaqdır. Ona görə də bu səfər çox əhəmiyyətlidir və şübhəsiz ki, əvvəlki bütün səfərlərdən fərqlidir.

**Sual: Cənab prezident, Rusiya rəhbərliyi ilə müzakirələrə hansı məsələlər çıxarılacaqdır?**

**Cavab:** Bir çox məsələlər. Şübhəsiz ki, sizi Rusiyanın Ermənistana qeyri-qanuni silah verməsi məsələsi düşündürür. Bu məsələ bu ilin əvvəlində aşkar olunandan sonra mən Rusiyanın prezidenti Boris Yeltsinə xüsusi məktub göndərmişəm. Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin başçılarının martın sonunda Moskvada keçirilən qapalı toplantısında da mən bu barədə öz fikirlərimi, etirazımı bildirmişəm, Boris Yeltsinlə təkbətək görüşümdə də bunu demişəm. Xatirinizdədir, o vaxt Boris Yeltsin – hətta bu, mətbuat konfransında da elan olundu – bəyan etdi ki, bu barədə göstəriş veribdir, istintaq aparılır. Nəzərdə tutulurdu ki, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin başçılarının iyun ayında görüşü keçiriləcək və istintaqın nəticələri də bu zaman elan olunacaqdır. İndi bu görüş təxirə salınıbdır. Yaxşı ki, mən bu vaxt Moskvaya gedirəm.

Mən Rusiyanın bu barədə cavabını gözləyirəm. Bilirsiniz ki, bu silahların verilməsi barədə Rusiyanın öz mətbuatında son vaxtlar yeni-yeni çoxlu dəlillər gətirilir. Yəni bu silahların verilməsi bizdə şübhə doğurmur, bizim əlimizdə çoxlu başqa dəlillər də vardır. Bu silahların verilməsi sənədlərlə sübut edilir. Bu, əsas məsələlərdən biridir. Şübhəsiz ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi barədə məsələ də bizim danışıqların mərkəzində olacaqdır. Çünki Rusiya Minsk qrupunun həmsədridir. İyunun 20-də Amerikanın Denver şəhərində üç ölkənin – Rusiyanın, ABŞ-ın və Fransanın prezidentləri bu barədə bəyanat veriblər. Bu sahədə nə işlər görüləcək, Rusiya bundan sonra nə edə bilər – bu da müzakirə olunacaqdır. [236-237]

İqtisadi əlaqələr məsələsi də müzakirə ediləcəkdir. Çünki bilirsiniz ki, Rusiyadan ölkəmizin blokadası üçün sanksiyalar qoyulmuşdur. Bizim gəmilərin Volqa-Don kanalına girməsi hələ indiyədək qadağandır. İndi məsələ qaldırmışıq ki, bu açılsın. Bu və bütün başqa iqtisadi məsələlər də müzakirə ediləcəkdir.

**Sual: Bu görüşdən nə gözləyirsiniz? Ümumiyyətlə, indiki görüşün əvvəlki görüşlərinizdən fərqi nədir?**

**Cavab:** Nə ilə fərqləndiyini dedim – bu, Azərbaycan prezidentinin Rusiyaya ilk rəsmi səfəridir. Şübhəsiz ki, bu, əvvəlki görüşlərdən fərqi də müəyyən edir. Nə gözləməyimə gəldikdə isə, çox şey gözləyirəm. Çünki Rusiya ilə bizim dostluq münasibətlərimiz var, bunları daha da inkişaf etdirmək, yaxşı əməkdaşlıq etmək istəyirik. Bizim kimi, Rusiya tərəfi də bu məsələdə səy göstərməlidir.

**Sual: Cənab prezident, Çeçenistan prezidenti ilə görüşlərin nəticələri barədə nə deyə bilərsiniz?**

**Cavab:** Çeçenistan prezidenti ilə görüşümüz televiziya ilə verildi.

**Sual: Aslan Məshədovun Bakıya gəlişi sizin Rusiyaya səfəriniz zamanı orada neftin ixracı məsələlərinin müzakirəsi ilə əlaqədar deyil ki?**

**Cavab:** Bilirsiniz, bununla bağlı deyil. Ancaq Aslan Məshədov Azərbaycana gəlmişdi, biz onunla görüşdük, ətraflı söhbətlər etdik.

**Sual: O, üçtərəfli saziş bağlanmasında təkid etdimi?**

**Cavab:** Zənnimcə, Soçidə Çernomırdin ilə görüşü zamanı bu barədə danışmışdır.

**Sual: Bəs sizin mövqeyiniz necədir, belə bir sazişə razı olarsınızmı?**

**Cavab.** Buna hələ baxarıq.

**Sual: Cənab prezident, sizin Vaşinqtona rəsmi səfərinizdən əvvəl Moskvaya bu səfərinizi Ermənistan-Azər[237-238]baycan münaqişəsinin sülh yolu ilə həllinə dair Rusiya ilə məsləhətləşmələr kimi qiymətləndirmək olarmı?**

**Cavab:** Bunlar bir-biri ilə bağlı deyil. Mən Rusiyanın dəvətini çoxdan almışdım. Sadəcə olaraq bu səfərin vaxtı müəyyən deyildi. Bilirsiniz ki, Amerikanın dəvətini də çoxdan almışam. İndi onun da vaxtı müəyyən edilibdir – bu səfər iyul ayının sonunda olacaqdır. Amerikaya da, Rusiyaya da rəsmi səfərlərim dünyanın bütün böyük ölkələri ilə əlaqələrimizi inkişaf etdirmək məqsədi daşıyır. Yaxşı ki, bu arzular bizdə də, bu ölkələrdə də vardır. Bunlar qovuşduğuna görə belə səfərlər də baş verir.

**Sual:** Keçmiş prezident Ayaz Mütəllibovun Bakıya qaytarılması məsələsi müzakirəyə çıxarılacaqmı?

**Cavab:** Bilirsiniz, Ayaz Mütəllibov o qədər diqqətəlayiq adam deyildir. [238-239]

## RUSİYA VƏ AZƏRBAYCAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Moskva, Kreml*

*3 iyul 1997-ci il*

Çox hörmətli Boris Nikolayeviç!

Müstəqil Azərbaycan Respublikasının və xalqının şərəfinə şəxsən mənim ünvanıma söylədiyiniz xoş sözlərə, məni Rusiyaya rəsmi səfərə dəvət etdiyinizə və qonaqpərvərliyə görə minnətdaram və əmin olduğumu bildirirəm ki, Moskvada keçirdiyim görüşlər, apardığım danışıqlar, imzalanacaq sənədlər Azərbaycan ilə Rusiya arasında qarşılıqlı surətdə faydalı əlaqələrin inkişaf etdirilməsində və daha da möhkəmləndirilməsində əsaslı rol oynayacaqdır.

Xəzərin Azərbaycan sektorundakı yataqların istismarı üçün dünyanın bir çox ölkələrinin ən nüfuzlu şirkətləri ilə respublikamızın imzaladığı müqavilələrdə, yaradılmış konsorsiumlarda Rusiyanın neft şirkətinin yaxından iştirakından razı qaldığımı bildirir və ümid edirəm ki, ARDNŞ ilə "LUKoyl" arasında imzalanacaq daha bir sənəd bu sahədə əməkdaşlıqda yeni mühüm addım olacaqdır.

Qarşılıqlı hörmət və mehribanlıq şəraitində keçən görüşümüzdə Azərbaycan-Rusiya əməkdaşlığının son illərdə böyük sürətlə inkişaf etməsindən razılıqla söz açmaq, bu sahədə iqtisadi əlaqələrin, xüsusilə ticarət əlaqələrinin daha da ge[239-240]nişləndirilməsi üçün həyata keçirilən tədbirlərin böyük əhəmiyyətini nəzərə çarpdırmaq istəyirəm. Mənim Moskvaya ilk rəsmi səfərimlə əlaqədar imzalanmaq üçün hazırlanmış sənədlərin Azərbaycan-Rusiya əməkdaşlığının daha da sıxlaşdırılmasında möhkəm əsas yaradacağına əmin olduğumu vurğulamaqla bildirirəm ki, bu sənədlər arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə xüsusi əhəmiyyət daşıyır.

Eyni zamanda valyuta və ixrac nəzarəti sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında ikiqat vergi qoyulmasına yol verilməməsi və gəlir vergisinin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında, Rusiya Federasiyası və Azərbaycan Respublikası vətəndaşlarının vizasız gəliş-gedişi haqqında sazişləri və digər sənədləri yüksək qiymətləndirirəm.

Danışıqlarda Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları barədə geniş müzakirələr aparılması belə bir nəticəyə gəlmək üçün əsas verdi ki, ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilən zirvə görüşündə qəbul edilmiş əsas prinsiplər bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasında mühüm rol oynamalıdır. Ona görə də Minsk konfransına həmsədrlik edən ABŞ, Fransa və Rusiya 1988-ci ildən bəri davam edən bu münaqişənin tezliklə sülh yolu ilə həll olunması üçün öz səylərini daha da artırmalıdırlar. Bununla əlaqədar Minsk konfransının həmsədrləri olan üç dövlətin – ABŞ, Rusiya və Fransanın prezidentlərinin Ermənistan-Azərbaycan münaqişəsinə dair Denver bəyanatını imzalamasından məmnunluqla söhbət açmaq istəyirəm.

Azərbaycan ilə Rusiya arasında münasibətlərin son illər daha intensiv surətdə inkişaf etdiyini bir daha müsbət qiymətləndirərək bildirmək istəyirəm ki, eyni zamanda MDB çərçivəsində əməkdaşlığın gücləndirilməsinin, sıxlaşdırılmasının vacibliyi məsələsinə də diqqəti artırmaq lazımdır. [240-241]

Hesab edirəm ki, danışıqlarda Xəzərin statusu, Qafqazda sülhün, əmin-amanlığın təmin olunması məsələləri barədə də geniş fikir mübadiləsi aparılması Rusiya ilə Azərbaycan arasında dəmir yolu əlaqəsinin, gəmiçilik xəttinin tam bərpa olunması, neft kəməri və bir sıra digər məsələlərin ətraflı müzakirə edilməsi istər Azərbaycanın, istərsə də Rusiyanın mənafeyinə tam uyğundur.

Rusiyadan Ermənistana qanunsuz yolla silah verilməsi məsələsinə aydınlıq gətirilməsi üçün onun müzakirəsinə ciddi ehtiyac yaranmışdır. Bu, həm də dövlətlərimiz arasındakı münasibətləri daha səmimi məcraya yönəldə bilərdi. Həmin məsələnin daha ətraflı araşdırılması məqsədi ilə üçtərəfli komissiya yaradılmasını bu mənada ilk addım kimi müsbət qiymətləndirmək olar.

Xalqlarımız arasında tarixi dostluq əlaqələri mövcuddur. Bu əlaqələri qoruyub saxlamaq üçün xüsusilə mədəni əlaqələrin daha da möhkəmləndirilməsi sahəsində görülən işlərdən razılıqla bəhs etmək olar.

Bu baxımdan Azərbaycanda Rusiya və Moskva günlərinin böyük uğurla keçməsindən məmnun qaldığımı bildirirəm.

Görüşün sonunda bir daha qeyd etmək istəyirəm ki, mənim Rusiyaya ilk rəsmi səfərim dövlətlərimiz arasında münasibətlərin inkişafında böyük əhəmiyyət daşıyacaqdır, imzalanacaq sənədlərin ölkələrimizin əməkdaşlığının bundan sonra daha da sıxlaşdırılmasına güclü təkan verəcəyinə əmin olduğumu vurğulayıram. [241-242]

## RUSİYA-AZƏRBAYCAN İKİTƏRƏFLİ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Moskva, Kremlin Vladimir sarayı*

*3 iyul 1997-ci il*

Hörmətli Boris Nikolayeviç!
Hörmətli xanımlar və cənablar!

Boris Nikolayeviç, Sizi və burada olanların hamısını bu əlamətdar hadisə – Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında sənədin imzalanması münasibətilə ürəkdən təbrik edirəm.

Boris Nikolayeviç, Siz düz dediniz ki, bu sənəd həqiqətən son dərəcə çox böyük tarixi əhəmiyyətə malikdir. Biz, Azərbaycan Respublikası, bu sənədin həyata keçirilməsi üçün öz məsuliyyətimizi də dərk edirik və onun son dərəcə böyük əhəmiyyəti olduğunu yaxşı başa düşürük. Əmin ola bilərsiniz ki, biz bu sənədin həyata keçirilməsi üçün öz tərəfimizdən hər şeyi edəcəyik.

Mən dərin məmnunluq hissi ilə xatırlayıram ki, bu gün iqtisadi sənədlərin böyük bir paketi də imzalandı. Onlar bütün sahələrdə əməkdaşlığımızı daha da inkişaf etdirmək və dərinləşdirmək üçün yaxşı müqavilə – hüquqi zəmin yaradır. Ümumiyyətlə, bu gün etdiklərimiz dostluq münasibətlərimizin daha da dərinləşməsi və inkişaf etməsi, əməkdaşlığımızın daha da [242-243] genişlənməsi üçün yaxşı zəmindir. Bizdə əsla şübhə yoxdur ki, bu münasibətlər inkişaf etməli, dərinləşməli və genişlənməlidir.

Üstəlik, bizim taleyimiz, bir çox onilliklər, əsrlər ərzindəki birgə həyatımız, tarixi əlaqələrimiz və Rusiya ilə birlikdə olmaq sayəsində, rus mədəniyyətindən, rus elmindən Azərbaycan xalqının əldə etdiyi sərvət – əvəzsiz sərvətdir. Biz bunu qiymətləndiririk və o, bu gün əməkdaşlıq etməyimiz və gələcəkdə daha uğurlu əməkdaşlığımız üçün də əsasdır. Biz bu yolla dönmədən gedəcəyik. Sizə bildirmək istəyirəm ki, son illərdəki – 1996, 1997-ci illərdəki birgə səylərimiz iqtisadi münasibətlərimizi inkişaf etdirmək, mal dövriyyəsinin həcmini genişləndirmək və artırmaq sahəsində böyük müsbət dəyişikliklərə gətirib çıxarmışdır.

Bu, Azərbaycan prezidentinin Rusiyaya ilk rəsmi səfəridir. Boris Nikolayeviç, bu dəvətiniz üçün çox sağ olun, yaratdığınız və dünəndən bəri burada hər yerdə hiss etdiyimiz dostluq mühiti üçün çox sağ olun.

Mən Boris Nikolayeviç Yeltsin ilə təklikdə və nümayəndə heyətlərimiz arasında olan danışıqlardan, söhbətlərdən son dərəcə məmnunam və ümidvar olduğumu bildirmək istəyirəm ki, haqqında danışdığımız, razılığa gəldiyimiz məsələlər münasibətlərimizin daha da inkişafına və dərinləşməsinə imkan yaradacaqdır.

Boris Nikolayeviç, mən dəvət üçün, bugünkü birgə işimiz üçün, mənim rəsmi səfərimin həyata keçməsindən ötrü burada yaradılmış dostluq, səmimilik mühiti üçün Sizə bir daha təşəkkür edirəm.

Çox sağ olun.

**Sual: MDB-nin sonuncu zirvə görüşündə vəd edilmişdi ki, Ermənistana Rusiya silahının göndərilməsi faktlarının nəticələri bu ilin iyununda elan olunacaqdır.** [243-244] **Bu barədə nə deyə bilərsiniz və qanunsuz olaraq göndərilmiş silahın taleyi necə olacaqdır?**

**Boris Yeltsin**: İndi biz Rusiya, Azərbaycan və Ermənistanın iştirakı ilə üçtərəfli komissiya yaradılması barədə razılığa gəlmişik. Bu komissiya Azərbaycanda və Ermənistanda olan silah, texnika ilə bağlı bütün məsələləri müəyyən edəcəkdir.

**Sual: Bu görüş Sizin prezidentliyinizin ildönümündə keçirilir. Siz bu ildönümünü hansı əhval-ruhiyyə ilə qarşılayırsınız?**

**Boris Yeltsin**: Əhval-ruhiyyə adidir, hər gün olduğu kimi səhər tezdən işləyirəm. Doğrudur, ailəm məni təbrik edibdir. Bu il son dərəcə ağır, ciddi il olmuşdur. Hətta deyərdim ki, mən özüm dəyişmişəm – sanki yaş o yaş deyil ki, dəyişəsən, amma mən hiss etdim ki, dəyişmişəm, özü də yaxşılığa doğru dəyişmişəm.

**Sual: Xəzər nefti məsələsi müzakirə edildimi?**

**Heydər Əliyev**: Xəzər nefti məsələsi müzakirə edildi və biz Boris Nikolayeviç ilə geniş fikir mübadiləsi apardıq. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi sahəsində bizim nailiyyətlərimiz var. Azərbaycan Neft Şirkətinin fövqəlmilli şirkətlərlə indiyədək imzaladığı müqavilələrin üçündə Rusiyanın "LUKoyl" şirkəti iştirak edir və bu gün Rusiya və Azərbaycan prezidentlərinin iştirakı ilə "LUKoyl" və Azərbaycan Neft Şirkəti arasında dördüncü müqavilə imzalandı. O ki qaldı neftin nəqli məsələsinə, biz razılığa gəlmişik ki, 1996-cı ilin yanvarında Rusiya ilə Azərbaycan arasında mənim və Viktor Çernomırdinin imzaladığı saziş bağlanıb, – Azərbaycan nefti bu il şimal marşrutu ilə nəql olunacaqdır. Bu, bəzi səbəblərə görə ləngiyirdi. İndi biz bunun həllini tapmışıq və Boris Nikolayeviç deyir ki, bu ilin payızından gec olmayaraq, bu, təmin ediləcəkdir. [244-245]

**Sual: Sizcə, Dağlıq Qarabağ münaqişəsi hansı prinsiplər əsasında aradan qaldırılmalıdır? Bundan ötrü Rusiya hansı addımlar atacaqdır?**

**Boris Yeltsin**: Mən qərara almışam və bu gün də bunu Heydər Əliyeviçə də dedim ki, biz "Rusiya-NATO" məsələsi ilə necə məşğul olduqsa, nəhayət, bu problemlə də belə məşğul olacağıq. Xarici işlər naziri özünün hər bir iş gününü bu problemdən başlayacaqdır. Mən Klinton ilə, Şirak ilə razılığa gəlmişəm ki, müvafiq müqavilə və ya saziş imzalamaq üçün iki prezidenti – Azərbaycan və Ermənistan prezidentlərini danışıqlar stolu arxasında əyləşdirmək və iki qonşu dövlətin tarixinin bu pis dövrünə son qoymaq üçün biz – üç dövlət, nəhayət, özümüzdə iradə tapacağıq. Bu, çox böyük prosesdir, amma indi sürətlə gedəcəkdir. Biz bununla müntəzəm surətdə məşğul olacağıq. Özümüzə qiymət verərkən deyirik ki, vasitəçilər kimi, biz indiyədək yaxşı işləməmişik. Bunu obyektiv qiymətləndirmək lazımdır.

**Heydər Əliyev**: Biz Boris Nikolayeviç ilə bu məsələni müzakirə etmişik. Boris Nikolayeviçin dediklərinin hamısı bizim istəyimizə uyğundur. Biz bu münaqişənin çox tez bir zamanda ləğv olunmasını istəyirik, hərbi əməliyyatların yenidən başlanmasını istəmirik. Üç ildən artıqdır ki, atəşkəs rejimini qoruyub saxlayırıq, ancaq bu məsələ Lissabon bəyanatının prinsipləri əsasında – Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcədə özünüidarə verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təminatı əsasında həll edilməlidir. Hesab edirəm ki, bu prinsiplər əsasında problemi həll etmək olar. [245-246]

## RUSİYA FEDERASİYA ŞURASININ SƏDRİ YEQOR STROYEVLƏ GÖRÜŞDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Moskva, Azərbaycan prezidentinin Kremldəki iqamətgahı*

*3 iyul 1997-ci il*

Hörmətli Yeqor Semyonoviç!

İlk öncə səmimi qəbula görə öz təşəkkürümü bildirirəm. Şadam ki, Rusiyaya ilk səfərim nəhayət baş tutdu.

Mən eyni zamanda müstəqil Azərbaycan Respublikasının və onun prezidenti kimi şəxsən mənim ünvanına söylədiyiniz ürək sözlərinə görə də Sizə səmimi qəlbdən təşəkkür edirəm.

Mən həmişə bu sözləri üzərimə məhz belə olmaq vəzifəsi qoyan sözlər kimi qəbul etmişəm. Mən bu gün bir daha təkrar edirəm ki, indi məni təqdim etdiyiniz kimi olmağa və Sizin belə münasibətlərinizə layiq olmağa bundan sonra da çalışacağam.

**Sual: Neftin Çeçenistan ərazisi ilə nəqli məsələsi müzakirə edildimi?**

**Heydər Əliyev:** 1996-cı ilin yanvarında biz Rusiya ilə Azərbaycan arasında saziş imzaladıq. Lakin bəzi çətinliklər yarandı. Buna görə də biz razılığa gəldik ki, neftin nəql olunması üçün Rusiyanın, Azərbaycanın və Çeçenistanın neft şirkətləri kommersiya sazişi imzalasınlar. [246-247]

**Sual: Heydər Əliyeviç, doğrudurmu ki, Azərbaycan Çeçenistan Respublikasının neft kompleksinin bərpasında ona kömək edəcəkdir?**

**Heydər Əliyev:** Bilirsinizmi, Aslan Məshədov srağagün Azərbaycanda olarkən belə təklif irəli sürdü. Bizim neftçilər əvvəllər, Sovet İttifaqının dövründə hamıya kömək edirdilər. Odur ki, indi də köməyə ehtiyac olsa, biz imtina etmərik.

**Sual: Siz indi hansı məsələləri müzakirə etdiniz?**

**Heydər Əliyev:** Biz bir çox məsələləri müzakirə etdik. Ən əvvəl, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətləri, Federasiya Şurası görülmüş olan bütün işləri və imzaladığımız sənədləri tamamilə dəstəkləyir. Əlbəttə, biz Qafqazın da, regionun da məsələlərinə, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi məsələsinə toxunduq. Mən şadam ki, Federasiya Şurası və Federasiya Şurasının sədri, hörmətli Yeqor Semyonoviç Stroyev bu baxımdan prinsipial, düzgün, aydın və dəqiq mövqe tuturlar. Biz müdafiə nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən Rusiyadan Ermənistana silahların qanunsuz göndərilməsi məsələsinə də, bir çox digər məsələlərə də toxunduq.

**Sual: Hazırda Rusiya ərazisində olan bəzi Azərbaycan cinayətkarlarının verilməsi barədə nə deyə bilərsiniz?**

**Heydər Əliyev:** İstəyirəm ki, sizdə cinayətkarlar az olsun. Əgər onlar cinayətkardırsa, sizin nəyinizə gərəkdir? Buna görə də yaxşısı budur ki, siz onların hamısını qaytarın, o cümlədən də Azərbaycana qaytarın, bu halda sizdə də cinayətkar az olar.

**Sual: Qarabağ münaqişəsinin aradan qaldırılmasında Rusiyanın iştirakının hər hansı bir sxemi olacaqmı?**

**Heydər Əliyev:** Rusiya iştirak edir. Rusiya Minsk konfransının həmsədridir. Rusiya bu məsələdə başlıca rol oynamalıdır. [247-248]

**Sual: MDB Parlamentlərarası Assambleyası nə kimi rol oynayacaqdır?**

**Yeqor Stroyev:** Parlamentlərarası Assambleyanın rolu ən əvvəl deputat səviyyəsində iş aparılmasından ibarət olmalıdır. Bu gün biz MDB Parlamentlərarası Assambleyasının xətti ilə vahid komissiya yaradılmasından danışdıq. Buraya Qazaxıstan, Qırğızıstan, Rusiya, Moldovanın və Belarusun nümayəndələri daxildirlər. Komissiya münaqişənin aradan qaldırılması sahəsində işləyəcəkdir. Bu bir yana, bu gün Heydər Əliyeviç məni Azərbaycana rəsmi səfərə gəlməyə dəvət etdi. Mən bunu hökmən edəcəyəm. Biz bu məsələyə yerində baxacağıq. Zənnimcə, müharibə aparmamaq, razılığa gəlmək vaxtı çatmışdır. Nadanlar müharibə edirlər, şüurlu adamlar isə başa düşməlidirlər ki, hər şeyi ağıl-zəka həll edir.

**Sual: Heydər Əliyeviç, xahiş edirəm deyəsiniz, hazırda Qafqaz bölgəsində Rusiyanın rolu necə müəyyən edilir?**

**Heydər Əliyev:** Bu, böyük məsələdir. Bu gün biz bu barədə də danışdıq. Mən hesab edirəm ki, heç bir birinci, ikinci rol olmamalıdır. Bütün ölkələr bərabərhüquqludur və coğrafi cəhətdən Rusiyanın əhatəsində olan ölkələr və xüsusən MDB ölkələri Rusiya üçün eyni olmalıdır və Rusiya Azərbaycana da, Ermənistana da, Gürcüstana da, Qazaxıstana da, hər hansı başqa ölkəyə də bərabər münasibət bəsləməlidir.

**Yeqor Stroyev:** Yalnız konyakı keyfiyyətinə görə bölmək olar, adamları isə bölmək olmaz. [248-249]

## RUSİYANIN MALİYYƏ VƏ İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Moskva*

*3 iyul 1997-ci il*

Hörmətli Boris Yefimoviç! Hörmətli dostlar, sizinlə görüşməyimdən şadam. Bu görüşün xüsusi əhəmiyyəti var, çünki söhbət iqtisadiyyatın həm Rusiya üçün, həm də Azərbaycan üçün aparıcı sahəsindən gedir.

Əlbəttə, Rusiya böyük ölkədir, onun çox böyük iqtisadi, o cümlədən sənaye potensialı var, bu, hamıya yaxşı məlumdur. Ancaq indi, yeni sistemə keçid, iqtisadi islahatların aparılması prosesi gedərkən gördük ki, Rusiyanın yanacaq-energetika kompleksi və ilk növbədə neft sənayesi daha mühüm yer tutur. Azərbaycan üçün isə neft sənayesi ta qədimdən aparıcı sahədir. Azərbaycan keçmişdə də neft ölkəsi, odlar diyarı kimi tanınmışdır. Əgər Rusiya kimi belə böyük ölkə üçün, çoxsahəli sənayesi olan ölkə üçün neft sənayesi indi başlıca sahəyə çevrilmişdirsə, onda neft sənayesinin Azərbaycan üçün müstəsna əhəmiyyəti var. Ona görə də Rusiyanın neft şirkətlərinin, maliyyə strukturlarının, mərkəzlərinin nümayəndələri ilə belə geniş tərkibdə keçirilən görüşün əhəmiyyəti böyükdür. Boris Yefimoviç, bu görüş üçün sizə təşəkkür edirəm.

Demək istəyirəm ki, biz Azərbaycanda bazar iqtisadiyyatı, xarici investisiyalar üçün açıq olmaq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq yolu tutduğumuz vaxtdan etibarən respublikamızı bütün dünya üçün açmışıq, heç kəsə maneə yaratmamışıq, heç [249-250] kimi xüsusi olaraq dəvət etməmişik. Amma Rusiya ilə Azərbaycanın həmişə birlikdə olduğunu, iqtisadiyyatımızın, xüsusən neft sənayesinin sıx əlaqədə inkişafını nəzərə alsaq, şübhəsiz ki, Rusiya şirkətləri və Rusiyanın yanacaq-energetika kompleksi Azərbaycanda xüsusi yer tutmalıdırlar.

Deməliyəm ki, bu baxımdan "LUKoyl" Şirkəti təşəbbüskar olmuşdur. Vahid Ələkbərovun burada dediyi kimi, 1993-cü ildən bizdə fəal görüşlər keçirilirdi və buna görə də təsadüfi deyildi ki, 1994-cü ildə imzaladığımız və Rusiyanın bəzi dairələrində nədənsə bədxahlıqla qarşılanmış birinci müqavilədə "LUKoyl" sanballı paya malikdir. Biz bu müqaviləni birlikdə imzaladıq, Vahid Ələkbərov da, Rusiyanın Yanacaq və Energetika Nazirliyinin rəhbərlərindən bir nəfər də orada idi.

Mən dünən bunu Boris Nikolayeviçə də dedim, biz ikinci müqaviləni ancaq "LUKoyl" Şirkəti ilə imzaladıq. "LUKoyl" operatordur və İtaliyanın "Acip" Şirkətini də bu müqaviləyə cəlb etdi. Dünən o, Boris Nikolayeviçə dedi ki, bu müqavilədə payların 50 faizinə malikdir, o, həmin yatağın sahibidir. Deməliyəm ki, o, ümumiyyətlə zirək adamdır, – haraya can atdığını bilir. Belə ki, haqqında ikinci müqavilə imzaladığımız bu yataqda, indi məlum olduğu kimi, daha çox ehtiyatlar var və o, güman etdiyimizdən də perspektivlidir.

Odur ki, "LUKoyl" Şirkəti öz yerini tutdu. "Bİ-Pİ"nin də, "Statoyl"un da, İran Şirkətinin də iştirak etdikləri üçüncü müqavilədə də öz iştirak payına malikdir. Nəhayət, Boris Yefimoviç, dünən siz doğru dediniz, biz mühüm müqavilə imzalamışıq. Bu, artıq onun təşəbbüsüdür, buna o, yol açmışdır. Yeri gəlmişkən, qeyd etməliyəm ki, bu işdə o, böyük əzmkarlıq göstərdi. Biz belə müqavilələri adətən çox uzun vaxt ərzində hazırlayırıq, burada isə mən adamlarımızı səfərbərliyə aldım. O da öz adamlarını səfərbərliyə aldı və bütün bunları qısa müddətdə etmək mümkün oldu. Biz heç bir müqaviləni belə qısa vaxtda hazırlamamışdıq. Həmin yataqla əlaqədar danışıq[250-251]lar aparılır, hazırlıq görülürdü və sair. Lakin mənim səfərimin vaxtı müəyyən edildikdə o, məsələ qaldırdı və biz onunla razılaşdıq ki, müqaviləni Moskvada imzalayaq. İndi "LUKoyl" dörd müqavilədə iştirak edir.

Bunu ona görə deyirəm ki, burada, Rusiyada, müxtəlif dairələrdə, təəssüflər olsun, arabir dövlət dairələrində də bəzən belə söhbətlər gedir ki, Azərbaycan Rusiyadan uzaqlaşır. Qərb şirkətləri ilə daha çox əlaqə saxlayır və sair. Respublikamızın bədxahları heç nədən qeyri-sağlam mühit yaratmaq istəyir, bunu mətbuatda yayır, müxtəlif məqalələr yazır və i. a. Açığını deyəcəyəm, bu, bizdə böyük narazılıq doğurur. Halbuki biz birlikdə işləyirik. Mən möhtərəm Çernyayevi çoxdan tanıyıram. Birlikdə işləmişik, çox təcrübəli insandır. Ümumiyyətlə, şadam ki, belə təcrübəli kadrlar qalmışdır və indi iqtisadiyyatı irəlilədirlər. Yaxud götürək Muravlenkonu. Mən onun atasını çox yaxşı tanıyırdım. Onun Tümendə olduqca böyük xidmətləri var idi. O, əfsanəvi adamdır. Sevinirəm ki, oğlu atasının işini davam etdirir. Mən Muravlenkonu hələ Azərbaycanda, sonralar isə Moskvada işlədiyim vaxtlardan tanıyırdım. Təkrar edirəm, o, əfsanəvi şəxsiyyətdir, əfsanəvi insandır. Bizim azərbaycanlı Fərman Salmanovla, – o, baş geoloq, Muravlenko isə bütün idarənin rəisi idi, – birlikdə onlar bütün bu yataqları kəşf etmiş, Şimal dənizinə doğru irəliləmiş və böyük bir iş görmüşdülər. Onun oğlu bu yaxınlarda Bakıya gəlmişdi. Heyf ki, biz görüşə bilmədik. Lakin İlham da, Natiq də mənə dedilər ki, siz yaxşı söhbət etmisiniz.

Yaxud götürək hörmətli Putilovu. O da gəlirdi, biz görüşür, söhbət edirdik. Mən onları kiminsə üstünə göndərmirəm, onlarla özüm görüşüb söhbət edirəm, göstərişlər verirəm. Məni düz başa düşün, vaxtımı yalnız

ona sərf edirəm ki, söhbət Rusiyadan, Rusiya şirkətlərindən gedir. Biz istəyirik ki, bizim müqavilələrdə onlar da iştirak etsinlər. Mən "Kəpəz" yatağı barədə məktubunuzu razılıqla aldım və şadam ki, indi bu layi[251-252]hə həyata keçirilir. Onlar indi bu layihəni bizim yanımızda imzalayacaqlar.

Bir sözlə, Rusiyanın dostu kimi demək istəyirəm ki, məhz bu kompleksə Rusiya hökuməti sədrinin birinci müavini, Boris Yefimoviç Nemtsov kimi fəal, islahatçı ruhlu bir insanın başçılıq etdiyini razılıq hissi ilə qarşılayıram. O, Nijni Novqoroddakı öz gözəl işləri ilə nəinki Rusiyada, həm də Azərbaycanda, bütün dünyada məşhurdur. Biz torpaq islahatı haqqında qanun, başqa islahatlar haqqında qanunlar hazırlayarkən mən sizə Azərbaycandan böyük parlament nümayəndə heyətləri göndərirdim. Biz hiss edirdik ki, orada həqiqətən böyük işlər görülür. Ona görə də sizə nümayəndə heyətləri göndərirdim ki, gəlib sizin təcrübənizi öyrənsinlər. Mən Oryol vilayətinə, Yeqor Semyonoviç Stroyevin yanına da nümayəndə heyətləri göndərirdim. Odur ki, biz Rusiyanın təcrübəsindən bəhrələnirik, Rusiya ilə əməkdaşlıq edirik və edəcəyik.

Ümidvaram ki, indi Moskvada dünənki, srağagünkü, bugünkü danışıqlardan sonra Siz bu vaxtadək olmuş, bəlkə sabah da olacaq, – çünki bədxahlar çoxdur, – bütün bu qeyri-sağlam söhbətlərin kökünü kəsəcəksiniz ki, onlar Moskva mətbuatında işıq üzü görməsin və ya Moskvada bir daha meydana gəlməsin. Bilirəm, mətbuatla bir şey edə bilməyəcəksiniz, amma öz mövqeyinizi açıqlaya bilərsiniz.

**Boris Nemtsov:** Yeri gəlmişkən, deyim ki, mətbuat Sizin səfəriniz barəsində bir dənə də olsun pis məqalə verməyib.

**Heydər Əliyev:** Bugünkü görüşdən ən əvvəl belə bir nəticə çıxarıram ki, "Transneft" məşğul olur. Neft nəql ediləcək və hər şey müəyyənləşdirilmiş müddətlərdə yerinə yetiriləcəkdir.

İndi "LUKoyl", "Rosneft" və Azərbaycan Neft Şirkəti "Kəpəz" yatağı haqqında sənəd imzalayacaqlar. Muravlenko bizdə olub, biz ona dedik ki, bizimlə əlaqələri davam etdirmək [252-253] lazımdır. "Sidanko", xahiş edirəm, təkliflərinizi verin. Daha kim qaldı? "Rossiyski Kredit" Bankı? Mən Bakıya qayıtdıqdan sonra o bizə gələr və biz görüşərik, söhbətimizi hökmən davam etdirərik və "Rossiyski Kredit" Bankının Azərbaycanda inkişafı üçün daha doğru yol axtarıb taparıq. "Mostbank" çox normal işləyir, ona uğur arzulayıram.

Dünən dediyim kimi, Rusiyanın bütün televiziya kanalları Azərbaycana tamamilə yayımlanır. Yuri Mixayloviç Lujkov da xahiş edir ki, mən onun da kanalını translyasiya edim. Əgər lazımdırsa, əlbəttə, translyasiya edərik.

Daha nə demək istərdim. Axı məsələ heç də neft çıxarmaqda deyildir. Bizdə böyük bir neft maşınqayırma sənayesi var. Siz çox yaxşı bilirsiniz ki, Sibirə, Tatarıstana, Başqırdıstana neft-mədən avadanlığının 70 faizini biz göndərirdik. Lakin bizim bu əlaqəmizi kəsdilər, maşınqayırma zavodlarımız çox ağır vəziyyətə düşdü. Ancaq məsələ heç də bunda deyildir. Biz onları bu vəziyyətdən çıxaracağıq. Sahmanlanmış və yaxşı avadanlıq buraxmış istehsalat varsa, ondan niyə istifadə etməyəsən? Bu yaxınlarda mən Qazaxıstanda oldum. Biz Qazaxıstan ilə Azərbaycan arasında neft maşınqayırması haqqında xüsusi saziş imzaladıq ki, onlar bizim zavodlardan istifadə etsinlər. Odur ki, gəlin, bu sahədə əməkdaşlıq edək.

Siz bilirsiniz ki, Sumqayıtda və Bakıda bizim böyük kimya kompleksimiz var. Onun əlaqələri var, amma elə etmək lazımdır ki, bu əlaqələr davam etdirilsin və genişləndirilsin.

Burada əsasən neftçıxarma sahəsi təmsil edilmişdir. Amma başqa sahələrdə də əməkdaşlıq etmək olar. Bizim neft müqavilələri bağladığımız xarici şirkətlər tenderlər keçirir, dünyanın bir çox digər şirkətlərini cəlb edirlər. Mən başa düşürəm, Rusiyada belə şirkətlər hələ formalaşmamışdır. Ancaq, təsəvvür edirsinizmi, Norveç kimi kiçik bir ölkənin müxtəlif şirkətlərinin Bakıda 60-dan çox ofisi var. Özü də əgər onların "Statoyl" Şirkəti neft hasilatında iştirak edirsə, o, çoxlu servis şirkətlərini [253-254] də cəlb edir. Britaniya, ABŞ şirkətlərinin də bizdə təxminən bu qədər sayda ofisləri var. Rusiya şirkətlərinin də gəlməsi lazımdır. Amma bu, edilmir, belə təşəbbüs, belə fəallıq yoxdur. Halbuki bizdə xarici ticarət sərbəstləşdirilib, sərmayədarlara çox böyük güzəştlər vermişik, hətta onların gəlirləri üçün immunitet də yaratmışıq. Xarici şirkətlər Azərbaycana nə üçün fəal surətdə gəlirlər? Ona görə ki, öz gəlirlərindən istədikləri kimi istifadə etmək hüquqları var. Bizim respublikamızda gəlirdən ən azı vergi tutulub. Biz bunların hamısını etmişik, ona görə də Qərb sərmayədarları bizə gəlirlər, həm də çox fəal surətdə gəlirlər. [254-255]

## RUSİYA HÖKUMƏTİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ BORİS NEMTSOVLA GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVABLAR

*3 iyul 1997-ci il*

**Sual: Rusiya ilə Azərbaycan arasındakı müqavilənin zəruriliyi nədədir?**

**Boris Nemtsov:** Çox qəribə sualdır. Neft – qızıldır, puldur. Azərbaycan xalqının rifahı, Rusiya biznesinin inkişafı deməkdir, büdcəyə daxil olan vergilər deməkdir. Mən deyərdim ki, bu ritorik sualdır. Neft sahəsinə investisiya qoyuluşu bu işi görənlərə həmişə çox böyük gəlir gətirmişdir. Baxmayaraq ki, bu, kifayət qədər çətin, çoxlu kapital tələb edən sahədir, böyük səy tələb edir. Ancaq bir halda ki, Azərbaycanda xarici sərmayədarları cəlb etmək üçün yaxşı şərait yaradılıb – mən həm vergi mühitini, həm də məhsulun bölgüsü barədə mövcud qanunvericiliyi nəzərdə tuturam – Xəzər şelfindəki yataqların mənimsənilməsində Bakı neftçilərinin son dərəcə böyük təcrübələri var – bunlar hamısı həmin regiona kapital qoyuluşu üçün şərait yaradır. Zənnimcə, bu işdə Rusiyanın neft biznesi küncdə-bucaqda qalmamalıdır. Yaxşı olardı ki. Rusiya şirkətləri, – burada Rusiyanın əslində bütün iri neft şirkətləri iştirak edir – kənarda qalmasınlar, çünki yeni neft yataqlarını mənimsəmək hüququ uğrunda indi çox böyük mübarizə gedir, bu işdə Amerikanın çoxsaylı şirkətləri iştirak edirlər. Eşitdiyimə görə Heydər Əliyeviç ABŞ-a getmək niyyətindədir, bu mövzu orada müzakirə olunacaqdır. Zən[255-256]nimcə, Azərbaycanla bu cür sıx tarixi, mədəni əlaqələrimiz ola-ola, Azərbaycanın yaxınlığındakı şelfin mənimsənilməsi ilə bağlı iri iqtisadi layihələrdən kənarda qalmağa nə mənəvi, nə də iqtisadi baxımdan ixtiyarımız yoxdur.

**Sual: Əsas neft Rusiyanın boru kəmərindən keçəcəkmi? Bu məsələ həll edilibmi?**

**Boris Nemtsov:** Bu gün Heydər Əliyeviçlə danışıqlar zamanı həmin mövzunu bir daha müzakirə etdik. Hələlik Azərbaycanın ilkin neftinin nəql olunmasından söhbət gedir. Ümidvaram ki, neft kəməri sabit işləməyə başlayandan sonra neftin gələcək nəqli məsələsi özü-özünə həll olunacaqdır. Ümid edirəm ki, hər halda neft Rusiya ərazisindən keçəcəkdir.

**Sual: Bu müqavilələr onu nəzərdə tuturmu?**

**Boris Nemtsov:** Bu müqavilələr üzrə neftin çıxarılmasını hələ bir müddət gözləmək lazımdır. Lakin zənnimcə, ilk quyular neft fontanı vuranda neftin nəql olunması məsələsi qəti şəkildə həll ediləcəkdir. Şübhəsiz, Şimal marşrutunun üstünlüyü o qədər aşkardır ki, neft hasil edən ölkələrin sadəcə olaraq başqa yolu olmayacaqdır.

**Sual: Azərbaycan, Çeçenistan və Rusiya şirkətləri arasında üçtərəfli saziş nə vaxt və hansı şərtlərlə imzalanacaqdır?**

**Boris Nemtsov:** Məsələ belədir. Rusiya ilə Azərbaycan arasında siyasi saziş var: bu, neftin nəqlini həyata keçirmək üçün əsasdır, indi isə, mən deyərdim ki, sırf kommersiya sazişi, texniki saziş imzalamaq lazımdır. Əvvəla, boru kəmərinin Çeçenistan ərazisindən keçən hissəsini qaydaya salmaq barədə, yeri gəlmişkən, bundan ötrü cəmi 20 gün vaxt lazımdır. Bu saziş imzalandıqdan sonra, Heydər Əliyeviçin bu gün dediyi kimi, bir ay sonra neft kəməri işə düşməlidir. Bu sənəd nə vaxt imzalanacaq? Prinsip etibarı ilə biz onu imzalamağa hazırıq, lakin bu gün burada Çeçenistan tərəfinin nümayəndələri yoxdur, ona görə də imzalanma baş tutmadı. [256-257]

**Sual: Heydər Əliyeviç, Siz Rusiyanın cavanlardan ibarət yeni hökumətini necə qiymətləndirirsiniz?**

**Heydər Əliyev:** Əvvəla, Boris Yefimoviçin dediklərinə əlavə etmək istəyirəm. Artıq biz qərara gəlmişik ki, Rusiya, Azərbaycan və İçkeriya Çeçen Respublikasının neft şirkətləri arasında kommersiya sazişi imzalanacaqdır. Boris Yefimoviçin dediyi kimi, onlar yığışacaq və sabah, yaxud o birisi gün imzalayacaqlar – bu, vaxt məsələsidir. Başlıcası isə odur ki, qərar qəbul olunmuşdur.

Cavanlardan ibarət Rusiya hökumətinə gəldikdə isə, onu çox yaxşı qiymətləndirirəm və hesab edirəm ki, Rusiya onlara böyük ümidlər bəsləyir. Rusiyanın dostları kimi, Rusiyada iqtisadi, siyasi islahatların, demokratikləşmənin daha uğurla getməsini arzulayaraq biz də Azərbaycanda Rusiyanın cavanlardan ibarət hökumətinə böyük ümidlər bəsləyirik.

**Sual: Rusiyanın su yollarından Azərbaycanın istifadə etməsinə qoyulmuş məhdudiyyətlər barədə nə deyə bilərsiniz?**

**Boris Nemtsov:** Bilirsiniz ki, Azərbaycan prezidentinin təyyarəsi yerə endikdən yarım saat sonra Viktor Stepanoviçlə keçirilən görüş zamanı biz məhz bu məsələni müzakirə etdik. Rusiya tərəfdən olan bütün məhdudiyyətlər götürülüb, yəni Azərbaycan gəmiləri Volqa çayı ilə hərəkət edə bilər, hökumətin sədri söhbəti bundan başlamışdır.

**Sual: Bu, müvəqqətidir, ya daimi?**

**Boris Nemtsov:** Çox vaxt müvəqqəti sayılan daimi olur. Amma bu qərar daimidir.

**Sual: İqtisadi münasibətlərdə siz kimə üstünlük verəcəksiniz?**

**Boris Nemtsov:** Heyrətamiz sualdır. Ümumiyyətlə, o cümlədən Qafqazda "parçala və hökm sür" siyasətini çox böyük səfehlik sayıram. Qafqazda yaşayan bütün adamlarla bizim normal iqtisadi münasibətlərimiz, insani münasibətlərimiz [257-258]olmalıdır. Əgər biz kiməsə üstünlük versək, bu, qırğınla qurtaracaqdır. Təəssüflər olsun ki, son illər Qafqazda daim qan tökülür, mən bunun yenidən başlanmasını istəməzdim. Ona görə də Zaqafqaziyanın bütün respublikaları ilə bizim bərabər, normal, insani münasibətlərimiz olacaq və bu tarazlığı pozmaq niyyətində deyilik.

**Sual: Ermənistana qanunsuz surətdə silah göndərilməsində Rusiya hökumətinin iştirakı barədə nə deyə bilərsiniz?**

**Boris Nemtsov: O** zaman mən Nijni Novqorod quberniyasının qubernatoru işləyirdim. Siz bunu bilmirsiniz? Cavanlardan ibarət hökumət adlandırdığınız Rusiya hökuməti isə mənim indicə dediyimə tərəfdardır. [258-259]

## RUSİYA ELMLƏR AKADEMİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*3 iyul 1997-ci il*

Hörmətli Yuri Sergeyeviç!
Hörmətli dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Rusiya Elmlər Akademiyasına elmi və yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar arzulayıram, ən səmimi və ən xoş arzularımı bildirirəm. Mən olduqca şadam ki, siz məni bu görüşə dəvət etmisiniz. Mən bunu Azərbaycan dövlətinə, şəxsən mənə Rusiya Akademiyasının böyük hörməti kimi qiymətləndirirəm. Buna görə də mən bu dəvəti böyük məmnuniyyətlə qəbul edib buraya sizin yanınıza gəldim.

Rusiya akademiyası zəngin və böyük tarixə malikdir. Onun 275 yaşı var. O vaxtlar Sovet İttifaqının akademiyası olan bu akademiyanın 250 illiyini necə bayram etdiyimizi xatırlayıram. Bundan sonra biz bütün akademiyaların yubileylərini bayram etdik. İttifaq akademiyasının yubileyinə həsr olunmuş yubileylər müttəfiq respublikalarda da qeyd edilirdi. Sovet İttifaqı akademiyasının da, müttəfiq respublikaların akademiyalarının da yüksək hökumət mükafatlarına layiq görüldüyü yadımdadır.

Yuri Sergeyeviç, siz dediniz ki, akademiya əvvəlcə imperator, Rusiya, sonra da Sovet İttifaqının akademiyası olmuşdur. Zənnimcə, indi bu akademiya özünün əsl adına malikdir, çünki bu akademiya 275 il bundan əvvəl məhz görkəmli rus alimləri, [259-260] Rusiya alimləri tərəfindən yaradılmışdır və onun 275 il ərzində keçdiyi yol böyük, şanlı, zəngin bir yoldur, bu illər ərzində rus alimləri, Rusiya akademiyası olduqca böyük iş görmüşlər, başlıcası isə rus alimləri, Rusiya akademiyası dünya elminin, dünya sivilizasiyasının inkişafına olduqca böyük töhfələr vermişlər. Bu, şübhəsizdir və məncə, rus xalqının, Rusiyanın milli iftixar obyektidir. Bu, bizdə də qürur hissi doğurur, çünki biz də uzun illər, onilliklər ərzində Rusiya akademiyası ilə bağlı olmuşuq.

Son illərdə Rusiya akademiyasının çətin bir dövr, eləcə də indi müstəqil dövlətlər olan keçmiş sovet respublikalarının bütün akademiyalarının ağır bir dövr keçirməsi aydındır və hətta müəyyən dərəcədə qanunauyğundur. Nəinki elm, nəinki akademiya, həm də bütün cəmiyyət, bizim hamımız, vaxtilə Sovet İttifaqında yaşamış, indi isə müxtəlif dövlətlərdə yaşayan adamlar mürəkkəb, ağır keçid dövrünü keçirirlər.

Bununla bərabər belə hesab edirəm ki, Rusiyada, Azərbaycanda və bizə yaxın olan digər ölkələrdə yaşamış əvvəlki nəsillərin adamları tarix ərzində neçə-neçə çətin illər və hətta onilliklər keçirmişlər. Lakin insanlar yaşayır, insanlar yaradır, çətinlikləri dəf edirdilər. Buna görə də heç bir şübhə yoxdur ki, ümumən xalqlarımız, o cümlədən ölkələrimizin elmi bu çətinlikləri dəf edəcəklər, biz tarixin bu çətin, mürəkkəb mərhələsini keçib gedəcəyik və şəxsən mən hesab edirəm ki, bizim hamımızı gözəl gələcək gözləyir.

Gələcək isə bundan ibarətdir ki, indi bütün sistem – ictimai, iqtisadi, sosial sistem, dövlət sistemi yenidən təşkil edilir, o cümlədən elm sahəsində böyük proseslər gedir, dəyişikliklər həyata keçirilir. Bunlar tarixən, obyektiv surətdə zəruridir və biz bu mərhələni nəzərə almalı idik. Rusiyanın götürdüyü xətt də, Azərbaycanda götürülmüş xətt də – həm dövlət siyasətində, həm iqtisadi siyasətdə, həm də sosial siyasətdə – zənnimcə, doğru xətdir, düzgün xətdir və bu xətt belə ağır şərait[260-261]dən çıxmağı təmin edəcək, iqtisadi yüksəlişi, cəmiyyətin sosial vəziyyətini və təbii olaraq, akademiyalarımızın elmi idarələrinin daha səmərəli fəaliyyəti üçün müvafiq imkanları təmin edəcəkdir.

Mən buna inanıram və bu inamla da biz Azərbaycanda öz işimizi aparırıq. Amma, ola bilsin, Rusiyada bu məqsədə Azərbaycandakından xeyli tez çatacaqlar, çünki Rusiyada demokratikləşdirmə də, sosial-iqtisadi islahatlar da, siyasi islahatlar da Azərbaycandan əvvəl həyata keçirilməyə başlanmışdır. Müxtəlif səbəblərə görə biz Azərbaycanda bu işə gec başlamışıq. Ona görə də hesab edirəm ki, siz bu ağır vəziyyətdən başqalarından hətta tez çıxacaqsınız və Rusiya akademiyasının daha səmərəli fəaliyyət göstərmək imkanı olacaqdır.

Bilirsiniz, insanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşflər etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar. Ona görə də təsadüfi deyil ki, bəşər tarixinin müxtəlif mərhələlərində elmi kəşflər etmiş və bu kəşfləri ilə cəmiyyəti irəliyə doğru aparan görkəmli insanları biz həmişə böyük məmnunluq hissi ilə xatırlayırıq. Şübhəsiz ki, indi biz elmi – texniki tərəqqinin ən yüksək pilləsində, bəşər sivilizasiyasının ən yüksək pilləsindəyik.

Bir də deyirəm, bu baxımdan Rusiya elminin, alimlərinin dünya elmində xüsusi yer tutmağa hüququ var. Rusiyada elm xeyli əvvəl, 275 il bundan öncə Rusiya akademiyası yaranandan qabaq inkişaf etməyə başlamış, elmi kəşflər edilmiş və görkəmli şəxslər olmuşdur. Akademiyanın yarandığı vaxtdan etibarən Rusiya elmi özünün təşkilat dövrünü keçirir.

Şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam. Bu gün də sizin hər birinizə ən dərin ehtiramımı bildirirəm. Ona görə ki, cəmiyyətdə, şübhəsiz, müxtəlif adamlar olur, amma elm adamları müstəsna

adamlardır. Onlar insana əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyət[261-162]lərlə yanaşı, cəmiyyətdə bu və ya digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdırlar. Əlbəttə, bu insanlar ən yüksək hörmətə layiqdirlər.

O ki qaldı Azərbaycan elminə, Azərbaycan öz qədim tarixi, qədim özgün mədəniyyəti və qədim böyük alimləri olan qədim bir ölkədir. Bu onu göstərir ki, Azərbaycan elmi, mədəniyyəti ümumbəşəri sivilizasiyaya çox böyük töhfə vermişdir. Siz yaxşı bilirsiniz ki, Şərq sivilizasiyası, Şərqdə elm çox-çox əvvəllər inkişaf etmiş və dünyaya misilsiz elm nümunələri təqdim etmişdir. Azərbaycanda biz də öz görkəmli adamlarımızla fəxr edirik. Elə adamlar ki, o vaxtlar elmlə məşğul olur, elmi kəşflər edirdilər.

Riyaziyyat həmişə ən mürəkkəb, ən yüksək elm sayılmışdır. Mən bəlkə də səhv edirəm, lakin hər halda bizim nəslin adamları hesab edirdilər ki, riyaziyyat elmində ən görkəmli kəşfləri olan alimlərdən biri məşhur Nəsirəddin Tusidir. O, orta əsrlərdə Marağada gözəl rəsədxanaya malik idi və böyük elmi irs qoyub getmişdir. Mən Azərbaycan millətinə, Azərbaycan xalqına məxsus olan bir çox digər adları da çəkə bilərəm.

Lakin bununla bərabər onların hamısı, şübhəsiz, ümumbəşəri elmin bir hissəsidir, hamısı birlikdə dünya elmini yaratmışdır.

Lakin sonralar, xüsusən XVII-XVIII əsrlərdən sonra Azərbaycanda elmdə durğunluq əmələ gəldi. Bunu da demək lazımdır. Əvəzində, Azərbaycanda elm XIX əsrdə böyük inkişafa başladı, özünü göstərdi. Burada rus alimlərinin olduqca böyük xidməti var. Rus alimləri – Azərbaycanda, Bakıda yaşayıb çalışmış olan alimlər də, istər Sankt-Peterburqda, istər Moskvada, istərsə də Rusiyanın digər şəhərlərində yaşayaraq Azərbaycanla, Azərbaycan alimləri ilə fəal əlaqə saxlamış alimlər Azərbaycanda elmin inkişafı üçün çox işlər görmüşlər. [262-263] Elə 1945-ci ildə Azərbaycanda yaradılan Elmlər Akademiyası da, əslinə qalsa, rus alimlərinin köməyi ilə hazırlanmışdır. Onlar Azərbaycanda yaşayıb işləyir və Azərbaycanın milli elmi kadrlarını hazırlayır və Azərbaycan Elmlər Akademiyasının təşkilinə və yaradılmasına nail olmuşlar.

1945-ci ildə bizim Elmlər Akademiyası təşkil edilməzdən əvvəl Sovet İttifaqı Elmlər Akademiyasının Azərbaycan filialı mövcud idi. 30-cu illərin ortalarında Azərbaycan filialı yaradıldı. Bu filial böyük iş aparır, milli kadrlar hazırlayır, elmi tədqiqat institutları, müəssisələri təşkil edirdi. Bunların hamısı öz milli Elmlər Akademiyamıza malik olmaq üçün yaxşı hazırlıq oldu. Mən çox ad çəkə bilərəm. Onlardan biri də akademik Qubkindir. O, Elmlər Akademiyasının Azərbaycan filialının rəhbəri olmuşdur. Digər bir çox alimləri də göstərə bilərəm.

1919-cu ildə Azərbaycanda ilk universitet – ali məktəb təşkil edildi. Bu universitetin təşkilatçıları da dəvət edilmiş rus alimləri idi. Onlardan biri də Razumovski olmuşdur. Sonralar bütün sahələrdə – istər neft elminin, istər yerin təki haqqında elmin inkişafında, təbiət elmlərinin və kimyanın inkişafında rus alimləri olduqca böyük rol oynamışlar. Onların adları məlumdur. Biz onları xatırlayırıq, onların xatirəsini yad edirik və xalqımız Azərbaycan elminin inkişafında, Azərbaycan xalqının təhsilinin, maarifinin inkişafında, Azərbaycanda xüsusən ali təhsilin təşkilində, bütün mədəniyyətin inkişafında rus alimlərinin rolunu heç vaxt unutmayacaqdır.

Bu gün mən daha ətraflı danışa bilərdim, lakin ayrılmış vaxtın çərçivəsindən kənara çıxmaq istəmirəm. Biz mədəniyyətimizlə fəxr edirik, biz görkəmli sənət, musiqi, teatr, opera, balet, rəssamlıq, heykəltəraşlıq əsərləri ilə, görkəmli ədəbiyyat əsərləri ilə fəxr edirik. Bütün bunlarda Rusiya xadimlərinin, rus bəstəkarlarının, rus yazıçılarının, rus rəssamlarının çox böyük təsiri olmuşdur. Biz bunların hamısını yüksək qiymətləndirir və xatırlayırıq. [263-264]

Buna görə də Yuri Sergeyeviç, Siz dünən, biz sənədləri imzalayarkən, mənim rəsmi səfərimlə əlaqədar Kremldə qəbul olarkən öz qısa çıxışınızda bütövlükdə Azərbaycan xalqının həyatında elmin oynadığı rolu, Rusiya ilə Azərbaycan arasında, rus xalqı ilə Azərbaycan xalqı arasında dostluq münasibətlərinin inkişafında və möhkəmlənməsində rus elminin, Rusiya elminin oynadığı rolu xatırlatdınız. Mən xoşbəxtəm ki, Rusiyanın bir çox görkəmli alimləri ilə şəxsən tanışam, onlardan bəziləri indi buradadırlar. Mən onları burada görməyimə şadam, lakin bəziləri artıq dünyasını dəyişmişlər. Mən akademiyanın prezidenti mərhum Keldışı Azərbaycanda böyük məmnunluqla qəbul etmişəm. Keldış sizdə də, bizdə, Azərbaycanda da olduqca böyük nüfuza malik idi. Onun yeni tədqiqat institutunun yaradılmasında fəal iştirakını biz Azərbaycanda unutmuruq. O vaxtlar, 70-ci illər dövründə bu, Azərbaycan elminin inkişafında olduqca böyük rol oynadı.

Bu gün biz söhbət edib akademik Boqolyubovu, akademik Petrovu xatırladıq, akademik Millionşikovu, akademik Kotelnikovu xatırladıq. Onların çoxu Azərbaycanla olduqca sıx əlaqə saxlamış, Azərbaycanda olmuş, bizim alimlərə kömək etmişlər. Görkəmli alimimiz, Elmlər Akademiyasının prezidenti, məşhur kimyaçı Yusif Məmmədəliyev akademik Zelinskinin yetişdirməsi olmuşdur. Məhz Zelinskinin rəhbərliyi altında bir alim kimi yetişməsi sayəsində o, Azərbaycan Elmlər Akademiyasına onun mövcudluğunun məhz ilk illərində başçılıq etmiş və kimya elminin inkişafında, xüsusən bir çox elmi tədqiqat institutlarının təşkilində, yaradılmasında mühüm rol oynamışdır.

Bu yaxınlarda biz onun anadan olmasının 90 illiyini təntənəli surətdə qeyd etdik, – təəssüflər olsun ki, o, həyatdan vaxtsız getmişdir, – və akademik Zelinskini və onun əməkdaşlıq etdiyi və onun müəllimləri olduğu bir çox başqa alimləri də xatırladıq. Yadımdadır, mən Moskvada işləyərkən Siyasi [264-265] Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olduğum dövrdə təhsil, ali təhsil, maarif, elm sahələrinə rəhbərlik

edirdim. Elmlər Akademiyası ilə sıx bağlı idim və öz imkanlarım daxilində, öz səlahiyyətim daxilində Elmlər Akademiyası ilə bağlı bir çox problemlərin həllində fəal iştirak edirdim. Anatoli Petroviç Aleksandrovla istər Kremldə, istər müxtəlif müşavirələr zamanı, istərsə də şəxsi görüşlərimiz zamanı söhbətlərimizi xatırlayıram. Biz onu həmin dövrdə keçirilən sessiyalarda, forumlarda dəfələrlə dinləmişdik. Buna görə də bu gün çox şadam ki, akademik Kudryavtsevlə görüşürəm. Biz onunla müxtəlif qanunlar üzərində, müxtəlif sənədlər üzərində çox işləyirdik – mən bu komissiyaya başçılıq edirdim. O vaxtlar 1983-cü ildə biz dövlətimizin, cəmiyyətimizin qanunlar üzrə yaşayıb işləməsi üçün qanunları yaratmağa yenicə başladığımıza görə çox qanunlar yaratmaq lazım gəlirdi və bu işdə hüquqşünasların, mütəxəssislərin, alimlərin iştirakı tələb olunurdu. Buna görə də onlar bu işə cəlb edilirdilər. Mən akademik Kudryavtsevin rolunu xüsusi qeyd edirəm, çünki o, həmin dövrdə böyük rol oynamış sənədlərin yaradılmasında, hazırlanmasında iştirak edirdi.

O illərdə, 1983-cü ildən başlayaraq, cəmiyyətimizi modernləşdirmək, müxtəlif hüquqi sənədlər, müxtəlif qanunlar yaratmaq işi genişlənən vaxtlarda bu işdə Elmlər Akademiyası da, akademik Kudryavtsev də iştirak edirdilər.

Şadam ki, Rusiya Elmlər Akademiyası yaşayır, mövcuddur və indi siz belə normal, yaxşı vəziyyətdəsiniz. Azərbaycanda akademiya da çətinliklərə məruz qalmışdır. Biz Azərbaycan Elmlər Akademiyasına kömək etmişik, edirik və edəcəyik ki, akademiyamız bu çətinlikləri aradan qaldırsın. Lakin Rusiya Akademiyası ilə Azərbaycan Elmlər Akademiyası arasında daha sıx əlaqələr gərəkdir. Odur ki, mən akademiyalarımız arasında saziş bağlamaq təklifini alqışlayıram. [265-266]

Mən belə bir məlumatı böyük məmnunluqla qarşıladım ki, bunu oktyabrda Bakıda etmək mümkündür. Mən Yuri Sergeyeviç, Sizi və özünüzlə birlikdə gətirmək istədiyiniz alimlərin hamısını dəvət edirəm. Buyurub gələ bilərsiniz. Mən sizin hər birinizi dəvət edirəm. Əlaqələri fəallaşdırmaq və əməkdaşlığımızı həqiqətən inkişaf etdirmək üçün sizi Azərbaycanda görməyimə şad olacağam.

Fürsətdən istifadə edərək, bugünkü Azərbaycan haqqında bir neçə söz demək istəyirəm. Sovet İttifaqı parçalandıqdan sonra keçmiş Sovet İttifaqının digər respublikaları kimi, Azərbaycan da dövlət müstəqilliyi əldə etdi. Keçmiş Sovet İttifaqı məkanında indi baş verən hadisələri mən qanunauyğun təzahür hesab edirəm. Keçmiş ittifaq respublikalarının dövlət müstəqilliyi əldə etməsi də qanunauyğun haldır. Əgər bunu kimsə qeyri-normal hal sayırsa və ya kimsə bunu səhv sayırsa, mən hesab edirəm ki, bu, tamamilə qanunauyğun haldır və biz bunu bir fakt kimi qəbul edirik. Hərçənd bu, böyük çətinliklərlə bağlı olmuşdur.

Biz Azərbaycanda müstəqil, hüquqi, sivilizasiyalı dövlət, sivilizasiyalı cəmiyyət quruculuğu yolu tutmuşuq. Azərbaycanda bütün demokratik azadlıqlar təmin edilmişdir, demokratik təsisatlar fəaliyyət göstərir, bütün insan hüquqlarını həyata keçirmək üçün şərait yaradılmışdır. İnsan hüquqlarının müdafiəsi dövlət fəaliyyətimizin təməl prinsiplərindən biridir. Milliyyətindən, dini etiqadından, siyasi əqidəsindən asılı olmayaraq insanların hüquq bərabərliyi, siyasi plüralizm, mətbuat azadlığı – bunların hamısı Azərbaycanda təmin olunmuşdur.

Azərbaycan çoxmillətli ölkədir. Azərbaycanda digər millətlərlə yanaşı, ruslar da yaşayırlar, onlar 400 min nəfərdən çoxdur. Onlar qalan bütün millətlər kimi yaxşı şəraitdə yaşayır, bütün hüquqlara malikdirlər. Azərbaycanda üç konfessiya – müsəlman, pravoslav-xristian və yəhudi konfessiyaları fəa[266-267]liyyət göstərir. Onlar öz aralarında dostluq edir, sıx əlaqə saxlayırlar. Bir sözlə, bu məsələlər bizdə həll edilmişdir.

Lakin Azərbaycan üçün çox ağır problem budur ki, biz Ermənistanla münaqişə vəziyyətindəyik. Siz bilirsiniz ki, 1988-ci ildə qonşu Ermənistan Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini ilhaq etmək məqsədilə fəal əməliyyatlara başladı, bütün bunlar hərbi təcavüzə çevrildi, döyüş əməliyyatları getdi, çoxlu qan töküldü. Nəticə çox kədərlidir. Müxtəlif obyektiv və subyektiv səbəblər üzündən erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etdi, işğal olunmuş torpaqlardan Azərbaycan millətindən bir milyon nəfərdən çox sakin didərgin salındı, onlar artıq dörd-beş ildir ki, ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır.

Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın, Sovet İttifaqının tərkibində olarkən onun 170 min əhalisi var idi. Onların 70 faizini ermənilər, 30 faizini azərbaycanlılar təşkil edirdilər. Azərbaycanlıların hamısı oradan qovuldu, ermənilərin bir hissəsi də köçüb getdi. İndi bu vilayətin ərazisində cəmi 80 min adam var, onların hamısı erməni millətindən olan şəxslərdir. Lakin Ermənistanın silahlı birləşmələri öz əməliyyatlarını genişləndirərək Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı yeddi rayonu da işğal etdi. Bu rayonlarda ancaq azərbaycanlılar yaşayırdılar. Oradan bir milyon nəfərdən çox azərbaycanlı qovulub didərgin salınmışdır və onlar olduqca ağır şəraitdə yaşayırlar.

Müharibə gedirdi, döyüş əməliyyatları aparılırdı, qan tökülürdü, hər iki tərəfdən insanlar qırılırdı. 1994-cü ildə biz atəşkəs haqqında saziş bağlamağa razılıq verdik. 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalandı və budur, üç ildən çoxdur ki, müharibə yoxdur. Mən bunu böyük nailiyyət sayıram ki, biz qan tökülməsini dayandırdıq. Biz sülh danışıqları aparırıq. Danışıqlar çətin, ağır gedir. Danışıqlar ATƏT-in Minsk konfransının vasitəçiliyi ilə gedir. İndi, ATƏT dövlətlə[267-268]ri başçılarının 1996-cı ilin dekabrında keçirilmiş Lissabon zirvə görüşündən sonra Minsk konfransının üç həmsədri var. Bunlar Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Onlar Lissabon zirvə görüşünün münaqişəni dinckliklə aradan qaldırmaq

prinsipləri nəzərdə tutulan bəyanatının həyata keçirilməsini təmin etməli, münaqişənin dincliklə aradan qaldırılmasına və müharibəyə son qoyulmasına nail olmalıdırlar.

Biz müharibə istəmirik, biz hərbi əməliyyatlara yenidən başlanmasını istəmirik. Biz bu məsələni dincliklə nizama salmaq istəyirik, baxmayaraq ki, itkilər vermişik, baxmayaraq ki, işğal olunmuş torpaqlarda hər şey dağıdılmış, talan edilmişdir, baxmayaraq ki, on minlərlə adam həlak olmuşdur, baxmayaraq ki, işğal olunmuş torpaqlarda, – bu isə respublika ərazisinin 20 faizinə bərabərdir, – tarixi abidələrimizin hamısı qarət edilmiş, dağıdılmışdır. Bütün bunlara baxmayaraq, biz sülh istəyirik. Ermənistanla dinc münasibətlər, mehriban qonşuluq münasibətləri olmasını istəyirik.

Biz ATƏT-in Lissabon zirvə görüşünün müəyyənləşdirdiyi şərtlər üstündə dururuq – bunlar üç prinsipdən ibarətdir. Birinci prinsip – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınmasıdır. İkinci prinsip – Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcədə özünüidarə statusu verilməsidir. Üçüncü prinsip – Dağlıq Qarabağın bütün əhalisi üçün – erməni və azərbaycanlı əhalisi üçün təhlükəsizliyə təminat verilməsidir. Biz bu prinsiplərlə razıyıq.

Amma təəssüflər olsun, erməni tərəfi bunlarla razılaşmadı, halbuki ötən ilin dekabrında Lissabonda 54 dövlətdən 53-ü, Ermənistan istisna olmaqla, bu prinsiplərə səs verdi. Siz bilirsinizmi ki, iyunun 20-də Denverdə, Birləşmiş Ştatlarda yeddilərin, səkkizlərin, – Rusiya prezidenti Boris Nikolayeviç Yeltsin də orada idi, – görüşü zamanı üç prezident – Rusiya prezidenti, Birləşmiş Ştatların prezidenti, Fransa prezidenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dincliklə [268-269] aradan qaldırılmasının zəruriliyi barədə birgə bəyanat vermişlər.

Dünən prezident Boris Nikolayeviç Yeltsinlə söhbətlər və danışıqlar zamanı bu məsələ əsas yer tutdu və Boris Nikolayeviç bir daha əmin etdi ki, yeri gəlmişkən, dünən bu, mətbuat nümayəndələrinin yanında bəyan olundu, – indi danışıqlar prosesi fəallaşdırılacaq, bu məsələnin nizama salınmasına nail olmaq üçün Rusiyanın səyləri gücləndiriləcəkdir. Şübhə yoxdur ki, Rusiyanın burada olduqca böyük rolu var. Həmsədr kimi Rusiya Minsk konfransının digər həmsədrlərinə nisbətən hətta böyük, daha böyük imkanlara malikdir. Prezident Boris Nikolayeviç Yeltsin tədbirlər görəcəyini vəd etdi.

Mən sizə üz tuturam, bu məsələnin dinc yolla nizama salınması üçün öz nüfuzunuzdan, öz imkanlarınızdan istifadə edin. Qafqazda sülh gərəkdir, Zaqafqaziyada sülh gərəkdir sülh Gürcüstanda da gərəkdir, sülh Ermənistanda da gərəkdir, sülh Azərbaycanda da gərəkdir. Biz özgə ərazisinin bir qarışını da istəmirik. Lakin bununla bərabər, biz Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yol verə bilmərik. Biz Azərbaycan ərazisinin hər hansı bir hissəsini başqa dövlətə verə bilmərik. Biz yol verə bilmərik ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın.

Təəssüf ki, erməni tərəfi Dağlıq Qarabağa göz dikib və ona müstəqillik statusu verilməsini təkid edir. Bu Azərbaycan üçün mümkün deyildir. Yeri gəlmişkən, bu, Rusiya üçün də, Dünya Birliyi üçün də mümkün deyildir – dünyada belə problemlər çoxdur. Bu, 1975-ci il Helsinki aktına ziddir. Bu, BMT nizam-naməsinin prinsiplərinə ziddir. Bu, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının – ATƏT-in prinsiplərinə ziddir. Odur ki, bu, bizim şıltaqlığımız deyildir. Bu bizim tərsliyimiz deyildir. Bunlar beynəlxalq aləmdə tanınmış normalardır. Əgər onlar haradasa pozularsa, əgər haradasa nümunə yaradılarsa, bu, bütün Dünya Birliyi üçün çox ağır nəticələrə gətirib çıxa[269-270]racaqdır. Bunu baş tutmaz məqsədlər uğrunda mübarizə aparan, hüquqa zidd əməllərin həyata keçirilməsi uğrunda mübarizə aparan adamlar, nəhayət, dərk edib anlamalıdırlar.

Buna görə də sizə müraciət edirəm, sizə açığını deyirəm ki, Azərbaycan ilə Ermənistan arasında sülh bağlanması, əlbəttə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcədə özünüidarə statusu verilməsi şərtilə sülh bağlanması Zaqafqaziyada və bütün Qafqazda dinc gələcəyi təmin edəcəkdir. Yeri gəlmişkən, bu, Rusiya üçün də lazımdır. Qafqazın, Zaqafqaziyanın Rusiya üçün xüsusi əhəmiyyəti var. Qafqazda, Zaqafqaziyada sülh və əmin-amanlıq bütün Rusiya Federasiyası məkanında sabitlik və sülh üçün əhəmiyyətə malik olacaqdır.

Daha bir məsələ barəsində. Azərbaycan neft məmləkətidir. Bax, indi mən burada olan və artıq akademiyada çalışan Nikolay Konstantinoviç Baybakova böyük iftixar və məmnunluq hissi ilə baxıram. O, ömrünün bir çox onilliklərini Rusiyanın, Sovet İttifaqının, Azərbaycanın neft sənayesinin inkişafına və bütövlükdə keçmiş Sovet İttifaqının iqtisadiyyatının inkişafına həsr etmişdir, indi isə elmlə məşğul olur. O, bizim dostumuz, həmyerlimizdir, bakılıdır, hesab edirəm ki, dünyanın ən görkəmli neftçilərindən biridir.

Bakı neft səltənətidir. Azərbaycan neft ölkəsidir. Bu, sizə yaxşı məlumdur. Sonra Rusiyada "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" oldu – bütün bunlar da Bakı adlanır. İndi Azərbaycan neft sənayesinin inkişafında yeni dövr keçirir. Biz hazırda Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından fəal istifadə edirik. Orada neft ehtiyatlan olduqca böyükdür. Biz onlardan istifadə edirik, özü də xarici sərmayələri cəlb etməklə ən iri transmilli şirkətləri – həm Avropa, həm Amerika, həm də Rusiya şirkətlərini cəlb etməklə istifadə edirik.

Son bir neçə ildə burada, Moskvada, Rusiyada bir qədər yanlış, qeyri-düzgün əhval-ruhiyyə yaranmışdı. Deyirlər ki, [270-271] Azərbaycan öz yataqlarını yalnız Qərb ölkələrinin üzünə açmışdır. Bunların heç biri doğru deyildir. Dünən biz bu barədə açıq-aşkar danışdıq. Biz "Əsrin müqaviləsi" kimi məlum olan birinci sazişi

1994-cü ilin sentyabrında iri transmilli şirkətlərilə bağladıq və burada layihənin sanballı bir hissəsi Rusiyanın "LUKoyl" şirkətinə mənsubdur. Biz ikinci layihəni də imzalamışıq və artıq burada payların mütləq çox hissəsini Rusiyanın "LUKoyl" şirkətinə vermişik. O, əslinə qalsa, bütün konsorsiumun operatorudur. Bu konsorsiumda isə bir neçə transmilli şirkət var. Biz üçüncü sazişi "Statoyl", "Bi-Pi" ilə bağlamışıq, orada Fransa şirkətləri, İran şirkəti də var. Orada da "LUKoyl" çox sanballı yerə malikdir. Nəhayət, dünən iki prezidentin – Boris Nikolayeviç Yeltsinin və Azərbaycan prezidentinin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorundakı iri yataq haqqında ancaq Rusiyanın "LUKoyl" şirkəti ilə xüsusi saziş imzalandı. Lakin biz başqa şirkətləri də cəlb etməliyik. Bu gün səhər mən Rusiyanın neft şirkətlərinin rəhbərləri ilə, maliyyə mərkəzlərinin rəhbərləri ilə, o cümlədən Rusiya hökuməti sədrinin birinci müavini Boris Yefimoviç Nemtsovla görüşdüm. Biz çox ətraflı söhbət etdik. Bu gün Xəzər dənizinin həmçinin Azərbaycan sektorundakı "Kəpəz" yatağının birgə işlənməsi haqqında Rusiyanın "LUKoyl" və"Rosneft" şirkətləri ilə daha bir sənəd imzaladıq. Bu gün biz "Yuqos", "Sidanko" şirkətlərinin, digər şirkətlərin nümayəndələri ilə görüşdük. Onlar yataqların işlənməsində iştirak etmək üçün bizimlə danışıqlar apardılar. Bir sözlə, biz Rusiya ilə əməkdaşlıq edirik və edəcəyik.

Lakin bununla birlikdə, bizə sərmayələr də lazımdır. Bu gün mən şirkətlərin, maliyyə qruplarının rəhbərləri ilə görüşlərdə dedim ki, Norveç kiçik bir ölkədir, amma Bakıda özünün 60 iri şirkətinin ofisləri var. "Statoyl" çox iri neft şirkətidir, neft və qaz hasilatı məsələləri ilə məşğul olur. Bu əsas layihə ilə bağlı müxtəlif layihələri həyata keçirməyə başqa şirkətlər də cəlb [271-272] edilmişdir. Yeri gəlmişkən, bu sözləri Böyük Britaniya barəsində də demək olar – onun bizdə 60-dək ofisi var. Sözlərim eləcə də Birləşmiş Ştatlara və Fransaya aiddir. Bəs nə üçün Rusiyanın payı azdır? Burada obyektiv səbəblər var. Hazırda yeni şirkətlər, müxtəlif sənaye strukturları yaradılır. Ona görə də bu, müəyyən dərəcədə aydındır. Lakin biz hər halda yenə də xarici sərmayələri cəlb edirik ki, yataqların işlənməsini bacardıqca tez bir zamanda genişləndirək. Çünki bu, sənayemizin inkişafı üçün, adamlarımızın rifahı üçün gərəkdir və bu da tamamilə qanunauyğundur.

Demək istəyirəm ki, Azərbaycanda iqtisadi islahatlar uğurla gedir. 1989-cu ildən başlayaraq məruz qaldığımız böyük durğunluqdan və böyük itkilərdən sonra ötən ildən etibarən bizdə iqtisadiyyatda yüksəliş başlamışdır. Keçən il Azərbaycanda daxili ümumi məhsulun artımı 1,3 faiz olmuşdur. Artım ilk dəfə əldə edilmişdir, halbuki onadək tənəzzül var idi. Bu ilin birinci yarısında isə artım 4,5 faiz təşkil etmişdir. 1989-cu ildən başlayaraq sənaye istehsalı azalmışdı. Ötən il biz sənaye istehsalını sabitləşdirdik və cari ilin birinci yarısında 1 faiz artıma nail olduq. Kənd təsərrüfatında istehsal aşağı düşməkdə davam edirdi. Keçən il üç faiz artım əldə edildi, bu il isə 3 faizdən çox olacaqdır. Biz "Torpaq islahatı haqqında, bütün torpağın xüsusi mülkiyyətə verilməsi haqqında qanun qəbul etmişik. Bu qanun həyata keçirilir və deməliyəm ki, yaxşı nəticələr verir. Aqrar kompleksdəki bütün heyvandarlıq sektoru özəlləşdirilib. Deməliyəm ki, bu, yaxşı nəticələr verir.

Nikolay Konstantinoviç çox yaxşı bilir ki, Azərbaycan əti, südü və bütün məhsulları həmişə ittifaq fondundan alırdı. Doğrudur, biz buraya neft verirdik, pambıq verirdik, tərəvəz, üzüm, meyvə verirdik. Lakin biz kifayət qədər ətə, südə, yağa malik deyildik və bunların hamısını ittifaq fondundan alırdıq. Nikolay Konstantinoviç də yaxşı xatırlayır ki, xüsusən 70-ci illərin axırlarında necə böyük çətinliklər olmuşdur. Nikolay [272-273] Konstantinoviç, indi ət, süd problemi tamamilə həll edilmişdir. Daha başım ağrımır, hər inəkdən nə qədər süd sağılır, hər toyuq nə qədər yumurta verir, hər qoyundan neçə baş quzu alınır. Məndə daha belə problemlər yoxdur.

Biz qiymətləri tamamilə sərbəstləşdirmişik. Bizdə daha belə bir problem yoxdur ki, bizə taxıl haradan gəlir, çörəyi kim bişirir, kim satır. Halbuki iki il bundan əvvəl mən ağır bir problemlə qarşılaşmışdım. Bizdə inflyasiya tamamilə dayandırılmışdır. 1994-cü ildə bizdə inflyasiya 1600 faiz olduğu halda, ötən il cəmi 6 faiz təşkil etmişdir. İlin birinci yarısında cəmi 2 faiz olmuşdur. Bizi sərmayələr də sevindirir. Məsələn, bu gün mənim iqtisadi məsələlər üzrə müşavirim deyir ki, adambaşına düşən sərmayələrin miqdarına görə Azərbaycan MDB ölkələri arasında ilk yerlərdən birinə çıxmışdır. İndi mən bu rəqəmlərdən çox misal gətirmək istəmirəm, çünki bunlar köhnə ənənələrdir. Lakin hər halda bu da göstəricidir.

Ötən il bizdə xarici ticarət əmtəə dövriyyəsi 30 faiz artmışdır. Cari ilin birinci yarısında problem yoxdur, bütün pensiyalar, əmək haqqı ödənilmişdir. İlin birinci yarısında bütün vergilər yığılmışdır. Bizdə ilin birinci yarısında büdcə kəsiri cəmi 2 faiz olmuşdur. Mən öyünmək istəmirəm, xahiş edirəm məni düz başa düşəsiniz. Mən sizi ancaq bəzi göstəricilərlə tanış edirəm. Bu göstəricilər iqtisadi islahatların həyata keçirilməsinin nəticəsidir və iqtisadiyyatımızda məhz bazar dəyişiklikləri edilməsinin nəticəsidir. Nəticə etibarı ilə bunların hamısı elmimizə xidmət edə bilər. Milli gəlirimiz nə qədər çox olarsa, nə qədər çox vəsait qazanarıqsa, biz onları elm sahəsində də bir o qədər çox ayıracağıq. Sizi əmin edirəm ki, biz bunların hamısını həyata keçirəcəyik.

Bu gün belə bir görüşün keçirildiyinə görə sizin hamınıza bir daha təşəkkür etmək istəyirəm. Məni diqqətlə dinlədiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Bu görüşlə əlaqədar çox böyük sevinc hissi keçirdiyimi bir daha bildirmək istəyi[273-274]rəm. Mənim müxtəlif ölkələrdə, o cümlədən də Moskvada çoxlu görüşüm olur. Lakin bu görüş mənim üçün xüsusilə qiymətlidir, çünki mən elə insanlarla görüşürəm ki, cəmiyyət onları çox yüksək qiymətləndirir və onlara çox böyük hörmət bəsləyir. Mənim də bir insan kimi sizə çox hörmətim var və sizi yüksək qiymətləndirirəm.

Sizə cansağlığı, uzun ömür, səmərəli fəaliyyət və Rusiya elminin, bütün dünya elminin inkişafında yeni-yeni uğurlar arzulayıram. Çox sağ olun. [274-275]

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*Kreml, Qranovit Palatası*
*3 iyul 1997-ci il*

Əziz Boris Nikolayeviç!
Hörmətli dostlar, xanımlar və cənablar!

Boris Nikolayeviç, Rusiya Federasiyasına rəsmi səfərə gəlmək dəvətinə görə mən Sizə təşəkkür edirəm. Bu, Azərbaycan prezidenti kimi mənim Rusiyaya ilk rəsmi səfərimdir və şadam ki, bu səfər artıq yaxşı nəticələrlə əlamətdardır. Qonaqpərvərliyə görə, Azərbaycan prezidentinin səfərinin həyata keçirilməsi üçün yaradılmış səmimi mühitə, dostluq mühitinə görə, bizə, Azərbaycan xalqına dostluq hisslərinə – buraya gəldiyimiz andan qarşılaşdığımız hisslərə görə mən sizin hamınıza təşəkkür edirəm.

Bu gün Rusiya prezidentinin və Azərbaycan prezidentinin səmərəli söhbətləri, danışıqları, nümayəndə heyətlərinin danışıqları və söhbətləri oldu. Bu danışıqlar və söhbətlər çox mühüm sənədlər imzalamağa imkan verdi. Rusiya ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə Azərbaycan üçün son dərəcə böyük tarixi əhəmiyyətə malikdir. Biz bu sənəddə çox şey, o cümlədən də bunu görürük ki, iki suveren dövlət – Rusiya Federasiyası və [275-276] Azərbaycan Respublikası öz münasibətlərini beynəlxalq hüquq normalan əsasında, dostluq əsasında, qarşılıqlı surətdə faydalı əməkdaşlıq əsasında, hər iki tərəfin mənafeləri naminə səmərəli əməkdaşlıq əsasında qururlar. İmzalanmış olan bütün digər sənədlər də böyük əhəmiyyətə malikdir və hamısı birlikdə münasibətlərimizin daha da inkişaf etdirilməsi üçün yaxşı normativ-hüquqi zəmin yaradır.

Biz bunların hamısını yüksək qiymətləndiririk, ona görə ki, müstəqil dövlət kimi, Azərbaycan Respublikası bütün ölkələrlə öz münasibətlərini qarşılıqlı fayda əsasında qurmağa çalışır. Ancaq Rusiya Federasiyası ilə bizim münasibətlərimizin xüsusi xarakteri, xüsusi əhəmiyyəti var. Tarixi dostluğumuzun, tarixi keçmişimizin və əvvəlki nəsillərdən bizə qalan və rus xalqı ilə Azərbaycan xalqı, Rusiya və Azərbaycan xalqları arasında dostluq kimi səciyyələndirilən hər şeyin bizim üçün xüsusi əhəmiyyəti var. Biz hesab edirik ki, indi, bu sənədlərin imzalanmasından sonra biz münasibətlərimizin yeni mərhələsinə daxil oluruq və əmin edirəm ki, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin Rusiya və Azərbaycanın mənafeləri naminə inkişaf etməsi və möhkəmlənməsi üçün Azərbaycan əlindən gələni əsirgəməyəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair danışıqlar prosesinin fəallaşacağı barədə prezident Boris Nikolayeviç Yeltsinin bəyanatını böyük minnətdarlıqla qəbul etdim. Biz ümid edirik ki, Minsk konfransının həmsədri və həm Azərbaycana, həm də Ermənistana çox yaxın, bilavasitə münasibəti olan ölkə kimi Rusiyanın səyləri konkret əməli nəticələrə gətirib çıxaracaqdır.

Mən bu gün bir daha bəyan etmək istəyirəm ki, biz bu münaqişənin sülh yolu ilə aradan qaldınlmasını istəyirik. Üç ildən çoxdur ki, atəşkəs rejimi davam edir. Biz hərbi əməliyyatların yenidən başlanmasını istəmirik və öz tərəfimizdən [276-277] buna yol verməyəcəyik. Ancaq eyni zamanda belə vəziyyət daimi xarakter daşıya bilməz. Ona görə Minsk konfransının həmsədri kimi bu məsələdə Rusiyanın səylərinin müstəsna əhəmiyyəti var və xalqımız Minsk konfransının fəaliyyətinə, həmsədrlərin – Rusiyanın, Amerika Birləşmiş Ştatlarının və Fransanın fəaliyyətinə xüsusi ümidlə baxır və bundan çox şey gözləyir. Bu gün Boris Nikolayeviçlə söhbət zamanı və onun indicə verdiyi bəyanatla əlaqədar bizim bu ümidlərimiz möhkəmlənmişdir.

Bəli, xalqlarımızın dostluq və əməkdaşlığının zəngin tarixi var və biz bunu yüksək qiymətləndiririk. Bir dövlətin tərkibində birgə yaşadığımız illərdə və dostluğumuzun keçmiş dövrlərində Azərbaycan xalqının əldə etdiyi yaxşı nə varsa, biz bunu heç vaxt unutmayacağıq. Rusiya, Rusiyanın alimləri, elm və mədəniyyət xadimləri Azərbaycan elminin, mədəniyyətinin, maarifinin, iqtisadiyyatının inkişafına çox böyük yardım və kömək göstərmişlər. Xalqımız bunu bilir və çox yüksək qiymətləndirir. Mən Boris Nikolayeviçlə tamamilə razıyam ki, Zaqafqaziyada dostluq çox yüksək qiymətləndirilir, bizdə, Azərbaycanda çox yüksək qiymətləndirilir. Biz keçmişdə olan dostluğumuzu və indi sizinlə birlikdə yaratdığımız və bundan sonra da yaradacağımız dostluğu da yüksək qiymətləndiririk.

Boris Nikolayeviç, bu gün əlamətdar gündür – Sizin yenidən Rusiya Federasiyasının prezidenti seçilməyinizin ildönümüdür. Bunun Rusiya üçün xüsusi əhəmiyyəti var və Müstəqil Dövlətlər Birliyi ölkələri üçün xüsusi əhəmiyyəti var. Keçmişdə biz hamımız birlikdə Sovetlər İttifaqının tərkibində olmuşuq. Amma biz hamımız birlikdə eyni vaxtda dövlət müstəqilliyi əldə etmiş, müstəqil dövlətlər olmuşuq. Biz hamımız birlikdə keçid dövrünü, siyasi və iqtisadi islahatların həyata keçirilməsi dövrünü yaşayırıq.

Bu islahatların həyata keçirilməsində Rusiyanın böyük təcrübəsi var. Rusiyanın simasını dəyişdirən və keçmiş Sovet[277-278]lər İttifaqına daxil olan bütün ölkələrin, dövlətlərin simasını dəyişdirən siyasi və iqtisadi islahatların təşkilində və həyata keçirilməsində Boris Nikolayeviç Yeltsinin necə böyük rolu olduğunu biz hamımız yaxşı bilirik. Buna görə də hesab edirəm ki, keçən il iyulun 3-də Boris Nikolayeviç Yeltsinin ikinci dəfə Rusiya Federasiyasının prezidenti seçilməsi Rusiya üçün, Rusiyanın bütün xalqları üçün çox mühüm hadisədir. Müstəqil Dövlətlər Birliyi ölkələri üçün də bunun böyük əhəmiyyəti var.

Biz Müstəqil Dövlətlər Birliyini ölkələrimiz arasında münasibətləri daha da inkişaf etdirməyin və möhkəmləndirməyin, şübhəsiz ki, qarşılıqlı surətdə faydalı əməkdaşlığı inkişaf etdirməyin mühüm vasitəsi sayırıq. Boris Nikolayeviç, Siz MDB-nin fəaliyyətini təkmilləşdirmək üçün böyük səy göstərirsiniz. Biz hesab edirik ki, əgər MDB təkmilləşərsə, əsl beynəlxalq təşkilata xas olan cəhətləri getdikcə daha çox əxz edərsə, o zaman MDB birlik ölkələrinə böyük kömək göstərə bilər. Biz bunu istəyirik və Müstəqil Dövlətlər Birliyinin beynəlxalq hüquq normaları, prinsipləri əsasında inkişaf etməsi və möhkəmlənməsi üçün öz tərəfimizdən hər şeyi edəcəyik. Boris Nikolayeviç, biz bu işdə Sizə böyük yer veririk, neçənci dəfədir ki, Sizi yekdilliklə Müstəqil Dövlətlər Birliyi Ölkələri Dövlət Başçıları Şurasının sədri vəzifəsinə irəli sürürük. Bu baxımdan Sizin ikinci dəfə Rusiya Federasiyasının prezidenti seçilməyinizin böyük əhəmiyyəti var.

Boris Nikolayeviç, bu hadisənin ildönümü münasibətilə Sizi ürəkdən təbrik edirəm. Burada iştirak edənlərin hamısını bu hadisə münasibətilə təbrik edir və Boris Nikolayeviç, Sizə cansağlığı, xoş həyat və tarixi missiyanızı həyata keçirməkdə uğurlar diləyirəm. Rusiyada keçirilən islahatlar, MDB ölkələrindəki islahatlar, Azərbaycanda aparılan islahatlar bizim gələcəyimizdir. Sizə demək istəyirəm ki, biz Azərbaycanda buna müstəsna dərəcədə böyük əhəmiyyət veririk, islahatlar yolu ilə [278-279] gedirik və bu yoldan dönməyəcəyik. Bu, bizim əməkdaşlığımızın gələcək inkişafı üçün yaxşı əsasdır.

Rusiya Federasiyasının prezidenti, hörmətli Boris Nikolayeviç Yeltsinin sağlığına badə qaldırıram. Rusiya Federasiyasının şərəfinə, rus xalqının şərəfinə, Rusiyanın gələcək tərəqqisi şərəfinə, Rusiya-Azərbaycan dostluğu şərəfinə, Rusiya ilə Azərbaycan arasındakı dostluğun şərəfinə, Sizin sağlığınıza badə qaldırıram. [279-280]

## RUSİYA FEDERASİYASININ BAŞ PROKURORU YURİ SKURATOV İLƏ GÖRÜŞDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Kreml*

*4 iyul 1997-ci il*

Hörmətli Yuri İliç!

Mən Azərbaycanın və Rusiyanın prokurorluq orqanları arasında sıx əməkdaşlıq olduğunu və bunun müsbət nəticələr verdiyini vurğulamaq istəyirəm. Hesab edirəm ki, mənim Rusiyaya ilk rəsmi səfərim zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilənin imzalanması bu sahədə qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsi üçün əlverişli şərait yaradılmasına kömək edəcəkdir. Azərbaycan Respublikasının prezidenti kimi iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın vəziyyətindən razı qaldığımı bildirirəm.

**Sual: Cənab prezident, görüş necə keçdi və siz Ermənistana Rusiya silahı göndərilməsinin təhqiqatının gedişini müzakirə edə bildinizmi?**

**Heydər Əliyev:** Görüş çox yaxşı keçdi. Mən bu gün mətbuat konfransında Rusiya prokurorluğu ilə Azərbaycan prokurorluğu arasında mehriban münasibətlərin yaranmasında Rusiya Baş Prokurorluğunun və şəxsən baş prokuror Yuri İliç Skuratovun xidmətlərini xüsusi vurğuladım. Məhz bu münasibətlər sayəsində və baş prokurorun ədalətli prinsipial mövqeyi, məsələyə dövlət mənafeyi baxımından yanaşması sayəsində [280-281] bir neçə cinayətkar – respublikamızda ağır cinayətlər törədərək Rusiya ərazisində gizlənən cinayətkarlar tutulub Azərbaycana verilmişdir. Bunun üçün mən bu gün ona öz təşəkkürümü bildirdim və indi bunu bir daha demək istəyirəm. Şübhəsiz ki, biz hər şeydən öncə Rusiya prokurorluğu ilə Azərbaycan prokurorluğu arasında qarşılıqlı əlaqələrə dair məsələləri müzakirə etdik. Əməkdaşlığın səviyyəsi yaxşıdır. Ancaq mən hesab edirəm ki, bunu inkişaf etdirmək və genişləndirmək lazımdır, biz bu barədə vahid fikrə gəldik.

Sizin dediyiniz məsələ də bizim söhbətimizdə əsas yerlərdən birini tuturdu, çünki bu məsələ bizi narahat edir. Rusiya Müdafiə Nazirliyinin ayrı-ayrı vəzifəli şəxslərinin Ermənistana qanunsuz olaraq külli miqdarda, təxminən bir milyard dollarlıq silah verməsi şübhə doğurmur. Bunu təsdiq edən çoxlu sənədlər var. Həm də təkcə silah verilməsini deyil, hətta silahların daşınmasını, bundan ötrü vəsait ayrılmasını təsdiqləyən sənədlər var. Sənədlərin bəziləri Rusiyanın mətbuat orqanlarında dərc olunubdur. Ona görə də mən hesab edirəm ki, Rusiyanın Baş Prokurorluğu bunların hamısını obyektiv surətdə araşdırmalıdır. Şübhəsiz ki, bütün bunlar bizi maraqlandırır. Ancaq Ermənistana verilmiş silahın miqdarının və növlərinin dəqiq müəyyən edilməsi və onun yenidən Rusiyaya qaytarılması bizi daha çox maraqlandırır.

Mətbuat konfransında dediyim kimi, Rusiyanın, Azərbaycanın və Ermənistanın iştirakı ilə birgə komissiya yaradılması haqqında dünən qərar qəbul edildi. Biz razıyıq. Mən bu komissiyanın tərkibinə daxil edilmək üçün öz nümayəndələrimi ayırdım. Komissiyaya hər respublikadan baş nazirlərin müavinləri başçılıq edəcəklər. Bizdən baş nazirin müavini Abbasov olacaqdır. Bizim komissiyanın tərkibinə Azərbaycanın baş prokuroru Həsənov, müdafiə naziri Əbiyev, xarici işlər nazirinin müavini Əzimov daxil olacaqlar. Mən belə düşünürəm ki, Rusiya komissiyasının tərkibi də müəyyən ediləcəkdir, ancaq [281-282] mən Boris Nikolayeviç Yeltsindən xahiş etdim ki, Yuri İliç də komissiyanın tərkibində hökmən olsun. Çünki bütün bu işə o, başçılıq edir.

**Sual: Yuri İliç, Siz bu işin təhqiqatının və bütövlükdə münaqişənin aradan qaldırılmasının perspektivlərini səciyyələndirə bilərsinizmi?**

**Yuri Skuratov:** indi biz iki istiqamətdə işləyərək, Reut – Zaqafqaziyadakı Rusiya qoşunlar qrupunun sabiq komandanı barəsində cinayət işini təhqiq edirik və silahların göndərilməsi ilə bağlı məsələləri geniş səpkidə yoxlayırıq. Şübhəsiz ki, biz komissiya yaradılması ideyasını dəstəkləyirik, çünki orada elə məsələlər var ki, onları müəyyənləşdirmək prokurorluğun işi deyildir. Söhbət beynəlxalq sazişlərə, xüsusən 1992-ci ilin mayında Daşkənddə imzalanmış sazişə uyğunluqdan gedir və Avropada adi silahların ixtisarı haqqında müqavilənin yerinə yetirilməsi barədə tərəflərin öhdəlikləri bu sazişlə müəyyən edilmişdir. Deməli, məsələlərin bu blokunu yoxlamaq və silahların göndərilməsinin qanuniliyi ilə bağlı bütün halları, bu yoxlamaların kimlər tərəfindən aparıldığını və bu cür hərəkətlər üçün nə kimi əsaslar olduğunu həqiqətən ətraflı təhqiq etmək lazımdır.

**Sual: Xahiş edirəm deyəsiniz, respublika prokurorluğu nümayəndəsinin burada, Moskvada təyin edilməsi nə verəcəkdir?**

**Yuri Skuratov:** Bəli, həqiqətən, indi biz razılığa gəlmişik ki, bizim baş prokurorluqların əlaqələndirmə şurası işçi katibliyi ilə tamamlanacaq ki, iş biz iclasa toplaşarkən təsadüfdən-təsadüfə aparılmasın, bu katibliyin

çərçivəsində ciddi hazırlıq işi görülsün. Söhbət Azərbaycan Respublikası Prokurorluğunun burada, Moskvada nümayəndəsindən gedir. Mən belə düşünürəm ki, bu, hər cəhətdən düzdür. Bu, həm bizim əlaqələndirməmizi yüksəldəcək, həm də cinayətkarların verilməsi ilə, məhkumların verilməsi ilə bağlı məsələlərin həlli[282-283]nin operativliyini sürətləndirəcəkdir. Bu, birgə sənədləri daha ətraflı işləyib hazırlamağa imkan verəcəkdir. Siz bilirsiniz ki, indi MDB çərçivəsində əməkdaşlığımıza dair, mütəşəkkil cinayətkarlıqla mübarizəyə dair xüsusi proqram həyata keçirilir. Tədbirlər kompleksi hazırlanmışdır və biz qolumuzu çırmalayıb onu əməli surətdə həyata keçirməliyik. Biz artıq bilirik ki, kimə müraciət etmək lazımdır və əmin olacağıq ki, materiallar və mövqeyimiz Azərbaycan tərəfinə çatdırılacaqdır. Mən bunu ancaq alqışlayıram. [283-284]

## "EXO MOSKVI" RADİOSTANSİYASINA BİRBAŞA EFİRDƏ MÜSAHİBƏ

*4 iyul 1997-ci il*

**Sergey Korzun:** Danışır "Exo Moskvı" radiostansiyası. Moskva vaxtı ilə saat 19.03 radələridir. Bizim bugünkü qonağımız Azərbaycan prezidenti Heydər Əliyeviç Əliyevdir. Gün aydın, Heydər Əliyeviç!

**Heydər Əliyev:** Gün aydın.

**Sergey Korzun:** Bu proqramın sahibi kimi birinci sualı mən verirəm. Siz səhhətinizlə əlaqədar on il bundan əvvəl SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa vermisiniz. Bunu belə əsaslandırmışdılar. İndi özünüzü necə hiss edirsiniz?

**Heydər Əliyev:** Özümü yaxşı hiss edirəm. Söz xatirinə demirəm, həyat fəaliyyətimin necə olmasından görünür. Özümü yaxşı hiss edirəm.

**Sergey Korzun:** Çox sağ olun ki, bu studiyaya gəlməyə razılıq verdiniz. Vaxtı itirməyək. Proqramın iştirakçılarını təqdim edirəm: Aleksey Venediktov, Vyaçeslav Terexov.

**Sual: Heydər Əliyeviç! Azərbaycan Respublikasının prezidenti kimi Sizin Rusiya Federasiyasına ilk rəsmi səfəriniz bu gün başa çatır. Bu, ilk rəsmi səfərdir. Zəhmət olmasa, deyin, o vaxtların – SSRİ-nin həsrətini çəkməyi demirəm, Siyasi Büronun iki üzvü, yaxud Siyasi Büronun üzvü Əliyev və Siyasi Büro üzvlüyünə namizəd Yeltsin paytaxtdan-paytaxta gəlmədən, haradasa, sakit guşədə bir** [284-285] **fincan qəhvə içə-içə məsələləri həll edə bildikləri vaxtların həsrətini çəkirsinizmi? İndiki vaxtda gəlmək lazımdır, indiki məsələlər ağırdır...**

**Heydər Əliyev:** Bilirsiniz, yaşadığımız və işlədiyimiz həmin rejim, həmin sistem baxımından ümumən ötən vaxtların həsrətini çəkmirəm. Hesab edirəm ki, biz bu sistemdən ayrıldıq və həmişəlik ayrıldıq. Amma insanlarla ünsiyyət, əlaqələr həsrəti qalıbdır. Mən burada, Moskvada işləyərkən çoxlu insanlarla, o cümlədən işlə əlaqədar çoxları ilə ünsiyyətdə olurdum. Onlar çox yaxşı, mehriban insanlar idilər. Elm, mədəniyyət, incəsənət xadimlərinin çoxları ilə ünsiyyətdə olurdum. Bir də ki, ümumiyyətlə, Moskva gözəl, yaxşı şəhərdir. Hətta Moskvada yaşadığım zaman da şəhərdəki vəziyyət, həyat mühitinin özü həmişə xoşuma gəlibdir. Şübhəsiz ki, Moskvada yaşadığım dövrdə mən bu şəhərə, bu həyata alışmışdım. Ona görə də nə isə bir həsrət var, lakin bu, sırf şəxsi, subyektiv xarakter daşıyır.

**Sual: Boris Nikolayeviç gözünüzə necə dəyirdi – son vaxtlar bəzi məqalələr çıxır ki, guya Boris Nikolayeviç danışıqlarda da özü qərar qəbul etmir, qoca, xəstə adamdır, doğrudur, siz ondan 10 yaş böyüksünüz, ancaq bununla belə, həmsöhbət, tərəfdaş, bilmək istəyirsinizsə, rəqib kimi gözünüzə necə dəyirdi?**

**Heydər Əliyev:** Əvvəla, 10 yaş yox. Mən yaşca bir az böyüyəm, amma ümumiyyətlə, böyüyəm. Bilirsiniz, mən onu çox yaxşı formada gördüm. Sonuncu dəfə onunla martın 27-28-də, burada MDB dövlət başçılarının toplantısı keçiriləndə görüşmüşdüm. Elə onda da yaxşı təsir bağışlayırdı, amma bu dəfə xüsusilə xoşuma gəldi. Axı mən dünən uzun müddət onunla birlikdə idim: Biz təkbətək danışıqlar apardıq, sonra nümayəndə heyətlərinin bir-birilə danışıqları oldu, daha sonra – axşam isə Kremldə, Qranovit palatasında Azərbaycan prezidentinin şərəfinə ziyafət verildi. Biz yanaşı oturmuşduq, [285-286] yeyir, içir, musiqiyə qulaq asır və söhbət edirdik. Onun vəziyyəti çox yaxşıdır və qərarları özünün qəbul etməməsi barədə deyilənlər isə hesab edirəm ki, uydurmadır. O, danışıqlar aparmış, mənimlə söhbət etmişdir. Biz təkbətək təxminən saat yarım söhbət etmişik. Sonra nümayəndə heyətləri ilə söhbət etmişik, sənədlər imzalamışıq. Sənədlərin imzalanmasından sonra o, bəyanat verdi, mən bəyanat verdim. Biz jurnalistlərin suallarına cavab verdik, bunların hamısı insanların gözü qarşısında olub, ona görə də bəzi adamların dedikləri uydurmadır. Hesab edirəm ki, onun vəziyyəti yaxşıdır, zənnimcə, sağlamlığını bərpa edibdir. Dünən nahar vaxtı mən ona dedim ki, arıqlayıb, bunun özü də yaxşıdır. Xəstələnməkdən əvvəl çox, həddən artıq kök idi, köklük heç kimə, o cümlədən ona da lazım deyil. Bir sözlə, onun vəziyyəti yaxşıdır.

**Sual: Siz baş prokuror Skuratov ilə görüşdən sonra buraya gəlmisiniz. Hətta bir saat ləngidiniz. Deyə bilərsinizmi, söhbətiniz nə barədə idi və hansı qərarlara gəldiniz?**

**Heydər Əliyev:** Bilirsiniz, bu, baş prokurorla mənim ilk rəsmi fərdi görüşüm idi. Hər şeydən öncə hesab edirəm ki, Rusiyanın yaxşı baş prokuroru var. O, alim, ziyalı adamdır. Mənə belə gəlir ki, özünün savadı, ziyalılığı ilə o, prokurorluğun işinə yeni və müsbət çox şey gətirir. Mən bunu kənardan hiss edirdim, sonra söhbət zamanı da gördüm. Bu, ilk təəssüratdır.

Onunla nə barədə danışdığımıza gəldikdə isə, birincisi, söhbətimizin ilk mövzusu Rusiya və Azərbaycan prokurorluq orqanları arasında qarşılıqlı əlaqəni gücləndirməyin zəruriliyi haqqında idi. Çünki dünən biz həm də çox mühüm sənəd – dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalamışıq. Deməli, bütün dövlət strukturları bir-birilə yaxşı qarşılıqlı əlaqə saxlamalıdır. Bu, söhbətimizin birinci əsas məsələsidir. Sonrakı məsələ isə, – bu barədə mətbuat konfransında da sual verdilər, – Azərbaycanda ağır cinayətlər, [286-

287] qətllərlə, terrorlarla və hansısa digər ağır hadisələrlə bağlı cinayətlər törətdikdən sonra Rusiya ərazisində gizlənən şəxslərin aşkar edilib tutulması və Azərbaycana verilməsi haqqında məsələ idi. Mən mətbuat konfransında cavab verdim ki, son vaxtlar, xüsusən 1996-cı ilin ikinci yarısından, bəlkə də, 1996-cı ilin əvvəlindən başlayaraq Rusiya Prokurorluğu ilə Azərbaycan Prokurorluğu arasında, Rusiya DİN ilə Azərbaycan DİN arasında yaxşı əlaqələr yaranıbdır. Hesab edirəm ki, bu işdə baş prokuror kimi Skuratovun da, daxili işlər naziri kimi Kulikovun da böyük xidmətləri var. Məsələn, biz onların respublikamıza münasibətindən də, Rusiya ərazisində gizlənən şəxslərin məhz aşkara çıxarılması ilə bağlı fəaliyyətindən də razıyıq. Mən deməliyəm ki, belə insanların artıq bir çoxu tutulub və Azərbaycana verilib, onların işləri üzrə təhqiqat aparılıb və hətta bu insanların bir çoxu mühakimə edilib, özü də bizdə məhkəmə iclasları açıq keçirilir. Ona görə biz bu mövzunu da müzakirə etmişik, çünki bu problemlər hələ qalır, hələ məsələlər var və mən inanıram ki, Skuratov şəxsən özü indən belə də bu məsələləri qarşılıqlı anlaşma ruhunda həll edəcəkdir.

**Sual: Yəni o, Sizi başa düşdü?**

**Heydər Əliyev:** Bəli, mən onu başa düşdüm və o da məni başa düşdü. Ümidvaram ki, bu, yaxşı olacaq.

**Sual: Heydər Əliyeviç, Mütəllibovla bağlı məsələni həll etmək mümkün oldumu? Çünki bu, heç kimin dilindən düşmür.**

**Heydər Əliyev:** Bilirsiniz, biz bu məsələni heç müzakirə də etmədik. Mən bir daha demək istəyirəm: Bu, haqqında heç danışılası, üstəlik də sizin studiyada xatırlanası adam deyildir. O, buna layiq deyildir. Sadəcə olaraq Rusiya Federasiyasındakı bəzi insanların günahıdır ki, Mütəllibov kimi cinayətkarlara himayədarlıq edirlər. Əgər bu adam prezident vəzifəsində olarkən cinayət törətmiş və Rusiya Federasiyasının hərbi təyyarəsində gizlənib Moskvaya gəlmişsə və [287-288] artıq 5 ildir burada yaşayırsa – elə bunun özü onun kimliyindən xəbər verir. Yaxşı, deyək ki, bacarmadı, deyək ki, əkildi, qaçdı. Özü bilər! Lakin atılıb – düşməsin! Amma o, burada hər şeyə burnunu soxur, orada isə ayrı-ayrı insanları şikəst edir. Nə cür şikəst edir? Adamları öz cinayətkar fəaliyyətinə cəlb edir, terrorçuluq tapşırıqları ilə Bakıya, Azərbaycana göndərir, orada isə onları tuturlar, onlar həbsxanaya düşürlər, şübhəsiz ki, cəza alırlar. Hesab edirəm ki, o, bu insanları şikəst edir. Ola bilsin bu insanlar nə dərəcədə onun təsiri altına düşdüklərini bəlkə o qədər də başa düşmürlər, anlamırlar.

Lakin o, bu işlə məşğul olur. Əgər belə işlərlə məşğul olmasaydı, bizə əsla lazım deyil, Azərbaycan onsuz daha təmizdir. Daha bir alaq otunu Azərbaycana aparmağımıza nə ehtiyac var? Harada olmasından – dəmir barmaqlıq arxasında və ya öz mənzilində oturmasından asılı olmayaraq, o, bizə gərək deyildir.

**Sual: İndi Azərbaycanda hakimiyyət uğrunda leqal mübarizə mövcuddurmu?**

**Heydər Əliyev:** Nə danışırsınız. Yoxdur. Onun tərəfindən?

**Müxbir**: Yox, ümumiyyətlə Azərbaycanda.

**Heydər Əliyev:** Gəlin Mütəllibov barədə sözümü tamamlayım. Biz Yuri İliç Skuratov ilə bu mövzuda danışdıq. Mən ona dedim ki, zəhmət olmasa, hamıya çatdırın: qoy o, dinc otursun, öz işləri ilə məşğul olsun, ancaq cinayət törətməklə məşğul olmasın. Yox, əgər o bunlarla məşğul olacaqsa, ya siz onu tutmalısınız, yaxud da onu burada tutub Azərbaycana gətirəcək adamlar tapılacaqdır. Bax belə. O ki qaldı hakimiyyət uğrunda mübarizə barədə sizin sualınıza, bilirsinizmi, bu baxımdan Azərbaycan, təəssüflər olsun, bir növ yoluxucu xəstəliyə düçar olmuşdu. Özünüz diqqət yetirin: hakimiyyət uğrunda 1992-ci ildə də mübarizə olmuşdur. Mütəllibov istefaya getdi, qaçıb aradan çıxdı. Hakimiyyət uğrunda bu mübarizə nəticəsində Xalq Cəbhəsi hakimiyyətə gəldi. Ancaq bir ildə [288-289] o öz nüfuzunu tamamilə itirdi, çünki hakimiyyətə qeyri-qanuni yolla gəlmişdi. Bilirsinizmi, xalq başa düşürdü ki, bu adamlar, bu qüvvələr ölkəni idarə etmək iqtidarında deyildirlər. Onlara müəyyən dərəcədə inanmışdılar, çünki onlar küçə və meydanlarda təsirli sözlər söyləyirdilər. Amma ölkəni idarə etməyə başlayan kimi səhvlər buraxmağa başladılar, öz bacarıqsızlığını nümayiş etdirdilər, təxminən bir neçə aydan sonra xalq onlara olan etimadmı itirdi. Hakimiyyət uğrunda mübarizə aparan ayrı-ayrı adamlar bundan istifadə edərək onları devirməyə çalışdılar və Vətəndaş müharibəsi başlandı – bu, məhz 1993-cü ilin may-iyun aylarında oldu.

Belə bir çətin vəziyyət yarandıqda Azərbaycan ziyalılarının, Azərbaycan xalqının bir çox nümayəndələri, eləcə də respublikanı daha idarə edə bilməyən Azərbaycan rəhbərləri mənə müraciət etdilər. Mən Naxçıvanda, blokada şəraitində olan bir vilayətdə yaşayırdım. Bilirsinizmi, Naxçıvan təcrid olunmuşdu. Mən Bakıya gəldim və xalq mənə etimad göstərdi, məni prezident seçdi.

Bilirsinizmi, hakimiyyət uğrunda mübarizə terrordan keçir. Mənə qarşı terror törətməyə çox cəhdlər göstərilmişdi. 1994-cü ilin oktyabrında elə həmin Surət Hüseynov Əliyevi devirməyi qərara almışdı. 1993-cü ildə Vətəndaş müharibəsinin baisi məhz bu adam olmuşdur, mən onu Azərbaycanın baş naziri təyin etmişdim, o isə öz silahlı qüvvələrini başına toplamışdı. Lakin onun cəhdi baş tutmadı. Mən xalqa müraciət etdim və xalq mənim arxamda durdu. Xüsusi təyinatlı milis dəstəsi komandirinin rəhbərlik etdiyi adamlar altı aydan sonra əl-ələ verərək öz böyük hərbi qüvvələrindən istifadə etdilər və Əliyevə qarşı terror törətməyi, hakimiyyəti devirməyi qərara aldılar. Ancaq biz bunun da qarşısını aldıq və onları yerində oturtduq. Onların çoxu həbs edilmişdir, lakin bu adamların bir qismi qaçıb aradan çıxmış, Rusiya və başqa ölkələrin ərazisində gizlənmişdir. [289-290]

Sonra biz Ukrayna prezidenti Kuçma ilə hava limanına gedərkən körpünü partlatmağa cəhd göstərildi, ancaq biz bunu da aşkara çıxardıq. Oradan 160 kiloqram trotil və müxtəlif materiallar tapıldı. Mən Rumıniyada rəsmi səfərdən sonra evə qayıdarkən raketlə mənim təyyarəmi vurmağa cəhd göstərildi. Amma biz bunun da qarşısını aldıq. Təəssüflər olsun ki, bütün bunlar o vaxtlar burada olmuş şəxslər tərəfindən təşkil edilmişdi. Onlardan bəziləri hələ də Rusiya ərazisində gizlənirlər. Elə indi də bəziləri hakimiyyətə can atırlar. Amma bilin ki, Əliyev olan yerdə belə şeylər mümkün deyildir. 1998-ci ildə ölkəmizdə növbəti prezident seçkiləri keçiriləcəkdir. Mənim prezidentlik müddətim bitir. Bax, onda kim istəyirsə, buyurub öz namizədliyini irəli sürə bilər.

**Sual: Heydər Əliyeviç, Siz öz namizədliyinizi verəcəksinizmi?**

**Heydər Əliyev:** Əlbəttə, verəcəyəm. Mən işə ona görə girişməmişəm ki, bunu kiməsə verim.

**Sual: Səfərinizin çox mühüm nəticələrindən biri də budur ki, Siz prezident Yeltsinlə Qarabağ üzrə Minsk qrupunun işini gücləndirməyi qərara aldınız. Bəyan edildi ki, beş prezident – dinləyicilərimizə xatırladım ki, bunlar Azərbaycan, Rusiya, Ermənistan prezidentləridir, habelə ABŞ və Fransa prezidentləridir, – çoxdan mövcud olan bu problemi yerindən tərpətmək üçün toplaşmağa hazırdırlar. Sizin fikriniz necədir: bu görüşdə Dağlıq Qarabağ, Dağlıq Qarabağın nümayəndələri hər hansı şəkildə iştirak etməlidirlərmi?**

**Heydər Əliyev:** Bilirsinizmi, siz irəli qaçırsınız.

**Müxbir: Mən buna çalışıram.**

**Heydər Əliyev:** İrəli qaçmaq lazım deyildir. Əvvəlcə ona nail olmaq lazımdır ki, Boris Nikolayeviçin dediyi kimi olsun. Bunun vaxtı çatanda baxarıq, biz oraya nə ilə gedəcəyik. Biz oraya danışmaq üçünmü, növbəti bəyanat vermək üçünmü gedirik, yoxsa, məsələnin konkret həlli üçünmü gedirik? Əgər [290-291] məsələnin konkret, real həlli olarsa, onda çox şey barəsində düşünməyə dəyər. Odur ki, irəli qaçmaq gərək deyildir.

**Sual: Heydər Əliyeviç, Siz nəyə qadir olduğunu Çeçenistanda nümayiş etdirmiş Boris Berezovski kimi münaqişə məsələləri sahəsində mütəxəssisi Qarabağ probleminin həllinə cəlb etmək istərdinizmi?**

**Heydər Əliyev:** Bilirsinizmi, mən burada olarkən eşitmişdim ki, Boris Abramoviç Berezovski Tbilisi ilə Süxumi arasında vasitəçilik səfərləri həyata keçirir və orada nəyisə həll edir, mən çox istərdim ki, orada nə isə bir şey həll edilsin. Doğrudur, bu iki həftədə informasiya ilə daha ətraflı tanış olmağa imkan olmayıbdır. Odur ki, Bakıya qayıdan kimi bu məsələ ilə maraqlanacağam. Əgər o, orada hər hansı irəliləyişə, məsələnin hər hansı şəkildə həllinə nail olarsa, onda imkanlardan nə üçün də istifadə etməyək. Ümumiyyətlə, mən bu məsələyə real kömək – gözdən pərdə asmaq üçün deyil, məhz real kömək göstərə biləcək hər bir şəxsin yardımından və ya xidmətlərindən istifadə etməyə hazıram.

**Sual: Heydər Əliyeviç, son vaxtlar keçmiş Sovet İttifaqı məkanında, məsələn, Rusiya ilə Belarusiya arasında ittifaq kimi əlavə qurumlar yaradılmağa başlanmışdır. Bildiyiniz kimi, dünən Ukrayna, Moldova və Rumıniya prezidentləri hansısa bir saziş imzalamışlar. Bu yaxınlarda Avropa Şurası isə – Sizin ölkəniz Avropa Şurasına daxil olmağa namizəddir – federasiya olmasa da, Zaqafqaziya İttifaqı, bir növ Avropanın Zaqafqaziya Şurasını, Parlament Assambleyasını yaratmağı təklif etmişdir. Ümumiyyətlə, Siz belə bir inteqrasiyanı, əgər bilmək istəsəniz, regional inteqrasiyanı Ermənistan, Gürcüstan və Azərbaycan arasında inteqrasiyanı yaratmağa necə baxırsınız?**

**Heydər Əliyev:** Siz bilirsiniz ki, Zaqafqazıya tarixən çox sıx bağlı olan regiondur. Mən Gürcüstanı, Azərbaycanı və Ermənistanı nəzərdə tuturam. Amma təəssüflər olsun, Ermə[291-292]nistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar bunların hamısı pozulmuşdur. Əgər Ermənistan öz təcavüzkar əməllərindən əl çəksə, əgər Ermənistanın qoşunları, silahlı qüvvələri Azərbaycan ərazisindən çıxarılsa, siz bilirsinizmi, Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələrinin işğalı altındadır, oradan bir milyon nəfərdən çox Azərbaycan sakini qovulmuşdur, Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur, işğal edilmiş Azərbaycan ərazilərini azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək mümkün olarsa, əlbəttə, Dağlıq Qarabağa Azərbaycan respublikasının tərkibində yüksək dərəcədə özünüidarə statusu vermək məsələsini həll etmək şərti ilə və Ermənistan ilə Azərbaycan arasında sülh bərqərar edilərsə – biz isə bunu çox istəyirik – Zaqafqaziya respublikaları arasında iqtisadi əməkdaşlıq və ümumiyyətlə əməkdaşlıq keçmişdəkinə nisbətən, zənnimcə, görünməmiş miqyas alacaqdır. Keçmişdə isə biz hamımız müttəfiq respublikalar olmuşuq, Mərkəzə – Moskvaya çox güclü bağlı olmuşuq, xüsusi bir müstəqilliyimiz yox idi. İndi isə, müstəqil, suveren dövlətlər olan Gürcüstan, Azərbaycan, Ermənistan arasında yaxşı münasibətlər olarsa, sizi əmin edirəm ki, bu, təkcə Zaqafqaziyaya deyil, eləcə də bütün Qafqaza çox böyük fayda gətirəcəkdir. Yeri gəlmişkən, bizimlə Gürcüstan arasında çox yaxşı münasibətlər var. Yaxşı iqtisadi və mədəni əməkdaşlıq edirik. Bilirsinizmi, Gürcüstanda yanın milyona yaxın azərbaycanlı yaşayır, onlar Gürcüstanın tam hüquqlu vətəndaşlarıdır, biz onlarla yaxşı əlaqələr saxlayırıq. Amma istərdik ki, Ermənistan da öz təcavüzkar əməllərindən əl çəksin, nəhayət, başa düşsün ki, bu məsələni zor gücünə həll etmək mümkün deyildir. Üç ildən çoxdur ki, aramızda atəşkəs rejimi qüvvədədir. Biz bu rejimə əməl edirik və edəcəyik. Ümidvaram ki, Minsk qrupunun, xüsusən Rusiya prezidentinin, ABŞ prezidentinin, Fransa prezidentinin simasında həmsədrlər – dünyada onlardan da iri olan

ölkələr yoxdur – bu prezidentlərin simasın[292-293]da bu işə, dünən Boris Nikolayeviçin dediyi kimi, lazımınca girişəcəklər. Biz ümid edirik ki, 1997-ci il münaqişənin məhz sülh yolu ilə aradan qaldırılması və təbii olaraq, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə əlamətdar olacaqdır.

**Sual: Heydər Əliyeviç, mümkün olan müttəfiqlər haqqında söhbətin davamı kimi soruşmaq istəyirəm. Azərbaycan ənənəvi islam ölkəsidir. Birincisi, dinin rolu nə dərəcədə yüksəkdir, Siz bu roldan necə istifadə edirsiniz və bununla bağlı nə iş görürsünüz? ikincisi isə, ənənəvi islam ölkələri ilə əlaqələriniz necə inkişaf edir?**

**Heydər Əliyev:** Bilirsiniz, Azərbaycanda hüquqi dünyəvi dövlət qurulur. Biz bu prinsipi əsas götürərək öz daxili və xarici siyasətimizi aparırıq. Bu prinsipi əsas götürərək bütün ölkələrlə münasibətlər yaradırıq. O ki qaldı islam dininə, bəli, bu, yeddinci əsrdən başlayaraq azərbaycanlıların etiqad etdikləri dindir. Din hər bir xalq üçün mənəvi sərvətdir, xristian dini, islam dini və s. kimi.

Ancaq bilirsiniz ki, sovet hakimiyyəti illərində dini qadağan etmişdilər, xüsusən islam dini çox güclü qadağan olunmuşdu. Mən keçmişi xatırlayıram, burada, Moskvada kimlərsə belə hesab edirdi ki, guya xristian dini dünyəvi dindir, müsəlman, islam dini isə pis dindir. Mən hesab edirəm ki, dinləri hansısa kateqoriyalara bölmək olmaz. Keçmişdə belə idi. Allaha şükür ki, indi belə deyil. İslam dini Azərbaycanda öz mövqeyini bərpa edib, Azərbaycanda rus pravoslav kilsəsi, yəhudi sinaqoqu var və bu üç konfessiya bir-birilə çox yaxşı əməkdaşlıq edir. Azərbaycan sakinlərinin, vətəndaşlarının dini ehtiyaclarmı ödəyirlər. Hansısa təməlçilik təhlükəsi olmamışdır. Biz ümumiyyətlə hər cür təməlçiliyin əleyhinəyik. Qəribədir, təməlçilikdən söhbət düşəndə, nədənsə islam təməlçiliyi haqqında danışırlar. Ümumiyyətlə, islam dininə hələ indiyədək özünü göstərən bu cür münasibəti mən yolverilməz sayıram. Hər bir dinin yaşamağa hüququ var və yaşayır. Axı, sovetlər dövründə [293-294] ateizm təbliğatı ilə nə qədər məşğul olsalar da, bir şey çıxmadı. Görün, İsa məbədi necə tikilir! Amma bir vaxtlar onu dağıtmışdılar. Eləcə də Azərbaycanda məscidləri dağıtmışdılar, indi yenilərini tikirlər. Bu, təbii haldır. Mənim dinə münasibətim çox yaxşıdır, lazım olanda, əlamətdar günlərdə məscidə gedirəm, dindarlar qarşısında çıxış edirəm. Mən rus pravoslav kilsəsinin başçısı ilə də və yəhudi sinaqoqunun başçısı ilə də çox yaxşı münasibətlər saxlayıram.

İrana gəldikdə isə, İranın öz dövlət rejimi var, o islam dövlətidir. Amma bizdə, Azərbaycan dünyəvi dövlətdir. Ancaq biz dost ölkələrik, böyük sərhədimiz var, çox böyük birgə tariximiz var, ənənələrimiz bir-birinə çox bənzəyir. İranda 30 milyona qədər azərbaycanlı yaşayır. Yeri gəlmişkən deyim ki, onlar İranın Azərbaycanla bitişik hissəsində yaşayırlar. Yeri gəlmişkən, bu hissə İran Azərbaycanı adlanır. Ona görə də münasibətlərimiz mehriban, yaxşıdır, dediyim fərqlər bir-birinə əsla mane olmur.

**Sual: Heydər Əliyeviç, Sizin hər bir cavabınız bir neçə yeni sual doğurur. İndi mən bunları cəmləşdirməyə çalışacağam. Siz İran barəsində danışdınız. Bu barədə əslində heç yerdə yazılmayıb və nədənsə hər iki prezident də bu barədə danışmadılar, bəlkə indi siz deyəsiniz. Axı, bir vaxt İran-Azərbaycan sərhədinin birgə qorunması məsələsi qarşıda dururdu və Rusiyanın bir çox yüksək vəzifəli xadimləri və hərbçiləri belə hesab edirdilər ki, İran-Azərbaycan sərhədinin yeganə sahəsinin birgə qorunmaması Rusiyanın təhlükəsizliyi üçün qorxuludur. Bununla əlaqədar dərhal ikinci sualı vermək istəyirəm – bu necə olur, iki prezident iki hərbi nazirə, iki hökumət başçısı müavininə tapşırdılar ki, razılığa gəlsinlər və bu gün, bir saatdan sonra siz yola düşənədək Qəbələ müşahidə stansiyası haqqında məsələni həll etsinlər, lakin nə hər iki hərbi nazir, nə də hər iki hökumət başçısı müavini bunu yerinə yetirmədilər.** [294-295]

**Heydər Əliyev:** Haradan bilirsiniz ki, yerinə yetirməmişik? Bax indi yerinə yetirməliyik. Mən baş nazirimizə tapşırıq vermişəm ki, dünəndən bəri hazırladıqları sənədi imzalasın.

**Sual: Bəs problem nədən ibarətdir?**

**Heydər Əliyev:** Bilirsinizmi, problem çoxdur, onları bir sözlə ifadə edə bilməzsən. Hər halda sənəd hazırdır və iqamətgahdan buraya yollanarkən Azərbaycan baş nazirinin birinci müavininə göstəriş verdim ki, sənədi imzalasın.

O ki qaldı sualınızın birinci hissəsinə, yaxşı sualdır. Kim düşünüb ki, bir suveren dövlətin sərhədini digər dövlətin qüvvələri ilə birlikdə qorumaq lazımdır? Bir deyin görüm, bunu haradan götürüblər, bunu kim düşünüb ortaya atmışdır? Biz bununla razı deyilik, bu, uydurma bir şeydir. "MDB-nin xarici sərhədi" kimi termini burada, Rusiyada bəzi strukturlar uydurmuşlar. Mənə aydın deyildir, "MDB-nin xarici sərhədi" nə deməkdir. Əgər MDB Müstəqil Dövlətlər Birliyidirsə, onda hər bir müstəqil dövlət öz sərhədini qoruyur. Nə kimi xarici sərhədlər ola bilər? Məgər Avropa Birliyində xarici sərhədlər varmı? Yaxud region ölkələrinin daxil olduqları bu cür qurumlarda xarici sərhədlər varmı? Heç bir xarici sərhəd yoxdur. Bu uydurmadır, bilirsinizmi, bu, keçmişin qalığıdır. Adamlar keçmişin qalıqlarından, imperiya ovqatından əl çəkməyincə, bərabərhüquqlu əməkdaşlıq ola bilməz. Buna görə də biz "MDB-nin xarici sərhədləri" terminini rədd edirik. Biz hesab edirik ki, öz sərhədimizi qorumaq iqtidarındayıq və öz sərhədimizi qoruyuruq. Yeri gəlmişkən, Rusiya ilə Azərbaycan arasında sərhədi Dağıstan sahəsində Rusiya sərhədçiləri qoruyurlar. Orada çox böyük miqdarda Rusiya sərhədçiləri var. Bizim sərhədçilər də var, onlar sərhədi bizim tərəfdən qoruyurlar. Bəs Rusiya sərhədçiləri nə üçün belə qoruyurdular? Onlar hesab edirdilər ki, Azərbaycandan Çeçenistana guya yaraqlılar keçib gedirdilər.

Belə isə onlar bu yaraqlıları niyə bu[295-296]raxırdılar? Ona görə ki, yaraqlılar yox idi, Azərbaycan ərazisindən keçib getmirdilər. Bütün bunların hamısını uydurmuşdular. Elə götürək Aslan Məshədovu. Mənim buraya səfərim ərəfəsində o, Bakıya gəldi. Ona sual verdilər ki, Rusiyanın informasiya orqanlarında bildiriblər ki, Azərbaycandan silah, döyüş sursatı və s. gəlir. O cavab verib dedi: "Bu başdan-başa yalandır. Biz silahı Rusiya ordusundan, Rusiyanın hərbi hissələrindən alırdıq. Orada hər şey satılır və satın alınırdı". Bax, o, beləcə də demişdir.

**Sual: Ermənistan kimi?**

**Heydər Əliyev:** Nə dediniz?

**Sual: Silahı Rusiya hissələrindən satın alırdılar?**

**Heydər Əliyev:** İndi məlum olduğu kimi, Ermənistan silahları, təəssüf ki, satın almırdı. Satın olsaydı dərd yarı, Rusiya xəzinəsinə pul daxil olardı. Təxminən bir milyard dollarlıq silahı, özü də çox ağır silahı, vahiməli silahı, o cümlədən raketləri – uzaqvuran zenit raketlərini, eləcə də T-72 markalı müasir tankları, habelə müasir artilleriya toplarını, "qrad" qurğularını və bir çox digər silahları pulsuz, qanunsuz olaraq, qeyri-leqal surətdə veriblər. Biz baş prokuror Skuratovla bu mövzuda da danışdıq, çünki onlar təhqiqat aparırlar. Onlar məsələni aydınlaşdırmalıdırlar. Elə sizin qəzetlərdə sərəncamların surətləri dərc edilmişdir. Bu sərəncamları Rusiya ordusu baş qərargahının rəisi Kolesnikov vermişdir ki, oraya filan qədər silah göndərilsin. Yoxsa, siz oxumamısınız? Bunlar sizin qəzetlərdə yazılıbdır. Ona görə də bu göstərişlərin hamısı qanunsuzdur. O da qanunsuzdur, bu da qanunsuzdur, hamısı qanunsuzdur.

**Sual: Heydər Əliyeviç, xahiş edirəm deyəsiniz, Azərbaycana qanunsuz olaraq göndərilmiş Rusiya silahları varmı? Çeçenistan məsələsi barədə belə şayiələr doğrudurmu ki, digər hansısa ölkələrlə birlikdə Azərbaycan Çeçenistanın müstəqilliyini rəsmən tanımağa hazırdır?** [296-297]

**Heydər Əliyev:** Birinci sualınıza cavab verib deyim ki, Rusiyadan Azərbaycana bir dənə də olsun silah gəlib çıxmayıb. Mən bunu bəyan edirəm, çünki Ermənistana silahların qanunsuz olaraq verilməsi ilə əlaqədar aşkara çıxarılmış ciddi cinayətlərlə bağlı indi müxtəlif şayiələr uydururlar ki, bunun üstünü pərdələsinlər. Mən bəyan edirəm əgər haradasa faktlar, sənədlər varsa, qoy onları kimsə üzə çıxarıb stolun üstünə qoysun. Bu, tamamilə istisna edilir.

O ki qaldı Çeçenistanın tanınmasına, biz heç vaxt belə bəyanatlar verməmişik. Çeçenistan Rusiya Federasiyasının subyektidir. Odur ki, biz heç vaxt belə bəyanatlar verməmişik. Yeri gəlmişkən, Aslan Məshədov Bakıda olarkən mənə hətta belə bir sual da vermədi. Bunu da kimsə uydurur, yayır.

**Sual: Heydər Əliyeviç, elə isə necə izah etmək olar ki, neft haqqında saziş üç müxtəlif dövlətin üç neft şirkətinin nümayəndələri tərəfindən imzalanmalıdır? Mən bu gün və ya sabah imzalanmalı olan sazişi nəzərdə tuturam.**

**Heydər Əliyev:** O saziş bu gün, bəlkə də sabah imzalanmalıdır. Bu, yenə də Rusiya ilə Çeçenistan arasında olan bir işdir. Çünki bu danışıqlar aparılmışdır. Siz bilirsiniz ki, 1996-cı ilin yanvarında burada, Moskvada biz Azərbaycan neftinin Novorossiysk limanınadək marşrutla nəql edilməsi haqqında saziş imzalamışıq. Biz nefti hələ bu ilin əvvəllərində ixrac etməli idik. Biz öz ərazimizdə Dağıstanadək, sərhədədək boru kəməri çəkdik, bu işə biz yox, beynəlxalq neft şirkətlərinin konsorsiumu 50 milyon dollar sərf etdi. Bu borunu neftlə doldurduq, amma Rusiya tərəfindən nefti qəbul etmədilər. Odur ki, problemlər yarandı və bu problemlər barəsində danışıqlar aparıldı. Danışıqları Viktor Stepanoviç Çernomırdinin özü Soçidə olarkən apardı. Aslan Məshədov oraya getdi. Bu gün Anatoli Borisoviç Çubays dedi ki, onlarla danışıqlar aparıb. Bunu mənə Boris Yefımoviç Nemtsov da dedi. Nəticədə dünən dedilər ki, saziş imzalanacaqdır. Həmin Rusiya-[297-298]Azərbaycan sazişi qüvvədə qalır, lakin üç şirkətlə – Rusiyanın "Transneft" şirkəti ilə, Çeçenistan və Azərbaycanla kommersiya sazişi imzalanır. Nə deyirəm, bizim etirazımız yoxdur.

**Sual: Daha bir olduqca qısa sual. Bu sual ortaya çıxmamışdır. Siz iyulun 8-9-da keçiriləcək NATO-nun Zirvə görüşünə gedəcəksinizmi?**

**Heydər Əliyev:** Mən dəvət edilmişəm və gedəcəyəm.

**Sual: Siz həmişə demisiniz ki, Azərbaycan bu gün hər hansı ayrıca hərbi bloklara daxil olmaq niyyətində deyildir. Bəs nə üçün bu Zirvə görüşünə getməyi qərara almısınız?**

**Heydər Əliyev:** Bu, hərbi blok deyildir. Bu, NATO-nun və Şimali Atlantika İttifaqının iclasıdır. Onlar "Sülh naminə tərəfdaşlıq" proqramını elan etdikdə bu proqrama Rusiya da, digər MDB ölkələri də qoşuldular. Biz də qoşulduq. Brüsseldə bu proqramı mən özüm imzalamışam. Onlar məhz "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamış olan ölkələri dəvət ediblər. Bunun nəyi pisdir? Mən oraya onun üçün gedirəm ki, görüm orada nə baş verir.

**Sual: Heydər Əliyeviç, ən axırıncı sual – insan iqtisadiyyatı. Neft, borular – bunların hamısı aydındır. Amma bu, adi insana heç də həmişə aydın olmur. Azərbaycan "Kaqor"u və konyakı Sizin səfərinizdən sonra Moskvada yenidən görünəcəkmi?**

**Heydər Əliyev:** Bilirsinizmi, biz Rusiyaya nə qədər istəsəniz Azərbaycan konyakı, "Kaqor", əla Azərbaycan şərabları – ağ, qırmızı, şampan şərabları göndərə bilərik. Amma hökumətinizə deyin ki, qoy belə aksizlər və belə tariflər tətbiq etməsin. Yoxsa, bununla siz özünüzü həqiqətən əla içkilərdən məhrum etmiş

olursunuz. Halbuki heç bilmirəm, haradansa çox keyfiyyətsiz şeylər daşıyıb gətirirsiniz. Bu baxımdan bizim məhsul həm keyfiyyətlidir, həm də, mənim əzizim, sizin üçün yaxın və ucuzdur. Çalışın ki, biz onları ixrac edə bilək. [298-299]

**Sual: Çox sağ olun. Xatırladım ki, "Exo Moskvı" radiosunun stansiyasında birbaşa efirdə Azərbaycan Respublikası prezidenti Heydər Əliyevdir. Sağ olun ki, gəldiniz. Sizə uğurlar arzulayırıq!**

**Heydər Əliyev:** Sağ olun! Sizin hamınıza uğurlar arzulayıram!

* * *

*Birbaşa efirdən sonra suallara cavab:*

**Müxbir**: Siz MDB-də ən yaşlı prezidentsiniz?

**Heydər Əliyev:** Yaşca ən yaşlı prezidentəm və fəxr edirəm ki, mən bu yaşdayam. Mən 1993-cü ildə prezident seçilmişəm, çoxdan seçilənlər də var.

**Sual: İdmanın hansı növü ilə məşğul olursunuz?**

**Heydər Əliyev:** Mən tennislə məşğul olmuram. Mən normal gimnastika ilə məşğul oluram.

**Sual: Heydər Əliyeviç, Azərbaycan prezidentinin iş rejimi necədir?**

**Heydər Əliyev:** Mənim iş rejimim ağırdır. Mən bütün günü axşamadək işləyirəm.

**Sual: Bəs nə vaxt yuxudan durursunuz?**

**Heydər Əliyev:** Mən səhər təxminən saat 8-in yarısında dururam. Artıq saat 10-da işdəyəm. Gecədən keçənədək işləyirəm, nahar fasiləm axşam təxminən saat 8-də olur. Sonra daha gecəyədək işləyirəm.

**Sual: Üzr istəyirəm, bəs ailəniz? Sizin indi yəqin ki, nəticələriniz var?**

**Heydər Əliyev:** Bəli, nəvələrim var.

**Sual: Bəs nəticələriniz yoxdurmu?**

**Heydər Əliyev:** Xeyr, nəticələrim yoxdur. Mənim nəvələrim, qızım, oğlum var. Mən onları çox sevirəm. Mən çox ailəcanlı adamam. Amma nə etmək olar, mən buradan qo[299-300]vulandan sonra bir neçə il işsiz qaldım, indi isə işləmək lazımdır.

**Sual: O illərin əvəzini çıxmaq üçün? Əmək stajını doldurmaq üçün? Siz özünüzü bu gün təmin edilmiş adam hesab edə bilərsinizmi?**

**Heydər Əliyev:** Nə mənada?

**Sual: Deyirlər ki, "təmin edilmiş adam"ın ailəsi heç nədən korluq çəkmir...**

**Heydər Əliyev:** Bilirsinizmi, mən istefaya getdikdə, son illərdə böyük maddi çətinliklər çəkdim. Əgər sizi bu maraqlandırırsa, bir çox digər məişət çətinliklərim də olurdu. Naxçıvanda yaşayarkən qohumlarımgildə qalırdım, əslində, onların öhdəsində idim, çox ağır şəraitdə yaşayırdım. İndi isə prezidentə nə düşürsə, onunla dolanıram. O ki qaldı təmin olunmağıma, mən bu barədə heç vaxt düşünməmişəm. Mən özümü mənəvi cəhətdən təmin olunmuş adam hesab edirəm. Bu isə hər şeydən üstündür.

**Müxbir**: **Heydər Əliyeviç, sağ olun!** [300-301]

**"RİA-NOVOSTİ" AGENTLİYİNİN
TƏŞKİL ETDİYİ
MƏTBUAT KONFRANSINDA
BƏYANAT**

*Moskva, Xarici İşlər Nazirliyinin
Mətbuat Mərkəzi*

*4 iyul 1997-ci il*

Salaməleyküm, hörmətli jurnalistlər, kütləvi informasiya orqanlarının nümayəndələri!

Öncə, mən özünü jurnalist peşəsinə həsr edənlərin hamısına dərin ehtiramımı bildirmək istəyirəm. Bu, xüsusən indiki vaxtda şərəfli peşədir. Bizim indiki şəraitimizdə, – mən dövlət müstəqilliyi yoluna qədəm qoymuş, demokratik islahatlar, bazar islahatları həyata keçirən ölkələri nəzərdə tuturam, – mətbuat, jurnalistika xüsusi əhəmiyyət kəsb edir. Ona görə də mən sizə rəğbətimi və dərin ehtiramımı bildirirəm, sizinlə görüşməyimdən şadam.

Yəqin ki, mənim burada səfərdə olmağımla əlaqədar baş verən hadisələrin hamısından xəbərdarsınız. Ancaq eyni zamanda bir neçə kəlmə deyəcəyəm.

Mən Moskvaya srağagün, günün axırında, Rusiya Federasiyasının prezidenti hörmətli Boris Nikolayeviç Yeltsinin dəvəti ilə gəlmişəm. Bu, Azərbaycan Respublikasının prezidenti kimi mənim Moskvaya ilk rəsmi səfərimdir. Azərbaycan-[301-302]Rusiya münasibətləri üçün bunun böyük əhəmiyyəti var və ötən vaxt göstərdi ki, bu səfər həqiqətən olmalı idi, o, həm Azərbaycan üçün hesab edirəm, həm də Rusiya üçün çox lazım idi.

Sizə məlumdur, görüşlər, danışıqlar, ilk növbədə ən əsas söhbətlər, danışıqlar, – Rusiya Federasiyasının prezidenti Boris Nikolayeviç Yeltsin ilə, hökumətin sədri Viktor Stepanoviç Çernomırdin ilə, xarici işlər naziri Yevgeni Maksimoviç Primakov ilə və bir çox digər şəxslərlə, – olmuşdur. Bu, sizə məlumdur. Mən Federasiya Şurasında, parlamentdə olmuş, Yeqor Semyonoviç Stroyev və Federasiya Şurasmın nümayəndə heyəti ilə görüşmüşəm. Dövlət Dumasında olmuş, Gennadi Nikolayeviç Seleznyov və Dövlət Dumasının nümayəndə heyəti ilə görüşmüşəm. Bu gün Rusiya Elmlər Akademiyasında oldum, alimlərlə görüşdüm. Çoxlu başqa görüşlər də olub, bunu mətbuatdan bilirsiniz, ona görə də vaxtınızı almaq istəmirəm. Hər halda bu görüşlərin, söhbətlərin hamısı çox dostluq, səmimilik şəraitində, yaxşı keçir. Azərbaycana, xalqımıza, Azərbaycan prezidentinə olan xoş münasibəti hər yerdə hiss edirik.

Bütün bu danışıqların, görüşlərin mühüm yekunu, nəticəsi bizim imzaladığımız sənədlərdir. Başlıca sənəd Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilədir. Bu sənəd prezidentlər tərəfindən imzalanmışdır, onun müstəsna əhəmiyyəti var, burada həm Rusiyanın, həm Azərbaycanın, həm də Rusiya-Azərbaycan münasibətlərinin bugünkü reallığını əks etdirən çox mühüm müddəalar var. Bu sənəd Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da inkişafı və möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi və dərinləşdirilməsi üçün çox yaxşı normativ-hüquqi əsasdır.

İqtisadi, maliyyə xarakterli bir çox başqa sənədlər də imzalanmışdır, şübhəsiz ki, bunların hamısı birlikdə Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişaf etdirilməsində çox [302-303] böyük addımdır. Beləliklə, bu səfərin başlıca məqsədi Rusiya-Azərbaycan münasibətlərini möhkəmləndirmək və inkişaf etdirməkdir. Biz bu münasibətləri keçmiş tarixi əlaqələrə, Rusiya və Azərbaycan xalqları, rus və Azərbaycan xalqları arasındakı zəngin gözəl ənənələrə əsaslanan dostluq münasibətləri kimi qiymətləndiririk. Hesab edirik ki, müasir şəraitdə, həm Rusiya üçün, həm də Azərbaycan üçün müstəqillik şəraitində, yeni mərhələdə bu münasibətlər, şübhəsiz ki, beynəlxalq hüquq normaları, suverenliyə əməl etmək, dövlət müstəqilliyi, bir-birinin daxili işlərinə qarışmamaq əsasında müvəffəqiyyətlə inkişaf edə bilər.

Bütün bu müddəalar imzaladığımız müqavilədə öz əksini tapmışdır. Lakin bununla bərabər, görüşlər və söhbətlər zamanı, xüsusən prezident Boris Nikolayeviç Yeltsinlə söhbətlər və danışıqlar zamanı biz Qafqazda vəziyyət, Zaqafqaziyada vəziyyət kimi özümüz üçün mühüm məsələləri də, bu baxımdan xüsusən Ermənistan-Azərbaycan münaqişəsi barədə, Dağlıq Qarabağ münaqişəsi barədə, bu münaqişənin dincliklə aradan qaldırılması tədbirləri barədə məsələni müzakirə etdik.

Mən bununla əlaqədar bizim mövqeyimiz barədə, bizim prinsiplərimiz barədə bir neçə söz deyəcəyəm. Siz bilirsiniz ki, bu münaqişə Azərbaycan tərəfinin təqsiri olmadan hələ 1988-ci ildə başlanmışdır. Bu münaqişəyə başlayanlar Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycandan qoparıb Ermənistana birləşdirmək məqsədi güdürdülər. Sonra bunların hamısı müharibəyə, döyüş əməliyyatlarına, hərbi əməliyyatlara çevrildi və onlar da tələfata, itkilərə, qan-qadaya gətirib çıxardı. Nəticədə müxtəlif obyektiv və subyektiv səbəblər üzündən erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizindən çoxunu işğal etdilər. Bunun təxminən 4 min

kvadrat kilometr sahəsi Dağlıq Qarabağ vilayətinin ərazisidir, ümumilikdə 16 min kvadrat kilometr olan qalan bütün sahə isə Dağlıq Qarabağ Muxtar Vilayətinə bitişik rayonlardır. [303-304]

Münaqişə başlanan vaxtadək Dağlıq Qarabağ Muxtar Vilayətində 170 min əhali yaşayırdı ki, onların da 70 faizi erməni millətindən olan şəxslər, 30 faizi Azərbaycan millətindən olan şəxslər idi. Azərbaycan millətindən olan şəxslər oradan artıq çoxdan qovulmuşlar, bizim məlumatımıza görə, indi orada təxminən 80 min erməni yaşayır. Dağlıq Qarabağ Muxtar Vilayətini coğrafi cəhətdən əhatələyən rayonların isə əhalisi sıx olan rayonlardır, orada azərbaycanlılar məskunlaşmışdılar.

Bu rayonlardan və bütün işğal edilmiş ərazidən bir milyondan çox Azərbaycan sakini, Azərbaycan millətindən olan şəxslər zorakılıqla qovulub didərgin salınmışlar və indi onlar Azərbaycanın müxtəlif bölgələrində yaşayırlar, özü də ağır şəraitdə yaşayırlar, əksəriyyəti çadırlarda qalır. Vuruşmalar gedirdi, döyüş əməliyyatları aparılırdı, hər iki tərəf itki verirdi. Azərbaycan daha çox itirmişdir, çünki ərazimiz işğal olunmuşdur, həm də sadəcə olaraq işğal edilməmişdir, işğal olunmuş ərazidə nə vardısa, hamısı dağıdılmış, qarət edilmişdir. Təbii ki, bütün məbədlər, müqəddəs yerlər, bütün arxitektura abidələri və başqa obyektlər viran qoyulmuşdur.

Lakin bütün bunlara baxmayaraq, Azərbaycana çox böyük mənəvi və maddi zərər vurulmasına baxmayaraq, biz hər halda atəşkəs haqqında saziş bağlanmasını lazım bildik. Buna görə də 1994-cü ilin mayında atəşkəs haqqında saziş əldə edildi. Bu saziş indiyədək qüvvəsini saxlayır, atəşkəs rejimi üç ildən çoxdur ki, mövcuddur, biz öz tərəfimizdən ona əməl edirik, erməni tərəfi də əməl edir. Səciyyəvi xüsusiyyət bundan ibarətdir ki, münaqişənin tərəfləri arasında bu atəşkəs rejimi hər hansı xarici qoşunları və ya sülhyaratma qüvvələrinin iştirakı olmadan saxlanılır. Biz özümüz bəyan etmişik ki, ona əməl edəcəyik. Bu gün bu fürsətdən istifadə edərək bir daha bəyan edirəm, biz atəşkəs haqqında sazişə sadiq qalacağıq və heç bir çətinliyə baxmayaraq, tam sülh əldə edilənədək atəşkəs reji[304-305]mini saxlayacaq və hər hansı hərbi əməliyyatlara yenidən başlanmasına yol verməyəcəyik.

Ancaq tam sülh yoxdur, Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Azərbaycan əhalisinin hüquqları tapdanmışdır. Buna görə də sülh danışıqları aparılır, onlar əsasən Minsk qrupunun, bu məqsəd üçün hələ 1992-ci ildə yaradılmış ATƏT-in Minsk konfransının köməyi ilə aparılır. ATƏT-in 1996-cı ilin dekabr ayında keçirilmiş Lissabon zirvə görüşü bu məsələnin dincliklə tənzimlənməsində mühüm mərhələdir. Həmin görüşdə bu məsələ müzakirə olundu və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dincliklə aradan qaldırılması prinsipləri haqqında hazırkı sədrin bəyanatı qəbul edildi.

Bu prinsiplər aşağıdakılardan ibarətdir. Birincisi, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünün tanınması. İkincisi, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcədə özünüidarə statusu verilməsi. Üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyin təmin olunması. Əlbəttə, biz bunu ideal hesab etmirik. Bu prinsiplərə bizim də öz etirazlarımız, öz iradlarımız var. Lakin biz həqiqətən sülh istəyirik, biz kompromislərə gedirik, güzəştlərə gedirik. Biz bu prinsipləri dəstəkləmişik. Bu bəyanatı, bu prinsipləri ATƏT-in bütün üzvləri – Ermənistan istisna olmaqla, ATƏT-in dövlət başçıları səviyyəsində 53 üzvü də dəstəkləmişdir. Ermənistan isə dəstəkləmədi. Bununla da Ermənistan öz iddialarını – Dağlıq Qarabağın dövlət müstəqilliyi barədə iddialarını büruzə verdi.

Mən demişəm və təkrar edirəm, biz Minsk konfransı ilə, Minsk qrupu ilə əməkdaşlıq edərək, bu gün də kompromislərə, güzəştlərə getməyə hazırıq. Amma bunun da həddi-hüdudu var. Bu hədd-hüdud ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu, ondan ibarətdir ki, biz Azərbaycan Respublikasının ərazisində ikinci bir erməni dövləti [305-306] yaradılmasına yol verə bilmərik. Buna görə də Dağlıq Qarabağın dövlət müstəqilliyinə heç cür yol verə bilmərik. Dağlıq Qarabağ Azərbaycanın tərkibində ən yüksək səlahiyyətlərlə ən yüksək özünüidarə statusu ala bilər, amma heç bir halda müstəqil ola bilməz, – mən artıq bunu bəyan etmişəm.

İndi Minsk qrupu öz fəaliyyətini gücləndirmişdir. Lissabon zirvə görüşündən sonra Minsk qrupunun rəhbərliyi, daha doğrusu, Minsk qrupunun həmsədrləri təzələnmişdir. İndi Minsk qrupunun həmsədrləri Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları və Fransadır. Biz məmnunluq hissi ilə qarşıladıq ki, üç prezident – Rusiya, Amerika və Fransa prezidentləri Denverdə, Birləşmiş Ştatlarda görüşərək, iyunun 20-də xüsusi bəyanat qəbul etmişlər. Bu bəyanat Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılmasına yönəldilmişdir. Bu məsələ mənim Boris Nikolayeviç Yeltsinlə söhbətlərimdə də çox ətraflı müzakirə olundu. Biz hesab edirik ki, Rusiya bu məsələnin dincliklə tənzimlənməsində həm Minsk konfransının həmsədri kimi, həm də ümumiyyətlə bir dövlət kimi həlledici rol oynaya bilər. Biz buna böyük ümid bəsləyirik və Rusiyaya xahişlə müraciət etmişik və edirik.

Dünən Boris Nikolayeviç buna dəqiq cavab verərək bəyan etdi ki, Rusiya danışıqlar prosesini fəallaşdıracaq, xarici işlər naziri Primakov bu məsələ ilə yaxından məşğul olacaq və Rusiya Qafqazda bu münaqişəyə son qoyulması üçün onun aradan qaldırılmasına nail olmaq məqsədilə bütün lazımi tədbirləri görəcəkdir.

Bu münaqişə təkcə Ermənistan ilə Azərbaycan arasında gedən münaqişə deyil, o, keçmiş Sovetlər İttifaqının – həm də onun yox, – digər regionlarına da olduqca mənfi təsir göstəribdir. Axı, nəzərə almaq

lazımdır ki, məhz bu münaqişədən sonra Qafqazda – Gürcüstan ərazisində, Şimali Qafqazda, habelə Moldova ərazisində və başqa yerlərdə digər münaqişələr [306-307] meydana çıxdı. Hesab edirəm ki, Avropadakı bəzi başqa münaqişələr də Dağlıq Qarabağ münaqişəsindən sonra meydana çıxıbdır. Yəni bu çox mənfi, zəncirvarı reaksiya həqiqətən yayıldı.

Ona görə də Qafqazda sülhün bərqərar olması xeyli dərəcədə bu münaqişənin həllindən asılıdır. Mən bir daha bəyan edirəm: biz müharibə istəmirik, sülh istəyirik, biz qonşu Ermənistanla sülh münasibətlərinin olmasını istəyirik, Lissabon zirvə görüşünün prinsipləri, ATƏT-in prinsipləri əsasında, BMT nizamnaməsinin prinsipləri əsasında bu məsələnin ədalətlə həll edilməsi şərtilə regionumuzda iqtisadi əməkdaşlığı inkişaf etdirmək istəyirik.

Dünən biz bu münaqişə ilə bağlı olan bir məsələ, Rusiyanın ayrı-ayrı vəzifəli şəxslərinin Ermənistana qanunsuz olaraq, gizli surətdə təxminən bir milyard dollar məbləğində silah verməsi məsələsi barədə də fikir mübadiləsi apardıq. Silah verilməsi faktlarının üstü burada, Moskvada, ayrı-ayrı informasiya orqanları tərəfindən və Dövlət Dumasında açılmışdır. Bilirsiniz ki, bu məsələ Dövlət Dumasının iclasında müzakirə olunmuşdur. Dövlət Duması bu məsələ barədə qərar qəbul edib, prokurorluğa tapşırmışdır ki, bununla məşğul olsun.

Gizli surətdə silah verilməsi bizə məlum olanda, mətbuatda yazılandan əlavə, bəzi başqa təfərrüatlar, özü də Rusiyanın Ermənistandakı hərbi strukturlarının ağır silahlar, təhlükəli silahlar verməsi məlum olanda mən prezident Boris Nikolayeviç Yeltsinə məktubla müraciət etdim. Mən bu məsələni martın 27-də MDB dövlət başçılarının görüşü zamanı da qaldırdım və ertəsi gün Boris Nikolayeviç Yeltsin ilə təkbətək görüşümüz zamanı ona müraciət etdim. Mən ondan tədbirlər görməyi – əvvəla, bütün bu faktları üzə çıxarmağı, sənədləşdirməyi, günahkarları məsuliyyətə cəlb etməyi, ən əsası isə Ermənistana verilmiş silahı Rusiyaya qaytarmağı xahiş etdim. Çünki Ermə[307-308]nistanda, bu cür kiçik bir ərazidə külli miqdarda ölümsaçan ağır silahın cəmlənməsi son dərəcə böyük təhlükə doğurur.

Axı, həm böyük miqdarda T-72 tanklarından söhbət gedir, əvvəlcə bunlar 82 ədəd idi, amma mənim məlumatıma görə və başqa məlumatlara görə bunların sayı sonra xeyli çox olub. Çoxlu miqdarda zirehli maşından söhbət gedir, çoxlu miqdarda müxtəlif çaplı toplardan söhbət gedir. Raketlərdən, özü də uzaqmənzilli raketlərdən, zenit raketlərindən söhbət gedir, bunlarla Ermənistandan və Dağlıq Qarabağdan təkcə Azərbaycanın deyil, həm də Zaqafqaziyanın bütün bölgələrini, xüsusən də Bakını atəşə tutmaq mümkündür. Böyük "qrad" qurğularından və bir çox başqa şeylərdən söhbət gedir. Mən hələ atıcı silahları – minomyotları, avtomatları pulemyotları və sairəni demirəm.

O zaman Boris Nikolayeviç Yeltsin dedi ki, prokurorluğa tapşırıq vermişdir. Yeri gəlmişkən deyim, məlumdur ki, bu faktlar əvvəlcə Prezident Aparatının Nəzarət İdarəsi tərəfindən aşkar olunub, bunlar Rusiya Nazirlər Kabinetinin aparatında da aşkara çıxarılıbdır. Sonra isə bunlar Dövlət Dumasına, mətbuata və sairəyə çatıbdır. Yəni bunlar bax, bu cür üzə çıxarılmışdı. Ona görə də Boris Nikolayeviç Yeltsin dedi ki, prokurorluğa bu məsələ ilə məşğul olmağı tapşırıb və bəyan etdi ki, MDB dövlət başçılarının iyunun axırlarında keçiriləcək növbəti görüşündə təhqiqatın nəticələri bildiriləcəkdir.

Amma bu görüş olmadı, dövlət başçılarının görüşü payıza keçirildi. Lakin Rusiya və Azərbaycan prezidentləri arasında görüş baş tutdu. Buna görə də dünən biz bu məsələni müzakirə etdik. Bizə bildirildi ki, – Boris Nikolayeviç bunu mətbuat nümayəndələrinə də dedi, – tədbirlər görülür. Ancaq indi sanki başqa bir məsələ aşkara çıxmışdır, – yəqin ona görə ki, bu cinayəti törətmiş olan adamlara, yaxud qanunsuz olaraq bu filan qədər silah almış ermənilərə müəyyən dərəcədə haqq qazandırmaq və ya, mən bilmirəm, onların barəsində daha nələr et[308-309]mək üçün, – guya Sovet İttifaqı süquta uğrayan zaman Azərbaycan daha çox silah əldə etmişdir, Ermənistana nisbətən Azərbaycanda daha çox silah qalmışdır və odur ki, bu məsələni də aydınlaşdırmaq gərəkdir. Yaxud belə başa düşmək olar ki, buna görə biz iddialar irəli sürməməliyik və ya deməməliyik ki, nə üçün Ermənistana qeyri-leqal surətdə filan qədər silah verilmişdir.

Lakin mən bütün bu bəyanatların müəlliflərinə deməliyəm ki, burada sadəcə olaraq məntiq yoxdur. Əvvəla, mən sizə bəyan edirəm ki, Sovet İttifaqının süqutu zamanı Ermənistana nisbətən Azərbaycana sovet ordusundan daha çox silah qaldığını təsdiqləyən faktlar yoxdur. İkincisi, əgər bu, hətta belədirsə, onda atəşkəs haqqında saziş bağladığımız halda, bunun Ermənistana silahların qanunsuz verilməsinə nə dəxli var? Biz hələ 1994-cü ilin mayında atəşkəs haqqında saziş bağlamışdıq.

Müharibə yoxdur. Silahların əsas hissəsi də 1994-cü, 1995-ci, 1996-cı illərdə göndərilmişdir. Buna heç cür haqq qazandırmaq olmaz ki, o vaxtlar Ermənistana nisbətən Azərbaycanda guya daha çox silah qalmışdır.

Buna görə də mən bu tezisi qəti şəkildə rədd edirəm və onu hətta qeyri-normal, təəccüblü tezis hesab edirəm. Kimsə hesab edir ki, Ermənistandakı silahların miqdarını Sovet İttifaqının süqutu zamanı guya Azərbaycanda qalmış silahların səviyyəsi ilə bərabərləşdirmək lazımdır, onda müraciət etməli idilər. Avropada adi silahlı qüvvələrə, adi silahlara nəzarət edən xüsusi orqana, Avropada adi silahlı qüvvələr haqqında, adi silahlar haqqında müqavilə var. Bu müqaviləni Avropa ölkələri imzalamışlar. Yeri gəlmişkən, bu yaxınlarda, mayın 15-də həmin sənədə əlavə kimi cinahlar haqqında sənəd imzalanmışdır. Biz bununla razılaşmaq istəmədik, biz bu sənədi imzalamaq istəmədik. Amma Rusiyanın və digər Avropa ölkələrinin, habelə Amerika

Birləşmiş Ştatlarının mənafeləri naminə yenə də güzəştə getdik. Çünki 1992-ci il mayın 15-də Daşkənddə [309-310] bölüşdürülmüş kvotalardan razı deyilik. Ərazilərinin sahəsi müxtəlif olan, əhalisinin tərkibi və miqdarı müxtəlif olan Azərbaycana da, Gürcüstana da, Ermənistana da o vaxtlar eyni kvota ayırdılar. Biz bundan narazıyıq. Ona görə də bu Cinah sazişini imzalamaq istəmirdik. Lakin sonra güzəştə gedərək imzaladıq.

Mən bunu ona görə deyirəm ki, əgər Azərbaycana daha çox silah qaldığı barədə faktlar varsa, bunun əvəzində Ermənistana kompensasiya etmək üçün, – əgər bəzi adamlar belə düşünürlərsə, – onda əvvəlcə müəyyən etmək lazım idi, Azərbaycanda nə qədər silah qalıb, Ermənistanda nə qədər, bu fərqi aşkara çıxarmaq və bu fərqi qanuni yolla aradan qaldırmaq gərək idi. Əlbəttə, əgər belə bir fərq vardısa. Lakin belə bir fərq yox idi. Buna görə də bu bəyanatlar tamamilə əsassızdır. Ancaq bu məsələ qaldırıldığına görə Boris Nikolayeviç Yeltsin Rusiya, Azərbaycan və Ermənistanın müştərək komissiyasını yaratmağı təklif etdi. Biz razılaşacağıq, biz bunun əleyhinə deyilik. Nəyə görə? Ona görə ki, əvvəla, müəyyən etmək lazımdır ki, Sovet İttifaqının süqutu zamanı Azərbaycanda nə qədər silah qalıb, Ermənistanda nə qədər. Gəlib yoxlaya bilərlər, biz bunun əleyhinə deyilik. İkincisi, müəyyən etmək lazımdır ki, Rusiyadan Ermənistana qanunsuz olaraq bir milyard dollar məbləğində nə qədər silah verilmişdir, niyə verilmişdir, hansı yollarla verilmişdir. Bu məsələlər bir-biri ilə bağlı deyildir, lakin bir halda ki, məsələ belə qoyulmuşdur, biz bununla razılaşdıq.

Bizə məlumdur ki, baş prokurorluq bu məsələ ilə əlaqədar təhqiqat aparır. Bizə məlumdur, elə mətbuatda da, digər kanallarda da məlumat verilir ki, əvvəlcə aşkara çıxarılmış faktların əksəriyyəti təsdiq edilir. Yəni bu silahlar Ermənistana verilmişdir. Hətta Moskva qəzetlərindən birində baş qərargahın rəisi Kolesnikovun imzaladığı teleqramların surətləri dərc edilmişdir. Bu teleqramlarda o, nəinki Ermənistana silah veril[310-311]məsi, hətta onların daşınması və hətta nəqliyyat xərclərinin ödənməsi haqqında birbaşa sərəncam verir. Bunların hamısı bizə məlumdur. Buna görə də hesab edirəm, ən yaxşısı budur ki, bu məsələni vicdanla araşdırmaq və əlbəttə, Ermənistana verilmiş silahların geri qaytarılmasına nail olmaq lazımdır.

Rusiya, Ermənistan və Azərbaycan arasında indiki münasibətlər şəraitində, biz bərabərhüquqlu üzvlər kimi MDB-nin tərkibində olduğumuz halda, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətləri, xoş münasibətlər, – bunlar dünən imzalanmış müqavilədə təsbit edilmişdir, – olduğu halda, belə vəziyyət olmamalıdır. Dünən bu məsələ də müzakirə obyekti oldu.

Biz bir çox digər məsələləri də müzakirə etdik. Ümumiyyətlə, mən hesab edirəm ki, Azərbaycan prezidentinin Rusiyaya səfəri uğurlu keçir və bu müvəffəqiyyəti təmin edən başlıca amil budur ki, biz dövlətlərarası, hökumətlərarası münasibətlərimizin bir çox məsələlərində, yəni bütün məsələlərdə eyni mövqelərdəyik, bir çox beynəlxalq məsələlərdə, MDB-nin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi ilə bağlı bir çox məsələlərdə mövqelərimiz uyğun gəlir.

Biz Rusiyanı dost ölkə hesab edirik. Rusiya böyük ölkədir. Rusiya olduqca böyük potensiala – iqtisadi, elmi, intellektual potensiala malikdir. Biz ötən illər ərzində Rusiya ilə birgə həyatdan çox şey əxz etmişik və bunu çox yüksək qiymətləndiririk. Biz münasibətləri möhkəmlədəcək və inkişaf etdirəcəyik. Ona görə də mən öz səfərimi olduqca böyük razılıq hissi ilə başa çatdırıram, öz səfərimi ən əvvəl prezident Boris Nikolayeviç Yeltsinə və Rusiyanın bütün rəhbər xadimlərinə minnətdarlıq hissi ilə başa çatdırıram. Biz Rusiyada gedən demokratik prosesləri, iqtisadi, siyasi, islahatlar aparıldığını görürük. Biz onları dəstəkləyirik, ona görə ki, biz özümüz də həmin yolla gedirik. Buna görə də biz təzələnmiş Rusiya ilə, demokratik Rusiya ilə, bütün ölkələrə, o cümlədən də Azər[311-312]baycana dostcasına, bərabər hüquqla yanaşan Rusiya ilə çox sıx münasibətlərə, dostluq münasibətlərinə malik olmaq istəyirik.

Diqqətinizə görə sağ olun.

* * *

**Sual: İcazənizlə, mənim iki sualım var. Birincisi – Sizin səfəriniz zamanı Xəzər haqqında söhbət getdimi? Əgər getdisə, onda mümkündürsə, bu barədə bir qədər ətraflı danışasınız. İkincisi – Siz buraya səfərinizdən bilavasitə əvvəl Çeçenistan nümayəndə heyəti ilə görüşdünüz. Görüşlərin bu cür növbəliliyi sırf təsadüf idimi, yoxsa iş rejiminiz təsadüfən belə tərtib edilmişdir, yaxud bu növbəlilik hansı səbəblərlə əlaqədar müəyyən edilmişdir? Əgər belədirsə, onda bu səbəblər hansılardır? Sağ olun.**

**Heydər Əliyev:** Bilirsinizmi, mən vaxtı çox almaq istəmirdim. Söhbətlərimiz zamanı məsələlərimiz çox olmuşdur, o cümlədən Xəzərin enerji ehtiyatlarından istifadə edilməsi problemi danışıqlar, müzakirələr və fikir mübadiləsi mövzusuna çevrildi. Siz bilirsiniz, bu məsələ barəsində Moskva mətbuatında yalan materiallar tez-tez verilir. Azərbaycanın bəzi transmilli neft şirkətləri ilə əlaqələr yaratması, istər quruda, istərsə də dənizdə Azərbaycana məxsus olan neft və qaz yataqlarının birgə işlənməsi üçün sərmayələr cəlb edilməsi ilə əlaqədar müxtəlif saxtakarlıqlar, müxtəlif aldadıcı materiallar meydana gəlmişdir.

Buna görə də dünən bunların elə hamısı aydınlaşdırıldı. 1994-cü ilin sentyabrından başlayaraq biz Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının birgə işlənməsi haqqında transmilli şirkətlərlə beş iri müqavilə imzalamışıq. Rusiyanın "LUKoyl" Neft Şirkəti bu beş müqavilədən ilk üç müqavilədə iştirak edir, özü də sanballı paya malikdir. Xə[312-313]zər dənizinin Azərbaycan sektorundakı daha bir yataq haqqında

dünən Azərbaycan Dövlət Neft Şirkəti ilə "LUKoyl" şirkəti arasında müqavilə imzalandı. Bu mərasim Kremldə Rusiya və Azərbaycan prezidentlərinin iştirakı ilə keçdi. Bu gün mən Rusiya hökuməti sədrinin birinci müavini Boris Yefımoviç Nemtsovun iştirakı ilə neft şirkətlərinin prezidentləri və maliyyə mərkəzlərinin rəhbərləri ilə görüşərkən bizim yanımızda Azərbaycan Neft Şirkəti ilə Rusiyanın "LUKoyl" və "Rosneft" neft şirkətləri ilə "Kəpəz" yatağının birgə işlənməsi haqqında daha bir müqavilə imzalandı. Bu yataq da Xəzər dənizinin Azərbaycan sektorunda yerləşir.

Diqqət yetirin, Rusiya Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarından istifadə olunmasında necə fəal iştirak edir. Mən bu gün söhbət etdim, gərək ki, Tümendə olan "Yukos" şirkəti, habelə "Sidanko" şirkəti bizə gəlmişdir. Bu gün biz başqa şirkətlərlə də görüşdük. Biz onlarla danışıqlar aparacağıq. Ona görə də bu məsələ burada müzakirə edildi, amma məhz belə bir yönümdə ki, biz birgə iş aparırıq. Təbii ki, indi bir çox Amerika şirkətləri, "Britiş Petroleum", Fransa şirkətləri, Norveç şirkətləri, Yaponiya, Səudiyyə Ərəbistanı, İran, Türkiyə şirkətləri Azərbaycanda güclü fəaliyyət göstərir və bizimlə iş görürlər. Layihələrimizdə təxminən 12 ölkədən 17 şirkət iştirak edir, əlbəttə, Rusiya da iştirak edir.

Daha bir mühüm məsələ. 1996-cı ilin yanvarında burada, Moskvada Azərbaycandan neftin Rusiya ərazisi ilə Qara dənizə, Novorossiysk limanına nəql edilməsi haqqında saziş imzalanmışdı. Bu saziş Rusiya hökumətinin sədri, baş nazir Viktor Stepanoviç Çernomırdin tərəfindən və mənim tərəfimdən imzalanmışdır. Güman edilirdi ki, Bakıdan Novorossiyskədək gedən neft kəməri bərpa olunacaq və 1997-ci ilin təxminən əvvəllərində neft daşınmağa başlanacaqdır. Biz Azərbaycan ərazisində bu neft kəmərini inşa etmişik, – deməliyəm ki, xarici neft şirkətlərinin konsorsiumu bunun üçün 50 milyon dollar [313-314] xərcləmişdir, – bu kəmərə neft vurmuşuq, lakin Rusiya tərəfi onu qəbul etməyə hazır olmamışdır. Biz bu məsələ ilə əlaqədar Rusiya hökumətinə müraciət etdik, ancaq məsələ həll olunmadı. "Transneft" bizə vəd verdi, lakin vədinə əməl edə bilmədi.

Moskvaya səfərim ərəfəsində İçkeriya Çeçenistan Respublikasının prezidenti Aslan Məshədov Bakıya gəldi və biz onunla görüşdük, bir çox məsələlər barəsində söhbət etdik. Lakin başlıca məsələ məhz bu neft kəməri ilə bağlı idi. Çünki o, bundan əvvəl həm baş nazir Çernomırdinlə, həm baş nazirin birinci müavini Anatoli Borisoviç Çubaysla, həm Boris Yefımoviç Nemtsovla, həm də başqaları ilə danışıqlar aparmışdır. Amma məsələ həll edilməmişdi. Çünki sazişi iki ölkə imzalamışdı, bu sazişdə Çeçenistan da iştirak etmək istəyir. Ona görə də dünən biz bu məsələni müzakirə etdik, belə bir yekdil rəyə gəldik ki, üç şirkət – "Transneft", Azərbaycan Neft Şirkəti və Çeçenistan Neft Şirkəti bu neft kəmərindən istifadə olunması haqqında kommersiya sazişi imzalasınlar. Bu saziş ya bu gün, ya da sabah imzalanacaqdır.

**Sual: Cənab prezident, səfərinizin gedişində Qəbələ RLS-in statusu haqqında məsələ barədə tərəflərin mövqelərini yaxınlaşdırmaq mümkün oldumu və Azərbaycan tərəfi bu məsələnin həllini Ermənistana satılmış silahların Rusiyaya qaytarılması məsələsi ilə bağlamaq niyyətindədirmi? Sağ olun.**

**Heydər Əliyev:** Bilirsiniz, biz Rusiya ilə danışıqlar aparanda, – mən bunu demək istəyirəm ki, hamı bilsin, – heç bir şərt qoymuruq. Heç bir şeyi heç nə ilə bağlamırıq, çünki Rusiya ilə bizim dostluq münasibətlərimiz var. Biz Rusiya tərəfindən dostluq münasibətlərinə, bizi başa düşəcəklərinə ümid bəsləyirik. Başa düşürsünüzmü, indi biz Rusiya ilə çəkişmək istəmirik ki, bilirsiniz nə var, siz Ermənistandan silahları qaytarın, onda biz də Qəbələ haqqında məsələni həll edə[314-315]rik. Biz məsələyə belə yanaşmırıq. Hesab edirəm ki, Rusiya ilə Azərbaycan arasında mehriban münasibətlərin mövcud olduğu, eləcə də Rusiyanın demokratik ölkəyə çevrilməkdə olduğu, hər cür imperiya əhval-ruhiyyələrindən imtina etdiyi bir şəraitdə Rusiya MDB-yə daxil olan bütün ölkələrə, – Ermənistana da, Azərbaycana da, – bərabər münasibət bəsləməlidir, müxtəlif strukturlar tərəfindən törədilmiş cinayətləri Rusiya özü araşdırmalı və tədbirlər görməlidir. Bu, hətta Rusiyanın nüfuzu, onun dövlət nüfuzu üçün də lazımdır. Ancaq bununla belə, Qəbələ haqqında, Qəbələ RLS-in statusu haqqında məsələni biz müzakirə etdik və zənnimcə, indi də bunun müzakirəsi gedir.

Bilirsiniz ki, Qəbələ çox güclü radiolokasiya stansiyasıdır, o, Rusiyanın strateji nüvə hücumundan, raket-nüvə hücumundan müdafiəsi üçün çox zəruridir. Ona görə də bu stansiya Rusiyaya lazımdır. Eyni zamanda o, Azərbaycanın mülkiyyətidir. O, Azərbaycanın ərazisindədir. Bütün bu illər ərzində biz həmin stansiyanın fəaliyyətinə mane olmamışıq, o, normal işləyir. Orada Rusiya silahlı qüvvələrinin şəxsi heyəti, digər işçilər var. Normal fəaliyyət göstərmək üçün onların bütün imkanları var. Ancaq eyni zamanda, bu stansiyanın indən belə hansı prinsiplər əsasında mövcud olacağını qəti şəkildə müəyyənləşdirmək lazımdır. Bu məsələ barədə danışıqlar gedir.

**Sual: Hörmətli Heydər Əliyeviç, mən "Qolos Rossii"dən Armen Aruşanovam, bakılıyam, Sizi də yaxşı xatırlayır və tanıyıram. Sizinlə 13 il işləmişik, yaxşı, çox gözəl işləmişik, mən bunu hər yerdə, bütün səviyyələrdə deyirəm və bunu heç kim inkar edə bilməz. Heydər Əliyeviç, Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırılması yolunda Sizin böyük töhfəniz, nəhəng töhfəniz hamıya məlumdur. Bunu inkar etməyə heç kimin ixtiyarı yoxdur. Bundan çıxış edərək, mən belə bir sual vermək istərdim. Ermənistan ilə Azərbaycan arasında qarşılıqlı münasibətləri daha da sabitləşdirməyin amili kimi gələcəkdə Ermə[315-316]nistan ərazisindən neft kəmərinin çəkilməsi nəzərdə tutulurmu? Keçmiş dostum Həsən Əzizoviç Həsənov burada olmadığına görə ikinci sual da verirəm: siz bilirsiniz ki, Moskva**

**ərazisində bakılılar xüsusilə çoxdur, onların hamısı Bakıda yaşadıqları günləri xatırlayırlar və heç vaxt unutmayacaqlar. Bizim bu və ya başqa sənədlərlə, deyək ki, doğum, nikah haqqında şəhadətnamə və sairə ilə bağlı bəzi məsələlərimiz olur. Bəlkə göstəriş verərdiniz ki, biz bu məsələləri müvafiq orqanlar, konsul şöbəsi və s. vasitəsilə həll edə bilək.**

**Heydər Əliyev:** Sizi, keçmiş bakılını eşitmək mənə xoş oldu, biz birlikdə işləmişik, mehriban yaşamışıq və ona görə də siz təsdiq edə bilərsiniz ki, Azərbaycanda, Ermənistanda da, Dağlıq Qarabağda da ermənilərlə azərbaycanlılar arasında necə yaxşı, dostluq şəraiti vardı. Mən ildə neçə dəfə Dağlıq Qarabağda, hər bir kənddə, hər bir şəhərdə, hər bir yaşayış məntəqəsində olurdum. Biz Dağlıq Qarabağda nə qədər çox mühüm tikililər – yaşayış evləri də, fabriklər də, zavodlar da, yeri gəlmişkən, indi Dağlıq Qarabağı elektrik enerjisi ilə təchiz edən hidroelektrik stansiyası da inşa etmişdik. Tərtərçayın üstündəki Sərsəng SES-i deyirəm. O, mənim təşəbbüsümlə tikilmiş və mənim iştirakımla təntənəli açılışı olmuşdu. Bu, böyük bayram idi. Nə qədər işlər görülmüşdü!

Amma təəssüflər olsun, ayrı-ayrı adamlara bunların hamısını dağıtmaq lazım idi. Ancaq mən belə düşünürəm ki, sizin kimi adamlar xeyirli, yaxşı nə olmuşdusa, onların bərpa edilməsinə hər halda çalışmalıdırlar. Mən hesab edirəm ki, xalqlara, – mən erməni və Azərbaycan xalqlarını nəzərdə tuturam, – yanaşı yaşamaq taleyin hökmü ilə müəyyən edilmişdir, heç kəs heç yerə köçən deyildir, oradan nə ermənilər köçüb gedəcəklər, nə də azərbaycanlılar. Allah onlara yanaşı yaşamağı buyurmuşdur, yanaşı yaşayırdılar da. Tarixdə münaqişəli dövrlər olmuşdur, lakin onlar başa çatmış, unudulmuşdur və [316-317] insanlar dostluq etməyə başlamışlar. Bizim Bakıda nə qədər qarışıq nikahlar var. Nəzərinizə çatdırım ki, Bakıda 30 mindən çox erməni yaşayır, – bunlar azərbaycanlılara ərə getmiş qadınlardır. Bir diqqət yetirin, bu qarışıq nikahlardan, 30 min birdə nigahdan nə qədər uşaq dünyaya gəlmişdir, – bizdə ailələr adətən çoxuşaqlı olur, azərbaycanlılar çoxlu uşağa malik olmağı sevirlər, bu, pis cəhət deyildir, – hər belə nikahdan azı üç uşaq doğulduğunu götürsək, birdən-birə 90 min nəfər də əlavə edilir. Bilirsinizmi, bəzən bu adamların, atası azərbaycanlı, anası isə erməni olan adamların halına çox acıyıram, onlara yazığım gəlir, onlar haradasa özlərini küskün hesab edir, özlərinin tam ləyaqətli olmadığını düşünürlər. Yeri gəlmişkən, mən Bakıda mətbuatda, televiziya ilə bildirdim ki, erməni millətinə mənsub olan bu adamlar, eləcə də onların uşaqları Azərbaycanda, o cümlədən də Bakıda heç vaxt heç bir halda sıxışdırılmamalıdır. Bu münaqişədə onların heç birinin təqsiri yoxdur və onlar zillət çəkməməlidirlər.

Odur ki, Moskvada yaşayan bakılılar, – siz deyirsiniz ki, onlar çoxdur, lakin onların arasında da vicdansızlar var, mən onları da tanıyıram, çünki Allaha şükür, mən Moskvada da yaşamışam, – səylərini birləşdirməlidirlər. Gəlin, səylərimizi birləşdirək.

O ki qaldı neft kəmərinə, bilirsinizmi, indi neft kəmərinin çox marşrutları müəyyən edilir, məsələn, müəyyən edildiyinə görə, onlardan biri Rusiya ərazisi ilə keçib Novorossiyskə gedəcəkdir. Biz başqa neft kəmərini Gürcüstan ərazisi ilə Qara dənizin Supsa limanına çəkirik. Başqa neft kəmərləri də olacaqdır. Ona görə ki, bizim hövzədə neft ehtiyatları olduqca böyükdür. Özü də təkcə bizdə yox, Qazaxıstan sektorunda da böyükdür, mən bu yaxınlarda Qazaxıstanda rəsmi səfərdə oldum. Tengizdə olduqca böyük ehtiyatlar var, Xəzər dənizinin Qazaxıstan sektorunda olduqca böyük ehtiyatlar var. Ehtiyatlar Türkmənistan sektorunda da böyükdür. Bunların hamısını bey[317-318]nəlxalq bazarlara çıxarmaq lazımdır. Buna görə də neft kəməri bir deyil, iki deyil, üç deyil, çox olacaqdır. Əlbəttə, sülh olarsa, bir neft kəməri də Ermənistandan keçəcəkdir. Sülh olmasa, heç bir neft kəməri də olmayacaqdır.

**Sual: İranla münasibətləriniz necədir?**

**Heydər Əliyev:** Biz İranla çox böyük sərhədə malikik. İran bizə dost ölkədir. Bizi İranla tarixi keçmiş bağlayır. Bəzi məlumatlara görə, İranda təxminən 30 milyon azərbaycanlı yaşayır. Buna görə də İranla bizim aramızda çox mehriban və yaxşı münasibətlər var. Bizdə rejimlərin müxtəlif olması, – onlarda bir rejim, bizdə başqa bir rejim var, – daxili işdir. Biz başqa ölkələrin işlərinə qarışmırıq. Kim hansı quruluşu yaradır, kim hansı xətlə gedir – bu, onun daxili işidir. Ona görə də istəyirik ki, heç kəs bizim daxili işlərimizə qarışmasın. Mən hələ keçmiş vaxtlardan, sovet dövründən xatırlayıram, Moskvada, Rusiyada həmişə islam təməlçiliyi ilə qorxudurdular, deyirdilər ki, İrandan gələn bu təməlçilik Azərbaycan vasitəsilə Rusiyaya keçə bilər. Deməliyəm ki, bunlar boş sözlər idi. Təəssüf ki, sovet dövründə burada bəzi Şərq mütəxəssisləri, bəzi politoloqlar var idi ki, onlar Şərqin nə demək olduğunu, İranın nə demək olduğunu, Azərbaycanın nə demək olduğunu çox az bilirdilər. Müxtəlif sözlər söyləyirdilər, camaat da heç nəyə varmadan onlara inanırdı. Doğrudur, İranda təməlçilik var, çünki İran özünü İslam Respublikası elan etmişdir. Orada din hakimiyyət başındadır, İran dini dövlətdir. Lakin bizim dövlətimiz dünyəvi, demokratik dövlətdir və demokratiya yolu ilə gedir. Buna baxmayaraq, biz dostluq münasibətləri saxlayırıq. Bizdə istər orada, istərsə də burada qohumluq əlaqələri olan adamlar çox-çoxdur, insani əlaqələr çox böyükdür, mədəni əlaqələr çox böyükdür, ticarət çox genişdir.

İran xarici ticarət dövriyyəmizdə birinci yeri tutur. Buna görə də İranla çox yaxşı münasibətlərimiz var. Lakin məlumdur ki, son vaxtlar Rusiyada da İrana münasibət dəyişmişdir [318-319] – onların arasında çox mehriban münasibətlər, əməkdaşlıq və hətta, zənnimcə, hərbi əməkdaşlıq nəzərə çarpır. Amma bu, İranın və Rusiyanın öz işidir. Mən bu işlərə qarışmıram. Nə gizlədəsən, bunlar da var. Budur, mənim sizə dediklərim.

**Sual: Heydər Əliyeviç, məlumdur ki, Moskvada və ümumiyyətlə, Rusiya ərazisində yaşayan bir sıra adamlar barəsində Azərbaycanda cinayət işləri açılmışdır. Məsələn, belə bir sual vermək istərdim,**

**sabiq Azərbaycan prezidenti Ayaz Mütəllibovun verilməsi məsələsi müzakirə edildimi və bu məsələ qaldırılacaqmı, bu yaxınlarda verilmiş Surət Hüseynovun taleyi nə yerdədir, onun məhkəməsi olubmu? Sağ olun.**

**Heydər Əliyev:** Ümumiyyətlə deməliyəm ki, Rusiya başqa ölkədə cinayət törədən və burada olan cinayətkarları gizlətməklə düz iş görmür. Rusiyanın özünün cinayətkarları bəs edir, belə isə özgə cinayətkarları sizin nəyinizə gərəkdir? Soruşmaq istəyirəm, nəyinizə gərəkdir? Ona görə də cinayətkarlar buraya gəldikdə onları gizlətmək yox, buradan qovmaq lazımdır. Amma, təəssüflər olsun, qəddar cinayətlər, terror əməlləri, hərbi cinayətlər, digər cinayətlər, qətllər törətmiş bəzi cinayətkarlar Rusiya ərazisində gizlənirlər. Lakin deməliyəm ki, son vaxtlar, xüsusən 1996-cı ildən başlayaraq Rusiyanın Daxili İşlər Nazirliyi ilə Azərbaycanın Daxili İşlər Nazirliyi arasında, Rusiyanın Baş Prokurorluğu ilə Azərbaycanın Baş Prokurorluğu arasında çox yaxşı işgüzar qarşılıqlı münasibətlər yaranmışdır. Deməliyəm ki, Azərbaycanda cinayət törətmiş bir çox cinayətkarlar bu sağlam, işgüzar, yaxşı əməkdaşlıq nəticəsində aşkara çıxarılmış, Azərbaycana verilmiş və onların əməlləri ilə əlaqədar təhqiqat aparılmışdır. Bəziləri artıq məhkəmə tərəfindən mühakimə edilmişlər, bəzi işlər üzrə təhqiqat gedir, o cümlədən sizin xatırlatdığınız Surət Hüseynovun işi üzrə təhqiqat aparılır. O, bir il baş nazir oldu, buna görə də onu baş nazir kimi tanıyırlar. Ümumiyyətlə, narkobiznesə qurşanmış bu adamın ən yüksək vəzifəsi ilkin yun emalı fabrikinin direktoru vəzifəsi ol[319-320]muşdur. O, hər cür cinayətlər, kriminal işlər hesabına, təəssüflər olsun, Azərbaycanda Xalq Cəbhəsi hakimiyyətdə olan dövrdə baş nazirin müavini, korpus komandiri, sonra isə Azərbaycan prezidentinin Qarabağ üzrə xüsusi müvəkkili vəzifəsinədək gəlib çıxmışdı, başqa vəzifələr də almışdı, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü, əlbəttə, bunların hamısı saxta idi. Amma olmuşdu. 1993-cü ildə məhz o, Azərbaycanda vətəndaş müharibəsinin baislərindən biri olmuşdur. Bu müharibə çox böyük zərər vurdu. Bununla əlaqədar olaraq Xalq Cəbhəsi hakimiyyətdən getmək məcburiyyətində qaldı. Elə onda xalq məni Bakıya dəvət etdi və mənə etimad göstərərək məni prezident seçdi.

Buna görə də bu adam diqqətəlayiq deyildir. Amma bir halda ki, soruşursunuz, deməliyəm ki, o, bəli, Azərbaycanda çox ağır cinayətlər törətmişdir, Rusiyada gizlənirdi. Rusiyanın Daxili İşlər Nazirliyi, Rusiyanın Baş Prokurorluğu sağ olsun ki, onu bizim adamların iştirakı ilə tutub Azərbaycana verdilər. İndi o, istintaq altındadır. O, çox cinayətlər törətmişdir və bunların hamısını açmaq lazımdır. Təbii ki, o, məhkəmə qarşısında cavab verməlidir.

Təəssüf ki, cinayət törədib indi burada yaşayan başqa adamlar da var. Onlardan bəziləri Rusiya vətəndaşlığı almağa müvəffəq olurlar. Mən bunu başa düşmürəm. Mən bunu düzgün hesab etmirəm. Rusiya belə adamlara Rusiya vətəndaşlığı verməməlidir ki, onlar Rusiya vətəndaşının bu statusu ilə gizlənə bilsinlər. Mən bunu düzgün hesab etmirəm, bu, münasibətlərimizə ziddir.

Mütəllibova gəldikdə, o, sizin ona yetirdiyiniz diqqətə heç layiq də deyildir. O, beş il bundan əvvəl Rusiya qoşunlarının hərbi təyyarəsinə minib Azərbaycandan qaçmışdır. Həmin vaxtlarda o, prezident idi. Əgər kimisə prezident seçib etimad göstərmişlərsə o, bu etimadı doğrultmalı və bu vəzifədə qalaraq ölkəni idarə etməli, öz xalqının təhlükəsizliyini təmin etməlidir. Amma ona eti[320-321]mad göstərmişdilər, – doğrudur, o, saxtakarlıqla prezident olmuşdu, bu özlüyündə aydın idi, lakin buna baxmayaraq, formal surətdə prezident elan edilmişdi, – o isə Rusiya təyyarəsinə minib əkilmişdir və beş ildir burada gizlənir. Belə isə o, ümumiyyətlə, danışmaq üçün hansı mənəvi hüquqa malikdir və ona kömək və yardım göstərməyə ayrı-ayrı Rusiya strukturlarının nə kimi mənəvi haqqı var? Kimsə dedi ki, – mən bilmirəm, bu məlumat rəsmi deyildir, – guya Mütəllibov özünə siyasi sığınacaq verilməsi haqqında ərizə ilə müraciət etmişdir. Hansı siyasi sığınacaq? Onun nəyi siyasi cinayətkardır? O öz respublikasından əkilib qaçmışdır. Hesab edirəm ki, Rusiya belə adamlara siyasi sığınacaq verməməlidir. Siyasi sığınacaq bir ölkə tərəfindən digər ölkənin vətəndaşına, siyasi fəaliyyətə görə təqib edilən vətəndaşına verilə bilər. Amma bu ölkənin digəri ilə münasibətləri Azərbaycanla Rusiyanın arasındakı kimi, belə münasibətləri kimi olmamalıdır. Rusiya ilə Azərbaycan arasında dostluq münasibətləri var. Rusiyada isə Azərbaycandan qaçmış bu və ya digər adamlara siyasi sığınacaq verməyə cəhd göstərilir – bu, Rusiya-Azərbaycan münasibətlərini müəyyənləşdirən prinsiplərin hamısına ziddir.

**Sual: Heydər Əliyeviç, mənim Sizə iki hissədən ibarət olan bir sualım var. Məlum olduğu kimi, Rusiya ilə birləşmək üçün son vaxtlar Ermənistanda müxtəlif səviyyələrdə bəyanatlar verir və hətta imzalar toplayırlar. Siz bu cür birləşməni alqışlayardınızmı? İkinci sual: Azərbaycanda belə meyllər varmı, Siz daha sıx yaxınlaşmaq məsələsini rusiyalı həmkarınızla müzakirə etdinizmi? Üstəlik, dünən Boris Yeltsin dedi ki, iki dövlət arasında daha heç bir problem yoxdur. Sağ olun.**

**Heydər Əliyev:** Üzr istəyirəm, siz hansı agentliyi təmsil edirsiniz?

**Müxbir:** Mən erməni jurnalını təmsil edirəm, bu jurnal Parisdə çıxır.

**Heydər Əliyev:** Bəs sizdə, Ermənistanda imza toplayırlarmı? [321-322]

**Müxbir:** Toplayırlar, bir neçə qrup təşəbbüs irəli sürmüşdür. Mənim sualım belədir – bu birləşməyə məhz Sizin münasibətiniz necədir?

**Heydər Əliyev:** Bilirsinizmi, mən artıq dedim ki, hər bir respublika öz məsələlərini, öz prinsiplərini əsas tutaraq həll edir. Bir-birinin daxili işlərinə qarışmamaq prinsipi MDB tərkibində münasibətlərimizin təməl prinsipidir. Buna görə də biz Rusiyanın, Belarusun işlərinə qarışmırıq. Rusiya ilə Belarusun ittifaqı Rusiyanın

öz işidir, Belarusun öz işidir, onlar bu ittifaqı lazım bilirlərmi – bilirlər, yaradırlarmı, yaradırlar. Biz bu işə qarışmırıq. Ermənistanda imzaları bu ittifaqa qoşulmaq üçün toplayırlar – bu, Ermənistanın işidir, sizin işinizdir. Bizdə heç kəs belə imzalar toplamır və bizdə belə əhval-ruhiyyə yoxdur. Biz Rusiya ilə öz münasibətlərimizi suverenlik əsasında, dövlət müstəqilliyi və dostcasına əməkdaşlıq, strateji tərəfdaşlıq əsasında qururuq. Bu əməkdaşlığın çox yüksək dərəcəsidir. Mən bilmirəm, bundan da artıq daha nə lazımdır.

**Sual: Siz bir mahnının sözlərinin ədalətli olduğunu əyani surətdə nümayiş etdirirsiniz: əgər böyük məqsədlərə can atırsansa, illər sənin üçün mənasızdır. Sual belədir: – Siz Rusiyada gənc, çox gənc siyasətçilərin yüksək vəzifələrdə çox olmasına necə baxırsınız?**

**Heydər Əliyev:** Bilirsiniz, ümumiyyətlə həmişə, hətta sovetlər vaxtında da deyirdilər ki, gənclərə yol açmaq, qocalara ehtiram göstərmək lazımdır, doğrudur. Zənnimcə, bu prinsip indi də qüvvəsində qalır.

**Sual: Hüseynov, maliyyə-sənaye qrupunun (İsveçrə) nümayəndəsi. Mənim sualım iqtisadi xarakterlidir. Şübhəsiz, hamıya məlumdur ki, Azərbaycanda dərin demokratik dəyişikliklər gedir və bu istiqamətdə Sizin şəxsi töhfəniz də hamıya bəllidir. Siz əvvəlki suala cavabınızda buyurdunuz ki, Azərbaycanda fövqəlmilli şirkətlərlə bir neçə müqavilə imzalanıb, xarici sərmayədarlar cəlb olunur. Sualım bu** [322-323] **məzmundadır: mənim bildiyimə görə, Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələri – metallurgiya, kimya sənayesi və s. inkişaf etmişdir. Bu istiqamətə investisiyalar cəlb olunurmu və həmin investisiyaların mənafeyinin qorunması, yaxud Milli Məclis və ya hökumət səviyyəsində hansısa normativ aktlar mövcuddurmu?**

**Heydər Əliyev:** Bilirsinizmi, bizə investisiya gəlməsinin səbəblərindən biri də budur ki, xammal ehtiyatlarımızın və sairənin olması ilə yanaşı, biz sərmayədarlar üçün, xarici investisiyalar üçün son dərəcə əlverişli, güzəştli şərait yaratmışıq. Bizdə ən aşağı vergi tarifi var. Qərar qəbul etmişik ki, Azərbaycanda qanunlarda hansı dəyişikliklər olmasından, hakimiyyətin birdən dəyişməsindən, – bilirsiniz, Azərbaycanda iki-üç dövlət çevrilişi cəhdi olub, daha nə isə ola bilər, amma arxayın ola bilərsiniz, indən belə olmayacaq, – hansısa yeni qanunlar qəbul edilməsindən asılı olmayaraq xarici sərmayədarlar üçün investisiyalar haqqında bağlanmış sazişlərin şərtləri dəyişməz qalır. Biz xarici sərmayədarların gəlirləri üçün immunitet yaratmışıq. Xarici sərmayədarlar öz gəlirlərini sərbəst şəkildə ölkədən çıxarıb apara bilərlər. Ona görə də bizdə xarici investisiyalar üçün şərait çox güzəştli, çox əlverişlidir və bu, bir də deyirəm xarici investisiyaların bizə fəal surətdə gəlməsinin səbəblərindən biridir.

**Sual: Hörmətli Heydər Əliyeviç, Sizə belə bir sualım var. Deyirlər ki, Siz əsas nefti üç marşrutla – Gürcüstan vasitəsilə və Türkiyəyə doğru, habelə Rusiya vasitəsilə Novorossiyskə qədər nəql etmək ideyasını dəstəkləyirsiniz. Nə üçün məhz belədir, əsas neft üçün məhz bu üç marşrut olmalıdır?**

**Heydər Əliyev:** Bu, təbiidir. Çünki mən artıq dedim ki, neft hasilatının perspektivi çox böyükdür. Təkcə bizim sektorda deyil, həm də Qazaxıstanda – Tengizdə də çox neft hasil ediləcək, Xəzər dənizinin Qazaxıstan sektoru da neft ehtiyatları ilə çox zəngindir. Bunlar hamısı olacaq. Bu nefti beynəlxalq bazarlara çıxarmaq lazımdır. Bir marşrut, bir boru kəməri bu[323-324]na qadir deyildir. Bundan əlavə, həmin kəmərlərin diversifikasiyası da iqtisadi cəhətdən çox sərfəlidir. Şübhəsiz ki, biz bunu edirik və edəcəyik. Bu, tamamilə qanunauyğundur. Bəlkə hansısa dördüncü marşrut da olacaqdır. Bu, iqtisadi sərfəliliyin xeyrinədir.

**Sual: Heydər Əliyeviç, Azərbaycan haqlı olaraq çoxillik əla konyakları, nadir üzüm sortlarından çəkilmiş şərabları, bir vaxtlar bütün Sovet İttifaqının ləzzətlə içdiyi şampan şərabı ilə məşhurdur. İndi vahid iqtisadi məkan dağıldığına görə Azərbaycan bir çox bazarlardan, o cümlədən Rusiya bazarlarından məhrum olub və milyonlarla dekolitr konyak və şərab anbarlarda yatıb qalıb. Halbuki biz Rusiyada Azərbaycanın adına çıxılan, amma əslində onunla heç bir əlaqəsi olmayan hər cür saxta zəqqumu içirik. Rusiya süfrəsində Azərbaycan içkilərinin yenidən öz layiqli yerini tutmasına nə mane olur? Bundan ötrü nə etmək lazımdır? Sağ olun.**

**Heydər Əliyev:** Çox yaxşı sualdır, təşəkkür edirəm sizə. Bəli, bir vaxtlar Azərbaycanda üzümçülük və şərabçılıq inkişaf edirdi, Azərbaycanda üzüm istehsalını 3 milyon tonadək çatdırmaq proqramı vardı. O vaxtlar bütün Sovet İttifaqında cəmi 5 milyon ton üzüm istehsal edilirdi. Yadımdadır, biz Azərbaycanda üzüm istehsalını təxminən 1982-1983-cü illərdə, hər halda 2 milyon tona çatdırdıq. Bütün bu işlər Rusiyanı, ən əvvəl bütün Sovet İttifaqını şərabçılıq məhsulu ilə, yüksək keyfiyyətli şərablarla, süfrə şərabları, konyaklarla, keyfiyyətli şampan şərabları ilə təmin etmək üçün görülürdü. Xatirimdədir, o vaxtlar avadanlıq almaq, Bakıda şampan şərabları zavodu tikmək üçün sovet hökumətinin ehtiyatlarından on milyonlarla dollar ayrılmışdı. Bu zavod indi də durur, gözəl zavoddur, əla şampan şərabı və konyaklar istehsal edir. Siz çox düzgün deyirsiniz. Amma təəssüflər olsun ki, biz Rusiya bazarını itirdik. Əvvəla, Qorbaçovun və onun kimilərinin ağılsız antialkoqol siyasəti Azərbaycana olduqca böyük ziyan vurdu. Üzüm bağlarına balta çalmağa və Azərbaycanın təbiətini korlamağa başladılar. Sonra da yüksək aksizlər, yüksək [324-325] dəmir yol tarifləri və bir çox başqa məsələlər Azərbaycanın çaxıraraq məmulatının Rusiyada satışına əngəl törədir. Halbuki uzaq-uzaq ölkələrdən gətirməkdənsə, Azərbaycandan gətirmək Rusiya üçün həm sərfəli olar, həm də ucuz başa gələr.

Belə düşünürəm ki, indi bu səfərdən sonra, biz sənədlər imzaladıqdan sonra bu məsələni həll etməyə bir daha çalışacağıq ki, Rusiyaya böyük miqdarda keyfiyyətli şərablar, konyaklar, şampan şərabları ixrac edə bilək.

Biz bunu istəyirik. Bu, bizim üçün iqtisadi cəhətdən sərfəlidir. Lakin bunun Rusiya üçün də iqtisadi və digər əhəmiyyəti var.

**Sual: Xəzər neftinin nəqli ilə əlaqədar ilin əvvəlində Sizin qeyd etdiyiniz anlaşılmazlıqda "Transneft"in dəlillərindən biri bu idi ki, Azərbaycan şərtləşdirilmiş və müqavilələrə daxil edilmiş yataqlardan çıxarılmalı olan nefti deyil, Azərbaycanın həmişə neft çıxartdığı ərazilərdən çıxarılan nefti göndərməyi təklif edir. Razılığa əsasən Bakı-Novorossiysk marşrutu ilə neft oktyabrda nəql edilməyə başlandıqda qarşıya məhz belə bir problem çıxmayacaqmı?**

**Heydər Əliyev:** Əgər belə dəlillər olmuşdursa, onlar əsassızdır. Çünki biz Rusiya hökuməti ilə Azərbaycan hökuməti arasında saziş imzalayarkən, – dediyim kimi, onu Viktor Stepanoviç Çernomırdinlə mən imzalamışam, – orada "Azərbaycan nefti" yazılmışdı. Mən hətta sizə deməliyəm ki, biz oraya "Konsorsium tərəfindən çıxarılacaq neft" terminini daxil etmək istədikdə buradakı bəzi ağıllı adamlar, – sənədin hazırlanmasında onların iştirakı olmuşdu, – dedilər ki, biz buna yol verə bilmərik, çünki biz onları tanımırıq.

Başa düşürsünüzmü, yazılmışdı: "Azərbaycan nefti". Orada yazılmamışdı ki, xarici şirkətlər konsorsiumu tərəfindən çıxarılacaq neft. Bu, birincisi. Əgər kimsə, nə isə yayırsa, bununla onlar öz səriştəsizliyini doğrultmaq istəyirlər.

İkincisi, sizin nəzərinizə çatdırım ki, avqustda transmilli şirkətlərin konsorsiumunun məhz birinci müqaviləsinin layihə[325-326]sindən ilk neft çıxarılacaq və Azərbaycanın özünün çıxardığı neft kiməsə keyfiyyətsiz görünürsə, oktyabrda biz dəniz neftini nəql etmək imkanına nail olacağıq.

**Sual: Heydər Əliyeviç, Siz Azərbaycan neftinin nəqli variantlarından, neftin Gürcüstan və Ukrayna ərazisi ilə nəqlindən bəhs edərkən haqqında danışdığınız marşruta qayıtmaq istərdim. Sirr deyildir, Kiyevə Sizin səfəriniz zamanı və marşrutun müzakirə olunduğu görüşlər zamanı, – Rusiyada bunu çox böyük diqqətlə izləyirdilər və bu marşrutun başlıca olaraq siyasi cəhətdən əsaslandırılmasından danışırdılar, – deyilirdi ki, çox güman, bu marşrut Rusiyadan yan keçəcəkdir. Elə Rusiyanın bir çox mütəxəssisləri də iddia edirdilər ki, bu, iqtisadi baxımdan məqsədəuyğun marşrut deyildir və hər şeydən əvvəl, istər Azərbaycan üçün, istərsə də Ukrayna və Gürcüstan üçün alternativ energetika yolu yaratmaq istəyi ilə bağlıdır. Belə şərtlər barəsində nə düşünürsünüz?**

**Heydər Əliyev:** Bu şərtlər əsassızdır. Lakin aydın olsun deyə, bildirdim ki, Rusiya ərazisindən keçən Azərbaycan-Novorossiysk neft kəməri haqqında saziş 1996-cı ilin yanvarında imzalanmışdır. Odur ki, biz dərhal öz ərazimizdən keçən neft kəməri inşa etməyə başladıq. Nəzərdə tutulmuşdu ki, bu boru ilə neft 1997-ci ilin əvvəllərində nəql ediləcəkdir. Amma belə olmadı. Bunda bizim təqsirimiz yoxdur. İkinci marşrut, – Gürcüstan ərazisindən keçən qərb marşrutu haqqında saziş Moskvada saziş imzalandıqdan dörd ay sonra imzalandı. Bunlar bir-birinə zidd deyildir. Bu sazişdə elə bir neft kəmərinin inşası nəzərdə tutulur ki, onun çəkilişi 1998-ci ilin axırlarına yaxın başa çatacaqdır. Bu boru ilə, Qərb marşrutu ilə neftin nəqli ancaq 1998-ci ilin axırlarında mümkün olacaqdır.

Kiməsə, bütün bunlara siyasi don geyindirmək xoş gəlir. Amma belə yaramaz. O ki qaldı bu neftdən Ukraynanın istifadə edib-etməyəcəyinə, deyirəm, bəli, istifadə edə bilər. Niyə [326-327] də istifadə etməsin? Bu neft Supsa limanına, Qara dəniz limanına vurulacaq, oradan dünya bazarlarına ixrac ediləcəkdir. Ukrayna müstəqil, suveren ölkədir, çox böyük miqdarda neft məhsulları işlədir. Nə üçün başqa ölkələr bu nefti ala bilərlər, amma Ukrayna ala bilməz? Bir sözlə, bu, tamamilə qanunauyğun haldır ki, ondan Ukrayna da istifadə edə bilər. Özü də təkcə Ukrayna deyil, istəsə Bolqarıstan da istifadə edə bilər. Bolqarıstanın da nefti yoxdur. Bu neftdən başqa hər hansı. bir ölkə də istifadə edə bilər. Mən belə düşünürəm ki, bunların hamısı tamamilə doğrudur. Hər iki boru kəməri lazımdır, bəlkə də digər hər hansı boru kəməri də gərəkdir.

**Sual: Cənab prezident, Sizə belə bir sualım var. İyulun 1-də Çin hökuməti Syanqan üzərində suverenlik müəyyən etdi. Siz bu hadisəni necə qiymətləndirirsiniz? Ümumiyyətlə, Çin ilə Azərbaycan arasında indiki münasibətlər necədir? Sağ olun.**

**Heydər Əliyev:** Bilirsinizmi, mən Çin Xalq Respublikasının sədri Tszyan Tszemin cənablarına təbrik teleqramı göndərdim və onu bu hadisə münasibətilə təbrik etdim. Çin-Azərbaycan münasibətlərinə gəldikdə, bu münasibətlər çox yaxşıdır, səmimidir. Azərbaycanda Çin səfirliyi, Çində isə Azərbaycan səfirliyi fəaliyyət göstərir. 1994-cü ildə Çin Xalq Respublikasının sədri Tszyan Tszeminin dəvəti ilə mən Çin Xalq Respublikasında rəsmi səfərdə oldum. Çin ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında saziş, müqavilə və bir çox digər iqtisadi sənədlər imzalandı. Yeri gəlmişkən, Çinin Azərbaycandakı səfiri bu yaxınlarda mənə dedi ki, Çinin neft şirkətləri Azərbaycanın neft, energetika ehtiyatlarına maraq göstərirlər və tezliklə Çin şirkətinin nümayəndələri Bakıya gəlməlidirlər. Mən buna müsbət cavab verdim. Yaponiyanın "İtoçu" şirkəti Xəzər dənizindəki yataqla bağlı müqaviləmizdə iştirak edir. Bəs nə üçün Çin geri qalır. [327-328]

**Sual: Heydər Əliyeviç, SSRİ dağılana qədər Rusiya Azərbaycanın məişət texnikasının, soyuducularının və kondisionerlərinin çox böyük satış bazarı sayılırdı. Dünən Siz Yuri Mixayloviç Lujkov ilə görüşdünüz. Söhbət zamanı Azərbaycana "Moskviç" və "ZİL" avtomobillərinin göndərilməsi haqqında da məsələ müzakirə olundu. Bakı kondisionerlərinin Moskvaya göndərilməsi də nəzərdə tutuldumu? Bunlar açıq-aşkar azlıq edir, hətta bu salonda da çatışmır.**

**Heydər Əliyev:** Bilirsiniz, mən srağagün Yuri Mixayloviç Lujkov ilə görüşdüm və çox yaxşı söhbətimiz oldu. Yeri gəlmişkən, deyim ki, bu yaxınlarda Azərbaycanda Moskvanın 850 illiyinə həsr olunmuş Moskva günləri keçirildi, çox böyük nümayəndə heyəti, Rusiyanın, Moskvanın görkəmli incəsənət xadimləri gəlmişdi. Azərbaycan xalqı onları böyük səmimiyyətlə, dostluq hissləri ilə qarşıladı. Yuri Mixayloviç Lujkov ilə çox yaxşı söhbətlərimiz oldu. Azərbaycan hökuməti ilə Moskva hökuməti arasında bir neçə saziş imzalandı. Buna əlavə olaraq, srağagün axşam söhbətimiz zamanı biz Azərbaycandan Moskvaya meyvə, bəzi kənd təsərrüfatı məhsulları, habelə, siz düz deyirsiniz, məişət kondisionerləri və soyuducular göndərilməsi məsələlərini həqiqətən müzakirə etdik. Şübhəsiz ki, o, "Moskviç", "ZİL" maşınlarının Bakıda satışının mümkünlüyü haqqında məsələ qaldırdı. Mən bizim hökumətə tapşırıq vermişəm, onlar bu işlə məşğul olurlar və biz bu məsələləri həll etməyə çalışacağıq. Ancaq nəzərə alın ki, indi azad bazar iqtisadiyyatıdır. İndi dövlət bu işdə heç nəyi tənzimləyə bilməz, biz yalnız kömək edə, bu və ya başqa işdə ancaq imkan yarada bilərik. Qalan hər şeyi bazar müəyyənləşdirir, ona görə də əgər avtomaşınlar Azərbaycanda rəqabətə tab gətirərsə, şübhəsiz ki, bunların Azərbaycana gətirilməsinə, satılmasına imkan yaradacağıq.

**Sual: Heydər Əliyeviç, Siz hələ dünən bizə deyirdiniz ki, hər halda Azərbaycan gəmilərini Volqa-Don hövzəsi** [328-329] **akvatoriyasına buraxmaq istəməyən Rusiya tərəfdən bəzi problemlər olduğuna görə dəniz gəmiçiliyinə dair saziş imzalanmamışdır. Bu gün səhər Boris Nemtsov bizə bəyan etdi ki, guya bu məhdudiyyətlər götürülmüşdür. Bu o deməkdirmi ki, dəniz gəmiçiliyinə dair bu gün hər halda hansısa saziş imzalanıb, yoxsa bu, nə isə bir şifahi vəddir?**

**Heydər Əliyev:** Siz bilirsiniz, bizə belə izah etdilər ki, icazə rejimi mövcuddur. Həmin bu icazə rejimi də Azərbaycana tətbiq olunmurdu. İndi bu icazə rejimi Azərbaycana tətbiq olunacaq və Azərbaycan bu icazə rejimindən istifadə edərək Volqa-Don gəmiçiliyində öz gəmilərindən istifadə imkanı əldə edəcəkdir. Bəli, onlar vəd etdilər.

**Sual: Sualımın davamıdır. Zəhmət olmasa deyin, nə üçün çeçen diasporu mənafelərin lobbiləşdirilməsində və məhz sizin meyvələrin satışının artırılmasında iştirak etmək istəmir? O, banan, kivi satışını uğurla mənimsəyib, ancaq Azərbaycan üzümünü satmır. Siz bunu necə şərh edərdiniz?**

**Heydər Əliyev:** Bilirsiniz, siz sualı düz qoymursunuz. Mən sizi yenə o fikrə qaytarmaq istəyirəm ki, bazar sərbəstdir. Kim nəyi bacarırsa, onu da satır. Ancaq lazımdır ki, azərbaycanlılar da Moskvada Azərbaycan narını sata bilsinlər. Yeri gəlmişkən deyim ki, nar çox faydalı meyvədir və müalicə əhəmiyyəti var. Xatirimdədir, mən Azərbaycanda işləyəndə burada rəhbər vəzifələrdə olan insanların bir çoxu soruşurdular ki, keyfiyyətli nar göndərmək olarmı. Çünki həkimlər deyiblər ki, bu, nə bilim qanı təzələyir, yaxud ömrü uzadır, ya da daha hansısa təsiri var. Ona görə də mən sizin hamınıza, moskvalılara narı təbliğ edirəm. Azərbaycanlılar, ticarətçilər isə buyursunlar, bu imkandan istifadə etsinlər və Moskvaya, Rusiyaya nar gətirib satsınlar. Bizdə nar çoxdur. Yeri gəlmişkən deməliyəm ki, bu, çox dadlı meyvədir.

Sağ olun. Sizin hamınızı Azərbaycana dəvət edirəm. [329-330]

## RESPUBLİKANIN MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARI ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNÜN TƏSİS EDİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*5 iyul 1997-ci il*

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən sizi bayram münasibətilə, milli təhlükəsizlik orqanı işçilərinin peşə bayramı münasibətilə təbrik edirəm, sizə cansağlığı, səadət və bu şərəfli işinizdə uğurlar arzulayıram.

Uzun fasilədən sonra, mənim üçün gənclik illərindən başlayaraq çox əziz və maraqlı bir peşə – dövlət təhlükəsizliyi ilə məşğul olan orqanın işçiləri ilə bir daha görüşməyimdən çox məmnunam. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi təhlükəsizlik sahəsində çalışan orqanların, işçilərin peşə bayramı gününü və tarixini düzgün müəyyən edibdir. Bu xidmət hər bir dövlətə məxsus olan bir xidmətdir. Ən qədim dövrlərdən müasir dövrümüzə qədər hər bir dövlətin xüsusi xidmət orqanları – onun təhlükəsizliyini, milli təhlükəsizliyini qoruyan, təmin edən orqanları olubdur və bu gün də bütün dünyada elə bir dövlət tapmaq olmaz ki, onun dövlət atributları içərisində belə bir orqan olmasın.

Müstəqil Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaranıbdır. Ancaq bu, boş yerdə yaranmayıbdır, bunun tarixi kökləri var və tarixi köklərini də düzgün müəyyən etmək lazımdır. [330-331]

Azərbaycan xalqının orta əsrlərdə dövlətləri olmuşdur. Sonra xalqımız dövlətçiliyini itirmiş və əsrin əvvəlində – 1918-ci il mayın 28-də Azərbaycanda yenidən milli dövlət qurulmuş, ilk Azərbaycan Demokratik Respublikası elan olunmuş və yaranmışdır. Ona görə də bugünkü müstəqil Azərbaycan Respublikasının təhlükəsizlik orqanının başlanğıc tarixini 1918-20-ci illərdə yaşamış ilk Azərbaycan Demokratik Respublikasının bu məqsəd üçün yaratdığı orqandan götürmək doğru, düzgün və çox məqsədəuyğun qərardır. Bu təklifi mənə təqdim edən kimi, bunu məmnuniyyətlə qəbul etdim və 28 mart gününü Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan etdim. 1919-cu il mart ayının 28-də ilk dəfə müstəqil Azərbaycan Demokratik Respublikasının təhlükəsizlik orqanı yaradılıbdır. O, demokratik respublika kimi az yaşayıbdır, ancaq tarixi hadisədir.

Ondan sonrakı dövrdə Azərbaycan xalqının yaşadığı dövlətdə, respublikada belə bir orqan mövcud olmuş, belə bir orqanda bir neçə nəsil insanlar xidmət göstərmişlər. Onların bir qismi xalqına, millətinə, torpağına sadiq olaraq xidmət göstərmiş, bir qismi isə xalqına xəyanət etmiş, yaxud da xalqının etimadını qiymətləndirə bilməmiş və özlərini mənfi cəhətdən göstərmişlər.

Bunlar tarixin səhifələridir, heç kəs tarixin səhifələrini dəyişdirə bilməz. Mən çox məmnunam ki, Azərbaycan milli təhlükəsizlik orqanının yeni yaradılmış, bu gün tanış olduğumuz muzeyinin eksponatları da məhz bütün bu tarixi mərhələləri əks etdirir. Mən bu muzeyin yaranmasını da müsbət, təqdirəlayiq hadisə kimi qiymətləndirirəm və hesab edirəm ki, muzey gündən-günə zənginləşəcək, ekspozisiyası genişlənəcəkdir və Azərbaycan xalqının XX əsrdə və xüsusən 1918-1919-cu illərdən indiyə qədər keçdiyi yolun tarixinin bütün mərhələlərini əks etdirəcəkdir. [331-332]

Bizim başqa dövlət strukturları da öz günlərini, məsələn, Daxili İşlər Nazirliyi polis gününü qeyd edir. Hesab edirəm ki, onlar da öz tarixlərini məhz 1918-1919-cu illərdən götürməlidir. Çünki belə olmayan surətdə elə çıxır ki, Azərbaycanda 1991-ci və ya 1992-ci ilə qədər heç bir şey olmayıbdır, polis yenidən yaranıbdır. Bu, düz deyil, bunun adı dəyişib və Azərbaycanın müstəqilliyinə görə funksiyaları da müəyyən qədər dəyişilibdir. Yaxud bizim ordunun yaranması. İlk Azərbaycan Demokratik Respublikası özünün ordusunu yaratmışdı, Səməd bəy Mehmandarov müdafiə naziri olmuşdu. Ordu da ilk Azərbaycan Demokratik Respublikasının yaşaması üçün öz xidmətlərini göstərmişdir. Ona görə bizim ordu da boş yerdə yaranmayıbdır.

Doğrudur, sonra həm milli təhlükəsizlik orqanlarında, həm Daxili İşlər Nazirliyi və polis orqanlarında, həm də orduda dəyişikliklər əmələ gəlibdir. Bunlar xalqımızın sonra yeni bir hakimiyyət altında yaşaması və Sovetlər İttifaqı kimi bir dövlətin tərkibində olması ilə əlaqədar olubdur. Ancaq bizim insanların nə günahı var? Neçə-neçə nəsillər, Azərbaycan övladları orduda xidmət ediblər, zabitlik xidməti ediblər, o illərdə, yəni 1920-ci ildən sonra, indi, Azərbaycan müstəqil dövlət olana qədər bizim generallarımız olubdur. Daxili işlər orqanlarında, milis orqanlarında neçə-neçə nəsillər işləyiblər. Onlar Azərbaycan xalqına xidmət ediblər. Qeyd etdim, bəziləri, bir çoxu sədaqətlə xidmət edibdir, amma xalqına xəyanət edənlər, yaxud xalqının mənafeyinə zərər gətirənlər də olubdur. Bu, tarixin həqiqətləridir. Ancaq tarixin neçə on illər keçdiyi yolu heç vaxt unutmaq olmaz. Bu baxımdan mən bir daha təhlükəsizlik orqanlarının peşə bayramının əvvəlini, yaranması gününü məhz 1919-cu ildən götürməsini düzgün hesab edirəm. Ona görə də bu dəvəti qəbul edib bu gün bu bayramı ilk dəfə qeyd etməyə gəlmişəm. [332-333]

Azərbaycanda təhlükəsizlik orqanları ağır, çətin, əzab-əziyyətli, eyni zamanda cəsarətlə deyə bilərəm ki, şərəfli yol keçibdir. Əgər 1920-ci ildən ta son illərə qədər bu orqanlar –vaxtilə ÇEKA, QPU idi, sonra NKVD idi, sonra NKQB, NKVD oldu, mən bunların adlarını rusca deyirəm, azərbaycanca tərcümə etmək olar, amma bunlar bizim beynimizə elə bu cür giriblər, sonra oldu MVD, MQB, sonra oldu MVD, KQB, – görürsünüz, adları nə qədər dəyişilibdir. Bu orqanlar və onlarda işləmiş insanlar, yenə deyirəm, çox mürəkkəb yol keçiblər. 20-30-cu, 40-cı illərdə bu orqanlar Azərbaycan xalqına, onun mənəviyyatına, bütün həyatına çox böyük zərər gətirmişdir, zərbələr, yaralar vurmuşdur. Amma xalqımız buna dözmüşdür.

1920-21-ci illərdən başlayaraq siyasi repressiyalar, heç bir əsas olmadan ailəliklə, minlərlə, on minlərlə insanların yerindən-yurdundan Orta Asiyaya, Qazaxıstana, Sibirə sürgün edilməsi xalqımıza dəhşətlər gətirmişdir. 30-cu illərin siyasi repressiyaları nə qədər insanların, nə qədər ailələrin həyatını pozmuşdur. Nə qədər günahsız insanları həyatdan, azadlıqdan məhrum etmişlər. Xüsusən 37-38-ci illərin repressiyaları Azərbaycan xalqına, onun ziyalılarına, zəkalı adamlarına, onun intellektual potensialına çox böyük zərbələr vurmuşdur.

Ancaq bu orqanlarda bu siyasət, bu istiqamət 40-cı illərdə və hətta 50-ci illərin əvvəlində də davam etmişdir. Bunlar tarixdən hamıya məlumdur, ancaq mən gənc yaşlarımdan bu orqanlarda işlədiyimə, fəaliyyət göstərdiyimə görə bunların çoxunu öz gözümlə görmüşəm, şahidi olmuşam. Bilirsiniz ki, 1941-ci ildə mən o vaxtkı Xalq Daxili İşlər Komissarlığı orqanında işləməyə başlamışam. Sonra qısa bir müddət Xalq Komissarları Sovetində, yəni Nazirlər Sovetində çalışmışam. 1944-cü ildən isə bilavasitə təhlükəsizlik orqanlarında işləmişəm. O vaxta, 1943-cü ilə qədər, – bunu tarixdən bilməlisiniz, – ümumiyyətlə bunlar hamısı bir yerdə idi, NKVD-nin tərkibində həm təhlükəsizlik, həm milis orqariları, həm də o siste[333-334]mə daxil olan bütün başqa orqanlar var idi. 1943-cü ildə bunlar ayrıldılar, biri oldu NKQB, biri isə NKVD. Mən bunların hamısını görmüşəm.

O vaxtlar gənc bir işçi kimi arxiv materialları ilə, xüsusən 37-38-ci illərin, ondan sonrakı dövrün materialları ilə tanış olarkən daim özüm-özümə sual vermişəm: bu antisovet qruplar, millətçi qruplar, sovet hakimiyyətini devirmək istəyən qruplar, filanlar kimlərdir, hansılardır? Onların bir qismi həbs edilib ya öldürülmüş, ya da uzaq Sibirdə həlak olmuşdu. Amma bir qismi də həbs olunmamışdı, qalmışdı. Arxiv materiallarında isə onların adları siyahılarda idi ki, bunlar antisovet, millətçi qrupların, dəstələrin, təşkilatların üzvləri olmuşdur. Mən gənc idim, fikirləşirdim, – əgər bunlar millətçi, yaxud antisovet, əksinqilabçı təşkilatların üzvləri olublarsa, bəs niyə gəzirlər? Yaxud da ki, üzvü deyildirlərsə, adları niyə buraya düşübdür? O qədər belə quraşdırma, ədalətsiz işlər görülmüş, o qədər saxtakarlıq, əsası olmayan materiallar yaradılmışdı ki, bunlardan baş açmaq çətin idi.

Təəssüflər olsun ki, bu istiqamət, siyasət davam edirdi və əgər insanlar siyasi cəhətdən öz fikrini bildirmək, demək istəyirdisə, yaxud başqa fikir söyləmək istəyirdisə, dərhal nəzarət altına alınır, haqqında ölçülər götürülür və bəzilərini də cəzalandırmağa çalışırdılar. Mən bunları görmüşəm, 40-cı illərin sonunda, 50-ci illərin əvvəllərində şahidi olmuşam. O vaxtlar 37-38-ci illərin materialları ilə də tanış olmaq imkanına malik olduğuma görə onlarla da tanış olmuşam, görmüşəm. Ona görə də mən bilirəm ki, bizim xalqımızın başına nə bəlalar gətirilib, xalqımıza nə kimi zərbələr vurulub, nə qədər əziyyətlər verilibdir.

O vaxtlar Azərbaycan Respublikası müttəfiq respublika kimi Sovetlər İttifaqının tərkibində olduğu halda, təəssüflər olsun ki, bu orqanlarda, xüsusən təhlükəsizlik orqanlarında işləyən adamların tam əksəriyyəti azərbaycanlı deyildi. Azərbaycanlı[334-335]lara qarşı repressiyalar edildiyinə görə azərbaycanlıların az bir miqdarı belə işlərə buraxılmışdı. Mən 37-38-ci illərin materiallanna baxanda, – bu, mətbuatdan da məlumdur, siz də bilirsiniz, – görürdüm: kim idi o vaxt NKVD-nin başında duran adamlar? Qriqoryan, Markaryan, bu gün orada birinin adını oxudum – Topuridze, yarı erməni, yarı gürcü idi, nə millətdir, bilmirəm, Borşşov, sonra uzun illər – 1939-cu ildən 1953-cü ilə qədər Yemelyanov nazir idi. Xatirimdədir hamısı. O illərdə Azərbaycanın başında duran adamlar öz xalqına xəyanət edirdilər, azərbaycanlılara düşmən olan, ancaq bu orqanlarda yüksək vəzifə tutan adamların əli ilə Azərbaycanın dəyərli insanlarını əzirdilər, cəza verir, azadlıqdan məhrum edir, repressiya altına alırdılar.

Stalin öləndən sonra, 1953-cü ildə Azərbaycanda hakimiyyət dəyişiləndən sonra, yəni Azərbaycanın başçısı dəyişdiriləndən sonra, – Mircəfər Bağırov vəzifədən azad edildi, sonra həbs olundu, – bu orqanlarda müəyyən dəyişiklik başladı. Ancaq bunu aparmaq da asan deyildi, çox çətin idi.

Azərbaycanda 37-38-ci illərdə və sonrakı illərdə repressiyalar etmiş adamlar 1956-cı ildə açıq məhkəmə ilə məhkum olundular. Mən o məhkəmənin iclaslarında olmuşam, o iclaslar bu gün də xatirimdədir. Müttəhim kürsüsündə oturanlar kim idi? Mircəfər Bağırov, Xoren Qriqoryan, Markaryan, Borşşov, Topuridze, Ağasəlim Atakişiyev – altı nəfər. Şübhəsiz ki, günahkarlar təkcə bunlar deyildi. Amma ən yüksək səviyyəli, vəzifəli günahkarlar bunlar idi. Bir neçə ay məhkəmə prosesi getdi və onlar cəzalandırıldılar. O vaxtlar mən məhkəmə prosesində olarkən, – məhkəmə prosesi açıq idi, şübhəsiz ki, müəyyən buraxılış vərəqələri ilə buraxırdılar, mən isə təhlükəsizlik orqanında işlədiyimə görə daim oraya gedib müşahidə etmək imkanım var idi, – 37-38-ci illərin, sonrakı illərin dəhşətləri açıq göstərildi. [335-336]

Ancaq ondan sonra da bu orqanlarda böyük təmizləmə işi görmək lazım idi, çünki bunlar bir ilin, iki ilin işi deyildi. Bu gün muzeydə də o məlumatları verdilər, Namiq Abbasov da öz məruzəsində dedi ki, milli təhlükəsizlik orqanlarında, xüsusən rəhbər heyətdə, zabit heyətində, komandir heyətində azərbaycanlıların sayı nə vaxtdan artmağa başladı. Rəhbər vəzifələrdə azərbaycanlıların sayı, demək olar, tək-tük idi.

Mən 1950-ci ildə Leninqradda bu orqanın ali məktəbini bitirəndən sonra Bakıda işləməyə başladım. O vaxt Dövlət Təhlükəsizliyi Nazirliyi adlanırdı. Təhlükəsizlik nazirliyinin əks-kəşfiyyat şöbəsi çox böyük şöbə idi. İlk dəfə məni o şöbədə bölmə rəisi təyin etdilər. Bu şöbənin altı bölməsi var idi, bircə şöbənin rəisi azərbaycanlı idi, üç müavini azərbaycanlı deyildi, ikisi erməni, biri başqa millətdən idi, ilk dəfə mən 1950-ci ildə azərbaycanlı kimi altı bölmədən birinə rəis təyin olunmuşdum. Qalanların hamısı azərbaycanlı deyildi, – mən bölmə rəislərini deyirəm. Hər bölmədə on-on beş zabit vardı. İndi hesablayın, zabitlərin içərisində nə qədər azərbaycanlı var idi. Burada Kamal Əliyev çıxış etdi. Sən neçənci ildən işləyirsən? 1944-cü ildən? Hə, sən bunları görmüsən. O vaxt, 1950-ci ildə mən ikinci şöbəyə gələndə sən oradaydın?

**Kamal Əliyev:** O vaxtkı Stalin rayonunda işləyirdim.

**Heydər Əliyev:** Stalin rayonunda. İkinci şöbəyə nə vaxt gəldin?

**Kamal Əliyev:** 1958-ci ildə.

**Heydər Əliyev:** 1958-ci ildə. Bəs sən niyə gec gəldin? Mənə elə gəlir ki, mən orada işləyəndən sən yanımda idin. Sən bunların hamısını bilirsən.

İşləmək də çox çətin idi. Mənim xatirimdədir, – gənc zabit, buraya yeni gəlmiş bir adam idim. Çox çətin idi. 1953-cü ildə, Stalin öləndən sonra ciddi dəyişikliklər əmələ gəldi, bunu haqqına demək lazımdır. 1953-cü ilin sonunda mən birdən-birə həmin şöbəyə rəis təyin olundum. Bu, nadir hadisə idi. Nə qə[336-337]dər çətinliklər çəkdim ki, 37-38-ci illərdən, 30-cu illərdən qalmış və Azərbaycana xəyanət etmiş insanlardan, – onların da əksəriyyəti azərbaycanlı deyildi, amma içərilərində belə yaramaz azərbaycanlılar da vardı, – bu orqanları xilas edək və yeni, gənc adamlar cəlb edək, orqanlarda sağlamlaşma işi aparaq. Bu, çox çətin oldu. O qədər çətin oldu ki, mənə qarşı fitnələr də etdilər. Bir müddət o vəzifədən getməli oldum, yəni vəzifədən çıxartdılar. Bir-iki ildən sonra məni yenə o vəzifəyə təyin etdilər, məcbur oldular ki, təyin etsinlər. Necə ki, 1993-cü ildə məni buraya dəvət etməyə məcbur oldular, o vaxt da məni yenə həmin vəzifəyə qoymağa məcbur oldular.

Mən bu gün açıq danışıram. Nə üçün? Çünki mən o zaman cəsarətli addımlar atmağa, təmizləmə işləri görməyə başladım, həmin şöbədə işləyən bir neçə zabitin cinayətkar olduqlarına görə həbs edilməsinə, cəzalandırılmasına, işdən çıxarılmasına nail oldum. Xatirimdədir, 1954-cü ilin əvvəli idi. Mən başladım təmizləmə işləri aparmağa. Ağasəlim Atakişiyev o vaxt hələ müavin idi. Gəldim onun yanına, dedim ki, iki-üç nəfər adamı – adlarını demək istəmirəm, onların hamısı gedibdir – həbs etmək lazımdır. O kişi qorxusundan ağır vəziyyətə düşdü, (sonra, 1956-cı ildə onun özünü də həbs elədilər) dedi ki, sən nə danışırsan, cavan oğlansan, gəlmisən, belə şeylər edirsən, belə şeylər etmək olmaz. Dedim ki, necə etmək olmaz, – bax, bu bunun cinayəti, gördüyü işlər, bu sübut, bu filan. Siz sadəcə buna icazə verməlisiniz, qurtardı getdi. Bir dəfə, iki dəfə, üç dəfə bu addımları atdım və sonra, 1955-ci ildə də bunların, həmin o cəsarətli addımlarımın qurbanı oldum. Amma öz iradımdan dönmədim, həmin o təmizləmə işlərinə başladım.

1960-cı ildə, haqqına demək lazımdır, Xruşşov dövründə bütün Sovetlər İttifaqında təhlükəsizlik orqanlarında çox ciddi dəyişikliklər prosesi gedirdi. 1937-38-ci illərlə Stalinlə əlaqədar Stalini günahlandıran materiallar çıxarıldı, bir neçə proses getdi, o cümlədən Beriyanın tutulması, burada, Azərbaycanda [337-338] və başqa yerlərdə gedən proseslər – Xruşşov dövründə bunların hamısı, 1937-38-ci illərdən qalmış kadrların təmizlənməsi prosesi gedirdi. Amma bunu kim necə bacarırdısa, o cür aparırdı. Azərbaycanda isə vəziyyət mürəkkəb idi, ona görə ki, rəhbər orqanların, zabit kadrların tərkibinin əksəriyyəti azərbaycanlı deyildi. Olan azərbaycanlıların bəzilərinin də 1937-38-ci illərdə günahları vardı, ona görə onları da azad etmək lazım gəldi. Bəli, o illərdə onların da günahları vardı.

1960-cı ildə bu orqanlarda geniş ixtisar aparıldı. Ola bilər xatirinizdədir, Sovetlər İttifaqının ordusunda təxminən 1 milyon 200 min adam ixtisar edildi, o cümlədən təhlükəsizlik orqanlarında da ixtisar aparıldı. O vaxt beş şöbəni birləşdirdilər. Mən onlardan birinin rəisi idim. Belə oldu ki, beş şöbəni birləşdirərkən birləşmiş şöbəyə rəis məni təyin etdilər. Bu fürsətdən istifadə etdim, o biri şöbələrin rəis, ya müavin olanları əksəriyyətini təmizlədim, onlar orqandan xaric olundular. Yeni bir dövr başlandı.

Namiq Abbasov öz məruzəsində qeyd etdi ki, guya bu orqanın milliləşməsi prosesi 60-cı illərdə başlayıb. Yox, 1953-54-cü illərdə başlandı. Şübhəsiz ki, yenə deyirəm, çox çətinliklə, ağırlıqla. Ancaq 1960-cı ildən ki, ixtisar zamanı o şöbələri birləşdirməyə başladılar, biz çox iş görə bildik. Çox adamlardan, necə deyərlər, canımızı qurtardıq, çox adamlar xaric olundu və bu zaman gənc kadrlar irəliyə çəkildi, azərbaycanlılar rəhbər vəzifələrdə əksəriyyəti təşkil etməyə başladılar.

Ona görə də Azərbaycanın milli təhlükəsizlik orqanının tarixinə müəyyən qədər nəzər salsaq, bax, belədir: 20-30-cu illərdə, 40-cı illərdə bu orqanlarda çox cinayətlər olubdur. Deyə bilərəm ki, təxminən 1953-cü ildən saflaşma, sağlamlaşma prosesi gedibdir və mən də bu prosesin bilavasitə iştirakçısı, son illərdə də təşkilatçısı olmuşam və xoşbəxtəm ki, o vaxtlar bu işləri görə bilmişəm və təxminən 1988-ci ilə qədər Azərbaycanda bu

orqanlar, hesab edirəm ki, düzgün mövqedə [338-339] olublar. Şübhəsiz ki, bu, Sovetlər İttifaqı dövlət təhlükəsizliyi sisteminin bir hissəsi olub, bütün göstərişlər, direktivlər hamısı Moskvadan gəlibdir. Bunlar təbiidir.

Ancaq, eyni zamanda, həqiqət naminə demək lazımdır ki, bu dövrdə, yenə də qeyd edirəm, 1953-cü ildən sonra bu orqanlarda həm kəşfiyyat, həm əks-kəşfiyyat sahəsində, bütün başqa sahələrdə çox gözəl azərbaycanlı kadrlar yetişmişdi, inkişaf etmişdi. Bu orqanlar azərbaycanlılaşmışdı.

Doğrudur, buna baxmayaraq, bizə, azərbaycanlılara etibar etmirdilər. Təsəvvür edin, 1920-ci ildən sonra bir dəfə Mircəfər Bağırov bu orqanın başında olub, – onun da tərcümeyi-halı və Azərbaycan xalqı qarşısında etdiyi cinayətlər sizə məlumdur. Qısa müddət – 1926, 1927, 1928-ci illərdə Novruz Rizayev bu orqana rəhbərlik edibdir. Amma onun başına da sonra çox böyük bəlalar gətiriblər. 1938-ci ildə onu həbs edib öldürüblər. Tarixdən məlumdur – burada oturanların əksəriyyəti gəncdir, bilmirlər – amma mənim xatirimdədir – 1956-cı ildə Mircəfər Bağırov qrupunun məhkəməsi zamanı Novruz Rizayevin istintaq işinin içindən onun Stalinə göndərdiyi bir məktubu çıxmışdı. Bu, çox məşhur məktubdur – o, çox cəsarətli, çox əqidəli bir insan kimi o məktubda 1937-38-ci illərdəki kütləvi repressiyalara qarşı etirazını, hiddətini açıq-aydın bildiribdir. Çox məşhur məktub idi, o vaxtlar bizim mətbuatda da ondan istifadə etdilər. Ona görə də xatirimdədir, mən Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən biz Novruz Rizayevin adını əbədiləşdirdik. Mən onun fəaliyyəti, tərcümeyi-halı ilə tanış oldum. Çox dəyərli bir insan olmuşdur və xalqına çox sədaqətlə xidmət etmişdir.

Ondan sonra bir nəfər də azərbaycanlıya bu orqana rəhbərlik etmək etibar edilməmişdi. Hər millətdən – erməni də, rus da, yəhudi də, gürcü də olmuşdu, amma azərbaycanlı olmamışdı. Mənim işlədiyim dövrü götürürəm. Yemelyanov nazir idi, onu 1953-cü ildə Mircəfər Bağırovla birlikdə çıxartdılar, [339-340] göndərdilər Quskovu. Quskov dörd il işlədi, Kopılov gəldi. Kopılov işlədi, ondan sonra Kardaşov gəldi. Kardaşovdan sonra Sviqun gəldi. Bilirsiniz, bizə etibar etmirdilər.

Sviqun buradan gedərkən mərkəzdə də anlamışdılar, başa düşmüşdülər ki, artıq bu cür siyasət aparmaq olmaz. Xüsusən, – bunu mən qeyd etmək istəyirəm, – Andropov o vaxt Dövlət Təhlükəsizliyi Komitəsinin sədri təyin olunmuşdu və milli siyasət məsələlərini çox yaxşı bilirdi, ona görə də məsələ qoydu ki, artıq Azərbaycanda yerli adam olmalıdır. Yerli adamın olması da, – o vaxt mən burada birinci müavin idim, – problemə döndü. Bizim Azərbaycandan, mənim yanımda işləyən adamlardan bəziləri öz şəxsi məqsədlərinə, şəxsi mənafelərinə görə həmin o Sviqunla birləşib yenə də buraya azərbaycanlı olmayan adamı – Moskvadan, yaxud burada olan bir rusu təyin etməyə cəhd göstərirdilər. Tarixi həqiqət naminə demək lazımdır ki, – mən bunu özümə görə demirəm, ancaq xalqın tarixi naminə deyirəm, – o vaxt, 1967-ci ildə məhz Andropovun bu işə şəxsi münasibəti və həqiqət naminə demək lazımdır ki, o vaxt Azərbaycanda Mərkəzi Komitənin birinci katibi olan Vəli Axundovun bu barədə düzgün mövqeyi nəticəsində – amma başqaları düzgün mövqedə deyildilər, – ilk dəfə azərbaycanlı bu orqanın rəhbərliyinə təyin olundu.

Yəni görürsünüz, bu orqanın tarixi nə qədər ağır, mürəkkəb, nə qədər çətindir. Amma, eyni zamanda, yenə də deyirəm, xüsusən 1953-54-cü illərdən sonra Azərbaycanda dövlət təhlükəsizliyi sistemində çox dəyərli işlər görülmüş, dəyərli kadrlar yetişmiş və bir çox insanların yetişməsi və formalaşmasında bu orqanın çox xidmətləri olmuşdur. Həqiqət naminə demək lazımdır ki, o vaxt milli təhlükəsizlik, yaxud dövlət təhlükəsizliyi orqanı bütün başqa orqanlardan fərqli olaraq, əksərən saf, təmiz, mənəviyyatca yüksək adamlardan ibarət idi. Yəni, 1953-54-cü illərdən sonrakı təmizləmə prosesi zamanı [340-341] yeni gəlmiş kadrlar, nəsil əksərən bunlardan ibarət idi. Bunu həqiqət naminə demək lazımdır.

Ancaq təəssüflər olsun, 1988-ci ildə Azərbaycanın başına bu böyük bəla ki, gəldi, – Dağlıq Qarabağ problemi qalxdı və Azərbaycan o vaxtdan yaralandı, o vaxtdan da Azərbaycanın dövlət təhlükəsizliyi, milli təhlükəsizlik orqanlarında yeni bir faciəli dövr başlandı. Mən çox təəssüf edirəm ki, on illər boyu əziyyətlə yaranmış kadr korpusu, o cümlədən şəxsən mənim əziyyətimlə, zəhmətimlə yaranmış kadr korpusu 1988-ci ildə dağıdılmağa başladı, hərc-mərclik dövrü başladı. Siz təsəvvür edin, mən 25 ildən artıq rəhbər vəzifələrdə, Dövlət Təhlükəsizliyi Nazirliyində işləmişəm, 14 il Azərbaycana rəhbərlik edərək həmişə bu orqanlara himayədarlıq etmişəm, Moskvada 5 ildən artıq işləyərkən yenə də ümumiyyətlə, Azərbaycana, o cümlədən onun bu sahəsinə də himayədarlıq etmişəm.

Ona görə də bu orqanın işində, burada kadrların təlim-tərbiyə, təhsil almasında, böyüməsində, inkişaf etməsində böyük zəhmətlərim olmuşdur. Bu zəhmətlərimə görə mənim üçün çox acı idi, ağır, dəhşətli idi ki, 1988-ci ildən başladılar bu orqanı dağıtmağa. Burada hər şeyi dağıtmağa başladılar. Bu orqan xalqımıza, millətimizə xəyanət etməyə başladı. Bəli, yenidən Moskvanın nümayəndəsini, – Namiq Abbasov dedi, – Qorelovskini buraya gətirdilər. Nə çətinliklə mən özümdən sonra ənənə yaratdım ki, burada azərbaycanlı olsun. Nə çətinliklə! Bu da asanlıqla olmadı. Mən bu vəzifədən respublikanın rəhbəri seçilən zaman, – bu, tarixdir, bu gün bunu da hamı bilməlidir, – baş katib Brejnev mənə dedi ki, bilirsən nə var, sən bu orqanda bilavasitə işlədiyinə görə yaxşı olmaz ki, sənin yerinə yerli adamlardan qoyulsun, lazımdır ki, gərək Moskvadan ora gəlsin, bu, sənin üçün yaxşı olar. O vaxt burada müavin azərbaycanlı qoyulduğuna görə, dərhal birinci müavini Moskvadan təklif etdilər. Mən də Krasilnikovu qəbul etdim, təyin etdim. Ancaq baxmayaraq ki, Krasilnikov da Moskvadan [341-342] gəlmişdi, məni məcbur edirdilər ki, o, Azərbaycanda yaşayan rusdur, gərək buradan,

Moskvadan göndərək. Mən bunun qarşısını aldım. Bir neçə dəfə bu barədə Brejnev, Andropov ilə danışmaq məcburiyyətində oldum ki, bunun qarşısını alım. Dedim, əgər azərbaycanlını qəbul etmirsinizsə, onda gəlin, burada mənim müavinim işləyən rus var, onu qoyaq. Onu da qoyduq, işlədi. Amma ondan sonra mən nail oldum ki, azərbaycanlı təyin edilsin və Yusifzadəni buraya təyin etdim. Amma sonra bunu pozdular, Qorelovskini gətirdilər.

İş bircə bunda deyil. Burada xalqa, millətə qarşı cinayətlər başladı. Qorelovski və ona yaltaqlıq edən, onun ətrafına toplaşan adamlar, onunla birlikdə Azərbaycan xalqına Qarabağ məsələsində məğlubiyyət gətirən adamlar yaranmış bu orqanı dağıtmağa başladılar.

Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyim zaman, bu orqanın başçısı olduğum zaman və ondan sonra Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir tədbir görülməmişdir. Biz heç bir dissident həbs etməmişdik, heç bir zaman heç bir adamı antisovet təbliğat, yaxud millətçi təbliğat üstündə həbs etməmişdik. Amma nə qədər belə təkliflər, belə təzyiqlər var idi. Burada bizim hörmətli şairimiz xatırlatdı, həqiqətdir, – mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirindədir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayəti yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şerlər yazırdı, "Gülüstan" poeması yazmışdı. Ondan ötrü o adamı həbs etmək məsələsini qoymuşdular. [342-343]

Xəlil Rzanı da həbs etmək məsələsini qoymuşdular. Onu da mən qoymadım, xilas etdim. Neçə-neçə belələrini xilas etdim. Əkrəm Əylisli var, çox qeyri-sabit adamdır – bir gün belə danışır, bir gün elə danışır. Ona çox köməklər etmişəm. Həqiqətən çox istedadlı yazıçıdır, ancaq yəqin ki, bu adamın nəyisə çatmır. Bəli, onun həbs olunması haqqında neçə dəfə mənim qarşımda təklif vermişdilər, – mən qoymamışam. Belələrini mən çox deyə bilərəm. Məsələn, mərhum Ziya Bünyadov, bizim böyük alimimiz, akademikimiz. Onlar yığışıb müşavirə keçirmişdilər ki, 150 il bundan qabaq Azərbaycan Rusiyanın tərkibinə könüllü girməyib, Azərbaycanı zəbt ediblər. Bu həqiqətdir. Amma təəssüf ki, o vaxt, 1964-cü ildə qərar çıxmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü daxil olmuşdu və ona görə də Azərbaycan Respublikası Lenin ordeni ilə təltif edilmişdi. Amma bu alimlər tarixi araşdırma, yəni elmi bir iş aparırdılar. Buna görə onların, xüsusən Ziya Bünyadovun başına nə işlər gətirmək istəyirdilər! Mən bunların hamısının qarşısını almışdım.

Belə faktları çox gətirə bilərəm. Faktlar da gətirə bilərəm ki, Azərbaycanda dissidentlər də olmayıbdır. Bir halda ki, mən konkret söhbət aparıram, Əbülfəz Elçibəy də 1975-ci ildə, 1976-cı ildə həbs olunmuşdu. Mən bilən kimi ki, Əbülfəz Elçibəy həbs edilib, məhkum olunubdur, göstəriş verdim və azad etdirdim. Onu mən azad etdirmişəm, mənim göstərişimlə azad olunubdur. Əbülfəz Elçibəyə bu gün kim necə münasibət göstərirsə, bu, əhəmiyyətli deyil, o vaxt onun həbs olunması üçün heç bir əsas yox idi. Sadəcə, onun bəzi məsuliyyətsiz danışıqları olmuşdu. İndi də elə bəzən çox məsuliyyətsiz danışır. Bir neçə dəfə belə məsuliyyətsiz danışıqları olmuşdu, universitetdən, ya akademiyadan öz dostları KQB-yə danos vermişdilər, yazmışdılar ki, o, belə təbliğat aparır, filan edir. Buna görə də onu həbs etmişdilər. Mən bunu bilən kimi sərəncam verdim. Şübhəsiz, həbsdən azad olunmağına sərəncam vermirdim, – [343-344] bunu düzgün başa düşün, – ancaq mən respublikanın başçısı idim, belə bir qərarın qəbul olunmasını təmin edə bildim, onun həbsdən azad olunması barədə qərar verilməsini təmin etdim.

70-ci illərdə başqa yerlərdə çox dəbdə idi, qiymətləndirilirdi ki, KQB bir dissident tapıbdır. Amma biz qoymadıq ki, burada bir dissident olsun. Bizdə də həvəskarlar, bunu etmək istəyənlər var idi. Yəqin ki, çoxlarının xatirindədir, mən Təhlükəsizlik Komitəsinin sədri olarkən bizim gənc kinematoqrafçılarımız Rüstəm İbrahimbəyov və Eldar Quliyev "Bir cənub şəhərində" filmi yaratmışdılar. Bu filmi qadağan eləmişdilər – o vaxtkı Mərkəzi Komitə də, başqa orqanlar da, Moskva da qadağan eləmişdi. Onların xatirindədir, mən Təhlükəsizlik Komitəsinin sədri kimi vəzifəni öz üzərimə götürdüm, getdim kinostudiyaya, filmə baxdım, gördüm ki, çox yaxşı bir filmdir, o vaxtkı nöqsanlarımızı çox açıq-aydın göstərən filmdir, bizim cəmiyyətdə olan qüsurları göstərən filmdir. Mərkəzi Komitəyə də, Moskvaya da nəinki xəbər verdim, təklif verdim, hətta tələb etdim ki, bu filmin nümayiş etdirilməsinə icazə verilsin. Bu film o vaxtdan həyat vəsiqəsi aldı və çox böyük də hörmət qazandı.

Yəni KQB-də işləyərək günahsız insanları da cəzalandırmaq olardı, ancaq bu cür işlər görüb xalqı, milləti, milli mənafeni qorumaq da olardı. Mən isə orada işlədiyim bütün dövrdə bu milli mənafeni qoruyub saxlamışam və çoxları da belə olublar. Təəssüflər olsun ki, 1988-ci ildə bax, həmin bu binada çox yaramaz adamlar da, xəyanətkarlar, satqınlar da meydana çıxdılar. Bəli, Qarabağ hadisələrinin baş verməsində Azərbaycanın o vaxtkı dövlət təhlükəsizliyi orqanlarının günahı var. Namiq Abbasov burada dedi ki, o vaxt getdi Kamran Bağırova məlumat verdi, ancaq məlumata fikir vermədilər. Amma iş təkcə bununla qurtarmırdı.

Dağlıq Qarabağ problemi çətin problem idi. Mən burada işlədiyim dövrdə – Dövlət Təhlükəsizliyi Komitəsində də, res[344-345]publikanın başçısı olanda da bu problemi daim diqqət mərkəzində saxlayırdım. Biz orada gedən proseslərə nəzarət edirdik və imkan vermirdik ki, ayrı-ayrı separatçı qüvvələr baş qaldırsın,

yaxud bir iş görsün. Dağlıq Qarabağda da çox sağlam əhval-ruhiyyə vardı. Nəinki mən, bizim nə qədər yazıçılar, şairlər, alimlər dəfələrlə Dağlıq Qarabağa getmişdik. Xankəndində də, Şuşada da, başqa rayonlarda da, kolxozlarda, sovxozlarda da nə qədər olmuşuq, nə qədər işlər görmüşük. Dağlıq Qarabağın inkişafı üçün nə qədər zəhmət çəkmişik, nə qədər səylər qoymuşuq. Bunu orada yaşayan ermənilər də yaxşı bilirdilər.

Ancaq təəssüflər olsun ki, həmin o millətçi, separatçı qüvvələr baş qaldıran kimi, Moskvadan havadarları onlara kömək edən kimi, buradan, bizim içərimizdən də adamlar tapıldı ki, – o cümlədən həmin o yaramaz Vəzirov və onun ətrafında olan adamlar, təəssüf ki, bəzən bizim ziyalılar, jurnalistlər də, – guya Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zaman Dağlıq Qarabağa lazımi diqqət göstərilmədiyinə görə oranın sosial inkişafı, iqtisadi vəziyyəti ağır olub və Dağlıq Qarabağ Azərbaycanın başqa məntəqələrindən geri qalıb, – deyirdilər. Ona görə də bir qrup erməni Dağlıq Qarabağın ayrılıb Ermənistana verilməsini tələb edirdi. Bu, ermənilərin, Moskvanın nəzəriyyəsi idi. Amma təəssüflər olsun ki, bu nəzəriyyəni burada həyata keçirənlər də var idi – Vəzirov və bu binada oturan, vaxtilə mənim himayəm, rəhbərliyim altında çox vəzifələr almış, çox işlər görmüş satqın adamlar. Bu da tarixi həqiqətdir.

Ona görə də 1988-ci ildən Azərbaycanın milli təhlükəsizlik orqanında çox acınacaqlı, çox dəhşətli proseslər getdi. Burada yaranmış bütün potensial, mənəviyyat, yaranmış milli ruh dağıdılmağa başladı. Xatirinizdə deyilmi, 1988-ci ildə Moskvadan buraya kadrlar gətirirdilər. Bunu elə Yusifzadənin vaxtında da gətirirdilər. Artıq 1985-ci ildən başlayaraq, buraya [345-346] Rusiyanın müxtəlif yerlərindən kadrlar gətirirdilər ki, rus kadrları azalıbdır. Yusifzadənin xatirindədir, elədirmi?

**Ziya Yusifzadə** (yerdən): Kadr mübadiləsi adı ilə gətirirdilər.

**Heydər Əliyev:** Bəli-bəli, gətirirdilər. Biz təmizlədik, azərbaycanlılaşdırdıq, milliləşdirdik, mən buradan gedəndən sonra fürsətdən istifadə edib başqa yerlərdən adamlar gətirməyə başladılar. Burada kadrların tərkibinin ən güclü şəkildə dəyişdirilməsinə 1988-ci ildən başladılar. Həmin o Qorelevski Vəzirovla və onları əhatə edən yaramaz insanlarla birlikdə burada yaranmış böyük potensialı dağıtmağa başladılar.

Bilirsiniz, hər bir insan, kadr yetişdirmək böyük vaxt, böyük zəhmət tələb edir. Mən burada, Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyim zaman da, – bu dövrün hamısını, demək olar, rəhbər işlərdə çalışmışam, həyatım belə olub ki, ən gənc vaxtlarımdan rəhbər vəzifələrdə işləmişəm, Dövlət Komitəsinin sədrinə qədər aşağı vəzifələrdə də, Azərbaycanın rəhbəri olduğum zaman da çalışmışam ki, milli kadrlar yetişdirək. Bir tək burada deyil, mən bunu hər yerdə edirdim. Amma burada xüsusilə. Məsələn, Kənd Təsərrüfatı Nazirliyində bunu etməyə o qədər də ehtiyac yox idi, çünki orada əksəriyyət bizim milli kadrlar idi. Yaxud Ticarət Nazirliyində buna böyük ehtiyac yox idi. Amma bura on illərlə, 1920-ci ildən Moskvanın əli altında olduğuna və azərbaycanlılara etimad göstərilmədiyinə görə, – mən bunu, bu tarixi bilirdim, bunlar hamısı gözümüzün qabağında olan şeylərdir, – milli kadrların yetişməsinə çalışırdım. Ancaq 1985-ci ildən sonra buraya kadr göndərməyə başladılar. Yusifzadə deyir ki, kadr mübadiləsi adı altında göndərirdilər. 1988-ci ildən sonra isə bura tamam zibillənməyə başladı.

Mən hesab edirəm ki, Azərbaycanın təhlükəsizlik orqanı sistemində olan bu dövr 37-38-ci illərə bərabər bir dövrdür. Çünki bu dövrdə bizim xalqımıza qarşı repressiyalar başladı. [346-347] Nəyə görə bu insanları repressiya etmək lazım idi? Axı onlar Qarabağdakı ədalətsizliyə qarşı çıxış edirdilər. Niyə onları həbs etmək lazım idi? Niyə onların dalınca işlər görmək lazım idi? Onlar Moskvanın ədalətsizliyinə qarşı etiraz edirdilər, çıxışlar, mitinqlər edirdilər. Nə üçün onların əleyhinə iş görmək lazım idi? O vaxtkı Təhlükəsizlik Komitəsinin bütün işləri bu məsələyə səfərbər olundu. Deyə bilərəm ki, 1988-ci ildən ta 1993-cü ilə qədər, 1993-94-cü illər də çox böhranlı illər olub.

Çox təəssüflər olsun, mən çox böyük təəssüf hissi keçirirəm. Çünki yenə də deyirəm, burada mənim xüsusi zəhmətim olmuşdu. Bu binanın tikilməsi haqqında Abbasov dedi. Bəli, bu, böyük bir memarlıq abidəsidir, Bakı şəhərini gözəlləşdirən binadır və Azərbaycan xalqına bundan sonra əsrlər boyu xidmət edəcəkdir. Bəli, mən bu binanın tikilməsinin təşəbbüskarıyam və buna bilavasitə rəhbərlik etmişəm. Hələ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olarkən belə bir binanın tikilməsi təklifini irəli sürmüşdüm. Çünki dəniz kənarında yerləşən bina köhnə bir bina idi. Yeni bir binanın tikilməsi təklifini irəli sürmüşdüm, amma o vaxt bunu edə bilmirdim, çünki vəsait, başqa şeylər lazım idi. Respublikaya rəhbər keçəndən sonra bu binanın tikilməsi, eyni zamanda indi Prezident sarayı adlanan binanın tikilməsi məsələsini ortaya atdım.

Ancaq mən o vaxt çalışırdım ki, əvvəl iqtisadi məsələlərə xidmət edən binalar, yəni zavodlar, fabriklər, elektrik stansiyaları, metro stansiyaları, yaxud da ki, yaşayış binaları tikilsin ki, insanlar yaşasınlar. Böyük-böyük mikrorayonlar, qəsəbələr salındı. Ancaq bununla yanaşı, bu iki binanın da tikilməsi mənim qarşımda duran məqsəd idi. Məqsədimə də nail oldum. indi gəlmişəm, girmişəm bu binaya – yer mərmər, divarlar mərmər, bina belə gözəldir, böyük, monumental bir binadır, memarlıq abidəsidir, əsrlər boyu yaşayacaqdır. Bu, mənim xidmətimdir, mən bununla fəxr edirəm. [347-348]

Amma, eyni zamanda ürəyim ağrıyır. Ona görə ki, bu binanın özünü də bərbad vəziyyətə salmışdılar, burada yetişdirdiyimiz kadrları da dağıtdılar, kadrların mənəviyyatını da pozdular və bu binanın içində Azərbaycanın milli mənafeyinə zidd olan tədbirlər də həyata keçirildi. Dəhşətlisi budur ki, o cümlədən, şəxsən mənim əleyhimə tədbirlər də bu binadan keçirildi. Bunu yaradan, quran, bu orqanı ayaq üstə qoyan,

milliləşdirən, bu günə gətirən adamın əleyhinə buradan tədbirlər keçirilməyə başlandı. Mən Moskvada yaşayarkən də buradan mənim əleyhimə tədbirlər keçirilirdi. 1990-cı ildə, yanvar hadisələrindən sonra mən gəldim, burada qısa müddət yaşadım, onda da burada mənim əleyhimə tədbirlər keçirilirdi. Getdim Naxçıvanda yaşadım, orada da mənim əleyhimə tədbirlər keçirilirdi. Naxçıvandan deputat seçildim, 1991-ci ilin fevralında gəldim buraya. Buradakı qüvvələr dəhşətə düşmüşdü. Buradakı qüvvələr azmış kimi, Moskvadan da on beş nəfər cürbəcür peşə sahibi – KQB işçiləri gətirmişdilər ki, mənim ətrafımda müşahidə aparsınlar, məni izləsinlər, danışıqlarımı uzaq məsafədən yazsınlar. Mənim əleyhimə bu işlər gedirdi, bəli, gedirdi.

Mən indi hamını bağışlamışam, o cümlədən o adamları da bağışlamışam. O adi, sıravi işçilərin günahı yoxdur, günah onlarda deyil. Çünki onlar icraçıdırlar, nizam-intizama tabedirlər, verilən göstərişləri icra etməlidirlər. Əgər Heydər Əliyevin telefonuna qulaq asmaq lazımdısa, onlar qulaq asmalı idilər. Yaxud Heydər Əliyevin dalınca gedib izləmək lazım idisə ki, Heydər Əliyev küçədə kiminlə görüşdü, onu etməli idilər, Heydər Əliyevin evində danışıqlarına qulaq asmaq lazımdırsa, onu etməli idilər. Bunların heç birisinə qarşı iddiam yoxdur, onlarda heç bir günah görmürəm. Bunu təşkil edənlər, göstəriş verənlər günahkardırlar, onlar cəzalanmalıdırlar.

Yenə də deyirəm, mən hamını bağışlamışam. Günahkarları da, günahkar olmayanları da bağışlamışam. Mənə sədaqətsiz, [348-349] vəfasız çıxanları da, o cümlədən bu orqanda böyütdüyüm, yetişdirdiyim, böyük-böyük vəzifələrə gətirdiyim adamlardan vəfasız adamlar da çıxdı, – onları da bağışlamışam. Hamısını bağışlamışam. Ancaq bu da tarixi həqiqətdir.

Şübhəsiz ki, bu illərdə, yenə də deyirəm, bu orqanın işlərinə zərbələr vuruldu, o dağıdıldı. Təsadüfi deyil ki, – təsəvvür edin, bunu da yəqin bilirsiniz, – 1991-ci ilin axırında mən Naxçıvanda parlamentin, Ali Məclisin sədri olarkən Naxçıvan Dövlət Təhlükəsizliyi Komitəsinin işinin dayandırılması və o komitənin bağlanması haqqında qərar qəbul etdim. Bunu da mən etmişəm, mən qərar qəbul etdim. Nə üçün qərar qəbul etdim? Baxmayaraq ki, bu, vaxtilə mənim üçün doğma bir orqan olubdur və bu orqanda işlədiyim dövrdə çox böyük təcrübə yolu keçmişəm, böyük təhsil almışam. Mən o illərə və bu orqanda işlədiyim dövrə daim minnətdaram. Hər şeyi olduğu kimi deyirəm. Ancaq bu orqan ki, burada da, Naxçıvanda da bizim millətimizin əleyhinə işləməyə başlamışdı, ona görə də mən qərar qəbul etdim, onu bağladıq. O vaxt Mütəllibov burada hakimiyyətdə idi, – çox hay-küy saldılar, amma heç bir şey edə bilmədilər. Nə edə biləcəkdilər? Naxçıvan muxtar respublika idi, mən də qərar qəbul etdim, bağladım.

Mütəllibov hakimiyyətdən gedəndən, Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra biz qərar qəbul etdik, bu orqanı açdıq. Amma təəssüflər olsun ki, onlar da o birilərdən betər oldular. Namiq Abbasov xüsusən son illərdə bu orqanın işinə vurulan zərbələr haqqında çox danışdı. Tamamilə düzdür. 1991, 1992, 1993-cü illərdə də çox böyük zərbələr vuruldu. 1994-cü ildə dövlət çevrilişi cəhdi ərəfəsində burada təcridxanadan məhbusların qaçırılması dövründə də böyük zərbələr vuruldu. Bunun bir hissəsi Mütəllibovun və onun hakimiyyəti vaxtı işləyən adamların günahıdır, bir hissəsi Xalq Cəbhəsinin hakimiyyəti vaxtı olan adamların günahıdır, o biri hissəsi isə bizim dövrümüzdə – 1993-1994-cü illərdə buraya təyin etdiyimiz [349-350] Nəriman İmranovun və onu idarə edən Surət Hüseynovun günahıdır. Bunlar da bizim tariximizin həqiqətləridir, bunları da inkar etməməliyik, açıq-aydın deməliyik.

Burada Sülhəddin Əkbərov haqqında danışdılar. Xatirimdədir, 1991-ci il sentyabrın əvvəli idi. Naxçıvanda xalq ayağa qalxıb Kommunist Partiyasını ləğv edəndən sonra bir neçə gün mitinqlər getdi və tələb etdilər ki, mən Naxçıvanda Ali Məclisin sədri vəzifəsini qəbul edim. Vəziyyəti və xalqın tələbini nəzərə alaraq, mən bu vəzifəni öz üzərimə götürdüm. Amma ondan bir neçə gün sonra həmin o Sülhəddin Əkbərov mənim yanıma gəldi ki, siz məni Naxçıvanda Dövlət Təhlükəsizliyi Komitəsinə sədr təyin edin, burada sizə yaxşı xidmət edəcəyəm. Dedim ki, bilirsən, burada hələ başım qarışıqdır, o qədər iş var ki, onunla məşğul olmağa vaxtım yoxdur. Bir də ki, bilirsiniz, Mütəllibovun prezident seçilməsini Naxçıvan Muxtar Respublikasında qadağan etmişdik. Naxçıvana qarşı böyük bir desant göndərilmişdi, KQB orada bizim əleyhimizə işləyirdi. Ona görə mən orada yeni bir KQB sədri qoymaq imkanında deyildim. Hələ ki, vəziyyəti müəyyən qədər araşdırmalı idim. Ancaq o, bir neçə dəfə belə təkliflə mənim yanıma gəldi. Sonra isə Xalq Cəbhəsi hakimiyyətə gələn kimi burada birinci müavin vəzifəsində oturdu və Namiq Abbasovun dediyi kimi, bütün hakimiyyəti əlinə aldı.

Bunlar hamısı tarixin səhvləridir. Nə etməli, bizim başımıza belə bəlalar gəlibdir. Ancaq şükürlər olsun ki, bunlar hamısı geridə qalıbdır və indi biz yeni bir mərhələ, yeni dövr yaşayırıq.

Bəli, 1993-cü il iyunun 9-da mən Bakıya gələndə Azərbaycanın ölüm-dirim məsələsi həll olunurdu. Mən buraya dəvət edilərkən, Naxçıvandan gəlmək istəmirdim – bu, məlumdur. Dörd gün – iyunun 5-dən 9-na qədər mənimlə danışıqlar getdi ki, buraya gəlim. Mən gəlmək istəmirdim. İyunun 9-da mən buraya vəzifə almaq üçün gəlmədim, gəldim ki, görüm [350-351] vəziyyət necədir, nə edə bilərəm ki, burada vəziyyəti yüngülləşdirim.

Ondan sonrakı hadisələr sizə məlumdur, bir daha xatırlatmağa ehtiyac yoxdur. Ancaq Azərbaycanda həddindən artıq böhranlı vəziyyət idi. Biz belə bir böhranlı vəziyyətdən çıxdıq. Belə vəziyyətdən çıxarkən, şübhəsiz ki, Nəriman İmranov kimi adamı da buraya təyin etmək məcburiyyətində olduq. Təyin etdik. Amma mən heç də düşünmürdüm ki, o, bu qədər xəyanət edə bilər. Çünki o, keçmişdə də burada işləmişdi, bu orqanın kadrı idi, burada müəyyən hazırlıq keçmişdi. Ancaq xəyanət etdi, cəzasını aldı. Bilirsiniz, bizim bu orqanın

tarixində görünməmiş hadisə idi ki, dövləti cinayət etmiş adamlar KQB-nin daxili təcridxanasından gizli çıxarılsın və heç kəsin də xəbəri olmasın. Bundan artıq xəyanət ola bilməzdi. Bu xəyanət edildi, xalqa qarşı xəyanət edildi və bu, biz ilk neft müqaviləsini imzalayanın sabahısı gün edildi – məhz Azərbaycanı yaralamaq, pozmaq üçün. Onun dalınca Şəmsi Rəhimovun və Afiyəddin Cəlilovun qətlə yetirilməsi, onun dalınca oktyabrın 2-də prokurorluğun XTPD tərəfindən zəbt olunması, oktyabrın 4-də dövlət çevrilişi cəhdinin başlanması. Görün Azərbaycanın başına nə bəlalar gəldi!

Əgər o vaxtlar burada bizim sağlam kollektivimiz, işçilərimiz olsaydı, şübhəsiz ki, bu hadisələrin çoxunu əvvəldən görüb qarşısını ala bilərdik. Ancaq ona baxmayaraq, xalqın dayağı, köməyi ilə biz bunların hamısının öhdəsindən gəldik. Sonra görülən işlər nəticəsində, – mən bunu qiymətləndirməsəm, günahları da deyirəm, nailiyyətləri də, – Daxili İşlər Nazirliyinin apardığı işlər nəticəsində, Milli Təhlükəsizlik Nazirliyinin, prokurorluğun apardıqları işlər nəticəsində cinayətkarların əksəriyyətini, uzaq yerlərdən tutub gətirmişik. Buradan qaçmış Rəhim Qazıyev də tutuldu, gətirildi. Bunların qaçırılmasını təşkil edən Surət Hüseynov da tutuldu, gətirildi. Əlikram Hümbətov da tutuldu, gətirildi. Hamısı tutuldu, gəti[351-352]rildi. Bir neçəsi tutulmayıb, onlar da öz cəzalarını alacaqlar. Xəyanət edən adam mütləq cəzasını alacaq, almalıdır.

Deyə bilərəm ki, 1994-cü ildən sonra Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin həyatının yeni mərhələsi başlayıbdır. Bu mərhələ də o qədər rəvan getmir, o qədər hamar deyil – çətinliklər çoxdur. Amma şəxsən məni qane və məmnun edən odur ki, burada, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyində ardıcıl olaraq nizam-intizam yaranır, işçilər öz məsuliyyətlərini başa düşür, rəhbərlik öz məsuliyyətini dərk edir, sağlam əhval-ruhiyyə, sağlam mühit yaranır. Bu, çox təqdirəlayiq haldır. Çünki bu qədər çətinliklərdən keçib gələn Milli Təhlükəsizlik Nazirliyi indi yenidən dirçəlir. Bir də deyirəm, 1985-ci ildən nazirliyin başına bu bəlaları gətirməyə başladılar, 1988-ci ildən burada böhran başlayıb ta 1994-cü ilin qışına qədər davam edib. 1995, 1996 və 1997-ci illərdə burada sağlamlaşma prosesi gedir və gedəcəkdir. Mən buna əminəm. Çünki niyə? Nə üçün, məsələn, 1985-ci ildə bu orqanda laxlama başladı, 1988-ci ildə bu dəhşətlər başladı? Bu, şübhəsiz ki, burada işləyən adamların da günahıdır, onların rəhbərlərinin də günahıdır. Ancaq respublikanın başında olanların günahı bundan çoxdur. Respublikanın başında duranlar nə cür istiqamət verirsə, nə cür rəhbərlik edirsə, işlər də o cür gedir. Məsələn, siz dəhşətlənirsiniz ki, 1991, 1992, 1993-cü illərdə burada dəhşətli vəziyyət vardı. Mən də dəhşətlənirəm. Amma dəhşətlənmək lazım deyil, respublikanın özündə vəziyyət necə idi? Respublikada hərc-mərclik, özbaşınalıq, dağıdıcı proseslər yuxarıdan aşağıya gedirdi.

Mən hesab edirəm, bu, müqəddəs binadır. Biz işlədiyimiz vaxt bu binaya – Təhlükəsizlik Komitəsinin binasına kənar adam daxil ola bilməzdi. Lazım olsa, ən mötəbər adamlar xüsusi buraxılış vərəqəsi ilə gələ bilərdilər. Ancaq bu binanı bazara döndərdilər. Əgər bazarkomlar, mafiozlar, cinayətkarlar, "Qardaşlıq" cəmiyyətinin başçısından başlamış, nə bilim, [352-353] bazarkoma qədər, mafioz, cinayətkar qrupların başçılarına qədər bu binaya gəlib kabinetlərdə, o cümlədən nazirin kabinetində hökm edirdilərsə, bu orqanda işləyən adamlardan nə gözləmək olardı? Adi, sıravi işçilərdən nə gözləmək, nə tələb etmək olardı?

Dəhşətlisi budur. Dəhşətlisi odur ki, Əjdər Xanbabayevin qətlə yetirilməsi, terror planı məhz burada qurulmuşdu. Bəli, siz, köhnə işçilərdən olanlar da bilirsiniz. Əjdər Xanbabayev buradan mənimlə Moskvada əlaqə saxladığına görə onun telefonları nəzarətdə idi. Danışıqlarının hamısı yazılır və buranın rəhbərliyinə, respublikanın rəhbərliyinə təqdim olunurdu. Onun mənimlə danışıqlarının hamısı yazılırdı. Moskvada da mənim danışıqlarım yazılırdı, amma burada da yazılırdı.

Allaha şükür olsun ki, bizim orqanlar – prokurorluq, Daxili İşlər Nazirliyi, – hamısı yığışıb bu cinayəti açdılar. Cinayətkarlar, onu bilavasitə öldürən adamlar həbs olundular, cəzalandılar. Amma siz bunu təşkil edən adamları aşkara çıxarmadınız. Bunu təşkil edənlər KQB-də rəhbər vəzifədə işləyən adamlar idi, respublikanın başında duran adamlar idi. Seyfəl Babayevin nə işi vardı ki, gedib Əjdər Xanbabayevi öldürsün? Yaxud da adları yadımdan çıxıb, – Tarix, bir də Tofiqdir, nədir, – onların nə dərdi vardı ki, gedib Əjdər Xanbabayevi öldürsünlər? Onların nə işlərinə qalmışdı, nə dərdinə qalmışdı ki, belə cinayət etsinlər?

Onu niyə öldürdülər? Bu, məlumdur, mən bunu dəfələrlə demişəm. Mən Moskvadan buraya gəlmək istəyirdim, qarşımı alırdılar – bir dəfə, iki dəfə, üç dəfə... Bir çox dəfələrdən sonra axırda birtəhər təyyarə bileti aldım. Mən xəlvəti xəbər verdim ki, filan vaxt, filan reyslə gəlirəm, heç olmasa, gəlsinlər, aeroportdan şəhərə gəlməyə bir maşın olsun. Bunu mənim qardaşım ona demişdi. O da sadəlövhlüyündən, ürəyiaçıqlığından gedib bir çox şairlərə, yazıçılara, başqalarına, – hamısına demişdi ki, Heydər Əliyev gəlir, onu qarşılamaq lazımdır. Səhv [353-354] etmişdi, burada da adamlar başlamışdılar ki, gedək, Heydər Əliyevi qarşılayaq.

İkinci tərəfdən də o, üç-dörd dəfə mənimlə telefon əlaqəsi saxladı. Mənə də müraciət etdi ki, biz gələcəyik, qarşılayacağıq. Mən xahiş etdim, dedim, səndən rica edirəm, etmə bunu, nə sənə, nə mənə lazım deyil. Mənə sadəcə bir avtomaşın lazımdır ki, aeroportdan şəhərə gələ biləm, başqa şey lazım deyil. Mən hazırlaşmışdım ki, iki gündən sonra gəlim. Vurulan axşamın sabahısı günü mənim oğlum buraya gəlməli idi. Axşam zəng elədim xəbər verim ki, oğlum buraya gəlir, onu qarşılasınlar. Gecə saat on iki, ya bir idi, mənə dedilər ki, axşam Xanbabayevi öldürdülər. Nə üçün öldürdülər, – bunların hamısı, hər şey istintaqsız, yoxlamasız məlumdur. Bunu buradan təşkil etdilər. Çünki telefonlara qulaq asanlar da, Əjdər Xanbabayevi izləyənlər də, onu izləyib Poluxin küçəsində öldürülməsini təşkil edənlər də buradan idilər.

İndi görün, nə qədər dəhşətli hadisələr baş verirdi. Gəncliyimi həsr etdiyim, nə qədər kadrlar yetişdirdiyim bir yerdən, ocaqdan, binadan mənə qarşı və respublikanın yararlı, dəyərli insanlarına qarşı bu cür terror aktları hazırlayırdılar. Mənim özümə qarşı da terror aktı hazırlanırdı. Bu da buradan hazırlanırdı, mən bilirdim.

Ancaq yenə də deyirəm, sevindirici hal odur ki, bunlar geridə qalıb, biz bunları ötüb keçmişik. Bütün o cinayətkarlar ya öz cəzalarını alıblar, ya da alacaqlar. Həyat sübut etdi ki, onlar xalqa xəyanət edirlər. Tarix bunu sübut etdi, xalq öz sözünü dedi və müstəqil Azərbaycan Respublikası özünün yeni dövrünü yaşayır.

Sizin təşkilatınız da öz yeni dövrünü, demək olar ki, 1995-ci ilin əvvəlindən yaşamağa başlayıbdır. Mən bir də qeyd edirəm ki, 1995, 1996 və 1997-ci illərdə sizin orqanın potensialı, işiniz artıq görünür. Gördüyünüz bir çox işlər yüksək qiymət alıb və mən bu gün bunu bir daha qeyd edirəm. Xüsusən metro part[354-355]layışlarının açılması. Doğrudur, sizin borcunuz o idi ki, bu partlayışlara yol verməyəydiniz. Amma mən bilirəm ki, partlayışlar olan vaxt bu təşkilat, sizin nazirlik nə vəziyyətdə idi. Amma yol veriləndən sonra onların açılması da böyük nailiyyətdir. Mən hesab edirəm, sizin gördüyünüz çox ağır, zəhmətli işin nəticəsidir ki, bunlar açıldı, cinayətkarlar tapıldı, məlum oldu.

Yaxud, başqa separatçı qüvvələrin açılması, tapılması. Yaxud, Azərbaycanın siyasətinə zidd olan insanların ifşa edilməsi, məhkum olunması. Xüsusən Azərbaycanda dövlət çevrilişinə cəhd göstərmək istəyən ayrı-ayrı şəxslərin, Moskvada oturub burada, bu işləri istiqamətləndirən adamların tapılması, həbs edilməsi. Böyük bir qrup həbs olunub, istintaq gedir. Məndə olan məlumatlara görə istintaq da normal gedir və öz nəticəsini verəcəkdir. Bunlar hamısı onu göstərir ki, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi artıq dirçəlib, formalaşıb, öz gücünü toplayıb və həqiqətən müstəqil Azərbaycan Respublikasının dövlət təhlükəsizliyini təmin etməyə, qorumağa qadirdir.

Ancaq eyni zamanda sizin qarşınızda hələ çox böyük vəzifələr var. Birinci vəzifə ondan ibarətdir ki, sovet dövründə də, müstəqillik dövründə də bu orqanda buraxılmış səhvlər bundan sonra bir daha buraxılmasın. Sizin ən əsas məqsədiniz ondan ibarətdir ki, heç bir vətəndaşa qarşı ədalətsiz hərəkət edilməsin. Hər bir vətəndaşın hüquqlarının qorunması bizim dövlətimizin və prezident kimi mənim əsas vəzifəmdir. Bu vəzifənin də böyük bir hissəsini siz həyata keçirməlisiniz. İnsanların hüquqlarının qorunması, təhlükəsizliyinin təmin olunması, təkcə dövlətin yox, cəmiyyətin, xalqımızın da təhlükəsizliyinin təmin edilməsi sizin vəzifənizdir.

Ona görə də bir tərəfdən siz çox ciddi, cəsarətli tədbirlər görməlisiniz, ikinci tərəfdən, keçmişdə buraxılan səhvlərin heç birisini buraxmamalısınız. Yenə də deyirəm, gərək heç kəs [355-356] ədalətsiz olaraq heç bir məhrumiyyətə məruz qalmasın, heç kəsin hüququ tapdalanmasın, heç kəsin mənliyinə toxunulmasın, hər kəsin vətəndaş ləyaqəti qorunub saxlanılsın. Bu bizim cəmiyyətimizin, dövlətimizin vəzifəsidir. Bunun da icraçılarından biri, ən böyüyü sizsiniz, siz bunu həyata keçirməlisiniz.

Bizdə fikir azadlığı var, – kim nə istəyir danışır, – söz azadlığı var. Ona görə keçmişdə olduğu kimi, nə bilim, "antisovet təbliğat", filan-beşməkan, yaxud indi deyək ki, anti-dövlət təbliğatı – bunların heç biri cinayət deyildir və heç biri cinayət kimi qiymətləndirilməməlidir, siz belə işlərlə məşğul olmamalısınız. Siz həqiqətən dövləti sarsıtmaq, dövlətin qanunlarını pozmaq işinə mane olmaq istəyən, yaxud cəhd göstərən qüvvələrin işi ilə məşğul olmalı, onların fəaliyyətini öyrənməli və bu barədə məlumatlar verməlisiniz. Terrorçuları meydana çıxarmalısınız. Terrorizm dünyada hər yerdə pislənən bir haldır. Azərbaycanda tarixdə terrorizm olmamışdır. 37-38-ci illərdə Azərbaycanda dövlət terrorizmi olmuşdu, amma Azərbaycanda sovet hakimiyyəti vaxtında ayrı-ayrı şəxslər tərəfindən bir dəfə də terrorizm olmamışdı. Terrorizm, bax, bu son illərdə – 90-cı ildə və sonrakı illərdə baş verdi. Bunlar aradan götürülməlidir. İnsanların həyatına sui-qəsd edən qruplar, dəstələr, nə bilim, reketlər, silahlı dəstələr – bunların qarşısı alınmalıdır. Çünki bunlar həm cəmiyyətə qarşı, həm dövlətə, həm də xalqa qarşı cinayət edirlər. Bunların qarşısı alınmalıdır.

Siyasi partiyalar sərbəstdir, hərə öz fəaliyyətini açıq-aydın aparır və milli təhlükəsizlik orqanları bunların fəaliyyətinə toxunmamalıdır. Ancaq kimsə silah işlətməyə çalışırsa, terror etmək istəyirsə, kimsə silahlı dəstə yaratmaq, silah yolu ilə yenə hakimiyyətə gəlmək istəyirsə, hansı partiyaya mənsubluğundan, kimliyindən asılı olmayaraq o adamlar aşkara çıxarılmalı, onların haqqında qanun çərçivəsində ölçü götürülməlidir. [356-357]

Ona görə də mən bu gün bu fürsətdən istifadə edərək 1988-ci ildən etibarən silah gücü ilə, terrorizm yolu ilə hakimiyyət əldə etmək cəhdləri etmiş adamlara bir daha xəbərdarlıq edirəm: onların heç birisinə heç bir şey bağışlanmayacaqdır. Siyasi fəaliyyət heç vaxt silahla, güc ilə, zorakılıqla bir araya gələ bilməz. Siyasi fəaliyyət beynəlxalq hüquq normaları, konstitusiyamız çərçivəsində, Azərbaycanın hüquq normaları çərçivəsində aparılmalıdır. Kimsə bu çərçivədən çıxırsa, qoy özündən incisin, onlar bağışlanmayacaqlar. Ona görə də mən sizi də xəbərdar edirəm ki, öz həddinizi aşmayasınız və heç kəsin haqqında qanunsuz heç bir tədbir görməyəsiniz.

Köhnə əhval-ruhiyyə ilə yaşayan adamları da xəbərdar edirəm, onlar da bilsinlər ki, o dövrlər keçdi. Biz o dövrlərin bərpa olunmasına heç vaxt yol verə bilmərik. Bu, xalqımızın bədbəxtliyi, bəlası idi. 1993-cü ildə hakimiyyətin başına gəlmiş bəla özünün günahından gəlmişdi. Çünki hakimiyyətdə olan adamlar özləri silahlı dəstələr yaratmışdılar, özləri silah işlədərək hakimiyyətə gəlmişdilər, silah gücü ilə cürbəcür işlər görmüşdülər. Ona görə də o silah onların əleyhinə çevrildi. Onlar özləri özlərini günahlandırmalıdırlar. Mən silah işlədən adamlara heç vaxt bəraət qazandırmıram. Ancaq kimin günahı haradadır, sadəcə olaraq onu demək istəyirəm.

Ona görə hamı bilməlidir: biz cəmiyyətimizdə bu sabit şəraitdə, sərbəst, azad şəraitdə, rahat yaşayan insanları bundan sonra bir daha ayrı-ayrı cinayətkarların pəncəsi altına verə bilmərik. Yaranmış ictimai-siyasi sabitliyi və əmin-amanlığı qorumalı, saxlamalı və möhkəmləndirməliyik. Həm Milli Təhlükəsizlik Nazirliyi, həm Daxili İşlər Nazirliyi, bütün hüquq-mühafizə orqanları cinayətkarlıqla mübarizəni gücləndirməlidirlər. Azərbaycanda cinayətkarlığı tamamilə yox etmək lazımdır. Azərbaycan bir sivil, demokratik, hüquqi dövlət kimi cinayətkarlıqdan tamamilə xilas olmalıdır. [357-358]

Sizin əsas vəzifələrinizdən biri qaçaqmalçılığın qarşısını almaqdır. Milli Təhlükəsizlik Nazirliyinin böyük bir hissəsi bizim sərhəd qoşunlarıdır. Sərhəd qoşunları Azərbaycan Silahlı Qüvvələrinin böyük bir hissəsidir və sərhədçilər öz vəzifələrini bilməlidirlər. Təəssüflər olsun ki, sərhəd qoşunları rəhbərliyinin işində də, ayrı-ayrı sərhəd dəstələrinin işində də çox kobud səhvlərə yol verilir. Bəzən ayrı-ayrı vəzifəli şəxslər vəzifəsindən sui-istifadə edirlər. Bəzən dövlət əmlakını dağıtmaq, öz şəxsi mənafelərini həyata keçirmək üçün cürbəcür qeyri-qanuni yollara gedirlər. Mənə belə siqnallar bizim ordudan da, o cümlədən sərhəd qoşunları dəstələrindən də gəlir. Ona görə mən bir də xəbərdarlıq edirəm: biz buna yol verməyəcəyik və bunun qarşısını almaq üçün Milli Təhlükəsizlik Nazirliyinin sərhəd qoşunları, onun rəhbərləri bir daha öz məsuliyyətini dərk etməlidir. Hər bir sərhəd dəstəsinin komandiri bilməlidir ki, o, böyük məsuliyyət daşıyır, müstəqil Azərbaycanın sərhədlərini qoruyur.

Amma bu sərhədləri etibarlı qorumaq lazımdır. Sərhədlərdən təxribatçıların, terrorçuların keçməsinə, eyni zamanda narkobiznesin həyata keçirilməsinə, cürbəcür cinayətkar adamların keçməsinə, qaçaqmalçılıq əməliyyatlarının həyata keçirilməsinə yol vermək olmaz. Azərbaycana giriş-çıxış yerləri çox etibarlı qorunmalıdır. Sərhəd dəstələri bizim gömrük təşkilatı ilə, polislə sıx əməkdaşlıq etməli və hamısı birlikdə müstəqil dövlətin sərhədlərini layiqli qorumalıdırlar. Bu da Milli Təhlükəsizlik Nazirliyinin əsas vəzifələrindən biridir.

Sizin qarşınızda duran əsas vəzifələrdən biri əks-kəşfiyyat işini gücləndirməkdir. Çünki artıq ayrı-ayrı ölkələrin kəşfiyyat orqanlarının Azərbaycana qarşı pozucu, təxribatçı, casusluq hərəkətləri və tədbirləri meydana çıxıbdır. Bunun qarşısı alınmalıdır. Ona görə də əks-kəşfiyyat işi güclənməlidir. Biz heç bir ölkənin əleyhinə iş aparmırıq, amma bizim ölkəmizin də əleyhinə heç kəs iş aparmamalıdır. Bizimlə qonşu olan döv[358-359]lətlər Rusiyadır, Gürcüstandır, Türkiyədir, İrandır. Bu ölkələrlə bizim qonşuluq, dostluq əlaqələrimiz var və əməkdaşlıq etmək lazımdır. Hesab etmirəm ki, bu ölkələrdən Azərbaycana qarşı casusluq, təxribatçılıq, yaxud başqa hərəkətlər baş verməlidir. Təəssüf ki, bəzilərindən artıq belə hərəkətlər baş veribdir. Ona görə də əks-kəşfiyyat işi gücləndirilməlidir.

O ki qaldı Ermənistanın Azərbaycanda təxribatçılıq fəaliyyətinə, bu haqda çox geniş məlumatlar, çox geniş faktlar var. Sizin vəzifəniz Ermənistan kəşfiyyat orqanlarının, təxribatçı orqanlarının Azərbaycanda apardıqları işin qarşısını almaqdan ibarətdir. Bu barədə Milli Təhlükəsizlik Nazirliyi çox geniş, planlı, ardıcıl tədbirlər görməlidir. Bu, sizin ən əsas vəzifənizdir. Biz atəşi dayandırmışıq, danışıqlar aparırıq. Biz müharibə aparmaq istəmirik və əminəm ki, bu məsələnin sülh yolu ilə həllinə nail olacağıq. Ancaq sülh yaratmaq istədiyimiz zaman, Ermənistandan bizə qarşı təxribatçılıq, casusluq hərəkətlərinin, yaxud başqa hərəkətlərin edilməsi yolverilməzdir. Amma bunu edirlər. Deməк, qarşısı alınmalıdır. Bunun qarşısını almalısınız. Bu, sizin əsas vəzifələrinizdən biridir.

Müstəqil Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi Azərbaycan dövlətində öz şərəfli yerini tutmalıdır. Azərbaycanın müstəqilliyini qoruyan dövlət atributlarının hər biri bizim üçün əhəmiyyətlidir, hər birinin böyük məsuliyyəti var. Biz Azərbaycanın dövlət atributlarının, dövlət strukturlarının gündən-günə güclənməsini, təkmilləşməsini təşkil etməyə çalışacağıq. Bunların içərisində Milli Təhlükəsizlik Nazirliyi xüsusi yer tutur. Mən çox arzu edərdim ki, keçmişin ən yaxşı ənənələrindən istifadə olunsun. Keçmişin günahları, səhvləri, keçmişdə bu orqanlarda edilmiş cinayətlər tamamilə kənarlaşdırılsın və onların yenidən baş verməsinə heç bir imkan yaradılmasın. Amma yaxşı ənənələr keçmişdə çox olubdur, o ənənələrdən istifadə etmək lazımdır. [359-360]

Nizam-intizam Milli Təhlükəsizlik Nazirliyinin işinin əsasını təşkil edən amillərdən biridir. Siz hərbi qulluqdasınız. Hərbi qulluq birinci növbədə nizam-intizam üzərində qurulur. Nizam-intizam gündən-günə möhkəmlənməlidir. Milli Təhlükəsizlik Nazirliyində işləyən sıravi adam da, zabit də, rəhbər işçi də bilməlidir ki, nizamnamə, konstitusiya, Milli Təhlükəsizlik Nazirliyinin əsasnaməsi sizin üçün rəhbər və istiqamətverici sənədlərdir. Öz peşəkarlıq səviyyənizi yüksəltmək üçün bunlar həmişə sizin vəzifəniz olmalıdır. Bu, hər bir ölkənin təhlükəsizlik orqanı üçün vacib olan amildir.

Dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar əhval-ruhiyyə olsun, peşəkar kadrlar və iş üslubu olsun. Peşəkarlıq səviyyəsinin artırılmasının da sərhədi, hüdudu yoxdur. Ona görə də siz daim öz peşəkarlığınızın təkmilləşdirilməsi üzərində işləməlisiniz, oxumalı, öyrənməlisiniz, çox savadlı, bilikli insanlar olmalısınız.

Keçmişdə sovet NKVD-sinin ən böyük günahlarından biri o idi ki, orada işləyən adamların əksəriyyəti çox dar çərçivədə düşünən adamlar idi. Onlar nizamnamədən, nizam-intizamdan savayı başqa bir şey bilmirdilər. Əksəriyyəti mədəniyyətdən kənar adam idi, ədəbiyyat, mədəniyyət nə olduğunu bilmirdi.

Ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti, musiqini, tarixi yaxşı bilməyən adam peşəkar təhlükəsizlik işçisi ola bilməz. Bilirsiniz, təhlükəsizlik işçisi adi sısk işçisi deyil, – "sısk" rus sözüdür, mən bunu işlədirəm, – bu işçi yüksək mədəniyyətli, keyfiyyətli işçi olmalıdır. Elə bir işçi ki, gərək şairlə də, bəstəkarla da, yazıçı ilə də, alimlə də, adi vətəndaşla da danışa bilsin. Yəni belə səviyyədə olmalıdır. Əgər belə olmasa, o ağı qaradan, pisi yaxşıdan, cinayəti səhvdən, səhvi cinayətdən ayıra bilməz.

Keçmiş NKVD-nin ən böyük bəlalarından biri də o idi ki, vaxtilə Hüseyn Cavidi, Mikayıl Müşfiqi, Əhməd Cavadı, Yusif [360-361] Vəzir Çəmənzəminlini, Seyid Hüseyni, Salman Mümtazı danışdıran, istintaq edən adamlar onların kim olduğunu anlamırdılar. Xatirimdədir, mən 1950-ci ildə gəlib Bakıda Təhlükəsizlik Nazirliyində işə başlayanda, – o vaxtlar Salman Mümtazın bir neçə materiallarını axtarırdım. 38-ci ildə işləyən adamlardan biri gördü ki, mən bu işlərə maraq göstərirəm, – dedi ki, bilirsiniz, bu həyətdə binanın daxili həyəti var, həbsxana da orada yerləşirdi, Hüseyn Cavidin, Salman Mümtazın kitabxanasındakı qiymətli-qiymətli kitabları ermənilər və başqa millətə mənsub olan adamların, çox savadsız adamların gətirib burada vəhşicəsinə yandırdıqlarını gördüm. Mane olmaq istədim, ancaq bacarmadım.

Əlbəttə, o insanlar nə bilirdilər ki, Salman Mümtazda olan nadir kitablar nədir. Əgər bilsəydilər ki, o kitablar Azərbaycan üçün dəyərlidir, onsuz da yandıracaqdılar, çünki onlar Azərbaycanı dağıtmaq istəyirdilər. Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin istintaqını aparanlar onların səviyyəsinə çata bilərdilərmi? Yox! Çünki onların əksəriyyəti savadsız adam idi. O vaxtlar, 37-38-ci illərdə NKVD-də, yəni Daxili İşlər Komissarlığında ali savadlı bir-iki adam tapa bilərdin, bəlkə də yox idi. Çoxunun heç orta savadı da yox idi. Savadsızlığı ləğvetmə kurslarından gəlmiş adamlar, bolşeviklər idilər.

Bilirsiniz, mən bunları bir də ona görə yada salıram ki, bəzən, – Dövlət Təhlükəsizliyi Komitəsində işləyəndə bunu görmüşəm, – bizim müasir adamlarımız da çox dar düşüncəli, səthi, çox kobud, mədəniyyətdən kənar olurlar. Hesab edirlər ki, yüksək vəzifə tuturlar və bu, onlara hər şey veribdir. Amma vəzifə insana heç bir şey vermir, sadəcə olaraq səlahiyyət verir. Qalan hər bir şey onun ağlından, zəkasından, biliyindən, mədəniyyətindən asılıdır. Əgər bunlar varsa, vəzifə səlahiyyətindən dövlətin mənafeyinə, özünün xeyrinə istifadə edə bilər. Yoxdursa, edə bilməyəcəkdir, insanları çolaq, şikəst [361-362] edəcəkdir. Belə-belə yaramaz işçilərin baisliyindən o vaxtlar nə qədər insanlar şikəst olublar. Ona görə də indi bizim müasir müstəqil Azərbaycan dövlətinin, demokratik Azərbaycanın, hüquqi dövlətin Milli Təhlükəsizlik Nazirliyinin işçiləri gərək yüksək səviyyəli olsunlar. Bu, sizin əsas vəzifənizdir. Sizin məktəbiniz var, bu məktəbin işinə fikir verməlisiniz. Çox ciddi məsələdir. Mən deyə bilərəm ki, keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin çox yüksək səviyyəli ali məktəbləri vardı, çox yüksək səviyyəli biliklər verirdilər. Mən özüm biliklərin əksəriyyətini o ali məktəblərdə almışam. Mən Leninqradda oxuyarkən təkcə o ali məktəbin müəllimləri deyil, Leninqrad Universiteti professorlarının əksəriyyəti bizim ali məktəbdə mühazirələr oxuyurdu – həm tarixdən, həm fəlsəfədən, həm ədəbiyyatdan, həm mədəniyyətdən, həm dildən, həm coğrafiyadan, bütün başqa fənlərdən, xüsusən humanitar fənlərdən. Yəni demək istəyirəm, nazirliyin belə yüksək səviyyəli məktəbləri var idi. Hamısı 1953-1954-cü illərdən sonra yaranmış məktəblər idi. Sizin belə məktəbiniz olmalıdır, kadrlar hazırlamalı, işləyən kadrları təkmilləşdirməlisiniz. Amma o məktəbdə dərs verənlər də çox səviyyəli adam olmalıdır. Keçmişdə bəzən belə də olurdu: yaxşı işləməyən işçilərdən can qurtarmaq üçün məktəbə müəllim göndərirdilər. Belə hallar da olmuşdur.

Ən əsas amillərdən biri də xalqa, millətə, müstəqil Azərbaycan dövlətinə sədaqətdir. Milli Təhlükəsizlik Nazirliyinin hər bir işçisi sədaqət andı içməlidir. Bu gün burada çıxış edən gənc işçi and içdi, mən bu andı qəbul etdim. Ancaq mən istəyirəm ki, bu and təkcə sözdə olmasın, qəlbdə olsun. Milli təhlükəsizlik orqanının hər bir işçisi hər dəqiqə, hər saniyə bilsin ki, andı qarşısında məsuliyyət daşıyır. O, anasına, doğma torpağına, Azərbaycan xalqına, millətinə, Azərbaycan Konstitusiyasına and içməlidir. [362-363]

Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç bir yana əyə bilməsin, heç bir böyük dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır. Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır. Bu sizin üçün, Milli Təhlükəsizlik Nazirliyinin işçiləri üçün xüsusilə lazımdır və ali baş komandan kimi, prezident kimi sizdən bunu tələb edirəm. Nazirdən tələb edirəm ki, mənim bu tələbim nazirliyin bütün strukturlarında həyata keçirilməsini təmin etsin.

Bu nazirlikdə işləyən insanlar təvazökar olmalıdırlar. Təvazökarlıq çox gözəl keyfiyyətdir. Bu nazirliyin böyük səlahiyyətləri var, onun əlində böyük imkanlar var. Bundan sui-istifadə etmək olmaz və eyni zamanda təvazökarlıq etmək lazımdır. Hər bir şəxs təvazökar olmalıdır. Heç kəs öyünməməlidir ki, o, böyük rütbə daşıyır, böyük poqonu, böyük səlahiyyəti var. Əksinə, nə qədər təvazökar olsanız, işinizi o qədər yaxşı apara bilərsiniz. Mən öz həyatımda bunun hamısını görmüşəm.

Əziz dostlar, mənim sizə dediyim sözlər nəzəriyyə deyil, həyatımın çoxillik dövründən keçib gəldiyim təcrübələr nəticəsində əldə etdiyim sözlərdir. Ona görə mən bu sözləri deyirəm. Mən bunu ona görə deyirəm ki, bax, məhz bu keyfiyyətləri rəhbər tutaraq həyatımda çətin yollardan keçdim. 1987-ci ildə Moskvada işdən kənar ediləndən sonra mənim başıma nə qədər bəlalar, nə işlər gətirmək istədilər. Burada xalq məni qəlbində saxladığı

zaman, təəssüflər olsun ki, yaxın silahdaşlarım, o cümlədən bu binada da olan yaxın silahdaşlarım vəfasız çıxdılar. Mən təkbaşına bu çətinliklərin öhdəsindən gəldim. 1990-cı ildə yanvar hadisələri zamanı Moskvada çıxış edib Sovet İttifaqının rəhbərliyini ittiham edəndə burada [363-364] mənim əleyhimə arxivləri axtarmağa başladılar ki, görək Heydər Əliyev burada işləyəndə, ya da respublikanın başçısı olanda nə günah edib, tapaq. 1986-87-ci illərdə Moskvadan ayrı-ayrı adamlar gəlib buradakı adamların – həm Mərkəzi Komitədən, həm də bu orqandan olan adamların iştirakı ilə məni yoxlayırdılar. Mənim babamı yoxlayırdılar, atamı yoxlayırdılar, tərcümeyi-halımı yoxlayırdılar – harada işləmişəm, nə cür işləmişəm. Yoxladılar, mənim əleyhimə heç bir şey tapıb çıxara bilmədilər!

Bunlar olmuş şeylərdir. Burada olan keçmiş işçilərin bəziləri bunu bilirlər. Bəlkə mənə demirlər, çünki fikirləşirlər ki, desələr, Heydər Əliyev soruşacaq ki, niyə indiyə qədər deməmisiniz? Lazım deyil, qoy sizdə qalsın, amma bilirsiniz. Mən Kommunist Partiyasından çıxdım. Burada bir komissiya yaratdılar ki, Heydər Əliyevin bütün fəaliyyətini yoxlamaq lazımdır. Moskvada xarici müxbirlər mənə telefon edirlər ki, eşitmisinizmi, belə komissiya yaradılıb? Dedim, mətbuatdan öyrəndim. Soruşurlar ki, siz buna necə baxırsınız? Dedim, ağılsız adamlardır. Deyirlər, nə üçün? Dedim ki, çünki Kommunist Partiyasının ən böyük cəzası partiyadan çıxarmaqdır, mən özüm partiyadan çıxmışam, bundan artıq nə cəza verəcəklər?!

Ola bilər çalışırdılar məni həbs etsinlər, amma partiyadan çıxmaq üstündə həbs etmək olmaz. Başqa bir cinayət də mənim haqqımda tapa bilmirdilər, – çox axtardılar, tapa bilmirdilər ki, məni həbs etsinlər. Amma həbs etmək istəyirdilər. Mən ona görə buraya gəldim.

Yaxud, Naxçıvandan buraya gəldim, sessiyada çıxış etdim. Mənim o çıxışlarım sizə məlumdur, təkrar etmək istəmirəm. Dedim ki, referenduma getmək lazım deyil, Azərbaycan müstəqil olmalıdır, Kommunist Partiyası hakimiyyətdən getməlidir, Bakıda fövqəladə vəziyyət götürülməlidir, yanvar hadisələrinin günahkarları cəzalandırılmalıdır. Mənim dediyim sözlər bunlar idi, başqa bir şey demirdim. [364-365]

Ən əsas sözüm də o idi ki, qurtardı, – Sovet İttifaqı dağılır, gəlin müstəqilliyimizi əldə edək və Kommunist Partiyasından xilas olaq. Bir tərəfdən sessiyada mənim əleyhimə kampaniya başladı, bir tərəfdən komissiya yaratdılar, – onu da bilirsiniz, Telman Orucovdu, nə idi, onlar başçılıq elədilər, – komissiya yaratdılar, məni yoxladılar. Naxçıvanda məni Ali Məclisə sədr seçdilər. Sentyabrda Mütəllibovun prezident seçkiləri idi, bu seçkiləri qadağan etdik. Bir də gördüm 60 nəfər zabit, 11 deputat gəlibdir ki, bizə təzyiq etsinlər. Daxili işlər naziri var idi – Kərimov, zabitlərə o başçılıq edirdi. Deputatların içərisində bizim Mustafa Cəfəroviç də var idi – buradadırmı? Otur. Bu da deputatların içərisində idi. General İsrafilov var, o da gəlmişdi. Prokurorluqda general rütbəsi olan bir müavin var idi, vaxtilə mən MK-da işləyəndə bizdə təlimatçı işləyirdi – Cəfərquliyev, o da general poqonu ilə gəlmişdi. Gəlmişdilər ki, orada bizi cəzalandırsınlar. Mən də televiziya ilə ultimatum verdim ki, 24 saata çıxmasanız, xalq sizi burada...

Ondan sonra Mütəllibov burada iclas keçirdi, böyük bir protokol yazdı. Protokolda bir çox maddələr yazdı – "Naxçıvan dağıldı, əldən gedir". İki maddə də yazdı ki, anadan olandan indiyə qədər Heydər Əliyevin fəaliyyəti bütün arxivlərdə yoxlanılsın. Bu protokol da üç-dörd gündən sonra mənim əlimə keçdi. Doğrudur, sizin heç biriniz mənə bu barədə kömək etmədiniz, amma Prezident Aparatında məni istəyən adamlar var idi, protokolu mənə göndərdilər. Mən də protokolu verdim mətbuata. Naxçıvanda bizim parlamentdə müzakirə etdik, qərar çıxartdıq, protokolun da əleyhinə bir etiraz bəyanatı verdik.

Yəni demək istəyirəm ki, mənim yetişdirdiyim, ərsəyə gətirdiyim, vəzifələrə qaldırdığım və imtiyazlar verdiyim adamlar məni təqsirləndirmək üçün neçə dəfə məni yoxlayıblar. Neçə dəfə mənim ətrafımda cürbəcür əməliyyat tədbirləri keçiriblər. Heç birisi də nəticə verməyibdir. [365-366]

Bunu sizə ona görə bir də deyirəm ki, mən bu yolları keçib gəlmiş adamam. Ona görə də həyatımda gördüyüm müsbət təcrübəni sizə tövsiyə edirəm ki, bunlardan istifadə edəsiniz. Bir də deyirəm, mənim dediyim sözlər nəzəriyyə deyildir.

Vətənə, millətə, dövlətə sədaqət sizin işinizin əsas devizidir. Arzu edərdim ki, müstəqil Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin müasir nəsli və gələcək nəsli Azərbaycanın müstəqilliyini qoruyub yaşatmaq, Azərbaycanı bu ağır, böhranlı vəziyyətdən – erməni təcavüzündən çıxarmaq və bütün çətin proseslərdən çıxarmaq üçün vətənə, millətə, xalqa sədaqət hissləri ilə yaşasın.

Milli Təhlükəsizlik Nazirliyinin son vaxtlar əldə etdiyi nailiyyətlərdən razı olduğumu bildirirəm. Əldə etdiyiniz bu nailiyyətlərdə fərqlənmiş işçilərinizi yaxın zamanlarda təltif edəcəyəm. Namiq Abbasova göstəriş verirəm ki, təqdimat hazırlayıb mənə versin. Gələcəkdə də yaxşı işlərinizi, nailiyyətlərinizi həmişə qiymətləndirəcəyik. Amma günahlarınızı, səhvlərinizi də bağışlamayacağıq. Bizim münasibətlərimiz prinsipial xarakter daşıyır. Bu münasibətləri heç kəs başqa məcraya keçirə bilməz və keçirməməlidir. Bir prezident, ali baş komandan kimi mən özümə etdiyim tələbləri mənə tabe olanlardan da tələb edirəm. Heç kəsin qarşısında bundan artıq heç bir başqa tələb qoymuram. Mən özümə tələbkaram və mənə tabe olan orqanlara, şəxslərə də özümə tələbkar olduğum kimi tələbkaram.

Güman edirəm ki, artıq sizin kollektivdə yaranmış sağlam əhval-ruhiyyə, yaxşı meyllər gələcək nailiyyətləriniz üçün gözəl zəmindir. Arzu edərdim ki, siz öz fəaliyyətinizi bundan sonra daha da

gücləndirəsiniz və Azərbaycan xalqının, dövlətinin qarşısında duran böyük, taleyüklü vəzifələrin həyata keçirilməsinin fəal iştirakçısı olasınız.

Sizi bir daha təbrik edir, cansağlığı, şərəfli, çox əhəmiyyətli işinizdə uğurlar arzulayıram. Sağ olun. [366-367]

## NATO-nun ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ MADRİD SAMMİTİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*8 iyul 1997-ci il*

**Sual: Hörmətli prezident, Siz Azərbaycan-NATO əlaqələrinin gələcəyini necə görmək istərdiniz?**

**Cavab:** Bu gələcəyi indidən demək olmaz. Bilirsiniz ki, NATO 1995-ci ildə "Sülh naminə tərəfdaşlıq" proqramını elan edibdir. Azərbaycan da bu "Sülh naminə tərəfdaşlıq" proqramına daxil olub, qoşulubdur. Bilirsiniz ki, biz o proqramı imzalamışıq. Ondan sonra da NATO ilə Azərbaycan arasında əlaqələr inkişaf etməyə başlayıbdır. Bilirsiniz ki, NATO-nun baş katibi Xavyer Solana Azərbaycanda olub, görüşlərimiz olubdur, Brüsseldə də onunla görüşlərimiz olubdur. Bunlar hamısı uzunmüddətli prosesdir. Bu proses də Avropada təhlükəsizliyi, sülhü təmin etmək üçündür. NATO-nun da əsas məqsədlərindən biri Avropada təhlükəsizliyi təmin etməkdir. Ona görə də biz bu proseslərdə iştirak edirik. Bunun gələcəyi nə cür olacaq, – onu zaman göstərəcəkdir.

**Sual: NATO-nun genişlənməsinə Rusiyanın münasibətindən fərqli olaraq, Azərbaycanın münasibəti barədə nə deyə bilərsiniz?** [367-368]

**Cavab**: Bilirsiniz, biz bu məsələlərə o qədər qarışmırıq. Rusiya ilə NATO arasında olan münasibətlər NATO ilə başqa ölkələr arasında olan münasibətlərə bənzəmir. Çünki NATO-nun Şərqə tərəf genişlənməsi Rusiyada böyük etiraz doğurur. Bunun, ola bilər, bəzi obyektiv səbəbləri var. Ona görə bunları bir-birinə bənzətmək olmaz.

**Sual: Madrid görüşündə Azərbaycan hansı problemlərə diqqəti yönəltmək fikrindədir?**

**Cavab:** Orada dövlət başçıları qısa çıxış edəcək, bu görüşə hərə öz münasibətini bildirəcəkdir. Biz də bunu edəcəyik. Ancaq bu toplantı zamanı mənim orada bir neçə ikitərəfli görüşlərim olacaqdır. Mən bu görüşlərə də çox əhəmiyyət verirəm. Onların bir neçəsi artıq müəyyən olunubdur. Bilirsiniz ki, bu, bizim siyasətimizdə çox mühüm rol oynayır və yer tutur. Çünki hər bir belə beynəlxalq toplantıda, ikitərəfli görüşlərdə biz çox məsələləri müzakirə edirik, razılığa gəlirik, öz təkliflərimizi veririk, mövqelərimizi açıqlayırıq. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması bizim əsas məqsədimiz, əsas problemimizdir. Ola bilər, bununla əlaqədar mən Minsk qrupuna daxil olan böyük ölkələrin başçıları ilə də görüşüm. Şübhəsiz, mən bundan istifadə etməyə çalışacağam.

**Sual: İçkeriya Çeçen Respublikasının prezidenti Aslan Məshədovun bu yaxınlarda Azərbaycanda olarkən Sizinlə görüşü zamanı bəyan etdiyi "Qafqaz öz problemlərini özü həll etməlidir" ideyasına Azərbaycanın münasibəti necədir?**

**Cavab:** Aslan Məshədov bunu bəyan edir və yəqin ki, onu da həyata keçirməyə çalışır. Amma Qafqaz çox mürəkkəb regiondur. Əlbəttə, Qafqaz çalışmalıdır ki, öz problemlərini özü də həll etsin. Amma düşünmək ki, Qafqazın problemlərini ancaq Qafqaz özü həll edə bilər, hesab edirəm ki, bu bir az səthi fikirdir.

**Sual: Madriddə Ermənistan prezidenti ilə görüşünüz olacaqdırmı?** [368-369]

**Cavab:** Bilmirəm, o orada olacaq, yoxsa yox, çünki prezidentlərin hamısı oraya gəlmir. Bilmirəm, olacaqdır, ya olmayacaqdır. Bilirəm ki, Şevardnadze olacaq, onunla görüşəcəyəm. Ancaq Ermənistan prezidentinin orada olub-olmayacağı barədə mənim məlumatım yoxdur. [369-370]

## AVROPA-ATLANTİKA ƏMƏKDAŞLIQ ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ İCLASINDA NİTQ

*Madrid*

*9 iyul 1997-ci il*

Hörmətli cənab sədr!
Xanımlar və cənablar!

Sizi ürəkdən salamlayıram və dünyanın bütün xalqlarının təhlükəsizliyi, azadlığı və tərəqqisi naminə birgə uğurlu iş arzulayıram.

Biz Varşava Müqaviləsi pozulduqdan sonra yaranmış yeni müstəqil dövlətlər ilə NATO arasındakı əməli dialoqa və əməkdaşlığa böyük əhəmiyyət veririk.

Soyuq müharibə, nüvə fəlakəti təhlükəsi, dünyanın iki düşmən cəbhəyə ayrılması dövrü başa çatdıqdan sonra bəşəriyyət silahlı münaqişələr, təcavüzkar separatçılıq, silahların, ağır hərbi texnikanın, nüvə və kimyəvi döyüş başlıqları daşıya bilən raket sistemlərinin nəzarətsiz yayılması kimi yeni təhlükələrlə qarşılaşmışdır.

Bu mənfi proseslər xalqlarımızın mənafelərinə çox böyük ziyan vurur, iqtisadiyyatı iflic vəziyyətinə salır, yeni müstəqil dövlətlərin Dünya Birliyi ilə tez bir zamanda inteqrasiyasına mane olur, milyonlarla dinc əhalinin insan hüquqlarını kobud surətdə pozur. [370-371]

Bildiyiniz kimi, Azərbaycan Respublikası Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qalmışdır və bunun nəticəsində respublikamızın ərazisinin iyirmi faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, bir milyondan çox vətəndaşımız doğma yurd-yuvalarından qovulmuşdur və qaçqın olaraq çadır şəhərciklərində çox ağır şəraitdə yaşayır.

Azərbaycan tərəfi ədalətli və möhkəm sülhə nail olmaq üçün hər şeyi edir, ATƏT-in Minsk prosesi çərçivəsində ən konstruktiv mövqe tutur. Üç ildən çoxdur ki, atəşkəs rejimi saxlanılır və biz münaqişə tam aradan qaldırılanadək buna əməl etmək niyyətindəyik.

ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan istisna olmaqla bütün iştirakçı ölkələr Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasının əsas prinsiplərini müdafiə etdilər. Bu prinsiplər aşağıdakılardır: Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan dövləti tərkibində özünüidarə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsi.

Lakin Ermənistan Respublikasının qeyri-konstruktiv mövqeyi üzündən ATƏT-in Minsk qrupunun səyləri hələ də istənilən nəticəni verməmişdir. Biz ümid edirik ki, Minsk konfransının həmsədrliyi – Rusiya, ABŞ, Fransa Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin imzalanmasına və möhkəm sülhün bərqərar olmasına nail olacaqdır.

Bu baxımdan biz həmçinin NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının fəal roluna ümid bəsləyirik. Onlar Qafqazdakı silahlı münaqişələri kənardan müşahidə etməməlidirlər. Nəzərə almaq lazımdır ki, bu münaqişələr Ümumavropa təhlükəsizliyi üçün də ciddi təhlükə yaradır.

Bugünkü görüşdən istifadə edərək bəyan etmək istəyirəm ki, Azərbaycan Respublikası Avropa-Atlantika Əməkdaşlıq Şurasının yaradılmasını alqışlayır və buna NATO ilə tərəfdaş [371-372] ölkələr arasında siyasi məsləhətləşmələrin, fəal əməkdaşlığın mühüm mexanizmi kimi baxır.

Biz NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında fəal iştirak edir və ümid bəsləyirik ki, bu proqram silahlı qüvvələrimizin Avropada sülhün və sabitliyin təmin edilməsi məqsədlərinə və vəzifələrinə uyğunlaşdırılması üçün təkmilləşdirilməsinə kömək edəcəkdir.

Çıxışımın sonunda Polşanın, Macarıstanın və Çexiyanın prezidentlərini onların ölkələrinin NATO-ya üzv qəbul edilməsi münasibətilə təbrik edirəm.

Mən Rusiyanı NATO ilə əsas aktı imzalaması, Ukraynanın prezidentinin bu gün NATO ilə xüsusi saziş imzalaması münasibətilə təbrik edirəm.

Diqqətinizə görə təşəkkür edirəm. [372-373]

## AZƏRBAYCAN NEFTİNİN BAKI-QROZNI-TİXORETSK-NOVOROSSİYSK KƏMƏRİ İLƏ NƏQL OLUNMASI HAQQINDA AZƏRBAYCAN-RUSİYA-İÇKERİYA ÇEÇEN RESPUBLİKASI ARASINDA SAZİŞ İMZALANDIQDAN SONRA RUSİYA FEDERASİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDƏRKƏN ÇIXIŞ

*Prezident sarayı*

*11 iyul 1997-ci il*

Xanımlar və cənablar, hesab edirəm ki, biz indi çox mühüm iş gördük. Məlumdur ki, Azərbaycan öz neftini və fövqəlmilli neft şirkətləri konsorsiumunun çıxaracağı nefti ixrac etməkdən ötrü bu neftin şimal marşrutu ilə Qara dəniz sahilindəki Novorossiysk limanınadək nəqli haqqında Rusiya ilə razılaşma əldə edibdir. Bu marşrut İçkeriya Çeçen Respublikasının ərazisindən keçir. Bununla əlaqədar son vaxtlar danışıqlar aparılmış, İçkeriya Çeçen Respublikasının prezidenti cənab Aslan Məshədov Bakıya gəlmişdi. Biz bu məsələni onunla müzakirə etmişik. Mənim Rusiyaya rəsmi səfərim zamanı bu məsələ barəsində Rusiya prezidenti cənab Boris Yeltsin ilə, bu ölkənin digər dövlət və hökumət rəhbərləri ilə danışıqlarımız oldu. Neftin nəqlinə dair əldə etdiyimiz razılaşmaların əməli surətdə reallaşdırılmasına başlaya bilmək üçün Rusiya, Azər[373-374]baycan və İçkeriya Çeçen Respublikası arasında üçtərəfli saziş imzalanmasının zəruriliyi haqqında razılığa gəldik.

Bu gün, nəhayət, bu, həyata keçdi. Doğrudur, çox geniş danışıqlar aparmaq lazım gəldi, siz özünüz burada olduğunuz müddətdə bunun şahidisiniz. Amma mən şadam ki, bunlar hamısı arxada qaldı, saziş imzalandı. Mən burada iştirak edənlərin hamısını – Rusiya Federasiyasının nümayəndə heyətini, İçkeriya Çeçen Respublikasının nümayəndə heyətini və şübhəsiz ki, Azərbaycan Dövlət Neft Şirkətini təbrik edirəm. Ümidvaram ki, indən belə maneələr olmayacaq, Rusiyanın «Transneft» şirkəti İçkeriya Çeçen Respublikası ərazisində boru kəmərinin dərhal qaydaya salınmasına başlayacaq və özlərinin bəyan etdikləri kimi, bu işi 20 gün ərzində görəcəklər. Bundan sonra biz neft nəql edə bilərik.

Məlum olduğu kimi, Azərbaycan ərazisində boru kəməri Rusiya sərhədinədək hazırdır və ona neft vurulmuşdur. Biz bu kəmərlə günü sabah neft nəql etməyə hazırıq. Ümidvaram ki, bütün bunlar bir ay ərzində mümkün olacaqdır. Hamınızı təbrik edirəm. [374-375]

## FRANSANIN MİLLİ BAYRAMI – BASTİLİYANIN ALINMASI GÜNÜ MÜNASİBƏTİLƏ FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Hyatt-Recensi-Naxçıvan " mehmanxanası*

*14 iyul 1997-ci il*

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar! Mən sizi Fransanın milli bayramı – Bastiliyanın fəth olunması günü münasibətilə ürəkdən təbrik edirəm.

208 il bundan öncə Bastiliyanın alınması Fransanın böyük tarixində əlamətdar bir hadisə olmuşdur, eyni zamanda bütün bəşər tarixinə çox əlamətdar hadisə kimi yazılmışdır. Bastiliyanın alınmasından sonra Fransanın həyatında baş vermiş ictimai-siyasi proseslər Fransanı bir ölkə, dövlət kimi demokratiya prinsipləri əsasında yaşamaq, hüquqi dövlət çərçivəsində yaşamaq, insan haqlarının qorunması mühitində yaşamaq kimi bir şəraitə gətirmişdir.

Fransız xalqının bu müddətdə, yəni Bastiliya alınandan sonrakı tarixi dövrdə əldə etdiyi nailiyyətlər, xüsusən dövlət quruculuğunda ədalətin bərqərar olunması, istibdada qarşı mübarizə, demokratiyanın yaranması və inkişaf etdirilməsi. hüquqi dövlət qurmaq sahəsində əldə etdiyi nailiyyətlər tarixi əhəmiyyət kəsb edir. Bu, bütün bəşər tarixində yeni bir mər[375-376]hələ açmışdır. Ona görə də biz bu gün fransızlarla birlikdə bu böyük bayramı qeyd edərkən eyni zamanda fransız xalqının yaratdığı bu prinsiplərə öz hörmət-ehtiramımızı bildiririk.

Fransızlar fəxr edə bilərlər ki, onların bəşər tarixində dövlətin idarə edilməsi, demokratiyanın bərqərar olunması, insan hüquqlarının qorunması sahəsində açdıqları yeni yol dünyanın, demək olar, əksər dövlətlərində öz tətbiqini tapıbdır. Beləliklə də, fransızlar nəinki öz xalqı üçün, həm də dünyanın bir çox xalqları üçün sülh, əmin-amanlıq, demokratiya, hüquq şəraitində yaşamaq üçün əsas yaradıblar.

Biz bunu dəfələrlə qeyd edirik ki, Azərbaycanda demokratik hüquqi, dünyəvi dövlət quruculuğu prosesində dünya, bəşər demokratiyasının nailiyyətlərindən bəhrələnir, istifadə edir və o cümlədən, birinci növbədə fransız xalqının əldə etdiyi nailiyyətlərdən və bu gün Fransada hökm sürən demokratiya, insan azadlığı prinsiplərindən istifadə edib bəhrələnirik.

Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Fransa dərhal Azərbaycanın müstəqilliyini tanımış, Azərbaycan ilə Fransa arasında diplomatik əlaqələr yaranmış və get-gedə inkişaf etmişdir.

Dörd il bundan öncə mənim Fransaya ilk səfərim və ondan sonra Fransanın dövlət və hökumət başçıları, onların nümayəndələri ilə apardığımız görüşlər Fransa ilə Azərbaycan arasındakı əlaqələrin inkişafına çox kömək etmişdir.

Bu ilin yanvarında mən Fransada rəsmi səfərdə olduğum zaman, mart ayında Fransada olduğum zaman Fransanın prezidenti cənab Jak Şirak ilə və Fransanın digər dövlət, hökumət rəhbərləri ilə çox səmərəli görüşlər keçirmişəm, ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni əlaqələrin inkişaf etdirilməsi üçün çox addımlar atılıbdır, iqtisadi əlaqələrin inkişafı üçün çox əməli tədbirlər görülübdür. [376-377]

Bir neçə gün bundan öncə – iyulun 8-9-da Madriddə prezident cənab Jak Şirak ilə mənim görüşlərim olmuşdur. Bu görüşlər zamanı biz xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsini bir daha müzakirə etmişik. Bu ilin yanvarında Fransa Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupunun, Minsk konfransının həmsədrliyi vəzifəsini öz üzərinə ötürmüşdür. Mən bu gün məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Fransa, onun hökuməti və xüsusən Fransanın prezidenti cənab Jak Şirak bu məsələ ilə çox ciddi, yaxından və fəal məşğul olur.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində bu il atılmış ən ciddi addımlardan biri iyunun 20-də Amerika Birləşmiş Ştatlarının Denver şəhərində üç prezidentin, Minsk qrupunun həmsədrləri olan ölkələrin prezidentlərinin – Rusiya prezidentinin, Amerika Birləşmiş Ştatları prezidentinin və Fransa prezidentinin birgə bəyanatı olmuşdur. Cənab Jak Şirak ilə Madriddəki görüşlərim, apardığım danışıqlar zamanı mən tam ümid etdim ki, Fransa və xüsusən onun prezidenti cənab Jak Şirak bu məsələ ilə, yəni Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi ilə çox ciddi məşğul olur və öz həmkarları – Rusiyanın, Amerika Birləşmiş Ştatlarının prezidentləri ilə birlikdə bu məsələnin məhz bu il həll edilməsinə çalışırlar.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması Azərbaycan xalqı, bizim respublikamız üçün ən əsas və ən ümdə vəzifədir. Ona görə də bu məsələnin həll olunmasında Fransanın, onun

prezidentinin yaxından iştirak etməsi və çox səylər göstərməsi Fransa ilə Azərbaycan arasındakı əlaqələrin nə qədər yüksək səviyyəyə çatdığını nümayiş etdirir. Mən bu gün qeyd etmək istəyirəm ki, bütün başqa sahələrdə də Fransa ilə Azərbaycan arasında olan əlaqələr, əməkdaşlıq, [377-378] dostluq əlaqələri sürətlə inkişaf edir və mən bu əlaqələrin gələcəyinə çox böyük nikbinliklə baxıram.

Hörmətli xanımlar və cənablar, hörmətli səfir! Bu bayram münasibətilə sizi bir daha təbrik edir, Fransa xalqına səadət, xoşbəxtlik, əmin-amanlıq arzulayıram. Bayramınız mübarək olsun! [378-379]

## AZƏRBAYCANDA 1997-ci İLİN BİRİNCİ YARISINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN YEKUNLARI, AQRAR İSLAHATI VƏ ÖZƏLLƏŞDİRMƏNİN GEDİŞİ, TƏBİİ FƏLAKƏTİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*19 iyul 1997-ci il*

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirə, toplantı respublikamızın həyatının daxili məsələlərinə – sosial-iqtisadi problemlərə həsr olunmuşdur. Biz 1997-ci ilin altı ayını başa çatdırmışıq. Bu altı ay müddətində respublikamızın iqtisadiyyatı inkişaf etməyə başlayıbdır. Ancaq bununla yanaşı, bir çox problemlər, həll olunmamış məsələlər, çətinliklər də vardır.

1997-ci il Azərbaycanda iqtisadi islahatların, respublikanın sosial-iqtisadi həyatında bütün islahatların sürətlə həyata keçirilməsi dövrü hesab oluna bilər. Bu baxımdan bir çox işlər görülüb və xeyli müsbət nəticələr əldə olunubdur. Ancaq, bir də qeyd edirəm, nöqsanlar, çatışmazlıqlar, problemlər də mövcuddur.

Ona görə ilin altı ayının yekunlarmı müzakirə etməyə ehtiyac var. [379-380]

Bu ilin birinci yarısının son aylarında respublikamızda görünməmiş təbii fəlakətlər baş veribdir. Həddindən artıq yağışlar, dolu, sel, tufan və küləklər respublikamızın həyatına, iqtisadiyyatına, insanların həyatına çox böyük zərər vurubdur. Bu hadisələr baş verən zaman lazımi tədbirlər görülübdür, onların bir qisminin qarşısı alınıbdır. Ancaq eyni zamanda təbii fəlakət təbii xarakter daşıyır, onun vurduğu ziyan çox böyükdür. Bu, ümumiyyətlə bizim həyatımızı gərginləşdirib və çox ciddi təxirəsalınmaz tədbirlər görülməsini tələb edir. Ona görə də bu gün biz təbii fəlakətlərlə əlaqədar məlumatı dinləməliyik, ümumi fikrimizi müəyyən etməliyik və qarşıda duran vəzifələri müzakirə etməliyik.

Qeyd etdiyim kimi, 1997-ci il iqtisadi islahatların keçirilməsi ilə səciyyələnir. Bu sahədə, demək olar, çox iş görülübdür. Ancaq məlumdur ki, iqtisadi islahatlar haqqında proqramımız bir neçə ilə nəzərdə tutulubdur. Ona görə də həyata keçirilən işlər haqqında məlumatı dinləməyə və iqtisadi islahatların sürətləndirilməsi üçün lazımi tədbirlər görməyə ehtiyac var.

Beləliklə, bunların hamısı bir-biri ilə bağlı məsələlərdir. Ona görə də mən belə bir respublika müşavirəsinin, toplantısının məhz bu vaxt keçirilməsi haqqında qərar qəbul etmişəm və sizi bu müşavirəyə dəvət etmişəm. Hesab edirəm ki, işimizi səmərəli aparmaq üçün onu aşağıdakı qaydada qurmaq lazımdır: altı ayın yekunları, sosial-iqtisadi sahənin vəziyyəti və islahatların keçirilməsi haqqında baş nazir Artur Rasizadənin məruzəsini dinləməliyik. Təbii fəlakətlər və onların vurduğu ziyan, bunun operativ surətdə aradan qaldırılması və bundan sonra da aradan qaldırılması tədbirləri barəsində baş nazirin müavini, Fövqəladə hallar üzrə Respublika Komissiyasının sədri Abid Şərifovun məruzəsini dinləmək nəzərdə tutulubdur. Sonra həm müşavirə iştirakçılarının geniş məlumatlandırılması, həm də mövcud olan məsələləri müzakirə etmək üçün aqrar sektorda islahatların və xüsusən torpaq islahatının həyata keçi[380-381]rilməsi və onun nəticələri haqqında kənd təsərrüfatı naziri İrşad Əliyev məlumat verməlidir. Özəlləşdirmə proqramının həyata keçirilməsi ilə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr haqqında Dövlət Əmlak Komitəsinin sədri Nadir Nəsibov məlumat verməlidir.

Bir də qeyd edirəm, bu məsələlərin hamısı bir-biri ilə sıx bağlıdır, hamısı birlikdə respublikamızın sosial-iqtisadi problemlərini təşkil edir. Ona görə də belə hesab edirəm ki, biz bu məruzələri, məlumatları ardıcıl surətdə, dediyim şəkildə dinləyib bundan sonra müzakirələrə başlaya bilərik.

### YEKUN NİTQİ

Hörmətli müşavirə iştirakçıları! Məruzələr və çıxışlar bugünkü müşavirənin, toplantının nə qədər zəruri olduğunu bir daha nümayiş etdirdi. Həqiqətən, belə bir görüş, belə bir müzakirə lazım imiş və mən hesab edirəm ki, bu, çox əhəmiyyətlidir. Bu gün bu salonda toplaşanlar və televiziya vasitəsilə respublikanın sakinləri ölkəmizin iqtisadiyyatının vəziyyəti haqqında, iqtisadi islahatların həyata keçirilməsi haqqında, təbii fəlakətin Azərbaycana vurduğu ziyanlar, nəzərdə tutulan tədbirlər haqqında və bir çox başqa məsələlər haqqında təəssürat alırlar.

Bugünkü müzakirə onu göstərir ki, respublikamızda iqtisadiyyat sahəsində müəyyən olunmuş strateji xətt ardıcıl surətdə həyata keçirilir, öz müsbət nəticələrini verir və sosial-iqtisadi sahədə müsbət dəyişikliklərin baş verməsinə gətirib çıxarır. Bu, həqiqətən çox tarixi bir hadisədir. Çünki əgər statistik məlumatları götürsək, 1989-cu ildən respublikanın iqtisadiyyatında tənəzzül başlayıbdır. İqtisadiyyat ardıcıl surətdə aşağı düşübdür və bunlar hamısı da əhalinin rifah halının, onun səviyyəsinin aşağı düşməsinə gətirib çıxarıbdır. [381-382]

Biz bu illər ərzində böhran içərisində olmuşuq, bu gün də hələ sosial-iqtisadi böhrandan tam çıxmamışıq. Ancaq əgər bir il, iki il bundan öncə biz bu böhranın tam içindəydiksə, indi bu böhrandan artıq çıxırıq və nəticələr onu göstərir ki, böhrandan çıxacağıq. Azərbaycanın iqtisadiyyatı, əhalinin sosial vəziyyəti gələcəkdə də ardıcıl surətdə inkişaf edəcəkdir. Bunlar birinci növbədə iqtisadi islahatların həyata keçirilməsinin və ümumiyyətlə, iqtisadiyyat sahəsində görülən bütün tədbirlərin nəticəsidir.

Bildiyiniz kimi, biz iqtisadiyyatı 1994-cü ildə də, 1995-ci ildə də, 1996-cı ildə də ətraflı təhlil edirdik, yaranmış vəziyyəti müzakirə edirdik və daim iki fikir yan-yana mövcud olurdu. Birincisi, Azərbaycanın mövcud iqtisadi potensialından, onun imkanlarından, mövcud idarəetmə formalarından səmərəli istifadə etmək və bununla yanaşı iqtisadi islahatları hazırlayıb həyata keçirmək. Son illər və xüsusən 1988-1989-cu illərdən sonra Azərbaycanın iqtisadiyyatında tənəzzül tək bir ona görə deyildi ki, iqtisadiyyatda islahatlar keçirmək lazımdır; birinci növbədə ona görə idi ki, çünki o vaxt hələ o illərdə mövcud olan iqtisadi potensial buna imkan verirdi; ona görə idi ki, idarəetmə səviyyəsi aşağıya düşmüşdü, respublikada nizam-intizam pozulmuşdu, özbaşınalıq mövcud idi və buna görə də o böyük sənaye potensialı, kənd təsərrüfatı potensialı, inşaat potensialı inkişaf etmək əvəzinə tənəzzülə uğramağa başlamışdı.

Sonrakı dövrdə isə, şübhəsiz ki, həmin bu meyl yenə də davam etmiş, amma eyni zamanda iqtisadi islahatların aparılması zəruri olduğu zaman respublikamız buna hazır olmamışdır. Bunun obyektiv səbəbləri də var. Əgər biz özümüzü keçmiş Sovetlər İttifaqının digər respublikaları ilə müqayisə etsək, bu obyektiv səbəblər daha da aydın görünəcəkdir. Məsələn, bir çox respublikalarda, o cümlədən Orta Asiya respublikalarında, yaxud Rusiyada, Ukraynada, Belorusiyada, – mən Qafqazı götürmürəm, – bu respublikalarda daim sabitlik olubdur, daxili [382-383] ictimai-siyasi vəziyyət sabit olubdur və islahatların hazırlanması, həyata keçirilməsi üçün imkanlar Azərbaycana nisbətən daha çox olubdur. Amma Azərbaycanda bir tərəfdən Ermənistanın hərbi təcavüzü və bununla əlaqədar döyüşlər, müharibə, ikinci tərəfdən Azərbaycanın daxilində olan çəkişmələr, toqquşmalar, ictimai-siyasi vəziyyətin pozulması, gərginləşməsi, sabitliyin olmaması, – bunlar hamısı şübhəsiz ki, iqtisadiyyata ümumən çox mənfi təsir göstərmiş, o cümlədən xüsusən iqtisadi islahatların hazırlanmasına və keçirilməsinə imkan verməmişdir.

Bir də bilirsiniz ki, bu iqtisadi islahatların hazırlanması, keçirilməsi sahəsində də respublikada cürbəcür fikirlər olmuşdur. Bəziləri çox mühafizəkar mövqedə idilər ki, müharibə gedən ölkədə, 1 milyona qədər qaçqın olan ölkədə heç bir islahat keçirmək olmaz, biz gərək müharibəni qurtaraq, işğal edilmiş torpaqları azad edək, ondan sonra islahatları keçirək. Digərləri isə hesab edirdilər ki, hər şeyi dağıtmaq lazımdır, hər şeyi pozmaq lazımdır, onda bu islahatları keçirmək olar. Şübhəsiz ki, bu fikirlərin hər ikisi Azərbaycanın mənafeyinə zidd fikirlərdir, ancaq təəssüf ki, bunlar var idi, bunlar mövcud idi, bəzən bunlar bir-biri ilə də toqquşurdu. Bunlar da bizim iqtisadiyyat sahəsində işlərin planlı şəkildə görülməsinə mane olurdu.

1994-cü ildə atəşi dayandırandan sonra və xüsusən – 1994-cü il başa çatandan sonra, 1995-ci ildə, 1996-cı ildə bu iqtisadi islahatların həyata keçirilməsi üçün biz respublikada daha əlverişli şərait yarada bildik və bu dövrdə çox işlər gördük. Amma eyni zamanda biz görürdük, – mən şəxsən özüm haqqımda deyirəm, – mən görürdüm ki, respublikalar, xüsusən Müstəqil Dövlətlər Birliyinə mənsub olan respublikalar bu islahatların keçirilməsində nə kimi səhvlər buraxırlar, nə kimi çətinliklərlə üzləşirlər. Ona görə də onların təcrübəsini və buraxılan səhvləri, əldə etdikləri nəticələri öyrənmək lazım idi. Biz bu işlə [383-384] də çox ətraflı, ciddi məşğul olduq. Mən o illərdə də, xüsusən 1995-ci, 1996-cı illərdə tam əmin idim ki, biz bu yolla ardıcıl surətdə gedərək respublikanın iqtisadiyyatını geniş iqtisadi islahatlar keçirilməsi vəziyyətinə gətirib çıxara biləcəyik. Amma bunun üçün həm təmkin lazım idi, həm təcrübədən səmərəli istifadə etmək lazım idi, həm də yaranmış iqtisadi potensialı qoruyub saxlamaq lazım idi.

Mən bunu dəfələrlə demişəm, – dağıtmaq böyük bir ağıl, böyük bir qəhrəmanlıq tələb etmir və çox vaxt da istəmir. Bu, çox asan bir şeydir. Amma qurmaq, yaratmaq, – bu, çox böyük zəka, ağıl, təcrübə, bilik tələb edir, vaxt tələb edir, iradə tələb edir. Azərbaycanda isə, Allaha şükürlər olsun ki, böyük iqtisadi potensial toplanıbdır, indi də bunu demək olar. Təsadüfi deyil ki, Sovetlər İttifaqının dağılması prosesi zamanı o vaxtkı ən böyük iqtisadçılar dəfələrlə belə fikirlər söyləyirdilər ki, Sovetlər İttifaqına mənsub olan yalnız Rusiya və Azərbaycan iqtisadi cəhətdən müstəqil yaşamaq imkanına malikdirlər, digərləri isə yox. Çünki o illərdə də biz heç vaxt mərkəzdən dotasiya almamışdıq, özümüz özümüzü təmin etmişdik. İndi aydın olur ki, respublikamızın, ölkəmizin bir çox sahələrində o illərdə qurduğumuz sənaye potensialı, kənd təsərrüfatı potensialı bizim iqtisadi cəhətdən həqiqətən tam müstəqilliyimiz üçün əsas yaradıbdır, təməl yaradıbdır.

Bu gün bu müzakirə zamanı biz elektrik enerjisi istehsalı haqqında danışdıq. Mən bir daha bunu böyük məmnuniyyət hissi ilə təkrar edirəm, qeyd edirəm və mən çox iftixar edirəm ki, o illər Azərbaycanın tam müstəqil yaşaması üçün onun güclü elektrik enerjisi potensialını yarada bilmişik. Ona görə də bu potensialı

qoruyub saxlamaq lazımdır, buna çox diqqətlə yanaşmaq lazımdır, buna çox qayğı göstərmək lazımdır. Çünki on illərlə bir çox nəsillərin fədakar əməyi nəticəsində Azərbaycan bugünkü Azərbaycan səviyyəsinə gəlib çatıbdır, Azərbaycanın böyük iqtisadi potensialı yaranıbdır. Bunu qoruyub [384-385] saxlamaq lazımdır. Bu baxımdan da mən özlərini radikal hesab edən, ancaq əslində dağıtmaq, xaos yaratmaq və bundan şəxsi məqsədləri üçün istifadə etmək məramında olan bəzi adamlarla heç vaxt razı olmamışam, onların bu hərəkətlərinə yol verməmişəm və beləliklə, biz Azərbaycanın bu iqtisadi potensialının qorunub saxlanmasına nail olmuşuq.

İndi açıq-aydın görünür ki, Azərbaycanda iqtisadi islahatlar ağıllı, səriştəli, təmkinli, planlı, ardıcıl surətdə həyata keçirilir və bunlar öz nəticəsini verir. Xatirinizdədir, 1995-ci ilin yanvar ayında mən İsveçrədə Davos şəhərində iqtisadi forumda iştirak edirdim. O vaxt mənim bir çox görüşlərim olmuşdur, o cümlədən o vaxt Rusiyanın baş nazirinin müavini, Dövlət Əmlak Komitəsinin sədri olan Anatoli Çubaysla orada görüşdüm. Mən bu görüşə çox böyük maraq göstərdim və ondan xahiş etdim ki, Rusiyada onların özəlləşdirmə sahəsində və islahatlar sahəsində gördüyü işlər haqqında danışsın. O da çox həvəslə, məmnuniyyətlə bunu danışdı. Təxminən saat yarım, bəlkə də ondan da bir az çox mən onu dinlədim. Onun bütün bu söhbətini bizim televiziya yazırdı. Bu məndə çox böyük maraq doğurdu və respublikamızda da insanları bu islahata alışdırmaq üçün mən Bakıya qayıdandan sonra bizim o görüşümüzü televiziya ilə tamamilə verdirdim və hətta bir dəfə yox. Çünki mən istərdim ki, Anatoli Çubaysm o fikirləri bizim ictimaiyyətə çatsın. O vaxt mən o təcrübənin həqiqətən çox əhəmiyyətli olduğunu hiss etdim, ondan istifadə etməyə çalışdım və istədim ki, respublikamızın ictimaiyyəti də bundan imkan dairəsində istifadə etsin.

Bir o deyil, biz bir çox işlər görmüşük. Məsələn, mən bu dəfə Moskvada olarkən Boris Nemtsovla çox ətraflı söhbətlər edirdik. Sonra bilirsiniz ki, o, Bakıya da gəlmişdi, burada da söhbətlər edirdik. O, Nijni Novqorodda qubernator idi və orada – hər halda Rusiyanın mətbuatında belə bir geniş fikir yaranmışdır ki, – orada iqtisadi islahatlar daha müvəffəqiyyətlə [385-386] həyata keçirilir. Biz ora böyük bir nümayəndə heyəti göndərdik, – Arif Rəhimzadə getmişdi ora, xatirindədir?

Nümayəndə heyəti göndərdik ki, getsinlər, öyrənsinlər, – orada nə var, nə yox. Sonra Oryol vilayətinə də getdilər, Rusiyanın başqa vilayətlərinə də getdilər. Tofıq Əzizovun xatirindədir, – o, Əmlak Komitəsinin sədri olan zaman mən ona göstəriş verdim ki, sən get, həm Rusiyanı, həm Qazaxıstanı, həm Orta Asiyanı gəz. Göndərdim onu, getdi, bir xeyli vaxt o respublikalarda görülən işlərlə tanış oldu, gəldi, həm öz biliyini genişləndirdi, həm də bizə məlumat verdi.

Biz dünya təcrübəsindən çox istifadə edirik. Beynəlxalq iqtisadi təşkilatlar, maliyyə təşkilatları, Avropa Birliyi ilə əməkdaşlıq edərək, Dünya Bankı ilə, Beynəlxalq Valyuta Fondu ilə daim əməkdaşlıq edərək, onların tövsiyələrini dinləyirdik. Bax, bunların hamısının nəticəsində biz, hesab edirəm ki, bir çox dəyərli sənədlər, dəyərli qanunlar, dəyərli proqramlar qəbul etdik. Ancaq tələm-tələsik, vurub-dağıtmaq, nəyin bahasına olursa-olsun yox, məsələləri öyrənərək, dəfələrlə müzakirə edərək qəbul etdik – həm özəlləşdirmə proqramını, həm aqrar sektorda kolxozların, sovxozların ləğv olunması haqqında qanunu, aqrar sektorda islahatlar haqqında qanunu, ondan sonra, nəhayət, keçən ilin ortalarında "Torpaq islahatı haqqında" qanunu, başqa qanunları, bir çox başqa normativ sənədləri qəbul etdik. Burada artıq deyildi, – son zamanlar mən normativ xarakter daşıyan bir çox fərmanlar, bir çox sərəncamlar imzaladım ki, bunlar hamısı bu islahatların keçirilməsini təmin etsin.

Biz məhz bu yolla gedərək, artıq 1996-cı ilin sonunda müsbət meylləri hiss etdik. Amma eyni zamanda, – əvvəlki illərdə mən demişdim, bu gün də deyirəm, – mövcud potensialdan istifadə etmək yolu ilə getmək lazımdır. Mövcud potensialı vurub-dağıtmaq olmaz. Baş Dövlət Vergi Müfəttişliyinin rəisi Vəkilov indi öz çıxışında dedi ki, 943 milyard manat vergi yığılmışdır. 943 milyard manat verginin 700 milyardını dövlət [386-387] müəssisələrindən alıbdır. Əgər bunları işlətməsən, əgər bunları qorumasan, bunlardan səmərəli istifadə etməsən, elə vurub-dağıtsan, onda haradan vəsait gələcəkdir? Bu o demək deyil ki, biz bundan sonra da bu müəssisələri dövlət müəssisəsi kimi saxlayacağıq. Bir dövr var, bunlar hamısı get-gedə səhmdar cəmiyyətlərinə çevriləcəkdir, özəlləşdiriləcəkdir – bu, şübhəsizdir. Ancaq bu proses paralel getməlidir.

Amma xatirinizdədirsə, bir neçə müşavirədə bəzi şəxslər, o cümlədən Milli Məclisdə deyirdilər ki, "Bunu da dağıdaq, onu da dağıdaq", ancaq nə olduğunu heç bilmirdilər. İndi görürsünüz, kolxozlar öz-özünə ləğv olunur. Amma mənim xatirimdədir ki, iki il bundan öncə radikal çıxışlar olurdu ki, kolxozlar tamam məhv olmalıdır. Mən o vaxt da dedim, bu gün də deyirəm: həmin o kollektivləşmə zamanı – 20-ci illərin sonunda, 30-cu illərin əvvəllərində böyük səhvlər, böyük cinayətlər etmişdilər. Həm insanlara çox böyük zərbələr vurulmuşdu, həm də iqtisadiyyata zərbələr dəymişdi. 30-cu illərin o aclıqları, insanların qırılması – hamısı onun nəticəsi olmuşdur ki, o vaxtlar kənd təsərrüfatını zorla kollektivləşdirmək istəmişdilər. Şübhəsiz ki, əsrlər boyu mövcud olan istehsal sistemi pozulmuşdu, şəxsi mülkiyyət pozulmuşdu, adamların bir qismi buna etiraz etmiş, bir qismi çəkilmiş, bir qismi bu yeni formalara alışmamışdı. Buna görə də o vaxtlar Sovetlər ittifaqı, o cümlədən Azərbaycan da nə qədər ağır bir dövr yaşadı. Bunların hamısını biz tarixdən bilə-bilə, indi bir ilin içərisində, yarım ilin içərisində vur, dağıt kolxozları ki, kim nəyi aparır-aparsın, nə eləyir-eləsin, – olarmı bu? Qətiyyən olmaz.

İndi burada Bərdənin icra hakimiyyəti başçısı çıxış edirdi, komplekslər haqqında danışırdı. Həqiqətən, o kompleksləri görməyən adamlar, bunların tikintisində iştirak etməyən adamlar, o küçədən gəlmiş adamlar, ancaq qəzetlə danışan adamlar bilə bilməzlər bunlar nədir. Onlar da, bizim içimizdə olan bəzi adamlar da dünənə qədər nə o kompleksin üzünü [387-388] görmüşdü, nə ona nə qədər vəsait qoyulub – onu görmüşdü, nə ona nə qədər zəhmət qoyulub, – onu görmüşdü, onun nə qədər qiyməti var bu xalq üçün – onu da bilmir. Axı o, göydən düşməmişdir ki! O komplekslər bu insanların zəhmətinin nəticəsində əldə olunmuş vəsaitlə tikilibdir. İndi onları özbaşına buraxıb dağıtmaq olarmı? Görürsünüz, deyir qiyməti artıqdır, almaq da mümkün deyil, icarə haqqı da bahadır. Deməli, iqtisadi cəhətdən çətinliklər yaranır. Amma bu o demək deyil ki, bu çətinlikdən çıxmaq olmaz. Çıxmaq olar. Mən tapşırdım islahat komissiyasına, İrşad Əliyevə tapşırdım və güman edirəm. onlar axtarıb bunun yolunu tapacaqlar. Bəlkə də indi, ola bilər, onun qiymətində bir balaca güzəşt eləmək olar ki, insanlar bunu özəlləşdirib istifadə edə bilsinlər, yaxud başqa bir yol tapmaq olar. Ancaq bunu dağıtmaq yox, bundan səmərəli istifadə etmək yollarını aramaq lazımdır. Yenə də deyirəm, bunu ancaq o adamlar bilərlər ki, onlar bütün bunların yaranmasının iştirakçısı olublar, bunu görüblər, bunların nə qədər çətin vəziyyətdə yaranmasını görüblər.

Yadımdadır, vaxtilə, 1975-ci ildə bu böyük komplekslərin yaranması dəb düşdü. Yarış keçirilirdi. Hətta bizim respublikanın kənd təsərrüfatı sahəsində göstəriciləri çox vaxt onunla hesablanırdı, nəinki, məsələn, kənd təsərrüfatı istehsalından alınan əyani nəticələrlə. Kim nə qədər kompleks tikibdir. kompleks nə boydadır, ora nə qədər inək yerləşir, o nə qədər mexanikləşdirilibdir, yaxud başqa göstəricilər o vaxtın, o dövrün hökmü idi. Ancaq məlum şey odur ki, həmin o komplekslər – bir o deyil, kənd təsərrüfatı sahəsində o vaxtlar ixtisaslaşdırma və təmərküzləşdirmə şüarı ki var idi, – o şüar altında, o şüarı həyata keçirmək üçün çox böyük kapitallar qoyulmuşdur və çox böyük qurğular yaradılmışdır. Onları dağıtmaq, onları pozmaq və o vəsaiti itirmək qətiyyən olmaz.

Bir bu deyil. Ümumiyyətlə, həm sənayedə, həm kənd təsərrüfatında, həm inşaatda – iqtisadiyyatın bütün sahələrində ya[388-389]ranmış potensialı qoruyub saxlamaq lazımdır və onu, şübhəsiz ki, indi dövlət üçün, xalq üçün, hökumət üçün səmərəli surətdə özəlləşdirmək lazımdır. Bundan da biz gəlir götürməliyik, bundan da bizim büdcə bəhrələnməlidir. Ancaq sahibkarlar bunu özəlləşdirəndən sonra bundan şübhəsiz ki, daha da səmərəli istifadə edəcəklər.

Yəni, bax, bu misallarla mən onu demək istəyirəm ki, iqtisadi islahat keçirilməsi heç vaxt şüar kimi ola bilməz. Keçmişdə – sovetlər vaxtında şüarlardan – həmin o kollektivləşdirmə şüarından və başqa şüarlardan xalqımız nə qədər əziyyət çəkib, bunu biz heç vaxt unutmamalıyıq. Ona görə də indi onun əksinə olan şüarlar irəliyə sürüb, onların altında iqtisadiyyatımızı dağıtmağa yol vermək olmaz.

Ona görə də biz bunların qarşısını aldıq və indi hamı görür ki, bizim apardığımız planlı siyasət islahatların keçirilməsində ən düzgün siyasətdir və bunların da nəticələrini biz əldə edirik.

Mən 1995-ci ilin yanvar ayında Davosda Anatoli Çubaysla görüşümü sizə xatırlatdım. İndi Moskvada olarkən mən onunla bir daha görüşdüm, çox ətraflı söhbət etdim. Şübhəsiz ki, o, birinci növbədə iqtisadiyyatla maraqlandı. Mən ona bizim islahatlar sahəsində həyata keçirdiyimiz tədbirlər haqqında danışdıqca və konkret qərarlarımız, qanunlarımız haqqında məlumat verdikcə, o təəccüblənirdi və bəzən deyirdi: "Ola bilməz. Siz bunları etmisiniz?". Nəhayət, bizim söhbətimiz onunla qurtardı ki, o dedi – o vaxt siz bizdən həqiqətən geridə idiniz, amma indi siz bizi çox qabaqlamısınız, biz bu təcrübədən istifadə etməliyik. Məsələn, bu gün burada bu rəqəmlər deyildi. Rasizadə öz məruzəsində, başqa çıxış edənlər də dedilər. Yarım il müddətində ümumi daxili məhsul 5,2 faiz artıbdır. Bu, çox sevindirici bir rəqəmdir. Ancaq bizə bənzər başqa respublikalarda belə rəqəm yoxdur. Yaxud, sənaye istehsalının aşağı düşməsi dayandırılıbdır və indi sənaye istehsalı artır. Bu da [389-390] çox böyük bir hadisədir. Kənd təsərrüfatı istehsalı keçən il 3 faiz artıb, bu il də artım davam edir. Bu da, mən bayaq dedim, tarixi həqiqətdir. Neçə illərdir biz bu göstəricilərdən məhrum olmuşduq və bu göstəricilər haqqında heç düşünə bilməzdik. Yaxud da ki, vergilərin toplanması. Siz yaxşı bilirsiniz ki, başqa respublikalarda vergilərin toplanması ilə əlaqədar nə qədər tədbirlər keçirildi, hətta fövqəladə komissiyalar yaradıldı, inzibati orqanlar bu işə cəlb olunurdu. Təsadüfi deyil ki, başqa respublikada daxili işlər naziri eyni zamanda vergi toplanması işinə də rəhbərlik edir. Ancaq bizdə vergilər nəinki toplanıbdır, hətta keçən ilin müvafiq dövrünə nisbətən 40 faiz, 65 faiz artıb. Bunlar hamısı təsadüfi deyil, bunlar göydən düşmüş bir şey deyil. Bu rəqəmləri mən deyən kimi bu böyük təəccüb doğurdu. Yaxud da ki, məsələn, bizim məvaciblər və pensiyalar üzrə heç bir borcumuz yoxdur. Birinci yarımildə büdcə təşkilatlarında heç bir borc yoxdur. Amma siz televiziyadan görürsünüz ki, bizə bənzər başqa respublikalarda vəziyyət nə cürdür. Ümumiyyətlə, iqtisadiyyatda liberallaşdırma və xüsusən xarici ticarətin liberallaşdırılması çox böyük müsbət nəticələrə gətirib çıxarıbdır. Əgər bu il bizdə idxal-ixracda keçən illərə nisbətən dəyişiklik əmələ gəlibsə və artıq müsbət saldo yaranıbsa, yəni ixrac idxaldan çoxdursa, bu, iqtisadi cəhətdən çox dəyərli göstəricidir və bunu da mən onlara çatdıranda, şübhəsiz ki, bu, təəccüb doğurdu.

Burada deyildi, biz güzəştlərin ləğv olunması haqqında qərar qəbul etdik, Milli Məclis qanun qəbul etdi. Bu, şübhəsiz ki, çətin bir qərardır. Amma bunu qəbul etmək lazım idi. Mən bu gün bir daha bildirmək istəyirəm ki, bu qərarın qəbul edilməsi tam zəruridir. Çünki bazar iqtisadiyyatı sistemi ilə gedərkən keçmiş sosialist

iqtisadiyyatının ünsürlərini yanaşı aparmaq olmaz. Müəyyən müddət bunlar yan-yana gedə bilərlər. Müəyyən müddət. Ancaq bu müəyyən keçid dövrü ola bilər. Əgər biz istəyiriksə, artıq irəliyə gedək, bu olmaz. Biz bunu [390-391] heç kəsə zərər vurmadan etmişik. Əgər biz güzəştləri götürdüksə, o güzəştlərdən istifadə eləyən adamların məvaciblərini artırdıq, müavinətlər verdik və mən göstəriş vermişəm, – indi, düzdür, maliyyə naziri burada dedi ki, təbii fəlakət bizdən çox vəsait tələb edir, ona görə çətin olacaq, – nə qədər çətin olsa, biz məvacibləri yenə də artıracağıq. Artıracağıq. Siz görürsünüz, burada rəqəmlər gətirildi. Orta əmək haqqı 121 min manata çatıbdır, məvaciblər 56 faiz artıbdır. Biz bunları ödəyəcəyik və bunları etmək üçün, bunlara nail olmaq üçün sosial-iqtisadi sahənin bütün istiqamətlərini bazar iqtisadiyyatı istiqamətinə gətirib çıxarmalıyıq.

Bizdə son vaxtlara qədər, bu güzəştləri ləğv edənə qədər polis, prokurorluq işçiləri şəhər nəqliyyatından pulsuz istifadə edirdilər. Bilmirəm niyə indiyə qədər buna yol verilmişdir. Keçmişdə belə çıxırdı ki, bunlar dövlət işi ilə məşğuldurlar, ona görə də pulsuz gedirlər. Biz bunu ləğv elədik. Amma mən Moskvada olanda öyrəndim ki, nəinki polis, prokurorluq və ya digər inzibati orqanların işçiləri, hətta bütün hərbi qulluqçular şəhər nəqliyyatından pulsuz istifadə edirlər. Mənə dedilər ki, Moskvada şəhər nəqliyyatından, ola bilər ki, 80 faiz camaat pulsuz istifadə eləyir, cəmi 20 faizi pul verir.

İndi ola bilər, hələ ki, Moskva şəhərinin, yaxud digər şəhərlərin başqa iqtisadi imkanları var ki, onlar dotasiyanı verirlər, nəqliyyatı saxlayırlar. Amma bu da daimi deyil. Bunu çox saxlaya bilməyəcəklər. Bu, mümkün deyil.

Ona görə də biz bu güzəştləri ləğv etdik. Tamamilə düz etmişik və bunu da düzgün başa düşmək lazımdır. Eşitmişəm ki, bəzi ayrı-ayrı qüvvələr istəyirlər ki, bu təbəqələrdən istifadə etsinlər, bunları qızışdırsınlar, bunlar bir hay-küy salsınlar. Bunlar əhəmiyyətsizdir. Çünki bu insanlar bizim siyasətimizə, o cümlədən iqtisadi siyasətimizə də, sosial siyasətimizə də inanırlar. Əgər kimisə yoldan çıxaracaqlarsa, biz onların da qarşısını almağa qadirik. [391-392]

Mən hesab edirəm ki, çox düzgün iş görmüşük və bunun da nəticələri alınacaqdır. Bu nə cür ola bilər? Rasizadə dəfələrlə gəlib mənə danışır ki, Müslüm İmanov – energetika sisteminin rəisi elektrik enerjisinə pul vermir. Niyə vermir? Çünki arvadı müəllimədir. Yaxud, böyük bir biznesmen bilmir pulu hara qoysun, amma elektrik pulu vermir, çünki arvadı müəllimədir.

Bilirsiniz, bunlar tək-tək hallar deyil, belələri çoxdur. Ailədə 5-6 adam var, biri biznesmendir, biri başqa yerdə işləyir, yaxşı məvacib alır, amma biri müəllimdir, ya müəllimədir, – onun hesabına bunlar elektrik enerjisinin pulundan, ya qaz pulundan, başqa şeylərdən, – hamısından azaddırlar. Bu, ədalətlidirmi belə? Ədalətli deyil. Biz müəllimlərin məvacibini artırdıq, o cümlədən Müslüm İmanovun arvadının məvacibini artırdıq. Amma Müslüm İmanov elektrik enerjisinin pulunu verməlidir. O biznesmenin də arvadının məvacibini artırdıq. Amma o biznesmen də elektrik enerjisinin, yaxud başqa məişət xidmətinin pullarını verməlidir.

Bilirsiniz, belə bir qərarı qəbul etməyi də biz bir gün, iki gün yox, bir ildir müzakirə edirdik. Bir ildir. Dəfələrlə bunu istəmişik, amma kənara qoymuşuq. Nə üçün? Çünki o məvacibləri artırmağa, müavinətləri verməyə imkanımız yox idi. O imkanları əldə edəndən sonra biz bunu etdik. Yəni görürsünüz, bax, bunların hamısını bəlkə də çoxları adi hal hesab edir, amma bunlar radikal addımlardır. İqtisadi islahatlar sahəsində radikal addımlardır.

Yaxud, "Torpaq islahatı haqqında" qanunumuz. Biz keçən il bu vaxt "Torpaq islahatı haqqında" qanun qəbul etmişik, – bir il bundan öncə. Torpağın xüsusi mülkiyyətə verilməsi artıq həyata keçirilir. Bu müddətdə neçə dəfə belə toplantılar keçirmişik. Hər dəfə mən soruşuram, bu gün də soruşuram, – camaatda, ictimaiyyətdə, kənd yerində buna münasibət necədir, narazılıq varmı? Yoxdur. Əksinə, razıdırlar. [392-393]

Mən Anatoli Çubaysla danışarkən ona deyəndə ki, biz belə bir radikal qanun, torpağın xüsusi mülkiyyətə verilməsi haqqında qanun qəbul etmişik və onu həyata keçiririk, – bu, onu həddən artıq təəccübləndirdi. O mənə dedi ki, bu yaxın vaxtlarda Rusiyanın parlamenti torpaq kodeksi qəbul edibdir, o da torpaq islahatı sahəsində heç bir nəticə verməyəcək, – onun fikridir, – ancaq hər halda, torpağın xüsusi mülkiyyətə verilməsi haqqında qanun qəbul olunmayıbdır. Amma biz bunu qəbul etmişik. Bu, radikal qanundur, çox ciddi qanundur. Artıq biz görürük ki, bunun nə gözəl nəticəsi olacaqdır.

İndi görürsünüz, burada çıxış edənlər mal-qaranın özəlləşdirilməsi haqqında çox böyük həvəslə məlumat verirlər. Amma xatırlayın, keçən il mən bu məsələni bax, belə toplantılarda neçə dəfə çox təkidlə irəli sürmüşəm və tələb etmişəm ki, tezliklə mal-qaranı kolxozlardan, sovxozlardan götürün və camaata verin. Verilib. İndi çıxış edənlər rəqəmlər gətirir, o cümlədən xızılı fermer də, icra hakimiyyəti başçıları da rəqəm gətirdilər ki, nə qədər iribuynuzlu, nə qədər xırdabuynuzlu mal artıbdır və ümumiyyətlə, sürünün keyfiyyəti nə qədər dəyişibdir. Məsələ tək sayda deyil ki! Əgər Tovuzda iribuynuzlu malların içində ana mal 41 faiz təşkil edirsə, bu, səmərəliliyin ən yüksək səviyyəsidir.

İcra hakimiyyəti başçısı çıxış edərkən mən dedim, – vaxtilə biz burada işləyəndə bu rəqəmlərlə məşğul idik. Biz iribuynuzlu mal-qaranın içində ana malın sayını orta hesabla 30 faizə qaldıra bilmirdik, 23-24 faizdən yuxarıya qalxmırdı. Amma indi 41 faizə qalxıbdır. Həm də bu, tək orada deyil, güman edirəm ki, başqa rayonlarda da belədir.

Beləliklə, görürsünüz, heyvandarlıq sektorunun özəlləşdirilməsi böyük bir çətinlik tələb etmədi. Amma nəticəsi göz qabağındadır. Bizdə ət problemi yoxdur, süd-yağ problemi yoxdur, ətin də qiyməti başqa yerlərə nisbətən ucuzdur. Tam əminəm ki, biz torpaq islahatını axıra çatdırandan sonra kənd [393-394] təsərrüfatımızda böyük dəyişikliklər olacaqdır, insanların yaşayışı da yaxşılaşacaqdır və biz bütün tələbatımızı da özümüz ödəyə biləcəyik.

Yaxud, bizim həyata keçirdiyimiz struktur dəyişikliklərini götürək. Burada məruzələrdə göstərdilər. Nə qədər nazirlikləri ləğv elədik, nə qədər konsernləri ləğv elədik. Bu qərarları qəbul edərkən biz müzakirə edirdik, biri deyirdi olar, biri deyirdi olmaz, bunu ləğv eləsək belə olacaq. Heç bir şey olmadı, əksinə, nəticəsi odur ki, işlər yaxşılaşdı. İndi bizim çörəklə təminat problemimiz tamamilə yoxdur. Amma keçən ilin əvvəlindəki vəziyyəti deyim. Keçən il biz xahiş etmişdik, Qazaxıstandan bizə buğda versinlər, ora xeyli miqdarda valyuta da keçirmişdik. Bu dəyişiklikləri aparandan sonra, respublikada taxıl məhsulları sahəsi özəl sektora keçəndən sonra bizim buna ehtiyacımız yoxdur. İndi bizim o valyutamızı da geriyə qaytarmırlar. Yəni bu problemdən də biz canımızı qurtardıq. Amma bu nə qədər bizə əziyyət verirdi. Yenə də deyirəm, bunlar hamısı onu göstərir ki, biz iqtisadi islahatları ardıcıl surətdə həyata keçiririk. Cəsarətlə həyata keçiririk, bu sahədə çox irəli getmişik və bunların əməli nəticələrini görürük.

Struktur dəyişiklikləri davam etməlidir. Hesab edirəm ki, bu sahədə görüləsi işlərimiz hələ çoxdur. Dərhal demək istəyirəm və baş nazirə tapşırmaq istəyirəm ki, birinci növbədə yaxın zamanlarda bizim inşaat təşkilatlarının strukturu sahəsində dəyişikliklər haqqında təklif versin. Doğrudur, bu barədə Abid Şərifov bir-iki dəfə öz fikirlərini deyibdir. Amma bunu konkretləşdirmək lazımdır. Bu barədə bizim müzakirəmiz olubdur. Bizdə nə qədər inşaat nazirliyi, şirkəti var! Nə bilim, sənaye tikintisi şirkəti, kənd tikintisi şirkəti, aqrar tikinti şirkəti, başqaları... Hərəsi nə qədər aparat saxlayır, hərəsi nə qədər bina saxlayır. O binaların da çoxu boşdur. Çünki onların o qədər işi də yoxdur. Yəni, əvvəlkinə nisbətən işi yoxdur, hərəsinin işi ola bilər ki, 10-15 dəfə ixtisara düşüb. Amma biz də bunları [394-395] elə-belə qoymuşuq. Məsələn, indi Şəmsəddin Xanbabayev bunu deməliydi, amma demədi. O, çıxışını bir az başqa istiqamətdə qurdu. Amma onların bir yaxşı göstəricisi var, bunu deyə bilərdi. Vasif Talıbov vaxtilə mənə müraciət etdi. Mən də onlara razılıq verdim. Naxçıvanda olan inşaat təşkilatlarının hamısını birləşdirdilər. Elədirmi?

**Vasif Talıbov( Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri):** Bəli.

**Heydər Əliyev:** Neçə təşkilatı birləşdirdiniz?

**Vasif Talıbov:** Dörd təşkilatı.

**Heydər Əliyev:** İndi bir təşkilatdır. Nə qədər adam ixtisar olundu. 500-ə qədər adam ixtisar olundu. Onlar da şübhəsiz ki, özlərinə iş tapacaqlar və biz də onlara iş tapacağıq. Amma, görürsünüz, nə qədər vəsaitə qənaət olundu. Elədirmi? Naxçıvanda bunu mənə təklif etdilər, – mən dedim, – sən gözləmə respublikada bu barədə tədbirlərin görülməsini, özünüz edin. Mən onlara razılıq verdim, onlar da etdilər. İndi mən Şəmsəddin Xanbabayevə kömək edirəm. Onların islahat sahəsində gördükləri işləri deyirəm. Bu, təcrübədir, biz tezliklə bunu etməliyik. Bizim bir çox başqa nazirliklər, komitələr var. Onların da haqqında düşünmək lazımdır, onların ləğv olunması haqqında qərarlar qəbul etmək lazımdır və nəhayət, bizim Nazirlər Kabinetinin tərkibini artıq təkmilləşdirmək lazımdır.

Burada bəzi adamlar, yenə də deyirəm, təcrübəsiz olduqlarına görə dəfələrlə deyirlər ki, nə vaxt Azərbaycanda Nazirlər Kabineti formalaşacaqdır, nə vaxt onun tərkibi müəyyən olunacaqdır. Bilirsiniz, strukturun təkmilləşdirilməsi prosesi gedən zaman bunu etmək olmaz. Bunu o vaxt etmək olar ki, məsələn, Nazirlər Kabinetinin, yaxud da bütün nazirliklərin strukturu tam müəyyən olunsun. Bu, müəyyən bir dövrdə – üç ilə, beş ilə müəyyən olunur. Onda məlum olur ki, neçə nazirlik lazımdır, neçə komitə lazımdır və Nazirlər Kabineti də forma[395-396]laşır. Amma bizdə iqtisadi islahatlar prosesi getdiyinə görə struktur dəyişiklikləri, struktur islahatları apardığımıza görə bunu bir dəfəyə, iki dəfəyə etmək olmaz. Biz bu barədə çox iş görmüşük. Burada artıq məlumatlar verildi, – nə qədər nazirlik, konsern ləğv olunub. Ancaq hələ çox işlər də görülməlidir. Mən baş nazirə göstəriş verdim ki, xüsusən inşaat sahəsində gərək bu təkliflər yaxın vaxtlarda mənə təqdim olunsun.

Amma bir bu deyil. Ümumiyyətlə, islahatların keçirilməsində çox başqa işlər də var. Burada özəlləşdirmə haqqında Əmlak Komitəsinin sədri məlumat verdi. Aqrar sektorda islahatlar haqqında kənd təsərrüfatı naziri məlumat verdi. Hesab edirəm ki, bu sahələrdə xeyli iş görülübdür, yaxşı təcrübə toplanıbdır. Amma hələ qarşıda görüləsi çox işlər var. Ona görə də ilin ikinci yarısında, yəni bu ilin sonuna qədər özəlləşdirmə proqramının həyata keçirilməsi daha da sürətlə aparılmalıdır. Aqrar sektorda, xüsusən torpaq islahatının həyata keçirilməsi və başqa iqtisadi tədbirlərin həyata keçirilməsi sahəsində ilin ikinci yarısında mütləq iş aparılmalıdır. Məsələn, aqrar sektorda emal müəssisələri sürətlə özəlləşdirilməlidir. Yaxşı ki, pambıq zavodlarının özəlləşdirilməsi təmin olunur, amma bizdə nə qədər şərab emalı müəssisələri var, nə qədər meyvə-tərəvəz emalı, başqa konserv zavodları var. Bunların da tezliklə özəlləşdirilməsinə başlamaq lazımdır və bunları həyata keçirmək lazımdır. Hər halda təcrübə onu göstərir ki, bu tədbirlər həyata keçirilərkən biz bunun müsbət nəticələrini əldə edirik.

Beləliklə, hesab edirəm ki, biz iqtisadiyyatda müsbət meyllərin şahidiyik, müsbət nəticələrin şahidiyik. Xatırlayın, düz bir il bundan öncə – 1996-cı il iyul ayının 18-19-da burada, bu salonda mən Nazirlər Kabinetinin geniş iclasını keçirdim. O vaxt biz çox ciddi danışıq apardıq. Mən bir neçə təşkilati tədbir görmək məcburiyyətində oldum və onları etdim. Bir neçə adam vəzifəsindən azad olundu, o cümlədən baş nazir, bəzi [396-397] nazirlər, konsern rəhbərləri vəzifəsindən azad edildilər. Yeni adamlar təyin olundu. Bu gün mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, bir il keçəndən sonra xeyli müsbət dəyişikliklər var. Nazirlər Kabinetinin işində də nəhayət, canlanma hiss olunur, müsbət meyllər hiss olunur və mən bu gün bunu qiymətləndirirəm.

Demək, əgər yüksək vəzifəyə təyin olunan şəxslər öz məsuliyyətini dərk edə bilsələr, işləmək də olar, nəticə də əldə etmək olar. Amma təəssüflər olsun ki, ən çox keçən illərdə mən bununla rastlaşmışam, indi bu son illərdə də mən burada yenidən işləyərkən bununla rastlaşıram, – bəzi adamlara yüksək vəzifə verərkən hesab edirlər ki, bu vəzifəni ancaq onun şəxsi mənafelərini təmin etmək üçün veriblər və onun heç bir başqa məsuliyyəti yoxdur. Bütün başqa şeyləri unudurlar. Bu, həm ümumi işimizə zərər gətirir, həm də bu insanların özlərini sonra çox pis vəziyyətdə qoyur. Bu dörd il müddətində mən neçə-neçə yüksək vəzifəli adamları, özüm vəzifəyə təyin etdiyim adamları özüm də o vəzifələrdən kənar etmişəm. Nə üçün? Çünki mən o vəzifəyə təyin edərkən onlara inanmışam, böyük ümid bəsləmişəm. Bəlkə onların səhvlərinə, nöqsanlarına, bəzən vəzifələrindən sui-istifadə etmələrinə də bir çox hallarda dözümlü olmuşam, dəfələrlə xəbərdarlıq etmişəm, ancaq nəticə çıxarmayanda başqa yolu yoxdur – elə adamlarla vidalaşıram və bundan sonra da belə olacaqdır.

Ona görə də mən bir il bundan öncə Nazirlər Kabinetinin geniş iclasını sizin xatirinizə salaraq hər birinizin məsuliyyətinin daha da artmasını tələb edirəm. Bilirsiniz, biz hamımız – dövlətdə, hökumətdə, dövlət orqanlarında yüksək vəzifə tutan şəxslər xalq qarşısında, millət qarşısında böyük məsuliyyət daşıyırıq və bizim bugünkü vəziyyətimiz keçmiş illərdən, yəni Sovetlər İttifaqında olduğumuz dövrdən qat-qat fərqlidir. O vaxt da biz məsuliyyət daşıyırdıq, məsuliyyətlə işləməliydik və çoxları da məsuliyyətlə işləyirdi. Ancaq o vaxt biz böyük [397-398] dövlətin bir hissəsiydik. Doğrudur, öz ölkəmizdə, torpağımızda, respublikamızda işlərimizi öz respublikamız üçün qururduq. Amma müstəqil deyildik, azad deyildik, ölkəmizin tam sahibi deyildik. İndi biz müstəqil olduğumuza görə, azad olduğumuza görə, ölkəmizin sahibi olduğumuza görə ölkəmiz haqqında, torpağımız haqqında, Vətənimiz haqqında, bizə etibar göstərən xalqın haqqında daim düşünməliyik. Ancaq və ancaq! Bizim başqa düşüncəmiz olmamalıdır. Öz şəxsi mənafelərimizi, şəxsi işlərimizi biz kənara qoymalıyıq, onlar sonuncu dərəcəli məsələlər səviyyəsində olmalıdır. Birinci dərəcəli məsələ, birinci dərəcəli vəzifə ümumxalq, ümummilli mənafeyimizdir. Ona görə də məsuliyyətlə işləməliyik. Təcrübə də göstərir ki, məsuliyyətlə işləyən adam, öz məsuliyyətini dərk edən adam həm xalqına, ölkəsinə mənfəət verir, həm də özü-özünə, birinci növbədə mənəvi cəhətdən çox böyük mənfəət gətirir.

Mən güman edirəm ki, bir il bundan qabaq qəbul olunan həmin o qərarlardan, ondan sonra mənim qəbul etdiyim qərarlardan bir daha hamı özü üçün nəticə çıxaracaqdır. Mən çox arzu edirəm ki, bizim yüksək vəzifəli şəxslərimiz öz xalqına. öz millətinə, öz Vətəninə, öz torpağına canla-başla, səmimiyyətlə xidmət etsinlər. Belə imkanlar var. Belə imkanları mən yaradıram və bundan sonra da yaradacağam. Sadəcə, insanlarda təşəbbüskarlıq lazımdır, böyük məsuliyyət hissi lazımdır.

Beləliklə, biz iqtisadiyyatda bazar iqtisadiyyatı yolu ilə gedirik. Bu, bizim yolumuzdur. Mən dedim, – həm özəlləşdirmə proqramının həyata keçirilməsi, həm torpaq islahatının həyata keçirilməsi, başqa iqtisadi islahatların həyata keçirilməsi məhz bu yolu daha da sürətlə keçmək üçün lazımdır. Bunun üçün insanlara sərbəstlik vermək, sahibkarlığa şərait yaratmaq, təşəbbüskarlığa şərait və imkanlar yaratmaq bizim vəzifəmizdir. [398-399]

Sizə məlumdur ki, bu yaxınlarda mən sahibkarlığa yardım haqqında böyük bir proqram qəbul etmişəm və fərman imzalamışam. Burada çıxışlarda deyildi və bunu da nəzərə almaq lazımdır, Nazirlər Kabineti bu işlərlə daha da ciddi məşğul olmalıdır ki, sahibkarlara nə cür yardım etmək olar. O proqram var, amma proqramın həyata keçirilməsi bir çox əməli tədbirlər görülməsini tələb edir. Ona görə də Nazirlər Kabineti və bütün nazirlərimiz bu işlərlə məşğul olmalıdırlar. Sahibkarlığı inkişaf etdirmək üçün eyni zamanda, sahibkarlıqla məşğul olan adamlara mane olmaq lazım deyil. Doğrudur, qanun pozanlar var, vəzifəsindən sui-istifadə edənlər var, cinayətkarlar var, vergidən gizlənənlər var. Məsələn, bu gün Vəkilov bildirdi ki, vergidən yayınanlar, gizlənənlər barəsində onlar tədbirlər görürlər. Mən hesab edirəm ki, bunlar o qədər də ciddi tədbirlər deyil. Vergidən gizlənənlər var, bu məsələ ilə çox ciddi məşğul olmaq lazımdır. Cürbəcür qeyri-qanuni yollarla iş görənlər var, bunların qarşısı alınmalıdır. Ancaq bunların qarşısını alarkən biz ümumiyyətlə iş adamlarına, sahibkarlığa mane olmamalıyıq. Təəssüf ki, – bunu da etiraf etmək lazımdır, – respublikamızda hələ ki, iş adamlarına maneçilik törədən qüvvələr var, sahibkarlığa maneçilik törədənlər var – bizim bəzi nəzarət orqanları və xüsusən hüquq mühafizə orqanları. Bunların da hamısı təkcə iş adamlarına görə yox, ümumiyyətlə, bütün başqa sahələrdə respublikamızda rüşvətxorluğun, korrupsiyanın hələ də mövcud olduğunu bir daha göstərir.

Mən görürəm biz bu gün daha çox müsbət məsələlər, müsbət nəticələr haqqında danışırıq. Bu əsaslıdır, təbiidir, bizim buna haqqımız var. Ancaq biz heç vaxt unutmamalıyıq ki, hələ nöqsanlarımız çoxdur. O cümlədən iqtisadi islahatların həyata keçirilməsində nöqsanlar çoxdur, özəlləşdirmə proqramının, torpaq islahatının, bütün başqa islahatların həyata keçirilməsində nöqsanlarımız, çatışmazlıqlarımız çoxdur. Bunu

unutmamalıyıq və bu gün belə bir əhval-ruhiyyə yaranmasın [399-400] ki, bizdə hər şey artıq yaxşı vəziyyətdədir. Xeyr, xeyr, indi bizim vəzifəmiz ilin ikinci yarısını daha yaxşı göstəricilərlə başa çatdırmaqdır və ili daha yüksək göstəricilərlə tamamlamaqdır. Bu, bizim əsas vəzifəmizdir. Ona görə də bir tərəfdən, əldə olunan təcrübəni daha da səmərəli tətbiq etmək, ondan istifadə etmək lazımdır. İkinci tərəfdən, mövcud olan nöqsanları aradan qaldırmaq lazımdır. Onlar isə çoxdur. Bu baxımdan, yenə də ümumiyyətlə, iqtisadiyyatda, bütün həyatımızda insanlara mane olan rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, korrupsiya, – bu hallar respublikamızda mövcuddur və heç kəs elə hesab etməsin ki, bunlar aradan qaldırılıbdır, – bunlara qarşı qanunlar vasitəsilə mübarizə, bizim dövlət prinsipləri vasitəsilə mübarizə aparılmalıdır. İnzibati orqanlar da mübarizə aparmalıdır. Ancaq dərd burasındadır ki, inzibati orqanların özünün içərisində korrupsiya, rüşvətxorluq çoxdur. Dərd burasındadır.

Ona görə də inzibati orqanların vəzifəsi – hüquq mühafizə orqanlarını mən deyirəm, – birinci növbədə öz sıralarında belə hallarla ciddi mübarizə aparmaq, eyni zamanda bütün cəmiyyətdə, ölkəmizdə belə hallarla mübarizə aparmaqdır. Ancaq cəmiyyətdə, ölkədə mübarizə aparmaq üçün buna gərək sənin mənəvi haqqın olsun. Mənəvi haqq da onda ola bilər ki, sənin özün bu qüsurlardan azad olmuş adam olasan, orqan bu qüsurlardan azad olmuş bir orqan olsun. Təəssüf ki, bu belə deyil. Ona görə də, bu da bütün sahələrdə bizim qarşımızda duran əsas vəzifələrdən biridir.

Burada Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Dilruba Camalova danışarkən mən müdaxilə etdim. Amma indi bu barədə daha da açıq demək istəyirəm. Bizim hüquq mühafizə orqanları, xüsusən Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Prokurorluq yaxşı işləyirlər, mən ümumiyyətlə onların işindən razıyam. Çünki 1995-ci ildə, 1996-cı ildə, 1997-ci ildə təhlükəli cinayətlərin qarşısının alınmasında və cinayət törətmiş adamların axtarılmasında, tapılmasında, ifşa olunmasında [400-401] onların xidmətləri çox böyükdür. Mən bunu yüksək qiymətləndirirəm. Onlar nəinki Azərbaycanın özündə olan cinayətkarların çoxunu aşkar edib, yaxalayıb və cinayət məsuliyyətinə cəlb ediblər, hətta qaçıb başqa ölkələrdə, xüsusən Rusiyada gizlənən ən qatı cinayətkarların da yaxalanması, tapılıb gətirilməsi, məsuliyyətə cəlb edilməsi, ifşa olunması onların böyük və gərgin əməyinin nəticəsidir. Mən bunları qiymətləndirirəm və hesab edirəm ki, bizim orqanlar bu sahədə heç vaxt belə səmərəli işləməyiblər.

Ancaq bununla yanaşı, hüquq mühafizə orqanlarının içərisində özbaşınalığa, vəzifədən sui-istifadə etmək hallarına da yol vermək olmaz və mən bunları heç kəsə bağışlamamışam və bağışlamayacağam. Yaxşı işlərə görə təşəkkür edirəm, ancaq nöqsanları aradan qaldırmaq lazımdır. Bu nöqsanlar var, yenə də deyirəm, rüşvətxorluq da var, vəzifədən sui-istifadə etmək halları da var, başqa hallar da var.

O cümlədən, iş adamlarına çox maneçilik törədirlər. Dəfələrlə danışmışıq ki, bu yoxlamalar aradan götürülməlidir. Amma bu yoxlamalar yenə də davam edir.

**Ramiz Mehdiyev – (Prezidentin İcra Aparatının rəhbəri):** Fərman verilibdir.

**Heydər Əliyev:** Bəli, fərman verilibdir, amma fərman icra olunmalıdır, aparat da o fərmanın icra olunmasına nəzarət etməlidir. Əgər fərman verilib, bir müddət o fərmanın icrası nəzarət altında olandan sonra unuduldusa, yenə prokurorluq orada bir yoxlama aparır, polis burada bir yoxlama aparır, orada yoxlama aparır. Yoxlamanın nəticəsi də heç bir şey deyil. Yenə də bir nəticəsi olsa, bizim dövlətə, hökumətə xeyir gəlsə, deyərəm ki, bu yoxlama olsun. Axırda elə çıxır ki, ortada bir nəticə yoxdur. Belə yoxlamalar nə üçün lazımdır? Bundan şikayət edirlər. Xarici biznesmenlər, iş adamları da bundan şikayət edirlər və bizim öz iş adamlarımız da bundan şikayət edirlər, ümumiyyətlə, camaat bundan şikayət edir. Bilirsiniz, [401-402] indi köhnə sistem yoxdur. Yeni bir sistemdir və yeni sistemi də biz təşkil edirik. Əgər bu sistemi təşkil edərkən bu adamı orada sıxacaqsan, burada sıxacaqsan, o da görəcəkdir ki, elə qazandığını ona verdi, buna verdi, özünə də bir şey qalmadı, – nə üçün bu işlə məşğul olacaq? Bəlkə də o, işi görəndə haradasa bir az qanunu pozub. Bu yaramaz, gərək o, qanunu pozmasın. Ancaq bu qanunun pozulmasından çox, əgər bir hüquq mühafizə orqanının nümayəndəsi gedib onu sıxırsa, ondan rüşvət alırsa qanunu ikiqat pozur. Ona görə də mən tələb edirəm ki, bunlara son qoyulsun. O cümlədən, xüsusən, – indi yay vaxtıdı, amma tək yay vaxtına aid deyil, – bizim bu yollarda, mənə bu siqnallar çoxdan gəlibdir, amma bu gün Camalova mənim sadəcə yadıma saldı, – nə qədər post qoymaq olar?

Bilirsiniz, mən bu şeyləri keçmişdə də görmüşəm. Bu yaxınlarda mətbuatda da deyildi ki, 28 il bundan öncə mən ilk dəfə Azərbaycanın rəhbəri seçilmişəm. Bəli, o vaxt, 1969-cu ilin iyul ayında mən Azərbaycana rəhbər seçilərkən Azərbaycanda bu cür hərc-mərclik çox idi. Mən isə ondan öncə işlədiyim vəzifədə bunların çoxunu yaxşı bilirdim. Məni təyin edəndə, çoxları məni tanımırdı, çünki işim elə idi ki, ictimaiyyətdə o qədər də məşhur adam deyildim. Fəallar tanıyırdı, amma geniş kütlələr o qədər tanımırdı. Yəni mən orada-burada çıxış etmirdim, televiziyada göstərmirdilər. Ona görə də mən bir müddət – təxminən bir ay bundan istifadə etdim, şəxsən özüm bu işlərlə məşğul oldum. Xatirinizdədir, o vaxt adamlar mənə bir ləqəb də qoymuşdular ki, "Mixaylo". Bir neçə əməliyyatı respublikanın başçısı kimi özüm keçirəndən sonra mənə dedilər ki, haradansa fotoşəkillərimi tapıblar, çoxaldırlar, satırlar və çox adamlara verirlər ki, məni görəndə tanısınlar. Çünki bəzən mağazalara gedirdim, nöqsanları aşkar edirdim, onlar tanımırdılar mən kiməm, ona görə də özlərini çox kobud aparırdılar və sonra da çox böyük bəlaya düşürdülər. [402-403]

O vaxt, 28 il bundan öncə, mən bir eksperiment keçirdim. O vaxt bizim tanınmayan işçilərimiz, məxfi işçilər var idi. Onların bir-ikisinə tapşırdım ki, gedin Sabirabada, bir avtomaşın qarpız alın, gətirin bazara satmağa. Görək yolda bunu neçə yerdə saxlayacaqlar, nə qədər rüşvət alacaqlar. Gətirdilər, onlara da mən tapşırmışdım ki, gizli foto çəkirdilər. O vaxt televiziya, yəni bu video yox idi, fotoaparatla adamları gizli çəkirdilər. Sabirabaddan buraya gələnə qədər 7-8 yerdə onları saxlamışdılar – nə bilim, polis işçisidir, yol işçisidir, nədir. O vaxt polis deyildi, milis idi. Hamısı da rüşvət almışdılar. Bu şəkilləri gətirdilər, mən o vaxt daxili işlər nazirini çağırdım, şəkilləri qoydum stolun üstünə və tələb etdim ki, o adamlar cəzalandırılsın. Xatirinizdədir, o vaxt mən 5-6 aydan sonra Daxili İşlər Nazirliyinin bütün rəhbərliyini kənarlaşdırdım. Hamısını – naziri də, müavinləri də işdən çıxardım.

Yəni demək istəyirəm ki, bu, yeni bir şey deyil və heç kəs də bu gün deməsin ki, bu belə deyil. İndi Usubov durub mənə desə ki, yox, bu belə deyil, belədir, mən heç yoxlamamışdan buna inanmaram. Çünki mən bunu 28 il bundan qabaq görmüşəm. Amma indi nizam-intizam ona nisbətən daha da zəifdir, onu da etiraf etmək lazımdır. O vaxt nizam-intizam bundan möhkəm idi.

Ona görə də bu postlar məsələsinə Daxili İşlər Nazirliyi baxmalıdır. Sonra, deyir, bizim Milli Təhlükəsizlik Nazirliyi də post qoyur, başqaları da qoyurlar. Onlar da buna baxmalıdır və o postlar, hansı ki, doğrudan da, cinayətkarların qarşısının alınması üçün, axtarılıb tapılması üçün lazımdır, – onlar olmalıdır, amma qalanları olmamalıdır. Yığışdırmaq lazımdır. Buradan Dağıstan sərhədinə qədər, hələ Camalova cənubu dedi, şimalda da belədir. Yaxud, buradan Gürcüstan sərhədinə qədər, Gəncədən Qazaxa qədər, – orada da belədir. Bunlar hamısı bizim həm iqtisadiyyatımıza zərər verir, həm insanlara zərər verir. Ayrı-ayrı adamlara qeyri-qanuni gəlir gətirir, ancaq [403-404] ümumi işimizə tamam zərər verir. Bunları aradan götürmək lazımdır. Mən tələb edirəm və bizim aparata tapşırıram ki, siz bunların hamısına nəzarət edin, – həm o yoxlamaların aradan götürülməsinə, həm də bu məsələlərə. Bir 10-15 gündən sonra mənə bu barədə rəsmi məlumat verin.

**Ramiz Mehdiyev:** Oldu, baş üstə.

**Heydər Əliyev:** Beləliklə, bizim bu gün müzakirə etdiyimiz məsələlər çox aktual məsələlərdir. Güman edirəm ki, bundan sonra iqtisadi islahatların həyata keçirilməsi sahəsində, iqtisadiyyatda inkişafın təmin olunması sahəsində, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində bu müzakirələr öz müsbət təsirini göstərəcəkdir.

Bu gün müzakirə etdiyimiz əsas məsələlərdən biri son vaxtlar baş vermiş təbii fəlakət, dəymiş zərər və onların aradan qaldırılmasıdır. Bu barədə geniş məlumat verildi və biz bunu özümüz də müzakirə etmişik. Mən Nazirlər Kabinetinə göstəriş vermişəm, bu məsələlərin həll olunması üçün, yəni bu tədbirlərin həyata keçirilməsi üçün mənim sərəncamım hazırlanıbdır, onun layihəsi burada var. İndi bu müzakirə ilə əlaqədar siz bu gün də, sabah da bu layihəyə bir də baxın, sonra mən o sərəncamı imzalayacağam. Ancaq hesab edirəm ki, bugünkü müzakirənin yekunları olaraq və mənim sərəncamımın həyata keçirilməsi üçün bu məsələ Nazirlər Kabinetinin iclasında daha da konkret müzakirə edilməlidir. Mən bu barədə göstəriş vermişəm və hesab edirəm ki, bir neçə gündən sonra bunu etmək lazımdır.

Biz bu gün ilin birinci yarısının yekunlarını da müzakirə etdik. Ancaq bu, ümumi müzakirədir. Hesab edirəm ki, ilin birinci yarısının yekunları da bugünkü müzakirədən sonra və bunların əsasında Nazirlər Kabinetinin iclasında müzakirə olunmalıdır. Çünki həm təbii fəlakətdən dəymiş zərərin aradan götürülməsi üçün, mənim sərəncamım əsasında əməli tədbirlər görülməsi üçün Nazirlər Kabinetinin qərarı qəbul olunmalıdır, [404-405] həm də burada qoyulan vəzifələrin həyata keçirilməsi üçün, ilin ikinci yarısında görüləsi işlər üçün konkret tapşırıqlar Nazirlər Kabinetinin qərarında olmalıdır. Ona görə də hesab edirəm ki, təxminən bir həftədən sonra Nazirlər Kabineti bu məsələni öz iclasında xüsusi müzakirə edib qərar qəbul edəcəkdir.

Təbii fəlakətin vurduğu zərəri aradan qaldırmaq üçün çox iş görmək lazımdır. Şübhəsiz ki, bunun üçün xeyli vəsait tələb olunur. İndi mənə təklif veriləcəkdir və mən o təklifə baxacağam, görək haradan, hansı mənbədən nə qədər istifadə edə bilərik ki, bu vəsait təbii fəlakətin vurduğu zərəri ödəmək üçün yönəldilsin. Ancaq hesab edirəm ki, çox işləri yerli hakimiyyət orqanları, nazirliklər, komitələr öz imkanlarından istifadə edərək görə bilərlər. Məsələn, burada deyildi ki, pambıq sahələrinə, taxıl zəmilərinə zərər dəyibdir, başqa bitki əkinlərinə zərər dəyibdir. Bunun üçün yeni bir vəsait qoymaq lazım deyil. Sadəcə, bizim yerli hakimiyyət orqanları, Kənd Təsərrüfatı Nazirliyi konkret iş görməlidirlər ki, əgər müəyyən hektar pambıq itib-batıbsa, demək, başqa sahələrdə pambığın məhsuldarlığını daha da artırmaq lazımdır, diqqət yetirmək lazımdır ki, o itkinin əvəzi verilsin. Əgər bəzi zəmilər yağışdan, doludan məhv olubsa, bizim başqa məhsuldar sahələrimiz var, oradan səmərəli istifadə etmək lazımdır.

Taxıl biçini keçən ilə nisbətən gecikir, istehsal olunmuş taxılın da həcmi keçən ilin müvafiq dövrünə nisbətən azdır. Ancaq bu gün İrşad Əliyev məlumat verdi və keçən görüşümüzdə də demişdi ki, onlar indi taxıl biçinini sürətlə aparırlar. Bu, təkcə kənd təsərrüfatı nazirinin vəzifəsi deyil, buraya toplaşmış yerli hakimiyyət orqanları başçılarının, nümayəndələrinin vəzifəsidir, sizi buna görə dəvət etmişik, – sizin vəzifənizdir. Siz çalışmalısınız ki, tezliklə taxıl biçini qurtarsın. Bu il hamı qeyd edir ki, yaxşı taxıl məhsulu var, – bu taxıl məhsulu toplansın. Dövlətə indi təhvil verilmir, hər halda, [405-406] necə istifadə olunur – o məlumdur. Bu gün ayın 19-udur, beş gün bundan öncə mənə məlumat verdilər ki, Bərdə rayonu artıq taxıl biçinini qurtarıb, 50 min

ton taxıl istehsal edib. Həqiqətən Bərdə rayonunun tarixində bu heç vaxt olmayıbdır. Bərdə rayonunu mən çox yaxşı tanıyıram, onun sahələrini tam yaxşı tanıyıram. O illərdə mən o rayona, demək olar ki, ildə iki dəfə gedərdim. Heç vaxt Bərdədə bu qədər taxıl olmamışdır. Bərdənin ən çiçəklənən dövründə, ən yüksəklərə qalxmış dövründə də bu qədər taxıl olmamışdır. Nə üçün Bərdədə bunu etmək mümkündür. Amma Bərdənin yanındakı Ağcabədidə bunu etmək mümkün deyil, Tərtərdə bunu etmək mümkün deyil, Yevlaxda bunu etmək mümkün deyil, yaxud ondan o biri tərəfə keçən rayonlarda bunu etmək mümkün deyil, – niyə mümkün deyil? Axı iqlimə görə, torpağa görə, havaya görə bu rayonların bir-birindən fərqi çox azdır, bəzən də heç yoxdur. Demək, hər şey işin təşkilindən asılıdır.

Ona görə də mən rayon rəhbərlərindən – həm icra hakimiyyəti başçılarından, həm kənd təsərrüfatı idarələrinin rəhbərlərindən, həm rayonlarda kənd təsərrüfatı işi ilə məşğul olan başqa işçilərdən tələb edirəm ki, bu təbii fəlakətin vurduğu zərəri aradan qaldırmaq üçün, ümumiyyətlə, bu ilin məhsulunu toplamaq üçün işi gücləndirmək lazımdır və bütün sahələrdə – həm taxıl zəmilərində, həm pambıq tarlalarında, həm bostan, meyvə, başqa bitki sahələrinin hamısında işi gücləndirmək lazımdır və məhsulu toplamaq lazımdır. Hesab edirəm ki, burada böyük imkanlar var və xüsusən indi insanlar hiss edəndə ki, artıq bu torpaq da onun özünündür, bu məhsul da onun özünündür və əvvəlki kimi artıq tədarük planı yoxdur, o sərbəstdir, özü necə istəyir, elə istifadə edəcəkdir, – belə halda insanlar daha da yaxşı işləyirlər. Bunu mütləq etmək lazımdır.

Bir sözlə, təbii fəlakətin vurduğu zərərin böyük bir hissəsini bizim müvafiq dövlət orqanları, hökumət orqanları, yerli hakimiyyət orqanları özləri aradan götürə bilərlər. Təkcə kənd tə[406-407]sərrüfatı sahələrini demirəm, yolların bərpa olunmasını, ayrı-ayrı binaların bərpa olunmasını da nəzərdə tuturam. Gözləmək lazım deyil ki, indi Bakıdan nə qədər vəsait verəcəklər, nə edəcəklər, hərə öz imkanlarından istifadə etməlidir.

Zaqataladan çıxış edən fermer, hesab edirəm ki, çox ağıllı bir söz dedi. Ümumiyyətlə, çox ağsaqqal adamdır, ağıllı çıxış edirdi, amma ağıllı sözlərinin biri də ondan ibarətdir ki, Allah bizə hər şeyi veribdir, eyni zamanda fəlakət də verə bilər. Fəlakət olmamalıydı, indi nə etməli, – bu, təbiətdir. Bəs Allah bizə bu qədər sərvət veribdir, bu qədər gözəl təbiət veribdir, bu qədər torpaqlar veribdir, bu cür yeraltı sərvətlər veribdir. Bunlar olan halda, indi bir fəlakət olubsa, bunun qarşısında biz gərək, necə deyərlər, çəkilək duraq kənarda ki, fəlakət oldu? Fəlakət olub. Həqiqətən, mən son 30 ildə Azərbaycanda bu qədər yağış, bu qədər dolu, bu qədər uzunmüddətli təbii fəlakətin olmasını görməmişdim. Bu, ilk dəfə olan haldır. Ancaq bu, bir Azərbaycana aid deyil. Siz televiziyaya baxırsınız, görürsünüz, başqa ölkələrdə də belə hadisələr var. Avropa ölkələrində nə qədər böyük təbii fəlakətlər var, başqa ölkələrdə. Rusiyada təbii fəlakətlər var, başqalarında var. Elə bir biz deyilik ki! Amma tutaq ki, lap elə bizik, nə olsun? Əlimizi, qolumuzu, qıçımızı çirmələməliyik, fəlakət olan yerlərə getməliyik, bütün imkanlardan istifadə edib onları aradan qaldırmalıyıq. Bu, birinci vəzifə. Xüsusən qaçqınların yaşadıqları yerlərdə. Təkcə Qaçqınlar Komitəsi yox, hər bir rayon rəhbəri bilsin ki, qaçqınların yaşadıqları yerlərdə dəymiş ziyanı tezliklə aradan qaldırmaq lazımdır.

Bizim yollarımıza çox böyük zərər dəyibdir, bilirəm, körpülərimiz dağılıbdır. İndi baxmaq lazımdır, – harada nəyi bərpa etmək olar, harada körpünü necə bərpa etmək olar, harada yolu necə bərpa etmək olar, – baxmaq lazımdır. Yəni burada oturub fikirləşmək ki, yuxarıdan mənə nəsə verəcəklər, ondan sonra edəcəyəm, – belə əhval-ruhiyyə ilə yaşamaq ol[407-408]maz. Bu fəlakət bizim xalqımıza gələn fəlakətdir, hərə öz imkanlarından istifadə edib bu təbii fəlakətin vurduğu ziyanları qısa bir müddətdə aradan qaldırmalıdır. Amma dövlət tərəfindən proqram, yenə də deyirəm, hazırlanır, vəsait ayrılacaqdır və o vəsaitdən də səmərəli istifadə etmək lazımdır.

Bir şey haqqında da xəbərdarlıq etmək istəyirəm. Keçən illərdə mənə belə siqnallar gəlmişdi. Belə təbii fəlakət zamanı bəzi hallarda biz böyük vəsait ayırırıq, sonra o vəsaitin bir hissəsini də mənimsəyirlər. Ona görə mən Nazirlər Kabinetinə də göstəriş verirəm – o yerlərə ki, vəsait ayrılacaqdır, onların istifadə olunmasına, icra olunmasına, xüsusən maliyyə vəsaitindən istifadə edilməsinə çox ciddi nəzarət olmalıdır ki, bu fəlakətdən də ayrı-ayrı adamlar öz şəxsi mənafeləri üçün istifadə etməsinlər. Mən bunu ona görə deyirəm ki, keçən illərdə belə hallar olmuşdu, belə siqnallar mənə gəlib çatmışdı.

Beləliklə, bu gün biz iqtisadiyyatımızda, sosial həyatımızda olan vəziyyəti təhlil etdik. Bilirsiniz ki, bu, daim mənim nəzarətim altındadır, mənim diqqət mərkəzimdədir. Bütün başqa işlər şəxsən mənim nə qədər vaxtımı alsa da, Azərbaycanda iqtisadiyyatın vəziyyəti, iqtisadi islahatların həyata keçirilməsi mənim gündəlik işimin mərkəzində duran vəzifədir.

Ancaq eyni zamanda bilirsiniz ki, xarici siyasət sahəsində də və xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində də çox işlər görülür və bunlar da çox vaxt aparır. Ancaq onu deyə bilərəm ki, biz az-az da olsa irəli gedirik. Birincisi, bizim xarici siyasətimizdə dünya miqyasında Azərbaycanın nüfuzunun qalxması, yüksəlməsi – bunlar hamısı sizə artıq məlumdur, bunu siz bilirsiniz. Məsələn, bu ilin birinci yarısını götürsək, mənim neçə-neçə rəsmi səfərlərim olubdur. Yanvar ayında Fransaya rəsmi səfərim olubdur, ondan sonra Ukraynaya rəsmi səfərim olubdur, ondan sonra Türkiyəyə rəsmi səfərim olubdur, ondan sonra Qazaxıstana, Özbəkistana rəsmi səfərlərim olubdur, ondan sonra Ru[408-409]siyaya rəsmi səfərim olubdur. Görürsünüz, altı rəsmi səfər olubdur, hər biri də adi səfər deyil. Hər bir səfər zamanı onlarca dövlətlərarası, hökumətlərarası çox vacib sənədlər imzalanıbdır, müqavilələr imzalanıbdır. Biz respublikamızın

müstəqilliyini təmin etmək üçün nə qədər yeni hüquqi-normativ əsaslar yaratmışıq, hüquqi-normativ sənədlər yaratmışıq. Bu müddətdə Azərbaycana da bir çox rəsmi səfərlər olubdur. Hələ beynəlxalq təşkilatlarda bizim iştirakımızı, yaxud da ki, beynəlxalq təşkilatların nümayəndələrinin Azərbaycana gəlməsini mən demirəm, – bu sahədə də çox işlər görülübdür. Bu işlərin sırasında iqtisadiyyatla bağlı olan ən mühüm məsələ ondan ibarətdir ki, biz neft yataqlarından istifadə olunması, xarici şirkətlərlə müştərək iş aparılması sahəsində də yeni addımlar atmışıq. Bilirsiniz ki, Moskvada olarkən Xəzər dənizinin Azərbaycan sektorunda "Yalama" adlanan bir yatağın Rusiyanın "LUKoyl" Şirkəti ilə müştərək işlənməsi ilə əlaqədar Rusiya prezidentinin və Azərbaycan prezidentinin iştirakı ilə müqavilə imzalandı və bu da say hesabı ilə altıncı müqavilədir. Biz Moskvada olarkən Rusiyanın təklifi ilə Türkmənistan və Azərbaycan sektorlarının sərhədində olan "Kəpəz" neft yatağı haqqında da bir protokol imzaladıq. Doğrudur, bu, sonra Türkmənistan tərəfini hiddətləndirdi, ancaq – biz bunu bəyan etmişik – bu bizim təşəbbüsümüzlə olmayıbdır. Biz bilirik ki. bu yataq sərhəddə yerləşibdir, bunun bir hissəsi Azərbaycan sektorundadır, bir hissəsi Türkmənistan sektorundadır. Vaxtilə ona görə də bu yatağın adı "promejutoçnı" qoyulmuşdu. Rusiyanın həm "LUKoyl", həm də "Transneft" şirkətləri bu yatağa maraq göstərmişdilər, onlar demişdilər ki, bizimlə protokol imzalayırlar, sonra da Türkmənistanla protokol imzalayacaqlar. Ona görə də bu narahatçılıq əsassızdır. Ancaq Rusiya ilə biz böyük bir müqavilə imzaladıq.

Bu ayın axırında mənim Amerikaya rəsmi səfərim olacaqdır. Amerika Birləşmiş Ştatlarının üç şirkəti ilə danışıq[409-410]lar gedir və əgər bu danışıqlar tam başa çatsa, – güman edirəm, başa çatacaq, – onda, ola bilər ki, biz Amerika Birləşmiş Ştatlarında olarkən Amerikanın şirkətlərilə üç yeni böyük müqavilə imzalamalı olduq.

Beləliklə, Azərbaycana xarici investisiyanın gəlməsi günü-gündən artır və bu da bir tərəfdən iqtisadiyyatımız üçün nə qədər əhəmiyyətlidirsə, ikinci tərəfdən – bəlkə də bu rəqəmi heç kəs bilmir, indi Vəkilovun məlumatında belə göstərildi ki, burada işləyən xarici şirkətlərdən alınan vergilər – həm onların özlərinin əmək haqlarından alınan vergilər, həm də onların firmalarından alınan vergilər 6 ay müddətində bizə 170 milyard manat mənfəət veribdir.

Görürsünüz, aparılan işlərin bir çox istiqamətdə nəticələri var. Bunları yəqin ki, bizim iqtisadçılar, siyasətçilər gərək təhlil etsinlər – bunların hansı sahəyə nə qədər böyük əhəmiyyət verdiyini, bizim infrastrukturu nə qədər inkişaf etdirdiyini və ümumiyyətlə, respublikamızın həyatını nə qədər dəyişdirdiyini gərək təhlil etsinlər və nəticə çıxarsınlar. Bununla yanaşı, bu şirkətlər artıq bir milyard dollardan çox birbaşa yatırım, birbaşa sərmayə, birbaşa investisiya qoyub və investisiya qoyuluşu davam edir. Bunlar da bizim beynəlxalq iqtisadi əlaqələrimizin nəticəsidir və hesab edirəm ki, bu əlaqələr də yaxşı istiqamətdə inkişaf edir.

Ancaq bizim hamımız üçün bütün bu səfərlər, görüşlər, danışıqlar – bunlar hamısı əhəmiyyətlidir, yenə də deyirəm, Azərbaycanın beynəlxalq aləmdə mövqelərini günü-gündən möhkəmləndirir. Məsələn, Rusiya ilə Azərbaycan arasında imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə çox əhəmiyyətli müqavilədir. Burada Azərbaycanın müstəqilliyini təmin edən, Azərbaycanın ərazi bütövlüyünü təmin edən müddəalar və ümumiyyətlə, separatçılığa qarşı, bir ölkənin başqa ölkə barəsində güc işlətməsinə [410-411] qarşı bir çox mühüm, dövlət müstəqilliyi üçün lazım olan müddəalar öz əksini tapıbdır.

Ümumiyyətlə, hər bir səfərin özünəməxsus əhəmiyyəti var, qiyməti var. Ancaq mənim Rusiyaya rəsmi səfərim, – bu da Azərbaycan prezidenti kimi Rusiyaya ilk rəsmi səfərim idi, – həm mənа və məzmununa görə, həm danışıqların nəticələrinə görə, həm də imzalanmış sənədlərə görə çox əhəmiyyətlidir, böyük tarixi əhəmiyyət kəsb edən bir səfərdir. Bu səfərin bir əhəmiyyətli cəhəti də ondan ibarətdir ki, Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafına və xüsusən yolun açılmasına, – nəinki dəmir yolunun açılmasına, avtomobil yolunun tamam açılmasına, hətta Volqa-Don kanalından istifadə olunmasına dair sazişlər imzalanıbdır. Ona görə də bu, həm siyasi cəhətdən, həm də iqtisadi cəhətdən çox əhəmiyyətlidir.

Ancaq bütün bu görülən işlərin içərisində bizim üçün ən vacib, ən ümdə məsələ Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması və işğal edilmiş torpaqlarımızın azad olunmasıdır. Mən hesab edirəm ki, bu il bu sahədə də biz müəyyən müsbət nəticələr əldə edirik. Birincisi, zaman keçdikcə, – altı ay keçibdir, – Lissabon zirvə görüşünün, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar orada qəbul olunmuş sənədin Azərbaycan üçün nə qədər böyük tarixi əhəmiyyət kəsb etdiyini indi hamı dərk edir. Doğrudur, xatirinizdədir, o vaxt biz Lissabondan qayıdan kimi bəzi müxalif qüvvələr cürbəcür qəzetlərdə düşünülməmiş yazılar yazdılar, – guya ki, biz orada məğlub olmuşuq, filan olmuşuq – peşməkan olmuşuq. Bizim adamlar da çox narahat oldu. Mən dedim siz narahat olmayın, zaman onların hamısının cavabını verəcəkdir. Zaman da cavabını verdi. O vaxt kim qalib oldu, kim məğlub oldu, – mən bu sözü heç vaxt işlətməmişəm, bu gün də işlətmirəm. Orada qalib-məğlub yoxdur. Ancaq biz orada böyük bir nailiyyət əldə etdik və Ermənistan 54 dövlətin içərisində təcrid olundu. Er[411-412]mənistan Lissabon zirvə görüşündə aldığı yaranın hələ indiyə qədər də ağrısını çəkir.

Mən yenə də deyirəm, biz qarşılıqlı əlaqələr yaradırıq. Bu sülh ancaq iki tərəfin iradəsindən asılı olacaqdır. Ona görə də mən münasibətləri heç də kəskinləşdirmək istəmirəm. Ancaq sadəcə demək istəyirəm ki, Lissabon zirvə görüşü, orada əldə edilən sənəd 1997-ci ildə bu məsələnin sülh yolu ilə həll olunması üçün çox yaxşı əsas yaradıbdır. Ondan sonra Minsk qrupunun həmsədrləri təyin edildi – üç həmsədr: Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa. Bilirsiniz, hələ indiyə qədər heç bir münaqişə olmayıbdır ki, onun həlli üçün üç böyük dövlətin həmsədrliyi ilə belə bir qrup fəaliyyət göstərsin. Onlar özləri bu məsuliyyəti üzərlərinə

götürüblər. Rusiya var idi, amma Amerika Birləşmiş Ştatları, Fransa özləri təşəbbüs göstəriblər. Demək özləri bu məsuliyyəti öz üzərlərinə götürərkən bu münaqişəni həll etmək istəyirlər. Mən bu ilin əvvəlində Parisdə rəsmi səfərdə olarkən Fransa prezidenti cənab Jak Şirakla danışarkən hiss etdim ki, doğrudan da, Fransa nə qədər böyük bir həvəslə bu işə qatılmaq istəyir və bu münaqişənin həll olunmasını istəyir.

Sonra mart ayında mənim Rusiyanın prezidenti ilə görüşüm və nəhayət, son bir ay içərisində, – heç bir ay da deyil, cəmisi 20 gündür, – bu ayın əvvəlindən mən Minsk qrupunun həmsədrləri olan ölkələrin üçünün də dövlət başçıları ilə, prezidentləri ilə görüşmüşəm. İyulun əvvəlində Moskvada prezident Boris Yeltsinlə bu barədə geniş danışıqlar aparmışam və iyulun 8-9-da Madriddə olarkən Amerika prezidenti Bill Klintonla və Fransa prezidenti Jak Şirakla məhz bu məsələ ilə əlaqədar çox əhəmiyyətli danışıqlar aparmışıq. Bu danışıqlar və üç prezidentin qısa bir müddətdə mənimlə görüşləri zamanı eyni fikirləri söyləməsi və onların iyun ayının 20-də Amerika Birləşmiş Ştatlarının Denver şəhərində iqtisadi məsələlərlə məşğul olduqları zaman həmin bu problemin – Dağlıq Qarabağ [412-413] münaqişəsinin həll edilməsi üçün birgə bəyanat verməsi, şübhəsiz, onu göstərir ki, onlar həqiqətən bu işlə ciddi məşğul olmaq istəyirlər.

Yenə də deyirəm, mənim Rusiya prezidenti Boris Yeltsinlə ayın əvvəlindəki görüşüm və 8-9-da Amerikanın və Fransanın prezidentləri ilə görüşlərim, danışıqlarım çox ümidvericidir və onların əməli nəticəsi olaraq dünən Minsk qrupunun həmsədrlərini qəbul etdik, çox ətraflı danışıqlar apardıq. Bilirsiniz ki, Lissabon zirvə görüşündən sonra həmsədrlərin nümayəndələri ilk dəfə iyun ayının 1-də buraya gəlmişdilər. Biz onların təkliflərinə baxdıq, iyunun 14-də onların təkliflərinə öz cavabımızı verdik. Bunun nəticəsində onlar işləmişlər və dünən bizə yeni bir sənəd layihəsi təqdim etdilər. Doğrudur, bu layihə bizi qane etmir. Ancaq əvvəlki layihələrə nisbətən və xüsusən iyun ayının 1-də bizə verilən layihəyə nisbətən burada müsbət dəyişikliklər edilmişdir. Ona görə də biz belə fikir söylədik ki, prinsip etibarı ilə bu layihəni əsas kimi götürə bilərik. Ancaq burada bir çox məsələlər müzakirə olunmalıdır və işlənməlidir. Beləliklə, Lissabon görüşündən sonra Minsk qrupunun fəaliyyəti sürətlənibdir və hesab edirəm ki, bunlar öz nəticəsini verəcəkdir.

Madriddə görüşərkən Amerika prezidenti Bill Klinton və Fransa prezidenti Jak Şirak dedilər ki, mütləq bu il bu məsələnin həll edilməsinə nail olmaq lazımdır. Hesab edirəm ki, bu sözlər də sadəcə deyilməyibdir. Bilirsiniz ki, mən bu ayın axırında Amerika Birləşmiş Ştatlarına rəsmi səfərə gedirəm. Bu, Amerika Birləşmiş Ştatlarına mənim prezident kimi ilk rəsmi səfərim olacaqdır. Ümidvaram ki, biz həm Konqresdə, həm başqa hökumət, dövlət dairələrində, həm Ağ evdə çox və səmərəli görüşlər aparacağıq. Ümid edirəm ki, bizim üçün ən vacib məsələnin – Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barədə biz orada ətraflı müzakirə apara biləcəyik. Ümid edirəm ki, ola bilər, bir irəliləmə də ol[413-414]sun. Hər halda mən həmişə bu ümidlərlə yaşamışam, bu gün də bu ümidlərlə yaşayıram.

Qarşımızda xarici siyasətlə əlaqədar bir çox yeni vəzifələr durur, bir çox görüşlər, ilin ikinci yarısında bir çox ölkələrə səfərlər durur. Mən hesab edirəm ki, bunlar hamısı da müvəffəqiyyətli olacaqdır. Beləliklə, Azərbaycanın xarici siyasəti və xarici siyasət sahəsində atdığımız çox ciddi addımlar, imzalanan sənədlər hamısı birlikdə Azərbaycanın beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirir və Azərbaycan Respublikasının müstəqilliyini daha da dönməz edir, əbədi edir.

Bütün bunlara görə mən ilin ikinci yarısına nikbinliklə baxıram və hesab edirəm ki, biz 1997-ci ili uğurla başa çatdıra bilərik. Ancaq bunun üçün daha da gərgin işləmək lazımdır, bunun üçün mövcud nöqsanları aradan götürmək lazımdır, bunun üçün təbii fəlakətin vurduğu zərəri tezliklə aradan qaldırmaq lazımdır, iqtisadi islahatları daha da sürətlə həyata keçirmək lazımdır.

Bizim xalqımızda, cəmiyyətdə görülən işlərə artıq böyük inam yaranıbdır. Xalqımız, cəmiyyətimiz Azərbaycan dövlətinin daxili və xarici siyasətinə böyük etibar göstərir və böyük ümidlə baxır. Bizim isə vəzifəmiz bu etimadı, bu ümidləri doğrultmaqdan ibarətdir. Bu şərəfli işlərdə sizin hamınıza müvəffəqiyyətlər arzulayıram. Sağ olun. [414-415]

## 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK

Hörmətli mətbuat işçiləri!

Sizi Milli Mətbuat günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan mətbuatı çox zəngin və şərəfli inkişaf yolu keçmiş, xalqımızın həyatının bütün sahələrini, istək və arzularını daim öz səhifələrində əks etdirmiş, milli şüurun, mənəviyyatın, mədəniyyətin formalaşmasına və inkişafına güclü təkan vermişdir.

Hazırda müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan dövlətinin ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, mətbuat və informasiya sahəsində də demokratiya prinsiplərinə dönmədən əməl olunur. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsipləri dövlətin mətbuat-informasiya siyasətinin əsasını təşkil edir.

Jurnalist əməyi qeyri-adi, böyük zəhmət, xüsusi səy tələb edən əməkdir. Dövlət onların əməyini qiymətləndirir, bu sahədə mövcud olan problemləri həll etmək üçün əlindən gələn hər şeyi edir və bundan sonra da edəcəkdir.

Bu gün Azərbaycanda çoxşaxəli mətbuat və informasiya sistemi yaradılmışdır. Hazırda bütün respublika ərazisini əhatə edən yüzlərlə kütləvi informasiya şəbəkəsi, teleradio şirkətləri, qəzet və jurnallar azad surətdə fəaliyyət göstərir, jurnalistika elmi sürətlə inkişaf edir. [415-416]

Bu əlamətdar gündə əmin olmaq istədiyimi bildirirəm ki, Azərbaycan jurnalistləri respublikamızda və onun ətrafında baş verən hadisələrin ictimaiyyətə çatdırılmasında, geniş təhlil edilməsində obyektivlik, yüksək professionallıq, prinsipiallıq, əsl vətəndaşlıq və dövlətçilik mövqeyi nümayiş etdirəcəklər.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 21 iyul 1997-ci il* [416-417]

## İSLAM DİNİNİN BANİSİ HƏZRƏTİ MƏHƏMMƏD ƏLEYHİSSƏLAMIN MÜQƏDDƏS MÖVLUD GÜNÜNDƏ BAKININ ŞIX KƏNDİNDƏ BİBİHEYBƏT MƏSCİDİNİN BƏRPASINA BAŞLANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*23 iyul 1997-ci il*

Hörmətli Şeyxülislam!
Hörmətli müsəlmanlar, bacılar, qardaşlar!

Mən sizi həzrəti peyğəmbər əleyhissəlamın Mövlud günü münasibətilə təbrik edir, sizə, bütün Azərbaycan xalqına, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, səadət arzulayıram.

Bu gün bizim üçün, müsəlmanlar üçün çox əziz gündür, əsrlər boyu müsəlmanların itaət etdiyi islam dininin banisi, yaradıcısı həzrəti Məhəmməd peyğəmbərin Mövlud günüdür. Bu, bizim böyük bayramımızdır. Həzrəti Məhəmməd peyğəmbərin yaratdığı Qurani-şərif, Qurani-kərim neçə əsrlərdir ki, dünya müsəlmanlarının həyat yolunu müəyyən edib, onları yaşadıb, onların bəşəriyyətdə özünəməxsus yer tutmalarını təmin edibdir.

Bu gün biz bu əlamətdar bayrama toplaşarkən tariximizi yad etməli və tariximizə minnətdar olmalıyıq. İslam dini yaranandan indiyə qədər Kürreyi-ərzin insanlarının çox bir hissəsini düz yola, ədalətə, saflığa, paklığa, yüksək mənəviyyata yö[417-418]nəltmiş və onların belə yaşamasını təmin etmiş müqəddəs bir dindir. İslam dini bəşər tarixində misilsiz xidmətlər göstərmiş, insanların, müsəlmanların yüksək mənəvi-əxlaqi dəyərlərə nail olmasını təmin etmiş və bu dinə itaət edən insanları dünyanın bütün əzab-əziyyətlərindən, keşməkeşlərindən keçirib onların yaşayışını təmin etmiş, onları yaşatmışdır.

Biz bu gün müqəddəs bir yerdə toplaşmışıq. Məhz bu müqəddəs yerdə həzrəti Məhəmməd əleyhissəlamın Mövlud gününü qeyd etmək həm bu günə bizim hörmət-ehtiramımızın təzahürüdür, həm də islam dininin yaratdığı abidələrə, mənəvi dəyərlərə hörmət-ehtiramımızın, etiqadımızın, sabitliyimizin təzahürüdür. Biz fəxr edə bilərik ki, islam dini kimi yüksək mənəvi-əxlaqi dəyərlərə mənsub olan dinimiz var, müsəlmanları yaşamaq, yaratmaq, mübarizə aparmaq, öz həyatını qurmaq, azadlığını təmin etmək, torpağını qorumaq yolları ilə məhz islam dini aparıbdır, onun qanunları, tövsiyələri, Qurani-şərifin ayələri, surələri, kəlamları aparıbdır.

Ona görə də bu gün Azərbaycan müsəlmanlarının uzun müddət məhrumiyyətlərdən, çətinliklərdən sonra öz islam dinindən istədiyi kimi istifadə etmək imkanı əldə etməsi tarixi bir hadisədir. Eyni zamanda biz bu gün tariximizdə olan iki faciəvi hadisəni da yad edirik. Birincisi, həzrəti imam Museyi-Kazimin qızı Hökumə xanımın qətlə yetirilməsi, ikincisi isə onun xatirəsinə müsəlmanlar tərəfindən qurulub yaradılmış Bibiheybət məscidinin yetmiş il bundan öncə partladılmasıdır.

Görürsünüz, tarix nə cür qəribə hadisələr meydana çıxarır. Bu da onu göstərir ki, bizim islam dinimiz və onun aparıcıları, onu qoruyub saxlayanlar heç də asan yol keçməyiblər. Dinimizi, mənəviyyatımızı, mənəvi-dini adət-ənənələrimizi qoruyub saxlamaq üçün müsəlmanlar əsrlər boyu nə qədər qurbanlar, şəhidlər veriblər. Ancaq bunların heç birisi bizi həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yolla getməkdən çəkindirə bilməyibdir. Doğrudur, tarixin bəzi mərhələlərində məhru[418-419]miyyətlər də, faciələr də, əzab-əziyyətlər də olubdur. Ancaq görün, bizim müqəddəs islam dininin gücü nədən ibarətdir ki, heç bir şey, heç bir qüvvə, güc onu məğlub edə bilməyibdir.

Əgər vaxtilə Allahsız hökmdar burada Hökümə xanımı qətlə yetiribsə, islama sadiq olan insanlar bu yeri müqəddəs ibadətgaha çeviriblər. Neçə əsr müsəlmanlar buraya, bu müqəddəs yerə ziyarətə gəlib ibadət ediblər, buradan mənəvi qida alıblar, öz həyatlarını qurmaq üçün, yaşamaq üçün güc alıblar və islam dininə sadiq olduqlarını göstəriblər.

Görürsünüz, bəzən faciə ondan sonra, o faciədən sonra meydana çıxan böyük bir abidə doğurur, böyük bir müqəddəs ocaq, ibadətgah, ziyarətgah doğurur.

Bu məscidi, müqəddəs yeri, bu ibadətgahı yetmiş il bundan öncə dağıdanlar böyük cinayət ediblər. Ancaq hamımız bilirik, – əgər məscid də dağılmışdısa, dini də qadağan etməyə çalışmışdılarsa, və etmişdilərsə, insanlar öz məsləkindən, əqidəsindən, dinindən, əxlaqından dönməmişlər. Burada məscid olmamışdır, amma Bibiheybət ibadətgahı, müqəddəs ocaq yaşamışdır. İnsanlar buraya cürbəcür arzularla gəlib – kimi düşdüyü bəladan xilas olmaq üçün ziyarət edib, nəzir verib və təskinlik alıbdır. Allahdan kömək alıbdır. Kimi başına gələn faciəni aradan qaldırmaq üçün buraya gəlibdir. Kimi həyatını xoşbəxt görmək üçün buradan xeyir-dua almaq və əxlaqi dəyərləri mənimsəmək üçün gəlibdir. Buraya gələnlərin hamısı məhz bu yerə inandıqlarına görə gəliblər. Görürsünüz, neçə vaxtdır – 70 il öncə dağılmış bu məscid heç də dağılmayıbdır. Bina dağıdılıb, amma müqəddəs yer dağıdıla bilməyibdir. Keçmiş əsrlərdə də belə olub, bu gün də belədir, gələcəkdə də belə olacaq –

heç bir qüvvə islamın mənəvi dəyərlərini dağıda, poza bilməz. Müvəqqəti çətinliklər, məhrumiyyətlər çoxəsrlik tarixdə kiçik bir dövrdür.

Bax, bunlara görə də bu gün, bu müqəddəs gündə, Məhəmməd peyğəmbərin Mövlud günündə məhz buraya toplaş[419-420]mağımız, bu müqəddəs yerdə bu bayramı qeyd etməyimiz bütün bu fikirlərdən irəli gələn ən gözəl təşəbbüsdür. Ona görə mən çox məmnunam ki, biz bu gün burada toplaşmışıq. Siz də, mən də, hamımız buraya bir amalla, bir fikirlə gəlmişik. Burada dinimizə, müqəddəs ocağımıza və Məhəmməd peyğəmbərin Mövlud gününə öz hörmət-ehtiramımızı bildiririk.

Son illər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, qorunub saxlanmasında, Azərbaycanın başına gələn bəlaların aradan götürülməsində, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün apardığımız işlərdə, bütün başqa işlərdə bizim milli-mənəvi dəyərlərimiz – Azərbaycan xalqının milli-mənəvi dəyərləri, Azərbaycan xalqının mənsub olduğu islam dininin mənəvi dəyərləri bizim üçün həmişə dayaq, ilham mənbəyi olmuş, bizə həmişə güc vermişdir.

Bildiyiniz kimi, son illər Azərbaycanın həyatı çox mürəkkəb bir dövrdür. Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb, ərazimizin bir qismi işğal olunub, işğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız didərgin, qaçqın düşübdür, ağır vəziyyətdə yaşayır. Azərbaycanın başına başqa bəlalar da gəlmişdir. 1990-cı ilin qanlı Yanvar faciəsi, sovet imperiyasının Azərbaycan xalqına qarşı ən dəhşətli hərbi təcavüzü və tökülən qanlar, xalqımızın verdiyi qurbanlar, şəhidlər Azərbaycan xalqının qəlbinə vurulan böyük bir yara olmuşdur.

Bunlarla yanaşı, Azərbaycanın xarici və daxili düşmənləri Azərbaycanın müstəqil dövlət kimi yaşamasının qarşısını almağa çalışmışlar, maneçiliklər törətmişlər və indi də törədirlər. Ancaq biz bunların hamısının öhdəsindən gəlmişik və gələcəyik, hamısının qarşısını almışıq və alacağıq. Azərbaycanın müstəqil yaşaması, Azərbaycanın milli azadlığı, xalqımızın öz taleyinin sahibi olması, özünün milli-mənəvi, dini dəyərlərinə sahib olması tarixi bir hadisədir. Bu, çoxəsrlik tariximizdə bizim əlimizdə böyük bir fürsətdir, böyük bir tarixi mərhələdir. [420-421] Biz bunu qiymətləndirməli, bu tarixi nailiyyətimizi qoruyub saxlamalıyıq.

Ancaq təəssüflər olsun ki, bunun əksinə olan qüvvələr də var. Daxilimizdə də var, eyni zamanda Azərbaycanın müstəqil dövlət kimi yaşamasını istəməyən xarici qüvvələr də var. Çünki Azərbaycan çox mühüm coğrafi-siyasi mövqeyə malik olan dövlətdir, ölkədir, torpaqdır. Azərbaycan zəngin təbii sərvətlərə malik olan ölkədir. Azərbaycan xalqının çoxəsrlik, şanlı tarixi var. Azərbaycanın əsrlərdən-əsrlərə yaranmış, dünya miqyasında özünəməxsus yer tutmuş zəngin mədəniyyəti, elmi var. Bunlar Azərbaycana düşmən olan xarici qüvvələrin gözünə ox kimi batır. Bizə keçmiş illərdə, əsrlərdə düşmən olan qüvvələr yenə də öz niyyətlərindən əl çəkmirlər.

Ona görə də Azərbaycanın milli azadlığının, dövlət müstəqilliyinin qorunub saxlanması mürəkkəb məsələdir, çətin bir vəzifədir. Heç kəs düşünməsin ki, bunlar asanlıqla hasil olan nailiyyətlərdir. Bu, asan deyildir. Çünki, yenə də deyirəm, təəssüflər olsun ki, ölkəmizə mənfi münasibət göstərən qüvvələr az deyildir. Təəssüflər olsun ki, xalqımızın, millətimizin içərisində də öz şəxsi mənafeləri naminə millətin, xalqın ümumi mənafeyini qurban verən və qurban verməyə hazır olan qüvvələr də var. Ancaq bilin, əmin olun, biz bu çətin vəzifələri yerinə yetiririk, bütün bu çətinliklərin öhdəsindən gəlirik və bundan sonra da gələcəyik.

Bütün bu nailiyyətlərin əldə olunmasında xalqın həmrəyliyi, ümummilli birliyi, xalqın müstəqillik, azadlıq amallarına sadiqliyi və Azərbaycan dövlətinin, onun prezidentinin apardığı siyasətə dəstək verməsi bizim bütün nailiyyətlərimizin əsasını təşkil edir. Bu baxımdan Azərbaycanın müsəlmanlarının, yəni din xadimlərinin, din ocaqlarının da bu dövrdə, çətin mərhələdə Azərbaycan dövləti ilə əməkdaşlıq etməsi, onun daxili və xarici siyasətini, apardığı tədbirləri öz vasitələri ilə təbliğ etməsi və bunlara dəstək verməsi bizim üçün böyük dayaqdır. [421-422]

Mən Azərbaycanın ümummilli, ümumxalq birliyi deyərkən bütün qüvvələrin hamısını nəzərdə tuturam. Bu gün demək istəyirəm ki, bu qüvvələr – ümumi birliyi, həmrəyliyi yaradan qüvvələr Azərbaycanda tam əksəriyyəti təşkil edir. Buna zidd olan, yaxud təxribatçılıqla, terrorçuluqla, cürbəcür düşmənçilik meylləri ilə yaşayan, yaxud o cinayətləri etmək istəyən qüvvələr azdır, çox azdır. Amma onlar cinayətkardırlar və gündən-günə ifşa edilirlər, məhv olunurlar. Məhz xalqın nifrəti onları bizim cəmiyyətdən tamamilə vurub çıxarır və təcrid edir.

Ona görə də bu gün, bu müqəddəs gündə, bayram günündə, bu müqəddəs yerdə mən sizi və bütün Azərbaycan xalqını əmin edirəm ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması yolunda biz gecə-gündüz çalışırıq və çalışacağıq. Əminəm ki, işğal edilmiş torpaqlarımız azad olacaq, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək, didərgin düşmüş vətəndaşlarımız öz yerinə-yurduna dönəcəklər və Azərbaycanın suverenliyi tamamilə təmin olunacaqdır. Mən sizi əmin edir və inanıram ki, Azərbaycanın dövlət müstəqilliyi, milli azadlıq prinsipləri gündən-günə möhkəmlənəcək və güclənəcəkdir. Dövlət müstəqilliyimizi sarsıtmaq istəyən heç bir qüvvə bundan sonra da bizim qarşımızı ala bilməyəcəkdir.

Mən əminəm ki, tutduğumuz yolla, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə bundan sonra da sürətlə, əzmlə, cəsarətlə gedəcəyik və Azərbaycanda tam hüquqi, demokratik, insanların bütün azadlıqlarını təmin edən dövlət, cəmiyyət yaratmağa nail ola biləcəyik. Azərbaycanın iqtisadiyyatında

aparılan islahatlar artıq öz nəticələrini verir və bundan sonra daha çox verəcəkdir. Bu islahatlar, iqtisadiyyat sahəsində apardığımız cəsarətli, ağıllı siyasət və tədbirlər Azərbaycanın sosial-iqtisadi vəziyyətini yaxın zamanlarda, qısa bir müddətdə müsbət istiqamətdə dəyişdirəcək, insanların rifah halı gündən-günə yaxşılaşacaqdır. Mən əminəm ki, Azərbaycan müstəqil, azad, demokratik, hüquqi, dünyəvi dövlət [422-423] kimi Dünya Birliyində özünə layiq yerini gündən-günə möhkəmləndirəcək və Azərbaycanın dünya miqyasında hörməti, nüfuzu, adı gündən-günə yüksələcəkdir. Mən buna əminəm.

Dövlət başçısı kimi, mənim üçün başlıca amillərdən biri, əsası da odur ki, indi xalqımız, cəmiyyətimiz birləşib, cəmiyyətdə, xalqda, millətdə həmrəylik hissi yüksəlib və xalqımız, millətimiz, cəmiyyətimiz apardığımız siyasətin hamısını dəstəkləyir.

Eyni zamanda bu gün biz burada, vaxtilə milli adət-ənənələrimizə, mənəvi dəyərlərimizə edilmiş cinayət nəticəsində dağıdılmış məscidin yerində həmin müqəddəs binanın bərpasının əsasını qoyuruq. Mən 1994-cü ildə Qurban bayramı günü buraya həm bu müqəddəs yerə hörmət-ehtiramımı bildirmək, həm də bu işlərə təkan vermək üçün gəlmişdim. Artıq bu işlər gedir və əminəm ki, bundan sonra da gedəcəkdir. Hörmətli Axund dedi ki, bu işlərin görülməsində çətinliklərlə rastlaşırlar, ancaq özləri bu çətinliklərin öhdəsindən gəlirlər. Bu, çox gözəldir. Ancaq mən bu gün elan edirəm ki, bu məscidin tikilməsini və tezliklə başa çatmasını bir prezident kimi öz şəxsi himayəm altına götürürəm. Ona görə də şeyxdən rica edirəm ki, işlərinizi gücləndirəsiniz və mənim tərəfimdən sizə nə kimi yardımlar edilməlidirsə, tezliklə mənə bildirin ki, bu gün verdiyim bəyanatı sizinlə birlikdə tezliklə həyata keçirim və qısa bir zamandan sonra bu məscidin tikilib başa çatdırılmasına nail olaq, yenidən buraya toplaşaq və onun açılış mərasimində birlikdə iştirak edək.

Sizin hamınızı bir daha təbrik edirəm. Həzrəti Məhəmməd peyğəmbərin Mövlud günü münasibətilə təbrik edirəm. Sizin hamınıza, bütün Azərbaycan müsəlmanlarına, bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, səadət arzulayıram.

Allah bütün işlərinizdə sizə yar olsun! Sağ olun. [423-424]

## YUNİSEF-in AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİNİN TƏŞƏBBÜSÜ İLƏ BAKIDA YARADILMIŞ "AZƏRBAYCAN BEYNƏLXALQ GƏNCLƏR POÇT XİDMƏTİ" VƏ "UŞAQLARA KÖMƏK XƏTTİ" XİDMƏTLƏRİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*23 iyul 1997-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün biz buraya BMT-nin YUNİSEF təşkilatının Azərbaycanda gözəl bir təşəbbüsü münasibətilə toplaşmışıq. YUNİSEF, ümumiyyətlə, dünyada xeyirxah işlər görmək, gənclərə qayğı göstərmək, uşaqların problemlərini həll etmək üçün yaranmış təşkilatdır. Mən çox məmnunam ki, bu təşkilat Azərbaycanda kök salıbdır və səmərəli fəaliyyət göstərir. Biz YUNİSEF-in Azərbaycanda gördüyü bir çox dəyərli işlərin şahidi olmuşuq. Ümumiyyətlə, YUNİSEF-in Azərbaycandakı fəaliyyəti bizi çox sevindirir və mən bu fəaliyyəti yüksək qiymətləndirirəm.

Bu gün YUNİSEF uzun müddət hazırlayıb meydana gətirdiyi bir işini bizə təqdim edir. Gənclərin poçt xidmətinin, etimad telefon xəttinin yaranması Azərbaycanda demək olar, yeni bir iş formasıdır. Bu işin çox böyük əhəmiyyəti var. Mən bu işin sosial xarakterini və əhəmiyyətini qeyd etmək istəyirəm.

Bu işin ən böyük xüsusiyyəti ondan ibarətdir ki, o, gənclərə aiddir, gənclərə qayğının təzahürüdür. Nəhayət, fiziki cəhətdən qüsurlu olan, çətinliklərlə rastlaşan gənclərə göstərilən [424-425] qayğı və diqqətin təzahürüdür. Ona görə də bu gün burada təqdim olunan iş, yenə deyirəm, YUNİSEF təşkilatının nə qədər humanist, xeyirxah olduğunu və insanların həyatının ən çətin nöqtələrinə nüfuz etdiyini göstərir. Bunların Uşaq hüquqları Konvensiyası ilə bağlı olması və hamısının birlikdə böyük humanist xarakter daşıması həm YUNİSEF-in fəaliyyətinin, həm də bu gün burada təqdim edilən işin nə qədər dəyərli olduğunu göstərir.

Mən YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin xeyirxah işini – bu gün bizə təqdim etdikləri həm gənclərin poçt xidmətinin, həm də etimad telefon xəttinin yaranmasını təbrik edirəm, bu gözəl işin uğurlu gələcəyinə inanır və uğurlar arzu edirəm.

Hesab edirəm ki, bu iş eyni zamanda Azərbaycanda bu qəbil işlərin hazırlanması, görülməsi və yayılması üçün örnək olacaq və respublikanın həm özəl, həm dövlət sektorundakı şəxslər, təşkilatlar, həm də Azərbaycanda fəaliyyət göstərən şirkətlər, firmalar gələcəkdə belə xeyirxah, gözəl təşəbbüslərlə çıxış edəcəklər.

Təsadüfi deyil ki, bu işin başlanğıcından indiyə qədər, yəni əməli surətdə həyata keçirilməsinə gəlib çatana qədər Azərbaycanda həm xarici ölkələrdən gəlmiş şirkətlər, təşkilatlar, həm də respublikanın dövlət və özəl təşkilatları bu işə kömək göstərmiş, yardım etmişlər. YUNİSEF-in Azərbaycandakı nümayəndəsi cənab Laurenti böyük bir siyahı təşkil edən təşkilatların, idarələrin, nazirliklərin başçılarına öz təşəkkürünü bildirdi. Mən də bu işin yaradılmasında, qurulmasında və bugünkü səviyyəyə gətirilib çatdırılmasında iştirak edən təşkilatların, idarələrin, şəxslərin hamısına təşəkkür edirəm. Şübhəsiz ki, xüsusi minnətdarlıq və təşəkkür YUNİSEF təşkilatına və onun Azərbaycandakı nümayəndəliyinədir. Ümidvaram ki, gördüyü işlərin nəticəsindən ruhlanaraq, YUNİSEF bundan sonra Azərbaycanda öz fəaliyyətini genişləndirəcək və bizi yeni-yeni təşəbbüslərlə sevindirəcəkdir. [425-426]

Azərbaycanda sosial-iqtisadi problemlər çoxdur. Respublikamızın keçid dövrünü yaşaması, Azərbaycana Ermənistan tərəfindən edilən hərbi təcavüz nəticəsində bir milyondan artıq vətəndaşımızın didərgin düşməsi və əksəriyyətinin çadırlarda yaşaması belə problemləri daha da çoxaldıbdır. Biz bu sosial-iqtisadi problemlərin həll olunması, mövcud çətinliklərin aradan qaldırılması, insanların həyat tərzinin, rifah halının yaxşılaşdırılması üçün ardıcıl fəaliyyət göstəririk və bu gün cəsarətlə deyə bilərəm ki, müəyyən nəticələr də əldə edə bilirik. Ancaq bizim hələ ki, beynəlxalq təşkilatların yardımına və indi Azərbaycanda fəaliyyət göstərən çoxsaylı firmaların, şirkətlərin humanitar, xeyirxah əməllərinə ehtiyacımız var.

Bir də qeyd etmək istəyirəm ki, təkcə YUNİSEF təşkilatı tərəfindən deyil, başqa təşkilatlar, xüsusən Azərbaycana humanitar yardım göstərən digər təşkilatlar tərəfindən də, o cümlədən ölkəmizdə fəaliyyət göstərən şirkətlər, ələlxüsus neft şirkətləri tərəfindən əhalinin ayrı-ayrı təbəqələrinə, həyatımızın ayrı-ayrı sahələrinə edilən yardımı, xeyirxah təşəbbüsləri də görürük.

Bunlar hamısı bizi bir-birimizə daha da yaxınlaşdırır, əməkdaşlığımızı daha da inkişaf etdirir və Azərbaycanın həyatında, onun sosial-iqtisadi problemlərinin həll olunmasında yeni bir mərhələ, yeni bir mənzərə yaradır. Bunlar da bugünkü Azərbaycanın gerçəklikləridir, ölkəmizdə gedən müsbət dəyişikliklərin, proseslərin əlamətləridir. Mən tam əminəm ki, bu müsbət proseslər, dəyişikliklər gələcəkdə daha sürətlə inkişaf edəcəkdir.

Dünya ölkələri ilə, beynəlxalq təşkilatlarla bizim əməkdaşlığımız gündən-günə genişlənir və tam əminəm

ki, daha sürətlə inkişaf edəcək və bunlar hamısı yeni, müstəqil, azad Azərbaycanın yaranmasına kömək göstərəcəkdir.

Bu əlamətdar hadisə münasibətilə sizi bir daha təbrik edir və bu gözəl, xeyirxah işdə uğurlar arzulayıram. Sağ olun. [426-427]

Kitabın hazırlanmasında iştirak edənlər:
*Tofiq Babayev, Müzəffər Maşayev,*
*Kamil Muxtarov, Azər Fərzəliyev*

Rəssamı *Fuad Fərəcov*
Redaktorları *Tofiq Babayev, Kamil Muxtarov*
Texniki redaktoru *Zoya Nəcəfova*

"Tayms" qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı № l. Şərti çap vərəqi 29,5.
Uçot nəşr vərəqi 29,5. Tirajı 5000. Sifariş 63. Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi.

Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – 370005, Hüsü Hacıyev küç. 4.

"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.